CƏVAHİRLƏL NEHRU

# ÜMUMDÜNYA TARİXİNƏ NƏZƏR

"ŞƏRQ-QƏRB"
BAKI-2006

*Bu kitab "Cəvahirləl Nehru. Ümumdünya tarixinə nəzər"*
*(Bakı, "Gənclik", 1986) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

*Tərcümə edəni:* **Tahir Paşazadə**

**909-dc22**
**AZE**
**Cəvahirləl Nehru. Ümumdünya tarixinə nəzər.** Bakı, "Şərq-Qərb", 2006, 344 səh.

Bu kitaba Hindistanın görkəmli siyasi və dövlət xadimi, ölkəsinin istiqlaliyyəti uğrunda mübarizənin rəhbərlərindən biri və onun ilk baş naziri Cəvahirləl Nehrunun məhbəsdə olarkən qızı İndira Qandiyə (o, sonralar – 1980–1984-cü illərdə Hindistanın baş naziri olmuşdur) yazdığı məktublar daxil edilmişdir.

Müəllif əsərdə bəşər sivilizasiyasının ikinci dünya müharibəsinə qədər olan tarixinin əsas hadisələrini qısaca şərh edir.

**ISBN10 9952-34-002-8**
**ISBN13 978-9952-34-002-0**

© "ŞƏRQ-QƏRB", 2006

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

## MÜQƏDDİMƏ

"Ümumdünya tarixinə nəzər" kitabı 1930-cu ilin oktyabrı ilə 1933-cü ilin avqustu arasında Hindistanın müxtəlif həbsxanalarında yazılmışdır. Müəllif bu üçillik həbs cəzasına Hindistanın azadlıq mübarizəsində iştirak etdiyinə və öz doğma vətənində Britaniya ağalığına müqavimət göstərdiyinə görə, çıxarılan hökmlərə əsasən məhkum edilmişdi.

Pandit Cəvahirləl Nehru məcburi istirahətindən, özünün dediyi kimi, "asudə vaxtından və tən ğından" ümumdünya tarixi yazmaq üçün istifadə etmişdi. O, "Ümumdünya tarixinə nəzər" kitabını vaxtaşırı həbsxanaya salındığı üçün təhsilinə rəhbərlik etməyə demək olar ki, imkan tapmadığı cavan qızına məktublar şəklində yazmışdı.

Bu məktublar Nehrunun son ikiillik həbsindən qabaq əldə etdiyi qısa müddətli fasilə zamanı bir yerə cəmlənmişdi; 1934-cü il fevralın 12-də o, yenidən həbsə alınıb "pozuculuq fəaliyyətində" ittihamlandırılaraq məhkum olunmuşdu. Həmin məktublar indi (1939-cu il) Aqra və Aud birləşmiş əyalətlərində yerli idarəetmə və səhiyyə naziri olan bacısı möhtərəm Vicayalakşmi Pandit tərəfindən "Ümumdünya tarixinə nəzər" adlı kitab halında 1934-cü ildə nəşrə hazırlanmışdı.

Kitabın adı çox uğurludur. Bu ad kitabın mahiyyətini açıb göstərir. Kitabın birinci hind nəşri tez satılmış və bir müddət satışda olmamışdır. Lakin kitab Hindistanın hüdudları xaricində geniş yayıla bilməmişdi.

Pandit Nehru 1936-cı ildə həbsdən azad edildikdən sonra ictimai fəaliyyətə yenidən başlamışdı. O vaxtdan etibarən Nehru üçün çox məsuliyyətli, gərgin fəaliyyətlə dolu bir dövr başlanmışdı; bədbəxtlikdən, o dövr həmçinin ağır ailə itkiləri dövrü idi. Hindistanda hadisələr sürətlə və coşqun şəkildə inkişaf edirdi. Avropa və bütün dünya kataklizmlər[1] və əzəmətli dəyişikliklər meydanına çevrilmişdi. Müəllif bu böyük hadisələrin – sivilizasiyanın gələcəyi üçün dərin əhəmiyyəti olan hadisələrin – eyni zamanda həm müşahidəçisi, həm də iştirakçısı idi; axı Pandit Nehru cəmiyyətin həyatında elə nadir şəxsiyyətlərdən biri idi ki, onlar öz gərgin fəaliyyətlərini qərəzsiz seyrçiliklə əlaqələndirə bilirlər. Özünün Avropa səyahətləri zamanı o, son vaxtlar Qərb dünyasında baş verən bəzi hadisələri şəxsən müşahidə etmişdi. O, Çində və İspaniyada baş verən mübarizə ilə də bilavasitə yaxından tanış idi.

[1] Kataklizm – yunanca "daşqın". Cəmiyyətdə kəskin, dağıdıcı çevriliş (*tərcüməçinin qeydi*)



Bu kitab bir çox cəhətdən təzədir. Kitab tamamilə yenidən işlənmiş və xeyli dərəcədə təzədən yazılmış, hadisələr müəllifin özü tərəfindən bizim günlərədək, 1938-ci ilin axırınadək çatdırılmışdır. Bu iş həbsxana divarları arasında görülməmişsə də, kitab özünün ilkin obyektivliyindən nəinki məhrum olmamış, əksinə, yeni təcrübə və bilik sayəsində daha da zənginləşmişdir.

"Ümumdünya tarixinə nəzər" son dərəcə dəyərli olub hadisələr barədə sadəcə hekayət deyildir. Eyni zamanda əsər müəllifin şəxsiyyətini əks etdirdiyi üçün də maraqlıdır. C.Nehrunun yüksək intellekti, qavrama incəliyi sayəsində həmin əsər öz xarakterinə görə nadir kitablar sırasında durur. O, böyüməkdə olan uşağa xitabən yazılmış məktublar formasındadır. Kitab sadə və ən səmimi bir dillə yazılmış olsa da, dərin fikirlər və mülahizələrlə doludur. Kitabda hadisələrin şərhində və ya faktların yozulmasında bəsitlik yoxdur.

Naşirlər dünyanın ən geniş oxucu kütlələri üçün əlverişli olsun deyə, bu kitabı çox aşağı qiymətlə buraxmaq qərarına gəlmişlər.

***V.K.Krişna Menon***
*London, may 1939-cu il*

## DÖRDÜNCÜ NƏŞRƏ MÜQƏDDİMƏ

"Ümumdünya tarixinə nəzər" kitabının axırıncı nəşrindən keçən üç ildə Hindistan və bütün dünya tarixi dəyişikliklər, dağıdıcı və eyni zamanda öz xarakterinə və nəticələrinə görə inqilabi dəyişikliklər meydanına çevrilmişdir. Bu səhifələrdə yazılanların çoxu tarixdə ilham və rəhbərlik axtaranlar üçün, xəbərdarlığı eşidib onu düzgün qiymətləndirməyə qabil olanlar üçün indi daha dərin, inandırıcı məna və əhəmiyyət kəsb edir.

Bu kitabda müəllif qarşımızda baş verən hadisələrin mənasını bizə doğru və cəsarətlə açıb göstərən böyük bir tarixçi kimi canlanır. Yeni Hindistanın – azadlığa doğru özünə yol açan və indi isə yeni əzəmətli məsələləri dəyanət və mərdliklə, sakit inamla həll edən Hindistanın ilk baş naziri və sevimli rəhbəri Pandit Cəvahirləl Nehru cari tarixin hadisələri ilə o qədər məşğuldur ki, vaxt tapıb hadisələrin şərhini bizim günlərədək gətirib çıxara bilmir.

Ümidvarıq ki, o, yaxın gələcəkdə, imkan tapıb tarixi izah etmək istedadına bizi və gələcək nəsilləri şərik edəcək. Lakin "Ümumdünya tarixinə nəzər" indiki halında da zəmanəmizin tələblərinə tamamilə cavab verir və bütün dövrlər üçün yazılmış bir kitabdır.

***V.K.Krişna Menon***
*London, may 1948-ci il*



## BİRİNCİ NƏŞRƏ MÜQƏDDİMƏ

Bu məktubların nə vaxt və harada nəşr ediləcəyini bilmirəm. Məktubların, ümumiyyətlə, nəşr olunub-olunmayacağını da bilmirəm. Axı, bizim günlərin Hindistanı qəribə ölkədir, odur ki, qabaqcadan nə isə söz demək çox çətindir. Lakin mən bu sətirləri yazıram, ona görə ki, yazmaq üçün əlimə fürsət düşüb, hadisələr məni qabaqlamayınca yazıram.

Həmin tarixi məktublar silsiləsinə bəraət qazandırmaq və onları izah etmək üçün nəsə demək lazımdır. Məktublarla tanış olmaq zəhmətini öz üzərinə götürəcək oxucular bu bəraəti və izahı, yəqin ki, məktubların özündəcə tapacaqlar. Mən onları xüsusilə sonuncu məktuba baxmağa dəvət edirəm – bəlkə də hər şeyin kəlləmayallaq qoyulduğu bu dünyada axırdan başlamaq daha düzgün olardı.

Məktublar özbaşına yarandı. Mənim xüsusi bir niyyətim olmamışdı və mən heç vaxt düşünməzdim ki, məktublar bu dərəcədə çoxalıb arta bilər. Təqribən altı il əvvəl, qızım on yaşında olanda, mən ona bir sıra məktublar yazdım, onlarda dünya tarixinin başlanğıc dövrünü qısaca və sadəcə nəql etdim. Bu daha erkən yazdığım məktublar sonralar kitab[1] halında çap edilmiş, rəğbətlə qarşılanmışdı. Məktubları davam etdirmək fikrində idim, fəqət mənim həmişə başımın işə qarışması, siyasi fəaliyyətlə dolu həyatım imkan vermirdi ki, bu niyyətim baş tutsun. Həbsxana mənə ehtiyacımda olduğum fürsəti verdi və mən də dərhal o fürsətdən istifadə etdim.

Həbsxana həyatının öz üstünlükləri var. O adama həm asudəlik, həm də bir qədər tənhalıq verir. Amma onun nöqsanları da göz qabağındadır. Məhbusun ixtiyarında kitabxanalar və məlumat kitabları yoxdur, belə şəraitdə isə hər hansı bir mövzu barədə, xüsusilə tarix barədə yazmaq dedikcə cəsarətli işdir. Düzdür, mən bəzi kitabları alırdımsa da, onları özümdə saxlaya bilmirdim. Kitablar bir ucdan gəlir, o biri ucdan gedirdi. Fəqət on iki il əvvəl, mən bir çox həmvətənlərimlə məhbəslərdə əziyyət çəkərkən mütaliə etdiyim kitablardan çıxarışlar yazıb götürməyi vərdiş elədim. Qeyd dəftərçələrimin sayı artdı və mən yazmağa başlarkən o kitabçalar mənim dadıma çatdı. Əlbəttə, digər kitabların da, o cümlədən Herbert C.Uelsin əsla əvəzolunmaz "Bəşəriyyətin qısa tarixi"nin mənə son dərəcə faydası oldu. Amma məlumat nəşrlərinin yoxluğu çox kəskin duyulurdu, bu səbəbdən tez-tez materialı ümumi şəkildə bəyan etmək və ya ayrı-ayrı dövrləri buraxmaq məcburiyyətində qalırdım.

[1] Jawaharlal Nehru. Letters from a father to his daughter being a brief account of the early days of world written for children, 1930.

Məktublar şəxsi xarakter daşıyır və onlarda ancaq qızım üçün xeyli intim cizgilər var. Bilmirəm bunları neyləyim, həmin yerlərin çıxarılması üçün xeyli səy göstərmək lazım gəldiyindən onlara toxunmuram.

Fiziki fəaliyyətsizlik adamın öz hərəkətlərini təhlil etməsi ilə və əhvali-ruhiyyəsinin tez-tez dəyişilməsiylə nəticələnir. Bu məktublarda hal-əhvalın çox aydın duyulmasından və materiala yanaşmaq üsulunun tarixçiyə xas olan şəkildə obyektiv olmadığından ehtiyat edirəm. Mən heç tarixçi olmaq iddiasında da deyiləm. Kitabda gənclər üçün ən asan ifadə arabir yaşlı adamların ideyalarının müzakirəsi ilə uğursuz şəkildə qat-qarışıq salınmışdır. Kitabda çoxlu təkrar var, əlbəttə onun kəsir cəhətlərini saymaqla qurtaran deyil. Həqiqətən, kitab nazik sapla bir-birinə bənd edilmiş səthi oçerklərdən ibarətdir. Faktları və fikirləri müxtəlif kitablardan götürmüşəm, bu zaman məktublara xeyli səhv sıza bilər. Mən bu məktubları səriştəli bir tarixçiyə vermək niyyətindəydim ki, gözdən keçirsin, lakin azadlıqda olduğum həmin qısa müddətdə buna vaxt tapa bilmədim.

Bu məktublarda mən öz fikirlərimi çox vaxt xeyli kəskin şəkildə bildirmişəm. Həmin fikirlərimdən imtina etməsəm də, məktublar yazıldıqca tarixə olan nöqteyi-nəzərim tədricən dəyişilirdi. Bu gün, hərgah həmin məktubları təzədən yazmalı olsaydım, başqa cür yazardım, yaxud başqa anları qabarıq nəzərə çarpdırardım. Lakin mən bu yazılmışları cırıb hər şeyi yenidən başlaya bilmərəm.

***Cəvahirləl Nehru***
*1 yanvar 1934-cü il*



# AD GÜNÜ MÜNASİBƏTİLƏ MƏKTUB

*İndira Priadarşiniyə on üç yaşı tamam olan gündə*

*Naini, Mərkəzi həbsxana, 26 oktyabr[1] 1930-cu il.*

Ad günündə sən hədiyyələr almağa və xoş arzular eşitməyə vərdiş eləmisən. Arzuladığını bu dəfə də tam qaydasınca alacaqsan, fəqət mən sənə Naini həbsxanasından nə hədiyyə yollaya bilərəm? Hədiyyələrim davamlı materiyadan düzəldilə bilməz, yalnız havatək yüngül, fikir və ruhdan toxunmuş hədiyyə ola bilər, o cür hədiyyə ki, onu sənə mərhəmətli pəri bəxş edə bilərdi, o cür hədiyyə ki, onun qabağını heç hündür həbsxana divarı da kəsə bilməz.

Əzizim, sən bilirsən ki, öyüd-nəsihət və xeyirxah məsləhətlər verməkdən heç xoşum gəlmir. Bu cür hərəkət etmək həvəsinə düşəndə vaxtilə "çox müdrik bir adam" barədə oxuduğum əhvalat yadıma düşür. Bəlkə həmin kitabda verilən əhvalatı bir vaxt sən özün də oxuyacaqsan. On üç əsr bundan əvvəl müdriklik və bilik axtaran Syuan Tszan adlı səyyah şimalın səhra və dağlarını aşa-aşa, təhlükələrdən qorxmayaraq, yolda bir çox çətinliklərdən keçə-keçə Çindən Hindistana gəlib çıxır. Onda bilik öyrənməyə bax belə böyük həvəs varmış. O, Hindistanda uzun illər yaşamış, həm öyrənib, həm də öyrədibmiş, ələlxüsus məşhur Nalanda universitetində. O vaxt universitet Patalipütra deyilən, indi Patna adıyla tanınan şəhərin yaxınlığında idi. Syuan Tszanın özü böyük alim olur və "Qanun müəllimi" adı alır – Budda Qanununun. O, Hindistanın hər yerini gəzib-dolaşır, həmin dövrdə bu böyük ölkədə yaşayan adamların həyatını öyrənirdi. Nəticədə özünün səyahətləri barədə kitab yazır. Yadıma düşən əhvalat da elə o kitabdandır. Bu hekayə Cənubi Hindistandan olan bir adam haqqındadır ki, həmin adam Karnasuvarnaya gəlib. Karnasuvarna böyük bir şəhərdi, özü də Bihardakı müasir Bhaqalpurun yaxınlığında idi. Bu adam hekayədə təsvir olunduğu kimi qurşağında mis lövhəciklər gəzdirərdi, başında da yanan məşəl. Qamətini təkəbbürlə şax tutub, əlində də əsa, bu qəribə qiyafədə addımlarını lovğa-lovğa ataraq sərgordanlıq edərdi.

[1] İndiranın doğulduğu gün Qriqori təqvimi üzrə noyabrın 19-dadır. Lakin həmin gün Samvat təqviminə müvafiq oktyabrın 26-da qeyd edilir.

Hərgah birisi ondan soruşsaydı ki, bu cür qəribə geyinməyin səbəbi nədir, cavabında deyərdi: "Mən o qədər müdrikəm ki, qorxuram mis lövhəciklər taxmasam partlayam; başımda məşəl gəzdirməyim də, ətrafımdakı zülmətdə qalan avam camaata ürəyim yandığına görədir".

Mən qəti əminəm ki, müdrikliyin çoxluğundan partlamaq qorxusu başımın üstünü kəsdirib durmur, deməli, mənim nə mis lövhəciklərə ehtiyacım var, nə də zirehə. Hər halda ümidvaram ki, malik olduğum müdrikliyin bir hissəsi qarnımda deyil. Lakin müdriklik harda olur olsun, artarsa, hələ ona çox yer tapıla bilər və elə ola bilməz ki, yer çatışmasın. Hərgah mənim müdrikliyim azdırsa, onda mən özümü necə müdrik qələmə verə bilərəm, başqalarına necə yaxşı məsləhətlər verə bilərəm? Buna görə də mən həmişə bu fikirdə olmuşam ki, nəyin düz olduğunu, nəyinsə düz olmadığını aydınlaşdırmağın ən yaxşı üsulu başqalarına öyüd-nəsihət vermək deyil, söhbət eləməkdir, müzakirə və mübahisə eləməkdir, həqiqətin cüzi hissəsi arabir mübahisədə açıla bilər. Səninlə etdiyim söhbətlərdən xoşum gəlirdi, biz çox şeyi müzakirə edirdik, lakin dünya böyükdür, bizim dünyanın arxasında digər qəribə və sirli dünyalar durur, belə ki, bizlərdən heç birimiz gərək darıxmasın, yaxud Syuan Tszanın nəql etdiyi həmin o çox yelbeyin və şöhrətpərəst adam kimi heç vaxt öyünməsin ki, biz öyrənməli nə varsa hamısını öyrənmişik və xeyli müdrikləşmişik. Bəlkə də elə lap yaxşıdır ki, biz həddən artıq müdrik olmuruq, çünki çox müdrik adamlar (əgər beləleri ümumiyyətlə mövcuddursa) gərək hərdən dərd çəkib desin ki, daha öyrənməli bir şey yoxdur. Onlarda kəşfetmə və yeni şeyi öyrənmə həvəsi – macəralara can atan hər bir kəsin bu böyük macəralardan aldığı sevinc duyğusu gərək əskik olsun.

Buna görə də mən gərək öyüd-nəsihət verməklə məşğul olmayam. Onda bəs mən nə edim? Məktub söhbəti çətin əvəz edə bilsin, məktubda, olsa-olsa, həmsöhbətlərdən birisi fikrini bildirir. Beləliklə, hərgah mən xeyirxah məsləhətə bənzər bir şey söyləmiş olsam, sən onu acı həb kimi udma. Elə təsəvvür et ki, mən adicə olaraq bir fikir söyləmişəm, sən bu fikir üzərində baş sındıra bilərsən, bax belə: elə zənn elə ki, biz doğrudan da söhbət eləmişik və sən də o barədə düşünürsən.

Millətlərin həyatındakı əzəmətli dövrlər haqqında, dahi kişilər və qadınlar haqqında, keçmişdə baş vermiş böyük qəhrəmanlıqlar haqqında tarixdə oxuyarkən biz öz arzu və xəyallarımızda hərdən özümüzü həmin dövrlərə qayıtmış kimi, keçmişin qəhrəmanları və qəhrəman qadınlartək cəsur hünərlər göstərən kimi təsəvvür edirik. Yadındadırmı, Janna d'Arkın tarixini ilk dəfə oxuyarkən o tarix səni necə də valeh etmişdi və sənin ona oxşamaq istəyin necə də dönüb müqəddəs olmuşdu? Adi kişilər və qadınlar adətən qəhrəman olmurlar. Onları düşündürən gündəlik ruzidir, uşaqlarıdır, təsərrüfat qayğısıdır və buna bənzər başqa şeylərdir. Ancaq elə bir vaxt gəlib çatır ki, o zaman bütöv bir xalqın qəlbi böyük əməllər yolunda inamla dolur və bu vaxt ən adi kişilər, qadınlar belə dönüb qəhrəman olur və tarix mühüm hadisələrlə dolğunlaşır. Ulu rəhbərlərdə elə bir cəhət var ki, bütöv bir xalqa ruh verib onu böyük fədakarlıqlara həvəsləndirir.

Sənin doğulduğun il, 1917-ci il tarixdə ən gözəl illərdən biriydi. Bu elə bir il idi ki, qəlbi əzab çəkən yoxsullara məhəbbət və şəfqətlə dolu dahi rəhbər öz xalqını tarixə heç zaman unudulmayacaq nəcib səhifələr yazmağa sövq etdi. Elə sən doğulan həmin ayda Lenin Rusiyanın və Sibirin simasını dəyişdirən böyük inqilaba başladı. Bu gün də Hindistanda həmçinin qəlbi iztirab çəkənlərə məhəbbətlə dolu olan və onlara yardım əli uzatmağı ehtirasla arzulayan başqa bir dahi rəhbər xalqın yenidən azadlığa nail olması naminə, acların, yoxsulların və məzlumların ağır əsarət yükündən xilas olması naminə xalqımızı böyük əməllərə və nəcib qurbanlar verməyə ruhlandırdı. Bapuci[1] həbsxanada yatsa da, onun sehirli sözünün qüdrəti Hindistanın milyon-milyon adamlarının qəlbinə yol tapır, kişilər də, qadınlar da, hətta balaca uşaqlar da özlərinin qapalı aləmciyini tərk edib, Hindistanın azadlıq əsgərlərinə çevrilirlər. Hindistanda bu gün biz tarix yaradırıq, gözlərimiz önündə o tarixin necə baş verdiyini görmək və şəxsən bu böyük səhnədə bir qədər iştirak etmək səadəti sənə də, mənə də nəsib oldu.

Bu böyük hərəkatda biz özümüzü necə göstərəcəyik? Bu böyük hərəkatda hansı rolu oynayacağıq? Əlbəttə, mən deyə bilmərəm ki, bizim nəsibimiz nə olacaq, lakin nəsibimiz necə olursa olsun, gərək yadda saxlayaq ki, bizim işimizə etimadsızlıq yarada biləcək və yaxud xalqımıza şərəfsizlik gətirə biləcək heç bir şeyə yol verə bilmərik. İndi ki, biz Hindistanın əsgərləriyik, deməli, onun şərəfi bizə etibar edilib. Bu etibar isə müqəddəsdir. Çox vaxt qəlbimizdə necə hərəkət etmək barədə şübhə oyana bilər. Nəyin düz olduğunu, nəyinsə düz olmadığını həll etmək asan iş deyil. Səndən xahişim budur ki, qəlbini hər dəfə şübhə çulğayanda özünü bir balaca sına. O sınağın sənə köməyi dəyər. Heç vaxt heç nəyi xəlvətdə eləmə. Elə iş tutma ki, onu

[1] Mahatma Qandi

gizlətmək istəyəsən. Çünki nəyisə gizlətmək istəyi sənin qorxu keçirdiyini bildirir. Qorxu isə pis şeydir və sənə layiq deyil. Ürəkli ol, onda qalanı özü düzələr. Hərgah sən ürəkli olsan, qorxmazsan və elə bir iş tutmazsan ki, səni utandıra. Özün bilirsən ki, Bapucinin rəhbərliyi altında bizim böyük azadlıq hərəkatımızda heç bir sirrə və nəyisə gizlində saxlamağa ehtiyac yoxdur. Bizim gizlədəcəyimiz bir şey yoxdur. Biz nə elədiyimizdən və nə söylədiyimizdən qorxmuruq. Biz günəş işığında çalışırıq. Gəl elə öz şəxsi həyatımızda da günəşə dost olaq. Gəl işıqda çalışaq və xəlvəti bir iş tutmayaq. Əlbəttə, bizim sirrimiz ola bilər və olmalıdır da, lakin bu heç də xəlvət iş görmək deyil. Əzizim, sən bu cür hərəkət etsən, onda hər nə olursa-olsun, sən qorxu bilməz, dinc və soyuqqanlı bir nur övladıtək boy atarsan.

Yazdığım məktub çox uzun çıxdı. Ürəyimdə isə hələ sənə deyilməmiş çox sözüm qaldı. Amma bunların hamısını bir məktuba sığışdırmaq olarmı?

Mən dedim: Azadlıq uğrunda ölkəmizdə gedən böyük mübarizənin şahidi olmaq səadəti sənə müyəssər oldu. Sənin bəxtin həm də onda çox gətirdi ki, sənin anan son dərəcə cəsur, ecazkar bir qadındır. Odur ki, əgər bir vaxt şübhə və qayğı səni narahat edərsə, o vaxt sənə anandan daha yaxşı bir dost arzulaya bilmərəm.

Görüşənədək, körpə balam. Hindistana xidmət üçün böyü, qoçaq əsgər ol.

Səmimi-qəlbdən və ən yaxşı arzularla.

## YENİ İL HƏDİYYƏSİ

*Yeni il günündə, 1931-ci il*

İki il bundan əvvəl, sən Massuridə, mənsə Allahabadda olanda, yazdığım məktublar yadındadırmı? O vaxt mənə dediyinə görə, onlardan xoşun gəlmişdi, buna görə də tez-tez düşünürdüm: görəsən bu məktubları davam etdirimmi, sənə daha çox öz dünyamızdan söhbət açımmı? Mən buna ürək eləmədim.

Dünyanın keçmiş tarixi barədə, dahi kişilər və qadınlar, onların tarixdə söylənən böyük əməlləri barədə dərindən düşünmək çox



maraqlıdır. Tarixi oxumaq yaxşıdırsa, tarix yaratmağa kömək etmək ondan qat-qat maraqlı və əyləncəlidir. Sən yaxşı bilirsən ki, bu gün məhz bizim ölkəmizdə tarix yaranır. Hindistanın keçmişi çox qədim əyyamın dumanlıqlarında əriyib gedir. Onun qəmli və miskin dövrləri qəlbimizdə xəcalət və kədər hissi doğursa da, bütövlükdə götürsək, biz Hindistanın parlaq keçmişi ilə tam əminliklə fəxr edə və onu razılıqla yad edə bilərik. Fəqət keçmişi düşünməyə bu gün asudə vaxtımız azdır. Bizim şüurumuz eyni zamanda gələcəklə, qurub-yaratdığımız gələcəklə məşğuldur. Şüurumuz bütün vaxtımızı və qüvvəmizi sərf etdiyimiz bu günlə də məşğuldur.

Burada, Naini həbsxanasında istədiyimi oxuyub-yazmağa kifayət qədər vaxtım vardı. Lakin xəyalım başqa yerlərdə gəzib dolaşır. Mən həbsxana divarlarından kənarda gedən o böyük mübarizəni düşünürəm; başqaları nə edirlər və əgər mən onlarla olsaydım, nə edərdim. Bu günümüz və gələcəyimiz fikrimi elə çulğalamışdır ki, keçmişi düşünməyə macalım yoxdur. Bununla belə mən hiss etmişəm ki, bunda haqlı deyiləm. Əgər mən məhbəsdən xaricdə aparılan işdə iştirak edə bilmirəmsə, onda özümü üzmək nəyə lazımdır?

Buna baxmayaraq, yazmaqdan əl çəkməyimin əsil səbəbi başqadır. Qulağına deyimmi? Görəsən səni öyrətmək üçün kifayət qədər biliyim varmı? Sən elə tez boy atıb böyüyür və balaca müdrikə çevrilirsən ki, məktəbdə, kollecdə və ondan sonra öyrəndiyimin hamısı sənə bəs etməyə bilər, yaxud hər halda xeyli köhnəlmiş olar. Bir qədər də keçər və iş elə gətirə bilər ki, sən müəllimliyi öz üzərinə götürüb, mənə çoxlu-çoxlu təzə şeylər öyrədərsən! Ötən dəfə, anadan olduğun gün münasibətilə sənə yazdığım kimi, mənim "çox müdrik" - biliyinin çoxluğundan partlamasın deyə, qurşağına mis lövhəciklər keçirib var-gəl edən adama əsla bənzəyişim yoxdur.

Sən Massuridə olanda, mən sənə dünya tarixinin başlanğıc dövrü haqqında heç bir çətinlik çəkmədən yaza bilirdim, çünki o dövr barədə olduqca qeyri-müəyyən biliyə malikik. Lakin o qədim əyyamdan tədricən ayrılıb uzaqlaşdıqca tarix başlanır, yerin müxtəlif guşələrində insanın qəribə yolu başlanır. Həm də insanın bəzən ağıllı, çox vaxt isə ağılsız və səfeh yolunu izləmək asan iş deyil. Kitabların köməyilə insanın keçdiyi yolu izləməyə cəhd etmək olar. Lakin Naini həbsxanasında kitabxana olmadığından dünya tarixinin az-çox əlaqəli şərhini, ürəyim nə qədər istəsə də, qorxuram ki, sənə təklif etmək

iqtidarında olmayam. Oğlan və qızların təkcə bir ölkənin tarixini öyrənmələri mənim heç xoşuma gəlmir. Həm də bu, bəzi tarixlərin bir neçə faktının əzbərlənməsindən başqa bir şey deyil. Fəqət tarix özü əlaqəli vahid tamdır, deməli, dünyanın digər hissələrində nələr baş verdiyini bilmirsənsə, tək bir ölkənin tarixini anlayıb dərk edə bilməzsən. Ümidvaram ki, sən tarixi bir-iki ölkə ilə kifayətlənərək bu cür məhdud şəkildə öyrənməyəcəksən, dünyanı bütövlükdə qavramağa çalışacaqsan. Həmişə yadında saxla ki, müxtəlif xalqlar arasındakı fərq biz təsəvvür edən qədər də böyük deyil. Xəritə və atlaslarda müxtəlif ölkələr cürbəcür rənglərlə boyanmışlar. Şübhəsiz, xalqlar bir-birindən fərqlənirsə də, çox şeylə bənzəyişləri var. Bunu yadda saxlamaq və xəritədəki cürbəcür rənglərin və dövlət sərhədlərinin səni çaşdırmasına imkan verməmək çox vacibdir.

Səndən ötrü ürəyim istəyəntək tarix yaza bilmirəm. Başqa kitablardan istifadə etməlisən. Lakin keçmiş barədə və keçmişdə yaşayıb dünya səhnəsində böyük rol oynayan adamlar barədə arabir sənə bir şey yazaram.

Bilmirəm, məktublarım səni maraqlandıracaqmı, onlar səndə biliyə həvəs oyadacaqmı? Hətta bilmirəm sən onları haçan görəcəksən, heç görəcəksənmi ki! Çox qəribədir: biz bir-birimizə bu qədər yaxın olduğumuz halda, eyni zamanda bu qədər uzağıq! Massuridə sən məndən yüzlərcə mil uzaq idin. Amma mən, istədiyim kimi, sənə tez-tez yaza bilərdim, ürəyimdən səni görmək fikri keçəndə tez yanına gələ bilərdim. Burada isə, bir-birimizdən uzaq olmadığımız, ancaq Camna çayının müxtəlif sahillərində olduğumuz halda, Naini həbsxanasının uca divarları bizi bir-birimizdən ayırdığına görə bir yerdə ola bilmərik. İki həftədə bir dəfə sənə yazmağıma, iki həftədə bir məktub almağıma və iki həftədə bir dəfə səninlə iyirmi dəqiqəlik görüşə icazə verilib. Buna baxmayaraq, bu məhdudiyyətin faydası var. Biz asanlıqla əldə etdiklərimizin qədrini az bilirik. Buna görə də yavaş-yavaş əmin oluram ki, bir müddət həbsxanada qalmaq biliyimi artırmaqdan ötrü çox lazımlıdır. Xoşbəxtlikdən ölkəmizdə indi on minlərcə adam bu yolu keçir.

Məktubları görəndə xoşuna gəlib-gəlməyəcəyini demək çətindir. Lakin mən onları özümün həzz almağım xətrinə yazmağı qət etdim. Onlar səni mənə yaxınlaşdırdığı üçün məndə belə bir hiss yaranır ki, elə bil səninlə söhbət eləmişəm. Mən səni tez-tez anıram, amma bu gün sənin fikrin məni bir an belə tərk etməyib. Bu gün Yeni il günüdür. Səhər tezdən yataqda uzanıb ulduzlara tamaşa edə-edə, ötən əzəmətli il – ümid, əzab və fərəh dolu il barədə edilmiş bütün əzəmətli və rəşadətli igidliklər barədə düşünürdüm. Mən İyeravdedəki həbsxana kamerasında ola-ola, özünün sehirli təması ilə ölkəmizə təzədən gənclik təravəti və qüvvə bəxş edən Bapucini düşünürdüm. Mən Dadunu[1] və bir çox başqalarını düşünürdüm. Əlalxüsus da ananı və səni düşünürdüm. Səhərisi xəbər gəldi ki, ananı tutub həbsxanaya salıblar. Məndən ötrü bu, xoş Yeni il hədiyyəsi idi. Bunu çoxdan gözləyirdilər. Buna görə də ananın tam bəxtiyar olduğuna və razı qaldığına şübhəm yoxdur.

*Lakin sən özünü yəqin ki, yalqız hiss edirsən. İki həftədə bir dəfə* ananı görə bilərsən, iki həftədə bir dəfə də məni. Birimizə o birimizdən xəbər çatdıra bilərsən. Fəqət mən qarşımda qələm və kağız oturub səni düşünəcəyəm. Bu vaxt sən mənə səssiz-səmirsiz yaxınlaşacaq və biz bir çox məsələlərdən söhbət açacağıq. Keçmişin xəyalına dalacaq və gələcəyi keçmişdən daha əzəmətli etməyin üsullarını arayacağıq. Onda gəl bu Yeni il günündə qət edək: ilimiz qocalıb gedən vaxtacan biz ona nail olacağıq ki, gələcəyə bəslədiyimiz aydın xəyal bugünkü günə yaxınlaşacaq və biz Hindistanın tarixinə parlaq səhifə yazacağıq.

## TARİXİN İBRƏT DƏRSİ

*5 yanvar 1931-ci il*

Nə yazım sənə, əzizim? Nədən başlayım? Mən keçmişi düşünəndə nəzərlərimdə saysız şəkillər canlanır ki, onlardan bir parası o birilərindən fərqli olaraq uzun müddət gözlərim önündən çəkilmir. Bunlar mənim sevdiyim şəkillərdir. Mən onların önündə xəyala dalır və keçmişin hadisələrini bu gün baş verən hadisələrlə demək olar ki, düşünmədən müqayisəyə başlayıram, onlardan ibrət almağa və onları gələcək üçün əldə rəhbər tutmağa çalışıram. Amma gör rabitəsiz fikirlər və dağınıq surətlərlə dolu olan şüurumuzda necə qəribə qarmaqarışıqlıq hökm sürür, elə bil şəkillərin nizamsız qaydada asıldığı qalereyadasan. Bəlkə də, bunda təqsirkar təkcə biz deyilik. Əlbəttə, bizim çoxumuz hadisələri xəyalən daha çox nizama sala bilərik. Lakin hərdən hadisələrin özü o qədər qəribə olur ki, çətin nizama düşür.

[1] İndiranın babası, Pandit Motilal Nehru

Yadımdadır, bir dəfə sənə yazmışdım ki, tarixin öyrənilməsi dünyanın tərəqqi yolu ilə necə ahəstəcə, lakin dönmədən hərəkət etdiyini, ən adi ibtidai canlıların daha mürəkkəb quruluşlu və daha inkişaf etmiş canlılar tərəfindən necə sıxışdırılıb aradan çıxarıldığını, nəhayət, canlıların ən alisi – insanın necə peyda olduğunu və öz ağlı sayəsində qalan bütün canlılara necə üstün gəldiyini bizə göstərir. İnsanın vəhşilikdən mədəniyyətə doğru inkişafı tarixin mövzusu sayılır. Bəzi məktublarımda mən sənə göstərməyə cəhd etmişəm ki, kooperasiya, yaxud birgə əmək ideyası necə inkişaf edib və nə üçün bizim idealımız ümumi rifahımız naminə birgə əmək olmalıdır. Lakin hərdən keçmişdəki ayrı-ayrı böyük dövrlərə nəzər salarkən çətin inanırsan ki, biz bu ideala az-çox yaxınlaşmışıq, yaxud xeyli mədəniyyətli və qabaqcıl olmuşuq. Elə bu gün də bir ölkə, yaxud bir xalq xudbincəsinə başqa bir xalqın üzərinə hücum çəkəndə və ya onu əzəndə, ya da bir adam o birini istismar edəndə əməkdaşlığa böyük ehtiyac duyulur. Əgər milyonlarca il inkişafdan sonra biz hələ də kamilləşməmiş və bu cür geridə qalmışıqsa, onda özümüzü açıq fikirli və ağıllı məxluq kimi aparmağı öyrənməkdən ötrü bizə nə qədər də uzun vaxt lazımdır. Bəzən tarixin ötən dövrləri; indikindən yaxşı, hətta yüksək tərəqqi səviyyəsinə malik kimi bizə görünən dövrləri barədə oxuduqda, bu, dünyamızın irəliyəmi, yoxsa geriyəmi hərəkət etdiyi barədə bizdə şübhə doğurur. Bizim öz ölkəmizin, şübhəsiz ki, keçmişdə hər cəhətdən indikindən qat-qat yaxşı, parlaq dövrləri olub.

Burası bir həqiqətdir ki, keçmişdə bir çox ölkələrin – Hindistanın, Misirin, Çinin, Yunanıstanın və başqa ölkələrin parlaq dövrləri olubsa da, indi onların xeyli qismi geri qalıb, tənəzzül edib. Bunun özü də bizi mətanət və dəyanətdən məhrum etməməlidir. Dünya o qədər böyükdür ki, bu və ya digər ölkənin müəyyən vaxt ərzində tərəqqi və tənəzzül etməsinin ondan ötrü bütövlükdə əhəmiyyətli fərqi yoxdur.

Hazırda çoxları bizim mədəniyyətin əzəmətiylə və elmimizin yaratdığı möcüzələrlə lovğalanmağa meyil göstərirlər. Əlbəttə, elm möcüzələr yaratmışdır. Görkəmli elm adamları da hörmət və şərəfə layiqdirlər. Amma o kəslər ki, lovğalanırlar, onlar çox nadir hallarda böyük şəxsiyyət ola bilərlər. Həm də unutmaq lazım deyil ki, başqa canlılarla müqayisədə insan bir çox cəhətdən o qədər də böyük tərəqqi etməmişdir. Ola da bilsin ki, bəzi canlılar müəyyən münasibətlərdə hələ də insandan yüksəkdə durur. Bu iddia adama cəfəng görünə bilər, buna görə də onun mənasını anlamayanlar bu iddiaya rişxənd edə bilərlər. Amma sən Meterlingin "Arı həyatı", "Ağ qarışqaların həyatı"



və "Qarışqaların həyatı" əsərlərini yenicə oxuyub qurtarıbsan və bu cücülərdə necə sosial təşkilatın mövcud olması yəqin səni heyran edib. Biz cücülərə saymazyana yanaşırıq. Ən aşağı canlı mövcudata yanaşan kimi yanaşırıq. Bununla belə bu bambalaca məxluq ümumi rifah xatirinə əməkdaşlıq etmək və özünü qurban vermək məharətini insandan qat-qat artıq öyrənmişdir. Mən ağ qarışqalar və onların yoldaşlıq xatirinə özlərini qurban verməlləri haqqında oxuyandan bəri onlara qəlbimdə qızğın duyğu bəsləyirəm. Hərgah cəmiyyətin rifahı naminə qarşılıqlı əməkdaşlıq və həyatını qurban vermə mədəniyyət meyarıdırsa, onda biz deyə bilərik ki, bu cəhətdən qarışqalar insandan üstündür.

Qədim kitablarımızdan birində sanskrit[1] dilində yazılan şeri belə tərcümə etmək olar: "Ailə xatirinə bir adamı, icma xatirinə ailəni, ölkə xatirinə icmanı, Ruh xatirinə bütün bir aləmi qurban ver!" Ruh nə olduğunu bizlərdən çox az adam bilir və ya bu barədə çox az adam söz deyə bilər. Hər kəs bunu öz istədiyitək izah etməkdə ixtiyar sahibidir. Lakin bu sanskrit dilindəki şerin bizə verdiyi ibrət dərsi əslində ümumi rifah naminə əməkdaşlıq və fədakarlıq dərsidir. Biz həqiqi böyüklüyə doğru gedən həmin gözəl yolu Hindistanda uzun müddətdir ki, unutmuşuq, buna görə də süqut etmişik. Lakin həmin yol nəzərlərimiz qarşısında sanki təzədən canlandı və bütün ölkə ayağa qalxdı. Əzab-əziyyətdən qorxmadan, dodaqlarında təbəssüm Hindistanın azadlıq işi uğrunda irəliləyən kişi və qadınları, oğlan və qızları görmək necə də gözəldir! Bəli, onlar sevinə və fərəhlənə bilərlər, axı, onlara əzəmətli bir işə xidmət etmək fərəhi nəsib olmuşdur. Bu səadətə çatan kəslər isə məhz fədakarlıq sevinci də duyurlar. Bu gün biz Hindistanı azad eləməyə cəhd edirik. Bu, böyük bir işdir. Bütün bəşəriyyətin işi isə bundan da böyükdür. Madam ki, biz mübarizəmizin əzablara və səfalətə son qoymağa can atan bütün bəşəriyyətin əzəmətli mübarizəsinin bir hissəsi olduğunu dərk edirik, onda bütün dünyanın tərəqqisinə kömək etməkdə öz payımızı verdiyimizə sevinə bilərik.

Lakin indi sən Anand Bhavanda oturmusan, anan Malakka məhbəsində, mən də ki, burada, Naini məhbəsində. Bir-birimizin yanında olmaq arzusu hərdən üçümüzün də ürəyindən elə bərk keçir ki! Axı, bu doğrudur, elə deyilmi? Lakin sən o günü – hər üçümüzün təzədən görüşəcəyi günü düşün! Mən o günü gözləyəcəyəm. O günü düşünmək məni ruhlandıracaq və bununla da təsəlli tapacağam.

[1] S a n s k r i t – qədim dövrdə və orta əsrlərdə hindlilərin ədəbi dili (*tərcüməçinin qeydi*)

# İNQİLAB ZİNDEBAD![1]

*7 yanvar 1931-ci il*

Priadarşini[2] – gözümün istəklisi, sən mənə bundan da əzizsən, axı, səni görməyi mənə qadağan ediblər! Bu gün əyləşib sənə məktub yazmaq istəyəndə uzaqdan gələn göy gurultusuna bənzər zəif qışqırıq səsi eşitdim. Əvvəlcə sözlərini seçə bilmədim, lakin o sözlər mənə çox tanış gəldiyindən qəlbimdə əks-səda doğururdu. Yavaş-yavaş qışqırıq səsi sanki yaxınlaşıb artdı, tezliklə şübhəm qalmadı: "İnqilab zindebad!", "İnqilab zindebad!" deyə çağırırdılar. Bu mətin haraydan həbsxana divarları titrəyirdi, o harayı eşidərkən qəlbimiz sevinclə dolurdu. Bilmirəm, həbsxanamızın divarlarına bu qədər yaxından bizim döyüş şüarımızı ucadan deyənlər kim idi? Şəhərli kişilərdimi, qadınlardımı, yoxsa kənd əhalisi idimi. Orasını da bilmirəm ki, bunun üçün bəhanə bu gün nə idi. Lakin onlar kim olursa olsun, bizə ürək-dirək verdilər. Cavabında biz də onlara dinməzcə ən yaxşı arzularımızı bildirirdik.

Bəs nə üçün biz "İnqilab zindebad!" deyə çığırırıq? Nə üçün biz bu gün inqilab və böyük dəyişikliklər olmasını istəyirik? Bu gün Hindistan, əlbəttə, böyük dəyişikliklər istəyir. Fəqət hamımızın istədiyi böyük dəyişikliklər baş verdikdə və Hindistan müstəqil olduqda biz rahat dura bilmərik. Dünyada heç bir canlı dəyişmədən qalmır. Bütün təbiət gündən-günə, hər an dəyişir, inkişafdan qalan təkcə ölülərdir ki, hərəkətsiz yatırlar. Axan təzə suyun qabağını kəssən iylənər. İnsanın və ya millətin də həyatı belədir. İstəsək də, istəməsək də biz qocalırıq. Çağa böyüyür, balaca qız olur, balaca qızlar isə böyüyüb yetkin qadın, qarı olurlar. Bu dəyişikliklərə bizim dözməkdən başqa əlacımız qalmır. Lakin dünyanın dəyişdiyini etiraf etmək istəməyən adamlar çoxdur. Onlar özlərinin ağlını qıfıl altda saxlayır və oraya yeni-yeni ideyaların sızmasına yol vermir. Onları düşünmək qədər dəhşətə gətirən heç bir şey yoxdur. Bəs nəticəsi nə olur? Dünya onların istəklərinin əksinə olaraq hərəkətini davam etdirir. Madam ki, bu adamlar və onlar kimiləri dəyişilən şəraitə uyğunlaşmırlar, vaxtaşırı böyük partlayışlar, yüz qırx il əvvəl böyük Fransa inqilabıtək və yaxud on üç il əvvəl Rusiya inqilabıtək böyük inqilablar baş verir. Elə biz də ölkəmizdə indi inqilab dövrü keçiririk. Söz yox ki, biz istiqlaliyyət istəyirik. Lakin biz həm də bundan da çox nə isə istəyirik. İstədiyimiz odur ki, bütün durğun suları təmizləyək, hər yanda saf, təmiz sular axıdaq. Biz bütün çirkabı, bütün yoxsulluğu və səfaləti ölkəmizdən süpürüb bayıra atmalıyıq. Biz xeyli adamın şüurundakı onları düşünməyə qoymayan və onların qarşıdakı əzəmətli işdə əməkdaşlıq etmələrinə maneçilik törədən pərdəni gücümüz çatdıqca aradan qaldırmalıyıq. Bu əzəmətli işdir və yəqin ki, çox vaxt tələb edəcək. Onda gəlin bu işə heç olmazsa yaxşı bir təkan verək. İnqilab zindebad!

Biz öz inqilabımızın astanasındayıq. Gələcəyin nələr gətirəcəyini deyə bilmərik. Amma elə indinin özündə də zəhmətimiz bol-bol səmərə verir. Hindistan qadınlarına bax, onlar hamıdan öndə başlarını dik tutub mübarizəyə gedirlər! Zərif və cəsur, qorxubilməz bu qadınlar bir gör necə də nümunə göstərirlər. Bəs cəsur və gözəl qadınlarımızın çöhrəsini gizlədən, onlardan ötrü və onların ölkəsindən ötrü bir lənət olan o pərdə örtük indi hanı? Məgər o örtük ötən dövrlərin qalıqlarını hifz etdiyimiz muzeylərin sərgilərində özünə layiq yer tutmaq üçün məişətimizdən qeyb olmurmu?

Sən bu oğlan və qız uşaqlarına da bax! Vanlar sena, Bal və Balika sobhaya da bax[1]. Ola bilsin ki, bu uşaqların çoxunun valideyni keçmişdə özünü bir qorxaq, yaxud kölə kimi aparıb. Amma indiki nəslə mənsub uşaqların köləliyə və qorxaqlığa dözməyəcəklərinə kimin şübhəsi ola bilər?

Beləliklə, dəyişikliklərin çarxı fırlanmaqda davam edir. Aşağıda olanlar yuxarı qalxır, yuxarıda olanlar aşağı enir. O çarxın bizim ölkəmizdə də hərəkət etmək çağı gəlib çatıb. Amma bu dəfə biz ona elə bir təkan vermişik ki, onu heç kəs dayandıra bilməz.

İnqilab zindebad!

# ASİYA VƏ AVROPA

*8 yanvar 1931-ci il*

Axırıncı məktubumda demişdim ki, hər şey ara vermədən dəyişir. Doğrudan da məgər tarix dəyişikliklər haqqında hekayət deyilmi? Əgər keçmişdə çox az dəyişiklik baş vermiş olsaydı, onda tarixdə nədən yazmaq olardı!

---

[1] "İnqilab zindebad!" – "Yaşasın inqilab!" deməkdir.

[2] Priadarşini – İndiranın ikinci adı, "gözümün istəklisi" deməkdir.

[1] Təşkilat adlarıdır *(tərcüməçinin qeydi)*

Məktəblərdə və kolleclərdə öyrəndiyimiz tarix az bilik verir. Başqalarında necə olduğunu bilmirəm, amma özüm barədə deyə bilərəm ki, məktəbdə mən bu sahədə çox az bilik aldım. Mən az şey öyrəndim, lap az – Hindistanın tarixi haqqında, azacıq da İngiltərənin tarixi haqqında, hətta Hindistanın tarixi üzrə öyrəndiklərim də çox halda ya düz deyildi və ya təhrif olunmuşdu, yaxud da elə adamlar tərəfindən yazılmışdı ki, onlar ölkəmizə təkəbbürlə baxırdılar. Digər ölkələrin tarixi barədə məndə olduqca dumanlı təsəvvür vardı. Yalnız kollecdən sonra az-maz əsil tarix oxumuşdum. Xoşbəxtlikdən həbsxanalarda olmağım mənə biliyimi təkmilləşdirmək imkanı verdi.

Əvvəlki məktublarımın bəzisində mən sənə Hindistanın qədim mədəniyyəti barədə, dravidlər haqqında və arilərin gəlməsi barədə yazırdım. Arilərin gəlməsindən qabaqkı dövr barədə çox az yazmışdım, çünki o haqqında az bilirdim. Lakin burasını bilmək sənə maraqlı olar ki, son bir neçə ildə Hindistanda çox qədim sivilizasiyanın qalıqları kəşf edilmişdi. Bunlar Mohenco-Daro deyilən yerin yaxınlığındadır. Bəlkə də, beş min illik tarixi olan qalıqları adamlar qazıb çıxarmış və hətta Qədim Misir mumiyalarına bənzər mumiyalar da tapmışlar. Bircə təsəvvürünə gətir! Bunların hamısı arilər gəlməmişdən hələ min il qabaq olmuşdu. O zaman Avropa, görünür, tam vəhşi diyar imiş.

Bu gün Avropa güclü və qüdrətlidir, odur ki, avropalılar özlərini dünyada ən çox inkişaf etmiş və mədəniyyətli insanlar sayırlar. Avropalılar Asiyaya və onun xalqlarına xor baxırlar. Onlar Asiya ölkələrində əllərinə keçəni talayıb aparırlar. Zəmanə necə də dəyişmişdir! Avropaya və Asiyaya əməlli-başlı nəzər salaq. Atlası açsan böyük Asiya qitəsinə bitişik olan kiçik Avropa qitəsini görərsən. İlk baxışda adama o böyük qitənin kiçik davamı kimi görünür. Sən tarix oxuyanda, əmin olacaqsan ki, uzun dövrlər ərzində qərinələr boyu üstünlük Asiyada olmuşdur. Onun xalqları axın-axın hücum çəkərək Avropanı istila etmişdilər. Avropanı viran qoyan da onlar olmuş, Avropanı mədəniləşdirən də. Arilər, skiflər, hunlar, ərəblər, monqollar, türklər – onlar hamısı Asiyadakı yurdlarından çıxaraq, Asiya və Avropa boyu sakin olmuşlar. Asiya onları sanki çəyirtkətək külli miqdarda doğub törədirdi. Avropa Asiya üçün uzun müddət bir növ müstəmləkə olub, müasir Avropanın bir çox xalqları özlərinin mənşəyini Asiyadan gələn həmən işğalçılardan alıblar.



Asiya bütün xəritəni yöndəmsiz bir nəhəngtək bürüyür. Avropa kiçikdir. Fəqət bu, əlbəttə, o demək deyil ki, Asiyanı böyük göstərən onun geniş miqyasıdır və Avropa ayrıca diqqətə layiq deyil. İnsanın və ya ölkənin əzəmətinin ən etibarsız meyarı miqyasdır. Yaxşı bilirik ki, Avropa dünyanın ən kiçik qitəsi olsa da , bu gün böyükdür. Biz onu da bilirik ki, Avropanın bir çox ölkələrinin tarixində parlaq dövrlər olmuşdur. O dövrlər dünyaya elə böyük elm xadimləri bəxş etmişdir ki, onlar özlərinin kəşf və ixtiraları ilə bəşər mədəniyyətinin tərəqqisinə çox böyük kömək etmiş, milyonlarca kişi və qadının həyatını yüngülləşdirmişdir. O dövrlərin böyük yazıçıları, mütəfəkkirləri, rəssamları, musiqiçiləri, eləcə də böyük xadimləri olmuşdur. Avropanın əzəmətini etiraf etməmək axmaqlıq olardı.

Lakin Asiyanın əzəmətini unutmaq özü də axmaqlıqdır. Biz bir qədər Avropanın ehtişamına aludə olmağa və keçmişi unutmağa meyil edirik. Yadda saxlamaq lazımdır ki, harada olursa olsun, hər kəsdən və hər şeydən daha çox dünyaya təsir göstərən böyük ideya rəhbərlərini məhz Asiya yetirmişdir. Başlıca dinlərin böyük banilərini Asiya vermişdir. Dövrümüzdə mövcud olan böyük dinlərin ən qədimi – hinduizmi, əlbəttə, Hindistan yaratmışdır. Eləcə də ona qohum olan və indi Çində, Yaponiyada, Birmada, Tibetdə və Seylonda yayılan böyük buddizm dini də ən qədim dinlərdəndir. Yəhudilərin dini və xristianlıq da Asiya dinləridir, çünki onlar Asiyanın qərb sahili Fələstində əmələ gəlmişdir. Parsların zərdüştilik dini İranda əmələ gəlmişdir, bildiyin kimi islam peyğəmbəri Məhəmməd Məkkədə – Ərəbistanda anadan olmuşdur. Krişna, Budda, Zərdüşt, İsa, Məhəmməd, böyük Çin filosofları Konfutsi və Lao-tszı – Asiyanın böyük xadimlərinin adları ilə bütöv-bütöv səhifələri doldurmaq olardı. Mən sənə qədim qitəmizin keçmişdə bir çox başqa cəhətdən də nə qədər böyük və qüdrətli olduğunu göstərə bilərdim.

Zəmanə necə də dəyişmişdir! Lakin o, bizim gözlərimiz önündə təzədən dəyişir. Tarix, onda bəzən çox sürətli irəliləyiş və partlayışlar dövrlərinin olmasına baxmayaraq, adətən yavaş-yavaş, əsrlər boyu hərəkət edir. Fəqət bu gün Asiyada tarix sürətlə hərəkət edir və qədim qitə uzun-uzadı qəflət yuxusundan sonra oyanır. Bütün dünyanın nəzərləri Asiyaya çevrilmişdir, çünki hər kəs bilir ki, gələcəkdə böyük rolu o oynayacaqdır.

## QƏDİM MƏDƏNİYYƏTLƏR VƏ İRSİMİZ

*9 yanvar 1931-ci il*

Dünən "Bharat"da, hindi dilində çıxan və həftədə iki dəfə bizə xarici aləmdən bəzi xəbərlər verən qəzetdə oxudum ki, Malakka həbsxanasında ananla pis rəftar edirlər. Həm də bildim ki, onu istəyirlər Laknau həbsxanasına göndərsinlər. "Bharat"ın çap etdiyi şayiələr, bəlkə də düz deyil. Lap əgər şübhəli də olsa, o şayiələrdən yaxşı bir şey gözlənilmir. Narahatlığa və əzab-əziyyətə mən özüm asanca qatlaşa bilərəm. Amma bizim üçün əziz olan başqalarının çəkdiyi əzab-əziyyəti, xüsusən də onların halını yüngülləşdirmək üçün əlindən bir iş gələ bilmədiyini düşünmək asan deyil və bundan təsəlli tapa bilmirsən. Buna görə də "Bharat"ın ürəyimə saldığı şübhə məndə anan sarıdan təşviş doğurur. O, qoçaqdır, onda şir ürəyi var, amma cismən zəifdir, mən istəməzdim ki, o daha da zəifləyib üzülsün. Biz nə qədər qoçaq olsaq da, bədənimiz sözümüzə baxmırsa, əlimizdən nə gələr ki? Əgər biz bir işi yaxşı görmək istəyiriksə, gərək bədəncə sağlam, güclü və qüsursuz olaq.

Bəlkə elə yaxşıdır ki, ananı Laknauya yollayırlar. Ola bilsin ki, ora ondan ötrü daha rahat olsun, günü orada daha şən keçsin və Laknau həbsxanasında anana tay-tuş tapılsın. Yəqin Malakka həbsxanasında o yalqızdır. Bununla belə, onun uzaqda olmadığını, bizim həbsxanadan vur-tut dörd-beş mil[1] aralı olduğunu düşünəndə adama xoş gəlirdi. Bu lap sərsəmlik oldu. Bir halda ki, həbsxananın hündür divarları bizi bir-birimizdən ayırır, onda beş mil oldu, ya yüz əlli mil – nə fərqi var?

Bu gün Dadunun Allahabada qayıtdığını və halının yaxşılaşdığını biləndə o qədər sevindim ki! Onun Malakka həbsxanasında anana baş çəkdiyini eşidəndə çox razı qaldım. Bəlkə bəxtim gətirdi, sabah hamınızı gördüm. Axı, sabah mənim görüş günümdür, həbsxanada isə mülaqat-qədin – böyük gündür. Dadunu görmədiyim az qala iki aydır. Ümidvaram onu görəm və əmin olam ki, halı doğrudan da yaxşılaşıb. Çox uzun çəkən bu iki həftədən sonra səni də görərəm. Sən də mənə özün və anan barədə təzə xəbərlər verərsən.

Heyif! Mən nə səfeh şeylər yazıram! Axı, sənə keçmişin tarixindən yazmaq istəyirdim. Gəl çalışaq indini bir müddətə unudaq və iki, ya üç min il geriyə qayıdaq.

[1] Mil – coğrafi mil 7420, dəniz mili isə 1852 metrdir (*tərcüməçinin qeydi*)



Ötən məktublarda sənə Misir haqqında, Krit adasındakı qədim Knoss haqqında bir az yazmışdım. Mən sənə demişdim ki, qədim mədəniyyətlər bu iki ölkədə və İraq, yaxud Mesopotamiya deyilən ölkədə, həmçinin Çində, Hindistanda və Yunanıstanda yaranıb. Ola bilər başqalarına nisbətən Yunanıstanda bir qədər gec yaransın. Beləliklə, Hindistanın mədəniyyəti Misirin, Çinin və İraqın mədəniyyətilə həmyaşdır. Hətta Qədim Yunanıstan da onların yalnız kiçik qardaşı ola bilər. Bəs görəsən bu qədim mədəniyyətlər necə oldu? Knoss daha mövcud deyil. Üç min ildən çoxdur ki, o yoxdur. Daha gənc yunan mədəniyyətinə mənsub olan xalqlar gəlib onu viran etdilər. Misirin qədim mədəniyyəti min illərlə davam edən parlaq tarixdən sonra, böyük ehram və sfinkslərdən başqa, eləcə də böyük məbədlərin xarabalıqlarından, mumiyalarından və s.-dən başqa bir iz qoymadan qeyb oldu. Əlbəttə, Misir ölkəsi yenə də mövcuddur, Nil çayı da qədimdə olduğu kimi ölkənin içərisindən axır, o biri ölkələrdə olduğu kimi, orada da həm kişilər, həm də qadınlar yaşayırlar. Fəqət, bu yeni xalqla onun ölkəsinin qədim mədəniyyəti arasında onları bir-birilə əlaqələndirən cəhət mövcud deyil.

İraq və İran – bir gör o yerlərdə neçə-neçə imperiya tam tərəqqiyə çatmış və bir-birinin də ardınca unudulmuşdur! Babilistan, Assuriya, Xaldey – bunlar hələ ən qədim imperiyalardır. Bəs böyük şəhərlər – Babil və Nineviya! Tövratda[1] Əhd-i Ətiq[2] o xalqlar haqqında hədislərlə[3] doludur. Sonralar bu qədim torpaqda başqa imperiyalar tərəqqi etmişdi. "Min bir gecə"dəki sehirli şəhər Bağdad burda imiş. Fəqət imperiyalar gəldi-gedərdir, ən böyük, ən məğrur krallar və imperatorlar belə dünya səhnəsində sanki bir an çıxış edirlər. Mədəniyyətlərin isə ömrü uzundur. Buna baxmayaraq, Misirdə olduğu kimi, İraqda və İranda da qədim mədəniyyətlər büsbütün qeyb oldu.

Yunanıstan qədimlərdə, əlbəttə, əzəmətli idi, adam elə indinin özündə də onun keçmiş şöhrətinin səhifələrini vərəqlədikcə heyran qalır. Onun gözəl mərmər heykəllərinə tamaşa etdikcə, pərəstiş və heyrət hissi keçiririk, onun qədim ədəbiyyatının gəlib bizə çatan parçalarını heyran-heyran və böyük ehtiramla mütaliə edirik. Haqlı olaraq belə deyirlər ki, müəyyən cəhətdən müasir Avropa Qədim Yunanıstanın

[1] Tövrat – dini kitab (*tərcüməçinin qeydi*)
[2] Əhd-i Ətiq – dini kitab (*tərcüməçinin qeydi*)
[3] Hədis – dini hekayət (*tərcüməçinin qeydi*)

yetirməsidir. Yunan təfəkkürü və yunan adətləri Avropaya gör necə güclü təsir göstərib! Yunanıstanın özünün keçmiş şöhrəti bəs indi hanı? Artıq neçə əsrdir ki, bu qədim mədəniyyət mövcud deyil, o öz yerini başqa mədəniyyətlərə verib. Yunanıstan isə bu gün Avropanın cənub-şərqində vur-tut xırdaca bir ölkədir.

Misir, Knoss, İraq və Yunanıstan qeyb olmuşdur. Onların qədim mədəniyyətləri, Babil və Ninevaya kimi daha mövcud deyil. Bəs görəsən bu dəstəyə mənsub digər iki qədim mədəniyyət necə oldu? Çinə və Hindistana nə oldu? Başqa ölkələrdə olduğu kimi, burada da bir imperiya o birini əvəz edirdi. Burada da çarpışmalar və basqınlar baş verir, külli miqdarda qənimət ələ keçirilir, hər yan talan edilirdi. Hakim sülalələr yüz illərcə hökmranlıq edir, sonra yerlərini o biri sülalələrə verirdi. Bu hadisələrin hamısı, hər yanda olduğu kimi, Hindistan və Çində də baş verirdi. Amma Hindistandan və Çindən başqa, heç yerdə həqiqi mənada mədəniyyət olmamışdır. Bütün dəyişikliyə, döyüşlərə və müdaxilələrə baxmayaraq bu iki ölkədə qədim mədəniyyətlərin əlaqəsi kəsilmirdi. Bu da bir həqiqətdir ki, hər iki ölkə öz əvvəlki mövqeyini xeyli itirmişdi, onların qədim mədəniyyətləri qalın toz qatı altında, bəzən isə hətta əsrlər boyu yığılıb qalan çirk altında batıb qalmışdı. Buna baxmayaraq onlar davam gətirdilər və qədim hind mədəniyyəti hələ indinin özündə də hind həyatının əsasını təşkil edir. İndi dünyada yeni şərait yaranmışdır: müasir gəmilərin, dəmir yollarının, iri-iri zavod və fabriklərin meydana gəlməsi dünyanın simasını dəyişdirdi. Elə hal baş verə bilər, hətta yəqin elə belə də olacaq ki, şərait indi göründüyü kimi, Hindistanın da simasını dəyişdirəcək. Tarixin ilk çağında yaranan və əsrlər boyu ta bizim günlərimizəcən öz varlığını hifz edən hind mədəniyyətinin uzun müddət, fasiləsiz yaşadığını düşünərkən insanı maraq və heyrət bürüyür. Biz Hindistanda bu minilliklərin müəyyən mənada varisiyik. Biz bəlkə də birbaşa qədimlərdə dağ keçidlərindən adlayaraq şimal-qərbdən, sonralar həm Brahmavarta, həm Aryavarta, həm Bharatavarşa, həm də Hindistan adlanan ölkənin ürəyəyatan vadilərinə enmiş adamlardan törəmişik. Görmürsənmi, onlar öz arabaları ilə dağ aşırımlarından aşağıdakı əsrarəngiz torpağa necə enirlər? Sərgüzəştlər axtaran o qoçaqlar qarşıda onları nələr gözlədiyindən qorxmayaraq cəsarətlə irəliləyirdilər. Onları ölüm haqlayanda əsla qorxmadan onu gülə-gülə qarşılayardılar. Lakin onlar həyatı sevirdilər və bilirdilər ki, həyatdan zövq almağın yeganə yolu



qorxubilməzlikdir, məğlubiyyətdən və fəlakətdən çəkinməməkdir. Axı, məğlubiyyət və fəlakət adətən bunlardan qorxmayan şəxslərdən yan keçir. Onları – hey irəli gedə-gedə qəflətən əzəmətlə dəryaya tökülən nəcib Qanqın sahillərinə gedib çıxmış bizim uzaq keçmişdəki əcdadımızı düşün. Çayı görərkən onların qəlbi sevincdən necə də aşıb-daşıbmış, onlar çayın önündə diz çökərək, özlərinin zəngin və lətif dillərində çayı mədh ediblərmiş. Bunda təəccüb ediləcək nə var ki?!

Bütün bu əsrlərin varisi olduğumuzu düşünmək necə də gözəldir! Fəqət biz təkəbbürlülüyə yol verməməliyik: bir halda ki, həmin əsrlərin varisiyik, onda biz yaxşını da, pisi də eyni dərəcədə irs almış oluruq. Hindistandakı indiki irsimizin özündə də pis cəhətlər çoxdur, çox şey var ki, inkişafımıza mane olurdu, nəcib ölkəmizi böyük səfalətə düçar etmişdi, onu özgələrin əlində bir oyuncağa döndərmişdi. Fəqət, biz buna nəhayət verməyi qət etmədikmi?

## ELLİNLƏR

*10 yanvar 1931-ci il*

Sizlərdən heç biriniz görüşməyə gəlmədiniz və *mülaqat-qadin* mənasız bir gün oldu. Bu, məyusluq oldu. Görüşü təxirə salarkən gətirdikləri bəhanə daha pis idi. Bizə demişdilər ki, Dadu kefsizdir. Bundan artıq bir şey öyrənə bilmədik. Bu gün görüşün baş tutmayacağını biləndən sonra öz *çarkhunun* arxasına keçib bir az əyirməklə məşğul oldum. Mən belə hesab edirəm ki, çarkhunun köməyilə əyirmək və *nevar* toxumaq ən gözəl təskinlik vasitəsidir. Belə ki, qəlbini şəkk-şübhə üzəndə əyir!

Axırıncı məktubda biz Avropayla Asiyanı müqayisə edib bir-birinə qarşı qoymuşduq. Gəl indi qədim Avropanı zənn edildiyi kimi, necə varmış qısaca nəzərdən keçirək. Uzun müddət Avropadan bəhs edərkən, Aralıq dənizinin ətrafında yerləşən ölkələri nəzərdə tuturdular, Avropanın o zamankı şimal ölkələri barədə məlumatımız yoxdur. Aralıq dənizi xalqları Almaniyanı, İngiltərəni və Fransanı vəhşi və barbar tayfalarla məskunlaşmış hesab edirdilər. Bu harasıdır, belə hesab edilirmiş ki, əvvəlcə mədəniyyətin yayılması təkcə şərqi Aralıq dənizi ətrafı ölkələrlə məhdudlaşıb. Bildiyin kimi, Misir (söz yox ki, o,

Avropada deyil, Afrikadadır) ilə Knoss irəlidə gedən ilk ölkələr idi. Tədricən Asiyadan arilərin axını olmuş, onlar Yunanıstana və qonşu ölkələrə soxulmuşlar. Onlar bizim qədim yunanlar kimi tanıdığımız və fəxr etdiyimiz yunan-arilərdi. Gəl oradan başlayaq ki, mənim hesabıma görə, onlar bəlkə də özlərindən bir qədər əvvəl Hindistana enmiş arilərdən o qədər də çox fərqlənmirdilər. Lakin nəzərə çarpmadan dəyişiklik baş verir, ari irqinin iki qolu tədricən bir-birindən getdikcə daha çox fərqlənməyə başlayır. Hindistanın daha qədim dravidlər mədəniyyəti, elə bəlkə, qalıqlarını Mohenco-Daroda gördüyümüz mədəniyyət hind arilərinə böyük təsir göstərirdi. Arilər və dravidlər bir-birlərinə çox şey öyrətdilər. Hindistanın vahid mədəniyyəti də elə bu yolla yaradılmışdı.

Yunan-arilər də özlərinin yunan vətənində tərəqqisini gördükləri daha qədim Knoss mədəniyyətinin təsirinə məruz qalmalı idilər. Onlar Knoss mədəniyyətinin təsiri altına düşmələrinə baxmayaraq, Knossu dağıtmış, onun mərkəzdən uzaqlara yayılan mədəniyyətini də xeyli dərəcədə viran edib, xarabalıqlar üzərində öz mədəniyyətlərini yaratmışdılar. Unutmaq olmaz ki, hind ariləri kimi, yunan-ariləri də qədim əyyamda kobud və qəddar hərbçilər idilər. Onlar güclü idilər və qarşılarına çıxan daha mülayim və mədəni xalqları məhv edirdilər.

Beləliklə, Knoss hələ İsa doğulmamışdan təqribən min il əvvəl dağıdılmışdı. Yeni yunanlar da Yunanıstanda və ona yanaşı adalarda məskən salmışdılar. Dəniz yolu ilə Kiçik Asiyanın, Cənubi İtaliyanın və Siciliyanın qərb sahillərinədək, hətta Fransanın cənubunadək gedib çıxmışdılar. Fransadakı Marselin əsasını onlar qoymuşdular, lakin ola bilsin ki, onlar hələ varid olmamış orada Finikiya məskəni varmış. Finikiyalıların Kiçik Asiyanın böyük dənizçi xalqları olduğu gərək ki, yadında ola, onlar ticarət məqsədilə dünyanın hər yerinə gedərdilər. Onlar hətta qədim dövrlərdə İngiltərəyəcən gedib çatmışdılar. O zaman İngiltərə hələ barbar ölkəsi idi. Cəbəllütariq boğazından keçməklə uzun səfər etmək isə, ehtimal ki, çox təhlükəli bir işdir.

Yunanıstanın materik hissəsində Afina, Sparta, Fiva və Korinf kimi məşhur şəhərlər ucalmışdı. Erkən dövrün yunanlarını, yaxud ellinləri iki məşhur epik poemada – "İliada" və "Odisseya"da tərənnüm ediblər. Bu iki poema haqqında sənin az-çox məlumatın var. Həmin dastanlar müəyyən dərəcədə bizim iki dastanımıza: "Ramayana" və "Mahabharata"ya oxşardırlar. Rəvayətə görə, onları Homer yazıb. O, kor imiş.



"İliada"da belə nəql edilir ki, Paris gözəl Yelenanı oğurlayıb, özünün Troya şəhərinə aparıb. Yunan padşahları və başçıları Yelenanı geri qaytarmaq üçün Troyanı mühasirəyə alıblar. "Odisseya" Odisseyin və ya Ulissin sərgüzəştlərinin təsviridir, Troya mühasirəsindən sonra geriyə qayıdarkən onun başına gələn əhvalatlardır. Bu balaca Troya şəhəri Kiçik Asiyada idi, sahilə yaxındı. O şəhər indi yoxdur, neçə-neçə yüz il bundan qabaq yox olub. Amma şairin dühası şəhəri ölməz şəhər etmişdi.

Maraqlı burasıdır ki, ellinlər və ya yunanlar yetkinləşdikcə, eyni zamanda, yeni bir dövlət – sonralar Yunanıstanı fəth edərək onun yerini tutan dövlət tədricən yaranırdı. Rəvayətə görə, Romanın da əsası elə təqribən bu zaman qoyulmuşdur. Bir çox yüz illər ərzində bu şəhər dünya meydanında mühüm bir rol oynamamışdı. Lakin sonralar "Dünya ağası" və "Əbədi şəhər" adlandırılan bu böyük şəhərin dünyaya gəlişi xatırlanmağa layiqdir. Romanın bünövrəsinin qoyulması haqqında, şəhərin təməlini qoymuş olan Remin və Romulun oğurlanıb dişi canavar tərəfindən əmizdirilmələri haqqında maraqlı hekayət söylənilir.

Təqribən Romanın əsası qoyulan vaxtlarda, ya ondan azca əvvəl qədim dünyanın başqa bir əzəmətli şəhəri salınmışdı. Bu, Afrikanın şimal sahilində, finikiyalılar tərəfindən binası qoyulan Karfagen idi. O, böyük dəniz dövlətinə çevrilmiş, onunla Roma arasında amansız rəqabət başlamış, nəticədə çoxlu müharibələr baş vermişdi. Nəhayət, Roma zəfər çalaraq Karfageni yerlə yeksan etmişdi.

Gəl bu gün söhbətimizi bitirməmişdən qabaq Fələstini də qısaca nəzərdən keçirək. Fələstin, əlbəttə, Avropada deyil, onun elə böyük tarixi əhəmiyyəti də yoxdur. Amma Fələstinin tarixi Əhdi-ətiqdə verildiyi üçün onunla maraqlanan çoxdur. Bu, həmin ölkədə yaşamış bəzi yəhudi qəbilələrinin və onların iri qonşu dövlətləri ilə – Babilistanla, Assuriya və Misirlə olan toqquşmalarının tarixidir. Əgər bu tarix yəhudilərin və xristianlığın bir hissəsinə çevrilməsəydi onun haqqında çox az adam bilərdi.

Knossun dağıldığı dövrə yaxın vaxtlarda Fələstinin bir hissəsi olan İsraildə Saul padşahlıq edirdi. Daha sonralar Davud padşah olub, ondan sonra da özünün böyük müdrikliyilə şöhrət tapan Solomon (Süleyman). Mən bu üç adı ona görə xatırladıram ki, yəqin sən onların barəsində ya eşidibsən, ya da oxuyubsan.

## YUNAN ŞƏHƏR-DÖVLƏTLƏRİ

*11 yanvar 1931-ci il*

Axırıncı məktubumda mən yunanlar, yaxud ellinlər barəsində az-çox danışmışam. Onlara bir də nəzər salaq və onlar haqqında ətraflı təsəvvür əldə etməyə çalışaq. Heç vaxt görmədiyimiz bir əşya, yaxud bir xalq haqqında həqiqətə yaxın təsəvvür əldə etmək bizə əlbəttə ki, çox çətindir. Hazırkı şəraitimizə və həyat tərzimizə o qədər alışmışıq ki, bambaşqa bir dünyanı çətin ki, təsəvvür edə bilək. Amma qədim dünya istər Yunanıstanda olsun, istər Çində, ya da Hindistanda – fərqi yoxdur, müasir dünyadan tamam seçilirdi. Əlimizdən ancaq bu gələ bilər: onların kitablarının, binalarının və digər qalıqlarının köməyilə fərziyyə yürüdək ki, o zamanın adamları necə idi.

Yunanıstana aid bir fakt maraqlıdır. Yunanların görünür, iri səltənət və imperiyalardan xoşları gəlmirdi. Onların xoşladığı kiçik şəhər-dövlətlərdi, başqa sözlə desək, onlarda hər bir şəhər müstəqil dövlətmiş. Bunlar kiçik respublikalar imiş, mərkəzində şəhər yerləşirdi, şəhərin ətrafındakı əkin yerləri onu ərzaqla təmin edirmiş. Bildiyin kimi, respublikada kral olmur. Bu yunan şəhər-dövlətlərində krallar olmasa da dövləti varlı şəhərlilər idarə edərdi. İdarə işlərində adi adamların təsiri cüzi imiş və ya heç yoxmuş. Şəhərlərin idarə edilməsində iştirak etmək hüququ olmayan çoxlu qul var idi. Qadınların da hüququ yoxdu. Belə ki, şəhər-dövlətlərin əhalisinin yalnız bir hissəsi vətəndaş sayılardı və onların ictimai işlərin həllində bir vətəndaş kimi səsvermə hüququ var idi. Səsvermədə iştirak etmək bu vətəndaşlara çətinlik törətməzdi, çünki onların hamısı bir yerə toplaşa bilərdi. Bir hökumət tərəfindən idarə edilən iri ölkədən fərqli olaraq, şəhər-dövlət kiçik olduğu üçün bir yerə toplaşmaq mümkündü. Bircə təsəvvür elə: Hindistanın, yaxud Benqaliya və ya Aqra kimi tək bir əyalətin cəmi seçiciləri bir yerə toplaşıb! Bu, qətiyyən mümkün olan iş deyil! Sonralar digər ölkələr həmin çətinliklərlə rastlaşıb və məsələnin həlli nümayəndəli idarəetmə ilə nəticələnib. Bu o deməkdir ki, ölkə seçiciləri bir məsələni həll etmək üçün bir yerə cəm olmaq əvəzinə, özlərinin nümayəndələrini seçirlər, onlar da toplaşıb ictimai məsələləri müzakirə edir və ölkə üçün qanunlar verirlər. Belə hesab edilir ki, ortabab seçici öz ölkəsinin idarə olunmasında bu üsulla dolayı yolla iştirak edir.



Lakin bu deyilənlərin Yunanıstana heç bir dəxli yoxdur. Yunanıstan şəhər-dövlətdən daha iri dövlətə malik olmadığına görə bu çətin məsələdən yaxa qurtarıb. Yunanlar, sənə dediyim kimi, bütün Yunanıstan boyu, Cənubi İtaliya, Siciliya boyu və Aralıq dənizi sahillərinin digər yerlərində məskən salmış olsalar da, hakimiyyətləri altındakı bütün ölkələr üçün imperiya, yaxud vahid hökumət yaratmaq cəhdi göstərmirdilər. Haralara gəlib çıxırdılarsa, hər yerdə özlərinin ayrı-ayrı şəhər-dövlətlərinin binasını qoyurdular.

Sən gördün ki, qədim dövrlərdə Hindistanda da yunan şəhər-dövlətlərinə çox bənzəyən kiçik respublikalar və padşahlıqlar mövcud idi. Lakin görünür, onların ömrü az olub və iri padşahlıqlar tərəfindən tutulublar. Lakin bununla belə bizim kənd *pançayatları* çox uzun müddət mühüm hakimiyyətə malik ola bilmişlər. Bəlkə də, qədim arilərin ilk niyyəti ayaqları dəyən yerlərdə kiçik şəhər-dövlətləri yaratmaq idi. Fəqət coğrafi şərait və daha qədim mədəniyyətlərlə təmasda bulunmaq yurd saldıqları bir çox ölkədə onları həmin fikirdən tədricən daşındırmışdır. Biz iri-iri dövlətlərin necə yarandığını və imperiyaların necə törədiyini xüsusilə İranda görürük. Lakin Yunanıstanda şəhər-dövlətlər uzun müddət tarixdə məşhur olan bir yunan dünyanı istila etməyə təşəbbüs göstərənədək, yəni dünyanı fəth etmək barədə bizə məlum olan ilk təşəbbüsədək mövcud olmuşlar. Bu, Böyük İsgəndər idi. Sonra onun haqqında bəzi şeylər deməli olacağıq.

Beləliklə, yunanlar özlərinin kiçik şəhər-dövlətlərini iri dövlət, səltənət və ya respublika halında birləşdirməkdən imtina ediblər. Onlar özlərinin sərbəstliyini və istiqlaliyyətini nəinki saxlamış, hətta bir-birlərilə az qala aramsız müharibə ediblər. Aralarındakı böyük rəqabət tez-tez müharibə ilə nəticələnərdi.

Bununla belə, həmin şəhər-dövlətləri tam vahid halında birləşdirən ümumi cəhətlər çox idi. Onların ümumi dili, ümumi mədəniyyəti, həmçinin dini vardı. Onların dini çoxlu tanrılara və ilahələrə pərəstiş etməkdən ibarətdi, qədim hind əsatirlərinə bənzər zəngin və gözəl əsatirləri də vardı. Onlar gözəlliyi ilahiləşdiriblər. Hətta indi də bizim əlimizdə yunanların heyrətamiz gözəlliyə malik mərmər və daş heykəlləri az deyildir. Bədənin sağlam və qəşəng olması zəruratinə inanan yunanlar bu məqsədlə oyun və yarış düzəldərdilər. Belə oyunlar vaxtaşırı olimpiada şəklində Yunanıstanda çox geniş miqyasda keçirilirdi. Tamaşa üçün olimpiadaya Yunanıstanın hər yerindən adamlar toplaşardı.

Yəqin ki, sən indinin özündə də keçirilən Olimpiya oyunları barədə eşidibsən. Onun adı Olimpiadada keçirilən qədim yunan oyunlarından götürülüb. Müxtəlif ölkələrin iştirak etdiyi oyun və yarışları belə adlandırmağa başlamışlar.

Beləliklə, ayrı-ayrı şəhər-dövlətlərdə yaşayan yunanlar oyunlar vaxtı görüşər, bir-birləri ilə döyüşərdilər. Kənardan böyük təhlükə gözlənilən təqdirdə isə birgə mübarizə üçün birləşərdilər. Farsların basqını zamanı da belə olub. Bu haqqında sonra bəzi şeylər söyləyəcəyəm.

## QƏRBİ ASİYADAKI İMPERİYALAR

*13 yanvar 1931-ci il*

Dünən hamınızı görmək yaxşı oldu. Dadunu gördükdə isə sarsıldım. Necə də xəstə və zəif görünürdü. Ona yaxşı-yaxşı baxın, qoy tez sağalıb özünə gəlsin. Dünən sizinlə əməlli-başlı söhbətə macal tapmadım. Axı, qısaca görüşdə nə demək olar? Baş tutmayan görüş və söhbətlərin əvəzini bu məktublarla çıxmağa çalışıram. Bu pis əvəzdir, özünüaldatma isə tez sovuşur. Amma adamın hərdənbir bu oyunu oynaması yaxşıdır; elə xəyal edirsən ki, doğrudan da söhbət edirik.

Qədimdəkilərə qayıdaq. Axırıncı dəfə qədim yunanlarla məşğul olduq. O dövrlərdə başqa ölkələr necə idi. Avropanın o biri ölkələri barədə çox da narahat olmamalıyıq. Biz və o cümlədən mən özüm də onlar haqqında elə maraqlı bir şey bilmirik ki, Şimali Avropanın iqlimi o zaman dəyişirdi, nəticədə yeni şərait yaranmalı idi. Olsun ki, yadındadır: hələ lap çoxdan Şimali Avropada və Şimali Asiyada iqlim olduqca soyuqdu. O dövrə buz dövrü deyərdilər, nəhəng-nəhəng buzlaqlar Mərkəzi Avropayadək gəlib çatardı. O zaman insan, güman ki, yox idi, əgər o, mövcud olsaydı da, onda insandan çox heyvan əlaməti vardı. O dövrlərdə buzlaqlar olduğunu indi iddia etməyimiz, yəqin ki, səni təəccübləndirər. Əlbəttə, kitablarda buzlaqlar haqqında heç bir məlumat qalmayıb; zira o zamanlar nə kitab vardı, nə də yazan. Ümidvaram ki, təbiət kitabı barədə unutmamısan. Təbiət öz tarixini qayalar və daşlar üzərində özünəməxsus tərzdə yazır. Hər kim istəsə onun yazılarını oxuya bilər. Bu, bir növ tərcümeyi-haldır, yəni özününcə tarixidir. Buzlaqlar özlərinin mövcud olmalarının çox səciyyəvi izlərini



qoyurlar. Bu izləri bir dəfə gördünmü, çətin ki, onları başqa bir şeylə qarışıq salasan. O izləri öyrənmək istəyirsənsə, Himalay və Alp dağlarında indi mövcud olan buzlaqlardan birinə getməyin kifayətdir. Alp dağlarındakı Monblan ətrafındakı buzlaqları, axı öz gözlərinlə görübsən. Amma ola bilsin ki, heç kəs sənin diqqətini izlərə cəlb etməyib. Kəşmirdə və Himalay dağlarının başqa rayonlarında da bir xeyli gözəl buzlaq var. Bizə ən yaxın olanı Pindari buzlağıdır ki, oraya Almoradan bir həftəlik yol var. Mən hələ uşaqkən bir dəfə oraya getmişdim. O vaxt mən səndən də balaca idim, amma indiyədək buzlaq yaxşı yadımdadır.

Keçmişin tarixini təsvir etmək əvəzinə xəyal məni Pindari buzlaqlarına çəkib apardı! Bunun hamısı səninlə xəyali söhbət etmək oyununun nəticəsidir. Mümkün qədər elə danışmaq istəyirəm ki, elə bil sən yanımdasan, belə hərəkət edəndə isə hərdənbir mütləq buzlaqlara və başqa yerlərə gedib çıxıram.

Biz buzlaqlardan söhbət açdıq, çünki mən buzlaşma dövrünü xatırlatdım. Biz deyə bilərik ki, buzlaqlar Mərkəzi Avropayadək və İngiltərəyədək gəlib çıxırdı, çünki həmin ölkələrdə buzlağın olmasının səciyyəvi izlərini indi də tapa bilərik. O izləri qədim qayalıqlarda aşkar etmək olar. Bu isə bizi belə düşünməyə vadar edir ki, o zaman bütün Mərkəzi və Şimali Avropada havalar çox soyuq idi. Sonralar hava istiləşdiyindən buzlaqlar yavaş-yavaş geriyə çəkilib. Geoloqlar – yerin tarixini öyrənən adamlar – bizə belə deyirlər ki, bu soyuq dövrün yerini isti dövr tutub. O zaman Avropada indikindən də isti olub. Avropadakı qalın meşələr istinin nəticəsində yaranıb.

Arilər öz səyahətləri zamanı Mərkəzi Avropaya qədər də gedib çıxıblar. Çox güman ki, onlar həmin dövrdə orada elə bir iş görməyiblər. Odur ki, arilərlə hələlik maraqlanmaya bilərik. Yunanıstanın və Aralıq dənizinin mədəni xalqları, ehtimal ki, Mərkəzi və Şimali Avropa xalqlarına barbarlar kimi yanaşırmışlar. Amma bu "barbarlar" öz meşə və kəndlərində sağlam və cəngavər kimi həyat sürərək qeyri-iradi özlərini cənubda daha mədəni xalqlar üzərinə şığıyacaqları və onların dövlətlərini məhv edəcəkləri günə hazırlayırmışlar. Amma bu əhvalat xeyli sonralar baş verdiyindən gəl həmin hadisələri qabaqlamayaq. Hərgah biz Avropa barədə çox az şey biliriksə, onda iri qitələr və yerin geniş əraziləri barədə heç nə bilmirik. Belə hesab edirlər ki, Amerikanı Kolumb kəşf edib. Amma bu o demək deyil ki, indi əmin olduğumuz kimi, Kolumb gəlməzdən əvvəl orada mədəni xalqlar

yaşamayıb. Hər halda, bəhs etdiyimiz o qədim dövrdəki Amerika barədə məlumatımız yoxdur. Afrika qitəsi barədə də əlbəttə, Misiri, habelə Aralıq dənizi sahilini çıxmaq şərtilə heç nə bilmirik. O zamankı Misir, ehtimal ki, öz qədim əzəmətli mədəniyyətinin tənəzzül dövrünü keçirirdi. Bununla belə, Misir o dövrün ən qabaqcıl ölkəsi idi.

İndi görək Asiyada nələr baş verirdi. Sənə məlum olduğu kimi, burada qədim mədəniyyətin üç mərkəzi vardı: Mesopotamiya, Hindistan və Çin.

Mesopotamiyada, İranda və Kiçik Asiyada hətta o dövrdə imperiyalar bir-birinin ardınca yaranır və məhv olurdu. Assuriya, Midiya, Babilistan, daha sonralar isə İran imperiyası oralarda yaranıb. Bu imperiyaların bir-birilə necə müharibə etdiyinin, bir-birini necə məhv etdiyinin və ya arabir dinc yanaşı yaşadıqlarının təfərrüatına varmaq lazım deyil. Yunan şəhər-dövlətləri ilə Qərbi Asiyanın imperiyaları arasındakı fərqi sezə bilərsən. Görünür, bu ölkələrdə böyük imperiyalar yaratmağa ta qədimdən coşqun meyil vardı. Ola bilsin ki, bu, onların daha qədim mədəniyyətə malik olmalarıyla izah edilirdi və yaxud bundan ötrü başqa səbəblər var idi. Səni bəlkə bir ad maraqlandırdı. Krezi deyirəm, onun barəsində, olsun ki, eşidibsən. İngiltərədə geniş yayılmış bir məsəl var, deyərlər: "Krez kimi varlıdır". Krez haqqında, onun necə dövlətli və məğrur olması, necə də alçalması haqqında bəlkə oxumusan. Krez – Lidiya deyilən və Asiyanın qərbində, Kiçik Asiyanın dəniz sahilində yerləşən bu ölkə görünür, xeyli ticarət aparırdı. Krezin zamanında İran imperiyası Kirin (Kuruşun) hakimiyyəti altında genişlənmiş, qüdrətli bir dövlətə çevrilmişdi. Kirlə Krez arasında ixtilaf baş vermiş, nəticədə Kir Krezi məğlubiyyətə uğratmışdır. Bu məğlubiyyətin tarixini, məğrur Krezin bu fəlakət nəticəsində necə dönüb dərrakəli və müdrik bir şəxs olmasını yunan yazıçı-tarixçisi Herodot nəql edir.

Kirin hökmranlıq etdiyi böyük imperiyanın ərazisi şərqdə, ehtimala görə, ta Hindistanadək gedib çıxırdı. Onun varislərindən biri – Dara ondan da geniş imperiyaya sahib idi. Misir, Orta Asiyanın bir hissəsi, hətta Hindistanın Hind çayı hövzəsinin kiçik bir hissəsi də o imperiyanın tərkibində idi. Belə deyirlər ki, həmin hind əyalətindən Daraya bac kimi külli miqdarda tərkibində qızıl olan qum yollayırdılar. O dövrdə, görünür, hind hövzəsində tərkibində qızıl olan qum vardı. İndi orada qızıldan heç əsər-əlamət qalmayıb və diyar özü əsasən səhradır. Bu da iqlimin xeyli dəyişdiyini göstərir.



Tarixi mütaliə edərkən və keçmişdəki şərait barədə fikirləşərkən onu indiki şəraitlə müqayisə elə, bu zaman səni hər şeydən çox Mərkəzi Asiyada baş verən dəyişikliklər maraqlandıracaq. Bu diyardan ortaya çıxmış saysız-hesabsız tayfalar, kişi və qadın dəstələri uzaq qitələrə yayılmışlar. Keçmişdə bu ərazidə mövcud olan böyük, varlı, izdihamlı və qüdrətli şəhərləri indiki böyük Avropa paytaxtları ilə müqayisə etmək olardı; belə şəhərlər indiki Kəlküttədən və Bombeydən çox-çox iri idi. Hər yan bağ-bağatlı, yaşıllığa qərq olmuşdu, iqlimi son dərəcə mülayimdi, nə həddən çox isti idi, nə də həddən çox soyuq. Amma bütün bunlar keçmişdə olub. İndi isə artıq neçə-neçə əsrlərdir ki, o yerlər çılpaq, qonaqsevməz bir diyar, az qala səhradır. Keçmişin əzəmətli şəhərlərindən bəzisi hələ indi də qalıb: Səmərqənd və Buxara, təkcə bu adlar yığın-yığın xatirələr doğursa da, bunlar keçmişdəki şəhərlərin yalnız kölgəsidir.

Lakin mən yenə də çox qabağa qaçıram. Bizim nəzərdən keçirdiyimiz dövrlərdə orada nə Səmərqənd vardı, nə də Buxara. Bu şəhərlər hələ sonralar yaranacaq idi. Mərkəzi Asiyanın əzəməti də, süqutu da hələ irəlidə idi.

## KÖHNƏ ƏNƏNƏLƏRİN AĞIR YÜKÜ

*14 yanvar 1931-ci il*

Həbsxanada məndə qəribə adətlər peyda olub. Bunlardan biri səhər – çox erkən, hələ hava işıqlaşmamış durmaqdır. Buna bu yaydan başlamışam, çünki dan yerinin necə ağardığını, ulduzların yavaş-yavaş necə söndüyünü müşahidə etməkdən xoşum gəlir. Dan yeri sökülməzdən qabaq ay işığını və dan yerinin söküldüyünü heç görübsənmi? Ay işığı ilə şəfəq arasında gedən bu mübarizəni və həmişə də şəfəqin üstün gəldiyini tez-tez müşahidə etmişəm. Qəribə ala-toranlıqda xeyli vaxt ay işığını gəlməkdə olan gün işığından demək olar ki, seçmək olmur. Sonrasa az qala gözlənilmədən şübhələr sovuşur və gün doğur, solğun ay isə məğlub olub meydanı tərk edir.

Ulduzlar hələ göydə parlarkən və sabahın açılması, şəfəqdən qabaq nə isə havada görünən bir şey sezilərkən adətim üzrə yerimdən qalxdım. Mən yerimdə oturub oxuyunca, uzaqdan gələn və getdikcə güclənən

səs və uğultudan sübhün sakitliyi pozuldu. Yadıma düşdü ki, bu gün Sankranti günüdür, Maqhmelanın ilk böyük günüdür, odur ki, minlərlə zəvvar Sanqamda, Qanqla Camnanın görüşdüyü və mövhumata görə, gözəgörünməz Sarasvatinin də onlara qovuşduğu yerdə – səhər dəstəmazı almaq üçün oraya axışırlar. Hələ yol getdikcə şərqi oxuyur, arabir də Qanqı salamlayırdılar: "Qanqa mayi ki cayi!" ("Yaşasın Qanq, ana çay!") bu zaman Naini həbsxanasının divarları arasından onların səsi gəlib qulağıma çatırdı. Səsləri eşidərkən mən bu böyük izdihamı çaya sarı sürükləyən, öz yoxsulluqlarını və məşəqqətlərini onlara müvəqqəti unutduran etiqadın gücü haqqında düşünürdüm. Düşünürdüm ki, bu çayların qovuşduğu yerə, Triveniyə tərəf əsrlər və min illər ərzində ilbəil zəvvarlar necə gedirmişlər. Adamlar gəlib-gedir, hökumətlər və imperiyalar bir müddət hökmranlıqdan sonra keçmişdə qalır, lakin köhnə ənənələr yaşayır, nəsillər bir-birinin ardınca o ənənələrə tabe olurlar. Ənənələrdə yaxşı cəhətlər çoxdur, amma hərdən onlar elə dəhşətli ağır yükə çevrilir ki, o yük irəliyə hərəkətimizi çətinləşdirir. 1300 il əvvəl yazılmış mela haqqında – o vaxtlar artıq köhnə ənənəyə çevrilmiş mela haqqında məlumatları oxuyarkən, zəmanəmizi dumanlı və uzaq keçmişə bağlayan qırılmaz zəncir haqqında fikirdən valeh oluruq. Fəqət, irəliyə doğru hərəkətimizi davam etdirmək istərkən, bu zəncir bizi saxlamağa və az qala ənənələrin əsiri etməyə qabildir. Bizi keçmişə bağlayan bir çox həlqələri hifz etməliyik, amma irəliləyişimizə maneçilik törətdiyi yerdə o ənənələrin əsirliyindən də xilas olmalıyıq.

Son üç məktubda dünyanın 2500-3000 il qabaqkı mənzərəsini təsəvvür etməyə çalışmışdıq. Mən heç bir hadisə üçün tarix-filan göstərməmişdim. Mənim bundan xoşum gəlmir və istəməzdim ki, sən buna çox vaxt sərf edəsən. Bundan başqa, çoxdan ötmüş zamanlardakı hadisələrin dəqiq tarixini müəyyən etmək çətindir. Daha sonrakı dövrlər üçün, bəlkə də arabir bəzi tarixləri göstərmək və yadda saxlamaq lazım gələcək ki, onların köməyi ilə faktları müəyyən qaydada şüurumuzda saxlaya bilək. Hələlik isə qədim dünya haqqında özümüzdə bir təsəvvür yaradaq.

Biz Yunanıstana və Aralıq dənizinə, Misirə, Kiçik Asiyaya və İrana səthi nəzər saldıq. İndi gəlin öz ölkəmizə qayıdaq. Hindistanın qədim tarixini öyrənərkən qarşımızda böyük çətinlik durur, Hindistanda qədim arilər və ya hind ariləri – onları belə adlandırırlar – tarixi yazmaq qayğısında olmamışlar. Bir çox başqa cəhətlərdən onların necə qüdrətli olduğunu əvvəlki məktublarda görmüşdük. Onların yaratdıqları kitablar – Vedalar, Upanişadalar, "Ramayana", "Mahabharata" və qeyriləri yalnız dahi adamlar tərəfindən yaradıla bilərdi. Bu kitablar, eləcə də digər materiallar ötən tarixi öyrənməkdə bizə kömək edir. Onlar bizə əcdadımızın adət və ənənələrindən, təfəkkür tərzindən və həyatından söhbət açır. Amma onlar özlüyündə dəqiq tarix deyillər. Sanskrit dilində yeganə əsil tarix Keşmirin tarixidir ki, xeyli sonralar yazılıb: "Racətərəngini" adlı o əsəri Kalhana yazıb. Burasını bilmək sənə maraqlı olar ki, mən bu məktubu yazarkən, Rancit Pupha[1] bu böyük tarixi sanskrit dilindən tərcümə edir. Az qala yarısını tərcümə edib. Çox iri kitabdır. Tam tərcüməsi çıxanda, biz hamımız, əlbəttə, böyük maraqla oxuyarıq, çünki bədbəxtlikdən, əksəriyyətimiz sanskriti lazımınca bilmirik ki, orijinaldan oxuyaq. Biz onu ona görə oxuyacağıq ki, gözəl kitabdır, həm də o bizə keçmişdən xeyli söhbət açacaq, ələlxüsus da Keşmir haqqında, bildiyin kimi o bizim qədim ana yurdumuz olub.

Arilər Hindistana gələndə, Hindistan artıq mədəni bir ölkə idi. Şimali-qərbdə Mohenco-Daronun qalıqlarından indi aydın olur ki, arilər gəlməmişdən hələ çox-çox əvvəl burada böyük mədəniyyət mövcud idi. Bu haqda, fəqət, məlumatımız hələlik azdır. Yəqin, ən yaxın illərdə, arxeoloqlarımız – qədim dövrlərin qalıqlarının öyrənilməsilə xüsusi məşğul olan adamlar – orada tapılması mümkün olan nə varsa qazıb yerdən çıxardıqdan sonra bizim də məlumatımız artar.

Lakin, hətta bundan da asılı olmayaraq aydındır ki, o zaman dravidlərin Hindistanın cənubunda, elə bəlkə, Şimali Hindistanda da zəngin mədəniyyəti var idi. Onların arilərin sanskrit dilinə qohum olmayan dilləri olduqca qədimdir və bu dillərdə gözəl ədəbiyyat var. Bunlar tamil, teluqu, kənnara və malayalam dilləridir. Bu dillərin hamısı elə indi də Cənubi Hindistanda geniş yayılmışdır. Bəlkə, xəbərin var: Britaniya hökumətindən fərqli olaraq Milli konqres dil prinsipinə əsaslanaraq Hindistanı ayrı-ayrı rayonlara bölür. Bu, daha yaxşıdır, çünki bir dildə danışan və oxşar adətləri olan adamları bir əyalətdə birləşdirirlər. Konqres tərəfindən cənubda ayrılmış əyalətlər bunlardır: Andhradeşa, yaxud Andhra əyaləti, Mədrəs əyalətinin şimalı – orada Teluqu dilində danışırlar; Tamilnad və ya Tamil əyaləti – orada tamil dilində danışırlar; Bombeydən cənuba doğru yerləşən Karnatak – burada kannada və ya kannara dilində danışırlar; Kerala əyaləti: bu

[1] Rancit Pandit S. – müəllifin qohumu, bu vaxt onunla bir yerdə həbsxanada idi.

əyalət təxminən Malabar əyalətinə uyğun gəlir. Malabar əyalətində malayalam dilində danışırlar. Şübhə ola bilməz ki, Hindistanın gələcəkdə əyalətlərə bölgüsündə hər yerin dilinə böyük diqqət veriləcək.

Bu yerdə Hindistanın dilləri barədə bir qədər ətraflı danışmaq yerinə düşərdi. Avropada və başqa yerlərdə bəziləri elə düşünürlər ki, Hindistanda yüzlərcə dil mövcuddur. Bu lap cəfəngiyatdır, kim belə deyirsə, yalnız öz nadanlığını göstərir. Hindistan kimi böyük bir ölkədə, əlbəttə, saysız-hesabsız dialektlər, yeni yayılmış dilin yerli variantları mövcuddur. Ölkənin müxtəlif hissələrində öz ayrıca dilləri olan xeyli dağlı tayfalar və digər xırda qruplar da var: fəqət, Hindistanı bütövlükdə götürsək, bunların böyük əhəmiyyəti yoxdur. Onlar yalnız əhalini siyahıya almaq üçün vacibdir. Hindistanın həqiqi dilləri, elə zənn edirəm ki, əvvəlki məktublarımın birində bu haqda sənə yazmışdım, iki ailəyə, bayaq dediyim dravidlər ailəsinə və hind-ari ailəsinə mənsubdur. Başlıca hind-ari dili sanskrit idi, odur ki, Hindistanın bütün hind-ari dilləri sanskrit dilindən törəmişdir. Bunlar hindi, benqali, qucarati və marathi dilləridir. Bəzi başqa variantlar da mövcuddur. Əssamda əssam dili işlədilir. Orissada və ya Utkalada – oriya dili. Urdu hindinin bir variantıdır. “Hindustani” adı hər iki dili, həm hindi, həm də urdu dillərini bildirir. Deməli, Hindistanın əsas dilləri cəmi ondur: Hindustani, benqali, qucarati, marathi, tamil, teluqu, kannara, malayalam, oriya və əssam. Bu dillərdən bizim ana dilimiz olan Hindustani dilində bütün Şimali Hindistanda – Pəncabda, Birləşmiş əyalətlərdə, Biharda, Mərkəzi əyalətlərdə, Racputanda, Dehlidə və Mərkəzi Hindistanda danışırlar. Bu, təqribən yüz əlli milyon adamın sakin olduğu böyük bir diyardır. Beləliklə, sən görürsən ki, artıq yüz əlli milyon adam Hindustani dilində və bəzi ona yaxın dialektlərdə danışır. Burası da sənə yaxşıca məlumdur ki, Hindistanın əksər hissəsində Hindustani dilini başa düşürlər. Yəqin, o bütün Hindistan üçün ümumi bir dil olacaq. Amma, bu, söz yox, o demək deyil ki, bayaq adlarını çəkdiyim digər əsas dillər yox olmalıdır. Onlar bir əyalət dili kimi, şəksiz, saxlanmalıdır. Çünki həmin dillərdə gözəl ədəbiyyat mövcuddur və yüksək dərəcədə inkişaf etmiş bir dil heç zaman xalqın əlindən alınmamalıdır. Xalqın inkişafı üçün, onun uşaqlarının təlimi üçün yeganə yol açan ana dilidir. Hindistanda bu gün hər şey kəlləmayallaq qoyulmuşdur və bizim hətta öz aramızdakı ünsiyyət vasitəsi də əsasən istifadə etdiyimiz ingilis dilidir. Mənim sənə ingiliscə yazmağımın özü də səhv hərəkətdir, buna baxmayaraq mən belə edirəm. Bu vərdişdən tezliklə xilas olacağımıza ümidvaram.



## QƏDİM HİNDİSTANIN KƏND-RESPUBLİKALARI

*15 yanvar 1931-ci il*

Keçmişin tarixi olan icmalımızı necə davam etdirək? Mən başlıca mövzudan həmişə kənara çıxıram. Axırıncı məktubda, mövzunun şərhinə yenicə girişmək istəyirdim ki, təzədən yayındım və başladım Hindistanın dilləri barədə danışmağa.

Gəl qədim Hindistana qayıdaq. Bilirsən ki, bugünkü Əfqanıstan o zaman da və ondan çox-çox sonralar da Hindistanın bir hissəsi olub, Hindistanın şimal-qərbinə Qandhara deyirlərmiş. Hind və Qanq vadilərinin bütün şimal boyunda arilərin iri məskənləri vardı. Bu ari mühacirlərin tikinti işinə, yəqin, mükəmməl yiyələnmişdilər. Çünki onlardan bir çoxu olsun ki, İranda və Mesopotamiyadakı o dövrlərdən iri-iri şəhərlərin mövcud olduğu yerlərdəki ari məskənlərindən gəlmişdi. Arilərin məntəqələri iri-iri meşələrlə ayrılmışdı. Böyük meşələr xüsusilə Şimali və Cənubi Hindistanı bir-birindən ayırırmış. Arilərin bir xeyli hissəsinin cənubda məskən salmaq xatirinə bu cür meşələri yara-yara gəlməsi ağlasığmazdır. Amma axtarış, ticarət məqsədilə, ya da cənubda ari mədəniyyətini yaymaq niyyətilə uzaqlara gedib çıxan tək-tək adamlar da, yəqin ki, az deyildi. Qədim ənənədən bilirik ki, cənuba yollanan ilk ari rişi (müdrik) Aqastiya idi, o, ari dini və mədəniyyəti barədə xəbəri Dekana çatdırmışdı.

Hindistanla digər ölkələr arasındakı ticarət xeyli tərəqqi tapmışdı. Cənubun istiotu, qızılı və mirvarisi dənizaşırı ölkələrin tacirlərini özünə cəlb edirdi. Güman ki, düyü də ixrac edilirdi. Babilin qədim qəsrlərində Malabardan gətirilmiş Hind palıdı tapılmışdı.

Arilər Hindistanda öz kənd sistemlərini tədricən genişləndirirdilər. Bu, köhnə dravid kəndi ilə yeni ari ideyalarının qarışığı idi. Həmin kəndlər, demək olar, müstəqildi və öz seçkili pançayataları tərəfindən idarə olunurdu. Kəndlərin və ya xırda şəhərlərin bir neçəsi racənin, ya da başçının – bəzi hallarda seçilən, bəzən isə irsən hökmranlıq alan başçının hakimiyyəti altında birləşərdi. Yollar salmaq, əlillər evi tikmək, suvarma kanalları çəkmək və ümumi rifah üçün nəzərdə tutulan digər ictimai tikintilər məqsədilə kəndlərin müxtəlif qrupları tez-tez bir-birlərilə birləşərdilər. Görünür, racə, dövlətdə başlıca şəxs olsa da,

kefi istəyəni eləyə bilmirdi. Onun özü arilərin qanunlarına və adətlərinə tabe idi və xalq onu vəzifəsindən kənar edib, cəzalandıra bilərdi. Əvvəlki məktublarımda xatırlatdığım kimi, belə bir qayda – "dövlət – mənəm" qaydası yox idi. Beləliklə, ari yaşayış məntəqələrində bir növ demokratiya vardı, başqa sözlə desək, ari mühacirləri müəyyən həddaxilində hökumətə nəzarət yetirə bilərdilər.

Bu hind-arilərini yunan arilərlə tutuşdur. Onların arasında fərq çox olduğuna baxmayaraq, ümumi cəhətlər də çox idi. Hər iki halda bir növ demokratiya mövcud idi. Lakin unutmamalıyıq ki, bu demokratiya əsasən ancaq arilərin özlərinə şamil edilirdi. Onların köləleri və ya aşağı kastalara aid etdikləri kəslər nə demokratiyadan istifadə edirdilər, nə də azadlıqdan. Saysız-hesabsız bölmələrilə tanıdığımız indiki kasta sistemi o zaman mövcud deyildi. O dövrdə hind arilərinin cəmiyyəti dörd hissəyə və ya kastaya bölünərdi: brahmanlar, yaxud alimlər, kahinlər, aqillər; kşatrilər, yaxud hakimlər; vayşilər, tacirlər və ticarətlə məşğul olanlar; şudralar, yaxud işçilər. Beləliklə, bu bölgü məşğuliyyət növünə əsaslanardı. Bəlkə, arilərin tabe etdirdikləri irqlə qaynayıb qarışmaq istəməmələri qismən kasta sisteminin mənbəyi olub. Arilər olduqca məğrur və şöhrətpərəstmişlər və başqa irqlərlə qarışmaq istəmədikləri üçün onlara xor baxırdılar, "kasta" sözünün özü sanskrit dilində "varna" – "rəng" deməkdir. Bu da həmçinin onu sübut edir ki, gəlmə arilərin rəngi Hindistanın ilk sakinlərinkindən daha açıq idi.

Beləliklə, nəzərdə tutmalıyıq ki, arilər, bir tərəfdən zəhmətkeş sinfi itaətdə saxlayır və öz demokratiyasında ona iştirak etməyə imkan vermir, digər tərəfdən, arilər öz aralarında azadlığı xeyli saxlayırdılar. Padşahlarına imkan vermirdilər ki, özünü pis aparsın; hərgah bir hökmdar özünü pis aparsaydı, onu hakimiyyətdən kənar edərdilər. Adətən kşatrilər padşah olardı, lakin müharibə vaxtı və çətinliklərdə hətta şudra, yəni ən aşağı sinfin nümayəndəsi, əgər lazımınca bacarığı vardısa, padşah taxtını tuta bilərdi. Sonralar arilərin nəsli kəsilib və onların kasta sistemi özünün çevikliyini itirib. Son dərəcə güclü təbəqələşmə nəticəsində ölkə zəifləyib tənəzzül edib. Arilər azadlığa qədimdən bağlı olduqlarını da unudublar. Axı, qədim dövrlərdə deyərdilər ki, arini heç vaxt köləyə çevirmək olmaz, zira o, ari adını batırmaqdansa, ölməyi üstün tutardı.

Arilərin məskənləri, şəhər və kəndlər səliqəsiz tikilmirdi. Bunlar müəyyən planla yaradılırdı; burası səni maraqlandırmaya bilməz ki, bu



işdə həndəsə onların karına yaman gəlirdi. Hətta o zaman veda puclarında belə həndəsi fiqurlar tətbiq edilərdi. Həmin fiqurların bəzisindən hindu evlərinin çoxunda hələ indi də müxtəlif puclarda istifadə edilir. Həndəsə evlərin və şəhərlərin tikintisi ilə bilavasitə əlaqədardır. Qədim ari kəndi əvvəlcə möhkəmləndirilmiş xüsusi ordugah idi, zira o dövrdə hücum təhlükəsi hər zaman gözlənirdi. Düşmən hücumu təhlükəsi ortadan götürüldükdə belə tikinti həmin plan əsasında davam etdirilmişdi. Kənd hər tərəfdən divarlarla əhatə olunmuş, dörd iri, dörd xırda darvazası olan üçbucaq şəklindəydi. İçəridə küçələr və evlər xüsusi qayda ilə düzülərdi. Kəndin mərkəzində olan pançayat qharda ağsaqqallar yığışardı. Xırda kəndlərdə pançayat qharın yerində sadəcə olaraq iri bir ağac durardı. Azad kəndin azad əhalisi hər il yığışıb özünün pançayatını seçərdi.

Alim adamların bir çoxu şəhər və kəndlərin yaxınlığındakı meşələrə çəkilərək orada adi həyat tərzi keçirməyi, ya da meşənin sakitliyində işləməyi, məşğul olmağı adət etmişdilər. Onların ətrafına şagirdlər toplaşar və tədricən yeni-yeni məskənlər yaranardı ki, orada da müəllimlər öz şagirdləri ilə birlikdə yaşayardı. Biz bu məskənlərə bir universitet kimi baxa bilərik. Oralarda yaraşıqlı binalar olmasa da, əvəzində biliyə can atanlar ən uzaq guşələrdən bu elm mərkəzinə gələrdi.

Anand Bhavanın qarşısında Bharavac Aşrama yerləşir. Sən ona yaxşı bələdsən. Bəlkə qədim "Ramayanalar" dövründə Bharavacın çox alim adam hesab edildiyini də bilirsən. Rovayətə görə, Ramaçandra sürgündə olduğu günlərdə ona baş çəkmişdi. Belə söyləyirlər ki, minlərlə tələbə və alim Bharavacla bir yerdə yaşayırdı. Görünür, orada Bharavac başda olmaqla əsil darülfunun mövcud idi. O dövrdə Aşrama Qanq çayının sahilində yerləşirdi. Bu, həqiqətə çox uyğundur. Hərçənd indi çay Aşramanın təqribən bir milliyindədir. Bağımızdakı torpaq bəzi yerlərdə çox qumsaldır, bəlkə də o zaman Qanqın dibi idi.

Bu qədim dövrlər Hindistanda arilərin əzəmətli dövrü olub. Təəssüflər olsun ki, biz o dövrün tarixini bilmirik və bizə məlum olan faktlar tarix kitablarından alınmayıb. O dövrün səltənətləri və respublikaları arasında bunlar da var idi: Maqadha Cənubi Biharda, Videha Şimali Biharda, Kaşi, yaxud Benares, Koşala – bunun paytaxtı Ayodhya (müasir Fayzabad) idi və Qanqla Camna arasında Pançala. Pançala ölkəsində Mathura və Kanyakubcha iki başlıca şəhər idi. Bu hər iki şəhər tarixin sonrakı dövrlərində də ad çıxarmışdı. Hər iki şəhər

indiyəcən mövcuddur. Kanyakubchanın indi adı Kanaucdur, Kanpur yaxınlığındadır. Udcayn da o qədim dövrlərdə mövcud idi. İndi bu şəhər Qvaliur knyazlığında kiçik bir şəhərdir.

Pataliputra və ya Patna yaxınlığında Vayşali adlı şəhər vardı. Bu şəhər qədim Hindistanın tarixində məşhur klanın – liççhavlar klanının paytaxtı idi. Onların dövləti respublikaydı və seçilən prezident – ona nayaka deyərmişlər – başda olmaqla adlı-sanlı vətəndaşlar məclisi tərəfindən idarə olunardı.

Zaman keçdikcə iri-iri şəhərlər və paytaxtlar ucalıb. Ticarət inkişaf etmiş, incəsənət, peşə və sənət tərəqqi tapmışdı. Şəhərlər iri-iri ticarət mərkəzinə çevrilirdi. Alim brahmanların şagirdləri ilə meşələrdə birgə yaşadıqları aşramalar da böyüyüb iri-iri universitet şəhərlərinə çevrilirdilər. Bu elm mərkəzlərində o zamanlar məlum olan bütün fənlər tədris edilərdi. Brahmanlar həmçinin hərb sənəti fənnini də tədris edərdilər. Yəqin, yadındadır ki, "Mahabharata" da pandavların böyük müəllimi Dronoçarya brahman idi. O, pandavlara başqa sahələrlə yanaşı müharibə etmək məharətini də öyrədirdi.

## ÇİN BİR MİNİLLİK ƏRZİNDƏ

*16 yanvar 1931-ci il*

Xarici aləmdən bizə xəbərlər gəlib çatıb. Elə xəbərlər ki, qanımızı qaraldıb bizi mütəəssir etsə də, qəlbimizi iftixar və sevinc hissilə doldurur. Şolapurdakı adamların müqəddəratından xəbər tutduq. O qəmli xəbər məlum olduqda, bütün ölkədə nələr baş verdiyi barədə qısaca məlumat da gəlib bizə çatdı. Gənclərimizin həyatını qurban verdiyi, min-min kişi və qadının bambuk dəyənəklərinin – latilərin zərbəsindən qorxmayaraq irəlilədikləri bir vaxtda, burada rahat oturmaq çətindir. Amma bizlərdən ötrü bu yaxşı sınaqdır. Mən elə bilirəm ki, bizim hər birimizə, kişi, ya qadına, özünü ən ciddi surətdə sınamaq üçün dəfələrlə imkan düşəcək. Eşidəndə ki, adamlarımız iztirabı cəsarətlə qarşılayır, düşmənin hər yeni silahı və hər zərbəsi adamlarımızı daha da möhkəmləndirir və onları daha qətiyyətlə müqavimət göstərməyə təhrik edir, qəlbimiz fərəhdən coşub-daşır.



Bu günün yenilikləri fikrimizi məşğul etdiyi şəraitdə başqa işlər barədə düşünmək çətindir. Amma boş-boş arzudan nə fayda! Əgər biz əməlli-başlı əlləşib-çalışmaq istəyiriksə, gərək ağlımızı intizama öyrədək. Odur ki, gəl qədim dövrlərə qayıdaq, keçirdiyimiz indiki həyəcandan hələlik uzaqlaşaq.

Çinə üz tutaq – qədim tarix üzrə Hindistana bacı olan ölkəyə. Çində və Şərqi Asiyanın Yaponiya, Koreya, Hind-Çin, Siam, Birma kimi digər ölkələrində biz ari xalqlarla üz-üzə gəlmirik. Buradakılar monqol irqindən olan xalqlardır.

Təqribən beş min il əvvəl Çinə Qərbdən müdaxilə olub. Xeyli inkişaf etmiş mədəniyyətə malik müdaxiləçi qəbilələr də buraya Mərkəzi Asiyadan gəlib. Əkinçilikdən baş çıxaran bu qəbilələrin iri qoyun və qaramal sürüləri vardı. Gəlmələr yaxşı evlər tikərdi, yaxşı inkişaf etmiş ictimai quruluşa malikdi. Onlar Xuanxe, həmçinin Sarı çay adlanan çayın sahillərində məskən salaraq öz dövlətlərini yaradıblar. Neçə-neçə yüz illər ərzində Çinin müxtəlif yerlərində məskən sala-sala, öz təcrübə və ustalıqlarını da təkmilləşdirirdilər. Əsasən əkinçi olan çinlilərin hakimləri, əslində əvvəlki məktublarımda təsvir etdiyim şəxslərə bənzər patriarxlar idi. Bundan altı, ya yeddi yüz il keçəndən sonra, yəni dörd min ildən də əvvəl özünü imperator adlandıran Yao adlı bir şəxs görürük. Amma bu tituluna baxmayaraq, onun Misirdə və Mesopotamiyada olmuş imperatordan çox patriarxa oxşarlığı vardı. Çinlilər əkinçi olaraq qalırdılar və onların idarəetmə sistemi az da olsa mərkəzləşməmişdi.

Mən sənə demişdim ki, camaat özünün patriarxlarını necə seçirmiş və sonralar bu, necə irsi olubmuş. Biz bunun Çində necə baş verdiyini gördük. Yaonun varisi onun oğlu yox, Yaonun ölkədə ən bacarıqlı bir şəxs kimi təklif etdiyi özgə bir adam olub. Çox çəkmədi bu titul irsi oldu. Rəvayətə görə, Çində Sya sülaləsi dörd yüz il hakimiyyət sürüb. Bu sülalənin axırıncı hakimi dedikcə qəddardı: onun hakimiyyəti inqilab nəticəsində devrilib. Sonra hakimiyyətə Şan və ya İn adlandırılan başqa bir sülalə keçib və təqribən altı yüz əlli il hakimiyyət başında qalıb.

Kiçicik bir abzasın, iki-üç qısa cümlənin olması kifayətmiş ki, Çinin min ildən də yuxarı tarixinin öhdəsindən gələm. Tarixin iri-iri dövrlərinə insanın necə asanlıqla sərəncam verə bilməsi məgər təəccüblü deyilmi? Amma sən bunu aydın dərk etməlisən ki, mənim kiçicik abzasım bu min və ya min yüz ili qətiyyən qısaltmır. Biz günləri,

ayları, illəri nəzərdə tutub düşünməyə alışmışıq. Sənə hətta yüz illik bir dövr müddətini də aydın təsəvvür etmək çətindir. Sənə elə gəlir ki, on üç yaşın – xeyli çoxdur, elə deyilmi? Bu yaşın üstünə gələn bir ilin içində də hətta xeyli böyüyürsən. Bəs onda tarixin min ilini ağılla necə qavramaq olar? Bu uzun dövrdür. Nəsil nəsil dalınca gəlib-gedir, kiçik-kiçik şəhərlər boy atıb iri şəhər olur. Sonra da dönüb heç olur, onların yerində isə yeni-yeni şəhərlər peyda olur. Tarixin son min ilini düşün, bu dövrün nə qədər uzun dövr olduğunu, bəlkə onda fikrən təsəvvür eləyə bildin. Bu min ildə dünyada necə də heyrətamiz dəyişikliklər baş verib!

Qəribə mədəni ənənəsi, hərəsi beş yüz, ya səkkiz yüz il hakimlik etmiş sülalələri olan Çinin tarixi nə qəribə imiş.

Bircə abzasda verdiyim Çinin min yüz il ərzində yavaş inkişafı və tərəqqisi haqqında düşün. Patriarxal sistem tədricən sıxışdırılıb ortadan çıxarılır və mərkəzləşmiş idarə inkişaf edir. Mükəmməl, mütəşəkkil dövlət meydana çıxır. Artıq həmin qədim dövrlərdə Çində yazı sənəti məlum idi. Lakin Çin yazısı, bildiyin kimi, bizimkindən və ya ingilis və fransız yazısından kəskin fərqlənir. O, əlifba yazısı deyildir, işarələrdən, yaxud rəsmlərdən ibarətdir.

Şan sülaləsi altı yüz qırx illik hakimiyyətdən sonra inqilab nəticəsində devrildi və hakimiyyətə yeni Çjou sülaləsi gəldi. O, hakimiyyət başında Şan sülaləsindən də çox qaldı. Səkkiz yüz altmış yeddi il hakimiyyət sürdü. Yaxşı təşkil olunmuş Çin dövləti məhz Çjou sülaləsi dövründə yarandı. Çinin iki ən böyük filosofu – Konfutsi və Lao-tszı da elə həmin dövrdə yaşamışdılar. Sonrakı məktublarda gərək onlar barədə bəzi şeylər söyləyəm.

Şan sülaləsi devriləndə, sülalənin Tsi Tszı (Ki Çja) adlı bir əyanı Çjou sülaləsinə xidmət etməkdənsə ölkədən getməyi üstün tutmuşdu. Belə ki, beş min tərəfdarı ilə birlikdə Çindən Koreyaya getmişdi. Bu ölkəni Çoson, yaxud Səhər sükutu ölkəsi adlandırmışdı. Koreya, ya Çoson Çindən şərqdə olduğundan o, Şərqə, gündoğana qarşı getmişdi. Görünür, o belə zənn edib ki, Şərqin ən son ölkəsinə gəlib çatıb. Buna görə də ölkəyə indi onun daşıdığı adı verilib. Koreyanın tarixi bizim eradan 1100 il qabaq Tsi Tszıdan başlayır. Tsi Tszı özünün təzə vətəninə Çin sənətkarlıqlarını, tikinti ustalığını, əkinçiliyi və ipəkçiliyi gətirib. Tszının ardınca yeni Çin mühacirləri Koreyaya varid olub. Tsi Tszı nəsilləri Çosonda doqquz yüz ildən çox hakimiyyət sürüblər.



Əlbəttə, Çoson şərq istiqamətində ən son ölkə deyildi, bildiyimiz kimi, Yaponiya ondan da şərqdə yerləşir. Lakin Tsi Tszı Çosona tərəf üz qoyanda Yaponiyada nələr baş verdiyindən xəbərimiz yoxdur. Yaponiyanın tarixi Çinin və hətta Koreya – Çosonun tarixi kimi heç də o qədər qədim deyil. Yaponlar deyirlər ki, onların ilk imperatoru Cimmu Tenno olub, İsa doğulmamışdan altı yüz, ya yeddi yüz il əvvəl hakimiyyətdə olub. Onlar belə zənn edirlər ki, Günəş Yaponiya ilahəsi olduğundan o, Günəş ilahəsinin nəslindəndir. Belə iddia edirlər ki, Yaponiyanın indiki imperatoru mənşəyini müstəqil xətlə Cimmu Tennodan götürür və buna görə də yaponların çoxunun inandığı kimi, o da Günəş nəslindəndir.

Bilirsən ki, ölkəmizdəki racputlar da özlərinin mənşəyini Günəşdən və Aydan götürdüklərini iddia edirlər. Onların iki başlıca sülaləsi bunlardır: Suryavanşi, yaxud Günəş tayfası və Condrovinşi, yaxud Ay tayfası. Maharana Udaypura Suryavanşi sülaləsinin başçısıdır, onun nəsli uzaq keçmişə gedib çıxır. Yaman qəribə adamlardır, bizim bu racputlar! Onların şücaət və cəngavərlik dastanları bitmək-tükənmək bilmir.

## KEÇMİŞİN SƏDASI

*17 yanvar 1931-ci il*

Qədim dünyaya təqribən iki min beş yüz il əvvəl necə ehtimal etdiyimiz kimi qısaca nəzər saldıq. İcmalımız çox qısa və olduqca məhdud idi. Biz ancaq ən çox inkişaf etmiş ölkələri və ya hər halda müəyyən tarixi olan ölkələri nəzərdən keçirdik. Biz Misirin böyük mədəniyyətinin ancaq adını çəkdik, o mədəniyyətin ki, ehramlar, sfinkslər və indi görə bilmədiyimiz bir çox başqa şeylər yaratmışdır. Bu mədəniyyətin çiçəklənmə dövrü artıq geridə qalıb və hətta nəzərdən keçirdiyimiz həmin erkən dövrdə belə o, tənəzzülə meyil edirdi. Knoss da süquta çatırdı. Çində biz geniş dövrləri – orada mərkəzləşmiş böyük imperiyanın təşəkkül tapdığı, yazının, ipəkçiliyin inkişaf etdiyi və çoxlu gözəl şeylərin yaradıldığı dövrləri təsvir etdik. Koreyaya və Yaponiyaya ötəri nəzər saldıq. Hindistandakı qədim mədəniyyətin ötəri adını çəkdik. O mədəniyyətin qalıqları hind vadisindəki Mohenco-Daroda qalıb. Biz həmçinin dravidlər mədəniyyətindən, onun digər ölkələrlə

ticarət əlaqələrindən və nəhayət, arilər barədə danışdıq. Arilərin o zamanlar yaratdığı bəzi məşhur kitablardan bəhs etdik. Vedalardan və Upanişadlardan, habelə "Ramayana" və "Mahabharata" epik poemalarından söhbət açdıq. Arilərin Şimali Hİndistanda məskunlaşdığını, hətta cənuba soxulduğunu və qədim dravidlərlə təmasda olarkən yeni mədəniyyət, dravid əlamətinin az, ari əlamətinin çox olduğu bir mədəniyyət yaratdıqlarını izlədik. Biz, o cümlədən, arilərin kənd icmalarının demokratik əsasda böyüyərək tədricən xırda və iri şəhərlərə, meşə *aşramlarının* isə universitetlərə çevrildiyini gördük. Mesopotamiyada və İranda imperiyaların dalbadal bir-birini əvəz etməsindən fəqət qısaca danışdıq: gec yaranmış belə imperiyalardan birinin hüdudları Daranın vaxtında Hindistandakı Hind çayına qədər uzanmışdı. Fələstində – sayca çox kiçik, ərazicə lap xırda olmasına baxmayaraq özünə böyük diqqət cəlb edən yəhudilərin tarixini qısaca nəzərdən keçirdik. Onların çarı olan Davidin və Süleymanın xatirəsi, adları Tövratda çəkildiyinə görə yadda qalıb, halbuki onlardan daha böyük çarların adı çoxdan unudulub. Yunanıstanda Knossun daha qədim mədəniyyətinin xarabalıqları üzərində yeni ari mədəniyyətinin necə ucaldığını da gördük. Şəhər-dövlətlər boy atdı və Aralıq dənizi sahillərində yunan koloniyaları yarandı. Gələcəkdə əzəmətli dövlət olacaq Roma və onun barışmaz rəqibi Karfagen tarixin üfüqlərindən hələ yenicə boylanır.

Bu dediyimizin hamısına ötəri nəzər saldıq. Mən adını çəkmədiyim ölkələr haqqında – Şimali Avropa və Cənub-Şərqi Asiya ölkələri haqqında da sənə danışa bilərdim. Hind dənizçiləri hətta həmin ən qədim dövrlərdə belə Benqal körfəzini yarıb keçməyə cəsarət etmiş və Cənubi Hindistandan Malakka yarımadasınadək və yarımadadan cənuba doğru yerləşən adalara gedib çıxmışdılar. Amma dediklərimizə biz hardasa yekun vurmalıyıq, yoxsa biz heç vaxt irəli gedə bilmərik.

Haqqında danışdığımız ölkələri qədim dünyaya aid edirlər. Lakin unutmaq olmaz ki, o zamanlar uzaq ölkələr arasında az-çox daimi əlaqə yox idi. Zirək dənizçilər dəryaları yarıb keçir, adamlar ticarət məqsədilə və başqa məqsədlə quru yolları ilə də uzaq səyahətlərə çıxırdılar. Belə hallar, təhlükəli olduğundan yəqin az olurdu. Coğrafiyanı zəif bilirdilər. Yeri girdə yox, yastı hesab edirdilər. Qonşu ölkələri çıxmaqla, başqa ölkələrdən heç kimin xəbəri də yox idi. Məsələn, Yunanıstan əhli Çin ya Hindistan barədə əslində heç nə bilmirdi, çinlilərin, ya hindlilərin isə Aralıq dənizi ölkələri barədə məlumatı çox azdı.



Əgər əlinin altında varsa, qədim dünya xəritəsinə nəzər sal. Dünyanın bəzi təsviri və qədim müəlliflərin xəritələri yaman məzəlidir. Xəritələrdəki bəzi ölkələrin qəribə görkəmi var. Bizim dövrümüzdə hazırlanmış qədim dünya xəritələri onlardan qat-qat faydalıdır. Buna görə də ümidvaram ki, qədim dövrləri mütaliə edərkən son onlardan tez-tez istifadə edəcəksən. Xəritənin köməyi çoxdur. Onsuz tarix haqqında əsil təsəvvür ola bilməz. Tarixi öyrənənin gərək mümkün qədər daha çox xəritəsi olsun, o dövrlərin qədim binalarının, xarabalıqlarının və başqa qalıqlarının gərək daha çox şəkli, rəsmi olsun. Bu şəkillər quru sxemi tamamlayır və tarixi canlandırır. Bizim az-maz bir şey öyrənməyimiz üçün gərək tarix zehnimizi bir sıra canlı surətlərlə doldursun ki, mütaliə vaxtı hadisələrin gedişini gözümüzlə görürmüşük kimi qavraya bilək. Gərək tarix çox maraqlı, valehedici səhnə əsərinə çevrilsin, hərdən məzhəkəyə, çox vaxtsa faciəyə çevrilsin – elə bir faciəyə ki, səhnəsi bütün dünya, aktyorları isə keçmişin dahi kişi və qadınları olsun.

Şəkillər və coğrafi xəritələr tarixin möhtəşəm mənzərəsini qavramağımıza xeyli kömək edir. Şəkil də, xəritə də oğlan və ya qızın gərək əlinin altında olsun. Lakin qədim xarabaları və qədim dövrün digər abidələrini adamın özünün gedib görməsi şəklə baxmaqdan daha yaxşıdır. Bu abidələr dünyanın hər yerinə səpələndiyi üçün hamısını görmək mümkün deyil. Ancaq biz iti müşahidəçi olsaq, onda keçmişin qalığını yaxınlığımızda – asan gedib çatacağımız yerdə – hər vaxt tapa bilərik. Böyük muzeylər daha xırda qalıqları və ya digər şeyləri toplayıb kolleksiya düzəldir. Hindistanda keçmişin xeyli qalığı qalıbsa da ən qədim dövrlərin izi azdır. Mohenco-Daro və Xarappa bəlkə də hələlik yeganə abidələrdir.

Görünür, isti iqlim şəraitində bir çox qədim tikintilər külə dönüb. Amma daha çox ehtimal var ki, o qədim tikintilərin əksər qismi torpağın altındadır. Və nə vaxt qazılıb üzə çıxarılacağını gözləyir. Deməli, biz yeri qazıdıqca, qədim qalıqları və yazıları aşkar edib tapdıqca ölkəmizin keçmiş tarixinin səhifələri gözlərimiz önündə yavaş-yavaş vərəqlənəcək və daşdan, kərpicdən, əhəng daşından olan həmin səhifələrdə ən qədim əyyamlarda əcdadımızın güzəranının necə olduğunu oxuya biləcəyik.

Sən Dehlidə olubsan, indiki şəhərin ətrafında xarabalıq da görübsən, qədim binalar da. Bir də oralara baş çəkəndə keçmişi düşün, onda gördüklərin səni həmin dövrə çəkib aparar və tarix haqqında hər hansı

kitabdan qat-qat artıq söz açar. Hələ "Mahabharata" dövründən bəri Dehlidə, ya da onun yaxınlığında yaşayanlar şəhərə cürbəcür ad qoyubmuşlar: İndraprastha, Hastinapur, Tuğlakabad, Şahcahanabad – mən heç də bütün adları bilmirəm. Rəvayətə görə, yeddi Dehli şəhəri varmış, Camna çayının şıltaqlığı üzündən Dehlinin yerini tez-tez dəyişməyə məcbur olurdular. İndi ölkənin bugünkü hakimlərinin göstərişilə, hesabla səkkizinci şəhər – Reyzina və ya Nyu-Deli şəhərinin tikildiyini görürük. Dehlidə imperiyalar bir-birinin ardınca dəyişilmiş, çiçəklənmiş, sonra da məhv olmuşdur.

Benaresə, yaxud Kaşiyə səfərə çıx, şəhərlər içərisində ən qədim şəhərin səs-küyünə qulaq ver. Məgər şəhər dil açıb öz keçmişindən, çox qədim zamanlardan başlamış tarixindən sənə danışmırmı, imperiyalar məhv olarkən, yaxud Budda öz yeni təlimiylə gəlib çıxarkən necə yaşadığından, rahatlıq və təskinlik tapmaq üçün yüz illər boyu buraya gələn milyon-milyon adamdan söz açmırmı! Qədim və qocaman, köhnə və qorxulu olduğu qədər də canlı və qüdrətli Benares! Füsunkar çöhrəli Kaşi! Bircə gözlərinə diqqət ver. Sən bu gözlərdə Hindistanın keçmişini görərsən, sularının şırıltısında isə ötən qərinələrin səsini eşidərsən.

Yaxud daha yaxına get! Get bizim Allahabad şəhərimizdəki, ya da Prayaqdakı qədim Aşoka sütununun yanına. Aşokanın hökmü ilə həkk olunmuş yazıya bax! Bu vaxt az qala onun səsini eşidəcəksən, bu səda iki minilliyin içərilərindən gələn sədadır.

## SƏRVƏTLƏR HARA GEDİR

*18 yanvar 1931-ci il*

Sənə Massuriyə göndərdiyim məktublarda çalışmışam göstərəm ki, bəşəriyyət tərəqqi etdikcə müxtəlif siniflər inkişaf edir. Ən qədim insanların həyatı sərt keçirdi, onlar qidanı belə çətinliklə əldə edirdilər. Hər gün ova çıxır, qoz və meyvə toplayır, qida axtara-axtara bir yerdən o biri yerə hərəkət edirdilər. Yavaş-yavaş qəbilələr yaranmağa başlayır. Əslində bunlar böyük ailələr idi, təklikdənsə birlik qorxusuz olduğundan elə bir yerdə yaşayıb, bir yerdə də ov edərdilər. Sonra böyük dəyişikliklər baş vermiş; çox böyük dəyişikliyə səbəb olan



əkinçilik meydana gəlmişdi. İnsanlar buna əmin olmuşdular ki, daim ov etməkdənsə torpağı becərmək yolu ilə qida əldə etmək qat-qat asandır. Yer şumlama, əkin və biçin isə oturaq həyat tərzi demək idi. Adamlar daha vərdiş etdikləri kimi gezib-dolaşa bilmirdilər. Onlar öz tarla və zəmilərinin yaxınlığında qalmalıydılar. Beləliklə də kənd və şəhər yaranmağa başlayır.

Əkinçilik başqa dəyişikliyə də səbəb olub. Torpağın verdiyi ərzaq dərhal istifadə üçün lazım olandan daha artıq idi. Bu ərzaq artığı ehtiyat yaratmağa sərf edilirdi. Həyat əvvəlki ovçuluq dövrünə nisbətən xeyli mürəkkəbləşmişdi: insanların bir qismi tarlada çalışanda və ya başqa iş görəndə, o birisi rəhbərlik edir və istehsalın təşkili ilə məşğul olurdu. Rəhbərlər və təşkilatçılar get-gedə qüdrətlənərək patriarxlara və hakimlərə, padşahlara və kübarlara çevrilməyə başlayırdılar. Hakimiyyətə malik olan bu adamlar artıq məhsulun və ərzaq artığının xeyli hissəsini mənimsəyirdilər. Beləliklə, onlar daha dövlətli olurdular, halbuki tarlada çalışanlar ancaq dolanmağa kifayət edəcək qədər ərzaq alırdılar. Daha sonralar elə bir vaxt gəlib çatdı ki, bu rəhbərlər və təşkilatçılar son dərəcə tənbəlliyi və təcrübəsizliyi üzündən heç təşkilatçılıq işinin öhdəsindən də gələ bilmirdilər. Əlini ağdan qaraya vurmayan bu adamlar elə hey zəhmətkeşin istehsal etdiyi məhsulun yağlı tikəsini qoparmağa çalışırdılar. Bu adamlar belə hesab edirdilər ki, heç nəyə əl vurmadan başqasının zəhməti hesabına bu cür yaşamağa haqları var.

Beləliklə, gördüyün kimi, əkinçiliyin yaranması həyatı kökündən dəyişdirmişdi. Qida əldə etmək üsulunu yaxşılaşdıran, bu prosesi asanlaşdıran əkinçilik bu cəmiyyətin əsaslarını büsbütün yeniləşdirdi. O, adamlara asudə vaxt da verdi. Müxtəlif siniflər əmələ gəldi. İndi insanların hamısı ərzaq əldə etməklə məşğul olmurdu, bir parası başqa iş də görə bilərdi. Cürbəcür sənət və peşələr əmələ gəldi. Hakimiyyət isə əsasən təşkilatçılar sinfinin əlində qalırdı.

Sən görəcəksən ki, ərzaq və digər ən zəruri şeylərin istehsalının yeni üsulları tarixin daha sonrakı dövrlərində də necə böyük dəyişikliyə səbəb olub. İnsanda qidaya tələbat yarandığı kimi, bir çox başqa şeylərə də ehtiyac əmələ gəlirdi. Belə ki, istehsal üsulundakı hər bir böyük dəyişiklik, cəmiyyətdə də böyük dəyişikliyə səbəb olurdu. Təkcə bir aydın misal göstərəcəyəm: fabrikdə, dəmir yolunda və gəmidə buxar hərəkətverici qüvvə kimi tətbiq edildikdə, istehsal və bölgü üsul-

larında da dəyişiklik baş verdi. Buxarla işləyən fabriklər adi alətin köməyilə əllə işləyən sənətkar və ustalardan xeyli tez məhsul istehsal edə bildi. Məlum oldu ki, iri bir maşın əslində iri bir alətdir. Dəmir yolu və buxarla işləyən gəmi isə ərzaq mallarını uzaq-uzaq məmləkətlərə tez çatdırmağa imkan verdi. Bunun bütün dünyada necə dəyişikliyə səbəb olduğunu sən özün aydın təsəvvür edə bilərsən.

Tarixdə ərzağın və digər şeylərin yeni, daha sürətli istehsal üsullarını zaman-zaman kəşf edirdilər. İndi sən, söz yox, belə düşünəcəksən ki, əgər yaxşı istehsal üsulu tətbiq etməyə başlanıbsa, demək istehsal daha da artıb, dünya daha da zənginləşib və hər kəs də daha çox şey əldə edib. Belə fikirləşməkdə qismən həm haqlısan, həm də yox. Daha mükəmməl istehsal üsulları dünyanı, şəksiz, daha da zənginləşdirmişdir. Amma hansı hissəsini? Ölkəmizdə yoxsulluğun və səfalətin hökm sürdüyü apaşkardır, lakin İngiltərə kimi zəngin ölkədə də vəziyyət elə belədir. Niyə? Axı var-dövlət hara gedir? Qəribə işdir: istehsal edilən sərvətin hey artmasına baxmayaraq, kasıb elə kasıb olaraq qalır. Bəzi məmləkətlərdə onların vəziyyəti bir qədər yaxşılaşsa da, bu, sərvətin artması ilə müqayisədə çox cüzidir. Sərvətin çox hissəsinin kimə çatdığını isə asanca aşkar edə bilərik. Bu sərvət rəhbər və təşkilatçı olan və bütün nemətlərin ən çox hissəsini ələ keçirməyə çalışan adamlara çatır. Ən qəribəsi də budur ki, bəşər cəmiyyətində elə siniflər yaranır ki, onlar heç bir iş görməyə-görməyə özgə əməyinin məhsulunun ən çox hissəsini qamarlayır! Heç inanırsanmı? Özü də bu siniflər şərafət sahibidirlər. Bir para ağılsız adamlar hətta elə xəyal edirlər ki, tər töküb gündəlik çörək qazanmaq alçaq işdir! Bizim aləmdə hər şeyin kəlləmayallaq qoyulduğu bir aləmdə vəziyyət bax belədir. Tarlada çalışan kəndlinin, zavodda işləyən fəhlənin kasıb olsa da, bütün dünya üçün ərzaq və sərvət istehsal etməsində təəccüblü nə var? Biz öz ölkəmiz üçün azadlıqdan danışırıq; o azadlıq ki, bu eybəcər qaydaların kökünü kəsməyəcək və zəhmətkeş insana öz əməyinin bəhrəsini dadmaq imkanı verməyəcək, nə azadlıq oldu? İdarəetmə siyasəti və məharəti haqqında, iqtisadiyyat haqqında, millətin sərvətinin necə bölünməsi haqqında qalın-qalın kitablar yazılıb. Alim-professorlar bu mövzuda mühazirələr oxuyurlar. Amma adamlar söhbət edib mülahizə yürütdüyü vaxtda alın təri tökənlər əzab-əziyyət çəkir. İki yüz il qabaq bir məşhur fransız, yəni Volter, bu siyasətçilər və bu cür adamlar barədə deyib ki, "onlar özlərinin incə siyasətilə torpağı becərməklə



bütün başqalarına yaşayış vasitəsi verənləri acından ölməyə məcbur etmək üsulunu kəşf ediblər".

Bununla belə qədim insan irəli getməkdə və vəhşi təbiəti yavaş-yavaş sıxışdırmaqda idi. O, ağac qırır, ev qurur, torpaq becərirdi. Zənn edildiyinə görə, guya insan təbiəti müəyyən dərəcədə özünə tabe etmişdir. Adamlar təbiətin ram edilməsindən söz açırlar. Bu məsələ olduqca qeyri-müəyyəndir və o qədər də düz deyil. Belə desək daha yaxşı olar ki, insan təbiəti anlamağa başlayır, o, təbiəti nə qədər yaxşı anlayırsa, onunla bir o qədər yaxşı, qarşılıqlı əlaqəyə girir və öz məqsədi üçün təbiətdən istifadə edə bilir. Qədimlərdə adamlar təbiət və təbiət hadisələri önündə qorxu hissi keçirərdilər. Təbiəti dərk etməyə çalışmaq əvəzinə onu ilahiləşdirir və sədəqə verməklə təbiəti rəhmə gətirməyə çalışardılar. Elə bil təbiət elə bir vəhşi heyvandır ki, onun nazını çəkmək və könlünü ələ almaq lazımdır. Belə ki, göy gurultusu, ildırım və yoluxucu xəstəliklər qədim insanların canına qorxu salar və onlar da belə zənn edərdilər ki, ancaq qurban verməklə bunların qarşısını almaq olar. Adamların bir çoxu belə zənn edir ki, Günəş, yaxud Ay tutulması dəhşətli bəladır. Təbiətin bu çox adi hadisələrini anlamağa cəhd etmək əvəzinə adamlar tamamilə yersiz olaraq əl-ayağa düşür. Günəşi, yaxud Ayı qorumaq üçün pəhriz saxlamağa və dəstəmaz almağa başlayırdılar. Günəş də, Ay da özlərini qorumağa qabildir. Onlar sarıdan narahat olmağımız gərək deyil.

Biz mədəniyyətin inkişafı haqqında söhbət elədik. Adamlar oturaq həyata keçəndən, kənd və şəhərlərdə yurd salandan sonra mədəniyyətin necə yarandığını gördük. Əldə edilən qidanın miqdarının artması adamların asudə vaxtının daha çox olmasına imkan verdi, indi onlar ovdan və qidadan başqa özgə işlər barədə də düşünə bilərdilər. Şüur inkişaf etdikcə ümumiyyətlə sənət, incəsənət və mədəniyyət inkişaf edirdi. Əhali artdıqca adamlar bir-birinə daha yaxın yaşamalı olurdular. Onlar daim görüşür, bir-birlərilə münasibət yaradırdılar. Adamlar birgə yaşamalı olduqda isə gərək bir-birlərinə qarşı diqqətli olsunlar. Onlar yoldaşlarına və qonşularına toxuna biləcək hərəkətlərdən gərək çəkinsinlər. Əks halda heç bir ictimai həyat mümkün olmazdı. Ailəni misal götürək. Ailə cəmiyyətin xırdaca bir parçasıdır. Əgər ailə üzvləri bir-birlərinə hörmət qoyarsa, onda ailə xoşbəxt, bəxtiyar dolana bilər. Ailədə bu hal, bir qayda olaraq, çətin deyil. Çünki ailə üzvləri adətən məhəbbət telləriylə bir-birləriylə bağlı olurlar. Amma bununla belə,

bəzən elə hallar olur ki, bir-birimizə ehtiram göstərməyin zəruriliyini unuduruq. Belə hərəkət etməklə o qədər də mədəni olmadığımızı göstərmiş oluruq. Həcmcə ailədən iri olan qruplarda da vəziyyət eynidir. Söhbət kimdən gedirsə-getsin, istər qonşulardan, istər şəhərimizin sakinlərindən, istər yurddaşlarımızdan, istərsə də lap digər ölkə xalqlarından – fərqi yoxdur. Əhalinin artması nəticədə ictimai həyatın inkişafına səbəb oldu, başqa insanlara münasibətdə səbir və diqqətə ehtiyac artdı. Mədəniyyətin tərifini vermək çətin olduğuna görə buna cəhd göstərməyəcəyəm. Amma mədəniyyətə aid bir çox başqa şeylər arasında təmkinli olmaq və özgələrinə ehtiramla yanaşmaq, şübhəsiz ki, mədəniyyət əlamətidir. Əgər adam özünü ələ ala bilmirsə və başqalarına diqqətlə yanaşmırsa, belələrinə şəksiz, mədəniyyətsiz demək olar.

## İSANIN ANADAN OLMASINA QƏDƏRKİ VI ƏSR VƏ DİN

*20 yanvar 1931-ci il*

Gəl tarixin uzun yolu ilə getməkdə davam edək. Gəlib mühüm mərhələyə çatmışıq. O mərhələdən dövrümüzü iki min beş yüz il ayırır. Bir qədər başqa cür desək, biz İsanın anadan olmasına qədərki VI əsrə yaxın bir dövrə gəlib çatmışıq. Elə bilmə ki, bu, dəqiq tarixdir. Mən dövrü sonə çox təxmini nişan verirəm. O dövrə yaxın vaxtlarda Çindən və Hindistandan İrana və Yunanıstanadək müxtəlif məmləkətlərdə bir sıra böyük adamlara, mütəfəkkirlərə, din banilərinə rast gəlirik. Onlar eyni dövrdə yaşamasalar da, zaman etibarilə bir-birinə yaxın olmuşlar ki, bu da bizə onları bir vaxta – e.ə. VI əsrə, yeni böyük maraq doğuran bir dövrə aid etmək imkanı verir. Görünür, dünyanı fikir dalğası hərəkətə gətirmişdi. Mövcud vəziyyətdən narazı dünya daha yaxşıya can atmaq ümidilə və səyilə hərəkətə gəlmişdi. Bunu yadında saxla, böyük din baniləri həmişə nəsə yaxşıya doğru can atmış, cəhd etmişlər ki, öz xalqlarının taleyini yaxşı tərəfə döndərsinlər və müsibətini azaltsınlar. Onlar həmişə inqilabçı olublar və mövcud şər işlərə hücum çəkməkdən qorxmayıblar. Köhnə ənənə pisliyə tərəf aparanda və ya yeniliyin inkişafına maneçilik törədəndə onlar cəsarətlə buna qarşı hücum çəkib onu aradan qaldırırdılar. Lakin onlar ilk



növbədə böyük insan kütlələri üçün neçə-neçə nəsillərin amalı və ilham çeşməsi olan nəciblik nümunəsi idilər.

İsanın dünyaya gəlməsinə qədərki VI əsrdə bizim Hindistanda Budda və Mahavira, Çində Konfutsi və Lao-tszı, İranda Zərdüşt[1], yaxud Zoroastr, yunan adası Samosda Pifaqor olublar. Bu adları, ola bilsin ki, sən əvvəllər də eşidibsən, amma başqa şeylə əlaqədar. Pifaqoru, hər bir məktəbli oğlan və ya qız – bu zavallıların indi öyrənməli olduqları həndəsi teoremi isbat etmiş narahat bir adam bilir! Həmin teoremdə düzbucaqlı üçbucağın tərəfləri üzərində qurulmuş kvadratlar nəzərdən keçirilir. O teoremi Evkliddə də tapmaq olar, istənilən həndəsi kursda da. Amma həndəsədəki bu kəşflərindən əlavə Pifaqoru böyük mütəfəkkir hesab edirlər. Onun barəsində çox az şey məlumdur, bəziləri hətta onun ümumiyyətlə bir vaxtlar yaşadığına şübhə edirlər.

Rəvayətə görə, Zərdüşt İranda zərdüştiliyin banisi sayılır, amma mən onun bani adlandırılmasının tamamilə düzgün olduğuna əmin deyiləm. Onun qədim İran təfəkkürünə və dininə yeni istiqamət və forma verdiyini demək, bəlkə, daha yaxşı olardı. Bu din, əslində, İranda çoxdandır ki, mövcud deyil. Çox qədim dövrlərdə İrandan Hindistana gəlmiş farslar özləriylə gətirdikləri həmin dinə indiyədək etiqad edirlər.

Həmin dövrdə Çində iki böyük adam olub: Konfutsi və Lao-tszı. Konfutsi yox, Kon Fu-tszı yazmaq daha düzgün olardı. Onların heç biri sözün adi mənasında din banisi olmayıb. Onlar əxlaq və sosial davranış sistemi yaratmışlar ki, orada nəyi etmək və nəyi etməmək lazım gəldiyindən danışılır. Lakin ölümündən sonra Çində onların xatirəsinə xeyli məbəd ucaldılmış və hindlilər Vedalara, yaxud xristianlar Tövrata necə pərəstiş edirlərsə, çinlilər də onların kitablarına eləcə pərəstiş etmişlər. Konfutsi təliminin nəticələrindən birisi çinlilərin çox gözəl ədalara malik olmalarıdır – onlar dünyada ən nəzakətli və ən mədəni adamlardır.

Hindistanda Mahavira və Budda olub. Mahavira caynizm dininin təməlini qoyub. İndi də bu din o vaxtkı şəkildədir. Onun əsil adı Vardhamana idi. Mahavira (hərfən "Böyük qəhrəman" deməkdir) tituldur, bu ad ona böyük adam kimi verilib. Caynların yaşadığı yer əsasən Qərbi Hindistan və Kathiavaradır; hal-hazırda onlara çox vaxt hindular da deyirlər. Kathiavarada və Racputanadakı Abu dağında gözəl məbədlər var. Onlar *ahimsuya*, yaxud zor işlətməkdən imtina etməyə böyük

[1] Zərdüşt ehtimal ki, e.ə. VIII əsrdə yaşayıb.

əhəmiyyət verirlər və hər hansı bir canlıya zərər vura biləcək hərəkətlərin əleyhinədirlər. Bununla əlaqədar, bəlkə sənin üçün maraqlı olar ki, Pifaqor yaman vegetarian[1] idi və çalışırdı ki, bütün şagirdləri və çelələr da vegetarian olsunlar.

Biz indi Quatamaya-Buddaya keçirik. Sənə məlum olduğu kimi o, kşatriyalara mənsubdu və səltənət sürən sülalənin şahzadəsi idi, onu Siddhartha deyə çağırardılar. Anası çariça Mayya idi. Bir qədim xronikada onun barəsində belə deyilir: "O, hamıya nurlu pərəstiş təlqin edərdi. Təzə doğmuş aytək güclü, torpaq tək sakit və inamlı, şanagüllə çiçəyi tək safürəkli idi, böyük xanım Mayya bax, beləydi". Valideynləri Siddharthanı naz-nemət içərisində böyüdüblər, çalışıblar ki, əzab və səfalət mənzərəsindən uzaq olsun. Fəqət, bu mümkün olan şey deyildi; rəvayətə görə bütün cidd-cəhdinə baxmayaraq, o, yoxsulluğun, əzab-əziyyətin və ölümün nə olduğunu axır ki, görmüş, gördüklərindən bərk mütəəssir olmuşdu. Həmin dövrdən öz sarayında dinclik nə olduğunu bilmirdi. Cah-calalı, hətta cavan, qəşəng arvadı belə onun fikrini əzab çəkən bəşəriyyətdən ayıra bilməzdi. Ürəyində bütün bəlalara çarə tapmaq arzusu baş qaldırırdı, elə bir vaxt gəlib çatmışdı ki, daha dözə bilməyib, sakit bir gecədə sarayını və qohum-əqrəbasını tərk edib, ona əzab verən suallara cavab tapmaqçın tək-tənha yola düzəlmişdi. Bu axtarışlar uzun sürmüş və onu əldən salmışdı. Nəhayət, bir çox illərdən sonra, rəvayətə görə, bir gün Qayadakı *pipal* ağacının altında oturarkən varlığını bürüyən nurdan dönüb, Budda, yəni Nurlu olub. Altında əyləşdiyi ağacı isə Bohdi ağacı – Nurlu ağac adlandırıblar. O zaman İzipatana adlanan Sarnathadakı Maral bağında qədim Kaşinin himayəsi altında Budda öz təlimini təbliğ etməyə başlayıb. O, "mürüvvətli həyat yolu"nu göstərib. O, allahlara hər cür qurban verməyin əleyhinə çıxaraq deyib ki, cürbəcür əşyalar, canlılar əvəzinə biz öz qəzəbimizi, kinimizi, paxıllığımızı və bəd fikirlərimizi qurban verməliyik.

Budda anadan olan vaxt Hindistanda qədim Veda dini hökmran olsa da, öz hakim mövqeyini itirmişdi. Brahman kahinlər hər cür mərasim, *pucalar* və mövhumat yayırdılar, lakin *puca* nə qədər çox olarsa, kahinlər də bir o qədər çox firavan dolanar. Kastalar getdikcə daha çox öz qınına qapanırdı. Kastalar mənsubiyyətə getdikcə daha ciddi əməl edir, sadə adamları fala baxmaqla, cürbəcür ovsunla, cadu

[1] **V e g e t a r i a n** – ancaq göyərti, meyvə və südlü yeməklə dolanıb ət yeməyən adam (*tərcüməçinin qeydi*)



və fırıldaqlarla qorxudardılar. Kahinlər xalqı öz nüfuzlarına bu üsullarla tabe edir və hakimlərə – *kşatriyalara* meydan oxuyardılar. Beləliklə, brahmanlarla kşatriyalar arasında rəqabət gedərdi. Budda böyük xalq islahatçısı kimi peyda olmuşdu, o, kahinlərin müstəbidliyini və Veda dininə yol tapan bütün şər işləri ifşa edərdi. Budda *pucaya* və buna bənzər şeylərə riayət etməyə yox, insanlar üçün mürüvvətli həyat sürmək və xoş əməllər zərurətinə böyük əhəmiyyət verirdi. O, Budda *sanqhiləri* – onun dini nəzəriyyəsinə riayət edən rahiblərin və rahibələrin icmalarını təşkil etmişdi.

Buddizm bir din kimi Hindistanda bir müddət geniş yayılmayıb. Daha sonralar onun Hindistanda necə yayıldığını, sonra da sərbəst bir din kimi az qala yenidən sıradan çıxacağını görəcəyik. Onun Seylondan tutmuş Çinədək uzaq məmləkətlərdə qalib gəldiyi bir vaxtda buddizm Hindistanda – öz vətənində brahmanizm, yaxud hinduizm tərəfindən yenidən sıxışdırılıb çıxarılmışdır. Lakin o, brahmanizmə böyük təsir göstərərək, onu bəzi mövhumatlardan və köhnə mərasimlərdən xilas etmişdi.

Bu gün buddizm özünə ən çox tərəfdar toplayan bir dindir. Digər daha çox yayılmış dinlər xristianlıq, islam və hinduizmdir. Onlardan əlavə yəhudilərin, *siqhlərin*, farsların və başqa xalqların dini mövcuddur. Dinlər və onların baniləri dünya tarixində böyük rol oynamışlar. Buna görə də biz hər hansı bir tarix icmalı olursa-olsun, onlardan bəhs etməyə bilmirik. Fəqət, mən həmin dinlərdən yazanda bir qədər çətinlik çəkirəm. Böyük din banilərinin dünyada tanınmış, ən böyük və alicənab şəxslər olduğu heç bir şübhə doğurmur. Lakin onların şagirdləri və varisləri çox vaxt böyük və xeyirxah əməllərdən çox uzaq olmuşlar. Tarixdə çox vaxt görürük ki, bizi ülviləşdirməli, daha yaxşı və daha nəcib görmək istəyən bir din insanları vadar edir ki, özlərini vəhşi heyvantək aparsın. İnsanlara daha çox bilik vermək əvəzinə, din çox vaxt çalışır ki, onları cəhalətdə saxlasın, zehni dünyagörüşünü genişləndirmək əvəzinə çox vaxt onları dardüşüncəli edir və bir-birinə qarşı qoyur. Din naminə neçə-neçə böyük və gözəl əməllər həyata keçirilib, lakin din naminə həmçinin milyonlarla insan öldürülüb və min bir cinayət törədilib.

Bəs din necə olsun? Bir para adamlar üçün din axirət, nə adı qoyursan qoy – səma, yaxud cənnət deməkdir. Onlar səmaya yüksəlmək ümidiylə dinə etiqad edir, ya da bəzi adətlərə əməl edirlər. Bu, mənə

caləbi – mürəbbəli qoğal almaq ümidilə özünü yaxşı aparan çocuğu xatırladır. Hərgah çocuğun fikri-zikri elə hey qoğalın yanında qalıbsa, sən ona deyə bilərsənmi ki, nə tərbiyəli uşaqdır? Ancaq qoğal və ya buna bənzər bir şey xatirinə çalışan oğlan və qızları yəqin ki, sən az bəyənərdin. Bəs onda bu sayaq düşünüb hərəkət edən yaşlılara nə ad verək? Çünki doğrudan da qoğalla cənnət ideyası arasında bir o qədər də fərq yoxdur. Bizim hamımız az-çox xudbinik. Amma çalışırıq övladlarımıza elə tərbiyə verək ki, mümkün qədər xudbin olmasınlar. Hər halda, bizim ideyamız xudbinlikdən tamam azad olmalıdır ki, biz ona uyğun yaşamağa can ata bilək.

Biz hamımız nəyəsə nail olmaq, fəaliyyətimizin nəticəsini görmək istəyirik. Bəs məqsədimiz nədir? Biz təkcə öz qeydimizə qalırıq, yoxsa bundan daha yüksək səadətin qeydinə, cəmiyyətin, bütün bəşəriyyətin səadətinin qeydinə? Nəticə etibarilə bu səadət bizim özümüzə aiddir. Deyəsən, bir neçə gün əvvəl məktublarımdan birində sanskritcə bir şeir misal gətirmişdim. O şeirdə deyilirdi ki, ayrı-ayrı şəxslərin mənafeyini ailənin, ailəninkini – icmanın, icmanınkını – məmləkətin mənafeyinə gərək qurban verəsən. Sanskrit dilindən başqa şeirlərin tərcüməsini misal göstərirəm. “Bhaqavadgita”nın bir parçasında deyilir: “İstədiyim nə səkkiz məziyyətli əla kefdir, nə də nəslin kəsilməsi. Cəmi əzab çəkən mövcudatın qəm-kədər yükünü qoy mən daşıyım. Onların varlığına nüfuz edim ki, əzabkeşlər dərddən-ələmdən xilas olsunlar”.

Bir dindar bir cür deyir, o birisi başqa cür. Çox vaxt da onlar bir-birlərini səfeh və ya dələduz hesab edirlər. Bəs kimdir haqlı? Bir halda ki, onlar nə görmək, nə də dadına baxmaq mümkün olmayan şeylərdən danışırlar, onda bu mübahisəni həll etmək müşkül işdir. Amma belə şeylər haqqında şəksiz fakt kimi danışmaq və onların üstündə başqalarını yormağa bir-birini vadar etmək hər iki dindar tərəfindən xeyli lovğalıqdır. Bizim əksəriyyətimizin dünyagörüşü məhduddur, o qədər də müdrik deyilik. Onda biz bütün həqiqətin bizə məlum olduğunu iddia edib, bu həqiqəti yaxın adamlarımıza zorla qəbul etdirə bilərikmi? Bəlkə də, biz haqlıyıq. Bəlkə, elə onlar da haqlıdırlar. Sən ağacda çiçək görəndə, ona ağac demirsən. Bir başqası təkcə yarpaq, üçüncüsü gövdə görürsə, demək hamınız ağacın müəyyən hissələrini görmüş olursunuz. Guya ağac ancaq çiçəkdən, ya yarpaqdan, ya da gövdədən ibarətdir, – deyə iddia edib bunun üstündə əlbəyaxa olsaydınız, bu, hər biriniz tərəfindən böyük ağılsızlıq sayılardı.



Qorxuram ki, o dünya məni əsla maraqlandırmır. Fikrim bütünlüklə bu dünyada görəcəyim işlərlə məşğuldur və əgər mənim Yer üzündə öz yolum barədə aydın təsəvvürüm olsa, onda mən razı qalaram. Madam ki, bu dünyadakı vəzifəm mənə aydındır, onda başqa bir dünya haqqında narahat olmağa dəyməz.

Böyüyüb boya-başa çatandan sonra sən hər cür adamlarla rastlaşacaqsan: dindarlarla da, din əleyhdarlarıyla da, buna biganə olan adamlarla da. Elə böyük kilsələr və dini təşkilatlar var ki, onlar əllərindəki sərvətdən və qüdrətdən bəzən xoş niyyətlə, bəzən də bəd niyyətlə istifadə edirlər. Sən çox gözəl, nəcib adamlara da, din tərəfdarlarına da rast gələcəksən, din pərdəsi altında başqalarını çapıb-talayan və aldadan fırıldaqçılara da, yaramazlara da. Sən bunların hamısını götür-qoy etməli və özün bir qərara gəlməlisən. Adam özgələrindən çox şey öyrənə bilsə də, ən dəyərli şeyi şəxsi təcrübəsindən öyrənib bilməlidir. Elə suallar var ki, onlara hər kəs, istər kişi olsun, istərsə də qadın, özü cavab verməlidir.

Tələm-tələsik qərar qəbul etmə. Böyük və ya ümdə həyat məsələlərini həll etməkdən qabaq çalışıb çox öyrənməlisən, təhsil alıb, təcrübə toplamalısan. Burası doğrudur ki, adamlar müstəqil düşünüb, qərara gəlməlidirlər. Ancaq bundan ötrü onların qabiliyyətləri olmalıdır. Axı, sən durub südəmər körpədən təmənna edə bilməzsən ki, nəyisə həll etsin. Amma dünyada o qədər adam var ki, yaşca böyük də olsa, ağılca körpədir.

Bugünkü məktubum həmişəkindən uzun çıxdı, sənə yorucu görünə bilər. Amma mən istəyirdim ki, bu barədə rəyimi bildirəm. Əgər sən indi nəyisə dərk etməsən eybi yoxdur. Çox çəkməz ki, hamısını başa düşərsən.

## İRAN VƏ YUNANISTAN

*21 yanvar 1931-ci il*

Bu gün səndən məktub aldım. Biləndə ki, sənin də, ananın da işləriniz öz qaydasındadır, sevindim. Amma mən istərdim ki, Dadu qızdırma xəstəliyindən və başına gələn pis əhvalatdan canını qurtarsın. O, ömrü boyu gərgin işləyib, hətta indinin özündə də nə dincliyi var, nə rahatlığı.

Deməк, sən kitabxanamızdakı kitabların çoxunu oxuyubsan, indi də mənim məsləhətimi gözləyirsən ki, daha nə oxuyasan. Amma nəyi oxuduğunu mənə yazmırsan. Kitab oxumaq yaxşı vərdişdir. Amma mən tez-tələsik, həddindən çox kitab oxuyanlara bir qədər şübhə ilə yanaşıram. Elə güman edirəm ki, onlar heç oxumurlar da, eləcə kitabı gözdən keçirib, səhərisi günü yaddan çıxarırlar. Əgər bir kitab oxunmağa layiqdirsə, onda çalışıb onu diqqətlə oxumaq lazımdır. Amma o qədər kitab var ki, heç oxumağına dəyməz: yaxşı kitab tapıb-seçmək asan iş deyil. Sən mənə deyə bilərsən ki, əgər kitabları öz kitabxanamızdan götürürəmsə, gərək onlar yaxşı olsun, yoxsa onları niyə alırdıq? Di yaxşı; oxumağında ol, mən də sənə Naini həbsxanasından bacardığım qədər kömək edərəm. Mən sənin ruhən və cismən necə tez boy atdığın barədə tez-tez düşünürəm. Kaş sənin yanında olaydım! Bəlkə də indi yazdığım bu məktublar gəlib sənə çatanda sən yaşca daha böyük qız olacaqsan. Amma zənnimcə, Çand[1] o məktubları oxumaq həddinə gəlib çatar. Hər halda məktublara bir qiymət verən tapılar.

Hələlik gəl Qədim Yunanıstana və İrana qayıdaq, onların bir-birilə müharibələrini nəzərdən keçirək. Məktublarımızdan birisi yunan şəhər-dövlətlərinə və İrandakı böyük imperiyaya – yunanların Dara adlandırdığı hakimin hökmranlığı altındakı imperiyaya həsr edilmişdi. Dara imperiyası təkcə ərazisinə görə yox, özünün təşkilinə görə də böyük imperiya idi. O, Kiçik Asiyadan Hində qədər sahəni tuturdu, Misir və eləcə də Kiçik Asiyadakı bəzi yunan şəhərləri də həmin imperiyanın tərkibinə daxil idi. Bu imperiyanın bütün böyük ərazisindən gəlib keçən yollarla imperator poçtu müntəzəm çatdırılardı. Bu və ya digər səbəb üzündən Dara yunan şəhər-dövlətlərini özünə tabe etdirmək qərarına gəlmişdi və onun yunanlara qarşı müharibələrinin gedişində tarixdə məşhur olan bəzi döyüşlər baş vermişdi.

Həmin müharibələrin tarixini təsvir edilən hadisələrdən azca sonra yaşamış Herodot adlı yunan tarixçisi qələmə almışdı;

Herodot, əlbəttə, yunanlara tərəfdir; amma hekayəti çox maraqlı olduğundan onun "Tarix"indən bir neçə sitatı məktublarımda göstərəcəyəm.

İranlıların Yunanıstana ilk hücumu uğursuz qurtarmışdı. Çünki İran ordusu xəstəlik üzündən və ərzaq çatışmazlığı nəticəsində yolda xeyli zərər çəkmişdi. Ordu heç Yunanıstana çatmamış geriyə dönmək məc-

[1] Çandralekha Pandit – İndiranın kiçik əmioğlusu



buriyyətində qalmışdı. Sonra eramızdan əvvəl 490-cı ildə iranlılar ikinci dəfə hücum etmişdilər. Bu dəfə İran ordusu quru yolla yox, dəniz yolu ilə gəlib Afinanın yaxınlığındakı Marafon deyilən yerdə quruya çıxarılmışdı. Afinalıları ciddi vəlvələ bürümüşdü, çünki İran imperiyasının şöhrəti çox böyükdü. Qorxu onları öz köhnə düşmənləri ilə – spartalılarla barışıq üçün yollar axtarmağa və ümumi düşmənə qarşı onlardan kömək istəməyə vadar etdi. Lakin spartalılar gələnədək afinalılar İran ordusunu məğlubiyyətə uğradaraq müvəffəqiyyət qazanmışdılar. Bu, eramızdan əvvəl 490-cı ildə Marafon yaxınlığındakı məşhur döyüş idi.

Kiçik bir yunan şəhər-dövlətinin böyük bir imperiyanın ordusunu məğlubiyyətə uğrada bilməsi adama təəccüblü gəlir. Amma bu, göründüyü qədər də təəccüblü deyil. Yunanlar öz doğma şəhərlərinin bilavasitə yaxınlığında vuruşurdular, onlar vətən uğrunda döyüşürdülər. Halbuki, İran ordusu doğma yurddan çox-çox uzaqlarda idi. Bu ordu İran imperiyasının hər yerindən toplanmış əsgərlərdən ibarətdi. Onlar ancaq pul aldıqları üçün vuruşurdular və deməli, Yunanıstanın istila edilməsilə o qədər də maraqlanmırdılar. Digər tərəfdən də afinalılar özlərinin azadlığı uğrunda çarpışırdılar. Onlar azadlığı itirməkdənsə ölməyi üstün tuturdular. Gözəl əməllər uğrunda ölümün gözünə dik baxanlar isə nadir hallarda məğlubiyyətə uğrayırlar.

Beləliklə, Dara Marafon yaxınlığında məğlub edildi. Tezliklə o, öldü və İranda Kserks onun varisi oldu. Yunanıstanı istila etmək barədə Kserks də şöhrətpərəst niyyətlə yaşayırdı, bu məqsədlə o ekspedisiya təşkil etdi. Bu yerdə mən müharibənin çox maraqlı tarixini eynilə Herodot söyləyən kimi, təsvirə keçirəm. Artaban Kserksin dayısı idi. O, belə hesab edirdi ki, Yunanıstan yürüşü İran ordusu üçün təhlükəlidir. Buna görə də o, bacısı oğlu Kserksi dilə tuturdu ki, yunanlarla döyüşməsin. Herodot nəql edir ki, Kserks ona bu cür cavab verib:

"Dediklərin ağlabatan olsa da, hər yanda təhlükə görmək, ya da hər xata ilə hesablaşmaq lazım deyil. Əgər həmişə hər şeyi eyni əsasla ölçüb-biçsən heç vaxt heç nə edə bilməzsən. Qəm dolu duyğuları həmişə ürəkdə gəzdirməkdənsə və bir dəfə də olsa cəfa görməməkdənsə, daim nikbin olmaq və hadisələrin yarısında cəfa çəkmək daha yaxşıdır. Əgər sən irəli sürülən hər təklifi rədd etmiş olsan və əvəzində bizə düzgün yol göstərməsən, fikrinə etiraz etdiyin adamlar kimi, sən özün də uğursuzluğa düçar olacaqsan. Tərəzinin gözləri tarazdır. Adam necə bilsin ki, hansı tərəf əyiləcək? Bilə bilməz. Lakin qələbə

adətən fəaliyyətə cəhd edənlərə yar olur; ağciyər və hər şeyi ölçüb-biçən adamlara isə nəsib olmur. İranın necə əzəmətə və qüdrətə çatdığını sən özün görürsən. Hərgah mənim səltənət sahibi olan sələflərim sənin kimi düşünsəydilər, yaxud heç özləri də belə düşünməsəydilər, lakin onların sənin kimi müşavirləri olsaydı, sən səltənətimizi heç vaxt bu qədər qüdrətli görə bilməzdin. Mənim sələflərim ancaq məsuliyyəti öz öhdəsinə götürərək səltənətimizi bu ehtişama çatdırmışlar. Yalnız böyük təhlükələrdən keçməklə böyük əməllərə çatmaq olar".

Mən bu uzun-uzadı sitatı ona görə misal gətirdim ki, bu kəlmələr bizim İran padşahını hər cür hekayətdən daha yaxşı tanımağımıza kömək edir. Elə oldu ki, Artabanın məsləhəti doğru çıxdı və İran ordusu Yunanıstanda məğlubiyyətə uğradı. Kserks döyüşdə basılsa da, onun sözlərində hamımıza ibrət ola biləcək həqiqət var. Bu gün biz böyük məqsədlərə nail olmaq istərkən, unutmamalıyıq ki, yalnız böyük təhlükələrdən keçməklə buna çatmaq olar.

Şahənşah Kserks böyük ordusunu Kiçik Asiyadan keçirərək Dardanel, yaxud Hellespont boğazından o taya (o zaman boğaz belə adlanırdı), Avropaya adlayıb. Rəvayətə görə, guya Kserks yolüstü Troya şəhərinin – yunan qəhrəmanlarının çox qədimlərdə Yelena üstündə çarpışdıqları şəhərin – xarabalığına baş çəkib. Ordunu Hellespont boğazından o taya adlatmaq üçün nəhəng bir körpü düzəldilmişdi. Mərmər taxtda əyləşən Kserks isə ordunun körpüdən keçməsini yaxınlıqdakı bir təpədən müşahidə edirdi.

Herodot belə söyləyir: "Bu zaman gəmilərin Hellespontu başdan-başa bürüdüyünü, bütün Abidos sahillərini və düzənliyini əsgərlə dolu görən Kserks özünün bəxtiyar olduğunu deyib ağlamışdı. Dayısı Artaban – yürüşün lap başlanğıcından öz rəyini Kserksə cəsarətlə söyləyən və Ellada üzərinə qoşun çəkməyi padşaha məsləhət görən həmin şəxs – Kserksin ağladığını görəndə ona bu sözlərlə müraciət edib: "Ey padşah, bayaq dediyin hara, indi elədiyin hara! Bayaq özünü bəxtiyar elan etdiyin halda, indi sən göz yaşı tökürsən". Padşah cavabında belə deyib: "Elədir, insan ömrünün nə qədər gödək olduğunu düşünəndə ürəyim rəhmə gəldi: axı, heç yüz il də keçməz ki, bu qədər adamdan heç kəs sağ qalmaz".

Beləliklə, quruda hərəkət edən böyük ordunu dənizdə saysız-hesabsız gəmi müşayiət edirdi. Lakin dəniz yunanlara tərəf idi, güclü tufan qopub gəmilərin əksəriyyətini tələf etdi. Külli miqdarda qoşun ellinlərin, yaxud



yunanların canına lərzə salmışdı, onlar da aralarındakı çəkişməni unudub, istilaçılar əleyhinə birləşmişdilər. Onlar geri çəkilib, Fermopil deyilən yerdə iranlıları dayandırmağa cəhd etmişdilər. Ora çox dar dağ keçidi idi; bir yanı uca dağ, o biri yanı dəniz idi. Belə ki, lap bir neçə nəfər də keçidi düşməndən qoruya bilərdi. Üç yüz spartalının başında duran Leonid orada dayanmışdı ki, keçidi son nəfəsinədək qorusun. Marafon vuruşmasından düz on il keçəndən sonra bu rəşadətli döyüşçülər həmin qəti çarpışma günündə məmləkətə böyük xidmət göstəriblər. Yunan ordusu geriyə çəkilənə qədər onlar düşmənin qabağını saxlayıblar. Fermopilin müdafiəçiləri bir-bir yerə sərildikdə, onları həmin anda o biriləri əvəz edirdi. Odur ki, İran qoşunu keçə bilmədi. Leonid və üç yüz yoldaşı Fermopildəki cəng meydanında tamamilə həlak olmayınca düşmən irəli gedə bilmirdi. Hadisə iki min dörd yüz on il qabaq , e.ə. 480-ci ildə baş versə də, bu yenilməz mərdliyi xəyala gətirərkən insanın qəlbini bu gün də dərin həyəcan sarır. Fermopilə baş çəkən səyyah göz yaşından tutqunlaşmış nəzərini Leonidin və silahdaşlarının qaya üzərində həkk olunmuş nəsihətnaməsindən günü bu gün də ayıra bilmir:

Ey qərib, çatdır ölüm xəbərini, yetsin spartalıya kaş,
Şərəflə qanuna edərək əməl qoyduq burda baş.

Ölümə qalib gələn heyrətamiz mərdlik! Leonid və Fermopil müdafiəçiləri əbədi olaraq yaşayırlar: onları xəyala gətirərkən uzaq Hindistanda belə bizi həyəcan sarır. Onda biz yurddaşlarımız, əcdadımız, Hindistanın kişi və qadınları barədə nələr deməli, nələr hiss etməliyik! Bunlar o şəxslərdir ki, bizim uzun tarix boyu dodaqlarında təbəssüm ölümün gözünə dik baxmış, ölümü ələ salmışlar; bunlar o şəxslərdir ki, demişlər: şərəfsiz yaşayıb qul olmaqdansa, ölüm yaxşıdır, bunlar o şəxslərdir ki, onlara müstəbid önündə diz çökməkdənsə, həlak olmaq asandı. Çitoranı düşün, onun misli-bərabəri olmayan əhvalatını yada sal, Racputa kişi və qadınlarının misilsiz rəşadətini yada sal! İndiki günləri də düşün, yoldaşlarımızı düşün – qanı qanımızdan olan, Hindistanın azadlığı uğrunda ölüm qarşısında sarsılmaq nə olduğunu bilməyən yoldaşlarımızı!

Fermopillilər İran ordusunun hücumunu dayandırdılarsa da, bu uzun sürmədi. Yunanlar onun önündə gerilədilər, bəzi yunan şəhərləri

isə hətta təslim oldu. Lakin məğrur afinalılar düşmənə təslim olmaqdansa şəhəri tərk etməyi və onun düşmən əlində dağılmasını üstün tutdular. Bütün əhali şəhəri tərk etdi, əksəriyyəti də gəmilərdə. İran qoşunu boş qalmış şəhərə soxulub, onu yandırdı. Lakin Afina donanması hələ məğlub olmadığından Salamin adası yaxınlığında böyük döyüş oldu. İran gəmiləri döyüşdə məhv edildi, Kserks isə bu böyük fəlakətdən sonra tamam ruhdan düşüb İrana qayıtdı.

İran hələ bir müddət böyük imperiya olaraq qaldısa da, Marafon və Salamin onun süquta doğru getdiyini göstərmişdi. İmperiyanın necə süqut etdiyini daha sonralar görəcəyik. Bu, nəhəng imperiyanın sarsıldığı həmin dövrdə yaşayanlara ağlasığmaz görünməliydi. Bunu düşünən Herodot belə ibrət dərsi əxz edib: O deyir ki, millətlərin tarixində üç mərhələ müşahidə edilir: müvəffəqiyyət, müvəffəqiyyətin nəticəsi – təkəbbür və ədalətsizlik, sonra da onların öz nəticəsi olan süqut.

## ELLADANIN ƏZƏMƏTİ

*23 yanvar 1931-ci il*

Ellinlərin və ya yunanların iranlılar üzərində qələbələri iki nəticə vermişdi. İran imperiyası tədricən tənəzzülə uğrayıb zəiflədiyi halda, yunanların tarixində onlar üçün ən parlaq bir dövr başlandı. Millətin həyatındakı bu dövr uzun sürmədi. Üst-üstə iki yüz ildən də az. Bu, İran imperiyasından əvvəlkilərə bənzər geniş bir imperiyanın əhtişamı deyildi. Sonralar özünün qələbələri ilə dünyanı qısa müddətdə mat qoyub heyran edən Böyük İsgəndər ucaldı. Lakin biz indi bu barədə danışmayacağıq. İndi Yunan-İran müharibələri ilə İsgəndərin hakimiyyət başına gəldiyi dövr arasındakı Fermopil və Salamindən sonra başlanan, təqribən yüz əlli il davam edən bir dövrü nəzərdən keçirəcəyik. İran tərəfdən yaranmış təhlükə yunanları sıx birləşdirmişdi. Bu təhlükə aradan qaldırılandan sonra isə birlik dağılır, yunanlar yenidən bir-birilə çəkişməyə başlayırlar. Afina ilə Sparta şəhər-dövlətləri arasındakı rəqabət xüsusilə şiddətli idi. Lakin bizi maraqlandıran onların çəkişməsi deyil. Bu çəkişmələrin əhəmiyyəti yoxdur, həmin şəhər-dövlətlər ancaq ona görə indiyədək yadda qalıb ki, o zamankı Yunanıstan başqa cəhətlərdən əzəmətli idi.



O zamankı Yunanıstandan az miqdarda kitab, bir neçə heykəl və xarabalıqlar bizə gəlib çatıb. Lakin bu az şeyin özündə elə cəhət var ki, qəlbimizi heyrətlə doldurur və Ellada adamlarının hərtərəfli olmasına, əzəmətinə valeh oluruq. Öz gözəl heykəltəraşlıq abidələrini və binalarını yaratmaq üçün onlar gör necə hərtərəfli zəkaya, mahir əllərə malik olmalıydılar! O dövrün ən adlı-sanlı heykəltəraşı Fidi idi. Lakin ondan başqa bir çox məşhur adamlar da olmuşdu. Qədim yunanların dram əsərləri, faciə və məzhəkələri hələ də ən böyük əsərlər sırasındadır. Sofokl, Esxil, Evripid, Aristofan, Pindar, Mekandr, Sapfo – bunlar səndən ötrü hələlik adlardır. Amma ümidvaram ki, sən boya-başa çatanda onların əsərlərini də oxuyacaqsan və Yunanıstanın əzəmətinin nədə olduğunu anlayacaqsan.

Yunan tarixinin bu mərhələsi gərək bizim üçün xəbərdarlıq olsun və hər bir ölkənin tarixini necə oxumalı olduğumuzu bizə öyrətsin. Hərgah biz ancaq xırda müharibələrə və başqa əhəmiyyətsiz hadisələrə – yunan dövlətlərinin həyatında üstünlük təşkil edən hadisələrə fikir vermiş olsaydıq, onların barəsində nə öyrənə bilərdik ki? Əgər biz onları başa düşmək istəyiriksə, gərək onların fikrinə yol tapaq, onların hissiyyatına, hərəkət tərzinə alışmağa cəhd edək. Həqiqətən də onların tarixinin təkcə bu cəhəti vacibdir, məhz bunun sayəsində Avropa bir çox cəhətdən qədim yunan mədəniyyətinin yetirməsi olmuşdur.

Millətlərin həyatında belə parlaq dövrlərin necə gəlib-keçdiyi təəccüb və heyrət doğurur. O dövrlər hər şeyi müvəqqəti olaraq parlaq nura qərq edir və həmin dövrdə məmləkətdə yaşayan kişi və qadınlar üçün gözəllik yaratmaq imkanı açır. İnsanlar ilhama gəlirlər. Buna bənzər dövrlər bizim də ölkəmizdə olmuşdur. Bu dövrlər arasında ən erkən dövr Vedanı, Upanişadanı və digər kitabları dünyaya gətirən dövr idi. Bədbəxtlikdən, həmin qədim dövrün yazılı tarixi abidələri əlimizdə yoxdur; ehtimal ki, bir çox böyük əsərlər ya bir yolluq tələf olub, ya da hələ kəşf edilməyib. Lakin bu qədim hindlilərin təfəkkür sahəsində necə nəhəng sima olduğunu göstərmək üçün bizim kifayət qədər məlumatımız var. Bizim hind tariximizdə bu cür parlaq dövrlər sonralar da olmuşdur; ehtimal ki, əsrlərdən əsrlərə səyahətə çıxdığımız vaxt o dövrlərə hələ rast gələcəyik.

Həmin dövrdə Afina xüsusilə şöhrət qazanmışdı. O zaman Afinanın başçısı böyük dövlət xadimi Perikl idi. O, Afinanın idarə sükanını düz otuz il əlində saxlamışdı. O dövrdə Afina xeyli gözəl binaları olan

yaraşıqlı şəhərə çevrilmişdi; orada bir çox böyük rəssamlar və mütəfəkkirlər yaşayırdı. Hələ indinin özündə də bu şəhəri Perikl Afinası adlandırırlar və biz də Perikl əsrindən danışırıq.

Təxminən o zaman Afinada yaşamış tarixçi dostumuz Herodot bu şəhərin inkişafı barədə düşünərdi və o, öyüd-nəsihət verməyi xoşladığı üçün buradan belə bir ibrət dərsi çıxarmışdı. Özünün "Tarix"ində belə deyir:

"Afinanın qüdrəti artırdı. Biz bunda "Azadlıq səadətdir" (sübutu isə hər yanda var) fikrinin təsdiqini görürük. Nə qədər ki Afina istibdad üsulu ilə idarə olunurdu, o, qonşularının heç birindən hərbi cəhətdən üstün deyildi; lakin elə ki, afinalılar müstəbiddən yaxa qurtardılar, onlar qonşularını ötüb keçdilər. Bu onu göstərir ki, qul vəziyyətində onlar ürəkdən çalışmırdılar, çünki öz hökmranları üçün işləyirdilər; azad olduqdan sonra isə heç kim əlindən gələni əsirgəmir, hərə öz qabiliyyətini nümayiş etdirirdi".

Mən o dövrün bəzi görkəmli adamlarının adını çəkdim. Ancaq o dövrün və ümumən bütün dövrlərin ən böyük şəxsiyyətlərindən birinin adını hələ qeyd etmədim. Onun adı Sokratdır. O, daim həqiqət axtaran bir filosof idi. Ondan ötrü yiyələnməyə layiq yeganə bir şey vardısa, o da əsil bilik idi; o, çətin məsələləri dostları və tanışlarıyla tez-tez müzakirə edər, həqiqəti mübahisə yolu ilə aydınlaşdırmağa səy göstərərdi. Xeyli şagirdi və ya *çelası* vardı; onların da ən dahisi Platon – Əflatun idi. Platon bizim dövrə gəlib çatmış xeyli kitab yazıb, müəllimi Sokrat barədə çox şeyi məhz bu kitablardan öyrənmişik. Görünür, nəyisə öyrənməyə daim can atan adamlardan hökumətlərin xoşu gəlmir, həqiqət axtarışlarını onlar bəyənmirlər. Afina hakimlərinə (bu, Periklдən azacıq sonra olmuşdu) Sokratın üsulları xoş gəlməmişdi, buna görə də onu mühakimə edərək, ölümə məhkum edirlər; ona demişdilər ki, adamlarla mübahisələri kəsməyi vəd edərsə və özünün hərəkət tərzini dəyişərsə, onu azad edərlər. Lakin o, bu təklifi də rədd etmiş və özünə borc bildiyi şeydən imtina etməkdənsə, zəhər badəsini içib ölməyi üstün tutmuşdu. Onu ittiham edənlərə və hakimlərə, bütün afinalılara xitabən ölümqabağı belə demişdi:

"Əgər mənə həqiqəti axtarmaqdan əl çəkmək şərtilə azadlığa çıxmağı təklif edirsinizsə, bunun müqabilində mən sizə deyirəm: təşəkkür edirəm sizlərə, ey afinalılar, lakin mən allahlara əvvəlkitək itaət



edəcəyəm, çünki belə düşünürəm ki, bu vəzifəni siz yox, məhz onlar mənim qarşıma qoymuşlar. Buna görə də, nə qədər ki, can var və taqətdən düşməmişəm, fəlsəfəylə məşğul olmaqdan heç vaxt əl çəkməyəcəyəm. Mən hər rastıma çıxana bundan sonra da bu sözlərlə müraciət edəcəyəm: "Var-dövlətə, şan-şöhrətə can atmaqdan və müdrikliyə, həqiqətə, öz ruhunu təkmilləşdirməyə biganə qalmaqdan sən heç xəcalət çəkirsənmi?" Mən ölümün nə olduğunu bilmirəm – bəlkə də o, yaxşı şeydi, mən ondan qorxmuram. Lakin bunu bilirəm ki, insanın borcuna dönük çıxması pisdi, odur ki, mən yaxşı olacaq bir şeyi, bildiyim pis şeydən üstün tuturam".

Sağlığında həqiqətə ləyaqətlə xidmət edən Sokrat özünün ölümü ilə ona daha böyük xidmət göstərib.

İndiki zəmanədə xeyli problem ətrafında – sosializm, kapitalizm və digər hadisələr haqqında mübahisə və müzakirələri tez-tez eşidə bilərsən. Dünyada iztirab və haqsızlıq hökm sürdüyündən adamların çoxu mövcud vəziyyətdən bərk narazı qalır və o vəziyyəti dəyişdirməyə cəhd göstərir. İdarəetmə problemləri üzərində Platon da düşünüb və bu barədə yazıb. Beləliklə, bütün adamlar daha bəxtiyar yaşasın deyə, ölkə və cəmiyyət üçün hansı idarəetmə formasını yaratmaq haqqında hətta o zamanlar da düşünürdülər.

Platon qocalmağa başlayanda məşhurlaşan başqa bir yunan ön cərgəyə çıxdı. Adı Aristotel (Ərəstun) idi və böyük İsgəndərin şəxsi müəllimi olub, İsgəndər də müəlliminə öz işlərində kömək göstərirdi. Sokratdan və Platondan fərqli olaraq Aristoteli narahat edən fəlsəfə problemləri deyildi; təbiət hadisələrini müşahidə etmək onu daha çox maraqlandırdığından təbiətin hərəkət tərzini anlamağa çalışırdı. Buna təbiətin fəlsəfəsi və ya indi daha tez-tez işlədildiyi kimi, təbiətşünaslıq deyilir. Beləliklə, Aristotel ilk təbiətşünas alimlərdən biri olub.

İndi keçək Aristotelin şagirdinə, Böyük İsgəndərə və onun çox sürətlə mənsəbə necə çatmasını nəzərdən keçirək. Amma bununla sabah məşğul olarıq. Bu günlük lazımınca yazmışam.

Bu gün *Vasanta panqamidir* – baharın qədəm qoyduğu gündür. Ömrü gödək qış keçib getdi və hava daha soyuq deyil. İndi bizim yerlərə gündən-günə daha çox quş uçub gəlir və hər gün onların cəh-cəhi eşidilir. Bu gün ananla Dehli şəhərində evləndiyimiz gündən düz on beş il keçir.

## MƏŞHUR FATEH, ŞÖHRƏTPƏRƏST GƏNC

*24 yanvar 1931-ci il*

Axırıncı məktubumda, elə ondan əvvəl də mən Böyük İsgəndərin adını çəkmişdim. Deyəsən, mən onu yunan adlandırmışdım. Belə demək o qədər də düz deyil, çünki əslində o, makedoniyalı idi. Yəni Yunanıstanın şimalındakı məmləkətdəndi. Makedoniyalılar çox cəhətdən yunanlara oxşayırdılar, onları yunanların əmioğluları adlandırmaq olardı. İsgəndərin atası Filipp Makedoniyanın padşahı idi. Çox qabil hökmdar olduğu üçün özünün kiçik ölkəsini möhkəmləndirib döyüşkən ordu yaratmışdı. İsgəndəri Böyük adlandırırlar, o, tarixdə çox şan-şöhrət qazanmışdı. Amma İsgəndərin həyata keçirdikləri ona görə mümkün olmuşdu ki, daha əvvəl atası Filipp bu sahədə böyük zəhmət və səy göstərmişdi. İsgəndər doğrudan da, böyük adam idimi? Mübahisəli məsələdir. Əlbəttə, o, mənim qəhrəmanım deyil. Lakin o, özünün qısa ömrü ərzində iki qitədə adını əbədiləşdirməyə müvəffəq olub, elə tarixdə də o, ilk cahangir hesab edilir. Çox-çox uzaqlarda, Orta Asiyanın düz mərkəzində, onu hələ də İsgəndər kimi xatırlayırlar və əslində hər necə olsa da, tarix onun adını romantik şan-şöhrətlə əhatə edib. Onlarca şəhər onun adı ilə adlandırılıb, onlardan çoxu indi də durur. Ən böyüyü Misirdəki İsgəndəriyyədir.

İsgəndər padşah olanda cəmi iyirmi yaşı var idi. Şöhrətpərəstliyindən böyük olmağa can atan İsgəndər, atasının onun üçün yaratdığı mükəmməl ordu ilə çoxdankı düşmən – İran əleyhinə yürüş etmək arzusuyla çırpınırdı. Yunanlar nə Filippi sevirdilər, nə də İsgəndəri. Lakin onların qüdrətindən qorxurdular. Buna görə də yunan dövlətləri bir-birinin ardınca İsgəndəri İrana soxulmaq üçün nəzərdə tutulan bütün yunan silahlı qüvvələrinin baş komandanı kimi tanıdılar. Beləliklə, yunanlar təzəcə baş qaldıran səltənət qarşısında baş əydilər.

Təkcə yunan şəhəri Fiva İsgəndərin əleyhinə qalxmışdı, lakin o, həmin üsyanı çox böyük amansızlıqla yatırtdı. İsgəndər bu məşhur şəhəri xarabalığa çevirdi, neçə-neçə sakinini öldürdü və neçə minini də kölə edib satdırdı. Özünün vəhşi davranışı ilə Yunanıstanı bərk qorxuya saldı. Lakin, söz yox ki, İsgəndərin həyatından götürülmüş nə bu, nə də başqa vəhşiliklər bizdə iftixar hissi doğura bilmir, əksinə, qəlbimizi yalnız ikrah və hiddətlə doldurur.



İsgəndər o zaman farsların hakimiyyəti altında olan Misiri çox asanlıqla istila etdi; bundan əvvəl o, İran şahı III Daranı – Kserksin varisini məğlubiyyətə uğratmışdı. Bir qədər sonra, o, yenidən İrana hücum edib, ikinci dəfə Daranı məğlub etmişdi. Şahlar şahı Daranın böyük sarayı İsgəndər tərəfindən, onun dediyi kimi, Kserksin Afinanı yandırmasının əvəzi olaraq dağıdılmışdı.

Firdovsi adlı bir şair tərəfindən təqribən min il bundan əvvəl fars dilində yazılmış qədim bir kitab var. İran şahlarının salnaməsi olan bu kitabın adı "Şahnamə"dir. Orada İsgəndərin və Daranın döyüşləri yüksək ilhamla təsvir edilir. Kitabda deyilir ki, məğlubiyyətə uğrayan Dara kömək üçün Hindistana müraciət edir. O, Hindistanın şimal-qərbindəki şahlardan biri olan Fura, yaxud Pora "yelqanadlı dəvə" yollayır. Lakin Por ona heç bir köməklik göstərmir. Tezliklə o özü İsgəndərin hücumunu dəf etməli olur. Maraqlıdır ki, Firdovsi öz "Şahnamə"sində İran şahının və əyanlarının hind qılıncları, xəncərləri gəzdirdiklərini tez-tez xatırladır. Bu onu sübut edir ki, artıq İsgəndərin dövründə Hindistanda əla poladdan qılınclar qayırırdılar ki, digər məmləkətlərdə buna böyük tələbat var idi.

İsgəndər İrandan keçərək, işğallarını davam etdirmişdir. O, indi Heratın, Kabilin və Səmərqəndin yerləşdiyi ölkələrdən keçib Hind çayının yuxarı axarındakı vadilərə gəlib çıxmışdı. Burada İsgəndər ona ilk dəfə müqavimət göstərən hind hakimi ilə üz-üzə gəlmişdi. Yunan tarixçiləri onu yunansayağı – Por adlandırırlar. Onun əsil adı, bəlkə də, buna bənzərdi, amma bu bizə məlum deyil. Deyilənə görə, Por cəsarətlə vuruşduğundan İsgəndər ona asanlıqla qalib gələ bilmir. Belə rəvayət olunur ki, Por olduqca ucaboylu və qoçaq adam imiş, onun mərdliyi və cəsarəti İsgəndərə elə güclü təsir bağışlamışdı ki, o, rəqibini məğlub edəndən sonra şahlığı onun əlindən almamışdı. Amma daha Por şah yox, İsgəndərin canişini kimi satrapa çevrilmişdi.

İsgəndər Hindistana şimal-qərbdəki *Xayber* keçidindən gəlmişdi və Ravalpindinin bir qədər şimalındakı Taksiladan keçib yoluna davam etmişdi. Bu qədim şəhərin xarabalığını elə indinin özündə də görmək olar. İsgəndər Poru məğlub edəndən sonra, görünür, Qanq istiqamətində cənuba doğru getməyi qət etmişdi. Lakin o bu niyyətindən əl çəkib hind vadisi ilə geriyə qayıdıb. Maraqlıdır, görəsən Hindistanın içərilərinə girsəydi necə olardı? Yenə hər yerdə qələbə qazanacaqdımı? Yaxud, hind orduları ona üstün gələrdimi? Bir halda ki, sərhəddəki

məmləkətin hakimi Por onu bu qədər çətinə salıb, onda deməli, Mərkəzi Hindistanın daha iri padşahlıqları İsgəndərin qarşısını almaq üçün lazımi qüdrətə malikdi. Lakin İsgəndərin ürəyindən nə keçirdisə-keçsin, əsgərlər onun əvəzinə qərar qəbul etdilər. İllər boyu yürüşlərdə olan əsgərlər üzülüb əldən düşmüşdülər. Bəlkə də, hind əsgərlərinin döyüş keyfiyyəti onlara güclü təsir edib və əsgərlər riskə girib məğlub olmaq istəmirdilər. Bunun səbəbi nə olursa olsun, ordu geriyə qayıtmağa israr edib və İsgəndərin də razılaşmaqdan başqa çarəsi qalmayıb. Amma, geriyə yol fəlakətli oldu, ordu ərzaq və su çatışmazlığından əziyyət çəkdi. Bundan bir qədər sonra e.ə. 323-cü ildə İsgəndər Babilistanda vəfat etdi. İran əleyhinə hərbi yürüşə başlayandan sonra öz doğma Makedoniyasını görmək daha ona müyəssər olmadı.

İsgəndər otuz üç yaşında vəfat etdi. Bu "böyük" insan qısa ömründə nələrə nail oldu? O, döyüşlərdə bir neçə parlaq qələbə qazandı. Şübhəsiz ki, o böyük sərkərdə idi. Lakin həm də şöhrətpərəst və özündənrazı, hərdən də qəddar və yırtıcı xislətli adam idi. İsgəndər özünü demək olar ki, Allah hesab edirdi. Qəzəblənəndə və ya bir anlıq tərslik üzündən özünün bir neçə ən yaxşı dostunu öldürdü, neçə-neçə şəhəri sakinləri ilə birlikdə yerlə-yeksan etdi. O, yaratdığı imperiyada özündən sonra heç bir möhkəm, davamlı şey – hətta rahat yol belə qoymadı. İsgəndər səmadakı meteortək ani görünüb qeyb oldu, özü barədə xatirədən başqa, heç nə qoyub getmədi. İsgəndərin ölümündən sonra ailə üzvləri bir-birini qırıb-çatdı və beləliklə də onun böyük imperiyası parçalandı. Ona Cahangir deyirlər: rəvayətə görə, günlərin bir günündə o, istila etməyə daha heç nə qalmadığı üçün ağlamışdır. Şimal-qərbdəki kiçik bir sahəni çıxmaq şərtilə Hindistanı zəbt edə bilməyib; o zaman Çin böyük bir məmləkət idi, amma İsgəndər onun sərhədlərinə heç yaxın da getməyib.

İsgəndərin ölümündən sonra onun imperiyası sərkərdələri arasında bölünüb. Misir orada özünün möhkəm hakimiyyətini yaradan və öz sülaləsinin binasını qoyan Ptolemeyə çatıb. Bu sülalənin hakimiyyəti altında Misir paytaxtı İsgəndəriyyə ilə qüdrətli bir ölkəyə, İsgəndəriyyə isə özünün elm fəlsəfə və maarifinin inkişafı ilə şöhrət tapan bir şəhərə çevrilmişdi.

İran, Mesopotamiya və Kiçik Asiyanın bir hissəsinə İsgəndərin başqa sərkərdəsi – Selevk sahib olmuşdu. İsgəndər tərəfindən işğal edilmiş Şimal-Qərbi Hindistanın bir hissəsi də ona qismət olmuşdu.



Lakin o, hind malikanələrinin bir qismini belə öz əlində saxlamaq iqtidarında olmadığından İsgəndərin ölümündən sonra yunan qarnizonu oradan qovulmuşdu.

İsgəndər Hindistana e.ə. 326-cı ildə gəlmişdi. Onun Hindistana soxulması adicə basqın idi və Hindistanın müqəddəratına əsla təsir edə bilməmişdi. Bəziləri belə güman edirlər ki, bu basqın hindlilərlə yunanlar arasında əlaqə yaradılmasına kömək edib. Halbuki Şərqlə Qərbi birləşdirən ticarət yolu əslində İsgəndərdən qabaq var idi və Hindistan İranla və hətta Yunanıstanla da daimi əlaqə saxlayırdı. Bu əlaqələr İsgəndərin gəlməsi nəticəsində, əlbəttə, möhkəmlənməliydi və hər iki mədəniyyət – hind və yunan mədəniyyəti – getdikcə daha sıx əlaqəyə girməliydi.

İsgəndərin basqını və ölümü Hindistanda böyük imperiyanın, Mauryalar imperiyasının yaranmasına səbəb oldu. Bu, hind tarixində ən böyük dövrlərdən biri olduğu üçün onun üzərində daha müfəssəl dayanmalıyıq.

## ÇANDRAQUPTA MAURİYA VƏ "ARTHAŞASTRA"

*25 yanvar 1931-ci il*

Məktublarımızdan birində mən Maqadhanı xatırlatmışdım. Bu, indi Bihar əyalətinin olduğu ərazidə yerləşən qədim səltənət idi. Padşahlığın paytaxtı Pataliputra, müasir Panta idi. Təqribən nəzərdən keçirdiyimiz həmin dövrdə Maqadhada Nandlar sülaləsinə və ya nəslinə mənsub olan şahlar hökmranlıq edirdi. İsgəndər Şimali-Qərbi Hindistana basqın edərkən Pataliputrada Nandlar sülaləsinin nümayəndəsi hökmran idi. Çandraqupta adlı bir gənc orada yaşayırdı, yəqin ki, şahla qohum idi. Görünür, Çandraqupta çox ağıllı, bacarıqlı və şöhrətpərəst adam idi. Nandlar sülaləsindən olan şah, həddindən artıq ağıllı olduğundan, ya da bir hərəkətinin xoşuna gəlmədiyindən Çandraquptanı öz məmləkətindən sürgün etdirmişdi. Çandraqupta Şimala, Taksilaya yola düşmüşdü; Bəlkə də, onu İsgəndər və yunanlar haqqında söylənən rəvayətlər cəlb etmişdi. Vişnuqupta (ona Çanakiya da deyərdilər) adlı çox qabiliyyətli bir brahman da onunla bir yerdəymiş. Çandraqupta və Çanakiya taleyə boyun əyən və hər təsadüflə barışan müti,

həlim və mülayim adamlar deyildilər. Onların ürəyindən böyük və şöhrətpərəst niyyətlər keçirdi, fəaliyyət göstərib müvəffəqiyyət qazanmaq istəyirdilər. Ola bilsin ki, Çandraquptanı özünə cəlb edən və gözlərini qamaşdıran İsgəndərin şöhrətiydi və istəyirdi ki, onun yolu ilə getsin. Bu işdə o, Çanakiyanın şəxsində ideal dosta və məsləhətçiyə malik idi. Hər ikisi qulaqlarını şəkləyib, Taksilada baş verən bütün hadisələri sayıqlıqla izləyirdi. Onlar fürsət gözləyirdilər.

Çox keçmədi ki, gözlənilən fürsət ələ düşdü. İsgəndərin ölüm xəbəri Taksilaya çatdı və Çandraqupta hərəkət eləmək vaxtının yetişdiyini başa düşdü. O, Taksilanın ətrafındakı camaatı ayağa qaldırdı və onların köməyilə İsgəndərin yerləşdiyi yunan qarnizonunu şəhərdən qovdu. Çandraqupta Taksilanı ələ keçirib, müttəfiqləri ilə Pataliputranın cənubuna yollandı və Nandlar sülaləsindən olan şahı məğlubiyyətə uğratdı. Bu hadisə e.ə. 321-ci ildə, yəni İsgəndərin ölümündən düz iki il sonra baş vermişdi: o vaxtdan etibarən Mauriyalar sülaləsinin hakimiyyəti başlanır. Çandraquptanın Mauriya adlandırılmasının səbəbi tam aydın deyil. Bəziləri belə hesab edir ki, bu söz onun anasının adından götürülüb. Anasının adı Mura idi; bir başqaları belə deyirlər ki, babası padşahın tovuz quşlarına qulluq edirmiş, tovuz quşu isə sanskritcə *mayuradır*. Bu sözün mənşəyi nə olursa olsun, Çandraqupta neçə əsr sonralar yaşayan, həmçinin məşhur olan böyük Hindistan hakimi digər Çandraquptadan fərqli olaraq Mauriya kimi tanınırdı.

"Mahabharata"da və digər qədim kitablarda və rəvayətlərdə böyük padşahlar, çakravarti-racələr haqqında məlumat verilir. Bütün Bharata onların hakimiyyəti altında idi. Amma o dövr barədə əlimizdə etibarlı məlumat olmadığına görə Bharatanın və ya Bharatavarşanın nə qədər böyük olub-olmadığını söyləyə bilmərik. Ola bilsin ki, bizə gəlib çatan hekayələrdə qədim hökmdarların qüdrəti şişirdilir. Bunu da nəzərə almamaq olmaz ki, Hindistanın tarixindi ilk güclü, geniş imperiya Çandraqupta Mauriyanın imperiyası idi. Sonralar görəcəyik ki, orada həmin dövr üçün mütərəqqi olan hökumət böyük hakimiyyətə malikdi. Aydındır ki, belə bir hökumət və dövlət birdən-birə meydana çıxa bilməzdi. Bunun üçün uzun dövr ərzində müxtəlif proseslər, kiçik şahlıqların bir-birinə birləşməsi və hökuməti idarəetmə məharətinin inkişafı prosesləri baş verməli idi.

Çandraquptanın hakimiyyəti dövründə Kiçik Asiyadan tutmuş Hindistanacan bütün məmləkətləri ələ keçirən İsgəndərin sərkərdəsi Selevk



onun varisi kimi öz ordusu ilə Hind çayından adlayaraq Hindistana soxulmuşdu. Bu cür tələsik, ehtiyatsız hərəkətlərinə görə o, bərk peşmançılıq çəkməli oldu. Çandraqupta onu ağır məğlubiyyətə uğratdı və Selevk əliboş qayıtdı. O, nəinki heç yeri zəbt edə bilmədi, hətta Kabil və Herat da daxil olmaqla Qəndəharı, yaxud Əfqanıstanı Çandraquptaya güzəştə getməli oldu. Selevk qızını Çandraquptaya ərə verdi. İndi Çandrqaquptanın imperiyası Kabildən Benqaliyaya və Ərəbistan dənizindən Benqal körfəzinə qədər bütün Şimali Hindistanı və Əfqanıstanın bir hissəsini əhatə edirdi. Onun hakimiyyətinə tabe olmayan yalnız Cənubi Hindistan idi. Bu böyük imperiyanın paytaxtı Pataliputra idi.

Selevk Meqasfeni səfir sifətilə Hindistana yollayır ki, Çandraquptanın sarayında onu təmsil eləsin. O dövr haqqında Meqasfendən maraqlı qeydlər qalıb. Lakin bizim əlimizdə Çandraqupta dövründə idarə işini bütün təfərrüatıyla təsvir edən daha maraqlı mənbə var: Kautilyanın yazdığı "Arthaşastra", Kautilya demə, bizim əvvəldən tanıdığımız Çanagiyanın və ya Vişnuquptanın özüdür, "Arthaşastra" isə faydalı işlər haqqında elm deməkdir.

"Arthaşastra" o qədər çox şeylərdən bəhs edir ki, o qədər cürbəcür məsələlərdən söz açır ki, bunlar haqqında ətraflı danışmağa imkanım yoxdur. Əsərdə şahın, onun nazirlərinin və müşavirlərinin vəzifələri, şura məclisinin, müxtəlif hökumət idarələri, ticarət, şəhər və kəndlərin idarə edilməsi, qanunlar və məhkəmə üsulu, ictimai adətlər, qadınların hüquqları, qocaların və kimsəsiz əlillərin saxlanması, nikah və boşanma, vergiqoyma, ordu və donanma, müharibə və sülh məsələləri, diplomatiya, əkinçilik, əyirmə və toxuculuq, sənətkarların vəziyyəti, pasport verilməsi və hətta həbsxana məsələlərindən bəhs edilir. Yenə də sadalamaq olar, amma istəmirəm ki, məktubumu Kautilyanın əsərinin başlıqlarıyla yazıb doldurum. Xalqın əlilə keçirilən tacqoyma mərasimi zamanı padşah xalqa qulluq edəcəyinə and içməli idi. O belə deməliydi: "Hərgah sizi incitsəm qoy mən səmadan, həyatımdan və nəsillərimdən məhrum olum!" Kitabda padşahın gündəlik məşğuliyyətindən və vəzifələrindən bəhs edilir. O, təcili iş görməyə gərək həmişə hazır olaydı, lakin padşah üçün ictimai işləri yubandırmaq, təxirə salmaq yaramazdı. "Əgər padşah iş görəndirsə, onda onun təbəələri də iş görən olacaq". "Onun səadəti təbəələrinin səadətinə, onların rifahına bağlıdır, padşah təkcə özünə xoş gələn şeyi gərək nemət saymasın, təbəələrinə xoş gələn şeyi də gərək nemət saysın". Bizim

hazırkı dünyamızda monarxlar yox olmaq üzrədir. Qalanları da çox azdır, amma elə onlar da tezliklə yox olacaqlar. Burasını da qeyd etmək maraqlıdır. Qədim Hindistanda monarxiya ideyası xalqa xidməti nəzərdə tuturdu. Monarxların nə ilahi hüququ vardı, nə də ki, mütləqiyyət hakimiyyəti. Deməli, padşah pis hərəkət edərdisə, camaatın onu hakimiyyətdən uzaqlaşdırmaq və yerinə başqasını seçmək hüququ vardı. Hər halda, monarxiya ideyası belə idi, nəzəri cəhətdən də belə vəziyyətdəydi. Əlbəttə, bu ideala uyğun gəlməyən monarxlar çox idi və onlar ağılsız davranışıyla öz məmləkətinin və camaatının xeyli bədbəxtliyinə bais olurdular.

"Arthaşastra"da bir qədim qanuna xüsusi əhəmiyyət verilir. Bu qanuna görə "ariləri heç bir halda döndərib qul etmək olmazdı". Görünür, ölkədə müxtəlif qul kateqoriyaları var imiş ki, ya başqa dövlətlərdən gətirilmiş, ya da məmləkətin yerli əhalisinə mənsubmuş. Amma arilər barəsində elə tədbirlər görülübmüş ki, onların döndərilib qul halına salınmasına əsla imkan verilməzmiş.

Mauriyalar imperiyasının paytaxtı Pataliputra idi. Bu, Qanqın sahili boyunca doqquz mil uzanıb gedən əzəmətli bir şəhərdi. Şəhərin yüzlərcə kiçik darvazasını hesaba almasaq təkcə baş darvazalarının sayı altmış dörd olub. Evlər əsasən ağacdan tikilib, yanğın təhlükəsi olduğu üçün onun qarşısını almaqdan ötrü əməlli-başlı ehtiyat tədbirləri görülərmiş. Şəhərin baş küçələrində həmişə su dolu minlərcə qab saxlanılırdı. Qablar, eləcə də asma nərdivanlar, qarmaqlar və habelə digər lazımi şeylər hazır vəziyyətdə olmalı idi.

O zaman şəhərlərdə qüvvədə olan qaydalardan biri barədə – Kautilyanın söylədiyi qayda barədə xəbər tutmağın maraqlı olardı. Əgər birisi küçəyə zibil atsaydı, cəriməylə cəzalandırılardı və yaxud bir adam küçədə çirkab yığınına yol verərdisə, o da cərimələnərdi. Əgər bu qaydalara həqiqətən əməl edilirdisə, demək, Pataliputrada və başqa şəhərlərdə səhiyyə şəraiti yaxşı olub. Elə buna görə də bu şəhərlər gözəl və təmizdi. Kaş bu cür qaydalar bizim bəzi bələdiyyə idarələri tərəfindən də tətbiq olunaydı!

Pataliputrada şəhər işlərinə baxmaq üçün bələdiyyə şurası mövcud idi. O, əhali tərəfindən seçilirdi. Şuranın tərkibi otuz nəfər üzvdən ibarətdi ki, onlara da hərəsində beş adam olan altı müxtəlif komissiya daxildi. Bu komissiyalar şəhər sənətkarlarının işi ilə, səyyahların və zəvvarların yerləşdirilməsilə, vergiylə əlaqədar ölüm və doğum hallarının qeydə alınması ilə məşğul olar, hazır məlumat və digər işlər barədə sərəncam verərdilər. Ümumiyyətlə, bütün Şura səhiyyə, maliyyə, su təchizatı, bağ və ictimai bina məsələlərinə baxardı.



Ədalət məhkəməsini *pançayatalar* apararmış, həmçinin apelyasiya[1] məhkəmələri də varmış. Aclıq olduğu təqdirdə əhaliyə yardım məqsədilə xüsusi tədbirlər, bütün dövlət anbarlarındakı yerlərin yarısını aclıq hadisəsi üçün ayrılmış ərzaq ehtiyatı tutardı.

İki min iki yüz il əvvəl Çandraqupta və Çalakiya tərəfindən yaradılmış Mauriyalar imperiyası belə idi. Mən sənə Kautiya və Meqasfenin bəhs etdiyi məsələlərdən ancaq bəzisini xatırlatdım. Amma elə bu da o zamankı Hindistan barədə səndə təxmini də olsa təsəvvür yarada bilər. Paytaxt şəhəri Pataliputradan və digər iri şəhərlərdən tutmuş minlərcə xırda şəhər və kəndlərəcən ölkənin hər yerində həyat qaynayırdı. İmperiyanın müxtəlif hissələrini iri yollar birləşdirirdi. Şahın gedib-gəldiyi əsas yol *racapatra*, Pataliputradan keçib şimal-qərb sərhədinə gedirdi. Saysız-hesabsız kanallar vardı və bunlara nəzarət etmək üçün xüsusi suvarma idarəsi mövcud idi, habelə gəmiçilik idarəsi də vardı. Limanlar, bərələr, körpülər və məntəqələrarası müntəzəm gedib-gələn gəmi və qayıqlar həmin idarənin sərəncamında idi. Gəmilər həmçinin Birmaya və Çinə də səfər edirdilər.

Çandraqupta bu imperiyada iyirmi dörd il hökmran olub. O, e.ə. 296-cı ildə vəfat edib. Gələn məktubda Mauriyalar imperiyasının tarixini davam etdirərik.

## ÜÇ AY!

*"Krakoviya" gəmisi,*
*21 aprel 1931-ci il*

Çoxdandı sənə yazmırdım. O vaxtdan təqribən üç ay, kədərlə, çətinliklə və gərginliklə dolu üç ay keçib. Bu üç ayda Hindistanda dəyişiklik olub, xüsusilə də ailəmizdə. Hindistan *satiyaqrahı* və ya mülki itaətsizlik kompaniyasını müvəqqəti olaraq dayandırıbsa da, qarşımızda duran problemləri həll etmək yenə də asan deyil, ailəmiz isə özünün əziz, istəkli başçısını, bizə ruh, qüvvət verən, qayğı ilə

[1] A p e l y a s i y a – məhkəmənin qərarından yuxarı məhkəməyə şikayət etmə (*tərcüməçinin qeydi*)

böyüdüb boya-başa çatdıran və hamımıza ana olan, Hindistan qarşısında öz borcumuzu yerinə yetirməyi öyrədən bir şəxsi itirdi.

Naini həbsxanasındakı həmin gün yaxşıca yadımdadır. Bu, yanvarın 26-da olmuşdu. Həmişəki kimi, əyləşib ötən günlər barədə sənə yazmaq istəyirdim. Çandraqupta haqqında və onun tərəfindən əsası qoyulan Mauriyalar imperiyası haqqında yazmaq istəyirdim. Vəd etmişdim ki, hekayətimi davam etdirim və Çandraqupta, Mauriyanın ardıcılları, allahların sevimlisi Böyük Aşok barədə danışım; o, Hindistan səmasında parlaq ulduztək doğmuş və özündən sonra ölməz xatirə qoyaraq sönmüşdür. Aşoku düşünəndə, fikrim dolanıb indiyə – yanvarın 26-na – sənə məktub yazmaq üçün əlimdə qələm-kağız tutduğum günə qayıtdı. O gün bizim üçün əlamətdar idi, çünki həmin günü Hindistanın hər yerində, şəhər və kəndlərində istiqlaliyyət – *Purna svarac* günü kimi qeyd etmişdik. Hamımız da, milyonlarla adam and içmişdik ki, istiqlaliyyətə nail olaq. O vaxtdan bir il keçib – mübarizə ili, əzab və qələbələr ili! İndi Hindistan həmin əlamətdar günü təzədən qeyd etməyə hazırlaşır. Mən də Naini həbsxanasının 6 nömrəli barakında əyləşib, həmin gün ölkənin hər yerində keçiriləcək mitinq və nümayişlər barədə, əllərdə *lati* – dəyənək, hücum etmək barədə və həbslər barədə düşünürdüm. Mən bunları düşünərkən iftixar, sevinc qarışıq qəzəb hissi keçirirdim ki, elə bu məqamda fikirlərimi qəflətən qırdılar. Kənardan mənə xəbər çatdırdılar... Dadu bərk xəstədir və məni dərhal azad etməlidirlər ki, onun yanına gedə bilәm. Təşviş məni bürüdü, nə düşündüklərimi unutdum, yazmağa başladığım məktubu kənara qoydum. Naini həbsxanasını tərk edib Anand Bhavana yola düşdüm.

Dadu bizi hələ tərk edib getməmiş yanında on gün qaldım. Onun əzab-əziyyətinin, can verməsinin və əzrayılla gecə-gündüz mərdanə mübarizəsinin düz on gün şahidi olduq. O, ömrü boyu neçə-neçə döyüşdə olmuş, çoxlu qələbə qazanmışdır! Dadu təslim olmaq nədi bilmirdi, hətta ölümlə üz-üzə gələndə güzəştə getmək istəmirdi. Onun həyatının bu son döyüşünü müşahidə edərkən, ürəkdən sevdiyim adama kömək edə bilmədiyim üçün acizliyim ucundan əzab çəkə-çəkə Edqar Allan Ponun lap çoxdan oxuduğum bir hekayəsindəki sətirləri xatırladım: "Əgər insanın iradəsi zəifləmirsə, o nə mələklərə can verər, nə də əzrayılın özünə!"

Bu hadisə fevralın 6-da oldu, səhər tezdən Dadu bizi tərk etdi. Onun çox sevdiyi bayrağa bükülmüş cəsədini Laknaudan Anand Bhavana gətirdik. Bir neçə saat sonra o bir ovuc külə döndü və Qanq bu qiymətli yükü dənizə apardı.

Milyon-milyon adam ona matəm saxlayırdı; bəs bizim halımız necə olsun, onun övladlarının, qanı-qanından, canı-canından olan övladlarının! Bəs onun təzə Anand Bhavan evi necə olsun? O bizə necə dayəlik edib bəsləmişdisə, eləcə də məhəbbət və qayğı ilə qurduğu, övladı sayılan o ev necə olsun? O ev kimsəsiz və boşdur və elə bil onun ruhu evi tərk edib. Odur ki, bu evi kim qurduğunu hey düşünə-düşünə, onun ruhunu narahat etməmək üçün eyvanlardan asta addımlarla keçib gedirik.

Biz Daduya matəm saxlayırıq. Addımbaşı onun yeri görünür. Günlər ötüb-keçir, dərdimizsə azalmaq bilmir. Dadudan ayrılmağımıza çox çətinliklə dözürük. Amma, elə bilirəm ki, o bizi bu halda görmək istəməzdi. O, bizi dərd-kədərdən beli bükülmüş halda yox, əksinə, çətinlikləri özü necə qarşılayırdısa, necə dəf edirdisə, eləcə görmək istərdi. O istərdi ki, onun axıra çatdıra bilmədiyi işi biz davam etdirək. Bizi iş-güc gözlədiyi halda, Hindistanın azadlığı işi bizdən xidmət tələb etdiyi halda, necə böyrümüzü yerə verib rahat otura bilərik, ya da çarəsiz dərdə necə qərq ola bilərik? O, bu amal uğrunda mübarizədə həlak oldu. Biz bu amal xatirinə yaşayıb mübarizə edəcəyik. Və lazım gələrsə, canımızdan keçəcəyik. Axı, onun övladları bizik və ondakı atəşdən, qüvvə və qətiyyətdən bizim də qəlbimizdə nəsə var.

Bu sətirləri yazarkən qarşımda tünd-mavi Ərəbistan dənizi cilvələnir; uzaqlarda yanımızdan keçən Hindistan sahilləri görünür. Mən bu nəhəng, nəhayətsiz enginliyi düşünür və onu, sənə əvvəlki məktubumda yazdığım Naini həbsxanasındakı yüksək divarlı xırdaca barakla tutuşdururam. Üfüqün sərt cizgiləri qarşımdadı, adama elə gəlir ki, sanki dəniz göylə orda görüşür; həbsxanada isə məhbusun üfüqü – vur-tut onu dövrələyən divarların yuxarı küncüdür. Bizlərdən həbsxanada olanların çoxu artıq buraxılıb, indi onlar həbsxana divarlarından kənarda azadlıq havası ilə nəfəs ala bilərlər. Lakin bir çox həmkarlarımız dənizi, torpağı və üfüqü görmək imkanından məhrum olduğu halda, öz darısqal kamerasında hələ də zillət çəkir. Hindistan özü də hələ məhbusdur və onun azadlığı hələ qarşıdadır. Hindistan azad deyilsə, bizim azadlığımız nəyə dəyər?

## ƏRƏBİSTAN DƏNİZİ

*"Krakoviya" gəmisi,*
*22 aprel 1931-ci il*

"Krakoviya" gəmisində Bombeydən Kolomboya səyahət etməyimiz çox təəccüblüdür! Təxminən dörd il əvvəl Venetsiyada bu gəminin gəlişini necə gözlədiyim yaxşıca yadımdadır. Dadu "Krakoviya"da idi; mən də Venetsiyaya yola düşmüşdüm ki, onu qarşılayam, səni isə İsveçrədəki Beksa məktəbinə aparam. Yenə bir neçə ay sonra, Dadu Avropadan məhz "Krakoviya" ilə qayıdırdı, mən də onu Bombeydə qarşılayırdım. Həmin səfərdə onunla olan bir neçə yol yoldaşı indi bizimlədir, onun barəsində çox şey nəql edirlər.

Üç ayda baş vermiş dəyişikliklər barədə sənə dünən yazmışdım. Mən istərdim ki, cəmi bir neçə həftə əvvəl baş vermiş bir hadisə yadında qalsın, bütün Hindistan bunu uzun illər xatırlayacaq. Heç bir ay olmaz ki, Hindistanın rəşadətli əsgəri Qaneş Vidyarthi Kanpur şəhərində keçinib; başqalarını xilas etməyə cəhd göstərərkən onu yerindəcə vurublar. Qaneş məndən ötrü əziz dost, nəcib və fədakar bir yoldaş idi, onunla işləmək adama son dərəcə zövq verirdi. Ötən ay Kanpurda vurhavur başlayanda və hindlilər bir-birini öldürəndə o, vuruşanların üzərinə atılıb; ona görə yox ki, həmvətənləri ilə əlbəyaxa olsun, ona görə ki, onları xilas etsin. Yüzlərcə insanı xilas etmiş bu adam özü xilas ola bilməyib; heç o, nicat yolu axtarmırdı da! Nəticədə məhz xilas etməyə çalışdığı adamlar tərəfindən öldürülüb. Kanpur və əyalətimiz parlaq bir ulduzdan məhrum oldu, çoxumuzsa əziz və ağıllı bir dostdan! Sakit baxışlarla, ağlını itirmiş izdihamla üz-üzə gələrkən əsla sarsılmayan və hətta ölüm təhlükəsi belə başının üstünü alarkən yalnız başqalarını xilas etməyi düşünən bu adamın ölümü necə də şərəfli ölüm idi!

Üç ay çəkən dəyişiklik! Zaman dəryasında birce damla, millət həyatında yalnız birce an! Sinddə Hind çayı vadisindəki Mohenco-Daro xarabalığına baş çəkdiyim cəmi üç həftədir. Sən yanımda deyildin. Torpaqdan baş qaldıran iri şəhər gördüm; kərpic evləri, geniş küçələri olan, deyildiyinə görə, beş min il qabaq salınmış şəhər gördüm. Bu qədim şəhərdə tapılmış yaraşıqlı qablar və cavahirat da gördüm. Elə bil, əyinlərinə əlvan libas geymiş kişi və qadınları küçə və döngələrdə gəzişən gördüm, oynayan uşaqlar gördüm, parlaq, müxtəlif mallarla dolu bazarlarda oldum, alverçilərlə və alıcılarla rastlaşdım, məbədlərin zəng səslərini eşitdim.



Bu beş min ildə Hindistan adi həyatla yaşayıb və xeyli dəyişikliyin şahidi olub. Hərdən özüm-özümə sual verirəm: qədim olduğu qədər də cavan və gözəl olan qoca anamız Hindistan görəsən özünün səbirsiz övladlarına göz qoyarkən onların cəmi bir gün çəkən, sonrasa əbədi qeyb olan təşvişini, sevinc və kədərini görəndə gülümsəmir ki!

## YUXU KİMİ GÖRÜNƏN İSTİRAHƏT VƏ SƏYAHƏT

*26 mart 1932-ci il*

Keçmişin tarixi barədə Naini həbsxanasından sənə məktub yazdığım vaxtdan on dörd ay keçib. Üç ay sonra isə Ərəbistan dənizindən əlavə olaraq daha iki qısa məktub göndərdim. O zaman biz "Krakoviya" gəmisində idik və Lankaya[1] tələsirdik. O məktubları yazarkən sahili görünməyən böyük bir dəniz gözlərim önündəydi və mən ona acgöz nəzərlərlə baxdıqca doymaq bilmirdim. Sonra biz Lankaya gəlib çatdıq və bütün dərd-sərimizi və iztirabımızı unutmağa çalışaraq özümüzə bir aylığa əla istirahət düzəltdik. Adalar içərisində ən gözəlini eninə-uzununa o ki var gəzdik; qeyri-adi gözəlliyinə və təbiətinin səxavətinə heyran olduq. Əzəmətli Kandinin, Nuvara-Eliyanın, Anuradhapur xarabalığının və keçmiş əzəmətli diyarın qalıqları olan bu yerləri gəzməyimizi xatırlamaq necə də xoşdur! Ancaq mənim ən çox xəyalına daldığım bizə min gözlə baxan, həyat dolu sərin tropik cəngəlliklərdir: sərvboylu dümdüz arcka ağacı və saysız-hesabsız hind qozudur, palma ağaclarının dövrəyə aldığı adanın zümrüd yaşıllığının dəryanın və səmanın maviliyinə qovuşduğu dəniz sahilidir, dalğalar sahilə çırpılır, palma yarpaqları xəfif-xəfif pıçıldaşır.

Bu sənin tropiklərə ilk gəlişindir, əgər bir az xatirimdən çıxmış o çoxdankı qısa gəlişimi saymasaq, elə bu yerlər məndən ötrü də təzədir. Məni ən çox əsir edən dəniz və dalğalardır, zirvələrdəki qardır, buzlaqlardır. Seylonda olduğumuz o qısa müddətdə belə mən tropiklərin cazibəsini və füsunkar gözəlliyini duydum. Geriyə dönəndə xeyli qəribsədim, yenidən o tropiklərlə həmdəm olmaq ümidimi üzmədim.

[1] Seylonun qədim adı

Seylondakı bir aylıq istirahətimiz çox tez başa çatdığından gəmimiz körfəzi yarıb o taya keçdi və biz Hindistanın cənub qurtaracağına çatdıq. Kanniya kumariyə – rəvayətə görə, oranı mühafizə edən bakirə ilahənin sakin olduğu yerə baş çəkdiyimiz yadındadımı? Bizim yer adlarını təhrif edib korlamaqda mahir olan Qərbdəki adamlar o adı dəyişib Komorin burnu ediblər. Biz o zaman, sözün hərfi mənasında, ana Hindistanın ayaqları altında əyləşmişdik. Ərəbistan dənizinin Benqal körfəzinin sularına necə qovuşduğunu görürdük və hər ikisinin Hindistana sanki baş əydiyini təsəvvür etməkdən xoşumuz gəlirdi. Orada qəribə bir sükut hökm sürürdü və fikrim dolanıb geriyə, neçə min il şimala, Hindistanın başı qarlı Himalay dağlarının ucaldığı, həmçinin sakitlik və rahatlığın hökm sürdüyü başqa bir diyarına baş alıb gedirdi. Lakin aralarındakı bütün sahədə mübarizə gedir, hər yanda səfalət və iztirab görünür!

Biz Komorin burnunu tərk edərək şimala istiqamət aldıq.

Biz Malabarın kiçik və sakit körfəzlərindən keçib Travankur və Koçin yolu ilə gedirdik. Bu xırda körfəzlər necə də gözəlmiş! Gəmimiz ay işığında meşəli sahillər arasından elə süzülüb keçirdi ki! Deyirdim bu yuxudur. Sonra biz Maysuru, Heydərabadı və Bombeyi adlayıb Allahabada gəlib çatdıq. Bu əhvalat doqquz ay qabaq, iyun ayında olmuşdu.

Lakin Hindistanın bütün yolları bizim zəmanəmizdə gec-tez bir son məntəqəyə gətirib çıxarır, yuxuda görünən və ya həqiqətdə olan bütün səyahətlərin də axırı həbsxanada qurtarır! Budur, yenə mənə yaxşıca tanış olan dörd divar arasındayam; fikirləşməyə və sənə məktub yazmağa nə qədər desən vaxtım var, hərçənd məktublarım gedib heç sənə çatmır. Mübarizə təzədən başlandı, xalqımız – kişi də, qadın da, oğlan da, qız da azadlıq uğrunda döyüşə gedir ki, ölkəmizin səfalət damğasından xilası yolunda çarpışsın. Lakin azadlıq elə bir ilahədir ki, ona sahib olmaq çətindir; qədimlərdəki kimi, ona səcdə qılanlardan insan qurbanı tələb edir.

Həbsxanada yatdığım günün üç ayı bu gün tamam olur. Üç ay qabaq, elə həmin gündə, dekabrın 26-da, altıncı dəfəydi ki, həbsə alınırdım. Bu məktubları sənə yenidən yaza bilməyim üçün xeyli vaxt keçdi. Fəqət, bilirsən ki, bəzən adamın başı bugünkü məsələlərə qarışanda uzaq keçmiş barədə düşünmək necə də çətindir. Həbsxana şəraitinə alışmaq, onun xaricində baş verən hadisələr barədə düşünməmək üçün mənə bir qədər vaxt lazımdır. Çalışıram ki, sənə müntəzəm məktub yazam, amma indi başqa həbsxanadayam. Bu dəyişiklik ürəyimcə deyil və işimə bir balaca mane olur. Burada üfüqüm əvvəlkindən ensizdir. Qarşımdakı divar, hər halda hündürlüyü cəhətdən, yoqin böyük Çin səddinə oxşardır; təqribən iyirmi beş fut hündürlüyündədir və hər səhər günəş çıxandan sonra saat yarım vaxt tələb edilir ki, o, bu divarı aşıb bizə mehman gəlsin.



Üfüqümüzü müvəqqəti olaraq məhdudlaşdırmaq olar. Amma burada iri mavi dənizi, dağları, səhraları və yuxutək görünən səyahəti xatırlamaq xoşdur. İndi sənin, ananın və mənim on ay əvvəl o səyahətdə olmağımızı həqiqətdə baş verən hadisə kimi çox çətin təsəvvür edə bilirsən.

## İNSANIN YAŞAYIŞ VASİTƏLƏRİ UĞRUNDA MÜBARİZƏSİ

*28 mart 1932-ci il*

Ümumdünya tarixindən bəhs edən hekayətimizi davam etdirək və bir qədər keçmişə nəzər salaq. Bu elə dolaşıq tordur ki, onun düyününü açmaq da, gözlə görmək də çətindir. Biz o torun gözlərindən birində azmağa və ona layiq olduğundan daha böyük əhəmiyyət verməyə yaman meyil edirik. Az qala hamımız bu fikirdəyik ki, ölkəmizin tarixi, hansı ölkədən söhbət getməsinin fərqi yoxdur, digər ölkələrin tarixindən daha zəngindir və öyrənilməyə daha çox layiqdir. Mən səni bir dəfə bu məsələdən xəbərdar etmişdim, yenə də xəbərdar edirəm. Belə də asanlıqla tələyə düşmək olar. Bu məktubları ona görə yazmağa başladım ki, sən bu cür yanılmayasan; halbuki məhz bu səhvə mən özüm də hərdən yol verdiyimi hiss edirəm. Bir halda ki, mənim öz təhsilim az idi və tarixi mənə təhrif olunmuş şəkildə tədris ediblər – nə edə bilərdim ki, indi mən bu həbsxanada tək-tənha tarixi öyrənməyimi davam etdirməklə səhvimi düzəltməyə çalışmışam və bəlkə də buna müəyyən dərəcədə nail ola bilmişəm. Lakin mən adamların şəklini və hadisələrin mənzərəsini hələ uşaqlıq və gənclik çağımdakı düşüncəmdə yerləşdirdiyim rəsm qalereyasından qopara bilmirəm. Bu şəkillər isə lazımınca biliyim olmaması üzündən tarix haqqında elə onsuz da məhdud olan təsəvvürümü təhrif edir. Buna görə də səhvlərə yol verəcəyəm, daha mühüm faktları unudub, əhəmiyyətsizlərini xatırlayacağam. Amma bu məktublar tarix kitablarını əvəz etmək üçün nəzərdə tutulmayıb. Məktublar heç olmazsa mənim özümə təsəlli verib, ümid edirəm guya onlar minlərcə mil məsafə və bir çox möhkəm divar bizi bir-birimizdən ayırmasaydı edə biləcəyimiz – *entre nous* kiçik söhbətlərdir.

Bir çox məşhur adamlar haqqında sənə yazmaq fikri məni tərk etmir. Tarixə aid kitablarda onlardan bəhs edən səhifələr olduqca çoxdur. Maraqlı taleləri olan bu adamlar yaşadıqları dövrü dərk etməkdə bizə tez-tez kömək edirlər. Lakin tarix adlı-sanlı şəxslərin – kralların, imperatorların və onlara bənzər qeyrilərinin göstərdikləri əməllərin adicə salnaməsi deyil. Əgər belə olsaydı, onda tarixi yazmaqdan lap indicə əl çəkmək olardı, çünki kral və imperatorlar dünya səhnəsini demək olar ki tərk etmişlər. Əsl böyük kişilərin və qadınların, başqalarının gözündə yaxşı görünmək üçün taxt-taca, daş-qaşa, ad-sana əlbəttə ki, ehtiyacı yoxdur. Bu ancaq krallara və knyazcıqlara lazımdır, onların kral və knyaz titullarından savayı özgə heç nəyi yoxdur. Onlar dəbdəbəli paltara və libasa bürünməlidirlər ki, bu görkəm altında öz daxili boşluqlarını gizlədə bilsinlər. Bədbəxtlikdən, bizlərdən çoxunu çaşdıran məhz bu zahiri bərbəzəkdir və biz səhv edərkən:

Vur-tut kral olan kəsə
Deyirik: Əzəmətli padşah.

Əsil tarix gərək hərdənbir meydana çıxan ayrı-ayrı şəxsiyyətlərlə yox, o adamlarla məşğul olsun ki, onlar milləti təşkil edir, çalışır və yaşayış üçün ən vacib şeyləri və zinət şeylərini öz zəhmətilə yaradır, o adamlarla ki, bir-birlərinə müxtəlif vasitələrlə təsir edir və qarşılıqlı əlaqə yaradırlar. Bu cür bəşəriyyət tarixi doğrudan da çox cəlbedici olardı. Bu, insanın təbiətə və kortəbii qüvvələrə, vəhşi heyvanlara və cəngəlliklərə qarşı, nəhayət, ən çətini, mənafeyi üçün onu qula çevirib istismar etməyə cəhd göstərən özü kimi digər adamlara qarşı mübarizə tarixi olardı. Bu, insanın yaşayış uğrunda mübarizə tarixidir. Madam ki, yaşayış üçün yemək, ev-eşik və soyuqda paltar kimi bəzi şeylər lazımdır, onda dolanmaq üçün çox vacib olan bu şeylərə sahib olanlar elə insanın özünə də ağalıq edirdilər. Hökmdarların və sahibkarların əlində hakimiyyət vardı. Onlar həyat üçün ən zəruri, ən vacib bəzi vasitələrə malik idilər və ya o vasitələrə nəzarət edirdilər ki, bu nəzarət də sahibkarlara adamları ac saxlamaq hədəsi ilə, özünə tabe etdirmək imkanı verirdi. Bax, buna görə də qəribə bir mənzərənin şahidi oluruq: nisbətən azlıq təşkil edənlər heç işləməyə-işləməyə geniş kütlələri istismar edirlər. Külli miqdarda insan isə işləyə-işləyə çox az qazanır.



Təklikdə şikara çıxan vəhşi ovçu yavaş-yavaş ailə yaradır, bütün ailə üzvləri də bir təsərrüfatda birləşərək biri digəri üçün zəhmət çəkir. Bir sıra ev təsərrüfatları bir-birilə birləşib kənd əmələ gətirir, sonralar isə müxtəlif kəndlərin əmək adamları, alverçiləri və sənətkarları birləşib peşə sexləri yaradırlar. Cəmiyyət özəyinin necə tədricən böyüdüyünü görürsən də?! Əvvəlcə ayrıca bir fərd, vəhşi kimi mövcudmuş. Heç bir cəmiyyət-filan mövcud deyildi. Bundan sonra daha iri vahid olan ailə gəlir, sonra da kənd və kəndlər qrupu yaranır. Bu sosial vahid niyə artıb? İnkişafa və birləşməyə səbəb yaşayış vasitəsi uğrunda mübarizə idi, çünki birləşəndə ümumi düşməndən qorunmaq və ona hücum etmək qat-qat asan olurdu. Əməkdə birləşmə daha çox fayda verirdi. Birgə iş görərkən təklikdə görülən işdən qat-qat artıq qida və yaşayış üçün zəruri şeylər istehsal etmək mümkün olurdu. Əməkdə birlik o deməkdi ki, iqtisadi özək özü üçün ov edən bir vəhşidən iri-iri qruplar səviyyəsinə yüksəlir. Ehtimal ki, məhz bu iqtisadi vahidin inkişafı nəticə etibarilə cəmiyyətin sosial inkişafına gətirib çıxarıb. Yaşayış vasitəsi uğrunda mübarizə insanı daim həmin inkişafa doğru təhrik edirdi. Nəticədə cəmiyyətin inkişafına və sosial vahidin inkişafına gətirib çıxarıb. Biz bu inkişafı tarixin uzun dövrləri ərzində az qala sonsuz ixtilaflar və fəlakətlər arasında, arabir də əvvəlki vəziyyətə qayıtmaqda müşahidə edirik. Amma elə fikirləşmə ki, sanki bu inkişaf mütləq o deməkdir ki, dünya böyük tərəqqiyə nail olub, yaxud da əvvəllərə nisbətən qat-qat xoşbəxt olub. Bəlkə dünya əvvəlkindən yaxşı olub, amma o kamillikdən çox uzaqdadır və dünyanın hər yerində hələ də bədbəxt adam çoxdur.

Həmin iqtisadi və sosial vahidlər inkişaf etdikcə, həyat daha çox mürəkkəbləşirdi. Ticarət və alış-veriş inkişaf edirdi. Hədiyyə verməyin yerini mübadilə ticarəti tutur, sonra meydana pul çıxır və bu da bütün mübadilə işlərində çox böyük dəyişikliyə səbəb olur. Qızıl və gümüş sikkələrlə ödəmə mübadiləni asanlaşdırdığı üçün ticarət sürətlə inkişafa başlayır. Sonralar sikkədən həmişə belə istifadə etmirdilər və adamlar kağız pul işlətməyə başladılar. Pulu ödəmək üçün iltizam kimi yazılmış bir parça kağız kifayət hesab edilirdi. Beləliklə, banknotlar və çeklər dövriyyəyə buraxılır. Bu, əməliyyatların kreditlə aparılması demək idi. Kreditlə əməliyyat aparmaq öz növbəsində ticarətə və alverə böyük fayda verir. Bildiyin kimi, bizim zəmanəmizdə çeklərdən və banknotlardan tez-tez istifadə olunur, ağıllı adamlar qızıl və gümüş dolu kisələri özləriylə daha gəzdirmirlər.

Nəticədə görürük ki, tarix tərəqqi etdikcə, keçmişin dumanlı uzaq dolaşıqlığından çıxdıqca adamlar get-gedə daha çox məhsul istehsal edir, müxtəlif peşələr üzrə ixtisaslaşır, mal mübadiləsi gedir ki, bu da ticarətin genişlənməsinə səbəb olur. Biz həmçinin görürük ki, yeni və daha mükəmməl rabitə üsulları, xüsusilə buxar mühərriki ixtira olunduqdan sonrakı yüz ildə cəmiyyət necə inkişaf edir. İstehsal inkişaf etdikcə, dünyanın sərvəti artır və insanların, heç olmazsa, bəzilərinin asudə vaxtları daha çox olur. Beləliklə də, mədəniyyət deyilən şey də inkişaf edir.

Hər şey belə olduqda insanlar da mədəni və mütərəqqi əsrimizlə və müasir böyük mədəniyyətimizin və elmimizin əlaqələri ilə öyünürlər. Bununla belə kasıb həmişəki kimi, yenə kasıb və bədbəxtdir, böyük millətlər bir-birilə döyüşür və milyonlarla adamı öldürürlər. Böyük-böyük ölkələr isə bizim ölkə kimi yadellilərin tapdağına çevrilir. Əgər bizim hətta evimizdəcə azadlığa ixtiyarımız yoxdursa, onda mədəniyyət bizə nə fayda verə bilər? Amma indi biz ayağa qalxmışıq və işə möhkəm girişmişik.

Hər birimizin böyük hadisələrdə iştirak edə biləcəyi bir dövrdə, təkcə Hindistanda deyil, bütün dünyada dəyişiklik prosesinin getdiyini gördüyümüz bir coşqun dövrdə ömür sürmək əsil səadətdir! Sən bəxtiyar qızcığazsan. Sən elə bir ildə və ayda anadan olmusan ki, Rusiyada böyük inqilab yeni bir era açdı. İndi isə sən öz ölkəndə inqilabın şahidi olursan və tezliklə o inqilabın iştirakçısı ola bilərsən. Bütün dünyada çıxışlar və dəyişikliklər baş verir. Uzaq Şərqdə Yaponiya bıçağı Çinin lap boğazına dirəyir; Qərbdə, lap elə bütün dünyada, köhnə sistem sarsılır, az qalır ki, dağılsın. Ölkələr tərksilahdan danışsa da, bir-birinə şübhəli nəzərlərlə əyri-əyri baxır və yenə də, əvvəlki kimi, təpədən-dırnağadək silaha sarılır. Bu, kapitalizmin – dünyada bu qədər uzun ağalıq etmiş kapitalizmin tənəzzülüdür. Kapitalizm yox olandan sonra isə – bu hökmən baş verəcək, bir çox bəlalar da onunla birlikdə yox olacaq.

## İCMAL

*29 may 1932-ci il*

Əsrlərdən-əsrlərə etdiyimiz səyahətdə biz nə qədər irəliləmişik? Biz Misirdəki və Hindistandakı, Çindəki və Knossdakı qədim dövrlərdən az-çox söhbət açdıq. Misirin ehramlar yaratmış qədim, gözəl mədəniyyətinin yavaş-yavaş tənəzzülə doğru getdiyini, qüvvədən düşdüyünü və əsil həyatdan məhrum xəyali bir kölgəyə, formaya, simvollara çevrildiyini gördük. Knossun yunan materikindən gəlmə qohum irq tərəfindən necə dağıdıldığını gördük. Hindistanda və Çində bu ölkələrin tarixlərinin dumana bürünmüş uzaq başlanğıcına ötəri bir nəzər saldıq; material qıtlığı üzündən çox şeyi öyrənmək imkanımız olmasa da, anladıq ki, Hindistan və Çin hələ o zamanlar zəngin mədəniyyətə malik olublar; bu ölkələrin hər birisinin mədəniyyətini min illərə bərabər keçmişləriylə bağlayan qırılmaz zəncir də bizi heyran etdi. Bir-birini əvəz edən imperiyaların taleyinin qısaca tərəqqidən sonra digər imperiyaların taleyi kimi olduğunu Mesopotamiyada ötəri seyr etdik.

İsadan təqribən beş-altı yüz il əvvəl müxtəlif ölkələrdə meydana gələn böyük mütəfəkkirlər haqqında da az-çox söz dedik. Hindistandakı buddadan və Mahaviradan, Çindəki Konfutsidən və Lao-tszıdan, İrandakı Zərdüştdən və Yunanıstandakı Pifaqordan söz açdıq. Qeyd etdik ki, Budda kahinlərin dünyəvi hakimiyyətinə və Veda dininin mövcud formalarına qarşı hücumlar etmişdi. Çünki o, belə fikirdə idi ki, bu formalar xalqı hər cür mövhumat, pucalar vasitəsilə aldadaraq kütlələrə zorla qəbul etdirilirdi. Budda həmçinin kastalar sisteminə də hücum edərək bərabərlik təbliğ edirdi.

Sonra biz Qərbi Asiya ilə Avropanın birləşdiyi yerə qayıtdıq, İranın və Yunanıstanın taleyini izlədik. İranda böyük imperiyanın meydana gəldiyini və "şahlar şahı" Daranın İran hüdudlarını Hindistandan Sindəcən genişləndirdiyini, böyük imperiyanın balaca Yunanıstanı udmağa cəhd göstərdiyini gördük. Bununla belə balaca ölkənin düşməni dəf etmək və özünü qorumaq iqtidarında olduğuna inanandan sonra bu işə mat qaldıq. Sonra yunan tarixinin qısa da olsa, parlaq dövrü gəlib çatdı. Dahi və görkəmli adamların tam bir dəstəsinin yaşadığı və misilsiz gözəlliyə malik ədəbiyyat və incəsənət yaratdığı yunan tarixinin həmin parlaq dövrü barədə sənə az-çox danışmışdım.

Yunanıstanın "Qızıl dövr"ü çox az davam edib. Makedoniyalı İsgəndər öz qələbələrilə Yunanıstanın şan-şöhrətini çox uzaqlara yaysa da, onun hakimiyyətə gəlməsilə Yunanıstanın yüksək mədəniyyəti tədricən tənəzzülə başladı. İsgəndər İran imperiyasını dağıdıb və hətta bir müzəffər kimi Hindistanın hüdudlarına da soxulub. Şəksiz, o, böyük sərkərdə olub, amma nəsillər onun barəsində saysız-hesabsız əfsanə uydurub və onu elə şan-şöhrətə çatdırıb ki, o, buna bir o qədər də layiq deyil. Sokrat

və yaxud Əflatun barədə, Fili, yaxud Sofokl barədə, ya da ki, Yunanıstanın digər böyük şəxsiyyətləri barədə ancaq çox savadlı adamların az-çox məlumatı var. Lakin Makedoniyalı İsgəndərin adını kim eşitməyib?

İsgəndər nisbətən az iş görüb. İran imperiyası qocalıb əldən düşdüyü üçün, çətin ki, uzun yaşaya bilərdi. İsgəndərin Hindistana soxulması böyük əhəmiyyəti olmayan adicə bir basqın idi. Əgər İsgəndərin ömrü uzun olsaydı, bəlkə daha əhəmiyyətli işlər görə bilərdi. Amma o, cavan yaşlarında öldü və imperiyası dərhal ayrı-ayrı hissələrə parçalandı. Onun imperiyası dağılsa da, İsgəndərin adı yaşayır.

İsgəndərin Şərqə yürüşünün ən böyük nəticələrindən biri Şərqlə Qərb arasında yeni əlaqələrin yaradılması oldu. Şərqə gəlmiş bir çox yunanlar qədim şəhərlərdə, ya da əsasını yenicə qoyduqları koloniyalarda məskən saldılar. Hələ İsgəndərdən əvvəl də Şərqlə Qərb arasında mədəni və ticarət əlaqələri olub. Amma bu əlaqələr onun yürüşündən sonra xeyli genişlənib.

Bu da ola bilsin ki, onun hərbi yürüşləri yunanlara bədbəxtlik gətirib. Belə bir nəzəriyyə mövcuddur ki, İsgəndərin əsgərləri Mesopotamiya bataqlıqlarından Yunanıstan vadilərinə özlərilə qızdırma ağcaqanadı gətiriblər; tezliklə yayılan xəstəlik yunan millətini zəiflədib. Bu, Yunanıstanın süquta uğramasını izah edən təşəbbüslərdən biridir. Hər halda bu, ancaq nəzəriyyədir və bu nəzəriyyədə nə qədər həqiqət olub-olmadığı heç kimə bəlli deyil.

İsgəndərin imperiyası uzun ömür sürmədi. Lakin onun yerində daha kiçik bir neçə imperiya, o cümlədən Ptolemeyin Misiri və Selevkin Qərbi Asiyası meydana gəldi. Ptolemey də, Selevk də, hər ikisi İsgəndərin sərkərdələri idi. Selevk Hindistana basqın etmək istədisə də, bunun müqabilində Hindistanın ona güclü cavab zərbəsi endirəcəyini bildiyindən qorxub geri çəkildi. Çandraqupta Mauriya bütün Şimali və Mərkəzi Hindistanı əhatə edən qüdrətli bir dövlətin əsasını qoydu. Çandraqupta və "Arthaşastra" kitabını yazmış məşhur vəzir, brahman Çanakiya barədə lap əvvəllər yazdığım məktublarda sənə az-çox danışmışam. Xoşbəxtliyimiz orasındadır ki, bu kitab o zamankı – təqribən iki min iki yüz il əvvəlki Hindistanın mənzərəsini yaxşı təsvir edir.

İcmalımızı qurtardıq. Mauriyalar imperiyası və Aşoka haqqındakı söhbətimizi sonrakı məktubda davam etdirərik. Doğrudur, söz vermişdim ki, buna hələ on dörd ay qabaq, yəni 1931-ci il yanvar ayının 25-də Naini həbsxanasında əməl edəm, amma verdiyim vədə hələ bundan sonra əməl etməliyəm.



# AŞOKA – ALLAHLARIN SEVİMLİSİDİR

*30 mart 1932-ci il*

Deyəsən, hökmdarların və hakimlərin xidmətini kiçiltməyə həddən artıq uyuram. Belə adamlarda heyran qalmalı və ehtirama layiq çox az xüsusiyyət görürəm. Amma indi söhbət elə bir adamdan gedəcək ki, padşah və imperator olsa da, heyran qalmağa layiq böyük bir şəxs idi. Bu, Çandraqupta Mauriyanın nəvəsi Aşokadır. Herbert C.Uells (yəqin ki, onun bəzi romanlarını oxumusan) özünün "Bəşəriyyətin qısa tarixi" kitabında Aşokadan bəhs edərkən yazır: "Tarixin səhifələrini başdan-başa doldurmuş on minlərcə padşah adları içərisində, əlahəzrətlərin, alihəzrətlərin və buna bənzər şəxslərin adları içərisində Aşokanın adı az qala yeganə bir ulduztək parlayır. Volqadan tutmuş Yaponiyaya qədər hər yanda onun adını böyük ehtiramla çəkirlər. Çin, Tibet və hətta Aşokanın təlimindən uzaqlaşmış Hindistan belə onun əzəmətini rəvayətlərdə hifz edir. Onun xatirəsini əziz tutanların sayı Konstantin və ya Böyük Karl barədə ucundan-qulağından eşidib bilənlərdən qat-qat artıqdır".

Bu, əlbəttə ki, yüksək tərifdir, lakin Aşoma buna tamamilə layiqdir: hər bir hindli Hindistanın həmin dövrü haqqında düşünəndə bundan xüsusi zövq alır.

Çandraqupta xristian erasından təqribən üç yüz il əvvəl vəfat etdi. Oğlu Bindusara onun varisi oldu, ehtimal ki, onun əmin-amanlıqla keçən hakimiyyəti iyirmi beş il davam edib. O, yunan aləmi ilə əlaqələr saxlayırdı. Misirdən Ptolemey adından, Qərbi Asiyadan isə Selevkin oğlu Antiox adından onun sarayına elçilər gələrdi. Onun dövründə xarici aləmlə ticarət aparılırdı. Misirlilərin öz parçalarını Hindistandan aldıqları indiqo[1] boyağı ilə boyadıqları məlumdur. Orası da məlumdur ki, onlar öz mumiyalarını hind muslininə[2] bükürdülər. Biharda tapılmış qədim dövrün qalıqları yəqin onu göstərir ki, hələ Mauriyalar dövründən əvvəl Hindistanda bəzi şüşə növləri istehsal edilirdi.

Meqasfenin – Çandraquptanın sarayına gəlmiş yunan elçisinin dəbdəbəli və yaraşıqlı bəzək şeylərinə hindlilərin vurğunluğu barədə nə yazdığını bilmək sənə maraqlı olar. O, xüsusilə yazırdı ki, hindlilər elə

[1] İndiqo – tünd sürməyi boyaq (*tərcüməçinin qeydi*)
[2] Muslin – yun, ipək və ya pambıqdan toxunmuş nazik parça (*tərcüməçinin qeydi*)

ayaqqabı geyirmişlər ki, hündür görünsünlər. Deməli, hündürdaban ən yeni dəbin ixtirası deyil.

Aşoka e.o. 268-ci ildə Bindusaranın xələfi oldu; o, başdan-başa Şimali və Mərkəzi Hindistanı əhatə edən və Orta Asiya sərhədlərinədək gedib çatan böyük bir imperiyanın varisi idi. Yəqin ki, o, Hindistanın cənub-şərqini və cənubunu öz imperiyasına qatmaq fikrilə hakimiyyətinin doqquzuncu ilində Kalinqini istila üçün təşəbbüs edib. Kalinqi Hindistanın şərq sahilində, Mahanadi, Qodavari və Kistna çayları arasında yerləşirdi. Kalinqi əhli cəsarətlə döyüşsə də qanlı çarpışmadan sonra diz çökmüşdü. Bu müharibə, qanlı döyüş Aşokaya elə dərin təsir etmişdi ki, onda müharibələrə və onun törətdiyi qırğınlara qarşı böyük nifrət oyatmışdı. Həmin vaxtdan etibarən o, müharibəni tamamilə rədd edir. Cənubda yarımadanın kiçik çıxıntısından başqa az qala bütün Hindistan onun hakimiyyəti altında idi. Həmin kiçik çıxıntını ələ keçirməklə, istəsəydi Hindistanı bütünlüklə istila edə bilərdi. Amma o, bundan vaz keçdi. Herbert C.Uellsin dediyi kimi, o, yeganə fateh padşahdı ki, mənbələrin göstərdiyinə görə, hələ qələbələr qazandığı bir vaxtda istilanı davam etdirməkdən əl çəkib.

Bəxtimizdən, Aşokanın nələr fikirləşdiyi və nələr etdiyi barədə onun özünün yazıları bu günə kimi qalıb. Daş və metal üzərində həkk olunmuş saysız-hesabsız fərmanlar onun öz xalqına və gələcək nəsillərə məktublarını bizdən ötrü hifz edib. Allahabad qalasında belə bir Aşoka sütunu olduğunu bilirsən. Bizim əyalətimizdə elə bu cür xeyli sütun indiyədək qalıb.

Bu fərmanlarda Aşoka özünün peşmançılığını, qan tökməyə – müharibələrin törətdiyi qırğınlara qarşı nifrətini bildirir. O deyir: insanın yeganə həqiqi qələbəsi özü üzərindəki qələbəsidir, *dharmların* köməyilə insan qəlbini məftun etməkdir. Amma həmin fərmanlardan bəzisini sitat gətirsəm daha yaxşıdır. Bu çox maraqlı qiraətdir, onda Aşokanın fikri sənə daha anlaşıqlı və daha yaxın görünər.

Fərmanların birində deyilir: "Kalinqa Müqəddəs və Lütfkar Əlahəzrət tərəfindən istila edilib. Bu hadisə onun hakimiyyətə keçdiyi vaxtdan səkkiz il sonra olub. Oradan yüz əlli min adam əsir aparılıb, yüz min adam öldürülüb, bundan qat-qat çox adam həlak olub".

"Kalinqanı öz imperiyasına ilhaq edəndən dərhal sonra Müqəddəs Əlahəzrətləri Möminlik qanununu canla-başla müdafiə etməyə başladı. O, bu qanunu bəyəndi və dharmı tətbiq etməyə başladı. Beləliklə də,



Kalinqanı istila etdiyinə görə Müqəddəs Əlahəzrətlərinin qəlbində peşmançılıq hissi yarandı. Çünki əvvəllər fəth olunmamış bir məmləkətin istila edilməsi qan tökülməsinə, ölümə və onun sakinlərinin əsirliyə göndərilməsinə səbəb olub. Bu hal da Müqəddəs Əlahəzrətlərinin dərin kədər və təəssüf hissinə səbəb olubmuş".

Fərmanda daha sonra deyilir ki, Aşoka qan tökülməsinə və ya Kalinqada öldürülən və əsir alınanların sayının heç yüzdə və ya mində birinin də əsir alınmasına indən belə yol verməyəcək.

"Bundan başqa, əgər bir şəxs onun qəlbinə toxunarsa, onda Müqəddəs Əlahəzrətləri mümkün qədər buna dözməlidir. Onun hətta malikanələrində yaşayan meşə əhalisinə belə Müqəddəs Əlahəzrətləri xeyirxahlıqla yanaşır və çalışırdı ki, onların fikir tərzini düzgün yola yönəltsin. Hərgah o, belə hərəkət etməsəydi, peşmançılıq hissi Müqəddəs Əlahəzrətlərini çulğalayardı. Çünki Müqəddəs Əlahəzrətlərinin istədiyi bu idi ki, bütün canlı mövcudat özlərini təhlükəsiz hiss etsin, özlərini elə saxlasınlar ki, onların qəlbində dinclik və fərəh hökm sürsün". Aşoka daha sonra izah edir ki, əsil qələbə Vəzifə və ya Möminlik Qanununun köməyilə insan qəlbini ələ almaqdır. O nəinki özünün malikanələrində, eləcə də uzaq-uzaq səltənətlərdə buna bənzər əsil qələbələr qazandığından da bəhs edir.

Həmin fərmanlarda onun dəfələrlə istinad etdiyi qanun Budda qanunu idi. Aşoka əsil buddistə çevrildi və *dharmları* yaymaq üçün əlindən gələni eləyirdi, lakin o, zorakılığa və ya məcburiyyətə əl atmırdı. O, insanların qəlbini ələ almaqla onları öz məzhəbinə döndərməyə çalışırdı. Dindarlar içərisində Aşoka kimi dözümlü adamlar çox az idi. Ruhanilər adamlara öz məzhəblərini qəbul etdirmək üçün zor işlətməkdən, adamların canına qorxu salmaqdan və onlara kələk gəlməkdən də əsla çəkinmirdilər. Tarix dini təqib və müharibələrlə başdan-başa doludur; bəlkə də, din və Allah naminə tökülən qan hər cür başqa şey naminə tökülən qandan qat-qat artıq olub. Buna görə də Hindistanın dinə son dərəcə sədaqətli olan böyük oğlunun, qüdrətli imperiya başçısının adamları məzhəbindən döndərib özü düşünən tərzdə düşünməleri üçün necə hərəkət etdiyini yadda saxlamaq lazımdır. Qəribədir, adam gərək nə qədər səfeh olsun ki, guya din və məzhəb kimi şeylərin qılınc və ya süngü gücünə insana qəbul etdirilə bilməsinə inansın.

Aşoka – *devanampriya* allahlarının sevimlisidir (fərmanlarda belə adlanır). O öz çaparlarını və səfirlərini Qərbə, Asiya, Avropa, Amerika

dövlətlərinə yollayarmış. Yəqin ki, yadındadır, o, doğma qardaşı Mahendranı və bacısı Sanqamitranı Seylona göndərmişdi. Onlar da, rəvayətə görə Qayyada[1] olan müqəddəs pipal ağacının budağını özlərilə aparıblar. Anuradhapura məbədində gördüyümüz pipal ağacı yadındadırmı? Belə söyləyirlər ki, guya o ağac həmin qədim budaqdandır.

Buddizm Hindistanda tez yayıldı. *Dharma* Aşoka üçün mənasız ibarələri, icra edilən *pucaların* və mərasimlərin adicə təkrarı olmadığından, əksinə, xeyirxah və cəmiyyəti ucaldan əməllər olduğundan ictimai bağlar və xəstəxanalar, quyu və yollar ölkəni başdan-başa bürümüşdü, qadınların təhsilini təşkil etmək üçün ayrıca tədbirlər görülmüşdü. Dörd iri darülfünun şimalda, Pişəvərin yaxınlığında Takşaşila, yaxud Taksila; indi ingilislərin bəsitləşdirib Mattratək yazdıqları Mathura; Mərkəzi Hindistanda Uccayn və Bihardakı Patna yaxınlığında olan Nalanda, yalnız Hindistan tələbələrini yox, Çindən ta Qərbi Asiyayadək uzaq məmləkətlərin tələbələrini özünə cəlb edirdi. Tələbələr evlərinə qayıdarkən Budda təlimi haqqında məlumatı həmvətənlərinə çatdırırdılar. Ölkənin hər yerində iri-iri monastırlar ucaldılmışdı, onlara *vihara* deyərdilər. Görünür, Pataliputranın və ya Patnanın ətrafında o qədər çox monastır varmış ki, bütün əyalətə Vihara və ya indi deyildiyi kimi, Bihar deməyə başlayıblar. Lakin çox vaxt olduğu kimi, bu monastırlar da öz ruhunu, təlim və düşüncə tərzini tezliklə itirərək dönüb adamların müəyyən qayda ilə ibadət etdikləri adi bir yer olubdur.

Aşoka bəşər həyatını qorumaq ehtirasını heyvanat aləminə də keçirmişdi. Heyvanlar üçün ayrıca müalicəxanalar tikilmiş, heyvan qurban vermək qadağan edilmişdi. Hər iki halda bizim zəmanəmizi də qabaqlamışdı. Bədbəxtlikdən, qurbanvermə hələ indinin özündə də müəyyən dərəcədə adətdir və dinin mühüm tərkib hissəsi sayılır. Heyvanları müalicə etməyə isə az qayğı göstərilir.

Aşokanın nümunəsi və buddizmin yayılması vegetarianlığın şöhrət tapmasına gətirib çıxarır. O vaxta qədər Hindistandakı *kşatriyalar* və brahmanlar adətən ət yeyər, şərab və digər spirtli içkilər içərdilər. Ət yemək və şərab içmək də xeyli azalmışdır.

Beləliklə, Aşoka cəmiyyətin rifahını dinc yolla təmin etmək üçün əlindən gələni əsirgəməyərək, düz otuz səkkiz il hakimiyyət sürüb. O, ictimai vəzifəsini yerinə yetirməyə həmişə hazırdı. O deyir: "Hər vaxt, hər yerdə – süfrə başında, hərəmxanada, yataq otağımda və ya iş otağımda, minik arabamda və ya saray bağında da olsam – vəzifəli şəxslər gərək mənə camaatın halından xəbər versinlər". Hərgah bir çətinlik baş verərdisə gərək dərhal ona, "o saat və hər yerdə" məlumat veriləydi. Çünki "o, gərək ümumi rifah naminə zəhmət çəkəydi".

[1] Qayya – Şimali Hindistanın Bihar ştatında şəhər (*tərcüməçinin qeydi*)



Aşoka eramızdan əvvəl 226-cı ildə vəfat etdi. Ölümünə az qalmış o, buddist rahibə çevrildi.

Mauriyalar dövrünün qədim qalıqları ölkəmizdə çox az saxlanıb. Əlimizdə olan qalıqlar əslində ari mədəniyyətinin erkən abidələridir. Mohenco-Daroda indiyə qədər kəşf olunmuş tapıntıları biz hələlik nəzərə almırıq. Benares yaxınlığındakı Sarnathada zirvəsini şirlərin bəzədiyi gözəl Aşoka sütununu görə bilərsən.

Aşokanın paytaxtı olan əzəmətli Pataliputra şəhərindən heç əsər-əlamət də qalmayıb. Min beş yüz ildən çox əvvəl, Aşokadan altı yüz il sonra, Çin səyyahı Fa Syan o yerlərdə olub. O zaman şəhər zəngindi və tərəqqi etmişdi. Amma elə o vaxtın özündə də Aşokanın daş sarayından qalan təkcə xarabalıq idi. Lakin, elə bu xarabalığın özü də Fa Syana elə dərin təsir bağışlayıb ki, səyahəti barədə kitabda yazır ki, saray insan əməyinin məhsuluna oxşamır.

Ağır daşdan tikilmiş saray heç bir əsər-əlamət qoymadan yox olub. Fəqət Aşokanın xatirəsi bütün Asiya qitəsində yaşayır və fərmanları da bizim başa düşüb qiymətləndirə biləcəyimiz bir dildə hələ də səslənməkdədir. Aşokanın nəsihətləri bizə hələ çox şey öyrədə bilər. Deyəsən, məktubum çox üzün alındı, mən də səni yordum. Məktubu Aşokanın fərmanından kiçik bir sitatla bitirirəm: "Cəmi təriqətlər bu və ya digər səbəb üzündən pərəstişə layiqdir. İnsan buna uyğun hərəkət etdikdə, təriqətini göylərə qaldırmış olur və eyni zamanda başqalarının da sektalarına xidmət göstərmiş olur".

## AŞOKANIN HAKİMİYYƏTİ DÖVRÜNDƏ DÜNYA

*31 mart 1932-ci il*

Biz gördük ki, Aşoka öz nümayəndələrini və səfirlərini uzaq-uzaq məmləkətlərə yollayaraq, Hindistanla həmin məmləkətlər arasında daimi rabitə və ticarət əlaqələri saxlayırdı. Əlbəttə, bu əlaqələrdən və ticarətdən danışarkən, unutmamalısan ki, onların indiki əlaqələrə və ticarətə bənzəyişi əsla olmayıb. İndi adamları da, malı da qatarla,

gomiylə və təyyarəylə daşımaq olduqca asandır. Fəqət, o uzaq keçmişdə hər bir səfər təhlükəli və çətin idi. Ancaq cəsur və bacarıqlı adamlar yola çıxmağa cəsarət edərdilər. Buna görə də o dövrün ticarətini indikiylə müqayisə etmək olmaz.

Görəsən Aşokanın xatırladığı bu "uzaq-uzaq məmləkətlər" hara idi? Onun dövründə dünya nə vəziyyətdəydi? Misir və Aralıq dənizi sahili istisna edilməklə Afrika barədə heç nə bilmirik. Şimali, Mərkəzi və Şərqi Avropa haqqında, xüsusilə Şimali və Mərkəzi Asiya haqqında çox az bilirik. Amerika haqqında da heç nə bilmirik, lakin çoxları belə düşünürlər ki, qədim dövrlərdə hər iki Amerika qitəsində yüksək dərəcədə inkişaf etmiş mədəniyyətlər mövcud olub. Belə zənn edirlər ki, Kolumb Amerikanı XV əsrdə "kəşf edib", yəni həmin mədəniyyətlər yox olandan xeyli sonra kəşf edib. O zamanlar Peruda, Cənubi Amerikada və qonşu məmləkətlərdə yüksək dərəcədə inkişaf etmiş mədəniyyətlərin olması bizə məlumdur. Buna görə, çox ola bilsin ki, Hindistanda Aşoka olan dövrdə, e.ə. III əsrdə Amerikada yüksək səviyyədə təşkil olunmuş cəmiyyət yaratmış xalqlar yaşayıblar. Lakin əlimizdə dəlil-sübut yoxdur, güman etməkdən nə fayda! Mən o xalqlardan ona görə bəhs edirəm ki, hamımız belə bir fikirdəyik: mədəni xalqlar dünyanın guya ancaq biz eşitmiş və ya oxuduğumuz hissələrində yaşayıblar. Uzun müddət avropalılar belə xəyal ediblər ki, qədim tarix yalnız Yunanıstanın və Romanın tarixindən, habelə yəhudilərin tarixindən ibarətdir. Onların əvvəlki anlayışlarına görə, bütün qalan dünya boş bir səhra olub. Sonralar onların öz tarixçiləri və arxeoloqları Çin, Hindistan və digər məmləkətlər barədə avropalılara məlumat verdikdə onlar öz biliklərinin nə qədər məhdud olduğunu aşkar ediblər. Deməli, məhdud məlumatımızın dünyamızda baş verən hər şeyi guya qavramış olduğu fikrindən biz çəkinməliyik.

Lakin hazırkı məqamda deyə bilərik ki, Aşoka dövründəki qədim mədəni dünya, yəni e.ə. III əsrdəki dünya Avropanın, Asiyanın və Afrikanın əsasən Aralıq dənizi ölkələrini, eləcə də Qərbi Asiyanı, Çini və Hindistanı əhatə edirdi. Yəqin ki, Çinin Qərb ölkələrilə, hətta Qərbi Asiya ilə demək olar birbaşa əlaqəsi olmayıb. Qərbdə isə "Çin" və "Çan" barədə əfsanəvi təsəvvürlər üstün olub. Görünür, Hindistan Qərblə Çin arasında rabitə yaradan bir vasitə idi.

Makedoniyalı İsgəndərin ölümündən sonra onun imperiyasını sərkərdələri öz aralarında bölüşdürdüklərini biz artıq bilirik. İmperiya bölünəndən sonra yaranmış üç əsas hissə bunlardı: 1) Selevkin hakimiyyəti altında olan Qərbi Asiya, İran və Mesopotamiya; 2) Ptolemeyin hakimiyyəti altında olan Misir və 3) Antiqonun hakimiyyəti altında olan Makedoniya. Əvvəlki iki hissə uzun müddət yaşayıb. Yəqin yadındadır, Selevk Hindistanın qonşusu idi, o qədər acgöz idi ki, hind torpağının bir parçasını da öz imperiyasına qatmaq istəyirdi. Lakin o, bu yolda Çandraqupta kimi güclü bir düşmənə rast gəldi; Çandraqupta Selevki nəinki Hindistanın hüdudlarından qovdu, hətta onu indi Əfqanıstan adlanan ərazinin bir hissəsini qaytarmağa da məcbur etdi.

Makedoniyanın müqəddəratı onlara nisbətən daha pis olub. Makedoniya şimaldan qalların və digər qəbilələrin hücumuna məruz qalıb və bu səltənətin ancaq bir qismi qalların hücumu qarşısında davam gətirib öz istiqlaliyyətini hifz edə bilmişdi. Bu, indi Türkiyənin yerləşdiyi Kiçik Asiyadakı Perqam idi. Ora kiçik yunan dövləti idi. Lakin həmin dövlət yüz ildən də uzun müddətdə yunan mədəniyyətinin və sənətinin ocağı olub, orada yaraşıqlı binalar ucaldılıb, kitabxanalar və muzeylər yaradılıb. Perqam dənizin o tayında olan İsgəndəriyyə ilə müəyyən dərəcədə rəqabət aparıb.

İsgəndəriyyə Ptolemeyin hakimiyyəti altında olan Misirin paytaxtı idi. O, qədim dünyada məşhur olan böyük şəhərə çevrilib. Afinanın şöhrəti yox olduqdan sonra yunanların mədəni mərkəzi kimi İsgəndəriyyə tədricən onun yerini tutdu. İsgəndəriyyənin böyük kitabxanası və muzeyi uzaq-uzaq ölkələrin saysız-hesabsız tələbəsini özünə cəlb edirdi. Kitabxanada qədim dövrün adamlarını düşündürən fəlsəfə, riyaziyyat və din problemləri müzakirə edilirdi. Məktəbə gedən hər oğlanın və qızın tanıdığı, haqqında eşitdiyin Evklid İsgəndəriyyənin sakini və Aşokanın müasiri olmuşdur.

Bildiyin kimi, Ptolemeylər yunan olsalar da, Misirin adət və ənənələrindən bir çoxunu qəbul etmişdilər. Onlar qədim Misirin bəzi allahlarına da sitayiş edirdilər. Zevs, Apollon və qədim yunanların digər allahları və ilahələri – "Mahabharata"dakı Veda tanrıları kimi Homerin epik poemalarında tez-tez görünən allahlar da yox olmağa, ya da adlarını dəyişdirərək təzə qiyafədə üzə çıxmağa məcbur idilər. Qədim Misirin allahları olan İsida, Osiris və Qor qədim Yunanıstanın allahlarıyla qovuşdular və beləliklə geniş xalq kütləsi qarşısında sitayiş obyektləri kimi yeni allahlar meydana çıxdı. Bir halda ki, puca mərasimini icra etmək üçün önündə durmağa obyektlər varmış, onda kimə sitayiş

etməyin, kimə pərəstiş etməyin və bu səcdəgahın adının nə olmasının xalq kütləsi üçün nə əhəmiyyəti var idi ki! Yeni allahlardan ən məşhurunun adı Serapis idi.

İsgəndəriyyə həmçinin iri ticarət mərkəzi olduğundan qədim dünyanın hər yerindən oraya tacirlər gələrdi. Mənbələrdən alınan məlumata görə İsgəndəriyyədə hind tacirlərinin məhəlləsi vardı. O da məlumdur ki, İsgəndəriyyə tacirləri Cənubi Hindistanda Malabar sahilində ayrıca yaşayış məntəqəsinin binasını qoyublar.

Misirin yaxınlığında, Aralıq dənizinin qarşı sahilində yerləşmiş Roma artıq əzəmətli şəhərdi və o daha əzəmətli və qüdrətli olacaqdı. Romanın düz qarşısında, Afrika sahilində isə onun rəqibi və düşməni Karfagen yerləşirdi. Qədim dünya barədə az-çox təsəvvür əldə etmək üçün gərək onların tarixinə daha ətraflı nəzər salaq.

Roma Qərbdə necə əzəmətli idisə, Çin də Şərqdə o cür olmağa başlamışdı; Aşokanın hakimiyyəti dövründə dünyanın mənzərəsini düzgün təsəvvür etmək üçün gərək qabaqca biz bunları da nəzərdən keçirək.

## TSİN VƏ XAN SÜLALƏLƏRİ

*3 aprel 1932-ci il*

Naini həbsxanasından ötənilki məktublarımda Çinin ən qədim tarixi barədə, Xuanxe çayı üzərindəki insan məskənləri barədə, ilk Sya, Şan, yaxud İn və Çjou sülalələri barədə az-çox sənə yazmışdım; keçən əsrlər ərzində Çin dövlətinin tədricən meydana çıxması və bu ölkədə mərkəzləşmiş idarəetmə üsulunun inkişafı haqqında məlumat vermişdim. Sonrakı əsrlər ərzində Çjou sülaləsi hakimiyyətinin ancaq adı qalsa da əslində mərkəzləşmə prosesi dayanmış və hərc-mərclik başlamışdı. Yerli xırda hakimlər əslində müstəqil olmuş və bir-birlərilə düşmənçilik edirdilər. Ölkə üçün belə ağır vəziyyət bir neçə əsr davam edib. Əslində Çində elə bil hər şey yüz illərlə, hətta min illərlə davam edir. Yerli hakimlərdən birinə – knyaz Tsinə, qocalıb əldən düşmüş Çjou sülaləsini qovmaq müyəssər olana qədər bu vəziyyət davam etmişdi. Həmin knyazın nəslinə Tsin sülaləsi deyilir; burası maraqlıdır ki, "Çin" (*china*) sözünün özü mənşəcə "Tsin" (*ch'in*) sözündəndir.



Deməli, Tsin sülaləsi e.ə. 255-ci ildə Çində hakimiyyətə gəlir. Bundan on üç il əvvəl Hindistanda Aşokanın hakimiyyət dövrü başlayır. Beləliklə, biz indi Aşokanın Çindəki müasirlərini nəzərdən keçiririk. Tsin sülaləsindən olan ilk üç imperatorun hakimiyyəti çox az sürüb. Sonra e.ə. 246-cı ildə bir növ məşhur dördüncü imperator hakimiyyət başına keçir. Adı İn Çjen olsa da, sonralar o başqa bir ad – Şixuandi adını götürüb və bundan sonra həmin bu ikinci adı ilə, Birinci imperator mənasını bildirən adla tanınıb. Görünür, o özü və dövrü haqqında çox yüksək fikirdə olduğundan keçmişin pərəstişkarı deyildi. Bu hələ bir yana; ürəyindən keçirmiş ki, adamlar keçmişi unudub belə təsəvvür etsinlər ki, tarix ondan – böyük Birinci imperatordan başlayıb! İki min il ərzində arasıkəsilmədən Çində imperatorların hakimiyyətdə olmasının ondan ötrü heç bir əhəmiyyəti yox idi. Ölkədə, hətta onların xatirəsi belə məhv edilməliydi! Nəinki imperatorların, habelə keçmişin bütün başqa məşhur adamlarının da adı biryolluq unudulmalı idi! Elə buna görə də belə bir fərman verilibmiş ki, keçmişdən bəhs edən bütün kitablar, xüsusən də tarixə dair kitablar və konfutsiçilik[1] klassiklərinin əsərləri gərək hökmən yandırılsın və tamamilə məhv edilsin. Həmin qanunda yalnız təbabətə və bəzi təbiiyyat elmlərinə dair kitablar istisna təşkil edirdi. O belə bir fərman vermişdi: "Hazırkı dövranı məhv etmək niyyətilə qədim dövrlərə üz tutan şəxslər qohumları ilə birlikdə edam olunacaq".

O, sözünə əməl etdi. Sevimli kitablarını gizlətməyə cəhd edən yüzlərlə alim diri-diri torpağa basdırıldı. Bu Birinci imperator gör necə də munis, mehriban, gözəl bir adam olub! Hər dəfə Hindistanın keçmişinin həddən ziyadə tərifləndiyini eşidəndə istər-istəməz mən onu xatırlayıram. Bəzi həmvətənlərimiz daim keçmişi yada salır, həmişə onu göylərə qaldırıb onda ilham axtarırlar. Əgər keçmiş bizi əzəmətli əməllərə ruhlandırırsa, qoy ruhlandırsın. Amma mənə belə gəlir ki, geriyə, keçmişə daim üz tutmaq hər hansı bir adam və ya millət üçün sağlam hal deyil. Kim isə çox yaxşı deyib: "Hərgah insanın qisməti, yalnız geriyə getmək, ya da həmişə arxaya baxmaq olsaydı, onda gərək gözləri peysərində yerləşəydi. Buyurun, gəlin keçmişimizi öyrənək, onda vəcdə gəlməyə layiq nə varsa hamısından vəcdə gələk, amma nəzərimiz gərək həmişə qabağa yönəldilsin və biz gərək qabağa addımlayaq".

[1] Konfutsiçilik – Çin mütəfəkkiri Konfutsinin dini nəzəriyyəsinə əsaslanan əxlaqi-fəlsəfi baxışlar və ənənələr sistemi (*tərcüməçinin qeydi*)

Şi-xuandi kitabları, eləcə də onların oxucularını yandırmaq, ya da diri-diri torpağa basdırmaq hökmü verəndə şübhəsiz, vəhşicəsinə hərəkət edib. Bunun nəticəsində ölümündən sonra onun əsərlərinin demək olar heç izi-tozu da qalmayıb. O, Birinci imperator idi, onun dalınca gərək ikincisi, üçüncüsü, ta yüzillik qurtaranacan başqaları gələ idi. Niyyəti beləydi. Lakin Çindəki bütün sülalələr içərisində ən az ömür sürən Tsin sülaləsi oldu. Bundan qabaq dediyim kimi, bir çox sülalələr yüz illərlə padşahlıq edib. Onlardan birinin – Tsin sülaləsindən əvvəlkinin hakimiyyət dövrü səkkiz yüz altmış yeddi il davam edib. Amma böyük Tsin sülaləsi əlli illik qısa bir müddətdə həm ucaldı, həm əzəmətli oldu, həm qüdrətli imperiyanı idarə etdi; həm də tənəzzülə uğrayıb süqut etdi! Şi-xuandi böyük, qüdrətli imperatorlar sırasında gərək birinci olaydı, fəqət e.ə. 209-cu ildə ölümündən heç üç il keçməmiş sülaləsinin kökü kəsildi. Az sonra isə gizlədilmiş kitablar işıq üzü gördü və Konfutsinin klassik əsərləri öz əvvəlki fəxri yerini tutdu.

Şi-xuandi Çinin ən qüdrətli hökmdarlarından biri idi. O, yerli hakimlərin iddialarına son qoydu, feodalizmi məhv etdi, güclü mərkəzi hökumət yaratdı. Bütün Çini və hətta Annamı da istila etdi. Böyük Çin səddinin tikintisinə məhz Tsin Şi-xuandi başlamışdı. Bu, olduqca baha başa gələn iş idi. Lakin çinlilər müdafiə üçün güclü daimi ordunun saxlanmasına pul sərf etməkdənsə bu səddin ucaldılmasına pul sərf etməyi, görünür, üstün tutublar. Sədd böyük həmlənin qarşısını çətin ala bilərdi. Nail olduqları ancaq kiçik basqınların qarşısını almaq oldu, amma səddin tikintisi göstərir ki, çinlilər qüvvətli olmalarına baxmayaraq əmin-amanlıq istəyirdilər və hərbi şöhrət həvəskarı deyildilər.

Şi-xuandi – Birinci imperator öldü. İndi sülalədə əslində elə bir adam yox idi ki, onun səltənətinə varis olsun. Lakin onun hakimiyyəti dövründən bəri ölkənin birliyini müdafiə etmək Çində bir ənənəyə çevrilmişdi.

Sonra səhnəyə digər sülalə – Xan sülaləsi gəlir. Bu sülalə dörd yüz ildən çox firavan hökmranlıq edib. İlk hökmdarlar arasında hətta qadın imperator da varmış. O nəsildə sayca altıncı U-di idi ki, o da Çində ən qüdrətli və ən məşhur hökmdarlardan biri olub; Əlli ildən çox imperator olub. U-di şimaldan ardı-arası kəsilmədən basqın edən tatarları məğlub edib. Asiya xəritəsinə bax, onda sən çox böyük sahələr – e.ə. I və II əsrlərdə Çin imperatorunun və Çin hakimiyyətinin nüfuzunun yayıldığı sahələr barədə az-çox təsəvvür əldə edə bilərsən. Biz həmin dövrdəki Romanın əzəməti haqqında çox oxuyuruq və Romanın bütün dünyanı kölgədə qoyduğunu düşünürük. Romanı dünyanın hakimi



adlandırırdılar. O dövrlərdə Romanın əzəməti və qüdrəti artmaqda davam etsə də, Çin imperiyası həm ərazisinə, həm də qüdrətinə görə ondan qat-qat üstün idi.

Ehtimal ki, Çinlə Roma arasındakı əlaqələr məhz U-dinin dövründə yaradılıb. Hər iki ölkə arasındakı ticarət parfiyalılar, indi İran və Mesopotamiya adlanan ərazilərin sakinləri vasitəsilə aparılırdı. Sonralar, Roma ilə Parfiya arasında müharibələr başlanan zaman ticarət əlaqələri kəsildiyi üçün Roma birbaşa dənizlə ticarət əlaqələri yaratmağa cəhd göstərib. Elə o vaxtlar Çinə Roma gəmisi gəlmişdi. Lakin bu, bizim eranın ikinci əsrində olub. Biz isə hələlik eramızdan əvvəlki dövrü nəzərdən keçiririk.

Buddizm Xan sülaləsinin hakimiyyəti dövründə Çinə keçib. Buddizm haqqında məlumat hələ eramızdan əvvəl Çinə gəlib çatmış olsa da, daha sonralar yayılmağa başlayıb, yəni o zaman başlayıb ki, rəvayətə görə o dövrdə hakimiyyət başında olan imperator ecazkar bir yuxu görüb: on altı fut ucalığında, alnında parlaq şəfəq görünən bir adam. Bu xəyal imperatorun yanına qərbdən gəldiyi üçün o, həmin istiqamətdə çaparlar göndərmiş və onlar da Buddanın təsviriylə və buddist kitablarla geriyə qayıdıblar. Çində Buddizmin yayılmasıyla yanaşı bu ölkədə hind incəsənətinin təsiri də yayılıb. Beləliklə, hind incəsənətinin təsiri Koreyaya, oradan da Yaponiyaya keçib.

Xan sülaləsinin hakimiyyəti dövründə baş vermiş iki mühüm hadisəni xatırlamağa dəyər. Həmin dövrdə ağac lövhəciklərdən kitab çapetmə ixtira olunsa da, tam min il ərzində demək olar bu üsul tətbiq edilməyib. Bununla belə Çin Avropanı beş yüz il qabaqlamışdı.

Xatırlatmağa layiq ikinci fakt rəsmi vəzifələri tutmaq üçün imtahan sisteminin tətbiq olunmasıdır. Oğlanlar və qızlar imtahanı xoşlamırlar, mən onların halına yanıram. Lakin məmurları təyin etməyin bu Çin sistemi o zamanlar çox gözəl iş olub. Lap bu yaxın vaxtlaradək digər ölkələrdə vəzifəyə təyin etmək işində favoritizm[1] həlledici rol oynamış, yaxud da müəyyən sinfə və ya kastaya mənsub adamlardan məmurlar təyin edilmişdir. Çində isə imtahan verən hər kəs vəzifəyə təyin edilə bilərdi. Əlbəttə, bu sistem ideal deyildi, çünki hər hansı bir adam konfutsiçilik klassiklərinin əsərləri üzrə imtahan versə də, yaxşı məmur olmaya da bilərdi. Lakin bu sistem favoritizmdən xeyli mükəmməl olduğu üçün iki min il ərzində Çində qalmışdı. Həmin sistemin tətbiq edilməsindən lap bu yaxınlarda əl çəkildi.

[1] Favoritizm – havadarlıq, dostbazlıq (*tərcüməçinin qeydi*)

## ROMA KARFAGEN ƏLEYHİNƏ

*5 aprel 1932-ci il*

İndi Uzaq Şərqdən Qərbə yola düşəcəyik və Romanın inkişafını izləyəcəyik. Rəvayətə görə, Romanın əsası e.ə. VIII əsrdə qoyulub. Ən qədim romalılar ehtimal ki, arilər nəslindən olub, Tibr çayı yaxınlığındakı yeddi topə üzərində bir neçə məskəndə yaşayırdılar, elə bu məskənlər də tədricən böyüyüb şəhər olub. Həmin şəhər-dövlət İtaliyanın Messina və Siciliya qarşısındakı cənub ucqarına çatıncayadək böyüməkdə və öz hakimiyyətini ölkədə yaymaqda davam edib.

Yunanıstanın şəhər-dövlətləri, yəqin ki, yadındadır. Yunanların ayağı hara dəyirdisə, hər yanda özlərinin şəhər-dövlət ideyasını yayırdı. Buna görə də Aralıq dənizinin bütün sahili yunan məhəllələri və şəhər-dövlətləri ilə dolu idi. Lakin indi biz Romada büsbütün başqa bir vəziyyətlə qarşılaşırıq. Ola bilsin ki, lap əvvəllərdə Romanın yunan şəhər-dövlətlərinə bənzəri olub, amma o, qonşu tayfaları məğlub edə-edə öz torpaqlarını genişləndirməyə başlayıb. Beləliklə də, Roma dövlətinin ərazisi genişlənib İtaliyanın böyük bir hissəsini tutmuşdu. Şəhər-dövlət belə geniş ərazini əhatə edə bilməzdi. Həmin ərazini Roma idarə edirdi. Roma isə özünəməxsus şəkildə idarə olunurdu. Romada nə imperator vardı, nə də kral, orada müasir tipli respublika da yox idi. Bununla belə, idarəetmə formasına görə o, bir növ respublika idi; orada torpaq sahibləri olan varlı ailələr ağalıq edirdi. Belə hesab olunurdu ki, ölkəni idarə edən senatdır, senat özü isə konsul adlanan iki seçkili şəxs tərəfindən təyin edilirdi. Ancaq zadəganlar uzun müddət senator ola bilərdi. Roma xalqı iki sinfə bölünmüşdü: patrisilər və ya varlı zadəganlar (adətən bunlar torpaq mülkiyyətçiləri idi) və plebeylər – sıravi vətəndaşlar. Roma dövlətinin və ya respublikasının tarixi bir neçə yüz il ərzində bu iki sinif arasındakı mübarizə ilə dolu olub. Bütün hakimiyyət patrisilərin əlində idi, harada hakimiyyət varsa, orada pul da olub. Plebeylər və ya plebs tabe sinif idi, onların nə hakimiyyəti, nə də pulu vardı. Plebeylər hakimiyyət uğrunda mübarizəni və vuruşmanı davam etdirərək tədricən bəzi nailiyyətlər əldə edə biliblər. Maraqlı burasıdır ki, uzun sürən mübarizədə plebs əməkdaşlıqdan bir növ boyun qaçırmaq kimi həyata keçirilən vasitədən uğurla istifadə etmişdir. Plebeylər bütünlüklə Romanı tərk edərək yeni şəhərdə məskən salırlar. Patrisilər bundan qorxuya düşürlər, çünki onlar plebeysiz keçinə bilmirdilər,



odur ki, patrisilər güzəştə gedərək plebeylərə bəzi imtiyazlar verməli olurlar. Plebeylər üçün tədricən yüksək vəzifə tutmaq və hətta senatın üzvü olmaq imkanı açılır.

Biz patrisilərlə plebeylər arasındakı mübarizədən danışırıq və elə bilirik ki, daha heç kəs əhəmiyyətli rol oynamayıb. Amma bu iki qrupdan savayı Roma dövlətində ümumiyyətlə, heç bir hüququ olmayan külli miqdarda qul vardı. Onlar vətəndaş deyildilər və səsvermə hüquqları da yox idi; onlar da it və ya inək kimi öz ağasının xüsusi malı hesab edilirdilər. Onları satmaq da olardı, cəzalandırmaq da, qullar tamamilə öz ağalarının özbaşınalığına məruz qalırdılar. Onlara müəyyən şərtlərlə azadlıq da verilə bilərdi; azad edilmiş qullar ayrıca bir sinif təşkil edirdilər ki, ona da azad edilmiş qullar deyilirdi. Qədimlərdə Qərbdə qullara daim böyük tələbat vardı; bu tələbatı ödəmək üçün çox iri qul bazarları yaradılırdı, kişiləri, qadınları və hətta uşaqları ələ keçirib, onları qul halına salmaq məqsədilə uzaq-uzaq ölkələrə ekspedisiyalar təşkil edilərdi. Qədim Misirin şan-şöhrəti və əzəməti kimi Qədim Yunanıstanın və Romanın əzəməti də geniş yayılmış quldarlıq sisteminə əsaslanırdı.

O zaman bu qul sistemi Hindistanda da o dərəcədə üstün idimi? Görünür ki, yox. Çində də bu sistem olmayıb. Bu o demək deyil ki, Qədim Hindistanda və Çində köləlik olmayıb. Lakin oradakı köləlik ev köləliyi xarakterində olub. Bir neçə ev nökəri qul sayılardı. Hindistanda və Çində qullardan, yəqin ki, işçi qüvvəsitək istifadə edilmirdi. O ölkələrdəki tarlalarda və digər yerlərdə zəhmət çəkən böyük qul dəstələri olmayıb. Beləliklə, hər iki ölkə köləliyin ən alçaldıcı cəhətlərindən kənarda qala bilib.

Beləliklə, Roma böyüyüb genişlənir, getdikcə varlanan və möhkəmlənən patrisilər də bundan böyük fayda götürürdülər. Halbuki plebeylər əvvəlkitək yenə də kasıb vəziyyətdə qalır, patrisilərin yumruğu altında inildəyirdilər. Lakin həm bunlar, həm də onlar – patrisilər və plebeylər – zavallı qulları əsarətdə saxlamaq üçün birləşirdilər.

Böyüyüb genişlənən Roma necə idarə olunurdu? Dediyim kimi, senat tərəfindən; senat isə iki seçkili konsul tərəfindən təyin olunurdu. Konsulları kim seçirdi? Seçicilik hüququ olan vətəndaşlar. Əvvəllər, Roma hələ kiçik şəhər-dövlət olanda, bütün vətəndaşlar şəhərdə, ya da şəhərin yaxınlığında yaşayırdılar. Bir yerdə toplaşıb səs vermək onlardan ötrü çətin deyildi. Amma Roma böyüyəndən sonra şəhərdən uzaqlarda yaşayan bir çox vətəndaşlar üçün səsvermədə iştirak etmək asan olmadı. İndi nümayəndəli idarəetmə adlanan şey o zaman inkişaf

etmədiyindən tətbiq də olunmurdu. Sən bilirsən ki, indi hər bir vilayət və ya seçki dairəsi milli məclisə, ya parlamentə, ya da konqresə öz nümayəndəsini seçir; beləliklə də bütün millət müəyyən mənada kiçik məclisdə təmsil olunur. Görünür, bu qədim romalıların ağlına gəlməyib; odur ki, Romadan uzaqlarda yaşayan seçicilərin şəhərə gəlmək imkanı olmadıqda belə Romada seçkilər keçirilərdi. Əslində, belə seçicilər nə baş verdiyini nadir hallarda bilərdi. Qəzet, kitabça və ya çap kitabları yox idi və çox az adam oxumağı bacarırdı. Beləliklə, səsvermə hüququnun Romadan uzaqlarda yaşayan adamlardan ötrü heç bir əhəmiyyəti yox idi. Bu adamların səsvermə hüququ olmuşsa da, məsafənin uzaqlığı onları həmin hüquqdan məhrum edirdi.

Beləliklə, gərək sənə aydın olsun ki, əslində seçkilərdə və mühüm qərarların qəbul edilməsində yalnız Romanın özündə yaşayan seçicilər iştirak edirdi. Səsvermə açıq havada keçirilirdi. Seçicilər səs verərkən hasarlanmış yerə daxil olardı. Həmin seçicilərin çoxu kasıb plebeylərdi. Seçkilər zamanı yüksək vəzifə tutmağa və hakimiyyətə çatmağa can atan varlı patrisilər kasıb plebeyləri pulla ələ alardı ki, onlar patrisilərin lehinə səs versinlər. Gördüyün kimi, bizim dövrdə bəzi seçkilərdə seçicilərin pulla ələ alınması və dələduzluq necə yayılıbsa, Romadakı seçkilərdə də o cür yayılmışdı.

İtaliyada Romanın güclendiyi bir vaxtda Şimali Afrikada Karfagenin qüdrəti artmışdır. Karfagenlilər finikiyalıların nəslindən olub ənənəyə görə dənizçi və tacirdilər. Onlarda da respublika quruluşu olub və o, Romadan daha artıq dərəcədə varlılar respublikasıydı. Bu, külli miqdar köləsi olan şəhər respublikası idi.

Ən qədim zamanlarda Cənubi İtaliyada və Messinada Roma ilə Karfagen arasında yunan müstəmləkələri vardı. Lakin yunanları sıxışdırıb çıxarmaq üçün Roma ilə Karfagen birləşirlər. Onlar bu işi uğurla başa çatdırandan sonra Karfagen Siciliyanı ələ keçirmişdi. Romanın hakimiyyəti isə İtaliyanın lap ucqar yerlərinə kimi gedib çıxmışdı. Roma ilə Karfagenin ittifaqı və dostluğu çox çəkməmişdi. Tezliklə aralarında ixtilaf baş vermiş və şiddətli rəqabət başlamışdı. Dar körfəzin hər iki tərəfində yerləşən və qarşı-qarşıya duran iki güclü dövlətə nəhəng Aralıq dənizi darlıq edirdi. Hər iki respublika şöhrətpərəst idi. Roma inkişafını davam etdirərək özünün gənclərə xas şöhrətpərəstliyi və lovğalığı ilə fərqlənirdi. Karfagen əvvəlcə Romaya, bəlkə də bir qədər lovğalıq edən bir qonşuya ağayana münasibət bəsləyərək dənizdə öz üstünlüyünə əmin idi. Onlar fasilə ilə yüz ildən də çox bir müddət



ərzində bir-birilə vuruşmuşdular; vəhşi heyvantək döyüşərək saysız-hesabsız dinc əhaliyə qan uddurmuşdular. Aralarında üç müharibə olmuşdu, onlara Pun müharibələri deyilir. Birinci Pun müharibəsi e.ə. 264-cü ildən 241-ci ilədək, iyirmi üç il çəkib və Romanın qələbəsilə sona çatıb. 22 il sonra II Pun müharibəsi başlayıb, Karfagen isə tarixdə Hannibal adlı məşhur sərkərdəsini bu müharibəyə yollayıb. On beş il ərzində Hannibal Romaya rahatlıq vermədən romalıları daim təhlükə altında saxlamışdı. O, Roma ordularını məğlubiyyətə uğradaraq xeyli qan axıtmışdı, bu cür qanlı döyüşlər xüsusilə e.ə. 216-cı ildə Kannda baş vermişdi. Romalılar dənizdə ağalıq etdikləri üçün Hannibal Karfagendən demək olar yardım almadan, onunla əlaqəsi kəsilmiş halda qələbə üstündən qələbə çalmışdı. Lakin məğlubiyyətə və bədbəxtliyə, Hannibalın romalıları daim qorxu altında saxlamasına baxmayaraq, onlar təslim olmur və mənfur düşmənə qarşı vuruşmanı davam etdirirdilər. Hanniballa açıq döyüşdə üz-üzə gəlməkdən ehtiyat edən romalılar bacardıqca döyüşə girməkdən yayınır, düşməni daim narahat etməyə və onun əlaqə yollarını kəsməyə çalışırdılar. Fabi adlı Roma sərkərdəsi döyüşdən boyun qaçırmağı xüsusilə xoşlayırdı. O, bu minvalla düz on il açıq döyüşdən çəkinmişdi. Mən onun adını ona görə çəkmirəm ki, o böyük adam olub və xatirəsinin daim yad edilməsinə layiq olub. Ona görə xatırladıram ki, onun adından ingiliscə Fabian sözü əmələ gəlib. İndi Fabian taktikası mövcuddur, ona əsasən məqsədə çatmaq sürətləndirilmir, bu taktika pərəstişkarları açıq döyüşdən və təhlükədən yan keçir, düşməni tədricən üzüb əldən salmaq yolu ilə məqsədə çatmağa ümid edirlər. İngiltərədə Fabian cəmiyyəti mövcuddur; onun üzvləri sosializmə inandıqları halda, tələsik və ya qəfil dəyişikliyə inanmırlar.

Hannibal İtaliyanın böyük bir hissəsini səhraya çevirdi, amma Romanın inadkarlığı və qətiyyəti nəhayət qələbə ilə nəticələndi. E.ə. 202-ci ildə Zam döyüşündə Hannibal məğlub oldu. O, Roma tərəfindən sonsuz kinlə təqib edilə-edilə qaçmağa və daim yerini dəyişməyə məcbur oldu. Axırda isə zəhər içib özünü öldürdü.

Kifayət qədər alçaldılmış və daha Romaya meydan oxumağa hünər etməyən Karfagenlə Roma arasında əlli il əmin-amanlıq hökm sürdü. Lakin bu, Romanı qane etmədiyindən Karfagenə qarşı üçüncü Pun müharibəsinə başladı. Müharibə xeyli qan tökməklə və Karfagenin darmadağın edilməsi ilə nəticələndi. Bir vaxtlar Aralıq dənizinin hakimi olan məğrur Karfagen şəhərinin ucaldığı torpaq alt-üst edildi.

## ROMA RESPUBLİKASI İMPERİYAYA ÇEVRİLİR

*9 aprel 1932-ci il*

Karfagenin qəti məğlubiyyətindən və dağıdılmasından sonra rəqibi olmayan Roma Qərb aləmində tam ağalıq etmişdi. Bundan əvvəl yunan dövlətlərini tutmuş Roma indi Karfagenə məxsus əraziləri də ələ keçirmişdi. Belə ki, ikinci Pun müharibəsindən sonra İspaniya Roma imperiyasına daxil edilmişdi. Buna baxmayaraq Romanın hakimiyyəti yalnız Aralıq dənizi ölkələrini əhatə edirdi. Bütün Şimali və Mərkəzi Avropa Romadan asılı deyildi.

Qələbələr və istilalar nəticəsində Romanın sərvəti aşıb-daşmış, itaət altına alınan ölkələrdən qızıl və qul axını güclənmişdi. Bəs bunlar kimə çatırdı? Əvvəl dediyim kimi, Romanın idarəedici məclisi varlı zadəgan ailələrinə mənsub adamlardan ibarət olan senat idi. Bu zadəganlar qrupu Roma respublikasının bütün həyatına nəzarət edirdi, Romanın ərazisi və qüdrəti artdıqca, onların da sərvəti artırdı. Belə ki, dövlətlilər daha da varlanır, kasıblar isə əvvəlki kimi yoxsul qalır, yaxud daha da yoxsullaşırdı. Qulların sayı çoxalır, bir-birilə ayrılmaz bağlı olan cah-calal və yoxsulluq da artırdı. Belə vəziyyətdə isə adətən, iğtişaşlar baş verir. Qəribədir, insan nə qədər dözümlü olarmış! İnsan səbri tükənəndə isə partlayış baş verir.

Varlılar çalışırdılar ki, kasıbların başını sirk oyunları və yarışlarla qatsınlar, onlar tamaşaçılara kef vermək xatirinə qladiatorları vuruşmağa və bir-birini öldürməyə məcbur edirdilər. Əyləncə deyilən şey xatirinə saysız-hesabsız qul və hərbi əsir öldürülmüşdü.

Amma buna baxmayaraq Roma dövlətində iğtişaş güclənməkdə idi. Üsyanlar baş verirdi, qanlar axıdılırdı, seçkilərdə pulla ələ alma və rüşvətxorluq halları müşahidə edilirdi. Hətta məzlum qullar da Spartak adlı bir qladiatorun başçılığı altında üsyan qaldırmışdılar. Amma onların üsyanı ən amansız surətdə yatırılmışdı. Bildiyimiz kimi, üsyan iştirakçılarından altı min nəfər Romadakı Appi yolu boyunca çarmıxa çəkilmişdi.

Tədricən macərapərəstlər və sərkərdələr senatın hakimiyyətini kölgədə qoyaraq, getdikcə daha böyük nüfuz qazanırdılar. Ölkəni viran edən vətəndaş müharibələri baş verirdi, rəqabət aparan sərkərdələr bir-birilə döyüşürdülər. E.ə. 53-cü ildə Şərqdə, Parfiyada (Mesopotamiyada) Roma legionları[1] Karr döyüşündə ağır tələfata uğrayıblar.

[1] Legion – qədim Romada ali qoşun birləşməsi (*tərcüməçinin qeydi*)



Həmin döyüşdə parfiyalılar onlara qarşı göndərilmiş Roma ordusunu məhv ediblər.

Romanın saysız-hesabsız sərkərdələri arasında iki adam – Pompey və Yuli Sezar başqalarından fərqlənir. Bildiyin kimi, Sezar Fransanı və ya o zaman Qalliya adlanan ölkəni, habelə Britaniyanı istila etmişdi. Pompey Şərqə yürüş edərək orada az-çox müvəffəqiyyət qazanmışdı. Lakin Pompey ilə Sezarın arasında amansız rəqabət vardı; hər ikisi şöhrətpərəstdi və istəmirdilər ki, kimsə onlara tay-bərabər olsun. Hər iki sərkərdə sözlə senata öz ehtiramını bildirsə də, amma əslində yazıq senat öz əhəmiyyətini itirmişdi. Sezar Pompeyi məğlubiyyətə uğradaraq, Roma aləmində əsas sima oldu. Amma Roma respublika olduğundan Sezar mütləq hakim ola bilmirdi. Buna görə də onu tacqoyma yolu ilə padşah və ya imperator etmək üçün cəhdlər göstərilirdi. O, bu tacqoyma mərasiminə məmnuniyyətlə razılaşardı, amma köhnə respublika ənənələrindən çəkinərək tərəddüd edirdi. Həmin ənənələr ondan daha güclü çıxdığı üçün Sezar düz Forumu pillələri üzərində Brut və qeyri respublikaçılar tərəfindən xəncərlə öldürüldü. Yəqin ki, Şekspirin həmin səhnəni təsvir edən "Yuli Sezar" dramını oxumusan.

Yuli Sezar e.ə. 44-cü ildə öldürülsə də, onun ölümü respublikanı xilas edə bilmədi. Sezarın oğulluğu, qardaş nəvəsi Oktavian və onun dostu Mark Antoni Sezarın qisasını aldılar. Bu zaman mütləqiyyət məsələsi yenidən ortalığa çıxdı. Oktavian dövlət başçısı, printseps oldu, respublika isə yox oldu. Senat qalsa da, real hakimiyyətdən məhrum idi.

Oktavian printseps və ya dövlət başçısı olduqda Avqust Sezar adını götürdü. Sonralar onun varislərini də onun etdiyi kimi sezar adlandırırdılar. "Sezar" sözü imperator mənasını verməyə başladı. "Qeysər" (kayzer) və "çar" elə həmin "sezar" sözündəndir. "Qeysər" sözü lap qədimdən Hindistanda da qəbul edilmişdir; qeysəri-Rum, qeysəri-hind. Hal-hazırda kral Georq *qeysəri-hind* rütbəsindən həzz alır. Alman kayzeri səhnədən gedib, eləcə də həm Avstriya kayzeri, həm türk qeysəri, həm rus çarı səhnədən yox olublar. Çox maraqlıdır ki, vaxtilə Britaniyanı Roma üçün istila edən Yuli Sezarın adını və ya rütbəsini indi təkcə ingilis kralı daşıyır.

Beləliklə, Yuli Sezarın adı imperator əzəməti mənasını bildirən sözə çevrilib. Hərgah Pompey onu Yunanıstanda, Farsal döyüşündə məğlubiyyətə uğratsaydı görəsən nə olardı! Yəqin ki, onda Pompey printseps və ya imperator olardı, bəlkə də "pompey" sözü "imperator" mənası

verərdi. Onda bizim alman pompeyimiz (II Vilhelm) olardı və hətta kral Georq dönüb *pompeyi-hind* ola bilərdi!

Roma dövləti üçün keçid dövrü olan həmin dövrdə – respublika imperiyaya çevrilərkən Misirdə gözəlliyinə görə tarixdə ad-san qazanacaq bir qadın yaşayırdı. Bu qadın Kleopatra idi. Adı azca ləkələnmiş bu qadın elə az-az qadınlardandır ki, onların gözəlliyi zənn edildiyi kimi, tarixdə dəyişikliklərə səbəb olmuşdur. Sezar Misirə gələrkən o, lap uşaq idi. Sonralar Kleopatra Mark Antoni ilə çox yaxınlıq etmiş olsa da, bundan ona az xeyir doymişdi. O, böyük dəniz vuruşmasının ən qızğın çağında gəmilərilə birlikdə Antonini xaincəsinə tərk etmişdi. Məşhur fransız yazıçısı Paskal bir gün belə deyib: "Əgər Kleopatranın burnu bir balaca gödək olsaydı, dünyanın bütün siması dəyişərdi". Bunda bir qədər şişirtmə var. Kleopatranın burnunun ucbatından dünya o qədər də çox dəyişməzdi. Lakin tamamilə mümkündür ki, Sezar Misirə varid olandan sonra özünü padşah və ya imperator saymağa, hər şeyə hakim olan Allah hesab etməyə başladı. Misirdə respublika deyil, monarxiya quruluşu olduğundan hakimin nəinki ali hakimiyyət hüququ vardı, həm də az qala Allah sayılırdı. Bu ideya Qədim Misirdə yaranmış və İsgəndərin ölümündən sonra Misirdə hakimiyyət sürən Ptolemeylərin yunan sülaləsi misirlilərin az qala bütün adət və ideyalarını qəbul etmişdi. Kleopatra Ptolemeylər nəslinə mənsub olduğundan yunan şahzadəsi, daha doğrusu, Makedoniya şahzadəsi idi.

Hər şeyə, hökmdar – Allah barədə Misir ideyasının Romaya yayılmasına Kleopatranın səbəb olub-olmadığını bilmirik, lakin həmin ideya orada da kök saldı. Hələ Yuli Sezarın sağlığında – yəni respublikanın çiçəkləndiyi bir dövrdə – Sezarın səcdə obyekti kimi heykəlləri qoyulmuşdu. Daha sonralar Roma imperatorları dövründə görəcəyik ki, bu, adi bir hala çevrilmişdi.

Biz indi Romanın tarixində mühüm dönüş nöqtəsi olan dövrə – respublikanın sonuna gəlib çatdıq. E.ə. 27-ci ildə Oktavian Avqust Sezar adı ilə printseps oldu. Romanın və onun imperatorlarının tarixini sonra davam etdirərik. Hələlik isə gəl respublikanın son günlərində Roma torpaqlarının vəziyyətinə ötəri nəzər salaq.

Roma Qərbdə, əlbəttə, İtaliyada, İspaniyada və Qalliyada (Fransada) hökmranlıq edirdi. Şərqdə Yunanıstan və yadında olduğu kimi yunan dövləti Perqamın yerləşdiyi Kiçik Asiya ona məxsus idi. Şimali Afrikada Romanın himayəsi altında olan Misir onun müttəfiqi sayılırdı.



Karfagen və daha bir neçə Aralıq dənizi ölkəsi də Romanın hakimiyyətinə tabe idi. Beləliklə, Şimalda Roma torpaqlarının sərhədi Reyn boyunca keçirdi. Almaniyanın, Rusiyanın, Şimali və Mərkəzi Avropanın bütün xalqları Roma dünyasının hüdudları xaricində idi. Mesopotamiyanın şərqindəki bütün xalqlar da onun hüdudları xaricindəydi.

O zamanlar Roma əzəmətli olsa da, Avropada bir çox adamlar digər ölkələrin tarixi məsələlərində nadan olduqlarından belə təsəvvür edirlər ki, guya Roma bütün dünyada ağalıq edib. Halbuki iş heç də belə deyildi. Yəqin yadındadır ki, elə həmin dövrdə Çinin böyük Xan sülaləsi bütün Asiyadan keçən ərazilərdə hakimlik edirdi, ya da ki, onun ali hakimiyyətini orada qəbul edirdilər. Ola bilsin ki, Mesopotamiyada, Karr döyüşündə, yəni romalılara amansızcasına zərbə endirilən döyüşdə parfiyalılara monqollar kömək göstəriblər.

Lakin Roma tarixi, xüsusilə Roma respublikasının tarixi avropalılara əzizdir, çünki onlar qədim Roma dövlətini müasir Avropa dövlətlərinin bir növ banisi hesab edirlər və bu da müəyyən dərəcədə həqiqətə uyğundur. Buna görə də ingilis məktəblilərini, yeni tarixi bilib-bilmədiyindən asılı olmayaraq, məcbur edirdilər ki, yunan və Roma tarixini öyrənsinlər. Məni Yuli Sezarın Qalliyaya hərbi yürüşü barədə hesabatını latınca orijinaldan oxumağa məcbur etdikləri yaxşı yadımdadır. Sezar döyüşçü olmaqla yanaşı, həm də güclü və zərif üsluba malik bir yazıçı idi, onun "Qall müharibəsi haqqında xatirələr"ini minlərlə Avropa məktəblərində indi də oxuyurlar.

Biz Aşokanın dövründə dünyanın icmalı haqqında söhbətə bir qədər əvvəl başladıq. O dövrün icmalını nəinki qurtardıq, hətta Çinin və Avropanın tarixindən xeyli bəhs etdik. Biz indi az qala xristian erasının astanasındayıq, hind xalqının tarixinin şərhini həmin dövrə gətirib çıxarmaq üçün gərək yenə də Hindistana qayıdaq. Aşokanın ölümündən sonra Hindistanda böyük dəyişikliklər baş verdi, həm cənubda, həm də şimalda yeni imperiyalar meydana gəldi.

Mən dünya tarixi haqqında səndə ardıcıl bir proses kimi təsəvvür yaratmağa çalışdım. Amma əminəm ki, sən həmin qədim dövrlərdə uzaq ölkələr arasındakı əlaqələrin çox məhdud xarakter daşıdığını unutmazsan. Çox cəhətdən irəlidə gedən Roma coğrafiyadan, xəritələrdən yaxşı baş açmırdı və onların öyrənilməsi üçün heç nə etmirdi. Bizim günlərdə hər bir məktəbli oğlan və ya qızın coğrafiyadan bildiyi özlərini dünyanın ağası sayan Romanın böyük sərkərdələrinin və senatın

müdrik adamlarının biliyindən qat-qat çoxdur. Onlar kimi böyük Asiya qitəsinin min millərlə məsafəsinin ayrı saldığı Çin hökmdarları da özlərini dünyanın ağası hesab edirdilər.

## CƏNUBİ HİNDİSTAN ŞİMALİ HİNDİSTANI KÖLGƏDƏ QOYUR

*10 aprel 1932-ci il*

Uzaq Şərqdə Çinə və Qərbdə Roma aləminə uzun sürən səyahətimizdən sonra Hindistana qayıdırıq.

Mauriyalar imperiyasının ömrü Aşokanın ölümündən sonra çox sürmədi. İmperiya bir neçə ilin ərzində parçalandı. Şimal əyalətləri ondan ayrıldı, cənubda isə yeni dövlət – Andhra dövləti meydana gəldi. Aşokanın varisləri öz baş sərkərdələri Puşiyamitra adlı brahman tərəfindən hakimiyyətdən zorla uzaqlaşdırılana qədər, süqut etməkdə olan imperiyada təqribən əlli il hökm sürdülər. Puşiyamitra özünü padşah elan etdi: deyilənə görə onun dövründə brahmanizm dini dirçəlməyə başlamışdı. Budda rahiblərini bir qədər sıxışdırmağa başlamışdılar. Amma sonra Hindistanın tarixini oxuyanda görəcəksən ki, brahmanizm buddizm əleyhinə daha incə üsullarla mübarizə aparırdı. O, təqib etmək kimi qaba üsula geniş əl atmırdı. Bu üsuldan müəyyən dərəcədə istifadə edilsə də, o dini mahiyyətdən daha çox siyasi mahiyyət daşıyırdı. Böyük Budda *sanqhları* qüdrətli təşkilatlar idi, bir çox hökmdarlar onların siyasi qüdrətindən ehtiyat etdikləri üçün həmin təşkilatları zəiflətməyə çalışırdılar. Nəticədə buddizmi onun vətənindən (onu qismən assimilyasiya etmək və üstün gəlmək yolu ilə) tamam sıxışdırıb çıxarmaq brahmanizmə müyəssər oldu: brahmanizm buddizmə öz təşkilatı daxilində yer tapmağa cəhd göstərdi.

Deməli, yeni brahmanizm sadəcə olaraq brahmanizmin əvvəlki vəziyyətinə qayıtmaq və buddizmin görmək istədiyi bütün işləri də inkar etmək demək deyildi. Brahmanizmin başçıları qədimlərdə daha ağıllı adamlar idilər və assimilyasiya və üstünlük əldə etmək əməliyyatını ta əzəldən əməli surətdə tətbiq edirdilər. Arilərin Hindistana hələ ilk gəlişi zamanı onlar dravidlərin mədəniyyət və adətlərindən çox şey əxz edib bu əməliyyatdan bütün tarixləri boyu şüurlu, yaxud şüursuz



surətdə istifadə etmişdilər. Onlar Buddanı avataruya və hind panteonundakı[1] çoxlu allahlardan birinə çevirməklə buddizmlə də elə bu cür rəftar etdilər. Budda camaatın onu ilahiləşdirdiyi və ona səcdə qıldığı şəxsiyyət olaraq qaldı, amma onun xüsusi rolu dinməz-söyləməz unuduldu, brahmanizm, yaxud hinduizm isə cüzi dəyişikliklərlə özünün əvvəlki məzmununu qoruyub saxladı. Lakin Buddanın brahmanlaşdırılması prosesi uzun sürdü və biz bu məsələdə irəli gedirik, çünki buddizm Hindistanda Aşokanın ölümündən sonra hələ neçə yüz illər yaşamaqda davam edirdi.

Özümüzə nahaq yerə zəhmət verib Maqadhada bir-birini əvəz edən padşahlarla və sülalələrlə məşğul olmaq lazım deyil. Aşokanın ölümündən təqribən iki yüz il keçəndən sonra Maqadha Hindistanda daha ilk dövlət rolunu oynamırdı. Amma o, əvvəlki kimi Budda mədəniyyətinin ən böyük mərkəzi olaraq qalırdı.

Bu arada həm şimalda, həm də cənubda mühüm hadisələr baş verirdi. Şimalda Mərkəzi Asiya xalqları – baktriyalılar, saklar, skiflər, türklər və kuşanlar dəfələrlə ölkəyə soxulmuşdular. Mərkəzi Asiyanın müxtəlif qəbilə güruhlarının meydana çıxdığı yer olduğu, tarix boyu oradan çıxan müxtəlif xalqların bütün Asiyaya və hətta Avropaya da yayılmaları barədə, deyəsən, bir dəfə sənə yazmışam. Eramızın başlanmasından əvvəl iki yüz il ərzində Hindistana da bir neçə belə hərbi basqın olmuşdu. Amma sən nəzərdə tutmalısan ki, bu basqınlar ancaq istila və qənimət xatirinə deyildi. Bu xalqlara yerləşmək, məskunlaşmaq üçün torpaq lazım idi. Mərkəzi Asiyanın əksər qəbilələri köçəri olduğundan, bu qəbilələr sayca artdıqca yaşadıqları torpaq sahələri onları artıq dolandıra bilmirdi. Buna görə də başqa yerlərə köçmək və yeni-yeni torpaq sahələri axtarmaq məcburiyyətində qalırdılar. Onların bu böyük köçmələrinin zorakı mahiyyət daşımasının bir səbəbi də digər qəbilələr tərəfindən sıxışdırılmaları idi. Bir böyük tayfa və ya qəbilə digər tayfanı öz yerindən qovurdu, o tayfa da yad ölkələrə soxulmağa məcbur olurdu. Beləliklə, istilaçı kimi Hindistana gələn xalqların özləri çox vaxt otlaqlarını qoyub qaçmağa məcbur olurdular. Xan sülaləsinin dövründəki kimi Çin imperiyası da buna gücü çatdıqda həmin dövrlərdə bu köçəriləri yerlərindən qovub çıxarır və beləliklə də onları yeni vətən axtarmağa vadar edirdi.

[1] Panteon – yunancadır; qədim Yunanıstanda və Romada allahların şərəfinə tikilən məbəd (*tərcüməçinin qeydi*)

Sən həmçinin burasını da yadda saxlamalısan ki, Mərkəzi Asiyanın bu köçəri tayfaları Hindistana yalnız düşmən ölkəsi kimi baxmırdılar. O tayfalardan söz düşəndə onları "vəhşilər" kimi xatırlayırlar. Təbiidir ki, bu tayfaları həmin dövrün Hindistanıyla müqayisə etsək, onlar o qədər də mədəni deyildilər. Lakin bu tayfaların əksəriyyəti əsil buddist idilər və Hindistana *dharmanın* meydana gəldiyi bir ölkə kimi ehtiramla yanaşırdılar.

Hətta Puşiyamitranın hakimiyyəti dövründə də Baktriya hökmdarı mömin buddist Menandr şimal-qərbdən soxuldu. Baktriya Hindistanla həmsərhəd ölkə idi. O, Selevkin imperiyası tərkibinə daxildi, amma sonra müstəqillik qazanmışdı. Menandrın hücumu dəf edildi, ancaq o, Kabili və Sindi əlində saxlaya bildi.

Sonralar sayı-hesabı olmayan saklar soxularaq bütün Şimali və Qərbi Hindistana yayıldılar. Saklar iri köçəri türk tayfalarındandı. Başqa bir iri tayfa olan kuşanlar onları otlaqlarından sıxışdırıb çıxarmışdılar. Baktriyaya və Parfiyaya doluşan saklar yavaş-yavaş Şimali Hindistanda, daha dəqiq desək, Pəncabda, Racputanda və Kathiavarada məskən saldılar. Hindistan sakları mədəniləşdirdi və onlar öz köçəri vərdişlərindən əl çəkdilər.

Burasını qeyd etmək maraqlıdır ki, bu Baktriya və türk hökmdarlarının Hindistanın bəzi hissələrində hakimiyyət başında olması hind-ari cəmiyyətinə demək olar ki, öz təsirini göstərmədi. Buddist olan həmin hökmdarlar buddist kilsə təşkilatının tərəfdarları idilər. Bu kilsə təşkilatının quruluşu isə məhz qədim hind-ari icmalarının quruluşuna əsaslanırdı. Deməli, Hindistan həmin hökmdarların hakimiyyəti altında olarkən belə özünüidarə kənd icmalarının, yaxud mərkəzi hakimiyyətə tabe olan respublikaların məcmuyu olaraq qalırdı. Həmin dövrdə yenə də ən iri buddist maarif mərkəzi sayılan Takşaşila və Mathura Çindən və Qərbi Asiyadan tələbələri özünə cəlb edirdi.

Amma dəfələrlə şimal-qərbdən edilən hərbi müdaxilə və Mauriyalar sülaləsinin dövlət təşkilatının tədricən süquta uğraması başqa bir nəticəyə də gətirib çıxarmışdı: Cənubi Hindistan dövlətlərində qədim hind-ari sistemi şimalda olduğundan daha yaxşı saxlanmışdı. Beləliklə, hind-ari qüdrətinin mərkəzi cənuba keçmişdi. Ehtimal ki, bu hərbi müdaxilələr nəticəsində bir çox bacarıqlı adamlar şimaldan cənuba mühacirət etmişdi. Min il keçəndən sonra Hindistana müsəlmanların müdaxiləsi zamanı, bu prosesin yenidən təkrar olunduğunu daha



sonralar görəcəksən. Xarici əlaqələr və yadelli hücumlar Şimali Hindistana nisbətən Cənubi Hindistanda hətta indinin özündə öz təsirini göstərir: əksəriyyətimiz, şimal sakinləri mürəkkəb mədəniyyətin, hinduizm[1] və müsəlmanlığın qərb mədəniyyəti ilə qatışığından ibarət bir mədəniyyətin təsiri altında böyümüşük. Hələ dilimiz də hindi və ya urdu və ya hindustani – hansı sənə daha çox xoş gəlirsə, elə də adlandır – tərkibcə mürəkkəb bir dildir. Lakin özün gördüyün kimi, cənub indiyədək əsasən hinduist və ortodoksal[2] olaraq qalmaqdadır; yüz illərcə çalışmışdı ki, qədim ari ənənəsini qoruyub saxlasın. Bu cəhdlər nəticəsində törəyən cəmiyyət özünün ətalət və başqa dinlərə və ənənələrə dözməməsi ilə adamı elə indi də təəccübləndirir. Divarlar qorxulu dostdur. Onlar xarici bəladan bəzən bizi qoruyur və çağırılmamış qonağı yanımıza buraxmır. Lakin elə onlar da bizi məhbusa və qula çevirirlər və nəticədə də biz saflığı və toxunulmazlığı öz azadlığımız hesabına əldə etmiş oluruq. Lakin ən dəhşətli divarlar şüurumuzda yaranan divarlardır ki, köhnəliyinə görə pis ənənədən imtina etməyimizə, təzəliyinə görə isə təzəsini qəbul etməyimizə mane olur.

Lakin Cənubi Hindistan hind-ari ənənələrini nəinki dində, həmçinin incəsənətdə də, siyasətdə də min il və daha çox qoruyub saxlamaqla bizə yaxşı xidmət göstərmişdir. Qədim hind incəsənətinin nümunələrinə baxmaq istəyirsənsə gərək cənuba gedəsən. Siyasətə gəldikdə isə, bizə yunan Meqasfenin dediklərindən məlumdur ki, cənubda xalq məclisləri hökmdarların hakimiyyətini məhdudlaşdırırdı.

Maqadha tənəzzülə uğrayandan sonra, nəinki alimlər, eləcə də rəssamlar, inşaatçılar, sənətkarlar və ustalar cənuba köçdülər. Cənubi Hindistan Avropa ilə geniş ticarət edirdi. Babilistana, Misirə və Yunanıstana, daha sonralar Romaya mirvari, fil dişi, qızıl, düyü, istiot, tovuz quşu və hətta meymun göndərilirdi. Əvvəllər isə Xaldeyə və Babilistana Malabar sahilindən hind palıdı yollayırdılar. Həm də bu ticarət malları, ya da onun çox qismi heyəti dravidlərdən ibarət olan hind gəmilərilə daşınırdı. Bu, Cənubi Hindistanın qədim dünyada necə görkəmli rol oynadığını dərk etməkdə sənə kömək edər. Cənubda çoxlu Roma sikkələri tapılmışdı; mən sənə Malabar sahilində İsgəndəriyyə koloniyalarının, İsgəndəriyyədə isə hind koloniyalarının olduğunu qabaqlar demişdim.

[1] Hinduizm – Hindistanda yayılmış brahmanizm dininin müasir forması (*tərcüməçinin qeydi*)

[2] Ortodoksal – yunancadır; öz məsləkində sabit və ardıcıl olan şəxs (*tərcüməçinin qeydi*)

Aşokanın ölümündən çox keçməmiş cənubdakı Andhra dövləti istiqlaliyyət qazandı. Andhra, bildiyin kimi, indi Hindistan Milli Konqresinin ayırmış olduğu əyalətlərdən biridir ki, Mədrəsin şimalında şərq sahili boyunca yerləşib. Andhra-deşdə təluqu dilində danışırlar. Aşokadan sonra Andhra dövləti öz torpaqlarını sürətlə genişləndirərək dənizdən dənizə kimi bütün Dekanı əhatə etdi.

Məskunlaşdırma məqsədilə Hindistanın cənubundan böyük ekspedisiyalar göndərilirdi ki, bu barədə daha sonra danışacağıq.

Hindistana soxulan və ölkənin şimalında yerləşən saklar, skiflər və başqa xalqlar barədə yuxarıda demişdim. Onlar hind xalqının bir hissəsinə çevrildilər. Elə biz özümüz – Şimali Hindistanın sakinləri də onların nəslindən olduğumuz kimi, həm də arilərin nəslindənik. Gözəl rachəputlar və Kathiavarın qoçaq xalqı onlardan törəmişdir.

## HƏMSƏRHƏD KUŞANLAR İMPERİYASI

*11 aprel 1932-ci il*

Axırıncı məktubumda sənə sakların və türklərin Hindistana ardıarası kəsilməyən basqınlarından söhbət açmışdım. Həmçinin Cənubda hüdudları Benqal körfəzindən Ərəb dənizinə qədər uzanan qüdrətli Andhra dövlətinin yaranmasından da danışmışdım.

Sakları arxadan kuşanlar sıxışdırırdı. Aradan bir müddət keçəndən sonra kuşanların özü də göründü. E.ə. 1 əsrdə onlar həmsərhəd hind torpaqlarında dövlət yaratdılar və bu dövlət də sonralar imperiyaya çevrildi. Kuşanlar imperiyası cənubda Benaresə və Vindhya dağ silsiləsinə qədər, şimalda Kaşqara, Yarkəndə, Xotana kimi və qərbdə İran və Parfiya sərhədlərinəcən gedib çıxırdı. Beləliklə, Birləşmiş əyalətlər də daxil olmaqla bütün Şimali Hindistan, Pəncab və Kəşmir, habelə Orta Asiyanın böyük bir hissəsi Kuşan hökmdarlarının hakimiyyəti altında idi. Bu imperiya təqribən 300 il, Cənubi Hindistanda Andhra dövlətinin çiçəkləndiyi bir vaxtda ömür sürdü. Görünür, əvvəlcə kuşanların paytaxtı Kabil imiş, daha sonralar paytaxt Pişəvərə və yaxud o zaman deyildiyi kimi, Puruşapuraya keçirilmişdi; Bu şəhər sonralar da paytaxt olmuşdu.

Kuşanlar imperiyası bir çox cəhətdən maraq doğurur. Bu, Budda imperiyası idi və onun ən məşhur hökmdarlarından biri olan imperator



Kanişka *dharmaya* ürəkdən sədaqətliydi. Pişəvər paytaxtı yaxınlığındakı Takşaşila uzun müddət Budda mədəniyyətinin mərkəzi idi. Zənnimcə, kuşanlar, dediyim kimi, monqol idilər, ya da onlarla ittifaqda idilər. Görünür Monqolustandakı doğma diyarlardan kuşanların paytaxtına daim adamlar gəlib-getdiyindən Budda təlimi, eləcə də Budda mədəniyyəti Çinə və Monqolustana da yol tapmışdı. Qərbi Asiya və Budda təfəkkürü elə bu sayaq sıx əlaqəyə girdi. Makedoniyalı İsgəndərin dövründən Qərbi Asiya yunanların hakimiyyəti altında idi və onlar öz mədəniyyətlərini buraya gətirmişdilər. İndi bu yunan – Asiya mədəniyyəti Hindistanın Budda mədəniyyəti ilə qaynayıb-qarışıb.

Beləliklə, Çin və Qərbi Asiya Hindistanın təsirini öz üzərlərində hiss etmişdilər. Hindistan özü də lap elə onların təsiri altında idi. Kuşanlar imperiyası Asiyanı yəhərləyib minən pəhləvana bənzəyirdi: bu imperiya qərbdə yunan-Roma aləmi, şərqdə Çin aləmi və cənubda hind aləmi arasında yerləşirdi. Bu imperiya Hindistanla Roma arasındakı və Hindistanla Çin arasındakı yarı yolda yerləşirdi.

Gözlənildiyi kimi, Kuşan imperiyasının tutduğu bu mərkəzi mövqe Hindistanla Roma arasında sıx əlaqə yaradılmasına səbəb oldu. Kuşan dövrü zaman etibarilə Roma respublikasının sonu ilə (o vaxt hələ Yuli Sezar sağ idi) və Roma imperiyasının varlığının birinci iki əsri ilə tuş gəlir. Məlumdur ki, o zaman kuşanların imperatoru Avqustun hüzuruna böyük diplomatik heyət yollayıb. Ticarət tərəqqi tapmışdı, həm quru, həm də dəniz yolu ilə alver gedirdi. Hindistanın Romaya yolladığı mallar arasında ətriyyat, ədviyyat, ipək, zərxara, muslin, zərbaftalı parça və qiymətli daş-qaş olurdu. Plini adlı bir Roma müəllifi qızılın Romadan Hindistana seltək axdığından hətta acı-acı gileylənirdi də. O bildirirdi ki, bütün bu cah-calal Romaya ildə yüz milyon sestersiyaya[1] başa gəlir. Bu pul təqribən on beş milyon rupiyə[2] və ya bir milyon funt-sterlinqə[3] bərabər idi.

Həmin dövrdə Budda monastırlarında və sanqhların məclislərində böyük mübahisə və müzakirələr gedirdi. Cənubdan və qərbdən yeni-yeni ideyalar, ya da yeni qiyafədə köhnə ideyalar özünə yol tapırdı və buddizm təfəkkürü özünün ilkin sadəliyini tədricən itirirdi. Bu proses dəyişiklik nəticəsində buddizm parçalanana və iki cərəyanın – Mahayana (Geniş yol) və Hinayana (Dar yol) adlanan cərəyanların yaranması

[1] Sestersiya – qədim Romada xırda pul (*tərcüməçinin qeydi*)
[2] Rupi – Hindistanda pul vahidi (*tərcüməçinin qeydi*)
[3] Funt-sterlinq – İngiltərədə əsas pul vahidi (*tərcüməçinin qeydi*)

ilə nəticələnənə qədər davam etdi. Həyata və dinə baxışlar ideyaların yeni şərhindən asılı olaraq dəyişildiyi üçün həmin ideyaların incəsənətdə və memarlıqda təzahürü də dəyişirdi. Bu dəyişikliklərin nə tərzdə baş verdiyini demək asan deyil. Ola bilsin ki, buddizm təfəkkürü eyni istiqamətdə fəaliyyət göstərən brahmanizmin və ellinizmin təsirinə məruz qalırdı.

Buddizm, dönə-dönə dediyim kimi, kastalar əleyhinə, kahinlərin hakimiyyəti əleyhinə və mərasimlərdən sui-istifadə etmək əleyhinə üsyan edirdi. Qautama bütpərəstliyi təqdir etmirdi. O, ilahilik iddiasında deyildi və sitayişi də tələb eləmirdi. O, Nurlu-Budda idi. Bu ideologiyaya müvafiq olaraq Buddanın təsvirləri yox idi, o dövrün memarlığı ümumiyyətlə insan təsvirlərindən tamam uzaqlaşmışdı. Amma brahmanlar istəyirdilər ki, hinduizmlə buddizm arasındakı fikir ayrılığını aradan qaldırsınlar və buna görə buddizm təfəkkürünə hinduist ideyalar və simvollar daxil etməyə daim cəhd göstərirdilər. Allahları təsvir etmək üçün onlar yunan – Roma aləmindən olan ustaların da xidmətindən istifadə edirdilər. Tədricən həmin təsvirlər Budda ibadətgahlarına yol tapdı. Əvvəlcə bu təsvirlər Buddanın təsvirləri deyildi, bodisatvların təsvirləri idi; bodisatvlar Budda ənənəsinə görə Buddanın təcəssümündən qabaqkı pillələr idi. Bu proses pərəstiş obyektinə çevrilərək Buddanın özünün təsvirləri zahir olanadək davam etdi.

Mahayana məktəbi buddizmdə baş verən bu dəyişikliyi bəyənirdi. Bu məktəb dünyagörüşlərinə görə brahmanlara yaxın idi. Kuşan imperatorları Mahayana məktəbinin təlimini qəbul edərək, bu təlimin yayılmasına kömək edirdilər. Amma onlar Hinayana təliminə və hətta başqa dinlərə də əsla dözümsüz deyildilər. Deyildiyinə görə, Kanişka zərdüştiliyi də təşviq edirdi.

Mahayananın və Hinayananın müqayisəli məziyyətləri münasibətilə alimlər arasında gedən böyük mübahisələr haqqında oxumaq maraqlıdır. Bu məqsədlə *sanqhların* böyük məclisləri çağırılırdı. Kanişka Kəşmirdə *sanqhların* ümumi məclisini çağırdı. Həmin məsələ üzrə mübahisə və müzakirələr bir neçə əsr davam etdi. Mahayana Şimali Hindistanda, Hinayana isə Cənubi Hindistanda qələbə qazanmışdı. Hər iki cərəyanın Hindistanda hinduizm tərəfindən kökü kəsilənə qədər bu vəziyyət davam etdi. Bizim zəmanəmizdə buddizm Mahayana şəklində Çində, Yaponiyada və Tibetdə mövcuddur. Seylonda və Birmada Hinayana təliminə itaət edirdilər.



Xalq sənəti xalq təfəkkürünü düzgün əks etdirir; buna görə də, erkən buddizm təfəkkürünün sadəliyi öz yerini incədən-incə simvollara güzəştə getməyə başlarkən, hind sənəti də get-gedə daha çox mürəkkəb və qəliz hal alırdı. Məsələn, Hindistanın şimal-şərqində, Qəndəharda Mahayananın heykəli ayrı-ayrı hissələrinin və naxışlarının mürəkkəbliyinə görə fərqlənir. Hətta Hinayana arxitekturası da bu yeni inkişaf mərhələsinin təsirindən tamamilə kənarda qala bilməyib; Hinayana arxitekturası özünün erkən üslubuna xas olan bəsitliyi və ağırlığı yavaş-yavaş itirib və oyma naxış üslubundan və simvollardan geniş istifadə edir.

Həmin dövrün bir neçə abidəsi bizim günlərədək gəlib çatmışdır. Acantanın gözəl freskalarından[1] bəziləri çox maraqlıdır.

İndi biz kuşanlarla vidalaşırıq. Amma aşağıdakıları yadda saxlamalıyıq: Saklar və digər türk xalqları kimi Hindistana gələn kuşanlar da işğal edilmiş ölkəni yadellitək idarə etmirdilər. Onları Hindistanla və hind xalqı ilə bağlayan din idi. Bundan başqa, onlar Hindistanda arilərin dövləti idarəetmə prinsiplərini qəbul etmişdilər. Onların idarəetmə üsulu arilərin sistemi ilə çox halda uyğun gəldiyindən kuşanlar az qala üç yüz il müddətində Şimali Hindistan üzərində hakimiyyəti saxlaya bilmişdilər.

## İSA VƏ XRİSTİANLIQ

*12 aprel 1932-ci il*

Hindistanın şimal-qərbindəki kuşanlar imperiyasını və Çindəki Xan sülaləsini nəzərdən keçirərkən biz mühüm tarixi mərhələyə toxunmadan keçdik və odur ki, indi gərək o mərhələyə qayıdaq. İndiyədək biz V.S. (*before christ* – İsadan əvvəl) tarixləriylə qarşılaşırdıq. İndi biz xristianlıq erasına qədəm qoymuşuq ki, bu da A.D., yaxud A.S. ilə ifadə edilir. Eranın öz adından məlum olur ki, era İsadan, yəni İsanın zənn edilən doğum tarixindən başlanır. Həqiqətdə İsa, bəlkə də həmin tarixdən dörd il əvvəl anadan olmuşdur. Amma bunun bir o qədər əhəmiyyətli fərqi yoxdur. Adətən İsadan sonra tarixlər A.D. – *Anno Domini* – ilə ifadə edilir ki, bu da "Tanrı ilində" deməkdir. Bu geniş yayılmış üsula əməl etməkdə elə bir pis cəhət yoxdur. Amma mənə elə gəlir ki, yeni eranın tarixlərini A.S. hərfləriylə ifadə etmək elmi cəhətdən daha düzgündür (A.S., yəni *after christ* – İsadan sonra). Yeni V.S. *before christ*

[1] Freska – italyancadır; divar naxışı (*tərcüməçinin qeydi*)

(İsadan əvvəl) ifadəsini eynilə tətbiq etdiyim kimi. Mən elə bu cür etmək niyyətindəyəm.

İsanın tarixi Əhd-i-cədiddə şərh olunur və sən bu barədə az-çox bilirsən. İncildəki[1] hekayətlərdə onun cavanlığından az bəhs olunur. İsa Nazaretada anadan olub, Qalileyada xristianlığı təbliğ edirdi, Yerusəlimə gələndə otuzdan yuxarı yaşı vardı. Tezliklə o, məhkəmə qarşısında durmuş və Roma hakimi Ponti Pilat tərəfindən ölümə məhkum edilmişdi. İsanın öz təlimini təbliğ etməmişdən əvvəl onun nə etdiyi və haralarda olduğu məlum deyil. Bütün Mərkəzi Asiyada, Kəşmirdə, Ladakada və Tibetdə, hətta ondan daha uzaqlarda – şimalda indiyədək belə bir etiqad geniş yayılmışdı ki, guya İsa o yerlərdə olmuşdur. Bəziləri belə güman edirlər ki, o, Hindistanada gəlibmiş. Bu barədə müəyyən bir söz demək olmaz. İsanın həyatını öyrənən nüfuzlu tədqiqatçıların əksəriyyəti onun Hindistana və Mərkəzi Asiyaya gəlməsinə inanmırlar. Lakin əslində bunda ağlasığmaz bir şey yoxdur. Həmin dövrlərdə Hindistandakı məşhur darülfünunlar, xüsusilə, şimal-qərbdə Takşaşila uzaq-uzaq diyarlardan elmlə ciddi məşğul olan tələbələri cəlb edirdi. Buna görə də İsa biliyini artırmaq üçün oraya doğrudan da gələ bilərdi. İsanın təlimi bir çox cəhətdən Qautamanın təlimini o dərəcədə xatırladır ki, onun həmin təlimlə təfsilatınadək tanış olduğu da ağlabatandır. Lakin buddizm digər ölkələrdə kifayət qədər məşhur olduğundan İsa Hindistana heç gəlmədən də həmin dinlə tanış ola bilərdi.

Dinlərin münaqişələrə və şiddətli mübarizələrə səbəb olmasını hər bir məktəbli qız bilir. Amma dünya dinlərinin meydana gəlməsini izləmək və onları bir-birilə müqayisə etmək maraqlıdır. Onların dünyaya baxışlarında və təlimlərində o qədər çox ümumi cəhətlər var ki, xırda-para təfərrüat üzündən bu barədə bir-birilə çəkişən adamların səfehliyinə mat qalmalı olursan. Lakin dinlərin ilk təlimlərinə əlavələr etməklə onları təhrif edib tanınmaz dərəcəyə çatdırırdılar; müəllimlərin yerini isə dardüşüncəli və dözülməz fanatiklər tutmuşdu. Din çox zaman siyasət və imperializm xidmətçisi rolunda çıxış edirdi. Romanın siyasəti ta qədimdən rifah naminə, daha doğrusu, kütlələri istismar etmək üçün mövhumat yaymaqdan ibarət idi, çünki mövhumatçıları itaətdə

[1] İ n c i l – yunanca Yevangeliya (müjdə, xeyirxəbər), Tövratın xristianlığa aid hissəsi. İncildə, əsasən İsa peyğəmbərə və onun möcüzələrinə aid erkən xristianlıq əfsanələri toplanmışdır. İztirab çəkmək, səbirlilik və mütilik, işgəncələrə dözümlülük və s. təbliğ olunur (*tərcüməçinin qeydi*).



saxlamaq daha asandır. Roma zadəganları yüksək fəlsəfəyə qapıla bilərdi, lakin onlar üçün xoş olan hər şey xalq kütlələri üçün xoşagələn və ya zərərsiz deyildi. Daha sonrakı dövrün məşhur italyan ədibi, siyasət haqqında kitab yazan Makiavelli iqrar edirdi ki, dövlətin idarə olunması üçün din vacibdir və hətta əgər dövlət dini saxta saysa da onu müdafiə etməlidir. Biz din pərdəsi altında imperializmin saysız-hesabsız təcavüzünə aid nümunələr görmüşük. Buna görə də Karl Marksın "Din xalqın tiryəkidir" yazması təəccüblü deyil.

İsa yəhudi idi, yəhudilər isə özünəməxsus və heyrətamiz dərəcədə inadcıl xalq olmuş və indi də belədirlər. Davudun və Süleymanın padşahlığı dövründə az davam etmiş şan-şöhrətli günlərdən sonra yəhudilərin pis günləri başlandı. Həmin çiçəklənmə dövrü də çox qısa olub; amma dövrün şəninə o qədər tariflər deyilib ki, o dövr adamların gözündə bir növ keçmişdə olan, gələcəkdə gözlənilən, qabaqcadan müəyyən edilmiş vaxtda, yeni yəhudilərin gələcəkdə yenə əzəmətli və qüdrətli olacaqları bir vaxtda gözlənən "qızıl dövr"ə çevrilmişdi. Yəhudilər Roma imperiyasının hər yerinə və digər ölkələrə yayılsalar da, əlbir idilər; özlərinin şan-şöhrət dövranının gələcəyi günə möhkəm inam bəsləyirdilər və bu günün gəlişinin Məsiha[1] tərəfindən elan ediləcəyini gözləyirdilər. Tarixdə ən böyük möcüzələrdən biri budur ki, nə vətəniyurdu, nə də bir sığınacağı olan, həddən artıq təqiblərə məruz qalan, tez-tez qanlı vuruşmaların qurbanı olan yəhudilər iki min il özlərini və birliklərini hansı yolla saxlaya biliblər.

Yəhudilər xilaskar gözləyirdilər və bəlkə buna görə də İsaya bel bağlayırdılar. Lakin onlar İsa sarıdan tezliklə yanılıb peşman oldular. İsa əcaib şeylər danışır, mövcud şəriətə və ictimai quruluşa qarşı etiraz səsini ucaltmağa çağırırdı. O, xüsusilə dini bəzi adət və mərasim səviyyəsinə endirən varlılara və ikiüzlülərə qarşı çıxış edirdi. O, var-dövlət və şan-şöhrət vəd vermək əvəzinə tələb edirdi ki, insanlar dumanlı və əfsanəvi səmavi səltənət xatirinə hətta malik olduqlarından da əl çəksinlər. O, anlaşılmaz, müəmmalı tərzdə və eyhamlarla danışsa da, aydın olurdu ki, fitri istedada malik inqilabçıdır, mövcud şəraitə barışmaz münasibət bəsləyir və o mövcud şəraiti dəyişdirməyə cəhd göstərirdi. Lakin yəhudilərin istədiyi bu deyildi, ona görə də bir çoxları İsaya qarşı çıxaraq, onu Roma hökumət orqanlarına təslim etdilər.

[1] M ə s i h a – yəhudi dininə görə, yəhudi xalqını xilas etmək üçün zühur edəcək xilaskar (*tərcüməçinin qeydi*)

İmperiya bütün dinlərin mövcud olmasına yol verdiyi üçün romalılar dini məsələlərdə dözümlü idilər. Birisi hətta küfr danışsaydı, ya da allahlardan birini lənətləmiş olsaydı, bunun üstündə onu cəzalandırmazdılar. Roma imperatorlarından biri olan Tiberi demişdir: "Əgər allahları təhqir edirlərsə, qoy onlar özləri qisas almaq qeydinə qalsınlar". Buna görə də İsanın taleyini həll etməli olan Roma hakimi Ponti Pilatı işin dini cəhəti çətin ki, narahat edəydi. O, İsaya siyasi, yəhudilər isə sosial üsyankar kimi baxırdılar. İsa da məhz bu cəhətdən mühakimə edilib, edama məhkum olunaraq, Qolqofda çarmıxa çəkilmişdi. Ölümqabağı əzablar çəkərkən hətta sevimli şagirdləri belə onu tərk edərək ondan üz döndərmişdilər. Onların dönüklüyü İsanın çəkdiyi əzabları şiddətləndirdiyindən o, ölümqabağı bu çox təsirli sözləri deyib: "Aman Allah! Aman Allah! Məni nədən ötrü sağ qoydun?"

İsa vəfat edərkən lap cavan idi, yaşı otuzu yenicə adlamışdı. İncilin gözəl dili ilə təsvir edilmiş onun faciəli ölüm tarixini oxuyarkən, biz dərindən mütəəssir oluruq. Sonrakı əsrlərdə onun təlimlərinə nadir hallarda əməl olunsa da xristianlığın inkişafı adamlara İsanın adına ehtiram təlqin etmişdir. Lakin nəzərdən qaçırmaq olmaz ki, İsanı çarmıxa çəkəndə, o, Fələstinin hüdudlarından kənarda geniş miqyasda tanınmırdı. Roma sakinləri onun barəsində heç nə bilmirdilər. Ponti Pilatın özü belə bu hadisəyə xüsusi əhəmiyyət verməmişdi.

İsanın şagirdləri və tərəfdarları qorxuya düşüb ondan imtina etmişdilər, amma onun ölümündən az sonra İsanı şəxsən tanımayan Pavel adlı gəlmə bir adam xristianlığın doktrinası[1] hesab edilən təlimi yaymağa başlamışdı. Çoxları belə hesab edirlər ki, Pavelin təbliğ etdiyi xristianlıq İsanın təlimindən çox fərqlənir. Pavel qabiliyyətli və alim bir adam olsa da, İsa kimi sosial inqilabçı deyildi. Lakin Pavel uğurla iş gördüyündən xristianlıq tədricən yayılırdı. Əvvəlcə romalılar buna əhəmiyyət verməmişdi. Onlar xristianlığı yəhudi təriqəti hesab edirdilər. Amma xristianlar dünyaya meydan oxumağa başladılar. Onlar bütün qalan dinlərə düşməncəsinə yanaşır və imperatorun şəkillərinə təzim etməkdən qəti surətdə imtina edirdilər. Xristianların təfəkkür tərzini anlaya bilməyən romalılar onu dini məhdudluğun təzahürü zənn edirdilər. Buna görə də onlar xristianları qəribə, mədəniyyətsiz, bəşəriyyətin tərəqqisinə müqavimət göstərən dikbaş adamlar sayırdılar. Romalılar xristianlığa bir din kimi dözə bilərdilər, lakin xristianları, imperatorların şəkillərinə təzim

[1] Doktrina – elmi, fəlsəfi və ya siyasi nəzəriyyə (*tərcüməçinin qeydi*)



etməkdən boyun qaçırmasına dövlətə xəyanət kimi baxıldığından, günahkarlar edam olunmaqla cəzalanmalıydılar. Qladiatorların iştirakilə göstərilən tamaşaları da xristianlar kəskin surətdə pisləyirdilər. Sonralar xristianlar təqib olunmağa başlandı, əmlakları müsadirə edildi, özlərini isə şirlərə yem elədilər. Xristianların bu müsibətləri haqqında gərək ki, hekayətlər oxumusan, onlardan bəhs edən kinofilmlərə də, yəqin ki, baxmısan. Lakin insan bir əməl yolunda ölməyə hazırsa və belə ölümü özünə şərəf bilirsə, onda onun qarşısını almaq və uğrunda mübarizə etdiyi işə mane olmaq mümkün deyil. Odur ki, Roma imperiyasının xristianlığı boğmaq üçün göstərdiyi cəhdlər büsbütün boşa çıxdı. Bu mübarizədən qalib çıxan məhz xristianlıq oldu, eramızın dördüncü əsrində Roma imperatorlarından birisi dönüb özü xristian oldu və xristianlıq imperiyanın rəsmi dini oldu. Bu, Konstantinopolun binasını qoymuş Konstantin idi. Onun barəsində söhbətə bir qədər sonra qayıdacağıq.

Xristianlıq inkişaf etdikcə, İsanın ilahi xilqət olması barəsində qızğın mübahisələr baş verirdi. Yadındadırmı, mən sənə ilahilik iddiasında olmayan Qautama-Buddaya Allah və avataru kimi sitayiş edildiyini danışmışdım. Eləcə də İsa allahlıq iddiasında deyildi. Onun dönə-dönə iqrar edib dediyi "Mən Allah övladıyam, bəşər övladıyam" kəlmələri o demək deyildi ki, İsa fövqəlbəşər və ya ilahi xilqət olmaq iddiasındaydı. Lakin bəşər mövcudatının öz böyük adamlarını Allaha döndərməkdən xoşu gəlir, ilahiləşdirəndən sonra isə onların vəsiyyətinə əməl etməkdən boyun qaçırırdı! Altı yüz il sonra Məhəmməd peyğəmbər digər böyük dinin əsasını qoydu; bəlkə də bu nümunələri xatırladığına görə dönə-dönə aydınca bəyan etmişdi ki, o, Allah deyil, insandır.

Beləliklə, İsanın təlimini başa düşməyə cəhd göstərmək və onun dediklərinə əməl etmək əvəzinə xristianlar İsanın ilahi xilqət olması və üç üqnumun[1] mahiyyəti barəsində mübahisə edə-edə dalaşırdılar. Onlar bir-birini "mülhüd" adlandırır, təqib edir, biri digərinin başını bədənindən üzürdü. Bir vaxt müxtəlif xristian təriqətləri arasında bir diftonq[2] üstündə şiddətli münaqişə getmişdi. Bir tərəf iddia edirdi ki, ibadət vaxtı gərək (yunanca) "*Homo-ousion*" kəlməsi işlədilsin; o biri tərəf isə "*Homoi-ousion*" kəlməsini daha üstün tuturdu – bu fərqin İsanın ilahi xilqət olması məsələsinə dəxli var idi. Bu diftonqun üstündə amansız müharibə getmişdi və xeyli qan axıdılmışdı.

[1] Üç üqnum – xristian dinində: üç sifətdə birləşmiş Allah (*tərcüməçinin qeydi*)
[2] Diftonq – dilçilikdə iki saitin birləşib bir heca təşkil etməsi (*tərcüməçinin qeydi*)

Bu mübahisələr kilsənin qüdrətinin artdığı dövrdə onun daxilində gedirdi. Mübahisə və çəkişmələr Qərbdə müxtəlif xristian təriqətləri arasında lap son zamanlaradək davam edirdi.

Xristianlığın İngiltərəyə və Qərbi Avropaya keçməsindən hələ xeyli əvvəl, yəni o, Romada belə mənfur və qadağan olunmuş təriqət sayıldığı vaxt, Hindistana gəlib çıxdığını eşidəndə təəccüb edəcəksən. İsanın ölümündən təqribən yüz il sonra xristian missionerləri dəniz yolu ilə Cənubi Hindistana gəliblər. Onları iltifatla qarşılayıb, özlərinin yeni məzhəbini təbliğ etməyə imkan veriblər. Onlar bir çox adamı döndərib xristian etmişlər. Taleyin dönüklüyündən başlarına bir çox bəlalar gəlmiş həmin xristianların nəsilləri hələ indi də oralarda yaşayır. Onların əksəriyyəti indi Avropada yox olmuş qədim xristian təriqətlərinə mənsubdur. Həmin təriqətlərdən bəzisinin mərkəzi hazırda Kiçik Asiyada yerləşir.

Xristianlıq hazırkı dövrdə siyasi cəhətdən hakim dindir; çünki o, Avropanın hakim xalqlarının dini hesab olunur. Lakin zorakılıqdan və *aximsudan* imtina etməyi təbliğ edən və mövcud sosial quruluş əleyhinə etiraz səsini ucaldan üsyankar İsanı düşünəndə və onu indiki çığırğan ardıcılları ilə, onların imperializmi, silahları, müharibələri və var-dövlətə pərəstişlərilə müqayisə edəndə heyrətə gəlirsən. Dağ başından oxunan moizə hara, müasir Avropa və Amerika xristianlığı hara! Heç təəccüblü deyil ki, bir çoxları belə hesab edirlər Bapu (Qandi) bu gün İsa təliminə özünün Qərbdəki üzdəniraq ardıcıllarının çoxundan daha yaxındır. Bunda təəccüblü nə var ki!

## ROMA İMPERİYASI

*23 aprel 1932-ci il*

Əzizim, neçə gün idi ki, sənə məktub yazmırdım. Allahabaddan, hər şeydən əvvəl, qoca nənən Dol Amma barədə aldığım xəbərlər halımı pozub, məni təşvişə saldı. Mənim qanımı qaraldan odur ki, qoca və cansız anam polis dəyənəyi – lati altında işləməli olduğu halda, mən burada, həbsxanada, nisbətən rahat nəfəs alıram. Amma fikirlərin məni azdırmasına və hekayətimizin yarımçıq qalmasına gərək yol verməyəm.

Gərək biz Romanın və ya qədim sanskrit kitablarında deyildiyi kimi, Romakanın üzərinə qayıdaq. Roma respublikasının süqutu haqqında



və Roma imperiyasının meydana gəlməsi barədə nələr danışdığımız yadındadır. Yuli Sezarın oğulluğu Oktavian Sezar Avqust adı ilə ilk Roma hökmdarı oldu. O, qismən özü üçün kafi hesab etmədiyinə, qismən də respublikanın zahiri formalarını saxlamaq istədiyinə görə kral adını götürmədi. Buna görə də özünə "Jmperator" (imperator) və ya komandan adı vermişdi. "İmperator" sözü ən yüksək rütbə mənası verməyə başladı; yəqin ki, ingiliscə "emperor" (imperator) sözünün buradan götürüldüyünü bilirsən. Beləliklə, qədim Roma imperiyası az qala bütün dünya hökmdarlarının həsrətində olduğu və özlərini adlandırdığı iki söz: "İmperator" və "sezar", yəni "qeysər" və ya "çar" sözlərini yaratdı. Əvvəllər belə hesab edirdilər ki, bir növ bütün dünyanın sahibi olan tək bir imperator mövcud ola bilər. Romanı "Dünya ağası" adlandırırdılar və Qərb xalqları elə zənn edirdilər ki, Roma bütün dünyaya ağalıq edir. Söz yox, bu səhv fikir idi və coğrafiya və tarix sahəsində yalnız nadanlığı nişan verirdi. Roma imperiyası, əsasən Aralıq dənizi imperiyası idi, Şərqdə romalılar heç vaxt Mesopotamiyadan o tərəfə irəliləyə bilməmişdilər. Çində və Hindistanda ara-sıra daha iri, daha qüdrətli və mədəni dövlətlər yaranırdı. Bununla belə, məsələ Qərb aləminə aid olduğuna görə Roma yeganə imperiya idi və qədim dövrlər üçün bir növ dünya imperiyasını təmsil edirdi. Romanın nüfuzu çox böyük idi.

Roma ilə bağlı olan ən pis cəhət dünya ağalığı, dünya üzərində ali hakimiyyət ideyasıdır. Hətta Roma süqut edəndən sonra belə bu ideya onu qoruyur və ona qüvvət verirdi. Bu ideya Romadan tam təcrid olunmuş şəkildə yenə də mövcud idi. O dərəcədə mövcud idi ki, imperiya yox olandan və kabusa çevriləndən sonra da həmin ideya yaşayırdı.

Roma və onun varisləri haqqında yazmaq bir qədər mənə çətindir. Sənə məhz bu barədə nə söyləyim! Bax bunu tapıb seçmək asan iş deyil. Beynimdə əsasən məhbəsdə oxuduğum qədim kitablardan əldə etdiyim qarmaqarışıq mənzərələr dolaşır. Əgər məhbəsə düşməsəydim Roma tarixinə dair məşhur kitablardan birini oxuya bilməzdim. Kitab elə böyükdür ki, başqa işlərə başım qarışdığından həmin kitabı başdan ayağa qədər oxumaq çox çətindir. Kitabın adı belədir: "Roma imperiyasının süqutu və onun dağılması tarixi". Müəllifi Gibbon adlı bir ingilisdir. Kitab lap çoxdan yazılıb, təqribən yüz əlli il əvvəl, İsveçrədəki Cenevrə gölü sahilində; buna baxmayaraq, elə indi də çox oxunaqlı kitabdır; kitabda ahəngdar bir dillə nağıl edilənlərin hamısı

təmtəraqlı da olsa, mənə hər hansı romandan daha maraqlı göründü. Mən həmin kitabı Lakhnau mahal həbsxanasında on il əvvəl oxumuşdum. Aydan artıq Gibbonla bir nəfəs almışam, onun hekayətlərində təsvir edilən keçmişin mənzərələrinin təsiri altında olmuşam. Hələ kitabı axıracan oxumağa macal tapmamışdım ki, gözlənilmədən məni azad etdilər. Beləliklə də, mənim "füsunkar aləmimi" pozdular. Vaxt tapmaq, həvəsə düşüb Qədim Romaya və Konstantinopola qayıtmaq, qalan yüzdən çox səhifəni oxuyub qurtarmaq mənim üçün çətin oldu.

Amma bu söylədiklərimin hamısı az qala on il qabaq olmuşdu, o vaxt oxuduqlarımın çoxunu da, söz yox, get-gedə unutmuşam. Yadımda qalanları da ki, fikrimi məşğul edir, beynimdə qarmaqarışıqlıq yaradır; mən istəməzdim ki, bu dolaşıq fikirlər sənə də sirayət etsin.

Gəl indi Roma imperiyasına və ya əsrlər boyu mövcud olan imperiyalara ötəri nəzər salaq. Bəlkə sonralar ümumi mənzərəni bir qədər tamamlarıq.

İmperiya xristian erası ərəfəsində Sezar Avqustdan başlamışdı. İmperatorlar senatla hələ bir müddət ehtiramla rəftar edirdilər, amma tezliklə respublikanın son əlamətləri yox olur, imperator çox qüdrətli, mütləq hakim olur, əslində az qala Allaha çevrilir. Sağlığında ona yarımallah kimi pərəstiş edirlər. Öləndən sonra onu Allah elan edirlər. O dövrün yazıçıları ilk imperatorları, xüsusilə Avqustu istənilən qədər tərifləyiblər, onların ləyaqət və fəzilət sahibi olduqlarını dönə-dönə qələmə alıblar. Onlar Avqustun dövrünü hər yanda, hər yerdə yaxşılıq, səxavət hökm sürdüyü, xeyirxahların mükafatlandırıldığı, bədxahların cəza aldığı "qızıl dövr" adlandırıblar. Müstəbid ölkələrdə yazıçıların belə hərəkət etməsi adi bir haldır. Açıq-aşkar görünür ki, hökmdarı mədh etmək fayda verir. Ən məşhur latın müəlliflərindən bəziləri, o cümlədən kitablarını məktəblərimizdə dərslik kimi oxuduğumuz Vergili, Ovidi, Horatsi təqribən o dövrdə yaşayıblar. Ola bilsin ki, vətəndaş müharibələrindən və arasıkəsilməyən iğtişaşlardan sonra respublikanın son günlərində ticarət və müəyyən dərəcədə mədəniyyət inkişaf etdiyi zaman sülhün bərqərar olunması böyük rahatlıq idi.

Amma bu necə mədəniyyət idi? Bu, varlı şəxslərin mədəniyyəti idi. Həmin varlılar Qədim Yunanıstanın incə zövqlü, hazırcavab varlılarına qətiyyən oxşamırdılar; onlar işləri-gücləri əylənmək olan, gözə çarpmayan və cansıxıcı adamlar idilər. Dünyanın hər yerindən buraya cürbəcür ləziz yeməklər və zinət şeyləri gətirilərdi. Burada cah-calal



hökm sürərdi. Bu cür adamlar elə indi də tapılır. Bir tərəfdən sirklərdə parlaq tamaşalar, dəbdəbəli mərasimlər və oyunlar nümayiş etdirilir, digər tərəfdən ölümə məhkum qladiatorlar üz-üzə gəlirdilər. Bir yanda cah-calal, o biri yanda səfalət içərisində yaşayan camaat; sadə adamların belini qıran ağır vergilər; saya-hesaba gəlməyən qulların bellərində daşıdıqları ağır zəhmət yükü. Hətta adamları müalicə etməyi də, fəlsəfəylə məşğul olmağı da Roma ağaları əsasən yunan kölələrinə həvalə edirdilər! Təhsil almaq, ya da dünya haqqında – bu ağaların özlərini hakimi saydıqları dünya haqqında az-çox bilmək cəhdləri çox zəifdi.

İmperatorlar bir-birini əvəz edirdilər, bəzisi pis idi, bəzisi isə ondan da betər. Ordu yavaş-yavaş güclənirdi, imperatorları təyin etmək və devirmək onun ixtiyarında idi. Ordunu ələ almaq üçün pul təklif edilirdi, pulu isə ya xalq kütlələrinin kürəyindən çıxarır, ya da zəbt etdikləri ərazilərdən qopararırdılar. İri gəlir mənbələrindən biri qul alveri idi və Roma orduları Şərqdə müntəzəm qul ovuna çıxırdılar. Qul alverçiləri qulları yerindəcə almaq üçün ordunu müşayiət edirdilər. Qədim yunanların müqəddəs məkanı olan Delos adası ən iri qul bazarına çevrilmişdi, burada bəzən bir gündə on minədək qul alınıb satılırdı. Tanınmış imperatorlar nəhəng Roma Kolizeyində[1] eyni vaxtda onun özünü və camaatı əyləndirmək naminə ölməli olan min iki yüzə qədər sağlam, güclü qladiator – qulu meydana çıxarırdılar!

İmperiya dövrünün Roma mədəniyyəti bax belə idi! Halbuki dostumuz Gibbon yazır: "Hərgah dünya tarixində bəşəriyyətin ən çox xoşbəxt olduğu və misli görünməmiş bir dərəcədə tərəqqi etdiyi dövrünü müəyyənləşdirmək məsələsi qarşıda durmuş olsaydı, onda Domisianın ölümü ilə Kommodanın taxta çıxması arasındakı dövrü, yəni səksən dörd il sürən 96-180-ci illər arasındakı müddəti tərəddüdsüz göstərmək olardı". Deməyə ehtiyat edirəm: Gibbon alim ola-ola elə şey iddia edir ki, adamların əksəriyyəti tərəddüdsüz onu rədd edər. O, bəşəriyyətdən bəhs edərkən, əsasən Aralıq dənizi aləmini nəzərdə tutur. Çünki Hindistan, Çin, yaxud Qədim Misir haqqında onun məlumatı çox az, ya da heç yoxdu.

Amma deyəsən, mən Roma ilə çox sərt davrandım. Ola bilsin ki, Roma torpaqlarında müəyyən qədər əmin-amanlıq yaradılması çox xoşagələn bir dəyişiklik idi. Sərhədlərdə tez-tez vuruşmalar baş verirdi,

[1] K o l i z e y – latınca nəhəng, iri deməkdir. Qədim Roma memarlıq abidəsi; qladiatorların döyüşü və s. teatrvari tamaşalar üçün nəzərdə tutulurdu. Roma amfiteatrlarından ən böyüyüdür (*tərcüməçinin qeydi*).

imperiya daxilində isə heç olmazsa, ilk dövrlərdə Pax Romana – Roma sülhü hökm sürürdü. Təhlükəsizliyin müəyyən dərəcədə təmin edilməsi ticarətə təkan verirdi. Roma vətəndaşlığı hüquqları bütün Roma aləminə yayılmışdı; yadında saxla, bunun yazıq kölələrə heç bir dəxli yox idi. Bunu da yadında saxla ki, imperator geniş qüdrət sahibiydi, vətəndaşlar isə olduqca məhdud hüquqlara malikdi. Siyasət barədə hər bir müzakirəyə imperatora xəyanət kimi baxırdılar. Ali siniflər üçün müvafiq idarəetmə və hüquq normaları var idi. Ehtimal ki, bu, indikindən daha betər müstəbid quruluşdan əziyyət çəkən bir çox adamlardan ötrü böyük nailiyyət idi.

Tədricən romalılar yaman tənbəlləşdilər, elə tənbəlləşdilər ki, öz orduları sıralarında döyüşməyə yaramadılar, ya da başqa səbəblər üzündən bu işə qabil olmadılar. Kənd əhli ağır yük altında əzilə-əzilə var-yoxdan çıxırdı, şəhər əhalisi də kasıblaşırdı. İmperatorlar isə Roma sakinlərinin narazılığının qarşısını almaq üçün onları razı salmağa çalışırdılar. Bu məqsədlə Roma əhalisinə müftə çörək paylayır, onlardan ötrü əyləncə düzəldir, sirkdə tamaşalar təşkil edirdilər. Bununla da şəhər əhalisində yaxşı əhvali-ruhiyyə yarada bilirdilər. Lakin azad çörək paylanması çox az yerdə mümkün olurdu, özü də digər ölkələrin məhkum əhalisinin səfaləti və əzab-əziyyəti hesabına; məsələn, Romaya həmin məqsəd üçün un göndərən Misir kimi ölkənin hesabına.

Romalılar ordu sıralarına könülsüz getdiyindən, imperiya hüdudlarından kənarda yaşayanları, o zaman "barbar" deyilən adamları hərbi qulluğa götürməyə başladılar. Roma orduları da əsasən Romaya düşmən olan "barbar" xalqlara müttəfiq və ya qohum tayfalardan yaranırdı. Bu "barbar" xalqlar sərhədlərdə romalılara daim təzyiq göstərərək, onların hücumlarının qarşısını alırdılar. Roma zəiflədikcə, "barbar"lar, görünür daha da güclənir və cəsarətli olurdular. Təhlükə xüsusilə Şərqdən gözlənirdi; bu sərhəd uzaq olduğundan onu qorumaq asan deyildi. Avqust Sezardan düz üç yüz il sonra Konstantin adlı imperator böyük bir addım atdı ki, bu da çox dərin nəticələr verdi. O, öz iqamətgahını fələn Romadan şərqə köçürdü. Qədim Bizans (Vizantiya) şəhəri yaxınlığında, Qara dənizlə Aralıq dənizi arasında, Bosfor sahillərində yeni bir şəhərin bünövrəsini qoydu və ona öz adını – Konstantinopol adını verdi. Konstantinopol, ya da Yeni Roma adlanan bu şəhər Roma imperatorlarının paytaxtına və iqamətgahına çevrildi. Elə indinin özündə də bir çox Asiya məmləkətlərində Konstantinopol Rum, yaxud Roum kimi tanınmaqdadır.



# ROMA İMPERİYASI PARÇALANIR VƏ NƏHAYƏT XƏYALA ÇEVRİLİR

*24 aprel 1932-ci il*

Bu gün Roma imperiyası haqqında icmalımızı davam etdirəcəyik. Xristian erasının dördüncü əsrinin əvvəllərində, yəni 326-cı ildə, Konstantin qədim Bizansın olduğu yerin yaxınlığında Konstantinopol şəhərinin əsasını qoydu və imperiyasının paytaxtını oraya, Bosfor körfəzi üzərindəki Yeni Romaya – qədim Romadan uzaqda olan şəhərə köçürtdü. Xəritəyə nəzər salsan görərsən ki, bu yeni Konstantinopol şəhəri Avropanın ən ucqarında yerləşir və yönü qüdrətli Asiyaya tərəfdir: şəhər hər iki qitə arasında bir növ əlaqələndirici həlqə rolunu oynayır. Bu şəhərdən çoxlu böyük quru və dəniz ticarət yolları keçirdi. Paytaxt şəhər olmaq etibarilə Konstantinopolun coğrafi mövqeyi gözəldir. Konstantin paytaxtı üçün yaxşı yer seçilmiş olsa da, özü də, xələfləri də paytaxtı köçürməyin cəfasını az çəkməmişdilər. Əgər köhnə Roma Kiçik Asiyadan və Şərqdən uzaq idisə, yeni paytaxt Qalliya və Britaniya kimi Qərb ölkələrindən çox-çox uzaqlaşdırılmışdı.

Qarşıya çıxan çətinliyi aradan qaldırmaq məqsədilə bir müddət imperiyanı iki imperator birgə idarə edirdi; onlardan birisi Romadaydı, o birisi isə Konstantinopolda. Bu da imperiyanın əməlli-başlı Qərb və Şərq imperiyalarına bölünməsi ilə nəticələndi. Lakin paytaxtı Roma olan Qərb imperiyası bu zərbəyə çox davam gətirə bilmədi, "barbarlar" adlandırılan qüvvədən özünü qoruya bilmədi. German tayfalarından biri olan qotlar gəlib Romanı talan etdilər, sonra isə "vandallar"[1] və "hunlar" gəldilər və Qərbi imperiya süqut etdi. Yəqin ki, sən "hunlar" sözünü eşidibsən. Birinci Dünya müharibəsi zamanı ingilislər almanları adətən belə adlandırırdılar, bununla da onları qəddar barbarlar kimi səciyyələndirirdilər. Əslində isə müharibə vaxtı az qala hamı başını itirir; bəşər mədəniyyətinin onlara nələr öyrətdiyini unudur, xoş davranış qaydalarını yaddan çıxarır, özlərini vəhşicəsinə, barbarcasına aparır. Almanlar özlərini bu cür aparırdılar, ingilislər və fransızlar da. Bu cəhətdən onların aralarında ciddi fərq yox idi.

[1] V a n d a l l a r – V əsrin ortalarında Roma imperiyasını istila etmiş və onun mədəniyyət abidələrini məhv etmiş qədim german tayfalarından biri (*tərcüməçinin qeydi*)

"Hun"[1] sözü mənfi amil rəmzinə çevrilən dəhşətli bir ittihamdır. "Vandal" sözü də həmin mənada işlədilir. Ehtimal ki, bu hunlar və vandallar olduqca kobud və qəddar idilər və böyük ziyan vururdular. Lakin unutmaq olmaz ki, onlar haqqında bildiklərimizin hamısı onların düşmənlərinin, romalıların verdiyi məlumata əsaslanır və bunların tam qərəzsiz olduğunu zənn etmək çətindir. Hər necə olursa-olsun, qotlar, vandallar və hunlar Qərbi Roma imperiyasını oyuncaq evcik kimi yıxdılar. Onların asanlıqla qazandığı müvəffəqiyyətin səbəblərindən biri, ehtimal ki, Roma kəndlilərinin imperiyanın hakimiyyəti altında son dərəcə ehtiyac içində yaşaması, üzərlərinə ağır vergilər qoyulmuş və borc içində boğulan bu adamların hər cür dəyişikliyi alqışlamağa hazır olması idi. Bu ona bənzəyirdi ki, ehtiyacdan boğulan, dilənçitək yaşayan kasıb hind kəndlisi hər cür dəyişikliyi alqışlayırdı.

Beləliklə, Qərbi Roma imperiyası süqut etdi. Bir neçə əsrdən sonra o yenidən dirçələcək, amma bu dəfə başqa şəkildə. Şərq imperiyası isə hunların və başqa tayfaların hücumunu dəf edə-edə, olduqca ağır vəziyyətə baxmayaraq yaşamaqda idi. İmperiya bu hücumların nəinki qarşısında dura bildi, həm də ərəblərə, sonralar isə türklərə qarşı aparmalı olduğu ardı-arası kəsilməyən mübarizəyə baxmayaraq, əsrdən-əsrə yaşadı. İmperiya nəhayət 1453-cü ildə Konstantinopolun osmanlı türkləri tərəfindən zəbt edilməsinə qədər heyrətamiz dərəcədə uzun müddət – min yüz il yaşadı. O vaxtdan bəri az qala beş yüz ildir ki, Konstantinopol və ya türklərin dediyi kimi, İstanbul onların hakimiyyəti altındadır. Buradan onlar dəfələrlə Avropaya hərbi yürüş etmiş və lap Vyananın divarlarınadək gedib çıxmışlar. Sonrakı əsrlərdə onları yavaş-yavaş sıxışdırmağa başladılar və on iki ildən bir qədər artıq bundan əvvəl isə, dünya müharibəsi zamanı, az qala Konstantinopolu əldən verəcəkdilər. İngilislər şəhəri ələ keçirdilər, türk sultanı isə onların əlində oyuncağa çevrildi. Amma böyük rəhbər Mustafa Kamal paşa xalqının imdadına çatdı. Qəhrəmancasına mübarizədən sonra o, müvəffəqiyyət qazandı. İndi Türkiyə respublikadır, sultanlar isə yox olublar. Respublikanın prezidenti Kamal paşadır[2]. Min beş yüz il imperatorların, əvvəlcə Şərqi Roma, sonra isə türk imperatorlarının iqamətgahı olan Konstantinopol əvvəlki kimi Türkiyə dövlətinin tərkibinə daxildir, amma onun heç paytaxtı da deyil. Türklər imperiya haqqında

[1] Hunlar – IV-V əsrlərdə Avropaya basqın etmiş tayfalar (*tərcüməçinin qeydi*)
[2] Kamal paşa 1938-ci ildə vəfat edib.



həmin şəhərlə bağlı xatirələrdən kənarda durmağı və uzaq Kiçik Asiyada Anqoranın (Anqaranın) paytaxt olmasını üstün tutdular.

Bir-birinin ardınca gələn bütün dəyişiklikləri – Konstantinopolun əsasının qoyulmasını və Roma imperiyası paytaxtının yeni şəhərə köçürülməsini ötəri qeyd edərək biz iki min illik bir dövrü sürətlə başa vurduq. Amma Konstantinin adıyla daha bir yenilik bağlıdır. O,xristian dinini qəbul etmişdi və imperator olduğu üçün xristianlıq imperiyanın rəsmi dininə çevrilmişdi. Xristianlığın vəziyyətinin qəflətən dəyişilməsi, onun təqib edilən bir dindən dönüb hakim din olması, yəqin ki, çox təəccüblüdür. Bu dəyişiklik əvvəl xristianlığın xeyrinə olmadı. Xristianlığın müxtəlif təriqətləri arasında çəkişmə başlandı. Nəhayət, xristianlığın iki hissəsi – katolik və yunan hissəsi arasında böyük parçalanma baş verdi.

Katoliklərin mərkəzi Roma idi, buna görə də Roma yepiskopuna bir kilsə başçısı kimi baxırdılar; sonralar o, Roma papası oldu. Yunan hissəsinin mərkəzi Konstantinopol idi. Katolik kilsəsi bütün Şimali və Qərbi Avropada yayıldı və Roma katolik kilsəsi adlandı. Yunan kilsəsi pravoslav kilsəsi kimi tanındı. Şərqi Roma imperiyası süqut edəndən sonra pravoslav kilsəsinin tərəqqi etdiyi başlıca ölkə Rusiya oldu. İndi, bolşevizmin gəlməsindən sonra bu kilsə də, Rusiyadakı bütün qeyri kilsələr kimi, rəsmi mövqeyə malik deyil.

Mən həmin imperiyanı Şərqi Roma imperiyası adlandırsam da, onun Roma ilə oxşarlığı çox azdı. Hətta dili də latın dili deyil, yunan dili idi. Bu imperiyaya müəyyən mənada Makedoniyalı İsgəndərin yunan imperiyasının davamı kimi baxmaq olar; Qərb ölkələrinin istiqlaliyyət hüququnu uzun müddət heç tanımasa da, imperiyanın Qərbi Avropa ilə əlaqəsi var idi. Buna baxmayaraq Şərq imperiyası Roma imperiyası adından inadla əl çəkmirdi, imperiyanın camaatı romalı adlanırdı. Elə bil bu sözdə nə isə əfsunlu bir şey vardı. Digər bir cəhət bundan da təəccüblü idi. Roma şəhəri daha imperiyanın paytaxtı deyildisə də, o öz nüfuzunu itirməmişdi. Hətta onu istila etmək qəsdiylə üzərinə gələn barbarları da, deyəsən, şübhə bürüyürdü və barbarlar onunla nəzakətlə rəftar edirdilər. Böyük addakı qüdrət, əqidədəki qüdrət bax belədir!

İmperiyadan əli üzülən Roma, yenisini, amma başqa cürəsini yaratmağa başladı. Belə bir rəvayət gəzir ki, guya İsanın şagirdi Pyotr Romaya gəlib, orada ilk yepiskop olub. Bu, bir çox xristianların nəzərində Romaya müqəddəslik verib və Roma yepiskopluğunun əhəmiyyətini

artırıb. Roma yepiskopu əvvəlcə başqalarından fərqlənmirdi, amma imperator Konstantinopola köçəndən sonra onun rolu artdı. Mövqeyinə görə ondan üstün şəxs qalmamışdı və ona Pyotrun davamçısı bütün yepiskopların başçısı kimi baxırdılar. Sonralar onu papa adlandırmağa başladılar; bildiyin kimi, papalar indi də var və Roma katolik kilsəsinə başçılıq edirlər.

Maraqlı burasıdır ki, təsvirlərə sitayiş Roma və yunan pravoslav kilsələri arasındakı təfriqənin səbəblərindən biri olub. Roma kilsəsi öz müqəddəslərinin, xüsusilə İsanın anası Məryəmin təsvirinə səcdə etməyi üstün tutduğu halda, yunan-pravoslav kilsəsi qəti surətdə bunun əleyhinə çıxırdı.

Roma bir çox nəsillər boyu işğal olunub və onu şimal tayfalarının başçıları idarə ediblər. Amma elə onlar da çox vaxt Konstantinopol imperatorlarının ali hakimiyyətini qəbul etmişlər. Bu arada bir din başçısı kimi Roma yepiskopunun qüdrəti o dərəcədə artmışdı ki, artıq o, özünü Konstantinopola meydan oxumağa qadir hesab edirdi. Təsvirlərə sitayiş etmə məsələsində çətin vəziyyət yarandıqda papa Romanı Şərqi imperiyadan büsbütün ayırmağı qət etdi. Bu müddət ərzində bir çox hadisələr baş verdi ki, bu haqda sonralar danışacağıq. Ərəbistanda yeni din – islam dini yarandı, ərəblər bütün Şimali Afrikanı və İspaniyanı ələ keçirərək, Avropanın lap mərkəzinə gəlib çıxdılar. Şimali və Qərbi Avropada yeni dövlətlər təşəkkül prosesi keçirirdi, Şərqi Roma imperiyası isə ərəblərin şiddətli basqınlarına məruz qalırdı.

Papa şimali german tayfalarından olan frankların görkəmli başçılarırın birindən yardım istədi, nəticədə frankların başçısı Karlın, yaxud Çarlzın (ingiliscə) başına bir imperator kimi Romada tac qoyuldu. Bu, tamamilə yeni imperiya və dövlət olsa da, ona Roma imperiyası, sonralar isə "Müqəddəs Roma imperiyası" deyirdilər. Adamlar imperiyanı yalnız Roma imperiyası kimi təsəvvür edə bilirdilər və Şarlemanın (fransızca) və ya Böyük Karlın (onu belə adlandırırdılar) Romaya daxil olmasa da o, həm imperator, həm sezar, həm də avqust oldu. Yeni imperiyanı qədimdəkinin davamı hesab etsələr də, onun adına bir söz də əlavə etdilər. İmperiya "Müqəddəs İmperiya" oldu. İmperiya xristian imperiyası olduğuna görə müqəddəs sayılırdı, papa isə onun xaç atasıydı.

Əqidənin ecazkar gücünə bir də əmin ola bilərsən. Mərkəzi Avropada yaşayan frank, ya german dönüb Roma imperatoru olur! Bu "müqəddəs" imperiyanın başına gələn sonrakı əhvalat isə ondan da



təəccüblüdür. Bir imperiya olmaq etibarilə o, çox uydurma imperiya idi. Konstantinopoldakı Şərqi Roma imperiyası bir dövlət kimi qaldığı halda, Qərbi imperiya dəyişilirdi, yox olurdu və hərdənbir təzədən meydana çıxırdı. Söz yox ki, o imperiya aldadıcı və uydurma bir imperiya idi. Bu imperiya Roma adının və xristian kilsəsinin nüfuzu sayəsində nəzəri cəhətdən mövcud idi. Bu, gerçəkliklə əlaqəsi olmayan xəyali imperiya idi. Kim isə, deyəsən, Volter "Müqəddəs Roma imperiyası"na belə bir tərif vermişdi: nə müqəddəsdir, nə Roma imperiyasıdır, nə də ki, bir imperiyadır! Kim isə Hindistan mülki xidmətinə – bədbəxtlikdən, əlindən ölkəmizin hələ də dad çəkdiyi mülki xidmətə belə bir tərif vermişdi: nə Hindistana aiddir, nə mülkidir, nə də ki, bir xidmətdir!

Bu xəyali Müqəddəs Roma imperiyası hər nə cür olsa da azı tam bir minillik ərzində yaşamış və imperiyanın ömrü cəmi yüz ildən bir az artıq bundan əvvəl yeni Napoleonun dövründə sona çatmışdı. İmperiyanın aqibəti nə diqqətəşayan idi, nə faciəli. Ehtimal ki, onun yox olmasını az adam hiss etdi, çünki əslində o, çoxdan mövcud deyildi. Axırı ki, xəyal qeyb oldu, amma birdəfəlik yox, o, təzədən müxtəlif qiyafələrdə – qeysər, çar və s. qiyafədə üzə çıxırdı. Onların əksəriyyəti on dörd il əvvəl başa çatmış dünya müharibəsi zamanı o dünyalıq oldu.

## DÜNYA DÖVLƏTİ İDEYASI

*25 aprel 1932-ci il*

Bu məktublarla səni yormaqdan və çıxılmaz vəziyyətdə qoymaqdan ehtiyat edirəm. Ələlxüsus Roma imperiyaları haqqında son iki məktubum, yəqin sənin üçün yorucu olub. Mən gah çox qabağa gedirdim, gah neçə min il geriyə qayıdırdım, minlərlə mil mətləbdən uzaqlaşırdım. Beynində dolaşıqlıq əmələ gəlibsə, deməli təqsirkar ancaq mənəm. Ruhdan düşmə. Çalış davam elə. Hərgah söylədiyim əhvalatları arabir yaxşı izləyə bilməsən, narahat olma, işində ol! Bu məktubları sənə tarix kursunu tədris etmək üçün yox, tarixə nəzər salmaqda imkan vermək və maraq oyatmaq üçün yazıram.

Yəqin bu Roma imperiyaları səni təngə gətirib. Etiraf edirəm ki, elə mən özüm də yorulmuşam. Gəl bu gün də dözək, sonra isə müvəqqəti də olsa, onlarla vidalaşarıq.

Bilirsən ki, indi millətçilik və vətənpərvərlik haqqında, yəni vətənə məhəbbət haqqında çox söhbət gedir. Bu gün Hindistanda az qala hamımız cani-dildən millətçiyik. Bu millətçilik özlüyündə tarixdə tamamilə yeni bir hadisədir, bəlkə də yazışma zamanı onun əmələ gəlməsini və inkişafını izləyə bildik. Roma imperiyaları dövründə belə bir duyğu çətin mövcud ola bilərdi. İmperiya dünyanı idarə edən yeganə böyük dövlət sayılırdı. Bütün dünyanı idarə edə biləcək dövlətlər, ya imperiyalar heç vaxt mövcud olmayıb, lakin coğrafiya sahəsindəki nadanlıq, eləcə də böyük-böyük məsafələrə yük daşınmasıyla və səyahətlərlə bağlı çətinliklər nəticəsində keçmişdə adamlar tez-tez elə düşünürdülər ki, belə bir dövlət var. Məsələn, Avropada və Aralıq dənizi ölkələrində Roma dövlətinə, hələ o, imperiyaya çevrilməmişdən qabaq belə bütün qalanlarının tabe olduğu fövqəldövlət kimi baxırdılar. Onun nüfuzu o qədər böyük idi ki, Perqam kimi ölkənin hakimləri, Kiçik Asiyadakı yunan dövlətləri, eləcə də Misir öz ölkələrini Roma xalqına əslində bir töhfətək təqdim edirdilər. Roma onlara olduqca qüdrətli və yenilməz görünürdü. Halbuki sənə demişdim ki, nə respublika dövründə, nə də imperiya dövründə Romanın hakimiyyəti heç vaxt Aralıq dənizi ölkələrinin hüdudlarından qırağa çıxmamışdı. Avropanın şimalındakı "barbar"lar ona itaət etmək istəmirdilər, bu isə Romanı o qədər də narahat etmirdi. Lakin Roma hakimiyyətinin uzaqlara yayılıb-yayılmamasından asılı olmayaraq, onun dünya dövləti ideyası var idi və Qərbin o zamankı xalqlarının əksəriyyəti bu ideyanı qəbul etmişdi. Roma imperiyalarının ömrü məhz bu səbəbdən belə uzun olub; onlar öz gerçək hökmranlığını itirdikdə belə adı və nüfuzu böyük olub.

Bütün dünya üzərində ağalıq edən yeganə böyük dövlət ideyası təkcə Romaya xas deyildi. Qədimlərdə Çində və Hindistanda da o ideyaya rast gəlirik. Sən bilirsən ki, Çin dövlətinin arabir Roma imperiyasından daha geniş olduğu dövrləri də olub və sərhədləri qərbdə çox-çox uzaqlara yayılıb. Çin imperatorunu, çinlilərin dediyi kimi, "səma övladı"nı bütün dünyanın hökmdarı hesab edirdilər. Doğrudur, imperatora başağrısı verən, ona tabe olmaq istəməyən bəzi tayfalar və xalqlar var idi. Amma bu tayfalar romalılar üçün şimali avropalılar "barbar" olduğu kimi eynən "barbar" idilər.

Dünya hökmdarları – *çakravarti racələr* deyilən hökmdarların adlarına ən qədim dövrlərdə Hindistanda da rast gəlinir. Dünya haqqında hindlilərin təsəvvürü, əlbəttə, çox məhdud idi. Hindistan özü o qədər böyük idi ki, onlara tam bir dünyatək görünürdü; Hindistan üzərindəki ali hakimiyyəti isə onlar dünya üzərindəki hakimiyyət kimi təsəvvür edirdilər. Bu dünyanın hüdudları xaricində özgə nə varsa, hamısı "barbar", *mleççha* sayılırdı. Öz adını – Bharatavarşanı – aldığı əsatiri Bharatanı ənənə belə bir dünya hakimi, *çakravarti* padşahı hesab edir. "Mahabharata" da belə rəvayət olunur ki, Yudhiştira və qardaşları dünya monarxiyası uğrunda mübarizə aparırdılar. *Aşvamedha* – atların böyük qurban verilməsi mərasimi dünya ağalığı rəmzi və iddiası idi. Görünür, Aşoka, onu vicdan əzabı mübarizədən əl çəkməyə məcbur etməyincə bu məqsədə doğru can atırdı. Sonralar sən Hindistanda digər hökmdarlarla – imperialistlərlə, məsələn, Quptalar sülaləsi ilə rastlaşacaqsan; bu sülalə də həmin məqsədi güdürdü.

Beləliklə, görəcəksən ki, qədimlərdə adamlar çox vaxt "dünya hökmdarı" və "dünya dövləti" anlayışlarına tez-tez müraciət edirdilər. Aradan uzun müddət keçəndən sonra yeni növ millətçilik və imperializm meydana çıxdı; hər ikisi də bu dünyaya özü ilə xeyli qarışıqlıq gətirdi. Bu gün yenidən dünya dövlətindən dəm vururlar. Amma daha böyük imperiyadan, yaxud dünya hökmdarından deyil, bir növ ümumdünya respublikasından – bir millətin, bir xalqın və ya sinfin başqaları tərəfindən istismarını aradan qaldıracaq respublikadan danışırlar. Belə bir şeyin ən yaxın gələcəkdə baş verib-verməyəcəyini demək çətindir. Amma dünya yaman haldadır və görünür, xəstəlikdən qurtarmaqdan ötrü başqa əlac yoxdur.

Mən Şimali Avropanın "barbar"ları barədə dönə-dönə danışmışam. Bu sözü ona görə işlədirəm ki, onları romalılar belə adlandırırdılar. Mərkəzi Asiya köçəriləri kimi, bu xalqlar da Romadakı, yaxud Hindistandakı qonşularına nisbətən az mədəni olublar. Lakin onlar sərt iqlim şəraitində yaşadıqlarına görə daha çevikdirlər. Sonralar dönüb xristian oldular, hətta Romanı istila edəndə də bir qayda olaraq qəddar düşmən kimi hərəkət etmirdilər. Avropanın şimalındakı indiki millətlər bu "barbar" tayfalardan – qotlardan, franklardan və başqalarından törəmişlər.

Mən sənə Roma imperatorlarının adlarını çəkmişdim. Onlar çox olub və az qismini çıxmaq şərtilə, hamısı da pis olub, Neron barədə şəksiz ki, eşidibsən. Amma eləleri vardı ki, ondan da betərdi. İrina adlı bir qadın, imperatriçə olmaq məqsədilə imperator taxt-tacına sahib olan oğlunu öldürmüşdü. Bu hadisə Konstantinopolda baş vermişdi.

Roma imperatorlarından biri hamısından yüksəkdə dururdu. Adı Mark Avreli Antoni idi. Filosof sayılır, onun yazdığı fikirlər və kəlamlar kitabı mütaliə edilməyə çox layiqdir. Mark Avrelinin sanki əksinə olaraq taxta çıxan oğlu Romanın törətdiyi ən qəddar yaramazlardan biri olur.

Roma imperiyasının mövcud olduğu ilk üç yüz il ərzində Roma Qərb dünyasının mərkəzi olub. Görünür, o iri-iri binaları olan çox böyük şəhərdi; imperiyanın hər yerindən və onun hüdudları xaricindən adamlar buraya axışardılar. Saysız-hesabsız gəmi karvanları uzaq-uzaq ölkələrdən buraya zinət şeyləri, nadir yeməklər və bahalı parça daşıyardılar. Deyildiyinə görə Qırmızı dənizdəki bir Misir limanından hər il yüz iyirmi gəmidən ibarət donanma Hindistana yola düşərdi. Gəmilər dənizə məhz musson küləyi əsən vaxt çıxardı: arxadan əsən külək onlara çox kömək edərdi. Adətən gəmilər Cənubi Hindistana üzərdi. Orada gəmilərə qiymətli mallar yükləyib arxadan əsən küləyin köməyilə yenidən Misirə qayıdardılar. Misirdən Romaya mal həm quru yolla, həm də dənizlə göndərilərdi.

Amma bütün ticarət varlıların xeyri üçün edilirdi. Cüzi qisim adamların cah-calalı arxasından insan səfaləti görünürdü. Roma təqribən üç yüz il Qərbdə ağalıq edib, sonralar isə Konstantinopolun əsası qoyulandan sonra, Konstantinopolla birgə ağalıq edib. Maraqlı burasıdır ki, uzun sürən bu dövr ərzində qısa müddətdə çox iş görmüş Yunanıstandan fərqli olaraq Roma təfəkkür sahəsində heç bir böyük şey yaratmayıb. Roma mədəniyyəti bir çox cəhətdən ellin mədəniyyətinin sönük əksi kimi görünür. Amma belə hesab edilir ki, təkcə bir sahədə romalılar son dərəcə çox iş görüblər – hüquq sahəsində. Elə indi də Qərb hüquqşünasları Roma hüququnu öyrənirlər; çünki belə zənn edirlər ki, Roma hüququ xeyli dərəcədə Avropa hüququnun əsasını təşkil edir.

Britaniya imperiyasını çox vaxt Roma imperiyasıyla müqayisə edirlər; adətən bu müqayisəni məmnuniyyətlə ingilislər edirlər. İmperiyaların hamısı isə az-çox bir-birlərinə bənzəyirlər. Onlar çoxlarını istismar edə-edə piy bağlayırlar. Amma ingilislərdə və romalılarda bir ümumi cəhət də var: həm onlar, həm də o biriləri hər cür təxəyyüldən tamam məhrumdurlar. Dünyanın yalnız onların səadəti üçün yarandığı iddiasında olan və özlərinə güvənən bu adamlar həyatda narahatlıq və çətinlik nə olduğunu bilmədən yaşayırlar.



## PARFİYA VƏ SASANİLƏR

*26 aprel 1932-ci il*

İndi biz Roma imperiyasını tərk etməli və dünyanın digər yerlərinə yollanmalıyıq. Asiyada nələr baş verdiyinə baxmalı, Hindistan və Çin haqqında hekayətimizi davam etdirməliyik. Tarixin üfüqlərində yeni-yeni ölkələr görünür. Gərək biz də o ölkələr haqqında bir söz deyək. İrəliyə getdikcə bir çox ölkələr barədə o qədər danışmalıyıq ki, bəlkə də mən ümidimi üzüb bu işdən əl çəkdim.

Məktublarımdan birində Parfiyada Karr vuruşmasında Roma respublikası ordularının ağır məğlubiyyətə uğradığını xatırlatmışdım. Parfiyalılar üzərində dayanmamışdım və onların kim olduğundan, indi İranın və Mesopotamiyanın olduğu yerlərdə hansı yolla dövlət qurduqlarından söz salmışdım. Makedoniyalı İsgəndərdən sonra onun sərkərdəsi Selevkin və varislərinin (selevkilərin) Hindistandan başlamış Qərbdə Kiçik Asiyayacan uzanan ərazidə hökmranlıq etdikləri yadındadır. Onlar Mərkəzi Asiyadan olan parfiyalılar adlı başqa bir tayfa tərəfindən qovulmayınca düz üç yüz il tərəqqi etdilər. Respublikanın son dövründə romalıları darmadağın edən məhz İrandakı, yaxud Parfiyadakı (o zaman ölkə belə adlanırdı) parfiyalılar oldu; sonralar respublikanı əvəz edən imperiyaya da parfiyalıları qəti məğlubiyyətə uğratmaq müyəssər olmadı. Onlar daxili inqilab nəticəsində devrilənə kimi düz iki yüz əlli il Parfiyanı idarə etdilər. Yadelli hökmdarlar əleyhinə iranlılar özləri ayağa qalxdılar və öz tayfalarından, öz məzhəblərindən olan bir adamı onların yerinə qoydular. Bu adam I Ərdəşir idi, onun sülaləsi Sasanilər sülaləsi adlanır. Ərdəşir zərdüştiliyin (gərək yadında ola, bu, parsların dinidir) möhkəm tərəfdarı idi və başqa dinlərə münasibəti o qədər də müsbət deyildi. Sasanilərlə Roma imperiyası demək olar ara verməyən müharibə aparırdı. Sasanilərə hətta Roma imperatorlarından birini əsir almaq da müyəssər olmuşdu. İran orduları bir neçə dəfə gedib lap Konstantinopola da çatmışdılar. Bir dəfə onlar Misiri də istila etmişdilər. Sasanilər imperiyası başlıca olaraq özünün zərdüştiliyə bağlılığı ilə məşhurdur. VII əsrdə islamın meydana çıxması ilə həm sasanilər imperiyasına, həm də onun rəsmi dininə son qoyuldu. Bu dəyişiklikdən və təqib olunmaq qorxusundan zərdüştiliyin bir çox tərəfdarları öz məmləkətini tərk etməli oldular. Onlar Hindistana gəldilər. Burada

sığınacaq axtaranların hamısını necə qonaqpərvərliklə qarşılayırdılarsa, onları da eləcə qarşıladılar. Hindistandakı indiki parslar həmin zərdüştilərin nəsilləridir.

Hindistanı başqa ölkələrlə onların müxtəlif dinlərə olan münasibəti mənasında müqayisə etmək həm maraqlıdır, həm də qəribə. Əksər ölkələrdə, xüsusən Avropada, rəsmi dinə etiqad etməyənlərin təqib olunduğuna və belələrinə dözülməz münasibət bəsləndiyinə rast gəlirik. Bu dövrdə az qala hər yanda məcburiyyət hökm sürürdü. Avropada dəhşətli inkvizisiya haqqında və cadugər adlananların yandırılması barədə oxuyarsan. Amma qədimlərdə Hindistanda özgə dinlərə demək olar həmişə tam dözümlü münasibət bəslənmişdi. Qərbdəki dini təriqətlərin amansız ixtilaflarıyla müqayisədə hinduizmlə buddizm arasındakı cüzi ixtilaf heç nəydi. Bunu yadda yaxşı saxlamaq lazımdır ki, bu yaxınlarda Hindistanda baş verən dini-icma iğtişaşlarıyla əlaqədar tarixdən məlumatı olmayan bəzi adamlar elə düşünüblər ki, guya əsrlər boyu Hindistanın qisməti belə iğtişaşlar olub. Bu, əsla düz deyil. Belə ixtilafların kökü bu yaxınlarda baş verən hadisələrlə bağlıdır. Sən buna əmin olacaqsan ki, islam dini gələndən sonra əsrlər boyu Hindistanda müsəlmanlar öz qonşularıyla hər yanda dinclik şəraitində yaşayırdılar. Müsəlmanlar tacir sifətilə gələndə onları mehribanlıqla qəbul edir və ölkədə məskən salmaları üçün şərait yaradırdılar. Amma deyəsən, mən mətləbdən uzaqlaşdım.

Beləliklə, Hindistan Zərdüşt dininə mənsub olanları qonaqpərvərliklə qarşıladı. Bu əhvalatdan bir neçə yüz il qabaq, e.ə I əsrdə, təqiblərdən yaxa qurtararaq Romadan qaçmış bir çox yəhudilərə də Hindistan elə bu cür sığınacaq vermişdi.

İranda Sasanilərin hökmranlığı dövründə Suriya səhrasında payına ani şan-şöhrət düşən kiçik bir dövlət tərəqqi edirdi. Palmira Suriya səhrasında ticarət mərkəzi idi; əzəmətli xarabalıqlar onun möhtəşəm binalarından söhbət açır. Bir vaxt dövlətin hökmdarı Zübeydət (Zinoviya) adlı qadın idi. Lakin romalılar onu məğlubiyyətə uğradıb, ləyaqətli cəngavər olmadıqlarından o qadını Romaya əl-ayağı zəncirlənmiş halda gətirmişdilər.

Xristian erasının əvvəllərində Suriya tərəqqi edən bir ölkə idi. Onun barəsində Əhd-i-Cədiddə məlumat verilib. Ölkənin pis idarə olunmasına və istibdada baxmayaraq, orada iri şəhərlər vardı və əhali sıx idi; iri-iri kanalları olan ölkədə geniş ticarət aparılırdı. Lakin ardı-arası kəsilməyən müharibələr nəticəsində və ölkənin pis idarə edilməsi üzündən ora altı yüz il ərzində az qala bomboş səhraya çevrildi – əhali iri şəhərləri tərk etdi, qədim binaların yerində isə xarabalıqlar qaldı.

Əgər sən Hindistandan Avropaya təyyarəylə uçsan Palmira və Baalbek xarabalıqlarını görəcəksən. Bir vaxt tarixdə məşhur olan, amma indi varlığından əsər-əlamət qalmayan Babilin (Vavilonun) və bir çox digər şəhərlərin harada olduğunu görəcəksən.

## CƏNUBİ HİNDİSTAN MƏSKƏNLƏRİN ƏSASINI QOYUR

*28 aprel 1932-ci il*

Səyahətimizdə çox uzaqları gəzib-dolaşdıq. Gəl təzədən Hindistana qayıdaq və bu ölkədə əcdadımızın nə ilə məşğul olduğunu aydınlaşdıraq. Kuşanların sərhəd imperiyası, paytaxtı Puruşapura, yaxud Pişəvər olan böyük Budda dövləti, yəqin ki, yadındadır. Bütün Şimali Hindistan və Orta Asiyanın xeyli hissəsi onun hüdudları daxilində idi. Bəlkə o da yadındadır ki, təxminən həmin dövrdə Hindistanın cənubunda dənizlərdən-dənizlərəcən uzanan Andhra dövləti mövcud olub. Kuşanlar dövləti və Andhra təqribən üç yüz il tərəqqi edib. Bizim eranın üçüncü əsrinin ortalarına yaxın bu imperiyalar yoxa çıxıb, bir müddət Hindistanda ancaq bir sıra xırda dövlətlər qalıb. Amma heç yüz il də keçməmiş Pataliputrada daha bir Çandraqupta ucalıb. Təcavüzkar Hinduist imperializmi dövrü oradan başlanır. Lakin Quptalar sülaləsinə keçməmişdən qabaq – onları belə adlandırıblar, ölkənin cənubunda həyata keçirilən böyük işlərə ötəri də olsa nəzər salaq. Bunun nəticəsində hind incəsənəti və mədəniyyəti Uzaq Şərq adalarında yayılmışdı.

Himalay dağları və iki dəniz arasında qalan Hindistanın ümumi şəklini yaxşı təsəvvür edirsən. Onun şimalı dənizdən çox uzaqdır. Keçmişdə Şimali Hindistanın əsas qayğısı düşmənlərin və istilaçıların keçib gəldiyi quru sərhədi idi. Amma şərqdə, qərbdə və cənubda bizim çox geniş sahillərimiz var və Hindistan Kanniyakumari, yaxud Komorin burnu yaxınlığında şərqlə qərb birləşməyincə daralır. Dənizin yaxınlığında yaşayanların hamısı, söz yox, onunla, yəni dənizlə maraqlanırdı və güman ki, onların çoxu dənizçi idi. Cənubi Hindistanın ən qədim

zamanlardan Qərblə apardığı böyük ticarət barədə sənə danışmışdım. Ən qədim dövrlərdən bəri Hindistanda gəmiqayırma sənayesinin mövcud olduğunu və adamların ticarət xatirinə, bəlkə də macəra xatirinə dəryalar keçdiyini eşitməyimiz buna görə də təəccüblü deyil. Belə zənn edirlər ki, Vicayanın Hindistandan yola düşməsi və Seylonu fəth etməsi Qautama – Buddanın burada yaşadığı dövrə təsadüf edir. Acanta mağaralarında deyəsən at və fil yüklənmiş gəmilərdə Seylona keçən Vicaya təsvir edilib. Vicaya adaya Sinhala – "Sinhala dvip" adı vermişdi. Sinhala *sinqha* – şir sözündəndir və şir haqqında qədim bir əfsanə var ki, məzmununu unutmuşam. Gərək ki, Seylon adı mənşəcə "Sinhala" sözündəndir.

Cənubi Hindistandan Seylona kiçik dəniz səfərinə çıxmaq, əlbəttə, böyük bir hünər deyildi. Amma gəmiqayırma sənayesinin mövcud olduğu barədə və Benqaliyadan tutmuş ta Qucarata qədər bütün sahil boyu yerləşən hind limanlarından dəniz səfərinə çıxan adamlar barədə əlimizdə külli miqdarda sübut var. Çandraqupta Mauriyanın baş naziri Çanakya özünün "Arthaşastra" əsərində hind donanması haqqında az-çox məlumat verir; o əsər haqqında Naini həbsxanasından sənə yazmışdım. Çandraqupta sarayındakı yunan səfiri Meqasfen də o barədə xatırladır. Beləliklə, gəmiqayırma hələ Mauriyalar dövrünün əvvəllərində Hindistan sənayesinin inkişaf etmiş sahəsi idi. Gəmi düzəltməkdən əsas məqsəd onlardan istifadə etmək idi. Belə ki, bir çox adamlar gəmilərdə dəniz səfərinə çıxırdı. Fikirləşəndə ki, adamların çoxu lap bizim dövrümüzdə də dəniz səfərindən qorxur və bunu özlərinin dini əqidələri ilə bir araya sığmaz zənn edir, doğrusu təəccüblənirik. Əlbəttə, həmin adamları keçmişin qalığı adlandıra bilmərik; özün görürsən ki, keçmişdə adamlar daha dərrakəli olublar. Xoşbəxtlikdən buna bənzər qeyri-adi təsəvvürlər indi yox olub və ancaq cüzi miqdarda adam hələ də onun təsiri altındadır.

Hindistanın cənubu, əlbəttə, şimalına nisbətən dənizlə daha çox bağlı idi. Xarici ticarətin çox hissəsi Cənubi Hindistan vasitəsilə aparılırdı. Tamil poeziyası "Yavana"da hazırlanmış şərablardan, vazalardan və lampalardan tez-tez bəhs edilir. "Yavana" adı əsasən yunanlara aid idi, ola bilsin ki, yadelli adına nə varsa hamısı barəsində də bu söz bir qədər az yəqinliklə işlədilirdi. Andhranın sikkələrində ikidorlu gəmi təsvir edilib ki, bu da qədim Andhra sakinlərinin gəmiqayırma və dəniz ticarətilə necə çox maraqlandığını göstərir.



Buna görə məhz Cənubi Hindistan elə böyük bir işə girişdi ki, bu da bütün Şərq adalarında hind müstəmləkələrinin əsasının qoyulması ilə nəticələndi. Müstəmləkələr yaratmaq məqsədi daşıyan bu ekspedisiyalar eramızın birinci əsrində başlamış və bir neçə yüz il davam etmişdir. Hindlilər Malakka, Yava, Sumatra, Kamboca, Borneo yarımadalarına gəlib çıxaraq, özləri ilə Hindistan mədəniyyətini və incəsənətini gətirərək hər yanda məskən saldılar. Birmada, Siamda və Hind-Çində böyük hind müstəmləkələri mövcud idi. Hətta onların öz şəhər və məskənlərinə verdikləri bir çox adlar Hindistandakı adlardan götürülmüşdür: Ayodhya, Xastinapur, Taksila, Qəndəhar. Təəccüblüdür, tarix necə də təkrar olunarmış! Amerikaya gəlmiş anqlosaks mühacirləri də bu cür hərəkət ediblər, qədim ingilis şəhərlərinin adlarına Birləşmiş Ştatlarda elə indinin özündə də rast gəlinir.

Şübhəsiz, bu hind mühacirləri hər yanda özlərini pis aparırdılar. Görünür, onlar ada sakinlərini istismar edərək, onlara əziyyət verirdilər. Lakin aradan bir müddət ötəndən sonra mühacirlər yerli sakinlərlə qaynayıb-qarışmalı oldular. Hindistanla müntəzəm əlaqə saxlamaq isə çətindi. Həmin Şərq adalarında hinduist dövlətlərin və padşahlıqların əsası qoyulmuşdu. Lakin sonra Budda hökmdarları meydana çıxdı və buddistlərlə hinduistlər arasında hökmranlıq üstündə mübarizə başlandı. Bu, uzun və maraqlı tarixdir. Deyildiyi kimi, Uzaq və yaxud Böyük Hindistanın tarixi. Əzəmətli xarabalıqlar bu hind məskənlərinə yaraşıq verən binalardan və məbədlərdən xəbər verir. Orada hind memarlarının və ustalarının ucaltdığı Kamboca, Şrivicayya, Əzəmətli Anqkor, Macapahit kimi iri şəhərlər vardı.

Həmin adalarda təqribən min dörd yüz il mövcud olan hinduist və buddist dövlətləri bir-biri ilə hakimiyyət üstündə mübarizə aparırdı və hərdən də bir-birini məhv edirdilər. Nəhayət, XV əsrdə müsəlmanlar bu yerləri ələ keçirdilər. Çox keçmədən buraya portuqaliyalılar və ispanlar, hollandlar və ingilislər, axırda isə amerikalılar gəldilər. Əlbəttə, həmin dövr ərzində bu dövlətlərin ən yaxın qonşuları olan çinlilər hərdən bu ölkələrin daxili işlərinə qarışırdılar, onları ələ keçirmiş olsalar da çox vaxt mehriban yaşayır, bir-birlərinə hədiyyələr verirdilər. Böyük Çin mədəniyyəti onlara daim təsir göstərirdi. Bu Şərqi hinduist məskənlərində bizi maraqlandıracaq çox şey var. Ən heyrətlisi budur ki, görünür, məskunlaşmanı o zaman Cənubi Hindistandakı ən iri dövlətlərdən biri təşkil edirdi. Əvvəlcə, deyəsən tək-tək

tədqiqatçılar yola düşürmüş, sonralar ticarət inkişaf etdikcə, ehtimal ki, bir çox ailələr və dəstə-dəstə adamlar o yerlərə köçməyə cəsarət edirdilər. Rəvayətə görə, ilk mühacirlər Hindistanın şərq sahilindəki Kalinqadan (Orissadan) gəlmişlər. Ola bilsin ki, bəziləri də Benqaliyadan gəlib. Belə bir rəvayət var ki, öz doğma yerlərindən sıxışdırılıb çıxarılan bəzi Qucarat sakinləri guya həmin adalara doğru yola düşmüşlər. Amma bu deyilənlərin hamısı fərziyyədir. Mühacirlərin başlıca dəstəsi Pallavlar dövlətindən – Tamillər ölkəsinin cənub hissəsindən, yəni Pallavlar sülaləsinin hakimiyyət sürdüyü yerlərdən gəlib. Görünür, Malay torpaqlarının məskunlaşdırılmasını təşkil edən məhz bu hökmdarlardır. Ola da bilsin ki, Şimali Hindistandan adamların axışıb gəlməsi nəticəsində cənubda əhali sıxlığı baş vermişdi. Səbəbləri müxtəlif olsa da bir-birindən və Hindistandan çox uzaqda olan həmin yerlərdə məskənlər yaradılması qabaqcadan planlaşdırılmışdı və oradakı məskənlər təqribən eyni vaxtda əmələ gəlmişdi. Həmin məskənlər Hind-Çində, Malakka yarımadasında, Borneoda, Sumatrada, Yavada və başqa yerlərdə yerləşirdi. Bunların hamısı Pallav məskənləri idi. Onlara hind adları verilmişdi. Hind-Çində məskən Kamboca adlanırdı; bu ad uzaqlardan gəlmişdi, Qəndəhar Kabil vadisindəki Kambocanın adından götürülmüşdür.

Bu məskənlər dörd yüz, yaxud beş yüz il ərzində dini cəhətdən hinduist məskənləri olub, sonra yavaş-yavaş hər yanda buddizm dini yayılıb. Aradan bir xeyli keçəndən sonra İslam dini meydana çıxdı. Bu din Malayziyanın (Malay dünyasının) bir hissəsində üstün gəldi, o biri hissədə buddizm hakim din kimi qaldı.

Malay ölkələrindəki imperiyalar və krallıqlar gəlib gedirdi. Lakin Cənubi Hindistanın məskun edilməsinin ən mühüm nəticəsi dünyanın həmin hissəsində hind-ari mədəniyyətinin yayılmasından ibarət idi. İndi Malay xalqları bizim özümüzün mənsub olduğumuz mədəniyyətə mənsubdurlar. Onlar digər ölkələrin, xüsusilə Çinin təsirini də görmüşlər. Bu iki qüdrətli təsirin – Hind və Çin təsirinin müxtəlif Malay ölkələrində bir-birilə qaynayıb-qarışmasını izləmək maraqlıdır. Bəzilərinə daha çox Hindistanın təsiri özünü göstərib, başqalarında Çinin ayrı-ayrı cəhətlərinin təsiri duyulmaqdadır. Qitədə, Birma, Siam və Hind-Çində Çinin təsiri üstündür; Malakkada vəziyyət belə deyil. Yava, Sumatra adalarında və digər adalarda Hindistanın təsiri açıq-aşkar görünməkdədir ki, burada İslam dininin də əlamətləri var.



Lakin hind və Çin təsirləri bir-birilə toqquşma dərəcəsinə gəlmirdi. Həmin təsirlər biri digərinə əsla bənzəmirdi. Bununla belə eyni vaxtda asanlıqla fəaliyyət göstərə bilirdilər. Əslində fərqi yoxdur, istər hinduist təsiri olsun, istərsə də buddist, sözsüz ki, dini təsir mənbəyi Hindistan idi. Hətta Çin də öz dinini Hindistanın dinindən götürüb. Malay ölkələrinin incəsənətində də hind təsiri üstün yer tuturdu. Hətta Çin təsirinin böyük olduğu Hind-Çində də memarlıq başdan-başa hind memarlığından ibarətdi. Çin Asiya qitəsinin həmin ölkələrinə idarəetmə üsulu sahəsində və onların ümumi həyat fəlsəfəsi sahəsində daha çox təsir göstərib. Belə ki, bu gün Hind-Çin, Birma və Siam xalqları, görünür, hindlilərdən daha çox çinlilərə yaxındır. Əlbəttə, irqi cəhətdən onların qanında monqol qanı daha çoxdur, buna görə də onlar müəyyən dərəcədə çinliləri xatırladırlar.

Yava adasındakı Borobudurda hind ustalarının inşa etdiyi nəhəng Budda məbədlərinin qalıqlarına elə indi də rast gəlmək olur. Buddanın həyatının bütün tarixi məbədlərin divarlarında elə qabarıq təsvir olunub ki, bunlar təkcə Buddanın yox, o dövrün bütün hind sənətinin nadir abidəsi hesab edilməlidir.

Hindistanın təsiri çox uzaqlara yayılmış, Filippin və hətta Formoza adalarına gedib çıxmışdı. Hər iki ada vaxtilə Sumatradakı hinduist Şrivicayya monarxiyasının tərkibinə daxil idi. Xeyli müddət sonra Filippin adaları ispanların hakimiyyəti altına keçdi, indi isə bu adalar amerikalıların nəzarəti altındadır. Filippin adalarının başlıca şəhəri Maniladır. Bu yaxınlarda orada yeni inzibati bina tikilib. Binanın ön tərəfində Filippin mədəniyyətinin mənbələrini təcəssüm etdirən dörd heykəl təsvir olunub: bunlar qədim Hindistanın böyük qanunvericisi Manunun və Çin filosofu Lao-tszının heykəlləri, habelə anqlosaks qanununu və ədalətini, İspaniyanı təmsil edən iki heykəldir.

## QUPTALARIN HAKİMİYYƏTİ DÖVRÜNDƏ HİNDUİST İMPERİALİZMİ

*29 aprel 1932-ci il*

Cənubi hindistanlılar dünya səyahətlərinə çıxdıqları uzaq-uzaq ölkələrdə məskənlər və şəhərlər saldıqları bir vaxtda Hindistanın şimalında qəribə hadisələr baş verməkdə idi. Kuşanlar imperiyası öz qüvvə və əzəmətini itirdiyindən getdikcə kiçilir və tədricən meydandan

çəkilməyə başlayırdı. Ölkənin bütün şimal hissəsi xırda dövlətlərə bölünmüşdü: bu dövlətlər çox vaxt ya sak, ya skif, ya da türk nəsillərinin hakimiyyəti altına düşürdü. Onlar şimal-qərb sərhədi yolu ilə Hindistana gəlmişdilər. Mən sənə əvvəllər demişdim ki, bu xalqlar buddizm dininə sitayiş edirdilər, onlar Hindistana bir düşmən kimi, qısa müddətli basqın üçün deyil, burada məskən salmaq üçün gəlirdilər. Onlar Çin dövləti tərəfindən öz məskənlərindən qovulan Mərkəzi Asiyanın digər tayfalarının amansız təzyiqi altında buraya gəlirdilər. Hindistana gəldikdən sonra həmin xalqlar əsasən hind-ari adət və ənənələrini qəbul edirdilər. Onlar Hindistana öz din və mədəniyyətlərinin vətəni kimi baxırdılar. Kuşanların özləri hind-ari ənənələrinə xeyli dərəcədə əməl edirdilər. Uzun müddət Hindistanda qala bilmələri, ölkənin xeyli hissəsini idarə etmələri də məhz bunun nəticəsi idi. Onlar özlərini hind-ari kimi aparmağa çalışır və istəyirdilər ki, xalq onların yadelli olduqlarını unutsun. Onlar buna müəyyən dərəcədə nail olsalar da, tam müvəffəqiyyət qazana bilmirdilər, çünki hindlilər, xüsusilə də kşatrilər onların yadellilər tərəfindən idarə edilməsinə xeyli qısqanclıqla yanaşırdılar. Yadların hakimiyyəti onları əsəbiləşdirir, ölkədə hərc-mərclik artdığından xalq narahat olurdu. Nəhayət, bu narazı adamlar qabil bir rəhbər tapa bildilər və onun bayrağı altında Aryavartanın xilas edilməsi uğrunda "müqəddəs müharibə" deyilən müharibəyə başladılar.

Bu rəhbərin adı Çandraqupta idi. Sən onu o biri Çandraquptayla, Aşokanın babasıyla qarışdırma. Bu adamın Mauriyalar sülaləsilə heç bir əlaqəsi yoxdu. Pataliputrada o, kiçik racə[1] olduğu vaxt Aşokanın nəsli çoxdan yoxa çıxmışdı. Nəzərdən qaçırmamalısan ki, biz indi eramızın dördüncü yüzilliyinə gəlib çatmışıq, bu, təqribən 308-ci ildə, Aşokanın ölümündən beş yüz otuz dörd il keçəndən sonra olub.

Çandraqupta şöhrətpərəst və qabil şəxs idi. O, şimaldakı arilərin digər başçılarını öz tərəfinə çəkmək və onlarla bir növ federasiya yaratmaq niyyətində idi. Çandraqupta Liççhavlar kimi məşhur və qüdrətli bir qəbilədən olan Kumaradevi ilə evləndi və bununla da həmin qəbilə tərəfindən özünə arxa tapdı. Çandraqupta möhkəm zəmin hazırlayaraq Hindistandakı yadelli hakimlərin hamısına "müqəddəs müharibə" elan etdi. Bu müharibə kşatrilərin və yadellilər üzündən hakimiyyətindən və mövqeyindən məhrum olmuş ari zadəganlığının xeyrinə idi. On ildən artıq çəkən mübarizədən sonra Çandraqupta Şimali Hindistanın bir hissəsini, o cümlədən bu gün Birləşmiş əyalətlər kimi tanınan torpaq sahələrini də özünə tabe etdirə bildi. Sonra o başına tac qoyaraq özünü şahlar şahı elan etdi.

[1] **Racə** – Hindistanda yerli hakim (*tərcüməçinin qeydi*)



Məşhur Quptalar sülaləsinin əsası belə qoyuldu. Onun hakimiyyəti hunların gəlişi nəticəsində sarsılana kimi, təqribən iki yüz il davam etdi. Bu dövr bir qədər təcavüzkar hinduizm və millətçilik dövrü idi. Yadelli hökmdarların – türklərin, parfiyalıların və digər ari olmayan xalqların hakimiyyətinin kökü kəsildi, onları devirdilər. Beləliklə, irqi antaqonizmin nələr törətdiyini işdə görürük. Zadəgan ari hindli öz irqi ilə qürrələnir və bu barbarlara və mleççhaya təkəbbürlə baxırdı. Məğlub hind-ari dövlətlərilə və onların hakimlərilə xeyli yumşaq rəftar edirdilər. Lakin ari olmayanlara rəhm etmirdilər.

Çandraquptanın oğlu Samudraqupta atasından da təcavüzkar istilaçı idi. O, böyük sərkərdə idi və imperator olduqdan sonra bütün ölkə boyu, hətta ölkənin cənubunda da müzəffər müharibələr aparırdı. O, Quptalar imperiyasının hüdudlarını Hindistanın böyük bir qismini əhatə edincəyədək genişləndirmişdi. Lakin ölkənin cənubunda onun süzerenliyi[1] təkcə adda idi, şimalda isə kuşanları sıxışdıraraq Hind çayının o tayına çəkilməyə məcbur etmişdilər. Samudraquptanın oğlu II Çandraqupta da çox davakar hökmdar olub. O, uzun müddət sak olan və ya türk sülaləsinin hakimiyyəti altında olan Kathiavarı və Qucaratı fəth edib, Vikramaditya adını götürmüşdü və adətən həmin adla tanınırdı. Amma bu ad, Sezar adı kimi bir çox hökmdarların ləqəbi olduğundan tez-tez dolaşıqlığa səbəb olur.

Dehlidəki Qütb-Minar minarəsinin yaxınlığında gördüyümüz o nəhəng polad sütun yadındadırmı? Belə deyirlər ki, o, Vikramaditya tərəfindən bir növ zəfər sütunu kimi ucaldılmışdı. Bu, gözəl abidədir, sütunun zirvəsindəki şanagül çiçəyi imperiyanın rəmzidir.

Quptalar dövrü Hindistanda hinduist imperializmi dövrü idi. O dövr ari mədəniyyətinin və sanskrit maarifinin dirçəlişi dövrü kimi qeyd edilir. Hindistanın məişətinə və mədəniyyətinə yunanlar, kuşanlar və qeyriləri tərəfindən daxil edilən ellinizm, yaxud yunan, eləcə də monqol ünsürləri bəyənilmirdi və hind-ari ənənələrinə göstərilən xüsusi himayədarlıq sayəsində əslində qəsdən sıxışdırılıb aradan çıxarılırdı. Sanskrit dili sarayda rəsmi dil idi. Amma hətta o dövrlərdə belə sanskrit ümumxalq dili deyildi. Prakritin[2] sanskritə çox yaxın formalarından biri danışıq dili idi. Sanskrit o dövrün danışıq dili olmasa da, xeyli dərəcədə canlı dildi. Sanskrit dilindəki poeziya və dram əsərləri də hind-ari sənəti kimi böyük çiçəklənmə dövrünü keçirirdi.

[1] **Süzerenlik** – almanca: süzerenin (*öz vassallarının hökmdarı olan şəxsin*) hakimiyyət və hüququ (*tərcüməçinin qeydi*)

[2] **Prakrit** – sanskrit dilinə müqabil olaraq Şimali Hindistan xalq dilləri qrupunun adı (*tərcüməçinin qeydi*)

Sanskrit ədəbiyyatı tarixindəki həmin dövr, bəlkə də, bizə Vedalar və epik poemalar bəxş edən böyük dövrdən sonra ən zəngin dövrdür. Kalidasa, bu heyrətamiz şair, həmin dövrdə yaşayıb. Belə deyirlər ki, Vikramaditya öz dəbdəbəli sarayına zəmanəsinin ən məşhur yazıçısı və rəssamlarını toplamışdı. Vikramaditya sarayının doqquz incisi barədə – *Navaratna* barədə eşidibsənmi? Rəvayətə görə, həmin doqquz incidən biri də Kalidasa idi.

Samudraqupta öz imperiyasının paytaxtını Pataliputradan Ayodhyaya köçürdü. Bəlkə Ayodhya – Valmikanın epik poemasında əbədiləşdirilən Ramaçandra haqqında dastanın bağlı olduğu Ayodhya Samudraquptaya hind-ari mövqeyi tutmasına baxmayaraq, daha əlverişli yer kimi görünürdü.

Ari ənənələrinin və hinduizmin Quptalar hakimiyyəti zamanı dirçəldilməsi dövrü, təbii ki, buddizmə xoş münasibətlə fərqlənmirdi. Bu, qismən onunla izah olunurdu ki, Quptalar dövründə dirçəliş Kşatri başçılarının müdafiə etdiyi zadəgan hərəkatı idi, buddizm isə öz xarakterinə görə daha çox demokratik hərəkatdı; bu həm də onunla izah edilir ki, buddist Mahayan cərəyanının kuşanlarla və Şimali Hindistanın digər əcnəbi hökmdarlarıyla sıx əlaqəsi vardı. Lakin görünür buddizm təqib olunmurdu. Budda monastırları yenə də fəaliyyətini davam etdirirdi və əvvəlki kimi yenə də böyük təhsil mərkəzləri idi. Quptalar sülaləsi buddizmin çiçəkləndiyi Seylon hökmdarlarıyla mehriban münasibətdə idi. Seylonun padşahı Meqhavarna Samudraquptaya qiymətli töhfələr yollayıb və Sinqal alimlərindən ötrü Qayyada monastırın əsasını qoyub.

Lakin Hindistanda buddizm tənəzzülə uğramışdı. Tənəzzül, əvvəllər sənə dediyim kimi, o dövrün brahmanları və ya hökumətləri tərəfindən zahiri təzyiqdən çox hinduizmin buddizmi tədricən assimilyasiya etməyə qabil olmasıyla izah edilirdi.

Təqribən elə bu vaxt Hindistana məşhur Çin səyyahlarından biri olan Fa Syan gəlmişdi. Bu, vaxtilə haqqında sənə danışdığım Syuan Tszan deyil. Fa Syan müqəddəs Budda kitablarını axtarıb-arayan buddist sifətilə gəlmişdi. O, bizə nəql edir ki, Maqadha xalqı bəxtiyardı, tərəqqi etmişdi, orada ədalət məhkəməsi mülayimliyilə fərqlənirdi, edam cəzası yoxdu. Əhali səhra olan Qayyanı tərk edib getmişdi. Kapilavastu cəngəlliyə çevrilmişdi. Amma Pataliputra camaatı "dövlətliydi, səxavətliydi və tərəqqi edirdi". Orada bir çox zəngin və möhtəşəm Budda monastırları vardı. Ölkənin əsas yollarında *dharmaşala* yerləşdirilmişdi ki, orada müsafirlər əylənir və dövlət hesabına ərzaq ala bilirdilər. İri şəhərlərdə pulsuz xəstəxanalar vardı.



Fa Syan Hindistanı gəzib dolaşdıqdan sonra Seylona gedib orada iki il qalmışdı; amma yol yoldaşı Tao Çin isə Hindistanı xoşlamışdı, hətta Budda rahiblərinin möminliyi ona dərin təsir bağışladığı üçün Hindistanda qalmağı qət etmişdi. Fa Syan Seylondan dənizlə Çinə yola düşmüşdü. Aradan uzun illər keçəndən və bir çox sərgüzəştlərdən sonra vətəninə qayıtmışdı.

II Çandraqupta və ya Vikramaditya 23 ilə yaxın hakimiyyət başında oldu. Ondan sonra hakimiyyətə oğlu Kumaraqupta keçdi. Onun hakimiyyəti uzun müddət – qırx il sürdü. Daha sonra hakimiyyət başına gələn Skandaqupta 453-cü ildə taxta əyləşdi. O, ölkəyə üz verən yeni bəla ilə mübarizə aparmalı oldu ki, bu bəla da nəticədə Quptalar imperiyasını məhv etdi. Amma bu barədə sonrakı məktubumda yazacağam.

Acantanın ən gözəl freskalarından bəzisi, eləcə də bəzi ictimai binalar və bütxanalar Quptalar dövrünün sənət nümunələrindəndir. Onların nə qədər gözəl olduğunu görəndə bilərsən. Bədbəxtlikdən, freskalar açıq havada uzun müddət qala bilmədiyindən tədricən xarab olur.

Quptalar Hindistanda ağalıq edərkən dünyanın o biri hissələrində nələr baş verirdi? I Çandraqupta Böyük Konstantinin, Konstantinopolun əsasını qoymuş Roma imperatorunun müasiri idi. Daha sonrakı Quptalar dövründə Roma imperiyası Şərqi və Qərbi imperiyalara ayrılmışdı. Nəticədə Qərb imperiyasını Şimali "barbar" tayfaları devirdilər. Beləliklə, məhz Roma imperiyasının zəiflədiyi vaxtda Hindistan görkəmli sərkərdələrə və güclü orduya malik çox qüdrətli bir dövlət idi. Samadraquptadan söz düşəndə onu "hind Napoleonu" adlandırırlar. Lakin o nə qədər şöhrətpərəst olsa da Hindistanın hüdudları xaricindəki ölkələri istila etmək onu maraqlandırmırdı.

Quptalar hakimiyyəti dövrü təcavüzkar imperializm dövrü, istilalar və qələbələr dövrü olmuşdu. Lakin bütün ölkələrin tarixində belə dövrlər az olmayıb və nəticə etibarilə onların rolu böyük deyil. Lakin Quptalar dövrü incəsənətin və ədəbiyyatın cəzakar dirçəlişilə fərqlənir və Hindistanda iftixarla xatırlanmağa layiqdir.

## HUNLARIN HİNDİSTANA GƏLİŞİ

*4 may 1932-ci il*

Hunlar şimal-qərbdəki dağlar arxasından Hindistanın üzərinə çökən yeni bir bəla idi. Əvvəlki məktublarımdan birində, Roma imperiyasından söhbət açdığım məktubda, hunlardan azacıq danışmışdım. Avropada

onların ən görkəmli başçısı həm Romanı, həm də Konstantinopolu uzun illər dəhşətə gətirən Attila olub. Təqribən həmin vaxtda Hindistana gəlmiş hun tayfaları və ya ağ hunlar (eftalitlər) o tayfalarla qohumluq əlaqəsində idilər. Onlar da mərkəzi Asiyadan gəlmə köçərilər idi. O tərəfdən uzun müddət hind sərhədinin başı üstünü hamını təşvişə salan təhlükə almışdı; hunlar sayca artdığından, bəlkə də onları torpaqlarından sıxışdırıb çıxarmış digər tayfaların təzyiqi altında Hindistana nəhayət, əməlli-başlı soxulmağa başladılar.

Quptalar sülaləsinin beşinci hökmdarı Skandaqupta hunların bu hücumunu dəf etməli oldu. O, hunları məğlubiyyətə uğradıb geriyə qovdusa da, aradan on iki il keçəndən sonra hunlar təzədən gəldilər. Tədricən Qəndəhara və Şimali Hindistanın böyük bir hissəsinə yayıldılar. Onlar buddistlərə işgəncə verir və hər cürə qəddarlıq edirdilər.

Hunlar əleyhinə, görünür, ardı-arası kəsilməyən müharibə getsə də Quptalar onları qovmaq iqtidarında deyildilər. Hunların yeni axını Mərkəzi Hindistanı bürüdü və nəticədə onların başçısı Toramana padşah kimi taxtda möhkəmləndi. O, çox pis hökmdar idi, onun varisi olan oğlu Mihirakula vəhşi azğınlığı və hiyləgər qəddarlığı ilə daha çox seçilirdi. Kalhana Kəşmirin tarixindən bəhs edən öz "Racətarangini" əsərində nağıl edir ki, Mihirakulanın ən sevimli əyləncələrindən biri filləri dərin uçurumların dibinə tullamaq idi. Onun vəhşiliyi nəhayət, Aryavartanı vəlvələyə saldı. Nəticədə arilər Quptalar sülaləsindən olan Baladityanın və Mərkəzi Hindistanın hökmdarlarından biri olan Yaşodharmanın başçılığı altında hunları məğlub edərək Mihirakulanı əsir aldılar. Lakin hunlardan fərqli olaraq Baladityada cəngavər alicənablığı vardı: o, Mihirakulanı azad etdi və ölkəni tərk etmək barədə əmr verdi. Mihirakula Kəşmirdə gizləndi və onunla bu cür nəcib davranan Baladityanın üzərinə sonralar xaincəsinə basqın etdi.

Lakin çox çəkmədi ki, Hindistanda hunların qüdrəti zəifləməyə başladı. Hunların xeyli nəsli isə Hindistanda qalıb, tədricən ari əhalisinə qaynayıb-qarışdı. Mərkəzi Hindistandakı və Racəputandakı bizim bəzi racəput qəbilələrinin qanında, çox ola bilsin ki, ağ hunların qanı var.

Hunlar Şimali Hindistanda çox qısa müddətdə – əlli ildən də az hakimiyyət sürdülər. Sonra onlar dinc gəlmə əhaliyə çevrildilər. Amma hunlarla müharibələr və onların qəddarlığı ari hindlilərə güclü təsir göstərmişdi. Hunların həyat tərzi və dövləti idarə üsulları arilərinkindən xeyli fərqlənirdi. Arilər müəyyən dərəcədə azadlıqsevər tayfa kimi



qalmışdılar. Hətta onların padşahları da xalqın əzmi və iradəsi qarşısında boyun əyməliydi. Buna görə də onların kənd məclisləri böyük hüquqlara malik idi. Amma hunların gəlməsi, onların ayrı-ayrı yerlərdə məskən salıb hind xalqı ilə qaynayıb-qarışması ari həyat normalarının dəyişilib zəifləməsinə səbəb olmuşdu.

Böyük Quptalar sülaləsinin sonuncu hökmdarı olan Baladitya 530-cu ildə öldü. Bu tipik hinduist hökmdarın buddizmə güclü meyil etməsi və onun *qurusunun* Budda rahibi olması maraqlıdır. Krişnaya[1] sitayişin dirçəldilməsi Quptaların hakimiyyəti dövrüylə bağlıdır. Lakin buna baxmayaraq, buddizmlə birbaşa münaqişə, görünür, yox idi.

Quptaların iki yüz illik hakimiyyətindən sonra şimalda mərkəzi hakimiyyətdən heç bir asılılığı olmayan bir çox dövlətlərin əmələ gəlməsinin yenidən şahidi oluruq. Amma bu zaman Hindistanın cənubunda iri bir dövlət təşəkkül tapırdı. Ramaçandradan törədiyini iddia edən Pulakeşin adlı bir hökmdar cənubda Çalukiyalar imperiyasıtək məşhur imperiyanın əsasını qoydu. Bu imperiyanın cənubundakı əhali Şərq adalarındakı hind şənlikləriylə, görünür, sıxı surətdə bağlıydı. Yəqin, bu adalarla Hindistan arasında daimi ticarət aparılırdı. Biz hind gəmilərinin İrana tez-tez mal daşıdığını da bilirik. Çalukya padşahlığı və İrandakı Sasanilər sülaləsi bir-birinə səfirliklər göndərirdi; belə əlaqələr İranın böyük hökmdarlarından biri olan II Xosrovun dövründə xüsusi əhəmiyyət kəsb etmişdi.

## XARİCİ BAZARLARDA HİNDİSTANIN AĞALIĞI

*5 may 1932-ci il*

Nəzərdən keçirdiyimiz min illik tarixi dövrdən də çox müddətdə hind ticarəti Qərbdə, Avropada və Qərbi Asiyada olduğu kimi, Şərqdə də lap Çinə kimi tərəqqi etmişdi. Bunu nə ilə izah edək? Hindlilərin yaxşı dənizçi və ticarətçi olmasıylamı? Şəksiz ki, beləydi. Bəlkə onların mahir sənətkar olmasıyla? Əlbəttə, bu dediklərimizin hamısı ticarətə rəvac verirdi. Lakin başlıca səbəblərdən biri, görünür, Hindistanda

[1] Krişna – sanskritcə: tünd-qara; hinduizmdə Allah, epik əfsanələrə görə Krişna müdrik rəhbər, iblisləri dəhşətə salan döyüşçü, orta əsrlərdə təbiət qüvvələrinin, məhəbbətin təcəssümü olan ilahi çobanmış (*tərcüməçinin qeydi*).

kimyanın, xüsusən də boyaqçılığın inkişaf tapması idi. Görünür, o zamanlar hindlilər parça üçün davamlı boya hazırlamağın xüsusi üsulunu kəşf etmişdilər. Onlar habelə indiqo boyasını indiqo bitkisindən xüsusi üsulla almağı da bacarırdılar. Bircə fikir ver: "indiqo" sözünün özü Hindistan adındandır. Həm də ola bilsin ki, hindlilər qədimlərdə polad bərkitməyə yaxşı bələd idilər və bunun sayəsində poladdan əla soyuq silah qayırırdılar. Yadına sal, mən sənə İsgəndərin hücumu barədə danışanda qədim İran dastanlarında hər dəfə yaxşı qılıncdan, ya xəncərdən söhbət düşəndə o silahların Hindistandan gətirildiyi barədə yazıldığını nəql etmişdim.

Bir halda ki, Hindistan boya və başqa məmulatı digər ölkələrdən daha yaxşı hazırlaya bilirdi, bazarlarda ağalıq etməsi təbii idi. Yaxşı alətlərə malik olan, yaxud da hər bir məmulatı yaxşı və daha ucuz başa gələn üsullarla hazırlayan bir adam, yaxud ölkə, aləti və hazırlama üsulu daha pis olan bir adamı, ya ölkəni əvvəl-axır sıxışdırıb ortadan çıxarır. Son iki yüz ildə Avropanın Asiya üzərindəki üstünlüyünün səbəbi bax bundadır. Yeni kəşflər və ixtiralar Avropaya yeni-yeni qüdrətli istehsal alətləri və istehsal üsulları bəxş etmişdi. Onların köməyilə Avropa dünya bazarlarını ələ keçirib, zəngin və qüdrətli olmuşdu. Buna kömək edən başqa səbəblər də vardı. Amma indi istərdim biləsən ki, alət adlı şey nə qədər vacibdir. Böyük şəxslərdən biri vaxtilə deyib ki, insan alət hazırlayan heyvandır. Ən qədim dövrlərdən başlamış müasir dövrədək bəşəriyyət tarixi getdikcə daha çox mükəmməl alət hazırlamaq tarixidir – ibtidai daş uclu oxlardan və daş dövrünün çəkiclərindən tutmuş ta dəmir yolunadək, buxar mühərrikinədək, nəhəng müasir maşınlaradək! Hazırladığımız hər şey üçün alət lazımdır. Əgər alətlərimiz olmasaydı biz nə olardıq?

Alət yaxşı şeydir, əməyi yüngülləşdirir. Lakin əlbəttə, alətdən pis niyyətlə də istifadə etmək olar. Mişar faydalı alətdir, amma çocuq mişarla özünü yaralaya bilər. Bıçaq dünyada olan ən faydalı şeylərdən biridir. Hər bir cavanın gərək bıçağı olsun. Lakin səfeh adam elə həmin bıçaqla başqasını öldürə də bilər. Burda təqsir bıçaqda deyil, alətdən sui-istifadə edən adamdadır.

Eləcə də müasir maşınlar özlüyündə yaxşı olsa da, bir çox cəhətdən ondan sui-istifadə edirdilər. Maşınlar kütlələr üçün əməyin ağır yükünü yüngülləşdirmək əvəzinə onların vəziyyətini çox vaxt pisləşdirirdi. Milyon-milyon adama əmin-amanlıq və səadət bəxş etmək əvəzinə, (doğrudan da belə olmalıydı) maşınlar çox adamı səfalətə uğradıb; maşınlar hökumətlərin əlinə elə bir qüdrət verib ki, bu, onlara apardıqları müharibələrdə milyonlarla adamı qırmağa imkan yaradır.

Amma bu işdə günahkar maşınların özü deyil, günah onlardan sui-istifadə edilməsindədir. Əgər iri maşınlar öz qazancı xətrinə onlardan istifadə edən məsuliyyətsiz şəxslərin nəzarəti altında olmasaydı və onlardan xalqın xeyrinə istifadə edilsəydi, fərq onda çox böyük olardı.

Beləliklə, o dövrdə indikindən fərqli olaraq Hindistan istehsal üsullarında dünyanın digər ölkələrini qabaqlamışdı. Buna görə də hind parçası, hind boyası və başqa məmulatlar uzaq ölkələrə ixrac edilirdi və onlara böyük tələbat vardı. Bu ticarət Hindistana var-dövlət qazandırırdı. Bundan əlavə, Cənubi Hindistan istiot və digər ədviyyatla da ticarət edirdi. Bu ədviyyat həmçinin Şərq adalarından gətirilərək Hindistan vasitəsilə Qərbə ixrac edilirdi. Romada və bütün Qərbdə istiot çox qiymətləndirilirdi; qotların başçısı Alarihin 410-cu ildə Romanı zəbt edərək orada üç min funt istiot ələ keçirməsi ehtimal olunur. Bu istiotun hamısı gərək ki, Hindistan vasitəsilə əldə edilmişdi.

## ÖLKƏLƏRİN, MƏDƏNİYYƏTLƏRİN YÜKSƏLİŞİ VƏ SÜQUTU

*6 may 1932-ci il*

Biz Çindən uzun müddətdir ki, ayrılmışıq. Gəl indi ora qayıdaq, hekayətimizi davam etdirək və görək Qərbdə Roma süquta yaxınlaşdığı bir vaxtda, Hindistanda isə Quptalar sülaləsinin hakimiyyəti altında milli dirçəliş baş verdiyi bir dövrdə Çində nələr baş verirdi. Romanın yüksəlişi və ya süqutu Çinə demək olar təsir göstərməmişdi; bu iki ölkəni bir-birindən çox böyük məsafə ayırırdı. Amma əvvəllər sənə söyləmişdim ki, Çin dövləti Mərkəzi Asiya tayfalarını ölkədən qovanda, bu, hərdənbir Avropa və Hindistan üçün dağıdıcı nəticələr verirdi. Onların yerindən tərpətdikləri bu və ya digər tayfalar qərbə və cənuba üz qoyurdular. Onlar padşahlıqları, dövlətləri alt-üst edir və çaxnaşma törədirdilər. Bu tayfaların bir çoxu Şərqi Avropada və Hindistanda məskən salırdı.

Söz yox ki, Roma ilə Çin arasında birbaşa əlaqələr var idi, bir-birlərinə səfirliklər də göndərirmişlər. Çin kitablarının verdiyi məlumata görə belə səfirliklərdən birincisi eramızın 166-cı ilində Roma imperatoru An-Tun adından Çinə varid olub. Həmin An-Tun Mark Avreli Antoninin özü idi ki, onun barəsində sənə məktublarımdan birində xatırlatmışam.

Avropada Romanın süqutu əhəmiyyətinə görə çox böyük bir hadisə idi. Bu, sadəcə olaraq şəhərin, yaxud imperiyanın süqutu deyildi. Müəyyən mənada Roma imperiyası Konstantinopolda hələ uzun müddət yaşayırdı və imperiya kabusu hələ təqribən min dörd yüz il Avropanın başı üzərində dolaşmışdı. Lakin Romanın süqutu böyük bir dövrün sonu idi. Bu, Yunanıstanın və Romanın antik dünyasının axırı idi. Qərbdə Roma xarabalıqları üzərində yeni dünya, yeni mədəniyyət baş qaldırırdı. Kəlmələr və ifadələr bizi çaşdırır: biz eyni kəlmələrə rast gələndə, onda belə düşünürük ki, söhbət elə həmin şeylərdən gedir. Romanın süqutundan sonra Qərbi Avropa yenə də Roma dilində danışırdı, amma bu dilin arxasında başqa anlayışlar, başqa məna gizlənirdi. Belə deyirlər ki, bugünkü Avropa ölkələri Yunanıstanın və Romanın övladlarıdır. Bu mühakimə müəyyən dərəcədə doğru olsa da, adam inana bilmir, çünki Avropa ölkələri hara, Yunanıstan və Roma hara! Yunanıstanın və Romanın antik dünyası demək olar bütünlüklə məhv edildi. Min ildən çox müddət ərzində yaradılmış mədəniyyət inkişafdan qaldı və tənəzzülə uğradı. Qərbi Avropanın yarımmədəni, yarımbarbar xalqlarının, yəni yeni mədəniyyət yaratmağa yavaş-yavaş qədəm qoyan xalqların tarixinin səhifələri məhz bu zaman açılır. Onlar Romadan çox şey öyrənib, qədim dünyadan çox şey görüb götürmüşlər. Amma öyrənmə prosesi çətin və əziyyətli olub, mədəniyyət və tərəqqi sanki əsrlərin yuxusuna dalmışdı. Avropanı nadanlıq və fanatizm zülməti bürümüşdü. Bax, elə buna görə də həmin yüzilliklər "orta əsrlər nadanlığı" adını almışdı.

Niyə belə olub? Niyə dünya gərək tənəzzül edəydi? Niyə ağır zəhmət bahasına əsrlər boyu toplanmış mərifət və bilik qeyb olmuş, ya da unudulmuşdu? Bu elə böyük suallardır ki, bizlərdən ən aqillərinin qəlbini didib parçalayır. O suallara cavab verməyə cəhd etməyəcəyəm. Məgər təfəkkürcə və əməlcə əzəmətli olan Hindistanın belə miskin vəziyyətə düşməsi və uzun dövr ərzində əsarət altına alınmış bir ölkə olub qalması təəccüblü deyilmi? Yaxud parlaq keçmişi olan Çinin ardı-arası kəsilməyən daxili çəkişmələrin qurbanı olması məgər təəc-



cüblü deyilmi? Görünür, insanın zərrə-zərrə topladığı mərifət, bilik və müdriklik qeyb olmur. Lakin gözlərimizi necə olursa duman bürüyür və arabir görmək qabiliyyətimizi itiririk, pəncərə qapanır və ətrafa qaranlıq çökür. Lakin xaricdən dörd bir yanımız nura qərq olur; demək, gözlərimizin, yaxud pəncərələrimizin qapalı olması o demək deyil ki, işıq qeyb olur.

Bəziləri deyir ki, Avropanın orta əsr nadanlığı xristianlığın nəticəsi idi. İsa dininin yox, rəsmi xristianlığın; Roma imperatoru Konstantin onu qəbul etdikdən sonra Qərbdə tərəqqi tapmış xristianlığın. Bu adamlar iddia edirlər ki, dördüncü əsrdə Konstantinin xristianlığı qəbul etməsi "zəkanın buxovlandığı", fikrin əsarətə alındığı və idrakın inkişafdan qaldığı minilliyin başlanğıcını qoymuş; xristianlıq özüylə nəinki təqib, fanatizm və başqa dinlərə dözməmək tələbini gətirmiş, habelə elmdə və digər sahələrdə tərəqqini adamlar üçün çətinləşdirmişdir. Müqəddəs kitablar tərəqqiyə addımbaşı əngəl olur. Onlar bizə müqəddəs kitabların qələmə alındığı vaxt dünyanın necə olduğundan söhbət açır. O dövrlərin ideya və adətlərinin necə olduğunu bildirir. Lakin heç kəsi bu ideya və ya adətlərə hücum etməyə cəsarəti çatmır, çünki onlar "müqəddəs" kitablarda yazılıb. Belə ki, dünya hətta çox böyük dərəcədə dəyişilmişsə də, dəyişmiş şəraitə uyğunlaşmaq üçün ideya və ya adətlərimizi dəyişmək bizə qadağan edilməyib. Nəticədə biz uyğunlaşmamış oluruq və əlbəttə, bəlaya da düşürük.

Buna görə də bəzi adamlar xristianlığı özüylə bərabər Avropaya bu nadanlıq dövrünü gətirməkdə təqsirləndirirlər. Başqaları isə belə deyirlər ki, orta əsr nadanlığı içərisində mərifət və bilik məşəlinin sönməsinə yol verməyən məhz xristianlıq idi, xristian rahibləri və keşişləriydi. Onlar incəsənətə və rəssamlığa himayədarlıq edir. Qiymətli kitabları qoruyub üzünü köçürürdülər.

Adamlar belə mübahisə edirlər. Bəlkə hər iki tərəf haqlıdır. Amma Roma imperiyasının süqutundan dərhal sonra baş verən nə bəla varsa, hamısından ötrü xristianlığın məsuliyyət daşımasını iddia etmək cəfəngiyat olardı. Əslində Romanın süqutu bu bəlanın nəticəsi idi.

Həddindən artıq dərinə getdim. İstəyirdim diqqətini belə bir cəhətə cəlb edəm ki, Avropada gözlənilməz sosial iflas və gözlənilməz dəyişiklik baş verdiyi halda, Çində və ya hətta Hindistanda bu cür qəfil dəyişikliklər olmayıb. Biz Avropada bir mədəniyyətin tənəzzülünü və digər mədəniyyətin yaranmağa başladığını görürük. Bu sonuncu mədəniyyət

yavaş-yavaş inkişaf edərək bugünkü vəziyyətə gəlib çatmalı idi. Çin də belə yüksək mədəniyyət pilləsinə qədəm qoymuşdu. Onun indiki inkişafında Avropada olan fasilələr yoxdur. Orada da yüksəliş və tənəzzül dövrləri olub. Yaxşı dövrlər gəlirdi, pis hökmdarlar və imperatorlar gəlib-gedirdi, sülalələr bir-bir dəyişilir, amma varislik daim saxlanırdı. Çin hətta bir neçə dövlətə parçalananda, daxili toqquşmalar qopanda incəsənət və ədəbiyyat çiçəklənirdi, valehedici rəsmlər, gözəl vazlar və möhtəşəm binalar yaradılırdı. Kitab çapetmə tətbiq olunmağa başlamışdı, çay dəb oldu, şəninə şeirlər qoşulmağa başlandı. Çində ancaq çox inkişaf etmiş mədəniyyətin nəticəsi ola bilən zəriflik və məharət daim saxlanırdı.

Hindistanda da vəziyyət eynilə beləydi. Burada Romada olan kimi inkişafda qəfil fasilələr yox idi. Əlbəttə, pis dövrlər də olub, yaxşı dövrlər də. Ədəbiyyatın və bədii yaradıcılığın çiçəkləndiyi dövrlər də, dağıntı və tənəzzül dövrləri də. Lakin mədəniyyət müəyyən dərəcədə ara vermədən inkişafdaydı. Bu mədəniyyət Hindistandan şərqin digər ölkələrinə də keçirdi, onu talan etməyə gələn barbarlara da öz təsirini göstərir, onları assimilyasiya edirdi.

Elə zənn etmə ki, Qərbin əksinə olaraq Hindistanı və Çini zirvələrə qaldırmağa cəhd edirəm. Hindistanın, yaxud Çinin bugünkü vəziyyətində elə bir cəhət yoxdur ki, onunla lovğalanasan; hətta kor da görür ki, bu dövlətlər özlərinin əzəmətli keçmişləri müqabilində indi digər millətlərlə müqayisədə xeyli geridə qalmışlar. Əgər onların keçmiş mədəniyyətlə əlaqələri bu gün kəskin surətdə kəsilməyibsə, bu o demək deyil ki, pisliyə doğru dəyişiklik baş verməyib. Əgər biz yüksəliş dövründə olmuş, indi isə tənəzzül dövrü keçiririksə, onda bizim mövqeyimizi itirməyimiz göz qabağındadır. Biz mədəniyyətimizin ardıcıl varisliyilə özümüzə təsəlli verə bilərik; fəqət mədəniyyətin özü tənəzzül etdiyindən bu təskinlik çox zəifdir. Hərgah keçmişlə əlaqəmiz qəflətən kəsilsəydi, bəlkə də, bizim üçün daha yaxşı olardı. Bu, bizi hərəkətə gətirərdi, bizə yeni həyat, yeni qüvvə verərdi. Bəlkə indi Hindistanda və dünyanın hər yerində baş verən hadisələr bizim qədim ölkəmizə yeni təkan verir və ölkənin qəlbini gənclik fərəhiylə dolduraraq, ona yeni həyat qüvvələri bəxş edir.

Hindistanın keçmişdəki gücü və həyata davamlılığı, görünür, kənd respublikalarının geniş yayılması sistemindən, yaxud da özü-özünü idarə edən *pançayatlardan* ibarətdi. Bu gün mövcud olan iri torpaq



mülkiyyətçiləri və iri *zəmindarlar* o vaxt yox idi. Torpaq ya kənd icmalarına, ya *pançayatlara*, ya da torpaq sahəsində zəhmət çəkən kəndlilərə məxsusdu. Bu *pançayatların* çox böyük hakimiyyəti və nüfuzu vardı. Onlar kənd sakinləri tərəfindən seçilirdi; beləliklə, bu sistemin əsası demokratik sistem idi. Hökmdarlar gəlirdi də, gedirdi də. Onlar bir-birilə çəkişsələr də, bu kənd sisteminə toxunmurdu, onun işlərinə qarışmırdı və *pançayatların* imtiyazlarını azaldıb kəsməyə ürək etmirdi. Beləliklə, imperiyalar bir-birini əvəz edirdi, cəmiyyətin kənd sisteminə əsaslanan sosial strukturu isə heç bir dəyişiklik keçirmədən saxlanılırdı. Basqınların, döyüşlərin və hakimlərin dəyişilməsinin təsviri bizi asanlıqla çaşdırır və biz bu dəyişiklikdən bəzən əhalinin zərər çəkdiyini düşünürük. Söz yox, bu dəyişikliklər bəzən əhalinin vəziyyətinə xüsusilə Hindistanın şimalında öz təsirini göstərirdi. Ümumiyyətlə, deməliyik ki, bu təsir əhalinin vəziyyətində az görünürdü. Yuxarı dairələrdə dəyişiklik baş versə də, əhali yenə əvvəlki kimi yaşamaqdaydı.

Hindistanın sosial quruluşunu uzun müddət möhkəmləndirən başqa bir amil ilkin sistemdə qalan kastalar sistemi olub. Kastalar o vaxt sonralar olduqları qədər qapalı deyildilər və kasta mənsubiyyəti təkcə adamların ictimai mənsubiyyətindən asılı deyildi. Bu kastalar Hindistanın həyatında min illərlə birləşdirici mənbə olmuş və bu rolu ifa edərkən dəyişikliyə və inkişafa nəinki mane olmamış, əksinə, geniş meydan açmışdır. Qədim Hindistanda dinə və həyata baxış həmişə başqa dinlərə dözməklə fərqlənərək, təcrübəni və dəyişikliyi mümkün hesab edirdi. Kastanın gücü məhz bunda idi. Amma dəfələrlə baş verən basqınlar və digər fəlakətlər kastanı uyuşqanlıq məharətindən məhrum etdi və bununla birlikdə hindlilərin dünyagörüşü özünün çeviklik və dözümlülük qabiliyyətlərini itirdi. Bu proses Hindistan xalqının hazırkı miskin vəziyyətə düşməsinə və kastanı hər cür tərəqqinin düşməninə çevrilməsinə gətirib çıxartdı. Sosial strukturu möhkəmlətmək əvəzinə kasta onu yüzlərcə hissəyə parçalayır, bizim iqtidarımızı əlimizdən alır və qardaşı qardaş əleyhinə qaldırır.

Deməli, keçmişdə kasta Hindistanın sosial sisteminin möhkəmlənməsinə kömək edirdi. Lakin elə o zamanın özündə də tənəzzül toxumunu daşıyırdı. Bərabərsizliyi və ədalətsizliyi əbədiləşdirmək meyli onun əsasını təşkil edirdi. Hər belə cəhd isə əvvəl-axır uğursuzluğa məruz qalmalıdır. Heç bir sağlam və möhkəm cəmiyyət bərabərsizlik və ədalətsizlik zəminində və ya bir sinfin, yaxud bir qrupun digər sinif

və ya qrup tərəfindən istismar edilməsi zəminində qurula bilməz. Xüsusilə hələ də ədalətsizlik və istismarın mövcud olduğu üçün biz bütün dünyada olmazın bəla və fəlakət görürük. Amma xalqlar bunu hər yanda dərk edib. Odur ki, həmin bəla və fəlakətdən qurtulmaq üçün var qüvvələrini sərf edirlər.

Hindistanda olduğu kimi, Çində də sosial sistemin gücü kənddə və torpağa malik olan yüz minlərcə kəndlinin onu becərməsində idi. Orada da iri *zəmindarlar* yox idi. Dinin ehkama çevrilməsi və ya dözülməz olmasına imkan vermirdilər. Dini məsələlərdə bütün dünya xalqları içərisində, bəlkə də, ən az fanatik olanı çinlilərdi və indinin özündə də onlar belədir.

Bundan əlavə, yəqin yadındadır ki, Yunanıstanda və Romadakı, yaxud daha əvvəllər Misirdəki qul əməyi nə Çində vardı, nə də Hindistanda. Vur-tut kölə halında bir miqdar ev nökəri vardı, amma bunun da ümumən sosial sistemə təsiri az idi. Sosial sistem elə onlarsız da dəyişməz halda mövcud ola bilərdi. Lakin qədim Yunanıstanda və Romada, yəni qulların çox qisminin bu sistemin mühüm bir hissəsi olduğu və zəhmətin bütün ağırlığının doğrudan da onların üzərinə düşdüyü bir yerdə iş belə deyildi. Bəs Misirdə? Qul əməyi olmasaydı iri-iri ehramlar hardan yaranardı?

Bu məktubu mən Çini xatırlatmaqla başladım və onun tarixini davam etdirmək niyyətindəydim. Lakin sonra fikrim yayınıb başqa mövzuya keçdim. Məndə belə hallar tez-tez olur. Bəlkə, gələn dəfə fikrimizi yayındırmayıb Çindən bəhs edərik.

## TAN SÜLALƏSİNİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ ÇİNİN ÇİÇƏKLƏNMƏSİ

*7 may 1932-ci il*

Mən sənə Çindəki Tan sülaləsindən, buddizmin həmin ölkəyə yayılmasından, kitab çapetmə üsulunun icad olunmasından, eləcə də dövlət məmurlarını vəzifəyə təyin edərkən imtahan sisteminin tətbiqindən söhbət açmışdım. Eramızın üçüncü əsrində Tan sülaləsi hakimiyyətdən düşdü və imperiya üç dövlətə parçalandı. Üç padşahlıq adlanan həmin dövr bir neçə yüz il, yəni Çin, Tan sülaləsi kimi məşhur yeni sülalənin



hakimiyyəti altında qüdrətli bir dövlət halında yenidən birləşənə qədər davam etdi. Bu hadisə VII əsrin əvvəllərində olmuşdu.

Amma Çin mədəniyyəti və sənəti, şimaldan tatar basqınına baxmayaraq, bu dağınıq dövrdə öz varlığını qoruyub saxlamaqda idi. Böyük kitabxanalar və gözəl rəsmlər barədə əlimizdə məlumat var. Hindistan özünün nəinki zərif parçasını və digər mallarını, habelə öz ideyalarını, dinini və incəsənətini də ixrac etdirməkdə idi. Bir çox Budda missionerləri Hindistandan Çinə yollanırdı, onlar özləriylə hind incəsənəti ənənələrini də aparırdılar; ola bilsin ki, Çinə hind sənətkarları və rəssamları da gedirdi. Hindistandan buddizmin və yeni ideyaların Çinə keçməsi ölkəyə çox təsir göstərib. Çin ilk dövrlərdə olduğu kimi, aydındır ki, ondan sonrakı dövrdə də çox mədəni ölkə kimi tanınırdı. Burada söhbət heç də hind dininin, təfəkkür tərzi və incəsənətinin geridə qalmış bir ölkəyə keçib geniş surətdə yayılmasından getmir. Hind təfəkkürü və incəsənəti Çində yerli qədim incəsənət və təfəkkür tərziylə üz-üzə gəlirdi. Bunun da nəticəsində hər iki mədəniyyətdən fərqlənən, hind sənəti və təfəkkür tərziylə aşılanmış olsa da, Çin mahiyyətini hifz edən və Çin nümunələri əsasında təşəkkül tapan nə isə yeni bir mədəniyyət yaranmışdı. Beləliklə, bu, intellektual cərəyanların Hindistandan ölkəyə yayılması üçün əsas oldu və Çinin bədii, intellektual həyatına təkan verdi.

Buddizm və hind sənəti öz ideyalarını şərqə, Koreyaya və Yaponiyaya da elə bu üsulla yayıb; hind sənəti və ideyalarının həmin ölkələrə yayılmasının onlara necə təsir etdiyini izləmək maraqlıdır. Hər ölkə buddizmi öz ruhuna uyğunlaşdırmışdı. Belə ki, buddizmin həm Çində, həm də Yaponiyada çiçəklənməsinə baxmayaraq, o ölkələrin hər birində buddizm özgə forma daşıyır və ola bilsin ki, bu hər iki forma Hindistandan gətirilən buddizmdən bir çox cəhətdən fərqlənir. Sənət də müxtəlif iqlimdə və müxtəlif xalqlarda öz şəklini dəyişir və cürbəcür formalarda təzahür edir.

Biz müasir Hindistanda bir xalq olmaq etibarilə gözəlliyin və incəsənətin nə olduğunu unutmuşuq. Biz nəinki çoxdan bəri böyük gözəllik yaratmamışıq, əksəriyyətimiz gözəlliyi hətta qiymətləndirmək bacarığını belə itirmişik. Azadlıqdan məhrum bir ölkədə gözəllik və incəsənət necə çiçəklənə bilər? Gözəllik və incəsənət əsarət və istismar zülmətində məhv olub gedir. Lakin azadlığın yaxınlaşdığını hiss etdikcə qəlbimizdəki gözəllik duyğusu yavaş-yavaş oyanmağa başlayır. Azadlıq

gələndə incəsənət və gözəlliyin ölkəmizdə yenidən canlandığını görəcəksən və mən əminəm ki, bu canlanma evlərimizin, şəhərlərimizin, məişətimizin eybəcərliyini yuyub aparacaqdır. Bu cəhətdən Çin və Yaponiyanın Hindistandan daha çox bəxti gətirib və hər iki ölkə öz gözəllik duyğusunu indiyədək hifz edib saxlayıb.

Çində buddizm yayıldıqca, oraya gedən hind buddistlərinin və rahiblərinin sayı getdikcə çoxalırdı. Çin rahibləri isə Hindistana və digər məmləkətlərə səfər edirdilər. Fa-Syan haqqında sənə danışmışam. Xuey Şen adlı bir Çin rahibinin Şərq dənizlərindən uzaqlara səyahəti haqqında çox maraqlı bir hekayət hələ indi də söylənilir. O, 499-cu ildə Çin paytaxtına gələrək belə söyləyirdi ki, bir məmləkət görüb. Həmin məmləkəti səyyah Fo San adlandırmışdı – Çindən bir neçə min mil şərqə tərəf yerləşmiş Sakit okean Çinin və Yaponiyanın şərqindədir. Bəlkə də Xuey Şen okeanın o tayında olmuşdur, bəlkə də o, Meksikaya gedib çıxmışdır, çünki Meksikada qədim mədəniyyət hələ o zaman mövcud idi.

Çində buddizmin müvəffəqiyyətlə yayıldığını görən hind buddizminin başçısı və patriarxı Bodhidharma (bu onun nə isə ya adıydı, ya da titulu) dənizlə Cənubi Hindistandan Çindəki Kantona yola düşür. Onu Çinə getməyə sövq edən, bəlkə də, Hindistanda buddizmin yavaş-yavaş zəifləməsiydi. O, 526-cı ildə yola düşəndə artıq qoca idi. Bir çox başqa rahiblər də onunla birlikdə və ondan bir qədər sonra Çinə gedir. Belə deyirlər ki, təkcə Çinin Loyan əyalətində o vaxtlar üç mindən çox hind rahibi və on mindən artıq hind ailəsi vardı.

Çox çəkmədi ki, Hindistanda buddizmin dirçəlməsinin yeni mərhələsi başlandı. Hindistan buddanın vətəni və müqəddəs kitabların saxlandığı bir ölkə olmaq etibarilə mömin buddistlərin nəzər-diqqətini cəlb etməkdəydi. Amma, bununla belə, görünür, buddizm Hindistanda əvvəlki şan-şöhrətini hifz edə bilməmişdi və Çin isə buddizmin əsas ölkəsinə çevrilirdi.

Tan sülaləsinin əsası imperator Qao-tszu tərəfindən 618-ci ildə qoyulmuşdu. O nəinki bütün Çini birləşdirdi, həm də özünün hakimiyyətini çox böyük əraziyə – cənubda Annama və Kambocayadək və qərbdə İranadək genişləndirdi. Koreyanın bir hissəsi də bu qüdrətli imperiyanın tərkibinə daxildi. İmperiyanın paytaxtı özünün əzəməti və mədəniyyətiylə Şərqi Asiyada şöhrət tapmış Sian-fu şəhəriydi. Yaponiyadan və öz azadlığını qoruyub saxlamış Cənubi Koreyadan buraya



şəhər incəsənətini, fəlsəfəsini, mədəniyyətini öyrənmək üçün səfirliklər və nümayəndəliklər gəlirdi.

Tan sülaləsinin imperatorları xarici ticarəti inkişaf etdirmək məqsədilə ölkəyə gələn yadelli səyyahları şirnikləndirirdilər. Çində məskən salan və yaxud ölkəyə gələn əcnəbilər üçün xüsusi qanunlar elan olunmuşdu və onları mümkün qədər öz adətlərinə uyğun şəkildə mühakimə edirdilər. B.e.-nın təqribən 300-cü ilində Cənubi Çində, Kantonun yaxınlığında məskən salmış çoxlu ərəbə rast gəlmək olardı. Bu hələ islam dini meydana çıxmamışdan əvvəl, yəni Məhəmməd peyğəmbərin mövludundan əvvəl olmuşdu. Həmin ərəblər xarici ticarətin inkişafına kömək edirdilər. Bundan ötrü həm ərəb, həm də Çin gəmilərindən istifadə olunurdu.

Çində siyahıyaalmanın, yəni ölkə əhalisinin sayını bilmək üçün sakinlərin hesablanmasının çox qədimlərdən qoyulmuş qayda olduğunu eşidəndə inanmayıb təəccüb edəcəksən. Məlumdur ki, əhalinin siyahıya alınması hələ eramızın 156-cı ilində keçirilmişdir. Yəqin ki, bu, Xan sülaləsi dövründə olmuşdur. Hesablanma adambaşı yox, ayrı-ayrı ailələr üzrə aparılırdı. Belə hesab edilirdi ki, hər ailədə orta hesabla beş nəfər var. Buna uyğun olaraq eramızın 156-cı ilində Çin əhalisinin təxminən əlli milyon nəfər olması fikrindəydilər. Əlbəttə, bu, çox dəqiq üsul olmasa da, yadına sal ki, əhalinin siyahıya alınması Qərb üçün tamamilə yeni bir hadisədir. Deyəsən, Birləşmiş Ştatlarda əhalinin ilk siyahıya alınması təqribən yüz əlli il qabaq keçirilmişdi.

Tan sülaləsinin hakimiyyəti dövrünün əvvəllərində Çində digər iki din – xristianlıq və islam dini meydana gəlmişdi. Xristianlıq qərbdə dönük elan edilən və qovulan təriqətlə bərabər buraya keçmişdi. Həmin təriqətə nəsturi təriqəti deyilirdi. Xristian təriqətləri arasındakı mübahisə və mübarizə haqqında bir qədər əvvəl sənə yazmışdım. Belə bir mübahisə nəticəsində Roma kilsəsi nəsturiləri qovmuşdu. Amma onlar Çində, İranda və Asiyanın bir çox digər ölkələrində yayılmışdır. Onlar həmçinin Hindistana da gəlib burada bir qədər müvəffəqiyyət qazanmışdılar. Lakin sonralar xristianlığın digər cərəyanları, eləcə də islam dini nəsturilərə üstün gəldiyindən onlardan demək olar əsər-əlamət qalmamışdı. Cənubi Hindistanın yaşayış məntəqələrindən birində, ötən il olduğumuz yerdə, kiçik nəsturi məskəni görəndə dedikcə təəccübləndim. Yadındadırmı? Onların yepiskopu bizi çaya qonaq elədi. O, qiyamət qoca idi.

Xristianlığın Çinə gəlib çatması üçün bir qədər vaxt lazımdı. Amma islam buraya daha tez çatmışdı. İslam dini nəsturilərdən neçə-neçə il qabaq, hələ Məhəmməd peyğəmbərin sağlığında buraya gəlib çıxmışdı. Çin imperatoru hər iki səfirliyi – müsəlman və nəsturuk səfirliklərini iltifatla qəbul edib, onların ərz-halını dinləmişdi. İmperator qonaqların dünyagörüşlərinə qayğıkeşlik göstərmiş, onlara himayədarlıq etmiş, lakin bitərəfliyini də saxlamışdı. Ərəblərə icazə verilmişdi ki, Kantonda məscid tiksinlər, həmin məscid indiyəcən durur, dünyada ən qədim məscidlərdən biridir ki, onun 1300 il yaşı var.

Tan sülaləsinin imperatorları həmçinin xristian kilsəsi və monastırının tikilməsinə də icazə vermişdilər. Çinin başqa dinlərə dözümlü münasibətiylə o dövrün Avropası üçün səciyyəvi hal olan başqa dinlərə dözümsüzlük arasındakı təzad son dərəcə qüvvətlidir.

Belə zənn edirlər ki, ərəblər kağız hazırlamaq sənətini çinlilərdən öyrənmiş, sonralar bunu Avropaya öyrətmişlər. 751-ci ildə Türküstanda, Orta Asiyada, çinlilərlə ərəblər – müsəlmanlar arasında döyüş baş vermişdi.Xeyli çinli əsir alınmışdı. Sonralar həmin əsirlər kağız hazırlamağı ərəblərə öyrətmişdilər.

Tan sülaləsi 300 il, yəni 907-ci ilədək hakimiyyət başında oldu. Bəzilərinin iddia etdiyinə görə, bu üç yüz il Çinin tarixində elə bir böyük dövr olub ki, mədəniyyət nəinki yüksək səviyyəyə satmışdı, həm də bu dövrdə bütün xalq firavan və xoşbəxt yaşayırdı. Qərbdə xeyli sonradan məlum olan çox şeylər hələ o zaman çinlilərə məlum idi. Bayaq kağızdan söz saldım. Onlara barıt da məlumdu. Yaxşı mühəndis olan çinlilər ümumiyyətlə demək olar ki, bütün sahələrdə Avropanı qabaqlamışdılar. Bir halda ki, onlar bu qədər irəliləmişdi, bəs niyə bu birinciliyi saxlaya bilməyib, dəqiq elmlər və kəşflər sahəsində də Avropanı qabaqlamayıb? Bir cavan yaşlı adamı necə ötüb keçirsə, Avropa da eləcə, yavaş-yavaş onlara çatdı; çox keçmədi ki, bəzi sahələrdə hətta irəliyə çıxdı. Millətlərin tarixində belə hallar niyə baş verir? Bu çox çətin məsələnin üzərində filosoflar düşünməlidirlər. İndi ki, bu məsələylə filosoflar maraqlanır, sən də ki, hələ filosof deyilsən, onda bu barədə mən də narahat olmayacağam.

Həmin dövrdə Çinin əzəmətinin, təbii ki, incəsənətin və mədəniyyətin inkişafında Çinlə özünü tay tutan Asiyanın qalan hissəsinə böyük təsiri olmuşdu. Quptalar imperiyası süquta uğradıqdan sonra Hindistanın ulduzu o qədər də gur şölə saçmırdı. Adətən olduğu kimi, Çində tərəqqi və mədəniyyət həddindən artıq cah-calala və dərd-sərsiz, yüngül həyat sürməyə gətirib çıxarmışdı. Dövləti satqınlıq bürümüşdü, bu isə mütləq ağır vergilər qoyulması ilə nəticələnmişdi. Bunun nəticəsində Tanların hakimiyyətindən cana doymuş xalq o sülalənin axırına çıxdı.



## ÇOSON VƏ DAY NİPPON

*8 may 1932-ci il*

Dünya tarixi haqqında söhbətimiz davam etdikcə, daha çox ölkə nəzər-diqqətimizi cəlb edir. İndi gərək biz Koreyaya və Yaponiyaya, yəni Çinin ən yaxın qonşularına nəzər salaq. Koreya və Yaponiya Asiyanın lap ucqarında – Uzaq Şərqdədir; həmin ölkələrin arxasında böyük Sakit okean yerləşir. Koreya və Yaponiyanın Amerika qitəsiylə əlaqəsi, söz yox ki, son vaxtlaradək mövcud deyildi. Deməli, ancaq materikdəki böyük millətlə – Çinlə əlaqə saxlanırdı. Koreya və Yaponiya özlərinin dinini, incəsənətini və mədəniyyətini Çin vasitəsilə qəbul etmişdi. Hər iki ölkə, Koreya da, Yaponiya da ilk növbədə Çinə, müəyyən dərəcədə isə Hindistana borcludurlar. Amma Hindistandan nə qəbul etmişdilərsə, bütün bunların hamısı onlara Çin vasitəsilə gəlib çatmış və özüylə bu ölkələrə Çin ruhunu gətirmişdi.

Koreya və Yaponiya tutduqları coğrafi mövqeyə görə Asiyadan və dünyanın digər rayonlarında baş verən böyük hadisələrdən kənarda qalmışdılar. Onlar dünya hadisələrinin baş verdiyi mərkəzlərdən uzaqda olduqları üçün bəxtləri müəyyən dərəcədə gətirmişdi, xüsusilə Yaponiyanın. Buna görə də biz söhbətimizə xələl gətirmədən müəyyən vaxtadək onların tarixindən söz açа bilərdik. Bu, Asiyanın qalan hissəsindəki hadisələrdən baş açmağımıza öz təsirini də göstərməzdi. Amma biz Koreyanın və Yaponiyanın tarixinə etinasızlıq göstərməməliyik. Necə ki, Malay ölkələrinin və şərq adalarının keçmiş tarixinə etinasız yanaşmırıq. Koreya, bu yazıq balaca ölkə, bu gün az qala yaddan çıxmışdı. Yaponiya Koreyanı ələ keçirərək bu ölkəni öz imperiyasının bir hissəsinə çevirdi. Amma Koreya hələ də azadlıq arzusundadır və özünün istiqlaliyyəti uğrunda mübarizə aparır. Yaponiya indi daim göz qabağındadır, qəzetlər də onun Çinə basqın etməsi barədə xəbərlərlə doludur.

Mən bu sözləri yazdığım bir vaxtda Mancuriyada müharibəyə bənzər nə isə baş verməkdədir. Buna görə də Koreyanın və Yaponiyanın keçmişi barədə az-çox bilmək pis olmazdı. Çünki bu, hazırkı vəziyyətdən baş çıxarmaqda bizə kömək edərdi.

Biz gərək birinci bunu yadda saxlayaq ki, uzun müddət ərzində onlar xarici aləmdən təcrid olunmuşdu. Yaponiya doğrudan da uzun müddət hərbi müdaxiləyə məruz qalmamışdı. Onun bütün tarixi boyu cəmi bir neçə dəfə hərbi müdaxilə etmək cəhdi olmuşdu ki, bunlar da baş tutmamışdı. Yaponiyanın bütün çətinliyi son vaxtlaradək yalnız daxili xarakter daşıyan çətinlikdi. Yaponiya xarici aləmlə hər cür əlaqəsini hətta bir müddət tamam kəsmişdi də. Hər bir yapon üçün ölkədən xaricə getmək demək olar mümkün deyildi. Əcnəbi və hətta çinli üçün isə Yaponiyaya varid olmaq çətin idi. Bu, o məqsədlə edilmişdi ki, yaponlar Avropadan gəlmə yadellilərdən və xristian missionerlərindən özlərini qoruya bilsinlər. Bu, təhlükəli və axmaq bir niyyətdi; bütün millətin məhbəsə salınması və bütün istər yaxşı, istər pis xarici təsirin kəsilməsi deməkdi. Sonra isə Yaponiya birdən-birə öz qapılarını və pəncərələrini taybatay açaraq, bayıra can atmışdı ki, Avropanın öyrədə biləcəyi nə varsa, hamısını öyrənsin. Həm də o, bütün bunları insafən yaxşı öyrənmişdir. Yaponiya cəmi bir və ya iki nəslin ömrü boyu adi Avropa ölkəsinin zahiri simasını kəsb etmiş, üstəlik də avropalıların bütün pis vərdişlərini yamsılamışdır. Bunların hamısı təqribən son yetmiş ildə baş verib.

Koreyanın tarixi Çin tarixindən xeyli sonra başlayır, Yaponiyanın tarixi isə Koreyanınkından da xeyli sonra. Ötən ilki məktublarımdan birində sənə yazmışdım ki, Tsi Tszı adlı sürgün edilmiş bir çinli, Çində sülalənin dəyişilməsini tanımaqdan boyun qaçıran bu adam özünün beş min tərəfdarı ilə birlikdə üz tutub şərqə getdi. Koreyada məskən salıb, ona Çoson, yeni Səhər sakitliyi ölkəsi adı vermişdi. Bu hadisə eramızdan əvvəl 1122-ci ildə olmuşdur. Tsi Tszı özü ilə buraya Çin incəsənəti və sənətkarlığını, əkinçilik və ipəkçiliyini gətirmişdi. Tsi Tszının nəsilləri Çosonda 900 ildən artıq bir müddətdə hakimiyyət başında olmuşdur. Hərdənbir Çosona Çin mühacirləri də gəlib məskən salırdı; beləliklə, Çinlə sıx əlaqə saxlanılırdı.

Çinlilərin böyük bir dəstəsi Koreyaya varid olanda Çində imperator Şi-xuandi idi. Yəqin ki, son bu Çin imperatorunu, Aşokanın müasiri olan imperatoru yaddan çıxarmayıbsan. Bu həmin adamdı ki, özünü Birinci



imperator adlandırırdı və bütün qədim kitabların yandırılmasına göstəriş vermişdi. Şi-xuandinin amansız idarəetmə üsulları üzündən ölkədən qaçmış bir çox çinli Koreyada sığınacaq tapmış və Tsi Tszının zəif varislərini sıxışdırıb meydandan çıxarmışdılar. Bu hadisədən sonra Çoson səkkiz yüz il ərzində bir sıra dövlətlərə parçalanmışdı. Bu dövlətlər öz aralarında tez-tez çəkişirdilər. Bir dəfə həmin dövlətlərdən birisi Çindən yardım istəmişdi. Onun bu xahişi təhlükəli idi. Çinlilər köməyə gəldilərsə də, geri qayıtmaqdan boyun qaçırdılar. Qüdrətli ölkələrin adəti belədir. Çin getmədi və Çosonun bir hissəsini öz imperiyasına qatdı. Hətta Çosonun qalan bütün hissəsi bir neçə əsr ərzində Çinin Tan sülaləsi imperatorlarının süzerenliyini qəbul etdi.

935-ci ildə Çoson müstəqil birləşmiş krallığa çevrildi. Bu məsələdə məqsədinə çatan Van Qon oldu və onun varisləri 450 il ərzində krallığı idarə etdilər.

Koreyanın iki min illik tarixini iki-üç abzasla təsvir etdim. Koreyanın Çinə çox borclu olmasını unutmaq lazım deyil. Yazı sənəti Koreyaya Çindən gəlmişdi. Tam min il ərzində koreyalılar Çin yazısından istifadə etmişdilər ki, bu yazı, yadında varsa, hərflərdən yox, məfhum, söz və ifadə işarələrindən ibarətdir. Sonralar koreyalılar onun əsasında onların dilinə daha çox uyğun xüsusi əlifba hazırladılar.

Buddizm Koreyaya Çin vasitəsilə keçmişdi, Konfutsi fəlsəfəsi də Çindən gəlmişdi. Koreyaya və Yaponiyaya hind incəsənətinin təsiri də Çin vasitəsilə yayılmışdı. Koreya gözəl sənət əsərləri, xüsusilə heykəltəraşlıq nümunələri yaratmışdı. Onun memarlığı Çininkini xatırladır. O, həmçinin gəmiqayırma işində də böyük müvəffəqiyyət qazanmışdı. Bir vaxtlar koreyalılar hətta qüdrətli hərbi donanmaya da malik olub, onun köməyilə Yaponiyaya hərbi müdaxilə etmişdilər.

Ehtimala görə, indiki yaponların əcdadı Koreyadan, ya da Çosondan gəlib. Bəlkə də, onların bir hissəsi cənubdan, Malay ölkələrindən varid olub. Bildiyin kimi, yaponlar monqoloid irqinə mənsubdurlar. Yaponiyada hələ də bir qisim adam qalıb ki, onlara aynlar deyilir; onları ölkənin ilk sakinləri hesab edirlər. Bu xalqlara mənsub adamlar açıq rəngli və çox tüklüdürlər, adi yaponlardan kəskin surətdə fərqlənirlər. Aynları sıxışdırıb şimal adalarına qovmuşdular.

Cinqo adlı bir imperatriçənin eramızdan əvvəl təqribən 200-cü ildə Yamato dövlətinə başçılıq etdiyini biz öyrənirik. Yamato Yaponiyanın

ilk adıydı; ya da bu mühacirlərin məskən saldıqları hissənin adı idi. Bircə bu xanımın adına diqqət yetir – Cinqo, Yaponiyanın ən qədim qadın hökmdarlarından birinin məhz belə ad daşıması olduqca maraqlı təsadüfdür. İngilis dilində "Cinqo" kəlməsi müəyyən məna kəsb edib. Bu sözün mənası lovğa və dikbaş imperialist deməkdir. Biz eləcə imperialist də deyə bilərdik; çünki belə bir şəxsiyyət hökmən müəyyən dərəcədə lovğa və dikbaş olur. Belə zənn edilir ki, Yaponiya da bu imperializm və ya cinqoizm azarına tutulub; odur ki, Koreyaya və Çinə münasibətində son vaxtlar özünü çox pis aparırdı. Buna görə tarixi bir dövrdə Yaponiyanın ilk hökmdarlarından birinin adının Cinqo olması maraqlıdır.

Yamato Koreya ilə sıx əlaqə saxlayırdı. Çin mədəniyyətinin təsiri Yamatoya məhz Koreya vasitəsilə gəlib çatmışdı. Çin yazısı b.e.-nın təqribən 400-cü ilində Koreya vasitəsilə buraya gəlmişdi. Buddizm də elə həmin yolla buraya gəlmişdi. 552-ci ildə Pekçe hökmdarı o zaman Koreyanın bölündüyü (üç krallıqdan biri) Buddanın heykəlini, eləcə də müqəddəs kitablarıyla birlikdə Budda missionerlərini Yamato hökmdarına yollamışdı.

Yaponiyanın qədim dini sintoizm olub. "Sinto" Çin sözüdür, mənası "allahların yolu" deməkdir. Bu din, təbiətə pərəstişlə ulu babalara pərəstişin qarışığından ibarətdi. Həmin dini həyatın gələcəyi, müxtəlif sirlər və problemlər narahat etmirdi. Bu, döyüşçülər tayfasının diniydi. Çinlilərə çox yaxın olan və onların mədəniyyətinə çox borclu olan yaponlar bununla belə çinlilərdən kəskin surətdə fərqlənirlər. Çinlilər mahiyyətcə dinc xalq olmuş və eləcə də qalır. Onların bütün sivilizasiyası və həyat fəlsəfəsi dinc xarakter daşıyır. Yaponlara gəldikdə isə onlar davakar xalq olmuş və eləcə də qalırlar. Əsgərin başlıca ləyaqəti öz komandirinə və öz yoldaşına sədaqətli olmasıdır. Bu məziyyət yaponlara xas idi. Onlar özlərinin qüvvətli olmalarıyla bu məziyyətə borcludurlar. Sintonun öyrətdiyi məziyyət budur! "Allahlara sitayiş elə və onların nəsillərinə sadiq ol" – buna görə də sintoizm Yaponiyada hifz olunub qalıb və hazırda buddizmlə yanaşı yaşamaqdadır.

Məgər bu məziyyətdirmi? Yoldaşa və ya işə sədaqətli olmaq, sözsüz ki, məziyyətdir. Amma sintoizm və başqa dinlər çox vaxt bizi idarə edən qrupların xeyrinə sədaqətli olmağımızdan sui-istifadə etmək istəmişdi. Yaponiyada, Romada və digər ölkələrdə onlar bax buna – hakimiyyəti ilahiləşdirməyə öyrədirdilər. Sonralar sən özün görəcəksən ki, bu nə qədər zərər vurmuşdur.



Təzəcə meydana çıxan yeni din – buddizm və köhnə din – sintoizm müəyyən münaqişədə idi. Lakin çox çəkmədi ki, onlar yanaşı qərar tutdular və bizim günlərəcən qaldılar. Bununla belə, sintoizm daha çox məşhurdur, üstəlik də hakim siniflərə itaət etməyi və sədaqət göstərməyi öyrətdiyi üçün, hakim siniflər tərəfindən müdafiə olunur. Buddizm ondan bir balaca qorxulu dindir, çünki onun banisi özü üsyankar olmuşdur. Yapon incəsənətinin tarixi buddizmdən başlayır. Yaponiya, yaxud Yamato o zaman Çinlə birbaşa əlaqələri inkişaf etdirməyə başlayır. Çinə xüsusilə də Tanlar hakimiyyəti dövründə daim səfirliklər göndərilirdi. Tanların yeni paytaxtı Sian-fu bütün Şərqi Asiyada şöhrət tapmışdı. Yaponlar, yaxud Yamato xalqının özü Nara adlanan yeni paytaxtın binasını qoymuşdu, onlar çalışırdılar ki, paytaxtı eynən Sian-fu şəklinə salsınlar. Görünür, yaponlar həmişə başqalarını son dərəcə yamsılamaq qabiliyyətinə malik olmuşlar.

Yaponiyanın bütün tarixi boyunca hakimiyyət uğrunda mübarizədə kübar ailələrin rəqabətini müşahidə etmək olar. Bu rəqabəti qədim zamanlarda digər ölkələrdə də görə bilərsən. Qədim qəbilə ideyası bu ailələrdə daim qorunurdu. Yaponların imperatoru Mikado, hər şeyə qabil hökmdar və günəşdən törəyən yarımallah sayılırdı. Sintoizm və ulu babalara pərəstiş imperatorun mütləq hakimiyyətini xalqa qəbul etdirməsinə və o xalqın ölkənin qüdrət sahiblərinə tabe olmasına kömək edirdi. Amma Yaponiyada imperator özü çox vaxt onun-bunun əlində heç bir gerçək hakimiyyəti olmayan oyuncağa çevrilirdi. Hakimiyyət və qüdrət "krallar yaradan" və özü istədiyi kimi, kral və imperatorları təyin edən kübar ailəyə və ya qəbiləyə məxsusdu.

Tarixdə dövlətə nəzarət edən ilk adlı-sanlı yapon nəsli Soqa nəsliydi. Buddizmin məhz bu sülalə tərəfindən qəbul olunması, onu sarayın və ölkənin rəsmi dininə çevirmişdi. Bu sülalənin başçılarından biri olan Syötoku-taysi Yaponiya tarixində ən görkəmli şəxslərdən biridir. O, həqiqi buddist və böyük qabiliyyəti olan istedadlı rəssam idi. Syötoku konfutsiyaçılığın Çin klassiklərindən ideyalar əxz etmiş və idarəetmə üsulu yaratmağa cəhd göstərmişdi. O zaman başçıları bir-birinə düşmən münasibət bəsləyən yalnız zora yox, mənəvi əsaslara istinad edən və başqasının hakimiyyətini qəbul etməyən, demək olar müstəqil olan qəbilələr Yaponiyanın hər yanında mövcud idi. İmperator özünün təmtəraqlı tituluna baxmayaraq, vur-tut iri bir qəbilə başçısıydı. Syötoku-taysi bu qaydaları dəyişdirməyə və mərkəzi hökuməti

möhkəmləndirməyə çalışırdı. O, saysız-hesabsız qəbilə başçılarını və kübarları vassal etdi, yəni imperatordan asılı elədi. Bu hadisə təxminən 600-cü ildə olmuşdur.

Lakin Syötoku-taysinin ölümündən sonra Soqa nəsli darmadağın edildi. Bir müddət keçəndən sonra Yaponiya tarixində məşhur olan daha bir adam səhnəyə çıxdı; adı Kakatomi-no Kamatori (Nakatomi, Kamatari) idi. O, bir çox Çin üsullarını təqlid edərək, dövlətin idarə olunmasında müxtəlif dəyişikliklər həyata keçirdi; fəqət Çinin xüsusiyyəti olan sistemi, yəni dövlət məmurlarını təyin edərkən imtahanlar sistemini əxz etmədi. İndən belə imperator qəbilə başçısından daha böyük adam oldu, mərkəzi hökumət isə daha da gücləndi.

Məhz bu dövrdə paytaxt Nara oldu, amma qısa müddətə, 794-cü ildə Kiotonu paytaxt etdilər; o, min yüz il ərzində paytaxt şəhəri olaraq qaldı. Ancaq lap bu yaxınlarda Tokio paytaxta çevrilənə qədər Kioto paytaxt şəhəri olaraq qalmışdı. Tokio ən iri müasir şəhərlərdəndir. Amma Yaponiyanın ruhunu, tam min ilin xatirəsini hifz edib saxlayan Kiotodur.

Kakatomi-no Kamatori Yaponiya tarixində böyük rol oynamış Fudzivara nəslinin banisi oldu. Bu nəslin üzvləri imperatorları öz oyuncaqlarına çevirərək, ölkəni iki yüz il ərzində idarə etmişlər. Onlar imperatorları çox vaxt onların nəslindən olan qadınlarla evlənməyə vadar edirdilər. Digər nəsillərdən olan qabiliyyətli adamlardan ehtiyat edərək, onları zorla monastırlara yollayırdılar.

Paytaxt Narada olan zaman Çin imperatoru Yaponiya hökmdarına məktub göndərib ona imperator Tay-Ni-Pon-Kok kimi müraciət etdi ki, bu da Böyük gündoğar ölkə demək idi. Bu da yaponların çox xoşuna gəldi; Yamatodan daha zəhmli səslənirdi. Buna görə də onlar öz ölkələrini Day Nippon adlandırmağa başladılar ki, bunun da mənası Gündoğar ölkə deməkdi. Yaponiyanı elə indiyə qədər yaponlar özləri belə adlandırır. "Yaponiya" adı qəribə bir tərzdə "Nippon" adından törəyib. Aradan 600 il keçəndən sonra Marko Polo adlı böyük italyan səyyahı Çinə gəlmişdi. O, Yaponiyada heç vaxt olmamışdısa da, onun haqqında öz səyahətnaməsində yazmışdı. O, "Ni-Pon-Kok" adını eşitmişdi. Kitabında onu "Çipanqo" kimi vermişdi ki, "Yaponiya" adı da elə bu sözdən yaranmışdır.

Bilmirəm sənə demişəmmi, yoxsa elə özün ölkəmizin necə Hindistan və Hindostan adlanmağa başlanmasını bilirsən. Hər iki ad hind və yaxud Sindhu çayı adından əmələ gəlmişdir. O çay Hindistan üçün



böyük hərflə yazılan çaydır. Sindhu adına əsasən yunanlar ölkəmizi Hindos adlandırıblar ki, buradan da Hindistan yaranıb. Eləcə də Sindhu adından farsca hindu əmələ gəlir ki, bundan da Hindustan (Hindostan) əmələ gəlib.

## HARŞAVARDHANA VƏ SYUAN TSZAN

*11 may 1932-ci il*

Təzədən Hindistan tarixinə qayıdırıq. Hunlar məğlubiyyətə uğrayıb qovuldusa da, çoxları ölkənin müxtəlif guşələrində qaldı. Baladityadan sonra böyük Quptalar sülaləsinin ulduzu söndü. Beləliklə, Şimali Hindistanda xeyli dövlət və monarxiya yarandı. Cənubda Pulakeşin Çalukiyalar imperiyasının təməli qoyuldu.

Kanpurun yaxınlığında kiçik Kanauc şəhəri var. Hazırda Kanpur iri şəhər olsa da, onu fabrik boruları eybəcərləşdirir. Kanauc isə xırdaca bir yerdir, ərazisinə görə kənddən böyük deyil. Amma bəhs etdiyim dövrlərdə Kanauc özünün şairləri, rəssamları və filosofları ilə şöhrət tapmış böyük paytaxt idi. Kanpur isə dünyaya gəlməmişdi. Belə ki, onun gəlməsi üçün neçə-neçə yüz illər lazım oldu.

Kanauc müasir addır, şəhərin əsil adı Kaniyakubcadır ki, bu da "qozbel qız" deməkdir. Əfsanəyə görə, qədim dövrdə bir aqil adam, yaxud *rişi* xəyali inciklikdən hirslənərək, padşahın yüz qızına qarğıyıb onları qozbel etmişdir. O çağdan bəri onların yaşadıqları şəhər "qozbel qızlar şəhəri" – Kaniyakubca adlanır.

Amma biz qısa olsun deyə onu Kanauc adlandıracağıq. Hunlar Kanauc racəsini öldürüb zövcəsi Racəşrini əsir almışlar. Bundan xəbər tutan Racəşrinin qardaşı Racəvardhana bacısını xilas etmək üçün hunlarla döyüşə getmişdi. O, düşmənlərini məğlubiyyətə uğratsa da, özü xaincəsinə öldürüldü. İşi belə görən kiçik qardaş Harşavardhana yola düzəlib, başlayıb bacısını axtarmağa. Yazıq qadın dağlara qaça bilmişdi. Amma əzab əlindən ümidini itirib özünü öldürmək istəmişdir. Belə nağıl edirlər ki, o özünü öldürmək istəyən anda – sati (özünü yandırmaq istəyəndə) dadına çatan Harşa bacısını xilas etmişdi.

Harşa bacısını tapıb xilas edəndən sonra söz vermişdir ki, qardaşını xaincəsinə öldürən kiçik racənin cəzasını versin. Harşa nəinki racəni

cəzalandırdı, o hətta dənizlərdən-dənizlərə və cənubda Vindhya dağlarına kimi bütün Şimali Hindistanı ələ keçirə bilmişdi. Harşanın qabağını kəsib saxlayan Vindhya dağları arxasındakı Çalukiyalar imperiyasıydı.

Harşavardhana Kanaucu özünə paytaxt etdi. Özü şair və dramaturq olduğu üçün ətrafına da saysız-hesabsız şair və rəssam topladı, Kanauc şəhəri də dillərdə dastan oldu. Harşa qatı buddist idi. Hindistanda buddizmin vəziyyəti müstəqil bir din kimi bərk sarsılmışdı: brahmanizm tərəfindən assimilyasiya edilmişdi. Görünür, Harşa Hindistanda sonuncu böyük budda hökmdarı idi.

Köhnə dostumuz Syuan Tszan[1] məhz Harşanın padşahlığı dövründə Hindistana varid oldu; qayıdandan sonra yazdığı səyahətnamədə Hindistan haqqında və eləcə də Hindistana gələrkən yolüstü keçib gəldiyi Mərkəzi Asiya ölkələri haqqında xeyli məlumat verir. O, bir mömin buddist kimi müqəddəs yerləri ziyarət etmək və qayıdanda özüylə müqəddəs Budda kitablarını aparmaq üçün Hindistana gəlmişdi. Yolüstü Daşkənd, Səmərqənd, Bəlx, Qobi səhrasından keçmişdi. Hindistanı başdan-başa gəzib dolanmışdı. Ehtimal ki, Seylonun özündə də olmuşdur. O, gəzdiyi ölkələrdə dəqiq müşahidə etdiklərinin hamısının təsvirini kitabda verir, valehedici bir tərzdə bunları uydurur. Syuan Tszan Hindistanın müxtəlif hissələrində yaşayan xalqların elə bu gün həqiqətə uyğun gələn səciyyəvi xüsusiyyətlərini, Buddanın və bodisatvaların möcüzələri haqqında eşitdiyi əfsanəvi əhvalatları ecazkar qələmiylə təsvir edir. "Çox müdrik adam" haqqında – mis lövhəcikləri qarnına bağlayan və lovğa-lovğa gəzişən adam haqqında Syuan Tszanın qələmə aldığı qəribə əhvalatlardan birini sənə artıq söyləmişəm.

O, ömrünün neçə ilini Hindistanda, xüsusən də Pataliputranın yaxınlığındakı böyük Nalanda universitetində keçirib. Özündə universiteti və monastırı birləşdirən Nalanda universitetində, rəvayətə görə, on minə yaxın tələbə və rahib yaşayırdı. Bura brahmanizm təliminin istinadgahı Benareslə rəqabətə girən ən iri Budda təhsili mərkəziydi.

Bir dəfə sənə demişdim ki, Hindistan Ay ölkəsi – İndu adı ilə məşhur olub. Bu barədə Syuan Tszan da məlumat verir və Hindistan üçün bu adın nə qədər yararlı olub-olmadığını canlı, bədii bir dillə təsvir edir. Çin dilində də görünür Aya İn-Tu deyilir. Belə ki, Çin adını götürmək[2] səndən ötrü çox asandır.

[1] Syuan Tszan (Hiuen Tsang) adı başqa şəkildə də yazılır: Juen Chang, Juan Chnang, Hsuan Tsang

[2] İndiranın kiçiltmə adı İndudur.



Syuan Tszan Hindistana 629-cu ildə gəlmişdi. Səyahət etmək niyyətilə Çindən yola düşəndə onun iyirmi altı yaşı var idi. Qədim Çin salnaməsində deyilir ki, o, hündürboylu və qəşəng idi. "Dərisinin rəngi gözəldi, gözləri parlayırdı. Özünü ciddi və vüqarlı aparırdı, üzündən elə bil gözəllik və nur yağırdı... Duruşunda torpağı yuyan böyük çayların əzəməti, baxışlarında sulardan baş qaldıran şanagül çiçəyinin dincliyi və calalı vardı".

Çin imperatorunun müsaidəsi olmadan tək-tənha bu böyük səfərə çıxan Syuan Tszan buddistlərin geydiyi zəfəran rəngli *bhikşu* qiyafəsindəydi. Qobi səhrasından keçdikdən sonra o, yarımcan halda bu ağır imtahandan çıxıb özünü səhranın lap qurtaracağındakı Turfan səltənətinə zorla çatdırmışdı. Səhranın ortasındakı bu məmləkət mədəniyyətin heyrətləndirici kiçik bir oazisi idi. İndi bura arxeoloqların və qədim əşya həvəskarlarının qazıntı işləri apardıqları kimsəsiz bir diyardır. Amma VII əsrdə, Syuan Tszan bu diyardan keçəndə, burada həyat qaynayırdı, yüksək mədəniyyət vardı. Bu mədəniyyətdə Hindistan, Çin və hətta Avropa fraqmentləri bir-birinə gözəl surətdə uyğun gəlirdi. Burada buddizmin çiçəklənən çağıydı və sanskrit sayəsində Hindistanın təsiri də güclü duyulurdu; bununla belə sakinlərinin həyat tərzində Çin və İrandan götürülmüş şeylər qat-qat çoxdu. Onların dili gözlənildiyinin əksinə olaraq monqol dili yox, Avropanın bir çox cəhətdən kelt dillərini xatırladan hind-Avropa diliydi. Onların daş freskalarında Avropa nümunələrini xatırladan fiqurların meydana çıxması daha da təəccüblüdür. Buddanın və bodisatvların, allahların və ilahələrin təsvirləri olan bu freskalar necə də gözəldir! Çox vaxt hind libasında, yaxud yunansayağı papaq və libasda təsvir edilən ilahələr fransız tənqidçisi cənab Qrussenin dediyinə görə, "hind zərifliyinin, ellin ifadəliliyinin və Çin füsunkarlığının uğurlu uyuşmasıdır".

Turfan hələ də mövcuddur, sən onu xəritədə tapa bilərsən. Amma bu, o qədər də mühüm məntəqə deyil. Uzaq VII əsrdə gur mədəniyyət sellərinin buraya axıb gəlməsi və bir-birinə qovuşub tam bir ahəng yaratması necə də heyrətlidir!

Turfandan yola düşən zəvvar Syuan Tszan Mərkəzi Asiyanın digər məşhur mərkəzi Kuça şəhərinə gedib çıxır; o dövrlərdə zəngin mədəniyyətə malik Kuça şəhəri özünün çalğıçıları və qadınlarının füsunkarlığı ilə ad çıxarmışdı. Kuçada din və incəsənət hind mənşəliydi, İran onların mədəniyyət və ticarətinə öz güclü təsirini göstərmişdi; dil isə sanskrit, qədim fars, latın və kelt dillərinə qohum dil idi. Bu da sənə daha bir cazibədar qarışıq!

Bundan sonra Syuan Tszan Mərkəzi Asiyanın böyük bir hissəsinə hakimlik edən buddist, Böyük xanın yaşadığı türk torpaqlarında səyahətini davam etdirmişdi. Makedoniyalı İsgəndər təqribən min il əvvəl keçdiyi, onun xatirəsini hifz edən və hələ o zaman qədim şəhər olan Səmərqənddə olmuşdu. Sonra Bəlxdən keçib, Kabil çayının vadisiylə Kəşmirə və Hindistana gəlib çıxmışdı.

Bu əhvalat Çində Tan sülaləsinin hakimiyyətinin başlanğıcında olmuşdu; bu dövrdə sülalənin paytaxtı Sianfu incəsənət və elm mərkəziydi, Çin isə özünün mədəniyyətilə dünyanın qabaqcıl ölkəsi idi. Buna görə də yadda saxlamalısan ki, Syuan Tszan çox mədəni bir ölkədən gəlmiş və onun müqayisə meyarı yüksək olmalıydı. Beləliklə, Hindistanın vəziyyətinə dair onun fikirləri mühüm və qiymətlidir. O, hind xalqını və onun idarəetmə üsulunu tərifləyərək deyir: "Sadə adamlara gəldikdə isə onlar sadəlövh olsalar da, namuslu və saf ürəklidirlər. Pul işlərində düzdürlər, ədliyyə işlərində ehtiyatlıdırlar. İdarəetmə üsullarında son dərəcə saflıq, davranışlarında isə xeyli həlimlik və xeyirxahlıq var. Canilərə və qiyamçılara gəldikdə, onlar çox azdırlar və ancaq ara-sıra camaata ziyan toxundururlar".

Daha sonra deyir: "Bir halda ki, idarəetmənin əsasında xeyirxahlıq durur, icra hakimiyyəti funksiyaları sadədir... Adamları icbari əməyə vadar etmirlər".

"Buna uyğun olaraq əhalinin üzərinə az vergi qoyulur; adamların daşıdığı şəxsi mükəlləfiyyət də dözümlüdür. Hər kəs arxayınca öz mülkünə sahiblik edir, özünü dolandırmaq üçün torpaq becərir. Padşah torpaqlarını becərənlər məhsulun altıda bir hissəsini vergi şəklində ödəyirlər. Alverlə məşğul olan tacirlər sövdələşmək və başqa işlər görmək üçün gedib-gəlirlər".

Syuan Tszan xalq maarifinin yaxşı təşkil edildiyinin, uşaqlara erkən yaşlardan təlim verildiyinin şahidi oldu. Oğlan, ya qız əlifbanı keçəndən sonra yeddi yaşında beş *şastranı* öyrənməyə başlayır. "*Şastralar*" dedikdə biz indi sırf dini kitabları nəzərdə tuturuq, amma o dövrlərdə *şastralar* dedikdə hər cür bilik nəzərdə tutulurdu. Məsələn, haqqında danışdığımız beş *şastra* bunlardı: 1) qrammatika; 2) incəsənəti və sənətkarlığı bilmək; 3) təbabət; 4) məntiq; 5) fəlsəfə. Həmin fənlərin öyrənilməsini universitetlərdə davam etdirir və adətən, otuz yaşlarında başa çatdırırdılar. Zənnimcə, bu yaşa qədər çox az adam təhsil ala bilirdi. Amma ibtidai təlim, görünür, geniş yayılmışdı, çünki bütün rahiblər və ruhanilər müəllimdir. Onların sayı isə çox idi. Hind xalqının təhsilə can atması Syuan Tszanı çox heyran etmişdi və o, bütün kitab boyu aramsız olaraq bundan danışır.



Syuan Tszan Prayaqadakı[1] böyük Kumbh melanın təsvirini verir. Bu *melanı*[2] təzədən görəndə, min üç yüz il əvvəl Syuan Tszanın gedib ona baxdığını xatırla və unutma ki, bu, hələ o zaman qədim *mela* idi, yəni hələ Veda dövründən bəri mövcuddur. Bu qocaman qədim abidəylə müqayisədə bizim Allahabad ancaq dünən yaradılıb. Allahabadın əsası Əkbər tərəfindən təqribən dörd yüz il qabaq qoyulub. Prayaqa ondan da qədimdir, amma Qanqla Camnanın qovuşduğu yerə min illər ərzində hər il milyon-milyon adamı cəzb edən qüvvə daha qədimdir.

Syuan Tszan Harşanın buddist olmasına baxmayaraq, həmin xalis hinduizm şənliyinə getdiyindən danışır: Harmanın adından elan olunmuş imperator fərmanı "beş Hindistan"dan olan bütün kasıbları və şikəstləri *mela* vaxtı onun qonağı olmağa dəvət edirdi. Bu, lap imperator üçün də cəsarətli dəvətdi. Çoxlarının gəldiyini deməyə lüzum yoxdur; rəvayətə görə, Harşanın süfrəsi başında onun qonağı sifətiylə hər gün yüz min adam yedizdirilərdi! Bu *melada* Harşa öz xəzinəsindən qalan artığı hər beş ildən bir paylayardı: qızıl, qiymətli daş-qaş, ipək, yəni əslində hər nəyi varmışsa, hamısını. O, hətta özünün tacını da, bahalı libaslarını da bağışlamış və özünə bacısı Racəşidən aldığı geyilmiş adi paltar götürmüşdü.

Mömin buddist olan Harşa yeməkdə istifadə məqsədilə heyvan öldürülməsini qadağan etmişdi. Ehtimal ki, brahmanlar buna çox da etiraz etmirdilər, çünki Budda dövründən onlar getdikcə daha çox vegetarian olmuşdular.

Syuanın kitabında verilən incə bir məlumat, bəlkə səni maraqlandırdı. O belə söyləyir ki, Hindistanda hər kim xəstələnərdisə, yeddi günlük pəhriz saxlayardı. Adamların əksəriyyəti pəhriz vaxtı sağalardı. Əgər xəstəliyi uzun çəkərdisə, dərman qəbul edərdi. O vaxtlar xəstələnmək çətin ki, geniş yayılaydı və həkimlərə böyük ehtiyac olaydı!

O dövrdə Hindistanın insanı heyrətə gətirən bir xüsusiyyəti də hakimlərin və hərbçilərin savadlılara və mədəni adamlara göstərdikləri hörmət idi. Hindistanda və Çində kobudluğa və sərvətə yox, bilik və mədəniyyətə üstünlük verilir, beləməri şan-şöhrət sahibi olurdular.

Hindistanda uzun müddət yaşayan Syuan Tszan şimal dağlarını aşaraq təzədən vətənə qayıtmışdı. Az qala hind çayında batacaqdı,

[1] Prayaqa – Allahabadın qədim adı
[2] Mela – yarmarka (şənlik)

qiymətli kitablarının xeyli hissəsini dalğalar yuyub aparsa da, əlyazmasının böyük bir qismini doğma yurda çatdırmış və onların Çin dilinə tərcüməsinə uzun illər sərf etmişdi. Sian-fuda Tan imperatoru tərəfindən səmimi qarşılanmışdı. Syuan Tszana səyahəti haqqında kitab yazmağı tapşıran da elə həmin imperator olmuşdu.

Syuan Mərkəzi Asiyada rastlaşdığı türklərdən söhbət açır. Bu tayfa sonralar qərbə tərəf gedib bir çox padşahlığı tar-mar etmişdi. Syuan Mərkəzi Asiyanın hər yerində rast gəldiyi Budda monastırlarından söhbət açır. Hətta İranda, İraqda və ya Mesopotamiyada, Xorasanda, Mosulda, Suriyanın lap sərhədlərinə qədər hər yanda Budda monastırları mövcuddu. İran xalqından bəhs edərkən Syuan yazır ki, iranlılar "təhsil qayğısına qalmasalar da, özlərini büsbütün zərif sənətlərə həsr edirlər. Həm də yaratdıqlarının hamısına qonşu məmləkətlərdə yüksək qiymət verilir".

O dövrün səyyahları nə qəribə adamlardı! Afrikanın lap mərkəzinə, ya da Şimal və ya Cənub qütblərinə hətta indiki səyahətlər belə qədimlərdəki nəhəng səyahətlərə görə kölgədə qalır. Onlar uzun illər dost-tanışlarından ayrı düşüb, dağlardan, səhralardan keçərək lap uzaqlara səyahət edirdilər. Hərdən vətən üçün qəribsəsələr də, öz mənliklərini uca tutduqlarından bu barədə danışmazdılar. Amma həmin səyyahlardan biri səthi də olsa, daxili aləmi ilə bizə tanış olmaq imkanını verir. Uzaq diyarda vətəni yadına düşən səyyah qəribsəmişdi. Onun adı Sun-Yun idi. Syuan Tszandan yüz il qabaq Hindistanda olmuş Sun-Yun söyləyir ki, Hindistanın şimal-qərbindəki dağlıq Qondəhar diyarında olarkən sərinlik bəxş edən xəfif meh, quşların cəh-cəhi, yaz çiçəkləri, ağaclar, güldən-gülə qonan kəpənəklər könül oxşayırdı. Uzaq diyarda bu füsunkar mənzərənin seyrinə dalmaq onun düşüncələrini vətənə aparıb çıxartdı. Bu dəmdə qəm dəryasına qərq olmuş və bunun nəticəsində də bərk xəstələnmişdi!

## CƏNUBİ HİNDİSTAN DÜNYAYA NEÇƏ-NEÇƏ PADŞAH VƏ DÖYÜŞÇÜ, O CÜMLƏDƏN BÖYÜK BİR ŞƏXS BƏXŞ EDİR

*13 may 1932-ci il*

Harşa padşah 648-ci ildə öldü. Amma onun ölümündən xeyli əvvəl Hindistanın şimal-qərb sərhədlərində, Bəlucistanda çulğaşan bulud bərk tufan qopacağını nişan vermişdi: doğrudan da dolu bulud Qərbi Asiya, Şimali Afrika və Cənubi Avropa səmasında boşaldı.



Ərəbistanda yeni bir peyğəmbər meydana çıxdı ki, adı Məhəmməd idi; o, islam adlanan təzə dini təbliğ edirdi. Yeni dindən ilham alan, öz qüvvələrinə tam əmin olan ərəblər yolları üzərindəki bütün ölkələri fəth edərək qitədən-qitəyə addımlayaraq irəliləyirdilər. Bu, insanı heyran edən bir rəşadətdi: biz dünyaya gələn və dünyanın simasını əsaslı surətdə dəyişdirən bu qüvvəni diqqətlə öyrənməli olacağıq. Amma ondan əvvəl gərək Cənubi Hindistana baş çəkək və həmin dövrdə o diyarın necə bir diyar olduğunu təsəvvürümüzdə canlandıraq. Harşanın padşahlıq etdiyi dövrdə Bəlucistana gəlib çatan müsəlman ərəbləri çox keçmədi ki, Sindi ələ keçirdilər. Amma elə orada da ayaq saxladılar və ondan sonra üç yüz il müddətində müsəlmanlar Hindistana daha soxulmadılar. Sonralar isə ərəblər yox, Mərkəzi Asiyada yaşayan və islamı qəbul edən bəzi tayfalar hərbi müdaxiləyə başladılar.

Beləliklə, biz cənuba yola düşürük. Cənubi Hindistanın qərb və mərkəz hissəsində olan Çalukiyalar padşahlığının tutduğu ərazi əsasən, Maharaştra ərazisiydi ki, paytaxtı da Badami idi. Syuan Tszan Maharaştra sakinlərinin qoçaqlığını yüksək qiymətləndirərək onları tərifləyir. Onlar "davakar və ruhən məğrurdular, yaxşılıq üçün minnətdar olan bu adamlar incidiləndə kin saxlayırdı". Çalukiyalar məcbur oldular ki, şimalda Harşanın, cənubda Pallavların, şərqdə Kalinqanın (Orissanın) qarşısını alsınlar. Onların qüdrəti getdikcə artsa da, torpaqları bir dənizdən o biri dənizə qədər yayılsa da, sonralar onları Raştrakutlar sülaləsi sıxışdırıb meydandan çıxarmışdı.

Beləliklə, cənubda böyük imperiyalar və padşahlıqlar tərəqqi edirdi; hərdən aralarındakı tarazlıq saxlanır, hərdən onlardan birisi böyüyüb qalanlarını kölgədə qoyurdu. Pandyalar sülaləsi padşahlarının hakimiyyəti altında tamil dilində yazan yazıçı və şairləri cəlb edən Madura belə bir böyük mədəniyyət mərkəzinə çevrilmişdi. Tamil klassiklərinin əksəriyyəti eramızın əvvəllərində yazıb-yaratmışdır. Paytaxtı Kançipura, müasir Konciveram olan Pallavlar sülaləsinin də şöhrətli günləri vardı. Əsasən, həmin sülalənin səyləri sayəsində Malay ölkələri məskunlaşdırılmışdı.

Sonralar IX əsrin ortalarında cənubda hökmranlıq edən Çolalar imperiyası yüksəldi. Bu dövlət dəniz dövləti idi. Onun böyük donanması Benqal körfəzinin və Ərəb dənizinin sularında üzürdü. Kaveri çayı mənsəbindəki Kaviripaddinam limanı bu dövlətin əsas limanı idi. Çolalar sülaləsinin ilk böyük hökmdarı Viciyalaya olmuşdur. Raştrakutlar

Çolalar sülaləsini gözlənilməz məğlubiyyətə uğratmayınca sülalə şimalda öz malikanələrinin hüdudunu genişləndirirdi. Lakin Çolaların əldən verdiyi mövqeləri – Racəraci qaytarandan sonra imperiya tezliklə dirçəldi. Bu, X əsrin sonlarında, yəni müsəlmanlar Şimali Hindistana hərbi müdaxilə etdiyi zamanda baş verdi. Uzaq şimalda olan bu hadisələr Racəraciyə az təsir etdiyindən o özünün imperialist hücumlarına ara vermirdi. Racəraci Seylonu – Çolaların düz 70 il padşahlıq elədiyi ölkəni zəbt etdi. Oğlu Racendra da onun özü kimi davakar və təcavüzkar idi. O, gəmilərdə gətirdiyi fillərdən döyüşlərdə istifadə edərək Birmanın cənub hissəsini ələ keçirmişdi. Şimali Hindistan üzərinə də yürüş edən Racendra Benqaliya hökmdarını məğlubiyyətə uğratdı. Çolalar imperiyası Quptalar dövründən bəri ən iri imperiya olub çox geniş sahəni tutmuş olsa da, tezliklə süqut etdi. Racendra böyük döyüşçüydü, amma görünür, çox qəddardı, zəbt etdiyi dövlətlərin rəğbətini qazanmaq üçün heç bir tədbir görmürdü. O, 1013-cü ildən 1044-cü ilə qədər hökmranlıq etmişdir. Racendra öldükdən sonra Çolalar imperiyası tənəzzülə uğradı. Çünki bu imperiyaya xərac verən bir çox dövlətlər onun əleyhinə üsyan qaldırmışdılar.

Çolalar dövləti ta qədimlərdən uğurlu müharibələrindən başqa öz dəniz ticarətiylə də şöhrət tapmışdı. Ölkənin istehsal etdiyi pambıq parçalara xaricdə böyük tələbat var idi; onun Kaviripaddinama limanında həyat qaynayırdı, gəmilər bura gələr və yüklənib uzaq-uzaq ölkələrə yola salınardı. Kaviripaddinamada ya vanların, ya da yunanların məskəni vardı. Hətta "Mahabharata"da da Çolaların adı çəkilir.

Cənubi Hindistanın bir neçə yüz illik tarixini bacardıqca qısa surətdə sənə söyləməyə çalışdım. Əhvalatları qısaca şərh etmək təşəbbüsüm ola bilsin səni çaşdırsın. Amma biz cürbəcür padşahlıq və sülalələrin labirinti içində azmağa yol verə bilmərik. Biz bütün dünyanı nəzərdən keçirməliyik; əgər biz durub dünyanın xırda bir hissəsinə, lap elə özümüz yaşayan hissəsinə həddən çox vaxt sərf etsək, onda o biri hissələrə heç çata bilmərik.

Amma padşahlar və onların istilaları haqda hekayətlərdənsə o dövrün mədəniyyət və incəsənət salnaməsini öyrənmək daha çox vacibdir. Hindistanın cənubunda şimalındakına nisbətən xeyli çox incəsənət abidəsi saxlanılmışdır. Şimaldakı abidələrin, binaların və heykəllərin əksəriyyəti müharibələr və müsəlmanların hərbi müdaxilələri zamanı dağılmışdır. Cənubdakı abidələrə gəldikdə, bu abidələr hətta müsəlmanlar gəldiyi bir vaxtda belə salamat qalmışdı. Çox təəssüf ki, şimalda



bu qədər çox gözəl abidələr dağıdılıb. Onu da bil ki, ora gələn müsəlmanlar ərəb yox, Mərkəzi Asiya xalqlarıydılar, onları dini qeyrət boğduğundan bütləri məhv etmək istəyirdilər. Bəlkə, bütlərin məhv edilməsinə başqa səbəb də vardı: qədim məbədlərdən qalatək istifadə edilirdi və məbədlər döyüş yerlərinə çevrilirdi. Cənubdakı məbədlərin bir çoxu elə indi də hücum vaxtı camaatın özünü qoruya biləcəyi qalaları xatırladır. Bu məbədlər təkcə dini ayinlərin icra yeri kimi yox, həm də bir çox başqa məqsədlər üçün istifadə olunurdu. Onlardan kənd məktəbi kimi də, kənd toplanışı və ya *pançayat qhara* məclisi, parlament üçün yer kimi, nəhayət, lazım gəldikdə, kəndi düşməndən qorumaq üçün bir qala kimi də istifadə edilirdi. Beləliklə, kəndin bütün həyatı məbəd ətrafında keçirdi; əlbəttə, bütün işlərə bu məbədlərin kahinləri və ya brahmanlar rəhbərlik edirdi. Məbədlərdən arabir qalatək istifadə olunması özlüyündə onların müsəlmanlar tərəfindən nə üçün məhv edildiyinin səbəbini bəlkə də aydınlaşdırır.

Çolalar sülaləsinin hökmdarı Racəracinin Tancurada tikdirdiyi gözəl məbəd həmin dövrdən qalıb. Badamidə də, Konciveramedə də gözəl məbədlər var. Amma o dövrün məbədləri içərisində ən qəribəsi Elloradakı Kaylasa məbədidir; bu abidə möhkəm qaya üzərində həkk olunmuş bir möcüzədir. Məbəd VIII əsrin ikinci yarısında tikilməyə başlayıb. Onun gözəl heykəl təsvirləri də bu günədək qalmaqdadır. Tuncdan tökülmüş bu heykəllər arasında salamat qalan həyat rəqsini ifa edən heykəl – Nataraca-Şiva məşhurdur.

Çolalar sülaləsindən olan padşah I Racendra Çolapuramada əla bir suvarma qurğusu – on altı mil uzunluğundakı möhkəm daş hörgüdən ibarət damba yaratmışdı. Damba tikiləndən yüz il sonra ərəb səyyahı əl-Biruni gəlib həmin qurğunu görəndə heyran qalıb bu sözləri yazmışdı: "Bizimkilər bu qurğuları görəndə heyrətə düşürlər, bu qurğuları heç təsvir etməyə də iqtidarları çatmır, o ki qala buna bənzər bir qurğu tikələr".

Bu məktubda bəzi padşahların və sülalələrin adını çəkdim. Həmin padşahların və sülalələrin şan-şöhrəti uzun sürməyib. Sonralar səhnədən çəkilib getmiş, beləliklə yaddan da çıxmışlar. Lakin Cənubi Hindistanda elə görkəmli bir şəxs peyda oldu ki, o, Hindistanın həyatında bütün padşahların və imperatorların birlikdə oynadığı roldan daha əhəmiyyətli rol oynadı. Həmin gənc Şankaraçariya adıyla məşhur idi. Ehtimala görə VIII əsrin sonlarında anadan olmuşdu. Görünür, Şankaraçariya

son dərəcə istedadlı şəxsiyyət idi. O, hinduizmi bərpa etməyi, daha doğrusu, hinduizmin ayrıca intellektual növü olan şivaizmi – Şivaya pərəstişi dirçəltməyi qarşısına məqsəd qoymuşdu. O, buddizm əleyhinə mübarizə apararaq, əqlinin və dəlillərinin gücüylə onu təkzib edirdi. Şankaraçariya *saniyasi* cəmiyyəti, yəni bütün kastaların üzünə açıq olan budda sanqhasına bənzər bir cəmiyyət təsis etdi. Hindistanın müxtəlif tərəflərində – şimalda, qərbdə, cənubda və şərqdə həmin cəmiyyətin dörd mərkəzinin əsasını qoydu. Hindistanın hər yerinə səfər edən Şankaraçariya hara gəlirdisə, orada böyük müvəffəqiyyət qazanırdı. O, Benaresə də qalib kimi gəlmişdi, amma o, əqlinin və dəlillərinin gücüylə qalib çıxmışdı. Ömrünün sonuna yaxın əbədi qarlar məskəninin başlandığı Himalay dağlarında yerləşən Gedarnatha səfər etmiş və orada da vəfat etmişdi. Öləndə onun vur-tut otuz iki, bəlkə bir qədər çox yaşı vardı.

Şankaraçariya çox böyük nəticələr əldə etmişdi. Əvvəllər ölkənin şimal hissəsindən cənubuna doğru geriyə oturdulmuş buddizm indi Hindistandan tamam yoxa çıxmışdı. Hinduizm və onun şivaizm adıyla tanınan başqa bir variantı bütün ölkədə hakim dinlərə çevrilir. Şankaranın kitablarının, təfsirlərinin və dəlil-sübutlarının təsiri altında bütün Hindistanda mənəvi dirçəliş baş verir. Şankara nəinki brahmanlar sinfinin böyük rəhbəri olur, həm də görünür, kütlələrin təxəyyülünə də hakim kəsilir. Çox nadir hallarda insan başlıca olaraq öz ağlının gücü sayəsində böyük rəhbərə çevrilir, belə bir şəxsiyyətin nüfuzu milyon-milyon adama təsir edir və bu şəxsiyyət tarixdə yer tutur. Onlar məşhur, yaxud da mənfur adama çevrilirlər və hərdən tarixin gedişinə təsir göstərirlər. Böyük din rəhbərləri milyonlarla adamı vəcdə və şövqə gətirməyi bacarırdısa da, bunların hamısı din və etiqad zəminində baş verirdi. Din rəhbərləri adamların hissinə təsir edir və məqsədlərinə çatırdılar.

Əgər siz ancaq əqlə, idraka və dərrakəyə müraciət edirsinizsə, onda çox şeyə nail olmaq çətindir. Şankaranın çağırışları, fikirləri qədim kitablardakı müəyyən ehkamların heç də adicə təkrarı deyil. Onun dəlillərinin doğru olub-olmadığının indi əhəmiyyəti yoxdur. Onun dini problemlərə əqli cəhətdən yanaşması maraqlıdır. Bu münasibətin ziddinə olaraq əldə etdiyi müvəffəqiyyət ondan da maraqlıdır. Bu bizə o dövrün hakim siniflərinin düşüncə tərzinə nəzər salmağa imkan verir.

Hinduist filosoflar arasında Çarvaka adlı bir şəxs vardı ki, ateizmi təbliğ edirdi, yəni iddia edirdi ki, Allah yoxdur. Bizim zəmanəmizdə, xüsusən Rusiyada bir çox adamlar var ki, Allaha inanmırlar. Bu məsələ üzərində dayanmağa ehtiyac yoxdur. Amma qədimlərdə Hindistanda fikir və yazılı çıxış azadlığı olması həqiqətən də çox maraqlıdır. Vicdan azadlığı deyilən şey orada mövcud olub. Avropada lap bu yaxınlaradək vəziyyət belə deyildi, elə indinin özündə də orada müəyyən məhdudiyyətlər var.

Şankaranın qısa da olsa, daim fəaliyyətdə keçən həyatının təsdiq etdiyi daha bir fakt var ki, o da Hindistanın mədəni cəhətdən birliyidir. Yəqin ki, bu, bütün qədim tarix boyu mötəbər bir fakt olaraq qalır. Coğrafi cəhətdən Hindistan çox vaxt parçalanmış olub; hərçənd arabir, gördüyümüz kimi, Hindistan təqribən bütünlüklə vahid mərkəzi hakimiyyətə tabe idi. Amma lap əvvəldən Hindistan mədəni cəhətdən vahid olub. O, ümumi zəminə, ümumi ənənələrə və ümumi dinlərə, eyni qəhrəmanlara və qəhrəman qadınlara, vahid qədim əsatirə, vahid ədəbi dilə (sanskrit dilinə), dini ayinləri icra etmək üçün ölkə boyu səpələnmiş ümumi yerlərə; eyni kənd *pançayatlarına;* eyni bir ideologiyaya və dövlət quruluşuna malik idi. Adi hindlinin gözündə bütün Hindistan bir növ *puniya bhumi*, yəni müqəddəs torpaq idi. Bütün qalan dünya isə onun nəzərində *mleççha* ilə, vəhşilərlə məskundu! Beləliklə, Hindistanın birliyi fikri formalaşıb, bu fikir Hindistanın siyasi cəhətdən dağınıqlığına üstün gəlib və qismən də onu saymırdı. Buna belə bir cəhət də səbəb olmuşdu ki, kənd idarəetmə sistemi – *pançayatlar* üst qatlarda nələr üz verirdisə versin, hələ də qalırdı.

Şankaranın öz *mathilərini – saniyasi* cəmiyyətinin mərkəzlərini Hindistanın dörd qurtaracağında təsis etməsi göstərir ki, o, Hindistana mədəniyyətiylə birlikdə bütöv bir tam kimi baxırdı. Ölkə boyu təşviqatçının qısa müddətdə böyük müvəffəqiyyət qazanması da intellektual cərəyanların Hindistanın hər guşəsinə sürətlə yayıldığını sübut edir.

Şankara şivaizmi təbliğ edirdi, şivaizm Şivaya həsr olunmuş çoxlu qədim məbədlərin olduğu cənubda daha güclü yayılmışdı. Quptaların hakimiyyəti dövründə Hindistanın şimalında vişnuizmin və Krişnaya pərəstişin dirçəldilməsi geniş miqyas almışdı. Hinduizmin bu iki qolunun məbədləri biri digərindən fərqlənir.

Məktubum uzun oldu. Amma gərək orta əsrlərdə Hindistanın vəziyyətindən hələ çox şey danışam. Bu da qalsın gələn məktuba.

# HİNDİSTAN ORTA ƏSRLƏRDƏ

*14 may 1932-ci il*

"Arthaşastra" haqqında, Aşokanın babası Çandraqupta Mauriyanın baş naziri Çanakiya və ya Kautiliya tərəfindən yazılan kitab haqqında söylədiklərim, bəlkə yadında ola. Kitabda o zamanın adamları və idarəetmə üsulları barədə ən müxtəlif məlumatlar verilir. Sanki kitabın açdığı pəncərədən eramızdan əvvəlki IV əsr Hindistanına boylana bilirik. İdarəetmənin ən gizli sirlərini təsvir edən belə kitablar bizim üçün padşahların öz istilaları barədə çox şişirdilmiş məlumatlarından qat-qat faydalıdır.

Əlimizdə olan başqa bir kitab isə orta əsrlər Hindistanı haqqında müəyyən təsəvvür verir. Bu, Şukraçariyanın "Nitisara" kitabıdır. "Nitisara" "Arthaşastra" qədər yaxşı və faydalı olmasa da, hər halda onun, eləcə də bəzi kitabələrin və məlumatların köməyilə eramızın doqquzuncu, ya da onuncu yüzilliyinə pəncərə açmağa bizə imkan verir.

"Nitisara"da deyilir ki, "brahmana layiq ruhu nə dərman rəngi, nə də əcdadımız törədə bilər". Beləliklə, kitabda deyilənlərə əsasən, kastalara bölünmə doğuluşa görə yox, qabiliyyətə görə olmalıdır. Kitabda həmçinin deyilir: "Rəsmi vəzifəyə təyin edərkən, kasta və ailə deyil, adamın məşğələsi, xasiyyəti və xidmətləri nəzərə alınmalıdır". Padşah gərək öz şəxsi rəyinə görə yox, xalqın əksəriyyətinin rəyinə uyğun hərəkət etsin. "Çoxlu lifdən hörülən kəndir şiri çəkib sürümək üçün davamlı olduğu kimi, ictimai rəy də padşahdan daha qüdrətlidir".

Nəzəri cəhətdən elə bizim günlərdə də ədalətli olan bu əla prinsiplər əslində bizə işdə çox az fayda vermişdir. İnsan öz qabiliyyəti və ləyaqəti sayəsində yüksələ bilər. Bəs o, bu qabiliyyəti və ləyaqəti necə qazansın? Oğlan, ya qız müvafiq təhsil və tərbiyə alsa, çox qabiliyyətli, bacarıqlı və mahir ola bilər. Əgər onların tərbiyəsi və təhsili qeydinə qalmasalar, onda bu yazıq oğlan, ya qızların əlindən nə iş gələ bilər?

İctimai rəy məsələsində də vəziyyət eynidir. İctimai rəy nədir? Kimin rəyi gərək cəmiyyətin rəyi hesab edilsin? Ehtimal ki, "Nitisara"nın müəllifi külli miqdarda işçiləri, yəni şudraları öz rəyini bildirməkdə hüquqsuz sayırdı. Çətin ki, onlarla hesablaşaydılar. Yəqin ki, ancaq ali, hakim siniflərin rəyi ictimai rəy sayılırdı.

Halbuki belə bir cəhət maraqlıdır ki, orta əsrlərdə Hindistanın dövlət quruluşunda, əvvəllərdə də olduğu kimi, mütləqiyyətə və ya padşahların ilahi hüququna yer yox idi.



Daha sonra "Nitisara"da padşahın yanındakı dövlət şurasından, ictimai işlərə, park və meşə təsərrüfatına baxan ali məmurlardan, şəhər və kənd həyatının təşkilindən; körpülərdən, bərələrdən, mehmanxanalardan, yollardan və nəhayət şəhər və kənd üçün ən mühüm olan şeydən – kanallardan danışılır.

Kəndin bütün işini kənd *pançayatı* idarə edərdi və padşahın məmurları da *pançayatların* üzvü olan pançlara böyük ehtiram göstərərdi. Torpağı bölən, vergi yığan, sonra da bütün kənd adından hökumətə vergi ödəyən də məhz pançayatdı. Demə, böyük *pançayat – Mahasabha* mövcud idi ki, bu da pançayatların işinə nəzarət edər və lazım gəldikdə onların işinə qarışa bilərdi. Həmin *pançayatlar* həmçinin məhkəmə hakimiyyətinə də malikdi, hakim rolunda çıxış edib, adamları məsuliyyətə cəlb edə bilərdi.

Cənubi Hindistanın bəzi qədim kitabələri *pançayat* üzvlərinin necə seçilməsindən, onların hansı səlahiyyətə malik olmasından və öz hüquqlarından hansı hallarda məhrum edilmələrindən bəhs edir. Əgər pançayat üzvlərindən birisi ictimai vəsaitin xərclənməsi haqqında hesabat təqdim etməzdisə, onda onu vəzifəsindən kənar edərdilər. Başqa çox maraqlı qayda, yəqin ki, *pançayat* üzvlərinin yaxın qohumlarının vəzifədən kənar edilməsiydi. Əgər bu qaydanı şuralarımızda, məclislərimizdə və bələdiyyə idarələrimizdə həyata keçirə bilsəydilər nə gözəl olardı!

Kitabələrdə komitə üzvü olan bir qadının adı çəkilir. Bu pançayatlarda və komitələrdə, demə qadınlar da iştirak edə bilərdi.

Komitələr pançayat üzvləri tərəfindən bir il müddətinə seçilən şəxslərdən təşkil edilərdi. Əgər üzvlərdən biri özünü nalayiq aparsaydı, dərhal komitədən kənar edilə bilərdi.

Bu kənd özünüidarəetmə sistemi arilərin dövlət quruluşunun əsasını təşkil edirdi. Dövlət quruluşuna möhkəmlik verən də məhz həmin sistem idi. Bu kənd məclisləri öz müstəqilliyini elə canla-başla qoruyurdu ki, qanuna görə padşahın ayrıca icazəsi olmadan heç bir əsgərin kəndə girməyə ixtiyarı yox idi. "Nitisara"da deyilir ki, əgər rəiyyət məmurun əlindən şikayət verirsə, gərək padşah məmurun tərəfini yox, rəiyyətin tərəfini saxlayaydı, əgər şikayət verənlərin sayı çox olardısa, onda gərək məmur işdən çıxarılaydı. Çünki "Nitisara"da deyilir ki, "Vəzifə şöhrətini dadan adam zəhərlənməyə bilərmi?" Müdrik sözlərdir, elə bil bu sözlər lap özünü bu gün nalayiq aparan və ölkəmizi çox pis idarə edən məmurlar dəstəsi haqqında deyilib.

Sənətkarların və tacirlərin çox olduğu daha iri şəhərlərdə sexlər təşkil edilirdi. Məsələn, sənət sexləri, bankirlərin korporasiyaları, alverçilərin şirkətləri belə mövcud idi. Əlbəttə, dini təşkilatlar da mövcuddu. Bütün bu təşkilatlar öz daxili işlərini xeyli dərəcədə özləri idarə edirdi.

Padşah xalqa zülm edib incitməmək üçün xalqın üzərinə ancaq yüngül vergi qoymalıydı. Çələng hörən, meşədə çiçək və yarpaq yığan bir adam kimi padşah da vergini o cür yığmalıdır. Daha ağac kömürü xatirinə odla ağacların kökünü kəsən kömürçütək yox!

Orta əsrlər Hindistanına aid əlimizdə olan natamam məlumat belədir. Kitablarda şərh olunmuş nəzəriyyəyə təcrübənin nə qədər uyğun gəldiyini aydınlaşdırmaq çətindir. Gözəl-gözəl nəzəriyyə və idealları kitabda şərh etmək nisbətən asandırsa, o nəzəriyyə və ideallara uyğun surətdə yaşamaq bir o qədər çətindir. Kitablar o dövr adamlarının ideologiyasının və ya ideyalarının necə olduğunu dərk etməkdə bizə kömək edir. Halbuki o ideyalar, ola bilsin ki, tamamilə həyata keçməyirdi də! Biz əmin oluruq ki, padşahlar və hökmdarlar heç də mütləq hakimiyyətə malik olmamışlar. Onların hakimiyyəti seçkili *pançayatlar* tərəfindən məhdudlaşdırılmışdı. Biz həmçinin görürük ki, kəndlərdə və şəhərlərdə yaxşı inkişaf etmiş özünüidarə sistemi mövcud idi və onun işinə mərkəzi hökumət az qarışırdı.

Bəs, xalqın ideologiyası və ya özünüidarə sistemi barədə danışanda mən nəyi nəzərdə tuturam? Hindistanda bütün sosial struktur kastalar sisteminə əsaslanırdı. Bu sistem nəzəriyyədə, bəlkə də, çox sərt sistem deyildi və "Nitisara"nın iqrar etdiyi kimi, bütün ləyaqətli və ağıllı adamların üzünə açıqdı. Amma həqiqətdə məsələ başqa cür idi. Brahmanlar və kşatriyalar hakim sinif və ya hakim kasta idi. Hakimiyyət uğrunda onların aralarında hərdən mübarizə getsə də, çox halda dövləti birgə idarə edir və bir-birlərini müdafiə edirdilər. Başqalarını isə əzir, sıxışdırırdılar. Ticarət inkişaf etdikcə, tacirlər sinfi varlanır və daha çox əhəmiyyət kəsb edir, bununla bərabər isə onlara müəyyən üstünlük və öz gildiyalarında daxili işlərə sərəncam vermək azadlığı verilirdi. Amma bütün bunlara baxmayaraq, tacir sinfi dövlətin idarə edilməsində həqiqi mənada iştirak etmirdi. Yazıq şudralara gəldikdə isə, onların yeri həmişə aşağı pillədə idi. Amma elələri də vardı ki, onlardan da aşağı pillədə dururdu.

Aşağı kastalara mənsub adamlar ayrı-ayrı hallarda müvəffəqiyyət qazanırdı. Hətta şudralardan padşah da olub. Amma bu, az-az hallarda



olurdu. Daha çox hallarda bir bölük kasta əhli sosial nərdivanla bir pillə yuxarı qalxırdı. Hinduizm tərəfindən assimilyasiya edilən və aşağı pillədə olan yeni tayfalar tədricən yuxarıya yol açırdı.

Bax, görürsən ki, Qərbdəki qul əməyi Hindistanda olmasa da, bizim bütün quruluşumuz iyerarxiya[1] qaydasına əsaslanır və bir sinif o biri sinif üzərində yüksəlir. Aşağılarda qalan milyon-milyon adam istismar edilir və yuxarıdakıların bütün təminat ağırlığını öz çiyinlərində daşıyırdı. Yuxarıdakı adamlar isə bu sistemi əbədiləşdirməyə və hakimiyyəti öz əllərində saxlamağa can atır, sosial pillənin aşağısında qərar tutmuş yoxsullara tərbiyə və savad almaq imkanı vermirdilər. Kənd pançayatlarında, bəlkə də, kəndlilərin müəyyən rolu vardı və onlarla hesablaşmamaq olmazdı, amma çox ehtimal ki, bir neçə ağıllı brahman bu pançayatlarda da öz mövqeyinin üstünlüyü üçün çalışırdı.

Arilərin qədim dövlət quruluşu, görünür, onların Hindistana gəldiyi və dravidlərlə təmasa girdikləri vaxtdan ta haqqında söz açdığımız orta əsrlərədək mövcud olub. Amma bu qədim dövlət quruluşu yavaş-yavaş cırlaşıb zəifləmişdi. Bəlkə, qocalma baş verirdi, bəlkə də xaricdən ara verməyən basqınlar nəticəsində yavaş-yavaş qartlaşırdı.

Qədim Hindistanda riyaziyyat yüksək səviyyədə inkişaf etmiş və həmin dövrdə görkəmli adlar arasında bir qadının – Lilavatinin adını çəkmək sənin üçün maraqlı olar. Mənbələr göstərir ki, Lilavati və onun atası Bhaskaraçarya, olsun ki, Brahmaqupta adlı daha bir şəxs ilk dəfə olaraq onluq sistemini işləyib hazırlamışdılar. Zənn edildiyinə görə, cəbr də Hindistanda meydana çıxmış, Hindistandan Ərəbistana, oradan da Avropaya keçmişdir. "Cəbr" ərəb mənşəli sözdür.

## ƏZƏMƏTLİ ANQKOR VƏ ŞRİVİCAYYA

*17 may 1932-ci il*

İndi Uzaq Hindistana – Malay ölkələrində və Hind-Çində Cənubi Hindistandan gəlmə adamların koloniyalarına[2] və məskənlərinə qısaca səfər edəcəyik. Bu məskənlərin necə əməlli-başlı düşünülüb təşkil

[1] İyerarxiya – aşağı rütbəlilərin yuxarı rütbəlilərə tabe olma qaydası (*tərcüməçinin qeydi*)
[2] Koloniya – latınca məskən deməkdir (*tərcüməçinin qeydi*)

edildiyini sənə artıq danışmışdım. Məskənlər özbaşına yaranmamışdı. Xəlvəti hazırlanan və eyni zamanda bir neçə ölkədə həyata keçirilən məskunlaşdırmanın baş tutması üçün tez-tez dəniz səfərləri və dənizdə möhkəm ağalıq lazım idi. Mən onu da sənə demişdim ki, bu koloniyalar eramızın I və II əsrlərində meydana gəlmişdi. Onlar Cənubi hind adı daşıyan hinduistlərin koloniyalarıydı. Aradan bir neçə əsr keçəndən sonra buddizm yayılmağa başladı. Hinduizmə etiqad edən bütün Malay ölkələri ta buddizm dininə keçənə qədər buddizmin yayılması davam etdi.

Əvvəlcə Hind-Çinə gedək. Ən qədim koloniyaya Çampa deyilərdi. Çampa Annamda (Şimali Vyetnamda) yerləşirdi. Üçüncü əsrdə orada Panduranqam şəhərinin yarandığını müşahidə edirik. İki əsr keçəndən sonra əzəmətli Kamboca şəhəri tərəqqi etdi. Şəhərdə xeyli iri bina və daş məbəd vardı. Bu hind koloniyalarının hamısında sən möhtəşəm binalar görə bilərdin. Memarları və inşaatçıları yəqin ki, dənizin o tayından, Hindistandan dəvət edirdilər və onlar da burada hind memarlığı ənənələrini inkişaf etdirirdilər. İnşaat işlərində müxtəlif dövlətlər və müxtəlif adalar arasında güclü rəqabət var idi: belə yarış nəticəsində yüksək memarlıq nümunələri yaranırdı.

Bu məskənlərin əhalisi söz yox, dənizçi olmuşdu. Onların özləri və ya ata-babaları bu ölkələrə gəlib çıxmaq üçün dənizin o tayına artıq keçmişdilər. Onlar hər tərəfdən dəniz əhatəsində idilər. Dənizçilər ticarətlə məşğul olmağa asanlıqla başlayırlar. Odur ki, bu yerlərin sakinləri alverçi və tacir olmuş və öz mallarını dənizlə həm müxtəlif adalara, həm qərbə – Hindistana, həm də şərqə – Çinə aparırdılar. Malay aləmindəki müxtəlif dövlətlər buna görə də tacir təbəqələrinin nəzarəti altında idi. Bu dövlətlər arasında tez-tez ixtilaf baş verir və qanlı müharibələr gedirdi. Hərdən hinduist dövləti buddist dövləti əleyhinə müharibə aparırdı. Lakin o dövrlərdə müharibələrin əksəriyyətinin həqiqi səbəbi, görünür, ticarət rəqabəti olmuşdur. Bizim zəmanəmizdə də eynilə bu cür müharibələr gedir. Bu müharibələr böyük dövlətlər arasında onların istehsal etdikləri əmtəə üçün satış bazarları əldə etmək üstündə baş verir.

Təxminən 300 il ərzində – VIII əsrə qədər Hind-Çində üç müxtəlif hinduist dövləti mövcuddu. IX əsrdə görkəmli hökmdar Cayyavarman hər üç dövləti birləşdirib, bir böyük imperiya yaratdı. Ehtimala görə o, buddist idi. Paytaxtını Anqkorda salmağa başladı, bu işi başa çatdıran



isə vərəsəsi Yasovarman oldu. Kamboca imperiyası təqribən dörd yüz il ömür sürdü. Bu dəbdəbəli və qüdrətli imperiya da imperiyalara xas ad çıxarmışdı. Kral şəhəri Anqkor-Tom bütün Şərqdə əzəmətli Anqkor kimi məşhurdu. Bu, milyondan yuxarı əhalisi olan bir şəhərdi. Əhalisinin sayı Sezarlar dövründəki Romada olduğundan çox idi. Şəhərin yaxınlığında möhtəşəm Anqkor-Vat məbədi vardı. XIII əsrdə Kamboca bir neçə tərəfdən basqına məruz qalmışdı. Annamlılar şərq tərəfdən hücum etmişdilər. Monqollar tərəfindən sıxışdırılan şan xalqı başqa çıxış yolu görmədiyindən şimaldan Kambocaya basqın etmişdi. Krallıq ardı-arası kəsilməyən mübarizə nəticəsində və həmişə müdafiə olunmaq zərurəti üzündən əldən düşmüşdü. Lakin Anqkor şəhəri yenə də Şərqin ən əzəmətli şəhərlərindən biri olaraq qalırdı. 1297-ci ildə Kamboca kralının hüzuruna gəlmiş Çin səfiri şəhərin möhtəşəm binalarını vəcdlə təsvir etmişdi.

Amma dəhşətli bir təbii fəlakət qəflətən Anqkor şəhərinin başının üstünü aldı. 1300-cü ilə yaxın Mekonq çayının mənsəbini lil yığını tutdu. Qarşısına maneə çıxan çay əks istiqamətdə axdı. Çayın suyu böyük şəhərin bütün ətrafını basdı, münbit tarlaların geniş sahəsini yararsız bataqlığa çevirdi. Xeyli əhalisi olan şəhər aclığın qurbanı oldu. Şəhər əhli burada uzun müddət qala bilmədiyindən başqa yerlərə köçməyə başladı. Beləliklə, əzəmətli Anqkor boş qaldı, onu cəngəllik bürüdü, cəngəllik sarayları məhv edib ətrafı tamam bürüməyincə şəhərin dəbdəbəli binaları müvəqqəti olaraq vəhşi heyvanların məskəninə çevrildi.

Bu fəlakətə uzun müddət dözməyən Kamboca dövləti yavaş-yavaş dağılmağa başlayıb, axırda əyalətə çevrildi. Əyaləti gah Siam, gah da Annam idarə edirdi. Amma elə indinin özündə də böyük Anqkor-Vat məbədinin xarabalıqları belə bir dövrdən söz açır: vaxtilə həmin məbədin yaxınlığında bir şəhər vardı; bu məğrur və möhtəşəm şəhər uzaq-uzaq ölkələrdən mal gətirən tacirləri özünə cəlb edərdi. Eləcə də həmin şəhərdən yerli sənətkarların hazırladığı gözəl məmulatı başqa ölkələrə yollayırdılar.

Hind-Çinin yaxınlığında, dənizin o tayında Sumatra adası yerləşirdi. Həmçinin Cənubi Hindistandan gəlmə Pallavlar da eramızın I və ya II əsrində öz koloniyalarının təməlini qoydular. Koloniyalar yavaş-yavaş artırdı. Malakka yarımadası çox qədimlərdən Sumatra dövlətinin bir hissəsinə çevrilmişdi və Sumatra ilə Malakka yarımadasının taleyi

uzun müddət bir-birilə sıx bağlı olmuşdu. Dövlətin paytaxtı adanın içərisində, Sumatra dağlarında yerləşən Şrivicayya idi. Bu şəhərin Palembanq çayı mənsəbində liman vardı. Təxminən V-VI əsrlərdə buddizm Sumatrada başlıca dinə çevrildi. Buddizmin xeyrinə fəal missionerlik fəaliyyətinə başçılıq edən Sumatra Malay aləmi hinduistlərinin böyük bir qismini dinindən döndərib buddist edə bildi. Buna görə də Sumatra imperiyasını Budda Şrivicayyası imperiyası adlandırdılar.

Get-gedə böyüyən və genişlənən Şrivicayya nəinki bütün Sumatranı və Malakkanı, habelə Borneonu, Filippin adalarını, Selebesi, Yavanın yarısını, Formoza adasının yarısını (indi bu ada Yaponiyaya məxsusdur), Seylonu və hətta Çinin cənubunda Kanton yaxınlığındakı limanı da əhatə edirdi. Ehtimal ki, Hindistanın cənub qurtaracağında Seylonun qarşı tərəfindəki liman da Şrivicayyanın tərkibinə daxil idi. Beləliklə, gördüyün kimi, bu bütün Malay aləmini əhatə edən geniş bir imperiya olub. Həmin hind koloniyaları əsasən ticarət, eləcə də gəmiqayırma ilə məşğul idilər. O dövrün Çin və ərəb yazıçıları Sumatra dövlətinə tabe olan limanların və yeni koloniyaların adlarının uzun siyahısını vermişlər. Bu adların sayı artmaqda davam edirdi.

Bu gün bütün dünyaya yayılmış Britaniya imperiyası hər yerdə dəniz limanlarına və kömür bazalarına malikdir: Cəbəllütariq, Süveyş kanalı (başlıca olaraq İngiltərənin nəzarəti altındadır) Ədən, Kolombo, Sinqapur, Honkonq və b. Son üç yüz il ərzində tacir millət olan ingilislərin ticarəti və gücü onların dənizdəki qüdrətindən çox asılı idi. Buna görə də ingilislər bütün dünyanın əlverişli yerlərində liman və kömür bazalarına malik olmalıydılar. Şrivicayya da əsasını ticarət təşkil edən dəniz dövləti idi. Buna görə də özün görürsən ki, harada bir balaca dayaq nöqtəsi vardısa, orada Şrivicayyanın limanı olurdu. Bu məskənlərin strateji dəyəri onları başqalarından fərqləndirdi; bu o deməkdir ki, həmin məskənləri elə yerlərdə yerləşdirirdilər ki, onlar ətraf dənizlərdə hakim mövqe tutsun. Onlar bu hakim mövqeni saxlamaqda bir-birinə kömək etmək məqsədilə çox vaxt məskənləri cüt-cüt yerləşdirirdilər. Məsələn, indi iri şəhər olan Sinqapur əvvəlcə Sumatra kolonistlərinin məskəni idi. Onun adı, bildiyin kimi, xalis hind adıdı: Sinqhpur. Boğazın o biri sahilində, düz Sinqapurla üzbəüz, sumatralıların daha bir məskəni də var idi. Hərdən onlar boğazın üzərindən uzadılmış dəmir zəncirlə gəmilərin yolunu kəsər və ağır gömrük haqqı verməyincə həmin gəmiləri buraxmazdılar.



Beləliklə, Şrivicayya imperiyası Britaniya imperiyasından xeyli kiçik olsa da ona müəyyən dərəcədə oxşarı vardı. Ancaq Şrivicayya imperiyasının ömrü ehtimal ki, Britaniya imperiyasının sürə biləcəyi ömürdən daha uzun olmuşdur. Şrivicayya imperiyası XI əsrdə, təxminən Çolalar sülaləsi Cənubi Hindistanda tərəqqi etdiyi bir dövrdə, öz inkişafının ən yüksək nöqtəsinə çatmışdı. Lakin Şrivicayya Çolalar imperiyası süquta uğrayandan sonra çox uzun ömür sürmüşdü, aralarında uzun müddət mehriban münasibətlər olsa da, əslində onlar güclü donanmaya və geniş ticarət əlaqələrinə malik iki təcavüzkar dənizçi xalqdı. XI əsrin əvvəllərində münaqişə nəticəsində onların aralarında müharibə başlamışdı. Çolalar sülaləsindən olan padşah I Racendranın dənizin o tayına yolladığı ekspedisiya Şrivicayyanı zəbt etmişsə də, Şrivicayya aldığı bu zərbədən tezliklə özünə gəlmişdi.

XI əsrin əvvəllərində Çin imperatoru Sumatra hökmdarına hədiyyə olaraq tunc zənglər göndərmişdi. Buna cavab olaraq Sumatra hökmdarı Çin imperatoruna mirvari, fil dişi və məktubla birlikdə sanskritcə yazılmış kitablar yollamışdı. Deyildiyinə görə həmin məktub "hind hərfləriylə" qızıl lövhəcikdə həkk edilmişdi.

Şrivicayya təxminən ikinci əsrdə yarandığı vaxtdan ta buddizmi qəbul edənədək – V, ya VI əsrədək uzun müddət tərəqqidəydi, sonra isə Şrivicayyanın tədricən və dönmədən genişləndiyi dövrü başlayıb və bu dövr XI əsrədək davam edib. Bütün Malay aləmində ticarətə və alış-verişə nəzarət edən Şrivicayya üç yüz il ərzində böyük imperiya olaraq qalmışdı. 1377-ci ildə digər qədim koloniya olan Pallavlar Şrivicayyanı qəti surətdə süquta uğratdı.

Mən sənə Şrivicayya imperiyası sərhədlərinin Seylondan Çindəki Kantona qədər uzandığını demişdim. Həmin sahədə yerləşən adaların əksəriyyəti imperiyanın tərkibinə daxil idi. Ancaq kiçik bir hissə, yəni Yavanın şərq hissəsi zəbt olunmamışdı. Ora müstəqil dövlətdi, buddizmi qəbul etməkdən boyun qaçıraraq, hinduizmə etiqad edirdi. Beləliklə, Qərbi Yava Şrivicayyanın hakimiyyəti altında olduğu bir zamanda Şərqi Yava müstəqildi. Hinduist dövlət olan Şərqi Yava dövləti də ticarətçi dövlət olduğundan onun inkişafı əsasən, ticarətdən asılı idi. Həmin hinduist dövlət gərək Sinqapura baxıb həsəd aparaydı. Çünki Sinqapur gözəl mövqeyi sayəsində iri ticarət mərkəzinə çevrilmişdi. Demək, Şrivicayya ilə Şərqi Yava arasında amansız ədavətə çevrilmiş rəqabət vardı. XII əsrdən başlayaraq Şərqi Yava dövləti tədricən Şrivicayyanın

hesabına ərazisini genişləndirməyə başladı, bundan əvvəl, dediyim kimi XIV əsrdə, yəni 1377-ci ildə bu dövlət Şrivicayyanı qəti məğlubiyyətə uğratdı. Bu, əslində böyük dağıntılar verən çox dəhşətli müharibə idi. Həmin müharibə nəticəsində hər iki böyük şəhər – Şrivicayya və Sinqapur dağıdıldı. Malay aləminin böyük imperiyalarından ikincisi olan Şrivicayya öz varlığını belə başa vurdu. Onun xarabalıqları üzərində üçüncü imperiya – Macapahit dövləti baş qaldırdı.

Şrivicayya əleyhinə müharibədə Şərqi Yavanın göstərdiyi qəddarlığa və vəhşiliyə baxmayaraq, Yavanın həmin dövrü haqqında əlimizə gəlib çatan saysız-hesabsız kitablar bu hinduist dövlətinin yüksək mədəniyyət səviyyəsinə çatdığını sübut edir. Hinduist dövləti tikinti işində, xüsusilə məbədlərin inşasında görkəmli nailiyyətlər qazanmışdı. Orada beş yüzdən çox məbəd vardı ki, onlardan bir neçəsinin adını daş tikintisi memarlığının gözəl və yüksək səviyyəli bədii nümunələri sırasında çəkirlər. Bu əzəmətli məbədlərin əksəriyyəti VII əsrin ortalarından X əsrin ortalarınadək olan bir dövrdə, yəni 650-950-ci illər arasında tikilmişdir. Yavalılar, yəqin Hindistandan və digər qonşu ölkələrdən xeyli inşaatçı və sənətkar usta gətirməli olmuşdular ki, onların köməyilə həmin möhtəşəm məbədləri ucaltsınlar. Gələn məktublardan birində Yavanın və Macapahitin taleyini izləyərik.

DeməK lazımdır ki, Borneo və Filippin sakinləri yazı məharətini bu qədim Pallav koloniyalarının vasitəçiliyi sayəsində Hindistandan öyrənib. Bədbəxtlikdən, Filippin adalarındakı xeyli qədim əlyazması ispanlar tərəfindən məhv edilib.

Burasını da yadında saxla ki, hələ ən qədim dövrlərdən, yəni islam dininin meydana gəlməsindən çox-çox əvvəllər, həmin adaların hamısında ərəblərin məskəni vardı. Mahir tacir olan ərəblər ticarətin mövcud olduğu hər yerə gedirdilər.

## ROMA YENİDƏN ZÜLMƏTƏ QƏRQ OLUR

*19 may 1932-ci il*

Keçmişin dolanbac yollarında sənə yaxşı bələdçilik etmədiyimi tez-tez hiss edirəm. Mən özüm yolu azdığımdan səni düz yolla necə apara bilərəm? Amma hərdən mənə elə gəlir ki, buna baxmayaraq sənə az-çox köməyim dəyə bilər. Buna görə də məktub yazmağı davam etdirirəm. Məktubların şəksiz ki, mənə çox köməyi dəyir. Əzizim, məktub yazarkən və sənin barəndə düşünərkən kölgədə temperaturun 112°-yə çatdığını (Farenqeyt cədvəli üzrə) və bürkülü lü əsdiyini unuduram. Bareyli dairə həbsxanasında olduğumu da arabir yaddan çıxarıram.

Sonuncu məktubumda mən səni Malay ölkələrinin lap XIV əsrinə gətirib çıxardım. Halbuki Şimali Hindistanda Harşa padşahın dövründən, yəni VII əsrdən uzağa getmədik. Avropada isə nəzərdən qaçırılmış əsrlər bundan da çoxdur. Hər yanda hadisələrin şərhinin sinxronluğunu[1] gözləmək çox çətindir. Buna cəhd göstərirəmsə də, hərdən çox qabağa gedirəm, Anqkor və Şrivicayya barədə söhbətimizdə bir neçə yüz il qabağa getmişdim ki, Anqkorun və Şrivicayyanın tarixinin şərhini başa çatdıram. Amma sən unutmamalısan ki, Kamboca və Şrivicayya imperiyaları Şərqdə tərəqqi etdikləri bir vaxtda, həm Hindistanda, həm Çində, həm də Avropada hər cürə dəyişiklik baş verirdi. Burasını da yadında saxla ki, bir neçə səhifədən ibarət olan sonuncu məktubumda tam min il ərzində Hind-Çinin və Malay ölkələrinin tarixi şərh edilib. Həmin ölkələr Asiya və Avropa tarixinin başlıca cərəyanlarından kənarda qaldıqları üçün onlara az diqqət verilir. Amma o ölkələrin ticarətdə, incəsənətdə, xüsusən də memarlıqda nailiyyətlərlə zəngin qədim tarixi var və o, öyrənilməyə tamamilə layiqdir. Hindlilərdən ötrü Hind-Çinin və Malay ölkələrinin tarixi xüsusən maraqlıdır, axı, həmin ölkələr demək olar ki, Hindistanın bir hissəsiydilər. Hindistanın kişi və qadınları şərq dənizlərini üzüb keçərək Hind-Çinə və Malay ölkələrinə hind mədəniyyətini, incəsənətini və hind dinini yayırdılar.

Demək, Malay ölkələri tarixində biz qabağa getmiş olsaq da, ümumən hələ də yeddinci əsrdəyik. Hələ biz Ərəbistana getməli və İslam dininin meydana çıxmasını, bu dinin Avropada və Asiyada törətdiyi böyük dəyişiklikləri nəzərdən keçirməliyik. Eləcə də gərək biz Avropada hadisələrin gedişini izləyək.

Gəl geriyə qayıdaq, Avropaya bir də nəzər salaq. Roma imperatoru Konstantinin Bosfor sahillərində, Bizansın olduğu yerdə Konstantinopolun əsasını qoyduğu yəqin yadındadır. O, imperiyanın paytaxtını köhnə Romadan bu yeni Roma şəhərinə köçürtdü. Aradan çox keçməmiş Roma

[1] Sinxronluq, sinxronizm – yunanca: bir və ya bir neçə hadisənin və ya prosesin vaxt etibarilə tam uyğunluğu (*tərcüməçinin qeydi*)

imperiyası iki hissəyə bölündü; paytaxtı Romada olan Qərbi imperiyaya və Şərqi imperiyaya (imperatorun iqamətgahı Konstantinopolda idi). Şərqi imperiya bir çox çətinliklərlə və xeyli düşmənlə üz-üzə gəlməli oldu. Amma nə qədər təəccüblü görünsə də bu imperiya yüz illər boyu, yəni türklər imperiyanı ta süquta uğratmayınca, düz min yüz il davam gətirə bildi.

Qərbi imperiyanın ömrü çox uzun olmadı. Roma adının və Qərb dünyasında bu qədər uzun müddət ağalıq etmiş imperiya şəhəri Romanın böyük nüfuza malik olmasına baxmayaraq, imperiyanın süqutu çox tez gəlib çatdı. İmperiya şimal tayfalarının hücumu qarşısında dayana bilmədi. Qot Alarix İtaliyaya gəldi və 410-cu ildə Romanı zəbt etdi. Daha sonralar gələn vandallar da Romanı talan etdilər. German xalqı olan vandallar Fransa və İspaniyadan ötərək Afrikaya keçdilər və Karfagenin xarabalıqları üzərində öz krallıqlarını yaratdılar. Buradan, qədim Karfagendən üzə-üzə dənizi keçib Romanı işğal etdilər. Elə bil bu, Pun müharibələrində Romanın qazandığı qələbələr üçün ondan alınan gecikmiş intiqam idi.

Bu hadisələr baş verən dövr üçün ilk dəfə Mərkəzi Asiyadan, ya da Monqolustandan gəlmiş hunların qüdrəti daha da artdı. Hunlar köçəri xalq idilər. Onlar Şərqi Roma imperiyasının şimalında və qərbində, Dunay çayının şərqində məskən saldılar. Onlar başçıları Attilanın hakimiyyəti altında çox təcavüzkar olmuşdular; imperator və onun Konstantinopoldakı hökuməti hunların qarşısında daim qorxu içində yaşayırdılar. Attila romalıları daim hədələyərək, onları böyük məbləğdə xərac verməyə məcbur edirdi. Şərqi imperiyanı xeyli alçaldan Attila Qərbi imperiya üzərinə hücum etməyi qərara aldı. O, Qalliyaya soxularaq, Fransanın cənubunda xeyli şəhər dağıtdı. İmperiya ordusu hunların öhdəsindən gələ bilməzdi, amma hunların aramsız basqını romalıların "barbar" adlandırdığı german tayfalarını vahiməyə salırdı. Odur ki, franklar və qotlar imperiya ordusuna qoşularaq, ümumi qüvvəylə Trua şəhəri yaxınlığında hunlarla böyük döyüşə girdilər. Rəvayətə görə, Attilanın məğlubiyyətə uğradığı, monqol hunların isə geriyə oturulduğu həmin vuruşmada yüz əlli mindən çox adam öldürülmüşdü. Bu hadisə 451-ci ildə baş vermişdi. Amma Attila məğlub olmasına baxmayaraq öz davakarlığından əl götürmürdü. O, İtaliyaya yürüş etdi, ölkənin şimal hissəsində xeyli şəhəri talan edib yandırdı. Aradan çox keçməmiş öz qəddarlığı və



amansızlığı ilə tarixdə ad qoyaraq özü də öldü. Hun Attila elə bu günün özündə də amansız qırğın təcəssümüdür. Attilanın ölümündən sonra hunlar sakitləşdilər, oturaq həyat tərzinə keçib, bir çox başqa xalqlarla qaynayıb-qarışdılar. Bəlkə yadında ola, ağ hunların Hindistana gəlişi təqribən elə bu vaxt olmuşdu.

40 il keçəndən sonra qot Teodorix Roma kralı oldu; bu, Qərbi imperiyanın demək olar sonu idi. Bir qədər sonra Şərqi Roma imperatoru Yustinianın İtaliyanı öz imperiyasının tərkibinə qatmaq üçün göstərdiyi cəhd baş tutdu, həm İtaliyanı, həm də Siciliyanı zəbt etdisə də, çox keçməmiş hər iki dövlət ondan ayrıldı. Şərqi imperiya isə özünü qorumaq qayğısı içində idi.

İmperiya paytaxtı Romanın və imperiyanın özünün bu yerlərə basqın etməyə cəsarət edən hər hansı bir tayfanın əlinə belə asan və tez keçməsi məgər təəccüblü deyilmi? Belə fərz etmək olar ki, Roma artıq məhv olub, quruca adı qalmışdı. Yəqin, əslində elə beləydi də. Romanın gücü uzun müddət onun nüfuzunda idi. Romanın keçmiş tarixi başqa xalqlara belə bir fikir təlqin etmişdi ki, Roma dünyanın ağacıdır, həmin xalqlar Romaya az qala mövhumi qorxuyla baxırdılar. Belə ki, zahirən qüdrətli, hökmran imperiya kimi yaşayan Roma əslində heç bir qüvvəyə malik deyildi. Şəhər zahirən sakit idi, teatrları, stadion və bazar meydançaları həmişə izdihamlı olardı. Amma Roma labüd surətdə özünün süqutuna yaxınlaşırdı – təkcə ona görə yox ki, zəif idi, həm də ona görə ki, Roma varlıların sivilizasiyasını xalq kütlələrinin səfaləti və köləliyi üzərində qurmuşdu. Məktublarımdan birində yoxsulların iğtişaşları və üsyanları, eləcə də qulların ən amansız tərzdə yatırdılan böyük üsyanı barədə sənə danışmışdım. Bu üsyanlar Romanın sosial quruluşunun nə qədər zəif olduğunu bizə göstərir. Romanın bu quruluşu öz-özünə dağılırdı, şimal tayfaları olan qotların və digər tayfaların hücumu isə həmin prosesi sürətləndirdiyi üçün onlar zəif müqavimətə rast gəlmişdilər. Acınacaqlı tale Roma kəndlisini cana gətirdiyindən o hər cür dəyişikliyi alqışlayırdı. Yoxsul işçilərə və qullara gəldikdə isə, onların vəziyyəti Roma kəndlilərinkindən də pis idi.

Qərbi Roma imperiyasının ömrü sona çatandan sonra ön plana keçən yeni-yeni qərb xalqlarının, o cümlədən qotların, frankların və başqalarının adlarını çəkib beynini yormayacağam. Bu xalqlar müasir Qərbi Avropa xalqlarının, yəni almanların, fransızların və başqalarının

ocdadıdırlar. Bu ölkələrin Avropada tədricən necə təşəkkül tapdığını görürük. Bununla yanaşı, həmin ölkələrdə mədəniyyətin çox aşağı səviyyədə olduğunun şahidi oluruq. Romanın, imperiya paytaxtının aqibəti həm də Roma cah-calalının və əzəmətinin aqibəti idi. Romada hələ də acınacaqlı həyat keçirən o səthi mədəniyyət bir göz qırpımında yox oldu, çünki o mədəniyyətin kökləri çoxdan üzülmüşdü. Beləliklə, biz bəşəriyyətin açıq-aşkar geriyə hərəkət etdiyinə dair bir misal gətirdik. Belə hallar Hindistanda, Misirdə, Çində, Yunanıstanda və Romada, eləcə də başqa ölkələrdə müşahidə olunurdu. Cidd-cəhdlə bilik və təcrübə toplanıldıqdan və mədəniyyət yaradıldıqdan sonra durğunluq əmələ gəlmişdi. Həm də nəinki durğunluq, geriyə qayıtmaq halı başlamışdı. Keçmişin üzərinə sanki pərdə örtülmüşdü. Keçmişin şöhrət parıltısı hərdən görünsə də, adamlar yenidən bilik və təcrübə zirvəsinə qalxmalı olurdular. Doğrudur, bəlkə, adamlar hər dəfə azca yuxarı qalxır, sonrakı yüksəliş onlar üçün asanlaşırdı. Bu ona bənzər ki, Everest dağına bir-birinin ardınca ekspedisiya yollanır; hər ekspedisiya əvvəlki ekspedisiyaya nisbətən zirvəyə getdikcə daha çox yaxınlaşır. Bəlkə də, çox çəkməz ki, ən yüksək zirvə fəth olunar.

Demək, biz Avropanı zülmətə qərq olmuş halda görürük. Orta əsr nadanlığı dövrü başlanır, həyat sərtləşir və ibtidailəşir, savadlı adam demək olar yoxdur, yeganə məşğuliyyət və əyləncə silahlı toqquşmalardır. Sokrat və Əflatun dövrü uzaq keçmiş kimi görünür.

Lakin Qərb barədə danışdığımız yetər. Gəl Şərqi imperiyaya da nəzər salaq. Yəqin yadındadır: Konstantin xristianlığı rəsmi din elan elədi; onun varislərindən biri imperator Yulian xristianlığı qəbul etməkdən boyun qaçırdı. O, qədim dövr allahlarına və ilahələrinə pərəstiş ayinlərinə qayıtmaq istəyirdi, di gəl müvəffəq ola bilmirdi, çünki qədim allahlar öz dövrlərini çoxdan keçirmişdilər, xristianlıq isə olduqca qüdrətli idi. Xristianlar Yuliana Dönük adı verdilər ki, o, bu adla da tarixdə məşhurdur.

Yuliandan sonra çox keçmədi ki, hakimiyyət başına başqa bir imperator, həm də Yuliana heç oxşamayan imperator gəldi. Bu adam Feodosi idi, ona Böyük Feodosi deyirdilər. Zənnimcə, ona görə belə deyirdilər ki, o, qədim məbədlərin, qədim Allah və ilahə heykəllərinin böyük dağıdıcısı idi. O, nəinki xristianlığa mənsub olmayanlara, eləcə də onun fikrincə ortodoksal olmayan xristianlara kəskin hücum edirdi. Feodosi özünün tərəfdar olmadığı bütün dinlərə və fikirlərə eynilə düşməndi. O,



Şərqi və Qərbi imperiyaları qısa müddətə birləşdirib, hər ikisinin imperatoru oldu. Bu əhvalat 392-ci ildə, yəni barbarların Romaya hücumundan qabaq baş vermişdi.

Xristianlıq yayılmaqda davam edirdi. İndi onun mübarizəsi xristian olmayanlara qarşı yönəldilməmişdi. Mübarizəni xristian təriqətləri biri digərinin əleyhinə aparırdı: mübarizənin gedişində onların bir-birinə qarşı düşmənçiliyi adamı lap heyran edir. Şimali Afrika və Qərbi Asiya boyu, eləcə də Avropada sayı-hesabı olmayan döyüşlərdə xristianlar şapalaq, dəyənək gücünə və buna bənzər yumşaq inandırma vasitələrilə öz xristian qardaşlarını əsil etiqadın nə olduğuna inandırmağa cəhd edirdilər.

527-ci ildən 565-ci ilədək Konstantinopolda imperator Yustinian oldu. Bayaq sənə söylədim ki, o, qotları İtaliyadan qovdu, İtaliya və Siciliya da bir müddət Şərqi imperiyanın tərkibinə daxil oldu. Daha sonralar qotlar İtaliyanı geri aldılar.

Yustinian Konstantinopolda yaraşıqlı müqəddəs Sofiya kilsəsi tikdirmişdi; bu kilsə ən gözəl Bizans kilsələrindən biri sayılır. Yustinianın hökmüylə qabiliyyətli hüquqçular bütün mövcud qanunları bir yerə toplayıb nizama salmışdılar. Hələ Şərqi Roma imperiyası və onun imperatorları haqqında müəyyən məlumat öyrənməmişdən xeyli əvvəl *Yustinian İnstitusiyaları*[1] adlanan qanunlar məcəlləsini mən artıq oxumuşdum və Yustinian adı mənə oradan məlum idi. Yustinian Konstantinopolda universitetin əsasını qoymuşsa da, o, Akademiyanı, ya da Afinadakı qədim fəlsəfə məktəbini bağlatdırmışdı. Həmin məktəbin əsasını Əflatun qoymuş və bu məktəb tam min il fəaliyyət göstərmişdi. Fəlsəfə elmi hər şeyi hökm kimi qəbul edən dinlər üçün qorxuludur: o, adamları düşünməyə, fikirləşməyə vadar edir.

Beləliklə, gəlib VI əsrə çatdıq. Romanın və Konstantinopolun getdikcə daha çox bir-birindən ayrı düşdüyünü görürük. Romanı şimaldan gələn german tayfaları işğal etmişdilər. Konstantinopol Roma imperiyası adlansa da, əslində o, yunan imperiyasının mərkəzinə çevrilmişdi. Romada tam bərbadlıqdı. Roma da öz fatehlərinin – vaxtilə özünün əzəmətli dövründə "vəhşi" adlandırdığı fatehlərin mədəniyyəti

[1] İnstitusiyalar – latınca hərfi mənası: öyüd, nəsihət; Roma hüquqşünaslarının ibtidai dərslikləri. Burada qüvvədə olan xüsusi hüququn sistemli icmalı verilirdi. Roma hüquqşünası Qayın İnstitusiyaları əsasında Yustinian İnstitusiyaları tərtib edilmişdir, yəni Bizans hüququnun sistemləşdirilmiş şərhi verilmişdir (*tərcüməçinin qeydi*)

səviyyəsinə enmişdi. Konstantinopol qədim ənənəsini müəyyən dərəcədə davam etdirirdi, hərçənd mədəniyyət səviyyəsi burada da xeyli tənəzzül etmişdi. Xristian təriqətləri ağalığa can ataraq öz aralarında boğuşurdu. Türküstana, Çinə və Abissiniyaya qədər yayılan şərqi xristianlıq isə həm Konstantinopol, həm də Roma ilə əlaqəsini üzmüşdü. Orta əsr nadanlığı başlamışdı. Təhsil o vaxta qədər yenə də klassik sistemlə aparılırdı, yəni yunan ədəbiyyatından ilham alan yunan və ya qədim latın təhsili idi. Lakin allahlardan və ilahələrdən, fəlsəfədən bəhs edən qədim yunan kitabları erkən dövrün dindar, etiqadı möhkəm və özgə dinlərə dözməyən xristianları üçün qeyri-məqbul ədəbiyyat hesab edilirdi. Odur ki, bu kitablar mütaliə üçün tövsiyə olunmurdu və beləliklə, bu incəsənətin bir çox növləri kimi təhsilə də ziyan vururdu.

Amma xristianlıq təhsil və incəsənətin qorunması üçün də müəyyən iş görmüşdü. Budda *sanqhlarına* bənzər monastırların əsası qoyulmuşdu; tezliklə yayılan bu monastırlar qədim elm üçün bəzən bir sığınacağa çevrilirdi. Yeni incəsənətin başlanğıcı da bu monastırlarda yaranmışdı; aradan neçə əsr keçəndən sonra həmin incəsənət bütün gözəlliyilə çiçəklənmişdi. Bu rahiblər fəqət elm və incəsənətin sönük işığını qoruyub saxlaya bilirdilər. Onların xidməti həmin işığı sönməyə qoymamaq idi. Amma elm və incəsənət ziyası dar çərçivəyə salınmışdı. Zahirdə hər yanda zülmət hökm sürürdü.

Erkən xristianlığın həmin dövründə bir qəribə adət də vardı. Dini fanatizmin təhrik etdiyi bir çoxları cəmiyyətdən uzağa, səhraya və xəlvət yerlərə çəkilir, orada insanlardan uzaqlarda, təbiətin qoynunda yaşayırdı. Onlar özlərinə işgəncə verir, çimmir, bacardıqca bədənlərinə daha çox əziyyət verməyə çalışırdılar. Bu halı ən çox Misirdə görmək olardı, orada bir çox belə zahid səhrada məskən salmışdı. Görünür, o zahidlərin əqidəsi bundan ibarətdi ki, nə qədər çox əzaba dözsələr, nə qədər az yuyunsalar, onların müqəddəsliyi bir o qədər artıq olar. Bu səhranişinlərdən birisi neçə ildi ki, bir dirəyin zirvəsində əyləşmişdi! Bu zahidlər tədricən meydandan getsələr də, bir çox mömin xristian uzun müddət inanırdı ki, insana bu dünyada hər cür zövq, ləzzət almaq az qala günahdır. Əzab çəkmək əqidəsi xristianların əhvali-ruhiyyəsində də xeyli iz buraxmışdı. Amma bizim günlərin Avropasında o əqidədən nə qalıb ki! Əksinə, orada, yəqin hamıya vaxtı xoş keçirmək deyilən şeyin dalınca düşmək həvəsi daha güclüdür. Nəticədə adam vaxtını xoş keçirmək əvəzinə yorulur və darıxır.



Hindistanda arabir elə adamlara rast gəlirik ki, onlar da özünü müəyyən qədər Misirdəki xristian zahidlər kimi aparırlar. Onlar bir qollarını yuxarı qalxmış vəziyyətdə saxlayırlar, ta o vaxta qədər ki, qol quruyur və fəaliyyətdən düşür; ya da tikan üstə əyləşirlər, yaxud bir çox başqa səfeh işlər tuturlar. Bir parası bunu, zənnimcə, nadan adamları aldadıb pul qoparmaq üçün eləyirlər. Bir parası da, bəlkə, ona görə ki, elə hərəkət eləyəndə guya daha çox müqəddəsləşirlər. Sanki bədənini faydalı iş üçün tam yararsız hala salmaq bir vaxt məqsədəuyğun ola bilər.

Budda haqqında bir əhvalat yadıma düşdü. Bundan ötrü yenə köhnə dostumuz Syuan Tszana müraciət edirəm. Buddanın şagirdlərindən birisi özünü tövbəyə məhkum etmişdi. Budda ondan soruşur: "Ey qəşəng oğlan, sən tövbə etməmişdən əvvəl udda çalmağı bacarırdınmı?" Gənc cavabında: "Bəli, bacarırdım" – deyir. Bunu eşidən Budda deyir: "Yaxşı, onda mən bu sahədən bir misal gətirəcəyəm. Əgər simlər çox tarım dartılıbsa, onda səslər ahəngdar olmur: əgər simlər çox boş dartılıbsa, onda səslərdə nə lətafət olacaq, nə də məlahət; fəqət, elə ki, simlər nə boş olur, nə də tarım, onda səslər lətafətli olur". Budda sözünə davam edərək deyir: "Cismimiz də, yəni bədənimiz də o vəziyyətdədir". Əgər cismimizlə çox sərt davransaq, o yorular və ağlımız da süstləşər; əgər cismimizlə çox yumşaq rəftar etsək, onda hissiyyatımız zərifləşər və iradəmiz də zəifləşər".

## İSLAM DİNİNİN MEYDANA GƏLMƏSİ

*21 may 1932-ci il*

Biz bir çox ölkələrin tarixini nəzərdən keçirdik, bir çox səltənət və imperiyaların yüksəlişini və süqutunu gördük. Amma Ərəbistan isə söylədiyimiz hekayətdə hələ də dünyanın uzaq məmləkətlərinə dənizçi və tacir yollayan bir ölkə kimi xatırladılırdı. Xəritəyə nəzər sal. Ərəbistandan qərbə doğru Misir yerləşir, şimala doğru Suriya və İraq. Suriya və İraqdan azacıq şərqə doğru isə İran; bir qədər uzaqda, şimal-qərbdə Kiçik Asiya və Konstantinopol. Yunanıstan yaxındadır; Hindistan da yaxındır – dənizin o tayında. Ərəbistan Çin və Hindistan istisna olunmaqla qədim mədəniyyət ocaqlarına nisbətən mərkəzi mövqe tutur. İraqda, Dəclə və Fərat sahillərində böyük şəhərlər yaranmışdı. Misirdə

– İsgəndəriyyə, Suriyada – Dəməşq, Kiçik Asiyada isə – Antioxiya. Ərəblər səyyah və tacir olduqları üçün adlarını çəkdiyim şəhərlərə, gərək ki, tez-tez gəlirdilər. Bununla belə, Ərəbistan tarixdə hələ görkəmli rol oynamırdı. Görünür, orada mədəniyyətin səviyyəsi qonşu ölkələrdə olduğu qədər yüksək deyildi. Ərəbistan başqa ölkələri zəbt etməyə cəhd göstərməsə də, onun özünü də zəbt etmək asan deyildi.

Ərəbistan səhralar məmləkətidir, səhralar və dağlar isə möhkəm adamlar doğurur, azadlığı sevən bu adamları tabe etmək o qədər də asan deyil. Ərəbistan yoxsul bir məmləkətdi, yadelli istilaçıları və imperialistləri bu məmləkətə cəlb edə biləcək az şey ola bilərdi. Orada dənizə yaxın cəmi iki kiçik şəhər vardı: Məkkə və Yəsrib (Mədinə) idi. Bundan əlavə, Ərəbistan səhrasında ancaq məskənlər vardı və ölkə əhalisinin özü də bədəvi – "səhra sakini" adlanırdı. Yüyürək dəvələr və yaraşıqlı atlar onların ayrılmaz yol yoldaşlarıydı; hətta çox davamlı olduğuna görə eşşəyin də qədrini bilirdilər. Əgər adamı eşşəklə müqayisə etsəydilər bu, başqa ölkələrdə olduğu kimi söyüş yox, xoş söz sayılardı. Çünki səhra həyatı sərt olduğundan qüvvəni və dözümlülüyü orada başqa yerlərə nisbətən daha yüksək qiymətləndirirdilər.

Bu səhra adamları məğrur və küsəyən olduqlarından dalaşmaları da küsüşmələri kimi çətin deyildi. Öz qəbilələri və ailələriylə yaşayan bədəvilər başqa qəbilələrlə və ailələrlə ədavət saxlardılar. İldə bir dəfə barışığa gələr, özlərinin saysız-hesabsız allahlarına sitayiş etmək üçün Məkkə ziyarətinə gedərdilər; Məkkə həmin allahların rəmzləri olan müqəddəs məkandı. Hər şeydən uca tutduqları və sitayiş etdikləri nəhəng "qara daş" – Kəbə idi.

Bədəvilər köçəri və patriarxal həyat keçirirdilər. Onların həyat tərzi Mərkəzi Asiyada və digər yerlərdə yaşayan ibtidai tayfaların oturaq həyata keçənə və mədəniləşərək şəhər həyatına alışana qədərki həyat tərzinə oxşayırdı. Ərəbistanın ətrafında yaranan böyük imperiyalar çox vaxt onu öz torpaqlarına qatırdılar. Əslində bu ancaq sözdə idi, həqiqətdə isə belə deyildi. Səhrada yaşayan köçəri tayfaları itaətə gətirmək də, idarə etmək də asan iş deyildi.

Bəlkə yadında ola, bir dəfə Palmirdə, Suriyada kiçik bir ərəb dövləti yaradılmışdı, bu dövlət eramızın III əsrində özünün uzun sürməyən şöhrətini itirmişdi. Amma elə həmin dövlət də əslində Ərəbistanın öz hüdudlarından kənardaydı. Beləliklə, bədəvilər nəsilbənəsil yenə əvvəlki kimi səhrada yaşayır, ərəb gəmiləri ticarət məqsədiylə yola çıxırdı, Ərəbistanın özündə də elə bir dəyişiklik baş vermirdi. Beziləri dönüb xristian olurdu, bir parası isə yəhudi. Amma əksəriyyəti əvvəllərdə olduğu kimi, Məkkədəki üç yüz altmış bütə və "qara daş"a sitayiş edirdi.



Əsrlər boyu yarıyuxulu olan, özgə yerlərdə baş verən hadisələrdən apaşkar kənarda qalan bu ərəb irqinin qəflətən ayılması, nəhəng qüvvə nümayiş etdirərək bütün dünyanı mat qoyub müvazinətdən çıxarması çox təəccüblüdür. Ərəblərin tarixi və onların Asiya, Avropa və Afrikada tezliklə tanınaraq yüksək mədəniyyət yaratması dünya tarixindəki möcüzələrdən biridir. İslam dini elə bir yeni qüvvə və ya əqidə idi ki, bu əqidə ərəbləri ayıldıb, onlara qətiyyət və inam hissi aşılamışdı. Bu dinin binasını yeni peyğəmbər – 570-ci ildə Məkkədə anadan olan Məhəmməd qoymuşdu. O, öz dinini elan etməyə tələsmir, ona məhəbbət və etimad göstərən həmvətənlərinin əhatəsində dinc ömür sürürdü. Məhəmməd hətta Əl-Əmin – Sadiq ləqəbiylə də tanınmışdı. Amma o, yeni dinin təbliğinə başlarkən və ələlxüsus Məkkədəki bütlərə sitayiş etmək əleyhinə çıxarkən, özünə qarşı qəzəbli hiddət oyatmışdı, axır Məkkədən qovulub, canını zorla qurtarmışdı. Məhəmməd dönə-dönə dini xütbələrində deyirdi ki, tək bir Allah mövcuddur və o, Məhəmməd, Allahın peyğəmbəridir.

Həmvətənləri tərəfindən Məkkədən qovulan Məhəmməd özünün Yəsribdəki bəzi dostlarının və köməkçilərinin yanında sığınacaq tapmışdı. Məhəmmədin Məkkədən Mədinəyə qaçmasına ərəbcə *hicrət* deyilir və müsəlman təqvimi həmin tarixdən – eramızın 622-ci ilindən hesablanır. Hicri təqvimi Ay təqvimidir (Qəməri təqvim), yəni il Qəməri aylarla hesablanır. Buna görə də Qəməri təqvimdəki il bizim adətən, əməl etdiyimiz Günəş təqvimindəkinə (Şəmsi təqvim) nisbətən beş-altı gün qısadır. Hicri təqvim üzrə aylar heç də həmişə ilin eyni bir vaxtına düşmür. Eyni bir ay hazırkı ildə qış ayı ola bilər, bir neçə ildən sonra isə həmin ay yayın ortalarına düşə bilər.

İslam dini Məhəmmədin Məkkədən Mədinəyə qaçmasından, yəni hicrətdən, 622-ci ildən başlamış olsa da, müəyyən mənada o, bir qədər əvvəl meydana gəlmişdi. Yəsrib şəhəri Məhəmmədin gəlişini alqışladı, şəhərin öz adı Məhəmmədin şərəfinə dəyişdirilib Mədinətün-Nəbi – Peyğəmbər şəhəri, qısaldılmış şəkildə Mədinə adlandırılıb, şəhər indi bu adla tanınır. Məhəmmədə kömək edən Mədinə əhlini *ənsarlar* yəni köməkçilər adlandırdılar. Bu köməkçilərin nəsilləri – bu adla fəxr edirdilər, elə bizim günlərdə də onlar bu adı daşıyırlar.

İslamın və ərəblərin müzəffər yolunu izləməzdən əvvəl ətrafda nələr baş verdiyinə ötəri də olsa nəzər salaq. Biz Romanın necə süqut etdiyiylə yenicə tanış olduq. Qədim yunan – Roma mədəniyyətinin sonu çatdı və bu mədəniyyətin ucaltmış olduğu bütün ictimai bina uçdu. Şimali Avropa tayfaları və qəbilələri daha görkəmli rol oynamağa başlamışdılar. Romadan müəyyən bir şey əxz etməyə cəhd göstərən bu qəbilələr əslində büsbütün yeni mədəniyyət növü yaradırdılar. Amma bu yeni mədəniyyətin hələ lap əvvəliydi. O, əvvəlkindən çox çətin seçilirdi. Beləliklə, köhnə mədəniyyət getmiş, yeni mədəniyyət isə onu əvəz etməmişdi. Buna görə də Avropada zülmət hökm sürürdü. Doğrudur, Avropanın şərq ucqarında hələ də çiçəklənən Şərqi Roma imperiyası mövcud idi. Elə o dövrdə də əzəmətli və möhtəşəm şəhər olan Konstantinopol Avropada ən böyük şəhər sayılırdı. Şəhər amfiteatrlarının səhnələrində daim oyunlar və sirk tamaşaları göstərirdilər: bu şəhər ehtişamı və təmtərağıyla başqalarından fərqlənirdi. Amma bununla belə, imperiya zəifləyirdi. Sasani İranla arasıkəsilməz müharibələr gedirdi. İran Şahı II Xosrov Konstantinopol torpaqlarının bir hissəsini ondan qopardı və hətta Ərəbistan üzərində işdə yox, sözdə olan ağalığa da iddia etdi. Xosrov Misiri də istila etdi, gəlib düz Konstantinopola çatdı, amma burada onu yunan imperatoru İrakli məğlubiyyətə uğratdı. Sonralar Xosrovu öz oğlu Kavad (Keyqubad) öldürdü.

Beləliklə, görürsən ki, Qərbdə Avropa, Şərqdə isə İran pis zamanlar keçirirdilər. Xristian təriqətlərinin öz aralarında qurtarmaq bilməyən qırğınlarını da dediyimin üstünə gəl. Həmin dövrdə Qərbdə və eləcə də Afrikanın özündə çox pozğun və dalaşqan olan xristianlıq çiçəklənməkdə idi. İranda zərdüştilik dini dövlətin bir hissəsiydi və camaatın beyninə zorla yeridilirdi. Belə ki, həm Avropa, həm Afrika, həm də İran əhli mövcud dinlərə bağladığı ümidlərinin boşa çıxmasından məyus olmuşdu. Təqribən bu zaman, yəni VII əsrin əvvəllərində, Avropanı bürüyən epidemiyadan milyonlarla adam məhv oldu.

Hindistanda Harşavardhananın hökmdarlıq etdiyi bir dövrdə Syuan Tszan onun sarayına gəldi. Harşanın hakimiyyəti dövründə Hindistan güclü dövlət idi, amma Harşadan sonra tezliklə Şimali Hindistan parçalanıb, zəiflədi. Şərqə doğru uzaqlarda, Çində, böyük Tan sülaləsi hakimiyyəti yenicə başlanırdı. 627-ci ildə həmin sülalənin böyük imperatorlarından biri olan Tay-tszun taxta əyləşdi. Onun hakimiyyəti dövründə Çin imperiyasının sərhədləri qərbdən çox uzaqlara doğru genişləndi.



Mərkəzi Asiyanın əksər ölkələri Çin imperatorunun suverenliyini qəbul edir və ona xərac verirdi. Bu nəhəng imperiyanı dolandırmaq üçün, ehtimal ki, mərkəzləşmiş hakimiyyət yox idi.

İslam yarandığı bir vaxtda Avropa və Asiya aləmində vəziyyət belə idi. Çin güclü və qüdrətli olsa da, uzaqda idi. Hindistana gəldikdə isə o, müəyyən dövrdə xeyli güclü olsa da, sonralar görəcəyik ki, islamla Hindistan arasında uzun müddətli ixtilaf olmayıb; Avropa və Asiya zəifləyib taqətdən düşmüşdü.

Mədinəyə qaçmasından yeddi il keçəndən sonra Məhəmməd Məkkəyə bir hökmdar kimi qayıtdı. Hələ Məkkəyə qayıtmazdan qabaq o, dünyanın hökmdarlarına və hakimlərinə vahid Allahı və Allahın peyğəmbərini tanımaq haqqında tələb göndərmişdi. Konstantinopol imperatoru İrakli həmin tələbnaməni Suriyadakı farslara qarşı hərbi yürüşə hazırlıq gördüyü bir vaxtda almışdı; İran padşahına da həmin namə çatmışdı; deyilənə görə, hətta Çindəki Tay-tszun da belə namə almışdı. Tələbnamələri alarkən, yəqin bu hökmdarları və hakimləri yaman təəccüb bürümüşdü: naməlum bir şəxs onlara əmr etməyə cürət edib! Bu namələrə əsasən belə bir mülahizə yürüdə bilərik ki, Məhəmməd öz qüvvəsinə və öhdəsinə götürdüyü işə sonsuz inam bəsləyirdi. Məhəmmədin öz qüvvəsinə arxayın olması və öz həmvətənlərinə aşılaya bildiyi inam səhrada yaşayan və böyük rol oynamayan xalqa təskinlik verib ruha gətirdi; o xalq məlum olan dünyanın yarısını məhz bu qüvvə və inam sayəsində ələ keçirə bildi.

Öz qüvvənə arxayın olmaq və inam öz-özlüyündə böyük şeydir. Lakin islam özüylə adamlara həmçinin qardaşlıq ideyası – bütün müsəlman olanların bərabərliyi ideyasını da gətirmişdi. Beləliklə, xalqa müəyyən dərəcədə demokratiya verilmişdi. O dövrün pozğun xristianlığıyla müqayisədə bu qardaşlıq ideyası gərək böyük cəzbedici bir qüvvəyə malik olaydı, həm də təkcə ərəblər üçün deyil, ərəblərin ayağı dəyən bir çox ölkələrin sakinləri üçün də!

Məhəmməd 632-ci ildə, hicrətdən 10 il keçəndən sonra vəfat etdi. O, Ərəbistanın bir-biriylə ədavət saxlayan saysız-hesabsız tayfalarından bir millət yarada bildi və ümumi amal naminə onlarda ruh coşqunluğu məşəlini alovlandırmağı bacardı. Məhəmmədin ailə üzvü, xəlifə seçilmiş Əbubəkr onun xələfi, yəni başçı oldu. Xəlifənin seçilməsi ümumi iclasda keçirilmişdi və qeyri-rəsmi xarakter daşımışdı. İki ildən sonra Əbubəkr öldü, onun yerini tutan Ömər on il xəlifəlik etdi.

Əbubəkr və Ömər ərəblərin və islamın ucalıq təməlini qoymuş görkəmli şəxslər idilər. Onlar xəlifə olmaqla yanaşı, həm də din başçısı və siyasi rəhbər idilər, yəni eyni bir simada kral və papa idilər; yüksək mövqe tutmalarına və xilafətin qüdrətinin artmasına baxmayaraq hər ikisi əvvəlki kimi sadə həyat tərzi keçirir, cah-calalı və dəbdəbəni bəyənmirdi. İslamdakı demokratiya onlar üçün həyati əhəmiyyətə malikdi. Amma çox çəkmədi ki, onların öz məmur və əmirləri ipəyə və cah-calala uydular. Əbubəkrlə Ömərin bu məmur və əmirlərin əməllərini pisləməsi, onları cəzalandırması və israfçılıqları üzündən hətta göz yaşı axıtması barədə bir çox rəvayətlər var. Onlar ərəblərin gücünün sadə və sərt həyat tərzində olduğunu yaxşı hiss edirdilər; dərk etmişdilər ki, əgər ərəblər İran və Konstantinopol saraylarının cah-calalına uyarsa, bu, onların mənəviyyatını pozub axırda da məhv edər.

Əbubəkrin və Ömərin xəlifəlik etdikləri hətta bu on iki illik qısaca dövr ərzində də ərəblər imkan tapıb həm Şərqi Roma imperiyasını, həm də İranda Sasanilər imperiyasını məğlubiyyətə uğratdılar. Yəhudilərin və xristianların müqəddəs şəhəri Yerusəlim ərəblər tərəfindən ələ keçirildi və beləliklə Suriya, İraq və İran başdan-başa yeni Ərəb imperiyasının tərkib hissəsinə çevrildi.

## ƏRƏBLƏR İSPANİYADAN TUTMUŞ TA MONQOLUSTANADƏK QALİB GƏLİRLƏR

*23 may 1932-ci il*

Bəzi başqa dinlərin baniləri kimi, Məhəmməd də bir çox mövcud sosial adətlər əleyhinə çıxırdı. Onun təbliğ etdiyi din özünün səmimiliyi, demokratizm və hüquq bərabərliyi çalarlarıyla qonşu ölkələrin xalq kütlələrinin qəlbində rəğbət oyatmışdı. O kütlələr padşahların və onlardan heç də geri qalmayan müstəbid din xadimlərinin hakimiyyəti altında uzun müddət inləmişdilər. Bu xalq kütlələri köhnə qaydalardan təngə gəlmişdi. Belə dəyişikliyi onlara vəd edən islam oldu; onların umduqları məhz bu dəyişikliklərdi, çünki bu dəyişikliklər kütlələrin vəziyyətini çox cəhətdən yaxşılaşdırırdı və əvvəlki sui-istifadə hallarına son qoyurdu. İslam özüylə kütlələrin istismarına əsasən son qoya biləcək böyük sosial inqilab gətirmədisə də, məsələ müsəlmanlara aid olduğu



üçün bu istismarı, şəksiz, azaltdı və müsəlmanları vadar etdi ki, onlar özlərinin böyük və vahid qardaşlığa mənsub olduqlarını hiss etsinlər.

Buna görə də ərəblər zəfərlərdən zəfərlərə addımlayırdılar. Çox vaxt davasız-döyüşsüz qalib gəlirdilər. Peyğəmbərin ölümündən keçən 25 il ərzində ərəblər şərqdə – İranı, Suriyanı, Ermənistanı və Orta Asiyanın bir hissəsini, qərbdə isə Misiri və Şimali Afrikanın bir hissəsini istila etdilər. Ərəblərin lap asanlıqla ələ keçirdiyi ölkə Misir oldu; ona görə ki, Misir Roma imperiyasının istismarından və eləcə də xristian təriqətlərinin rəqabətindən daha çox əzab çəkirdi. Belə rəvayət var ki, ərəblər məşhur İsgəndəriyyə kitabxanasını yandırmışlar, amma indi belə zənn edirlər ki, bu, mötəbər məlumat deyil. Kitabı həddən artıq sevən ərəblər belə vəhşi üsula əl atmazdılar. Amma belə bir ehtimal da var ki, kitabxananın, ən azı onun bir hissəsinin məhv edilməsində təqsirkar, haqqında sənə əvvəllər az-çox danışdığım Konstantinopol imperatoru Feodosi olmuşdur.

Kitabxananın o biri hissəsi isə bu hadisədən xeyli qabaq, Yuli Sezar dövründə şəhər mühasirə edilərkən məhv olmuşdu. Feodosi qədim yunan əsatirlərindən və fəlsəfəsindən bəhs edən qədim yunan bütpərəst kitablarına mənfi münasibət bəsləyirdi, o, həddən ziyadə dindar xristiandı. Deyilənə görə o, bu kitablardan öz hamamlarında yanacaq kimi istifadə edirdi.

Ərəblər hər iki tərəfə, şərqə və qərbə doğru hərəkəti davam etdirirdilər. Şərqdə Heratı, Kabili və Bəlxi zəbt edən ərəblər gəlib Hind çayına və Sində çatmışdılar. Amma bundan o tərəfə, Hindistana doğru getmədilər. Bir neçə əsr ərzində hind hakimləriylə yaxın dostluq münasibətləri saxlayırdılar. Qərbdə isə yürüşlərini hey davam etdirirdilər. Deyilənə görə ərəblərin Əkba adlı sərkərdəsi bütün Şimali Afrikadan keçib, indi Mərakeş adıyla tanınan ölkənin qərb sahilindəki Atlantik okeanına gəlib çatır. O, qarşısına çıxan bu maneədən bərk pərt olur, atını dənizin içinə sürüb qadir Allaha üz tutaraq dərdini bəyan edərək deyir: Bu tayda daha torpaq qalmayıb ki, Allah naminə onu fəth edə biləm!

Ərəblər Mərakeşdən və Afrikadan yola düşərək dar boğaz vasitəsilə İspaniyaya və Avropaya üzüb keçirlər, qədim yunanlar bu boğaza Herkules qüllələri[1] deyirdi. Boğazdan adlayan ərəb sərkərdəsi

[1] Herkules qüllələri Avropa və Afrika sahillərində, Cəbəllütariq boğazı yanında iki dağ; qədim əfsanəyə görə, bu dağları qeyri-adi qüvvəyə malik, əfsanəvi yunan pəhləvanı Herkules (Herakl) ucaltmışdır; qədim yunanların təsəvvüründə Herkules qüllələri dünyanın son nöqtəsi olub (*tərcüməçinin qeydi*).

Cəbəllütariqin yaxınlığında sahilə çıxır; bu ad özündə onun xatirəsini hifz edir. Sərkərdənin adı Tariqdi; Cəbəllütariq elə əslində Cəbəl-ət-Tariq[1], yəni Tariq dağı adlanır.

İspaniyanı tezliklə fəth edən ərəblər Cənubi Fransaya sel kimi axışdılar. Beləliklə, görürük ki, Ərəb imperiyası Məhəmmədin ölümündən təqribən yüz il keçəndən sonra bütün Şimali Afrikadan tutmuş Cənubi Fransadan və İspaniyadan Süveyş kanalınadək, sonra Ərəbistandan, İrandan və Orta Asiyadan keçərək Monqolustan sərhədlərinədək olan bir sahəni tutur. Sind istisna olmaqla Hindistan Ərəb imperiyasına daxil deyildi. Ərəblər Avropaya iki tərəfdən hücum çəkmişdilər; birbaşa Konstantinopol üzərinə və Afrika vasitəsilə Fransa tərəfdən. Fransanın cənubundakı ərəblər sayca az idi və onların vətəni də çox uzaqlarda qalmışdı. Buna görə də onlar Orta Asiyanın istilasıyla məşğul olan Ərəbistandan kömək ala bilmirdilər. Amma buna baxmayaraq, ərəblərin Fransada olması Qərbi Avropa xalqlarının canına vəlvələ saldığından ərəblərə qarşı mübarizə aparmaqdan ötrü böyük bir koalisiya[2] yaradıldı. Koalisiyaya başçılıq edən Karl Martell 732-ci ildə Tur (Puatye) vuruşmasında ərəbləri məğlubiyyətə uğradıb Avropanı onların əlindən qurtardı. Bir tarixçi belə deyib: "Dünya üzərində ağalığa əlləri çathaçatda ərəblər Tur düzənliyində bu ağalığı itirdilər". Buna heç bir şəkk ola bilməz ki, əgər ərəblər Tur vuruşmasında qalib gəlsəydilər, Avropa tarixində çox böyük dəyişiklik baş verərdi. Avropada elə bir qüvvə qalmamışdı ki, ərəbləri dayandıra bilsin; onlar düz Konstantinopolun üzərinə yeriyərək Şərqi Roma imperiyasının, eləcə də yolları üstündəki digər dövlətlərin axırına çıxa bilərdilər. Xristianlığın əvəzinə Avropanın dini islam dini olardı və hər cürə digər dəyişikliklər baş verə bilərdi. Fəqət bu, ancaq xəyalın gücüdür. İş belə gətirdi ki, ərəblərin qarşısını Fransada aldılar. Hətta bu hadisədən sonra bir neçə yüz il ərəblər İspaniyada qalıb ölkədə hakimiyyət sürdülər.

Ərəblər İspaniyadan tutmuş Monqolustanadək hər yerdə qələbə şadlığı edirdilər, bu səhra köçəriləri çox böyük imperiyanın məğrur hakimlərinə çevrilmişdilər. Onlara sarasinlər deyirdilər; yəqin ki, bu,

[1] Cəbəl-ət-Tariq – rəvayətə görə 711-ci ildə ərəb sərkərdəsi Tariq ibn Zeyd öz ordusuyla zəbt etdiyi boğazın sahilində qala tikdirir. Bu qala 8 əsr qalır. Dağ kimi hündür olan qalaya ərəblər o zaman "Cəbəl", yəni "dağ" adı verirlər. Buna görə də həmin yerə Cəbəl-ət-Tariq, yəni "Tariqin dağ qalası" deyilir (*tərcüməçinin qeydi*).

[2] Koalisiya – latın sözüdür. Ümumi məqsədə çatmaq üçün könüllü əsaslarla birləşmə, ittifaq deməkdir (*tərcüməçinin qeydi*).



"səhra" və "nşin" sözlərindən əmələ gəlib; yəni – səhra sakini (*səhranişin*). Amma səhra sakinləri aradan çox keçməmiş cah-calala və şəhər həyatına uydular və şəhərlərində saraylar ucalmağa başladı. Uzaq ölkələrdə qazandıqları zəfərlərə baxmayaraq, öz aralarında dava salmaq kimi köhnə vərdişlərindən əl çəkə bilmirdilər. Söz yox, indi dava salmaq üçün səbəb vardı; axı, Ərəbistana başçılıq etmək böyük bir imperiya üzərində nəzarət deməkdi. Belə ki, kimin xəlifə olması üstündə tez-tez dava düşürdü. Xırda-para münaqişələr, ailə çəkişmələri də baş verirdi ki, bu da vətəndaş müharibəsiylə nəticələnirdi. Bu dava və çəkişmələr böyük təfriqəyə səbəb oldu, islamda iki təriqət – sünni və şiə təriqətləri əmələ gəldi ki, bu təriqətlər indiyəcən mövcuddur.

Dava və çəkişmə iki xəlifənin – Əbubəkr və Ömərin hakimiyyətindən sonra başladı. Fatmanın – Məhəmməd peyğəmbərin qızının əri Əli qısa müddətə xəlifə oldu. Amma toqquşmalar qurtarmaq bilmirdi. Əlini öldürdülər. Aradan bir qədər keçmiş oğlu Hüseyni ailəsiylə birlikdə Kərbəlada vəhşicəsinə qətlə yetirdilər. Müsəlmanlar, xüsusilə şiələr, hər il məhərrəm ayında məhz Kərbəla faciəsini bir matəm kimi qeyd edirlər.

Xəlifə indi mütləq hökmdar olmuşdu. Demokratiyadan və ya xəlifələrin seçkili olmasından heç əsər-əlamət də qalmamışdı. Xəlifə o dövrün mütləq hökmdarlarından heç bir cəhətdən fərqlənmirdi. Nəzəri cəhətdən o, həm də bir din başçısı, bütün möminlərin hökmdarı (əmirəlmöminin) olaraq qalmaqda idi. Lakin bu hökmdarların bəziləri əslində İslam dininin başlıca müdafiəçiləri sayılsalar da, onlar bu dini müəyyən dərəcədə sıxışdırırdılar.

Məhəmməd nəslinin bir qolundan olan və Əməvilər adıyla tanınan xəlifələr təqribən yüz il xilafəti idarə etdilər. Onlar Dəməşqi özlərinə paytaxt etdilər və bu qədim şəhəri qəsrlə, məscidlə, fəvvarələrlə, pavilyonlarla bəzədilər. Dəməşq özünün su kəməri ilə şöhrət tapmışdı. Həmin dövrdə ərəblər memarlıqda sarasin adıyla (Mavritaniya) məşhur olan ayrıca üslub yaratmışdılar. Sarasin üslubunda bəzəyə yer verilmir. Bu üslub ciddi və gözəl üslubdur, insana güclü təsir bağışlayır. Həmin üslubu yaratmaq fikri ərəb və Suriya palmasının incə görkəmindən doğmuşdu. Tac və sütun, minarə və günbəz, palma meşəciyinin tağlı və qübbəşəkilli formasını andırır.

Sarasin üslubu Hindistana gəlmişsə də, burada hind ideyaları təsiri altında qarışıq üslub şəklində inkişaf etmişdir Mavritaniya memarlığının bəzi ən yaxşı nümunələri İspaniyada hələ də qalmaqdadır.

Var-dövlət və dünya üzərində hakimiyyət özüylə cah-calal və ona münasib oyun və əyləncə gətirdi. Ərəblərin sevimli əyləncəsi at çapmaq, eləcə də polo[1] və şahmat idi. Musiqi və xüsusən nəğmə dəbdə olan əyləncə növü olduğundan paytaxtda xanəndələr çox idi; xanəndələrin ətrafı daim pərəstişkarlarla və müftəxorlarla dolu olardı.

Tədricən acınacaqlı da olsa, daha bir böyük dəyişiklik görünməyə başladı. Bu dəyişiklik qadınların vəziyyətinə aid idi. Ərəb qadınları çadra örtmək adətinə əməl etmirdilər. Onları heç kəs gizlətmirdi və dustaq olmağa vadar etmirdi. Onlar cəmiyyət arasına sərbəst çıxır, ünsiyyət saxlayır, məscidə gedir, açıq qiraətlərdə iştirak edir və hətta mühazirə belə oxuyurdular. Lakin qazanılan müvəffəqiyyət ərəbləri vadar edirdi ki, onları əhatə edən iki qədim imperiyanın – Şərqi Roma və İran imperiyasının adətlərini təqlid etsinlər. Ərəblər Şərqi Roma imperiyasını məğlubiyyətə uğratmışdılar, İran imperiyasının varlığına son qoymuşdular. Bununla belə, bu imperiyaların bir çox qüsurları qarşısında özlərini saxlaya bilməmişdilər. Deyildiyinə görə, ərəb qadınlarının dustaq vəziyyətində qalması başlıca olaraq Konstantinopolun göstərdiyi təsirin nəticəsidir. Tədricən hərəmxana sistemi təşəkkül tapmağa başladı, kişi və qadınların sosial cəhətdən ünsiyyət saxlaması get-gedə nadir hala çevrildi. Bədbəxtlikdən, qadınların dustaq vəziyyəti müsəlman cəmiyyətinin səciyyəvi xüsusiyyətinə çevrildi. Müsəlmanlar Hindistana gələrkən, hindlilər də müsəlmanlardan bu xüsusiyyəti götürdülər. Məni heyrətə salan odur ki, bəzi adamlar bu vəhşiliyə hələ də göz yumurlar. Mən dustaq vəziyyətində, xarici aləmdən ayrılıb pərdə arxasında gün keçirən qadınların halını düşünəndə hər dəfə yadıma ya həbsxana, ya da heyvanxana düşür! Əhalisinin yarısı bir növ həbsxanaya salınan millət necə irəli gedə bilər?

Xoşbəxtlikdən, Hindistan bu pərdəni tez cırıb atır. Hətta müsəlman cəmiyyəti belə bu dəhşətli ağır yükdən xeyli dərəcədə xilas ola bilib. Türkiyədə Kamal paşa buna tamamilə son qoydu, Misirdə isə bu iş sürətlə qabağa getməkdədir.

Məktubumu qurtarmazdan əvvəl bir məsələni də deyim. Özlərinin dirçəliş çağının xüsusən əvvəllərində ərəblərin qəlbi iş görmək həvəsiylə və etiqadla coşub-daşırdı. Bununla belə onlar özgə dinlərə dözürdülər, din məsələlərində onların dözümlü olmasına dair xeyli misal çəkmək olar. Yerusəlimdə xəlifə Ömər buna ayrıca diqqət yetirirdi.

[1] **Polo** – at belində oynanan top oyunu (*tərcüməçinin qeydi*)



İspaniyada çoxlu xristian əhalisi vardı ki, tam vicdan azadlığı hüququna malik idi. Sind istisna olunmaqla ərəblər Hindistanda heç vaxt hakimiyyət sürməyiblər. Amma ərəblərlə sıx əlaqə saxlanılırdı, dostluq münasibətləri vardı. Əlbəttə, müsəlman ərəblərin başqa dinlərə dözməsiylə Avropadakı xristianların başqa dinlərə dözməməsi arasındakı təzad tarixin həmin mərhələsinin ən diqqətəlayiq cəhəti idi.

## BAĞDAD VƏ HARUN ƏR-RƏŞİD

*27 may 1932-ci il*

Gəl başqa ölkələrə üz tutmamışdan qabaq ərəblər haqqında hekayətimizi davam etdirək.

Məhəmməd peyğəmbərin nəslinə mənsub Əməvilər ailəsinin üzvləri təqribən yüz il xəlifəlik ediblər. Məmləkəti Dəməşqdən idarə edən Əməvilər dövründə müsəlman ərəbləri hər yerdə islam bayrağı altında hərəkət edirdilər. Uzaq ölkələrdə zəfər çalan ərəblər öz vətənlərində bir-birilə çəkişirdilər. Bunun da nəticəsində tez-tez vətəndaş müharibəsi baş verirdi. Axır əməvilər Məhəmməd nəslinin o biri qolu tərəfindən devrilmiş oldu; Məhəmməd nəslinin bu qolu peyğəmbərin əmisi Abbasdan başladığı üçün, ona Abbasilər deyilirdi. Abbasilər Əməvilərdən törətdikləri vəhşiliyin intiqamını alıb qalib gəldikdən sonra qəddarlıqda və qan tökməkdə özləri Əməviləri ötüb keçmişdilər. Onlar Əməvilərdən əllərinə keçənləri vəhşicəsinə qırırdılar.

Beləliklə, Abbasi xəlifələrinin uzun sürən hakimiyyəti 750-ci ildən qan tökməklə başlandı. Abbasilərin xəlifəliyə başlaması çox xoşbəxt və münasib olmasa da, bununla belə, Abbasilərin xilafəti idarə etməsi dövrünü ərəb tarixində parlaq dövr hesab etmək olar. Amma Əməvilər dövründən bəri böyük dəyişikliklər baş vermişdi. Ərəbistanda vətəndaş müharibəsi bütün ərəb imperiyasını sarsıtmışdı. Abbasilər öz vətənlərində vətəndaş müharibəsində qalib gəlsələr də, uzaq İspaniyada Əməvilərə mənsub ərəb hakimi Abbasi xəlifəsini tanımaqdan imtina etdi. Şimali Afrika və ya İfrikiya vitsekrallığı deyilən krallıq da bu əhvalatın üstündən çox keçməmiş az-çox müstəqil oldu. Misir də belə hərəkət etdi, bundan əlavə işi o yerə çatdırdı ki, taxtda yeni xəlifə oturtdu. Misir o qədər yaxında idi ki, onu təhlükə altına alıb zorla tabe etdirmək olardı.

Arabir elə bu cür də hərəkət edirdilər. Amma İfrikiyanın işlərinə qarışmırdılar. İspaniya isə çox uzaqlarda olduğundan ona qarşı bir iş görə bilməzdilər. Beləliklə, biz görürük ki, Abbasilərin hakimiyyət başına gəlməsindən sonra Ərəb imperiyası parçalandı. Xəlifə daha bütün müsəlman aləminə başçılıq etmirdi, artıq o, "əmirəlmöminin" deyildi. İslam dini daha vahid deyildi, ispan ərəbləri və Abbasilər isə bir-birinə o dərəcədə ədavətli münasibət bəsləyirdilər ki, hətta biri digərinin uğursuzluğuna sevinirdi.

Bütün bunlara baxmayaraq, Abbasi xəlifələri böyük hökmdar olublar və imperiyaları da böyükdü. İmperiyalar adətən böyük olur. Daha əvvəlki etiqad, cəsarət və çeviklik yox idi; bu etiqad və cəsarət vaxtilə dağları aşardı, çöldə baş verən yanğıntək sürətlə yayılardı. Sadəlik aradan getmiş, demokratiyadan az əlamət qalmışdı, daha əmirəlmöminin İranın şahlar şahından (şahənşahdan), yəni keçmiş ərəb nəsillərinin məğlubiyyətə uğratdığı şahdan, ya da Konstantinopol imperatorundan demək olar ki, heç bir cəhətdən fərqlənmirdi. Məhəmməd peyğəmbərin dövründə yaşayan ərəblər son dərəcə qətiyyətli və qüvvətli idilər. Bu cəhətdən onlar şah qoşunlarından keskin surətdə fərqlənirdilər. O dövrdə ərəblər ətraflarındakı aləmdən seçilirdilər: qarşısıalınmaz sürətlə irəliləyirdilər. Qarşılarına çıxan qoşunlar və hökmdarlar onlara müqavimət göstərə bilmirdi. Camaat öz padşahlarının əlindən cana gəlmişdi, ərəblərin gəlişi isə, deyəsən, müsbət dəyişiklik və sosial inqilab vəd edirdi.

İndi hər şey dəyişmişdi. Səhra əhlinin həyatı qəsrlərdə keçirdi; indi o, xurma əvəzinə ləziz yeməklər yeyirdi. Onlar yerlərini yaxşıca rahatlamışdılar. Sosial inqilab sarıdan niyə narahat olmalıydılar ki? Onlar cah-calalda qədim imperiyaları geridə qoymağa cəhd edirdilər. İndi səhra əhli o imperiyaların bir çox pis adətini götürmüşdü. Bu adətlərdən biri də, bayaq dediyim kimi, qadınların dustaq halında qalmasıydı.

İndi paytaxt Dəməşqdən İraqdakı Bağdada köçürülmüşdü. Bağdad İran şahlarının yay iqamətgahı olduğundan paytaxtın oraya köçürülməsi diqqətəşayan bir hadisə idi. Həm də Bağdad Avropadan Dəməşqə nisbətən uzaqda olduğundan Abbasilərdə Avropadan daha çox Asiyaya meyil vardı. Doğrudur, Konstantinopolu elə keçirmək üçün dəfələrlə cəhd göstərilərək, Avropa millətlərilə çoxlu müharibə aparılsa da, bu müharibələrin əksəriyyəti müdafiə xarakterli idi. Qələbə günləri, görünür, keçmişdə qalmışdı, odur ki, Abbasi xəlifələri imperiyanın hələ də



onların torpaqlarında qalan hissəsini möhkəmlətməyə çalışırdılar. İmperiyanın həmin hissəsi elə İspaniyasız və Afrikasız da xeyli böyük idi.

Bağdad! Yadındadırmı o? Harun ər-Rəşid, Şəhrizad, ecazkar "Min bir gecə" nağılları! Abbasi xəlifələri dövründə ucalan şəhər, "Min bir gecə"nin vətəni olan şəhər! Bura qəsrləri, ictimai müəssisələri, məktəb və kollecləri (mədrəsələri), iri-iri mağazaları, park və bağları olan böyük bir şəhərdi. Tacirlər həm Şərqlə, həm də Qərblə çox geniş ticarət aparırdılar. Dəstə-dəstə hökumət məmurları imperiyanın uzaq diyarlarıyla daimi əlaqə saxlayırdılar. Dövlətin idarə olunması get-gedə çətinləşdiyindən hökumət bir çox departamentlərə bölünmüşdü. Səmərəli işləyən poçt xidməti paytaxtı imperiyanın bütün guşələriylə əlaqələndirirdi. Xəstəxana da çox idi. Dünyanın hər yerindən Bağdada gələrdilər, ən çox da alimlər, tələbələr, rəssamlar gələrdilər. Çünki hamı bilirdi ki, bütün savadlıları, mahir rəssamları xəlifə qonaqpərvərliklə qəbul edir.

Dörd bir yanında qul olan xəlifə özü böyük cah-calal içində yaşayırdı, arvadları isə hərəmxanada qalırdı. 786-809-cu illərdə xəlifəlik edən Harun ər-Rəşid dövründə Abbasilər imperiyası özünün şan-şöhrətinin ən yüksək zirvəsinə çatmışdı. Harunun hüzuruna Çin imperatoru adından və Qərbdən imperator Böyük Karl adından səfirliklər gələrdi. Bağdad və Abbasi torpaqları o dövrlərdə həm dövləti idarə etməkdə, həm ticarətdə, həm də təhsili inkişaf etdirməkdə, ərəb İspaniyasını çıxmaq şərtiylə, Avropanı çox geridə qoymuşdu.

Abbasilər dövründə elmin əhəmiyyəti artmağa başladığından o dövr bizim üçün xüsusilə maraqlıdır. Bildiyin kimi, elm müasir dövrdə böyük yer tutur, buna görə biz ona çox borcluyuq. Elm heç vaxt bir yerdə durmur, nəyinsə baş verəcəyini oturub gözləmir. Hadisələrin səbəbini aydınlaşdırmağa çalışır. Təcrübə aparır, hər şeyi dönə-dönə sınayır, hərdən müvəffəqiyyətsizliyə uğrayır, hərdən müvəffəqiyyət qazanır, bu yolla da addımbaaddım bəşəriyyətin biliyini genişləndirir. Müasir dünyamız qədimlərdəki və ya orta əsrlərdəki dünyadan çox fərqlənir. Bu böyük fərqləri doğuran əsasən, elmdir, axı, müasir dünyanın özünü də yaradan elmdir.

Bizim qədim dövr adamlarının məsələyə elmi cəhətdən yanaşmasını görmürük: nə Misirdə, nə Çində, nə də Hindistanda. Təkcə Qədim Yunanıstanda biz bunu azca görürük. Romada belə münasibət yenidən itib-getmişdi. Lakin ərəblərdə elmi tədqiqat ruhu güclü olduğundan

onları müasir elmin atası hesab etmək olar. Təbabət və riyaziyyat kimi bəzi sahələrdə onlar Hindistandan çox şey öyrənmişdilər. Bağdada riyaziyyatçı alim çox gəlirdi. Şimali Hindistandakı Takşaşilaya çoxlu ərəb tələbəsi gedirdi. Takşaşila təbabət sahəsində ixtisaslaşmış bir universitet kimi yenə də məşhur idi. Təbabətə və digər elm sahələrinə dair sanskritcə yazılmış kitablar ərəb dilinə xüsusi olaraq tərcümə edilirdi. Ərəblər çox şeyi, məsələn, kağız istehsal etməyi Çindən öyrənmişdilər. Amma özgələrindən əxz etdikləri bilik əsasında öz tədqiqatlarına başlayıb bir sıra mühüm kəşflər etmişdilər. İlk teleskopu və ilk dəniz kompasını ixtira edən də ərəblər olub. Ərəb həkimlərinin və cərrahlarının şöhrəti bütün Avropaya yayılmışdı.

Bütün bu zehni fəaliyyətin ən böyük mərkəzi, əlbəttə ki, Bağdad idi. Başqa bir mərkəz, Qərbdə ərəb İspaniyasının paytaxtı olan Kordova şəhəriydi. Ərəb dünyasında bir çox başqa universitet mərkəzləri də mövcud idi; zehni həyatın coşub qaynadığı bu elm mərkəzləri sırasında Qahirə və ya əl-Qahirə (Müzəffər), Bəsrə və Kufə şəhərləri də vardı. Amma bütün bu məşhur şəhərlər içərisində ən görkəmlisi Bağdad idi; bir ərəb tarixçisinin təsvir etdiyi kimi, "İslamın paytaxtı, İraqın göz bəbəyi, padşahlığın taxt-tacı, gözəllik, mədəniyyət və incəsənət mərkəzi" olan Bağdad! Əhalisi iki milyondan çox idi. Bağdad müasir Kəlküttədən və ya Bombeydən də qat-qat böyük şəhərdi.

Bilsən ki, corab və gödək corab geymək adəti, deyilənə görə, Bağdadın varlı sakinləri arasında yaranıb, yəqin ki, sənə maraqlı gələr. Coraba "moza" deyirdilər və corabın hindustani dilində mənasını bildirən sözün mənşəyi ehtimal ki, həmin sözdəndir. Eləcə də fransız sözü "*chemise*" "*kamis*" – köynək sözündəndir. *Kamisi* də, *mozanı* da Konstantinopoldakı bizanslılar ərəblərdən götürüblər, həmin sözlər oradan da Avropaya yayılıb.

Ərəblər həmişə böyük səyyah olmuşlar. Onlar uzaq dəniz səfərlərini davam etdirərək, Hindistan sahili boyunca Afrikada, Malay ölkələrində və Çində koloniyaların əsasını qoyurdular. Məşhur ərəb səyyahlarından biri əl-Biruni olub; o, Hindistan səfəri zamanı Syuan Tszan kimi özünün səyahətnaməsini yazıb.

Həm də tarixçi olan ərəblər haqqında biz onların özləri tərəfindən yazılmış kitablardan və əhvalatlardan çox şey bilirik. Ərəblərin gözəl hekayə və romanlar yazması da hamımıza yaxşı məlumdur. Dünyada minlərlə adam var ki, Abbasi xəlifələri və onların imperiyaları haqda heç



nə eşitməsə də, "Əlf leyla və leyla" Bağdadından, "Min bir gecə" Bağdadından, sirlər və macəralar şəhərindən xəbəri var. Xəyali imperiyalar bəzən həqiqi imperiyalardan daha gerçək və uzunömürlü olur.

Harun ər-Rəşidin ölümündən çox keçməmiş Ərəb imperiyasının çətinlikləri başlandı. Hərc-mərclik baş verirdi, bəzi ölkələr imperiyadan qopub ayrılmışdı, əyalət valiləri irsi hakimlərə çevrilmişdilər. Xəlifələr get-gedə elə iqtidardan düşdülər ki, hakimiyyətləri altında təkcə Bağdad və bir neçə ətraf kənd qaldı. İş o dərəcəyə çatdı ki, hətta xəlifələrdən birini öz əsgərləri saraydan sürüyə-sürüyə çıxardıb öldürmüşdü. Bundan sonra Bağdadda xəlifələrin onlardan asılı olduğu qüdrətli adamlar bir müddət hakimiyyət sürmüşdülər.

Bu ara islamın birliyi uzaq keçmişdə qaldı. Misirdən tutmuş ta Xorasanadək Mərkəzi Asiyada hər yanda müstəqil padşahlıqlar yaranmağa başladı. Şərqdən uzağa doğru əyalətlərdə yaşayan köçəri tayfalar isə əvvəllərdə olduğu kimi qərbə tərəf hərəkət edirdi. Mərkəzi Asiyanın qədim türk tayfaları dönüb müsəlman olmuşdular. Həmin tayfalar gəlib Bağdadı ələ keçirdilər. Onlar səlcuq türkləri kimi məşhurdular. Bu tayfalar Konstantinopolun Bizans ordusunu tamamilə darmadağın etməklə, Avropanı heyrətdə qoydular. Avropada belə zənn edirdilər ki, ərəblərin və müsəlmanların qüvvəsi tükəndiyi üçün onlar get-gedə tamam zəifləyib əldən düşürlər. Doğrudur, ərəblər böyük tənəzzül içində idilər. Amma indi səlcuq türkləri gəlmişdi ki, islam bayrağı altında Avropaya meydan oxusunlar.

Sonralar görəcəyik ki, səlcuq türklərinin meydan oxuması müqabilində Avropanın xristian millətləri müsəlmanlara qarşı çarpışmaq və özlərinin müqəddəs şəhəri olan Yerusəlimi vuruşa-vuruşa geri almaq üçün səlib yürüşləri[1] təşkil etmişdilər. Xristianlıq və islam Suriyada, Fələstində və Kiçik Asiyada hakimiyyət uğrunda yüz ildən artıq mübarizə aparmışdı. Onlar bir-birlərini taqətdən salaraq, həmin ölkələrin hər qarış torpağını insan qanıyla suvarmışdılar. Əvvəllər çiçəklənib boy atan şəhərlər indi ticarətdən məhrum olub keçmiş əzəmətini itirmişdi, zəngin torpaq sahələri isə bomboş düzənliyə çevrilmişdi. Onlar bu minvalla döyüşməyi davam etdirirdilər. Onların davası davam etdiyi bir zamanda Asiyanın o biri başında, Monqolustanda Çingiz xan meydana çıxmışdı;

[1] Səlib yürüşləri – (səlib, ərəbcə – xaç) Qərbi Avropa feodallarının Yaxın Şərqə hərbi yürüşləri. Onlar hərbi yürüşdə iştirak edəcəklərinə andiçmə əlaməti olaraq öz geyimlərinə xaç nişanı tikərdilər (*tərcüməçinin qeydi*).

onun barəsində belə deyirdilər: dünyanı sarsıdan monqol. O, doğrudan da, bütün Asiyanı və Avropanı sarsıtdı. Çingiz xan və onun xələfləri Bağdadı imperiyaqarışıq diz çökdürdülər. Böyük və məşhur Bağdad şəhərinin varlığına monqollar son qoydular, yerində bir ovuc kül və toz qaldı; şəhərin iki milyonluq əhalisinin böyük bir qismi qılıncdan keçirildi. Bu hadisə 1258-ci ildə oldu.

Bağdad indi yenə çiçəklənən şəhərdir, o, İraqın paytaxtıdır. Amma o, keçmiş Bağdadın kölgəsidir, çünki şəhər monqolların vurduğu yaralardan sonra tamamilə özünə gələ bilməmişdi.

## ŞİMALİ HİNDİSTAN HARŞA İLƏ MAHMUD DÖVRÜ ARASINDA

*1 iyun 1932-ci il*

Gərək indi ərəblər və ya sarasinlər barəsindəki hekayətimizə ara verək və digər ölkələrə nəzər salaq. Ərəblərin getdikcə qüdrətləndiyi, ölkələr fəth etdiyi, ətrafa yayılıb sonra tənəzzülə uğradıqları bir vaxtda Hindistanda, Çində, eləcə də Avropa ölkələrində görəsən nələr baş verirdi? Az-çox nələr baş verdiyini ötəri də olsa gördük: 732-ci ildə Fransadakı Tur vuruşmasında Karl Martellin başçılıq etdiyi birləşmiş ordunun ərəbləri məğlubiyyətə uğratmasını; onların Orta Asiyanı fəth etməsini; Hindistana, Sində gəlişini. Gəl əvvəlcə Hindistana üz tutaq.

Kanauc hakimi Harşavardhana 648-ci ildə öldü; onun ölümü ilə Şimali Hindistanın siyasi cəhətdən parçalanması daha da gerçək oldu. Artıq neçə müddətdi ki, bu proses gedirdi, hinduizmlə buddizm arasındakı münaqişə isə həmin prosesin daha da inkişaf etməsinə səbəb olurdu. Harşanın hakimiyyəti dövründə bir müddət zahirən hər şey gözəl idi. Harşadan sonra şimalda əmələ gələn xırda dövlətlər gah qısa müddətdə məşhur olur, gah da aralarında ixtilaf baş verirdi. Maraqlıdır ki, hətta Harşanın ölümündən sonrakı üç yüz il ərzində incəsənət və ədəbiyyat çiçəklənmiş, bir çox gözəl ictimai binalar tikilmişdi. Həmin dövrdə sanskrit dilində yazan bir sıra məşhur bədii söz ustası, məsələn, Bhavabhuti və Racəsekhara kimi ədiblər yaşayırdı. Bir çox hökmdarlar ölkənin siyasi həyatında mühüm rol oynamasalar da, öz dövrlərində incəsənətin və elmin inkişafı sayəsində ad-san qazanmışdılar. Belə



hökmdarlardan biri olan racə Bhoca nümunəvi bir padşah kimi təqribən əfsanəvi surətə çevrilmişdi. Elə bu günün özündə də adamlar onu belə bir şəxs kimi xatırlayırlar.

Amma bu parlaq səhifələrə baxmayaraq, Şimali Hindistan süquta doğru gedirdi. Cənubi Hindistan yenidən irəli çıxıb Şimali Hindistanı kölgədə buraxırdı. Bu günlərdə sənə yazdığım məktublarımdan birində (44-cüsündə) cənub barədə az-çox danışmışdım: Çalukiyalar, Çolalar imperiyası haqqında Pallavlar və Raştrakutlar haqda, həmçinin Şankaraçarye haqqında da danışmışam. Sonuncu özünün qısa həyatında ölkənin hər yerində savadlılara da, savadsızlara da dərin təsir göstərmiş və Hindistanda buddizmə demək olar son qoymuşdu. Çox təəccüblüdür ki, o, buddizmə son qoyduğu bir vaxtda yeni bir din Hindistanın qapısını kəsdirib və sonralar o din istilaçılar axınıyla bərabər ölkəyə soxularaq, mövcud quruluşa meydan oxumuşdur.

Ərəblər hələ Harşanın sağlığında tezliklə Hindistanın sərhədlərinə gəlib çatdılar. Bir müddət dayandıqdan sonra Sindi ələ keçirdilər. 710-cu ildə ərəb ordusunun başında duran 17 yaşlı gənc Məhəmməd ibn Qasim Hind çayı vadisini Şərqi Pəncabdakı Multana qədər istila etdi. Bununla da Hindistanın ərəblər tərəfindən istilası dayandırıldı. Bəlkə də, ərəblər lazımi qüvvə sərf etsəydilər irəli gedə bilərdilər. Şimali Hindistan zəifləndiyindən bu iş çətin olmazdı. Həmin ərəblərlə qonşu hakimlər arasında xeyli toqquşma baş verməsinə baxmayaraq, Hindistanı istila etmək üçün mütəşəkkil cəhd göstərilmirdi. Beləliklə, Sindin istila edilməsinin siyasi cəhətdən mühüm əhəmiyyəti yox idi. Hindistanın müsəlmanlar tərəfindən istilası bir neçə əsr sonra baş vermişdi. Amma ərəblərin Hindistan xalqlarıyla əlaqələri mədəniyyət üçün dedikcə səmərəli olmuşdu.

Ərəblər cənubdakı hind hakimləriylə, xüsusən Raştrakutlarla dostluq əlaqəsi saxlayırdılar. Hindistanın qərb sahili boyunca səpələnən ərəblər öz məskənlərində məscidlər tikmişdilər. Ərəb səyyahları və tacirləri Hindistanın müxtəlif yerlərinə gəlib-gedirdilər. Takşaşiladakı və ya Taksiladakı şimal universitetinə xeyli ərəb tələbəsi gəlirdi. Bu universitet xüsusilə təbabət sahəsində ad çıxarmışdı. Belə deyirlər ki, Harun ər-Rəşid dövründə hind elmini Bağdadda yüksək qiymətləndirirdilər. Hind həkimləri xəstəxana və tibb məktəbləri təşkil etmək məqsədilə Bağdada gələrdilər. Riyaziyyata və astronomiyaya dair bir çox kitab sanskrit dilindən ərəb dilinə tərcümə olunmuşdu.

Beləliklə, ərəblər qədim hind-ari mədəniyyətindən çox şey götürmüşlər. Onlar habelə İranın ari mədəniyyətindən də çox şey əldə

etmişlər, az-çox da yunan mədəniyyətindən. Ərəblər demək olar yeni irq idilər, qüvvələrinin çiçəkləndiyi bir vaxtdı, ətraflarındakı qədim mədəniyyətlərin hamısından istifadə etmişdilər, çox şeyi də onlardan öyrənmişdilər; bunun əsasında da ancaq özlərinə məxsus bir şey – ərəb mədəniyyəti, Mavritaniya mədəniyyəti yaratmışdılar. Başqa mədəniyyətlərlə müqayisədə onların mədəniyyətinin ömrü qısa olsa da bu, orta əsr Avropasının zülməti şəraitində gur işıq saçan parlaq bir ömür idi.

Qəribə burasıdır ki, ərəblər hind-ari, fars və yunan mədəniyyətlərilə ünsiyyətdən çox faydalandıqları bir vaxtda, hindlilər, farslar və yunanlar ərəblərlə ünsiyyətdən az xeyir görürdülər. Bəlkə, bunu belə bir faktla izah etmək lazımdır ki, ərəblər gənc, əzmkar olduqları halda, başqaları tapdanmış yolla gedən, dəyişikliyə çox səy etməyən qoca irqlər olmuşdular. Maraqlı burasıdır ki, qocalıq bir şəxsə öz təsirini necə göstərirsə, görünür, xalqa və ya irqə də eləcə təsir göstərir – onları hərəkətdən qoyur, əqli və cismi çeviklikdən məhrum edir, dəyişiklikdən qorxan bir mühafizəkara çevirir.

Beləliklə, görürük ki, ərəblərlə neçə yüz il davam edən əlaqələr Hindistana əhəmiyyətli təsir göstərmədi, böyük dəyişikliyə səbəb olmadı. Amma bu uzun müddət ərzində Hindistan yeni din olan İslam dini haqqında bir təsəvvür almalıydı. Görünür, İslam dini o zaman etirazlara səbəb olmamış, hinduizmlə islam arasında heç bir ziddiyyət və ya çəkişmə yox idi. Bunları qeyd etmək maraqlıdır, belə ki, hər iki din arasında daha sonrakı dövrdə ixtilaf və çətinliklər baş vermişdi. Yalnız on birinci yüzillikdə, islam fateh rolunda əldə qılınc Hindistana gələrkən, özünə qarşı şiddətli etiraz doğurmuş və əvvəllərdə başqa dinlərə dözənlərin qəlbində kin və ədavət yaratmışdı.

Hindistanın üzərinə qılınc qaldıran adam Mahmud Qəznəvidi, o, od və ölüm saçmaq üçün gəlmişdi. İndi Qəznə Əfqanıstanda kiçik bir şəhərdir. X əsrdə Qəznə ətrafında dövlət təşəkkül tapmışdı. Orta Asiya dövlətləri rəsmən Bağdad xəlifəsinin hakimiyyəti altındaydılar, amma bayaq dediyim kimi, Harun ər-Rəşidin ölümündən sonra xəlifələrin hakimiyyəti zəiflədiyindən elə bir vaxt gəlib çatdı ki, imperiya bir sıra müstəqil dövlətlərə parçalandı. Biz indi elə həmin dövr haqqında danışırıq. Səbuktəgin adlı bir türk köləsi 975-ci ildə Qəznə və Qəndəhar rayonunda dövlətin əsasını qoymuşdu. O, Hindistana da basqın etmişdi. O vaxt Lahorun racəsi Caypal adlı bir şəxs idi. Caypal Səbuktəgin əleyhinə Kabil vadisinə çox təhlükəli yürüş etmiş və orada məğlub edilmişdi.



Mahmud atası Səbuktəginin varisi idi. O, mahir sərkərdə və gözəl süvari başçısıydı. Mahmud ildən-ilə Hindistana basqın edər, çapıb-talayar, öldürər, qayıdanda da özüylə külli miqdarda daş-qaş və çoxlu əsir aparardı; üst-üstə 17 dəfə basqın etmişdi ki, bundan da yalnız biri – Kəşmir üzərinə basqın uğursuz olmuşdu. Mahmud Hindistanın bütün şimal rayonlarını bərk dəhşətə gətirirdi. Pataliputraya, Mathuraya və Samnathaya da Mahmudun ayağı dəymişdi. Deyildiyinə görə, o, Sthaneşvaradan iki yüz min əsir və külli miqdarda sərvət aparmışdı. Lakin ələ keçirdiyi ən böyük xəzinə Samnathadakı xəzinə olub; yüz illərlə verilən qurbanlar buradakı ən iri məbədlərdən birinə toplanardı. Rəvayətə görə Mahmudun yaxınlaşdığını görən minlərcə adam məbədə sığınmış; ümid etmişdir ki, möcüzə baş verəcək – sitayiş etdikləri Allah onları qanadı altına alacaq. Amma az-az hallarda möcüzə baş verir, o da dindarların xəyalında; məbədə soxulan Mahmud oranı çapıb talan etmiş, bu zaman möcüzə gözləyən və ümidləri boşa çıxan əlli min adam həlak olmuşdu.

Mahmud 1030-cu ildə öldü. Bu zaman bütün Pəncab və Sind onun hakimiyyətinə tabe idi. Mahmud islamın böyük başçılarından biri hesab edilir. O, Hindistana İslam dinini yaymaq niyyətilə gəlmişdi. Müsəlmanların əksəriyyəti ona heyran qaldığı halda, hinduların əksəriyyəti ona nifrət edirdi. Doğrudan da o, çətin ki, dindar adam idi. Əlbəttə, o, müsəlman idi, amma yeri gələndə hər şeydən əvvəl o, döyüşçü idi, həm də gözəl döyüşçü! Hindistana gəlmişdi ki, oranı istila etsin, çapıb-talasın; bədbəxtlikdən, əsgərlər özləri də hansı dinə mənsub olub-olmamasından asılı olmayaraq belə hərəkət edirdilər. Demə o, Sindin müsəlman hakimlərini təhdid etmiş, hakimlər ona tabe olub bac-xərac verəndən sonra Mahmud onlara aman vermişdir. O, hətta Bağdad xəlifəsini belə öldürməklə hədələyərək, Səmərqəndi ona verməyi tələb etmişdir. Bax, buna görə də biz geniş yayılmış səhvə uymamalıyıq, Mahmudu bəxti gətirən bir əsgərdən başqa böyük şəxsiyyət hesab etməməliyik.

Mahmud Qəznəyə çoxlu hind memarı və inşaatçı gətirtdi. Orada yaraşıqlı bir məscid tikdirib adını da "Səma gəlini" qoydu. Onun çox xoşladığı bağ-bağça idi.

Mahmud Mathura haqda ötəri məlumat qoyub gedib; bu məlumatdan Mathuranın iri şəhər olduğu məlum olur. Mahmud Qəznədəki canişininə yolladığı namədə yazmışdı: "Burada (Mathurada) minlərcə bina var, elə bina ki, möminlərin etiqadı kimi möhkəmdir; bu şəhərə

milyonlarla dinar xerclenmeseydi çetin belə yaraşıqlı ola bilərdi; ikinci belə bir şəhər lap iki yüz ilə çətin tikilsin".

Mahmudun Mathuranı belə təsvir etməsini Firdovsinin əsərində görürük. Firdovsi Mahmudun dövründə yaşamış böyük İran şairidir. Ötənilki məktublarımdan birində Firdovsinin və onun şah əsəri olan "Şahnamə"nin adını çəkməyim yadındadır. Rəvayətə görə "Şahnamə" Mahmudun xahişiylə yazılmış, Mahmud hər beyt üçün Firdovsiyə bir qızıl dinar verəcəyini vəd etmişdi. Firdovsi, görünür, şeiri qısa və yığcam ifadə etməyin pərəstişkarı deyildi. Onun yazdığı əsər dedikcə uzun çıxmışdı. Firdovsi özünün minlərcə beytini Mahmuda təqdim edəndə, çəkdiyi zəhmət tərifəlayiq görülüb. Amma Mahmud zəhmət haqqını səxavətlə ödəyəcəyi barədə düşünmədən verdiyi vədə peşman olub: çalışıb ki, Firdovsiyə qədərindən xeyli az məbləğdə pul versin. Bunu görən şair bərk qəzəblənərək, zəhmət haqqından tamamilə imtina edib.

Biz Harşadan başlayaraq Mahmuda qədər böyük bir dövrü əhatə etdik və üç yüz əlli illik Hindistan tarixini bir neçə abzasda nəzərdən keçirdik. Zənnimcə, həmin dövr barədə çox maraqlı məlumat vermək olardı. Amma mən həmin tarix sahəsində səriştəsizəm, ona görə də az danışsam daha yaxşıdı. Mən sənə bir-birilə çarpışan, arabir də Şimali Hindistanda Pançala səltənəti kimi iri səltənətlərin əsasını qoyan müxtəlif padşahlar və hakimlər barədə az-çox danışa bilərdim; fələyin Kanauc şəhərinin başına açdığı oyunlardan – əvvəlcə Kəşmir hakimlərinin, sonra da Benqal (Benqaliya) hakiminin, daha sonralar isə Raştrakutların, yeni cənub hakimlərinin Kanauca basqınından və şəhəri müvəqqəti də olsa ələ keçirmələrindən söz aça bilərdim. Amma bu söhbətin faydası az olardı, sənin də fikrini dolaşdırardı.

Beləliklə, biz gəlib Hindistanın tarixində uzun bir fəslin axırına çatdıq. İndi yeni fəsil başlanır. Tarixi bölmələrə ayırmaq həm çətindir, həm də çox vaxt düzgün deyil. Tarix çaya bənzəyir, elə hey axdıqca, axır. Bununla belə tarix bir yerdə qərar tutmayıb dəyişildiyi üçün biz hərdən bir mərhələnin sonunu və digərinin başlanğıcını görə bilərik. Belə dəyişiklik qəflətən baş vermir, mərhələlər sezilmədən biri digərinə keçir. Hindistana gəldikdə isə, biz tarixin nəhayətsiz səhnə əsərində bir pərdənin axırına gəlib çatmışıq. Hinduizm dövrü deyilən dövr sona çatır; min illər boyu çiçəklənən hind-ari mədəniyyəti yeni bir qüvvəyə qarşı mübarizə aparmalı olur. Amma yadında saxla ki, bu dəyişiklik qəfil dəyişiklik deyildi, bu, yavaş-yavaş gedən bir proses



idi. İslam dini Şimali Hindistana Mahmudla birgə gəlmişdi. Hindistanın cənubu hələ uzun müddət müsəlman istilası görməmişdi, hətta Benqaliya belə iki yüz ildən də çox bir müddətdə müsəlmanların istilasının nə olduğunu bilmədi. Biz Hindistanın şimalında olan və özünün cəngavər rəşadətiylə sonrakı tarixdə məşhurlaşan Çitorun raceput tayfalarının bir yerə cəmlənmə mərkəzinə çevrildiyini görürük. Lakin müsəlman istilası dönmədən və labüdən genişlənməkdəydi və heç bir şəxsi mərdlik onun qarşısını ala bilməzdi. Şübhə yoxdur ki, qədim hind-ari Hindistanı süquta doğru meyil edirdi.

Yadellilərin və istilaçıların qarşısını almağa qabil olmayan hind-ari mədəniyyəti müdafiə mövqeyinə keçdi; qorunmaq xatirinə özünü xarici aləmdən ayırdı, əvvəllər çevikliyə malik olan kasta sistemini daha qəddar sistemə çevirərək donuq hala saldı, qadınların azadlığını məhdudlaşdırdı. Hətta kənd pançayatları da tədriclə dəyişilərək pis cəhətə meyil edirdi. Amma daha çalışqan xalq qarşısında geriləyərkən belə hind-ari mədəniyyəti o xalqa təsir edərək onu öz ənənələrinə cəlb etməyə cəhd göstərirdi. Həm də bu mədəniyyətin assimilyasiya qabiliyyəti çox böyük olduğundan öz istilaçılarının mədəni istilasını bir növ həyata keçirmiş oldu.

Yadında saxla ki, mübarizə hind-ari mədəniyyətiylə yüksək mədəniyyətli ərəblər arasında getmirdi. Mübarizə tənəzzül keçirən mədəni Hindistanla Mərkəzi Asiyanın bu yaxınlarda İslam dinini qəbul etmiş yarımmədəni xalqları arasında – əsasən köçəri xalqlar arasında gedirdi. Bədbəxtlikdən, İslam dini Hindistanda mədəniyyətin yoxluğu və Mahmudun basqınlarının dəhşətləri haqqında təsəvvürlərlə qovuşduğundan ona kəskin münasibət artırdı.

## AVROPA ÖLKƏLƏRİNİN TƏŞƏKKÜLÜ

*3 iyun 1932-ci il*

Əzizim, bəlkə indi Avropaya yollanaq? Biz axırıncı dəfə orada olarkən pis vəziyyətdəydi. Romanın süqutu Qərbi Avropada mədəniyyətin süqutu demək idi. Şərqi Avropanın Konstantinopolun hakimiyyəti altında olan hissəsi istisna edilməklə onun vəziyyəti daha pis idi. Qitənin bir xeyli hissəsində nə vardısa hamısını hunn Attila yandırıb dağıtmışdı.

Amma Şərqi Roma imperiyası tənəzzülə uğrasa da, tab gətirərək hətta arabir bacarığını da nümayiş etdirirdi.

Romanın süqutu nəticəsində Qərbdə əmələ gələn sarsıntılardan sonra yeni qaydalar təşəkkül tapmağa başladı. Amma bu qaydalar qəti surətdə təşəkkül tapınca, aradan uzun müddət keçdi. Bununla belə nəzərdə tutulan struktur artıq sezilirdi. Xristianlıq bəzən dünyaya xeyir-dua ilə gələn müqəddəslərinin köməyilə, bəzən də hərbçi kralların qılıncının zoruna yayılır. Yeni-yeni krallıqlar əmələ gəlir. Franklar (onları fransızlarla hələlik qarışdırmaq lazım deyil) 481-ci ildən 511-ci ilə qədər hakimiyyət sürən Xlodviqin hökmranlığı altında Fransa, Belçika ərazisində və Almaniyanın bir hissəsində krallıq yaratmışdılar. O, Merovinqlər sülaləsinin nümayəndəsiydi, babası Xlodviqin adıyla belə adlanırdı. Lakin bu sülalədən olan krallar öz saraylarının vəzifəli şəxsi – mayordomu (sarayı idarə edən şəxs) tərəfindən tezliklə arxa cərgəyə sıxışdırıldı. Bu mayordomlar böyük qüdrət əldə etdikləri üçün onların vəzifəsi də irsi olur. Əsil hakimlər onlardı, kral deyilən şəxs isə olsa-olsa bir oyuncaq idi.

Fransadakı böyük Tur vuruşmasında 732-ci ildə ərəbləri məğlubiyyətə uğratmış Karl Martell bu mayordomlardan biriydi. Bu qələbəylə o, sarasin işğalı dalğasının qarşısını aldı və xristianların nəzərində Avropanı xilas etdi. Bu qələbə sayəsində onun nüfuzu və hörməti çox artdı. Karl Martellin şəxsində xristianlığın düşmənlərindən onun müdafiəçisini görürdülər. O zaman Roma papaları Konstantinopol imperatorlarıyla pis münasibətdə idilər. Buna görə də onlar Karl Martelldən kömək ummağa başladılar. Karlın oğlu Pipin taxtı tutan oyuncaq kralı hakimiyyətdən kənar edərək özünü kral elan etmək qərarına gələndə, söz yox, papa həvəslə öz razılığını vermişdi.

Böyük Karl Pipinin oğlu idi. Yenidən çətin vəziyyətə düşən Roma papası böyük Karlı köməyə çağırdı. Karl gəlib papanın düşmənlərini qovdu. 800-cü ildə Milad günündə isə baş kilsədə təntənəli mərasim oldu; bu mərasimdə papa Karlın başına Roma imperatorunun tacını qoydu. Həmin gün Müqəddəs Roma imperiyasının başlanğıcı qoyulmuş oldu ki, bu barədə sənə bir dəfə yazmışdım.

Bu, qəribə imperiya idi; imperiyanın tarixi isə ondan da qəribəydi: imperiya yavaş-yavaş yox olurdu. "Alisa möcüzələr diyarında" əsərində təsvir edilən pişik kimi; imperiya özündən sonra təbəssümdən başqa, heç bir cismani əlamət qoymadan əldən çıxırdı. Amma bu



əhvalat hələ sonralar olmalıydı, ona görə gəl indidən gələcəyə boylanmayaq.

Müqəddəs Roma imperiyası köhnə Qərbi Roma imperiyasının davamı deyildi, nə isə başqa bir şey idi. Müqəddəs Roma imperiyası özünü baş hərflə yazılan İmperiya sayırdı, onun imperatoru isə, bəlkə, Roma papası istisna olmaqla bütün dünyanın hökmdarı idi. Birincilik üstündə imperatorla papa arasında yüz illər boyu mübahisə gedirdi. Amma bu mübahisə də sonralar baş vermişdi. Burasını qeyd etmək maraqlıdır ki, həmin yeni imperiya qədim Roma imperiyasının ən qüdrətli dövrünün, yəni Romanın dünya ağası adlandırıldığı dövrün dirçəlməsi hesab olunurdu. Amma bunun üzərinə yeni bir ideya da, yeni xristian dini və xristian dünyası ideyası da əlavə olunmuşdu. Məhz buna görə də imperiya "Müqəddəs" adlanırdı. Roma papası kimi, imperator da Allahın yer üzündə bir növ canişini hesab olunurdu. İmperator siyasi işlərlə, Roma papası isə ruhani işlərlə məşğul olurdu. Hər halda ideya özü belə idi; zənnimcə, kralların ilahi hüququ ideyası da Avropada məhz o ideyadan doğmuşdu. İmperator dinin müdafiəçisi idi. İngilis kralına elə indi də "din müdafiəçisi" kimi yüksək ad verilməsini bilmək sənin üçün maraqlı olar.

Sən bu imperatoru xəlifəylə – möminlərin əmiri adlanan xəlifəylə müqayisə elə. Əvvəlcə xəlifə bir simada doğrudan da həm imperatordu, həm papa. Sonralar görəcəyik ki, o, yalnız kağız üzərində adı olan başçıya çevrilib.

Söz yox, Konstantinopol imperatorları Qərbdə bu yeni "Müqəddəs Roma imperiyası"nın əmələ gəlməsini əsla bəyənmirdilər. Böyük Karlın başına imperator tacı qoyulan zaman İrina adlanan bir qadın Konstantinopolda özünü imperatriçə elan etmişdi. Bu həmin o qadındı ki, imperatriçə olmaq xətrinə öz oğlunu öldürmüşdü. Həm də onun dövründə işlər çox pis gedirdi. Bu, Roma papasının Böyük Karlın başına tac qoyandan sonra Konstantinopolla əlaqəni kəsməyi qət etməsinin səbəblərindən biriydi.

Böyük Karl bundan sonra Qərb xristianlarının başçısı, Allahın yer üzündə canişini, Müqəddəs Roma imperiyasının imperatoru oldu. Bəh, bəh, nə yaxşı təmtəraqlı sözlərdir! Amma təmtəraqlı olsa da, xalqı azdırır və yuxuya verərək nəticədə öz məqsədinə çatır. Allahı və dini köməyə çağıran hakimiyyət xalqı axmaq yerinə qoymağa və öz qüdrətini möhkəmləndirməyə dəfələrlə cəhd göstərmişdi. Kral, imperator və baş

keşiş orta səviyyəli adamın gözündə adi həyata yabançı olan xəyali mövcudata, az qala Allaha çevrilir. Bu əsrarəngizlik onlarda qorxu doğurur. Sarayların müəmmalı ədəb qaydalarını, mərasimini məbədlərin və kilsələrin sitayiş tələb edən ayinləriylə müqayisə elə. Sarayda da, kilsədə də gərək ciddi təzim edəsən, diz çökəsən, üzüqoylu yerə səriləsən – başını yerə toxundurasan, çinlilər deyən kimi: *kov-towing*. Bizi lap erkən çağlarımızdan müxtəlif qiyafəli hakimiyyətə təzim etməyə alışdırırlar. Bu, məhəbbətdən deyil, qorxudan edilən ibadətdir.

Böyük Karl Bağdaddakı Harun ər-Rəşidin müasiri olub. Onunla yazışardı, həm də – burasına diqqət elə: Şərqi Roma imperiyasına və habelə İspaniyadakı sarasinlərə qarşı birgə mübarizə aparmaq üçün onunla ittifaq bağlamağı belə təklif etmişdi. Görünür, bu təklif nəticəsiz qalmışsa da, hökmdarların və siyasətçilərin təfəkkür xarakterini işıqlandırıb üzə çıxarır. Bircə "Müqəddəs" imperatoru, xristianlığın başçısını, xristian dövlətinə qarşı, eləcə də ərəb dövlətinə qarşı Bağdad xəlifəsiylə birləşən başçını xəyalına gətirsən kifayətdir. Bağdadın Abbasilər xilafətini tanımaqdan imtina edən ispan sarasinləri gərək yadında ola. Sarasinlər müstəqilliyə çıxmışdılar, buna görə də onlardan narazı qalmaq üçün Bağdad xəlifəsinin əlində əsas vardı. Amma sarasinlər uzaqda olduğundan onlara qarşı hərbi əməliyyat aparmaq mümkün deyildi. Konstantinopolla Böyük Karlın arasındakı münasibət heç də mehriban münasibət deyildi. Bu işdə silahlı mübarizə aparmaq üçün məsafə də əngəl törədirdi. Halbuki başqa xristian və ərəb dövlətlərinə qarşı mübarizə aparmaqdan ötrü həm xristianlara, həm də ərəblərə birləşmək təklif edilirdi. Kralların cidd-cəhdlə gizlətdikləri əsil səbəb özlərinin qüdrətini, hakimiyyətini və sərvətini artırmaq istəyiydi; həm də kralların bu məqsədi tez-tez dini pərdəylə ört-basdır edilirdi. İş hər yanda beləydi. Mahmudun din naminə Hindistana gəldiyini, amma dindən özünün tamahkar məqsədi üçün istifadə etdiyini əvvəllər görmüşdük. Dini şüarlar özünə çox vaxt haqq qazandırırdı.

Amma adamların əqidəsi əsrlərdən əsrlərə dəyişildiyinə görə, qədim dövrlərdə yaşayanlar barədə mühakimə yürütmək bizə çətindir. Gərək bunu yadda saxlayaq. Bu gün bizə bəlli görünən çox şey onlara qəribə görünə bilərdi, onların vərdişləri və fikir tərzi isə bizə qəribə görünə bilərdi. Adamlar yüksək ideallardan, Müqəddəs imperiyadan, Allahın canişinindən, İsanın canişini sayılan Roma papasından danışırdılar, halbuki Qərbdə vəziyyət son dərəcə pis idi. Böyük Karlın imperatorluğu



dövrü başa çatandan çox keçməmiş İtaliyada və Romada vəziyyət biabırçı hal almışdı. Kişilərdən və qadınlardan ibarət iyrənc bir dəstə Romada ağıllarına gələni edir, papaları vəzifəyə qoyub, vəzifədən çıxarırdılar.

Məhz Roma imperiyasının süqutundan sonra Qərbi Avropada hökm sürən ümumi hərc-mərclik çoxlarını belə düşünməyə vadar edirdi ki, imperiyanın dirçəldilməsi vəziyyəti yaxşılaşdıra bilər. Bundan əlavə, imperatorun seçilməsi çox adamın nəzərində nüfuz və hörmət məsələsi idi. Məsələn, o dövrün bir ədibi yazır: Karlı ona görə imperator elədilər ki, "imperator adını xristianlar arasında çəkmədikdə bütpərəstlər onları təhqir etməsinlər".

Böyük Karlın imperiyasına daxil olan ölkələr bunlardı: Fransa, Belçika, Hollandiya, İsveçrə, Almaniyanın və İtaliyanın yarısı; imperiyanın cənub-qərbində ərəblərin hakimiyyəti altında olan İspaniya, şimal-şərqində slavyan və digər tayfalardı, şimalında danimarkalılar və normanlar, cənub-şərqində bolqarlar və serblər, onlardan sonra isə Konstantinopolun hakimiyyəti altında olan Şərqi Roma imperiyası gəlirdi.

Böyük Karl 814-cü ildə öldü, bunun üstündən çox keçməmiş imperiyanı bölmək üstündə iğtişaş başlandı. Karlın varisləri (onları Karolinqlər adlandırırdılar – Carolus latınca Karl); hərgah bəzilərinin ləqəbinə görə fikir yürütsək (Şişman, Dazbaş, Mömin) özlərinin elə bir ləyaqətiylə fərqlənmirdilər. Karlın imperiyası bölüşdürüldükdən sonra Almaniya və Fransa təşəkkül tapmağa başladı. Belə hesab edilir ki, bir millət kimi Almaniya 843-cü ildən mövcuddur; belə də deyirlər ki, 962-ci ildən 973-cü ilədək hakimiyyət sürən imperator Böyük Otton almanları az-çox vahid xalq halında birləşdirmişdi. Fransa daha Otton imperiyasının tərkibinə daxil deyildi. 987-ci ildə Quqo Kapet Karolinqlər sülaləsindən olan zəif kralı devirərək, Fransada hakimiyyət sürməyə başladı. Onun torpaqları çox da böyük deyildi; ona görə ki, Fransa iri vilayətlərə bölünmüşdü: bu vilayətlər də çox vaxt bir-birilə çarpışan müstəqil əyanların hakimiyyəti altındaydı. Lakin əyanlar bir-birindən daha çox imperatordan və papadan qorxduqları üçün onlara müqavimət göstərmək xatirinə birləşirdilər. Bir millət olmaq etibarilə Fransa öz başlanğıcını Quqo Kapetin hakimiyyəti dövründən başlayır, hətta bu erkən dövrdə də Fransa ilə Almaniya arasında rəqabət olduğunu görürük. Düz min il sürən bu rəqabət indi də davam edir. Bu iki qonşu ölkənin, iki xalqın, mədəni və yüksək qabiliyyətli fransız və almanların bu qədim ədavəti nəsildən-nəslə keçirdiyinə insan təəccüb

edir. Amma ola bilsin ki, bu işdə onların özündən daha çox yaşadıqları quruluş günahkardır.

Təqribən bu hadisələrə yaxın bir vaxtda Rusiya da səhnədə görünür. Rəvayətə görə, şimaldan gəlmiş Ryurik təxminən 850-ci ildə Rus dövlətinin əsasını qoyur. Avropanın cənub-şərqində məskən salan bolqarlar xeyli təcavüzkar bir xalqa çevrilirlər; serblər də orada sakin olurlar. Madyarlar və ya macarlar, eləcə də polyaklar Müqəddəs Roma imperiyasıyla yeni Rus dövləti arasında yerləşən ayrı-ayrı dövlət yaratmağa başlayırlar.

Bu arada Şimali Avropadan qitənin qərbində və cənubunda yerləşən ölkələrə gəmilərlə gələn adamlar hər nə var yandırır, çapıb-talan edir, öldürürdü. Sən danimarkalılar haqqında və şimaldan gəlmə digər adamlar haqda oxumusan, onlar İngiltərəyə gəlmişdilər ki, ölkəni talan edib viran qoysunlar. Bu şimallılar, yəni normanlar Aralıq dənizinə tərəf istiqamət götürmüşdülər; onlar gəmilərlə iri çayların axarıyla yuxarılara qalxır və ayaqları dəyən yerdə adamları qırır, talan edir, qənimət aparırdılar. İtaliyada qarmaqarışıqlıq hökm sürürdü. Roma isə acınacaqlı haldaydı. Romanı çapıb talan etmiş normanlar Konstantinopolu da təhlükə altına almışdılar. Bu quldurlar və soyğunçular Fransanın şimal-qərbini (indi Normandiyanın olduğu yeri), eləcə də Cənubi İtaliyanı və Siciliyanı zəbt etdilər, oralarda tədricən məskən salaraq senyorlara və torpaq sahiblərinə çevrildilər (müvəffəqiyyət qazanan uğurlu quldurlar da çox vaxt belə edirlər). Fateh ləqəbiylə tanınan Vilhelmin başçılığıyla 1066-cı ildə Normandiyadan İngiltərəyə gələn və oranı işğal edən də məhz bu normanlar olub. İngiltərənin təşəkkül prosesi belə başa çatdı.

Biz indi təxminən birinci minilliyin axırlarına və ya Avropada eramızın 1000-ci ilinə gəlib çatdıq. Təqribən o dövrdə Mahmud Qəznovi Hindistana basqınlar edirdi. Təqribən elə o dövrdə də Bağdaddakı xəlifələrin Abbasilər sülaləsi zəifləmişdi, səlcuq türkləri isə Qərbi Asiyada İslam dinini dirçəltmişdilər. İspaniya hələ ərəblərin hakimiyyəti altında idi. Buna baxmayaraq öz doğma yurdları Ərəbistandan uzaq düşən ispan ərəblərinin Bağdad hakimləriylə münasibətləri pis idi. Şimali Afrika əslində Bağdaddan asılı deyildi. Misirdə isə nəinki müstəqil hökumət mövcud idi, burada hətta ayrıca xilafət yaranmışdı. Misir xəlifəsi bir müddət Şimali Afrikanı da idarə etmişdi.



# FEODAL SİSTEMİ

*4 iyun 1932-ci il*

Axırıncı məktubumda mən Fransa, Almaniya, Rusiya və İngiltərənin indi təsəvvür etdiyimiz tarixinin başlanğıc dövrünün qısaca icmalını verdim. Amma elə zənn etmə ki, o dövrün adamları bu ölkələri indi bizim təsəvvür etdiyimiz kimi təsəvvür edirdilər. Biz onları müxtəlif millətlər kimi, ingilislər, fransızlar, almanlar kimi qavrayırıq; həm də o millətlərdən hər biri öz ölkəsi barəsində öz ana vətəni, yurdu kimi düşünür. Bu isə bugünkü dünyada parlaq surətdə təzahür edən milli hissdir. Hindistanın azadlığı uğrunda apardığımız mübarizə məhz milli mübarizəmizdir. Amma bu milliyyət anlayışı o dövrlərdə mövcud deyildi. Xristianlıq anlayışı, xristianlıq qrupuna və ya cəmiyyətinə mənsubiyyət anlayışı var idi ki, bu da bütpərəstlərə, yaxud müsəlmanlara qarşı qoyulmuşdu. Eləcə də müsəlmanlarda islam aləminə mənsubiyyət anlayışı var idi ki, bu, bütün qalan adamlara, yəni müsəlmanların dinsiz hesab etdikləri adamlara qarşı qoyulmuşdu.

Amma bu xristianlıq və islam ideyaları çoxlarına aydın deyildi, adamların gündəlik həyatına təsir etmirdi. Ancaq ayrı-ayrı hallarda adamların qəlbində dini şövq doğurmaq və onları müvafiq surətdə xristianlıq, yaxud islam uğrunda mübarizəyə təhrik etmək üçün bu ideyalardan bir vasitə kimi istifadə edirdilər. Milliyyət anlayışının yerini bir adamın digərinə öz xüsusiyyətilə fərqlənən münasibəti tuturdu. Bu münasibət feodal münasibəti idi, bunun mənbəyi feodal sistemi deyilən sistemdi. Romanın süqutundan sonra Qərbdəki köhnə qayda da məhv oldu. Hər yanda hərc-mərclik, zorakılıq və məcburiyyət hökm sürürdü. Qoluzorlu əlinə nə keçdi qamarlayırdı. Sonra ondan daha güclü başqa birisi gəlib onu qovurdu. Möhkəmləndirilmiş qalalar tikilirdi, qala sahibləri dəstələrin başında duraraq basqınlar edir və ətrafdakı kənd əhalisini soyub talayır, bəzən də özü kimiləriylə döyüşürdülər. Hamıdan da çox zərər çəkən yoxsul kəndlilər və kənddə çalışan işçilər olurdu. Nəticədə hərc-mərclik içindən baş qaldıran feodal sistemi yaranmağa başladı.

Kəndlilər mütəşəkkil olmadıqlarına görə özlərini soyğunçu baronlardan qoruya bilmirdilər. Elə bir güclü mərkəzi hökumət də yox idi ki, onları müdafiə edə bilsin. Nəticədə kəndlilər iki bəladan birini, yəni kiçik bəlanı seçməklə vəziyyətdən qurtarır, onları talan edən qala sahibinin özüylə saziş bağlayırdılar. Onlar öz tarlalarında istehsal

etdikləri məhsulun bir hissəsini qala sahibinə gətirməyə və ona bəzi xidmətlər etməyə söz verirdilər, bu şərtlə ki, qala sahibi onları soymasın və yurdlarına basqın etməsin, habelə digər qala sahiblərindən qorusun. Kiçik qala sahibi də bu üsulla daha iri qala sahibiylə sazış bağlayırdı. Amma kiçik qala sahibi öz tarlasının məhsulunu iri qala sahibinə təklif edə bilmirdi, çünki o, nə kəndli idi, nə də istehsalçı. Bunun müqabilində o, iri qala sahibinə hərbi qulluq etməyə, yəni lazım gələrsə, onun tərəfində döyüşməyə boyun olurdu. İri qala sahibi də onun müqabilində kiçik qala sahibinə himayədarlıq göstərməliydi; bu yolla da kiçik qala sahibi iri senyorun vassalına çevrilirdi. Beləliklə, bu münasibət pillə-pillə daha iri və tanınmış senyora, ondan da lap kralın özünə qədər gedib çıxırdı: bu feodal binasının lap yuxarısında duran kral idi. Bununla da kifayətlənmirdilər. Bu baxımdan səmanın özü də feodal sisteminə müvafiq, yəni başda Allah olmaqla öz üç üqnumuna müvafiq qurulmuşdu.

Yavaş-yavaş Avropada hökm sürən hərc-mərclik içindən baş qaldıraraq yaranan sistem beləydi. Unutma ki, o dövrlərdə əməldə nə mərkəzi hökumət vardı, nə də polis və ona oxşar bir sistemi. Torpaq mülkiyyətçisi isə o torpaqda yaşayanların eyni vaxtda həm hakimi, həm də ağasıydı, bir növ kiçik kraldı. Belə hesab edilirdi ki, torpaq sahibi onun ixtiyarında olan torpaqda yaşayanları qorumağı öz öhdəsinə götürür. Bunun müqabilində onlar torpaq sahibinə xidmət göstərməli və tarlalardan götürdükləri məhsulun bir hissəsini ona verməliydilər. O, villanlar[1] və ya servlər[2] adlanan bu adamların senyoru hesab edilirdi. Nəzəri cəhətdən o öz torpağını vassalı[3] olduğu və hərbi xidmət etməli olduğu senyordan, ali senyordan[4] alırdı.

Hətta kilsə xidmətçiləri də feodal sisteminin bir hissəsi idi: onlar eyni vaxtda həm keşişdilər, həm feodal senyor. Məsələn, Almaniyada demək olar torpağın və sərvətin yarısı yepiskopların[5] və abbatların[6] əlindəydi. Papa özü feodal senyordu.

[1] **Villan** – Orta əsr latın dilində: feodal kəndli; Fransada: şəxsi azad kəndli; həmişəlik icarəyə götürmək şərtilə senyordan torpaq alan kəndli (*tərcüməçinin qeydi*)

[2] **Serv** – latınca qul deməkdir; Fransada villanlardan fərqli olaraq təhsilli kəndlilərin ən asılı dərəcəsi (*tərcüməçinin qeydi*)

[3] **Vassal** – özündən daha güclü feodaldan asılı olan feodal (*tərcüməçinin qeydi*)

[4] **Senyor** – feodal cəmiyyətində, öz mülkündə hökmdar olan torpaq sahibi (*tərcüməçinin qeydi*)

[5] **Yepiskop** – baş keşiş (*tərcüməçinin qeydi*)

[6] **Abbat** – katolik keşiş (*tərcüməçinin qeydi*)



Gördüyün kimi, bütün sistem pillələrin və siniflərin iyerarxiya sistemi idi. Bərabərlik haqqında heç söz ola bilməzdi. Aşağı pillədə dayananlar villanlar və servlərdi; sosial binanın, yəni kiçik ağaların, böyük ağaların, daha böyük senyorların və kralların bütün ağırlığını çəkmək məcburiyyətində qalan onlardı. Kilsənin, yəni yepiskop və abbatların, kardinalların və adi keşişlərin saxlanması yükü də onların üzərinə düşürdü. Nə xırda, nə də iri senyor heç bir məhsuldar əməklə məşğul olmurdu, nə yeyinti məhsulları istehsal edirdi, nə də digər nemətlər. Bu işləri ləyaqətlərinə sığışdırmırdılar. Başlıca məşğuliyyətləri müharibə idi; hərbi xidmətdən boş olduqda isə ya ovla məşğul olurdular, ya da hərbi oyunlar və yarışlar düzəldirdilər.

Bunlar kobud və savadsız adamlardı; vuruşmaqdan, yeyib-içməkdən savayı özgə bir əyləncə bilmirdilər. Demək, yemək istehsalının və həyat üçün ən lazımlı məhsul istehsalının bütün ağırlığı kəndlilərin və sənətkarların üzərinə düşürdü. Bütün bu binanın zirvəsində dayanan kral idi; o, bir növ Allahın yerdə vassalı hesab edilirdi.

Feodal sistemi ideyası belə idi. Nəzəriyyədə senyorlar öz vassallarını və servlərini müdafiə etməyə borclu idilər; əməli işə gəldikdə isə onlardan ötrü heç bir öhdəlik-filan mövcud deyildi. Vassallardan və servlərdən yüksəkdə duran senyorlar və ya kral çox nadir hallarda onlara nəzarət yetirirdilər. Kəndlilər isə o qədər zəif idilər ki, onların tələblərinə müqavimət göstərə bilmirdilər. Daha güclü olan torpaq sahibləri öz servlərinin əlindən nə gəldi alırdılar. Servlərə qalan məhsul isə onların miskin dolanacaqlarına güclə çatırdı. Bütün dövrlərdə və bütün ölkələrdə torpaq sahiblərinin xasiyyəti belə idi. Torpaq sahibliyi dvoryanlığı meydana gətirdi. Torpağı zəbt edən və qəsrlər tikdirən soyğunçu cəngavər sonralar dönüb hamının hörmət etdiyi alicənab lord, senyor olurdu. Bu mal-mülk soyğunçu cəngavərə istehsalçı kəndlinin və ya işçinin əlindən nə bacarırsa hamısını almaq ixtiyarı da verirdi. Torpaq sahiblərinə hətta qanunlar da əlverişli şərait yaradırdı. Ona görə ki, qanunları çıxardan elə onların özü və dostları idi. Məhz bu səbəbə görə də çoxları belə fikirdədir ki, gərək torpaq ayrı-ayrı şəxslərə yox, ancaq icmaya məxsus olsun. Əgər torpaq dövlətə və ya icmaya məxsusdursa, bu o deməkdir ki, torpaq onu əkib-becərənlərin hamısına məxsusdur və buna görə də heç kəs heç kimi nə istismar edə bilər, nə də ədalətsiz üstünlüklərdən istifadə edə bilər.

Amma bu ideyaların meydana çıxması hələ irəlidə idi. Bəhs etdiyimiz dövrlərdə adamlar hələ bu cürə düşünmürdülər. Kütlələr ehtiyac

içində olsalar da, düşdükləri çətinlikdən çıxmaq üçün bir yol görmürdülər. Buna görə də hər cürə çətinliyə dözür, bir işıq ucu görmədən gecə-gündüz işləyirdilər. Onların beyninə itaət etmək vərdişini yeritmişdilər. İnsan ki, bir dəfə boyun əydi, hər cürə vəziyyətə dözəcək. Deməк, biz bir tərəfdən feodal senyorlardan və onların vassallarından, o biri tərəfdən isə yoxsullardan ibarət olan cəmiyyətin necə əmələ gəldiyini gördük. Senyorun daş qəsrinin yan-yörəsində servlərin palçıq daxmaları və ya ağac komaları bir-birinə sığınmışdı. Bir-birindən çox uzaqda duran iki dünya vardı: senyorlar dünyası və servlər dünyası. Həm də ola bilsin ki, senyorun nəzərində serv onun saxladığı heyvandan cəmi bir neçə pillə yuxarıda dayanırdı.

Bəzən xırda keşişlər servləri onların senyorlarından qorumağa çalışırdılar. Amma bir qayda olaraq, keşişlər və bütün ruhanilər senyorların tərəfindəydilər, elə əslində yepiskopların və abbatların özü feodal senyorlardı.

Bizim Hindistanda belə feodal sistemi olmasa da, buna bənzər nəsə vardı. Doğrudan da, öz hakimləri, zadəganları və xırda ağalarıyla birlikdə bizim hind dövlətlərimiz bir çox feodal adətini hələ də saxlamaqdadır. Hindistanın kasta sistemi feodal sistemindən tamamilə fərqlənməsinə baxmayaraq, o da cəmiyyəti siniflərə bölürdü. Elə zənn edirəm ki, Çində, bayaq sənə söylədiyim kimi, buna bənzər heç bir zadəganlıq və ya imtiyazlı sinif mövcud olmamışdı. Çinlilər özlərinin qədim imtahan sistemi vasitəsilə hər bir şəxsin ən yüksək vəzifəyə çatmasına imkan yaradırdılar. Amma əslində, əlbəttə, xeyli məhdudiyyət də mövcud idi.

Deməк, bərabərlik və ya azadlıq ideyalarına feodal sistemində yer yox idi. Hüquq və borc anlayışı isə vardı. Yəni feodal-senyor mükəlləfiyyət hüququna və torpaqdan alınan məhsulun bir hissəsini mənimsəmək hüququna malikdi, kəndlini müdafiə etmək də onun borcu idi. Amma adam öz hüququnu heç vaxt unutmur, borc məsələsini isə tez-tez yaddan çıxara bilər. Bəzi Avropa ölkələrində və bizim Hindistanda elə indi də iri torpaq sahibləri var ki, zərrəcə zəhmət sərf etmədən, həm də borc-filan haqqında təsəvvürləri çoxdan unudaraq öz icarədarlarından renta şəklində böyük məbləğ götürürlər.

Avropanın azadlıqsevər qədim barbar tayfaları məhz bu feodal sisteminin xatirinə o sistemin tamamilə inkar etdiyi azadlıqdan yavaş-yavaş imtina edirdilər. Bu, adama çox qəribə görünür. Keçmişdə adət gözləyən bu tayfalar seçdikləri başçılarına nəzarət edirdilər. İndi biz hər yanda



istibdad və mütləqiyyətdən başqa heç bir seçkidən əsər-əlamət görmürük. Belə bir dəyişikliyin niyə baş verdiyini deyə bilmərəm. Bəlkə ona görə ki, kilsə təlimi qeyri-demokratik ideyaların yayılmasına kömək edirdi. Kral yer üzündə artıq Allahın kölgəsinə çevrilirdi; o qadir Allahın hətta kölgəsinə belə necə itaət etməmək olar, ya da onunla necə bəhsə girmək olar? Adama elə gəlirdi ki, feodal sistemi səmanı da, yeri də öz təsir dairəsinə alıb.

Azadlıq barədə qədim ari təsəvvürlərinin tədricən dəyişildiyini Hindistanda da görürük. Bu təsəvvürlər get-gedə zəifləyərək axırda az qala tamamilə unudulur. Amma orta əsrlərin başlanğıc dövründə dediyim təsəvvürlər haqqında az-çox xatirə qalıb. Bunu Şukraçariyanın "Nitisara"sı və Cənubi Hindistanın kitabələri də sübut edir.

Avropada azadlıq meydana çıxan formalarda yenidən tədricən yayılmağa başladı. Torpaq sahibləri və torpağı əkib-becərənlərlə yanaşı, lordlar və ya senyorlarla və onların servləriylə yanaşı insanların digər təbəqələri də – sənətkarlar və tacirlər də mövcuddu. Bu adamlar özlüyündə feodal sisteminin bir hissəsi deyildilər. Hərc-mərclik hökm sürdükcə ticarət də, sənət də çox az inkişaf edirdi. Amma tədricən ticarət artdı, sənətkar ustaların və tacirlərin hörməti də qalxdı. Varlandıqlarına görə indi lordlar və baronlar pul borc almaq üçün onlara üz tuturdular. Tacirlər borc pul verəndə, tələb edirdilər ki, lordlar və baronlar onlara müəyyən imtiyazlar versinlər. Bu imtiyazlar tacirlərin mövqeyini möhkəmləndirirdi. Budur, biz qəsrin yan-yörəsində servlərin bir-birinə sığınmış komalarının yerində qəsəbələrin necə yarandığını görürük. Bu qəsəbələr baş kilsənin, yaxud bələdiyyə binasının ətrafında salınmışdı. Tacirlər və sənətkarlar gildiyalar, yaxud sexlər təşkil edirdilər. Bu sexlərin və ya gildiyaların idarə heyətlərinin yerləşdiyi binalar sonralar bələdiyyə binalarına çevrildi.

Köln, Frankfurt (Mayn üzərində), Hamburq kimi sürətlə inkişaf edən digər şəhərlər feodal senyorların hakimiyyətinə iddia edirdilər. Həmin şəhərlərdə təşəkkül tapmaqda olan ticarətçi sənətkar zümrəsi o qədər zəngindi ki, hətta dvoryanlığa belə meydan oxumaq dərəcəsinə çatmışdı. Mübarizə uzun sürürdü, kral öz əyanlarının və baronlarının qüdrəti qarşısında tez-tez qorxuya düşərək çox vaxt şəhərlərin tərəfinə keçirdi. Amma, deyəsən, haşiyə çıxdım.

Bu məktubu yazmağa başlarkən demişdim ki, o dövrlərdə milli hiss yoxdu. Adamları düşündürən borc duyğusu və başları üzərində duran

senyora sədaqət hissiydi. Onlar vətənə yox, senyora xidmət edəcəklərinə and içirdilər. Hətta krala sədaqət anlayışı belə qeyri-müəyyən anlayışdı; *Kral çox uzaqda idi. Senyorun krala qarşı qiyam qaldırması* ancaq onun öz işiydi. Bu dediklərimin hamısı neçə-neçə dövr keçəndən sonra yaranacaq milli hissdən çox-çox fərqlənirdi.

## ÇİN KÖÇƏRİLƏRİ QƏRBƏ YÖNƏLDİR

*5 iyun 1932-ci il*

Çin barədə, Uzaq Şərq ölkələri barədə çoxdandı sənə yazmırdım, az qala bir ay olar. Avropada, Hindistanda və Qərbi Asiyada baş verən xeyli dəyişikliyi müzakirə elədik; ərəblərin ətrafa yayılıb bir çox ölkələri tutduqlarını Avropanın isə təzədən zülmətə qərq olaraq mübarizə meydanına çevrildiyini gördük. Bu hadisələrin baş verdiyi müddətdə Çin, əlbəttə, yenə əvvəllərdəkitək yaşayırdı, həm də bir qayda olaraq, yaxşı yaşayırdı. Çin VII-VIII əsrlərdə Tan imperatorlarının hakimiyyəti altında, görünür, dünyada ən mədəni və ən yaxşı idarə olunan ölkə idi. Söz yox, Avropanı onunla müqayisə etmək olmazdı; çünki Romanın süqutundan sonra Avropa çox geriləmişdi. Şimali Hindistan həmin dövrün müəyyən bir müddətində dərin süqut içində idi. Şimali Hindistanın işıqlı dövrləri də olmuşdu, məsələn, Harşa hakimiyyəti dövründə. Amma bütövlükdə götürsək, ölkə tənəzzülə doğru gedirdi. Cənubi Hindistanda Şimali Hindistana nisbətən, şəksiz, daha çox qüvvə vardı, dənizin o tayındakı koloniyaları isə, məsələn, Anqkor və Şrivicayya çiçəklənmə dövrünün astanasında idi. Bu dövrdə Çinlə müəyyən qədər rəqabət apara biləcək iki ərəb dövləti vardı – Bağdad və İspaniya. Amma elə bu ölkələrin də ən şöhrətli çağları nisbətən qısa olub. Onu da qeyd etmək maraqlıdır ki, taxtdan salınmış Tan imperatorlarından biri ərəblərdən yardım istəmiş və yalnız onların köməyilə hakimiyyəti geri ala bilmişdi.

Beləliklə, görürük ki, o dövrlərdə Çin mədəniyyətin önündə gedirdi və o zamankı avropalılara yarımvəhşi kimi baxmağa onun bəzi əsasları vardı. O zamankı məlum dünyada Çin əsas ölkə idi. Mən ona görə "o zamankı dünyada" deyirəm ki, o vaxt Amerikada nələr baş verdiyini bilmirəm. Biz bir şeyi bilirik: həm Meksikada, həm Peruda, həm də



onlarla qonşu olan ölkələrdə yüz illər boyu mədəniyyət mövcud idi. Bəzi sahələrdə heyrətamiz dərəcədə yüksək səviyyəyə çıxan bu ölkələr, digər sahələrdə çox geridə qalırdı. Bu haqda o qədər az məlumatım var ki, çox söz deməyə hünərim çatmır. Amma mən istərdim ki, sən Meksikadakı və Mərkəzi Amerikadakı mayya mədəniyyətini, eləcə də Perudakı İnklər dövlətini nəzərdən qaçırmayasan. Başqaları, məndən daha ağıllı olanlar həmin mədəniyyətlər barədə sənə maraqlı məlumatlar verə bilərlər. Boynuma almalıyam ki, həmin mədəniyyətlər məni heyran edir, amma mənim bu heyranlığım bu barədə nadanlığımla bəhsə girə bilər.

Mən istərdim ki, sən bir cəhəti də unutmayasan. Bir çox köçəri tayfaların Mərkəzi Asiyada necə meydana gəldiyini, qərbə, Avropaya yollandıqlarını, yaxud Hindistana tərəf döndüklərini əvvəlki məktublarımızda izləmişik. Hunlar, skiflər, türklər və bir çox başqaları buralardan böyük dalğalar kimi keçmişlər. Hindistana gələn ağ hunlar və Avropadakı Attila hunları yadındadır. Bağdad imperiyasını tutan səlcuq türkləri də Mərkəzi Asiyadan gəlmişdilər. Daha sonralar türklərin başqa bir qolu olan osmanlı türkləri gəldi və axırda Konstantinopolu ələ keçirib Vyananın divarlarına qədər gedib çıxdılar. Sonralar Mərkəzi Asiyadan və Monqolustandan gələn dəhşətli monqol orduları yolları üstündə böyük işğallar edərək, Avropanın mərkəzinə kimi gedib çatdılar, hətta Çini də özlərinə tabe etdilər. Onların nəslindən olan bir nəfər Hindistanda yeni imperiyanın və sülalənin əsasını qoydu ki, bu sülalə dünyaya bir neçə məşhur hökmdar verdi.

Mərkəzi Asiyanın və Monqolustanın bu köçəri tayfalarıyla Çin daim müharibə aparırdı. Bəlkə, belə demək daha düzgün olar ki, bu köçərilər ölkəni daim narahat etdiklərinə görə Çin özünü müdafiə etmək məcburiyyətində qalmışdı. Böyük Çin səddi də məhz müdafiə olunmaq məqsədilə tikilmişdi. Bu səddin, şübhəsiz, az-çox xeyri dəysə də, basqınların qarşısını almaq üçün çox zəif amil idi. Çin xalqı müstəmləkəçiliyə o qədər də meyil etmirdi. Şübhəsiz ki, bəzi Çin imperatorları təcavüzkar olduğundan başqa ölkələri istila etməyə can atırdı. Amma sülhsevər çinlilər digər xalqlarla müqayisədə o qədər də müharibələrə və istilalara aludə deyildilər. Çində alim adam həmişə döyüşçüdən daha şərəfli və şöhrətli olub. Buna baxmayaraq əgər Çin imperiyası arabir öz hüdudlarını genişləndirirdisə, bu, əsasən onunla izah olunur ki, şimaldan və qərbdən basqın edən köçərilər çinliləri qeyzə gətirirdilər. Güclü imperatorlar onları uzaqlara – qərbə doğru sıxışdırırdı ki, biryolluq

əllərindən qurtarsınlar. Çinlilər bu məsələni həmişəlik həll etməsələr də, heç olmazsa bir qədər rahat oldular.

Amma Çin xalqının bu rahatlığı digər xalqların və ölkələrin hesabına əldə olunurdu. Axı, çinlilərin qovduqları köçərilər başqa ölkələrə hücum etməyə başladılar. Onlar Hindistana kimi gəldilər. Dönə-dönə yenidən Avropada göründülər. Çinin Xan imperatorlarının hücumu hunları, tatarları və digər köçəriləri başqa ölkələrə yönəltmiş oldu; Tanlar Avropaya türkləri bəxş etdilər.

O vaxta qədər çinlilər köçəri tayfalardan özlərini müvəffəqiyyətlə müdafiə edirdilər. İndi biz elə bir dövrə gəlib çatdıq ki, daha onlar bu sahədə elə bir müvəffəqiyyətə nail ola bilmirdilər.

O biri sülalələrdə olduğu kimi, Tan sülaləsinin də yavaş-yavaş nəsli kəsilirdi; bir-birini əvəz edən qabiliyyətsiz hökmdarlar öz sələflərinin malik olduğu güclü cəhətlərdən büsbütün məhrum olmuş, onlardan yalnız sərvətə məhəbbət hərisliyini irs saxlamışdılar. Dövlətdə rüşvətxorluq geniş yayılırdı. Əlavə olaraq ağır vergilər, əlbəttə, əsasən yoxsul siniflərin üzərinə düşürdü. Narazılıq artırdı, odur ki, onuncu əsrin əvvəllərində, yəni 907-ci ildə sülalə süqut etdi.

Kiçik və əhəmiyyətsiz hökmdarların hakimiyyətdə bir-birini dəyişməsi düz əlli il çəkdi. Nəhayət, 960-cı ildə Çində yeni böyük sülalənin hakimiyyəti başladı. Bu, Qao-tszu (Taytszu) tərəfindən əsası qoyulan Sun sülaləsi idi. Buna baxmayaraq, həm ölkənin daxilində, həm də onun sərhədlərində iğtişaşlar davam edirdi. Kəndlilər üçün böyük yük olan ağır torpaq vergiləri onların hiddətinə səbəb olurdu. Hindistanda olduğu kimi, bütün torpaqdan istifadə sistemi ölkədə xalqdan ötrü ağır bir yük olduğundan bu sistem tamamilə dəyişilməyincə nə sülh ola bilərdi, nə də ki, tərəqqi. Bu köklü dəyişikliyi aşağıdan yuxarı həyata keçirmək həmişə çətindir. Yuxarı təbəqələr mövcud sistemdən faydalandığı üçün dəyişiklik keçirilməsi təklif edilən kimi haray salırdılar. Amma dəyişiklik vaxtlı-vaxtında aparılmayanda özləri dəvətsiz-filansız gəlir və bütün quruluşu alt-üst edirlər!

Tan sülaləsi süqut etdi, ona görə ki, lazımi dəyişikliyi həyata keçirməmişdi. Sun sülaləsi də elə bu səbəbdən daim çətinlik çəkirdi. Meydanda müvəffəqiyyət qazana biləcək bir adam göründü. Bu adam XI əsrdə Sunların birinci naziri olan Van-An-şi idi. Sənə dediyim kimi, Çin Konfutsinin ideyalarını rəhbər tutan bir ölkəydi. Vəzifəli şəxslərin hamısı gərək konfutsiçi klassiklərin əsərləri üzrə imtahan verəydi,



Konfutsinin dediklərinin əleyhinə heç kəs çıxa bilməzdi. Van-An-şi bunun əleyhinə çıxmadısa da, Konfutsinin ideyalarını özünəməxsus bir şəkildə şərh etdi. Çətinlikdən yan keçmək üçün adətən ağıllı adamlar belə hərəkət edirlər. Vanın bəzi ideyaları indiki zəmanəyə uyğun səslənir. Onun bütün məqsədi yoxsulların üzərinə qoyulan vergiləri azaltmaqdan və bu vergini ödəmək qabiliyyətində olan varlıların üzərinə qoymaqdan ibarət idi. O, torpaq vergisini azaltdı və kəndlilərə icazə verdi ki, vergini məhsul halında ödəsinlər, yəni əgər vergini pulla ödəmək çətindirsə, taxılla və ya başqa məhsulla ödəsinlər; Van varlılardan gəlir vergisi alınması barədə göstəriş verdi. Gəlir vergisi müasir vergi sayılır, halbuki görürük ki, onu hələ doqquz yüz il əvvəl Çində tətbiq etmək təklif olunubmuş. Əkinçilərə kömək göstərmək məqsədilə Van hökumətə təklif etmişdi ki, onlara borc pul versin, əkinçilər bu pulu məhsul yığımından sonra qaytara bilərdilər. Taxılın qiymətinin enib-qalxması müəyyən çətinlik törədirdi ki, bu çətinliyi də aradan qaldırmaq lazım idi. Bazarda qiymət aşağı düşəndə yoxsul kəndli satdığı məhsuldan az gəlir götürə bilərdi. Məhsullarını satmaq imkanı olmadığından vergini ödəmək və ya bir şey almaq üçün onların pulu olmurdu. Bu problemi həll etməyə cəhd göstərən Van-An-şi hökumətin taxılı satın almasını və bu yolla da qiymətlərin qalxıb-enməsinin qarşısının alınmasını təklif etmişdi.

Van habelə təklif etdi ki, ictimai işlərdəki icbari əmək ləğv edilsin və işləyən haqqını tamamilə alsın. O, həmçinin yerli milis də təsis etdi. Buna bao-tszya deyilirdi. Van öz zəmanəsini xeyli qabaqladığına görə çox çəkmədi ki, onun islahatları ləğv olundu. Təkcə milis qaldı və o da səkkiz yüz ildən yuxarı davam etdi.

Qarşılarında duran çətinlikləri həll etmək üçün Sunların hünəri çatmadığı üçün çox çəkmədi ki, onlar tədricən bu çətinliklərin qurbanı oldular. Şimal vəhşiləri – kidanilər Sunların ən güclü düşməni idilər. Onları qovmaq iqtidarında olmayan Sunlar kömək almaq məqsədilə şimal-qərbdəki başqa bir tayfaya – tszinlərə, yəni qızıl tatarlara müraciət etdilər. Tszinlər gəlib kidaniləri qovdular. Özləri isə getməkdən boyun qaçıraraq həmin yerlərdə qaldılar. Güclü adamdan, yaxud ölkədən kömək uman zəif adamın, ya da ölkənin aqibəti həmişə belə olur. Tszinlər Şimali Çinin ağaları oldular və Pekini özlərinə paytaxt seçdilər. Sunlar cənuba doğru geri çəkildilər və tszinlərin təzyiqi altında geriləməyi davam etdirdilər. Beləliklə, Şimali Çində Tszin imperiyası, cənubi

Çində isə Sun imperiyası meydana gəldi. Bu Sunları cənublu Sunlar adlandırdılar. Sun sülaləsi ölkənin şimalında 960-cı ildən 1127-ci ilə qədər hakimiyyət sürdü. Cənublu Sunlar 1260-cı ildə ta monqollar gələnədək və onları süquta uğradanadək daha 150 il hakimiyyət başında oldular. Amma əvvəlki dövrlərdə Hindistan etdiyi kimi, Çin də monqollardan öz intiqamını aldı: monqolları assimilyasiyaya uğradaraq demək olar ki, tamamilə adi çinlilərə döndərdilər.

Beləliklə, köçəri tayfaların hücumu altında Çin axır ki, süquta uğradı. Amma süquta uğrarkən belə o tayfalara mədəniyyət aşılaya bildi və buna görə onlardan Asiya və Avropanın digər ölkələri görən qədər zərər çəkmədi.

Cənubdakı və şimaldakı Sunlar siyasi cəhətdən sələfləri olan Tanlar qədər güclü deyildilər. Lakin onlar Tanların əzəmətli dövrünün bədii ənənələrini davam etdirir, hətta bu ənənələri təkmilləşdirdilər. Cənublu Sunların dövründəki Cənubi Çin özünün incəsənəti və poeziyası ilə fərqlənirdi, burada gözəl-gözəl rəsm əsərləri xüsusən təbiət lövhələri yaradılırdı. Sunlar təbiəti çox sevirdilər. Rəssam əlinin toxunması çini qaba da gözəllik verirdi. Çini məmulat get-gedə daha yaraşıqlı və heyrətamiz görkəm alırdı, iki yüz ildən sonra isə, Min sülaləsindən olan hökmdarlar zamanı, son dərəcə incə işlənmiş yüksək bədii sənət nümunələri yaradılmağa başladı. Min sülaləsi dövrünün Çin güldanına elə indinin özündə də baxdıqca həzz alırsan!

## YAPONİYADA SYÖQUNLAR HAKİMİYYƏTİ

*6 iyun 1932-ci il*

Çindən Sarı dəniz ilə üzərək Yaponiyaya baş çəkmək çətin deyil. Madam ki, Çinə bu qədər yaxınıq, onda gəl dediyimiz kimi də eləyək. Axırıncı dəfə ora baş çəkməyimiz yadındadırmı? Biz hakimiyyət uğrunda mübarizədə adlı-sanlı ailələrin ucaldığını, mərkəzi hökumətin oynadığı rolun daha qabarıq hal aldığını görmüşük. Böyük və qüdrətli tayfanın rəhbəri mövqeyindən imperator mərkəzi hökumətin başçısına çevrilmişdi. Mərkəzi hakimiyyət rəmzi kimi paytaxt şəhəri Naranın əsası qoyulmuşdu. Sonralar paytaxt Kiotoya köçürülmüşdü. Çinin idarəetmə üsullarını mənimsəyən Yaponiya incəsənət, din və siyasət sahəsində



Çindən çox şey götürmüşdü. Hətta ölkənin adı da – Day Nippon – Çindən gəlmişdi.

Biz həmçinin Fudzivara adlı qüdrətli bir ailənin bütün hakimiyyəti əlinə aldığını və imperatorlarla bir oyuncaq hökumət kimi rəftar etdiyini də görmüşdük. Bu ailənin hakimiyyəti iki yüz il çəkdi, ümidini itirmiş imperatorlar səltənətdən əl çəkib monastıra gedənə qədər davam etdi. Sabiq imperatorun dönüb rahib olmasına baxmayaraq, o, bütün dövlət işlərinə qarışırdı, hakimiyyət başında olan imperator oğluna məsləhətlər verirdi. Bu yolla imperatorlar bir qədər Fudzivara ailəsinin nəzarətindən yayınaraq öz işlərini görürdü. Bu, çox mürəkkəb idarəetmə üsulu olsa da, Fudzivara ailəsinin qüdrətini azaltmağa imkan vermişdi. Real hakimiyyət bir-birinin dalınca səltənətdən əl çəkərək rahib olan imperatorların əlindəydi. Buna görə də onlara guşənişin imperatorlar deyirlər.

Elə bu vaxt digər dəyişikliklər də baş verdi: eyni vaxtda həm də hərbçi olan yeni böyük Fudzivara ailəsi hökumət vergilərini toplamağı belə torpaq sahiblərinə tapşırmaqla, bu yeni qüvvəni yaradırdı. Onlara "daymyö" ("böyük adlar") deyirdilər. Bunu lap ingilislərin gəlməsi ərəfəsində əyalətlərimizdə meydana çıxan eyni sinif ilə müqayisə etmək maraqlı olar. Xüsusən də Audada, yəni zəif kralın vergi toplayanları təyin etdiyi yerdə. Bu adamlar məcburi qaydada vergi toplamaq üçün öz kiçik qoşunlarını saxlayırdılar: söz yox, topladıqlarının böyük bir qismini özlərinə götürürdülər. Bəzi hallarda bu vergi toplayanlar iri talukdarlara çevrilirdilər.

Vassalları və kiçik orduları olan daymyölər çox qüdrətli adamlara çevrildikdən sonra bir-birlərilə döyüşür və Kiotodakı mərkəzi hökuməti saymırdılar. Tayra və Minamoto iki başlıca daymyö ailəsi idi. 1156-cı ildə Fudzivaranı məğlubiyyətə uğratmaqda onlar imperatora kömək etmişdilər. Sonra da özləri bir-birlərilə mübarizəyə girişmişdilər. Nəticədə Tayra ailəsi qalib gəldi və görünür özlərini gələcəkdə rəqiblərindən qorumaq üçün Minamoto ailəsinin üzvlərini öldürdülər. Tayra ailəsi Minamoto nəslinin bütün əsas nümayəndələrini öldürüb, yalnız dörd uşağa toxunmamışdılar ki, onlardan da biri 12 yaşlı Yöritomo adlı oğlan idi. Cəhdlərinə baxmayaraq, Tayra ailəsi kifayət qədər ciddi hərəkət etmirdi. Özləri üçün xətərsiz saydıqlarından öldürməyib aman verdikləri bu Yöritomo böyüyərək Tayra ailəsinin barışmaz düşməni oldu. O, Tayra ailəsindən intiqam almaq arzusu ilə alışıb-yanırdı. O, buna müvəf-

fəq oldu. Əvvəlcə Tayra ailəsini paytaxtdan qovdu, sonra da dəniz vuruşmasında onları darmadağın etdi.

Yöritomo artıq qüdrətli bir adama çevrilmişdi, imperator isə ona təmtəraqlı Sey-İ-tay-syöqun titulu verdi. Bu titulun da mənası vəhşiləri itaətə gətirən Böyük sərkərdə deməkdir. Bu hadisə 1192-ci ildə baş vermişdi. Titul irsi idi və tam dövlət hakimiyyəti hüququ verirdi. Syöqun həqiqi hökmdardı. Yaponiyada Syöqunat belə başlayır. Bu dövr çox uzun – təqribən yeddi yüz il, demək olar indiyə qədər, yəni müasir Yaponiya feodalizm buxovlarından azad olana qədər davam etdi.

Amma bu o demək deyil ki, Yöritomonun varisləri yeddi yüz il ərzində ölkəni idarə etmişdilər. Syöqunların çıxdıqları ailələr bir neçə dəfə dəyişilmişdi. Dəfələrlə vətəndaş müharibələri də baş vermişdi. Amma hakimiyyət sistemi, yəni hakimiyyətə malik olmayan, yaxud məhdud hakimiyyəti olan imperator adından çıxış edən syöqunun həqiqi hökmdar olduğu dövrün sistemi, bu uzun müddət ərzində qalmışdı. Elə hallar da olmuşdur ki, hətta syöqunun özünün hökmdar kimi quru adı qalmışdı; hakimiyyət isə bir ovuc əyanın əlindəydi.

Yöritomo Kiotonun paytaxt cah-calalından ehtiyat edirdi, çünki başa düşürdü ki, dəbdəbəli həyat tərzi onun özünü də, tərəfdarlarını da korlayıb rahatlığa alışdıracaq. Buna görə Kamakura şəhərini özünə hərbi paytaxt etdi. Elə buradan da ilk syöqunatı Kamakura Syöqunatı adlandırırlar. Həmin syöqunat 1333-cü ilə qədər, yəni yüz əlli ilə yaxın davam etdi. O dövrün çox hissəsi Yaponiyada əmin-amanlıq şəraitində keçdi. Uzun çəkən vətəndaş müharibəsindən sonra əmin-amanlığa çox ehtiyac var idi. Ölkənin tərəqqi dövrü başlandı. Həmin dövrdə Yaponiyada vəziyyət, söz yox, qat-qat yaxşı idi. Ölkə isə o dövrün hər hansı bir Avropa ölkəsindən daha məharətlə idarə olunurdu. Hər iki ölkənin dünyaya baxışında çox böyük fərq olmasına baxmayaraq, Yaponiya Çinin fərasətli şagirdi idi. Bayaq dediyim kimi, Çin əslində sülhsevər və dinc bir ölkə idi. Amma Yaponiya təcavüzkar, militarist bir ölkə idi. Çində əsgərlərə saymazyana münasibət vardı və hərbçilik o qədər də fəxri peşə sayılmırdı. Yaponiyada yuxarı təbəqələr hərbçilərdən ibarətdi və onların idealı daymyö – davakar cəngavərdi.

Buna görə Yaponiya Çindən çox şey əxz etsə də, bunları özünün milli ruhuna uyğunlaşdırırdı. Ölkə Çinlə sıx əlaqə saxlamaqda idi, Çin gəmiləri vasitəsilə ticarət əlaqələri davam etdirilirdi. XIII əsrdə monqollar Çinə və Koreyaya gəldiyi üçün bu əlaqələr birdən-birə



kəsildi. Hətta Yaponiyanı istila etməyə cəhd edən monqolların hücumu da dəf olundu. Beləliklə, monqolların gəlməsi Asiyanın mənzərəsini dəyişdirsə də, Avropanı sarsıtsa da, Yaponiyaya nəzərə çarpacaq dərəcədə təsir edə bilmədi. Yaponiya xarici təsirlərdən özünü daha yaxşı qoruyaraq əvvəlki həyat tərzini davam etdirirdi.

Yaponiyanın qədim rəsmi salnamələrində pambıq bitkisinin ölkəyə gətirilməsi haqqında bir hekayət var. Hekayətdə deyilir ki, ölkəyə pambıq bitkisi toxumunu 799-cu ildə Yaponiya sahilləri yaxınlığında gəmi qəzasına uğramış bir neçə hindli gətirib.

Çay kolu daha sonralar meydana çıxmışdı. Bu mədəni bitkini ilk dəfə IX əsrdə tətbiq etməyə cəhd göstərilsə də, o zaman bu iş baş tutmayıb. 1191-ci ildə bir Budda rahibi Çindən çay toxumu gətirmişdi. Bundan sonra da çayın şöhrəti yayılmışdı. Çay istehlakı zərif qab-qacağa tələbat doğurmuşdu. XIII əsrin axırlarında bir yapon dulusçusu çini qab hazırlamaq sənətilə tanış olmaq üçün Çinə getmişdi. Çində altı il qalandan sonra Yaponiyaya qayıdan bu adam orada zərif yapon çinisi buraxmağa başlamışdı. Çay dəstgahı indi Yaponiyada mürəkkəb mərasim şəraitində keçən zərif bir adətdir. Yaponiyaya gedəndə gərək sən mərasim qaydasına müvafiq surətdə çay içəsən, yoxsa səni bir az vəhşi sayarlar.

## İNSAN AXTARIR

*10 iyun 1932-ci il*

Dörd gün əvvəl sənə Bareyli həbsxanasından yazmışdım. Elə həmin axşam mənə əmr olunmuşdu ki, barxanamı yığışdırıb həbsxanadan çıxım – azadlığa buraxılmaq üçün yox, ayrı həbsxanaya keçirilmək üçün. Mən də həbsxanadakı barak yoldaşlarımla vidalaşdım. Orada düz dörd ay yaşamışdım, uzun müddət qayğı ilə məni qoruyan 24 fut hündürlüyü olan iri divara axırıncı dəfə nəzər saldım; həbsxanadan yenidən xarici aləmin seyrinə dalmaq üçün çıxdım. Bizi iki-iki göndərirdilər. Həm də Bareyli stansiyasına aparmaq istəmirdilər ki, adamlar bizi görməsin, axı, biz *pərdənişin*[1] adamlardıq, bizi görmək olmazdı! Onlar bizi əlli mil aralı xəlvət bir yerdəki stansiyaya çatdırdılar. Mən bu səfər üçün minnətdardım. Dörd aylıq həbsdən sonra gecənin sərin havasını udmaq,

[1] Pərdə arxasında yaşayan adam

ağacların, adamların və heyvanların alaqaranlıqda yan-yörəmdən ötüb keçən ecazkar qaraltısına tamaşa etmək mənə ləzzət verirdi.

Bizi Dehra-Duna gətirib çıxartdılar. Biz hələ mənzil başına gəlib çatmamış səhər tezdən yenidən qatardan düşürtdülər. Maraq dolu nəzərlərdən uzaq olmaq üçün avtomobilə oturdub apardılar.

İndi də kiçik Dehra-Dun həbsxanasındayam, bura Bareylidə olduğundan yaxşıdır. Çox da isti deyil, termometr 112°-dən aşağıdır (Farenqeyt cədvəli üzrə), bizi əhatə edən divarlar da Bareylidəkindən aşağıdır başımız üzərində ucalan ağaclar da yamyaşıldır. Hələ mən uzaqlarda, divarımızın arxasındakı palma ağacının zirvəsini də görə bilirəm. Zövq aldığım bu mənzərə mənə Seylonu və Malabarı xatırladır. Ağacların arxasında bir neçə mil aralı olan dağlar var. Yuxarıda isə onlara bitişik Massuri diyarıdır. Ağaclar arxasında gizlənən dağları görməsəm də, dağlara yaxın olmaq, Massurinin işıqlarının uzaqlarda sayrışdığını qaranlıq gecədə göz önünə gətirmək necə də xoşdur!

Dörd il əvvəl, ya da üç il – sən Massuridə olanda bu silsilə məktubları yazmağa başlamışdım. Bu üç-dörd ildə o qədər hadisə baş verib ki! Sən elə boy atıb böyümüsən ki! Ara verə-verə, böyük fasilələrlə yazmaqda davam edirdim; çoxunu da həbsxanadan. Amma nə qədər çox yazıramsa, yazdıqlarım bir o qədər az xoşuma gəlir; məktubların səni çox da maraqlandırmayacağından, bəlkə də sənə bir yük olacağından qorxmağa başlayıram. Bəs onda niyə yazmağı davam etdirim?

Ürəyimdən keçirdi ki, keçmişin canlı mənzərələrini səndən ötrü bir-bir qələmə alam, hiss elətdirəm ki, bizim aləm addımbaaddım necə dəyişilib, necə tərəqqi edib, yəqin arabir də necə geriləyib; istəyirdim sənə qədim mədəniyyətlərdən az-çox söz açam, dalğatək qabarıb qalxdığını, sonra geri çəkildiyini söyləyəm. İstəyirdim təsəvvürünə gətirəsən ki, tarixin burulğanlı və sakit körfəzli çayı qərinələrdən-qərinələrə ara vermədən necə axıb, elə indinin özündə də naməlum ümmana doğru qıjıltıyla necə axır; istəyirdim ki, insanın ləpirinə düşüb gedəsən, o yenicə adam şəklinə düşərkən atdığı ilk addımlarından başlayasan, özünün böyük mədəniyyətiylə belə lovğa-lovğa və ağılsızcasına öyündüyü günə qədər, bugünkü günə qədər o insanı izləyəsən. Yəqin ki, yadındadır, o zaman sən Massuridə olanda biz söhbəti elə belə də başlamışdıq; odun kəşf edilməsindən və əkinçilikdən, şəhərlərdə məskən salmaqdan və əmək bölgüsündən danışmışdıq. Amma nə qədər çox irəli gedirdiksə, müxtəlif imperiyalarda və buna bənzər yerlərdə bir o qədər çox batıb qalırdıq, tez-tez izi itirirdik. Biz tarixə ancaq səthi nəzər salırdıq. Mənim



sənə təqdim etdiyim, keçmişdə baş vermiş hadisələrin ancaq qurucа cizgisi idi, kaş bircə qüvvəm olaydı ki, bu cizgiyə can verəydim, keçmişi sənə canlı və dolğun göstərəydim!

Amma yəqin bilmirəm, belə bir qüvvəyə malikəmmi; demək bu möcüzəni yaratmaq üçün sən gərək öz təxəyyülünə güc verəsən. Keçmiş haqda yaxşı kitablardan oxuyub biləcəksənsə, onda niyə yazım ki? Amma şübhəmə rəğmən mən yazmağımı davam etdirirəm və elə bilirəm ki, bundan sonra da davam etdirəcəyəm. Sənə verdiyim vəd yadımdadır, çalışacağam ki, yerinə yetirəm. Amma məni yazmağa daha çox təhrik edən fərəhdir, əlimə qələm alıb yazmaq istəyəndə məni bürüyən fərəh, mən elə düşünürəm ki, yanımdasan, özümüz də əyləşib söhbət edirik.

İnsanın o vaxtdan bəri belini bükə-bükə, ağır addımlarla cəngəllikdən çıxdığı andan bəri keçdiyi yol haqqında əvvəldə yazmışdım. Bu, neçə min illər çəkən uzun-uzadı bir yol idi. Hərgah bu zaman parçasını Yerin tarixiylə – insanın meydana çıxmasından qabaq keçən tarixiylə, dövrlərlə və eralarla tutuşdurmuş olsaq görərik ki, o, necə də qısaydı! Lakin təbiidir ki, bizim üçün insan daha əvvəl mövcud olan bütün nəhəng heyvanatdan daha çox maraq doğurur. İnsan, görünür, başqalarının malik olmadığı nə isə bir şeyi öz varlığında daşıdığına görə daha çox maraqlıdır. Bu, ağıldır, yetkinlikdir, bilmək və öyrənmək həvəsidir. İnsan öz axtarışına ən erkən vaxtdan bəri belə başlamışdır. Körpəni seyr elə, gör o, ətrafındakı yeni və qəribə aləmə necə baxır, şeyləri və adamları necə tanımağa başlayır, necə öyrənir. Bir qızcığaza bax, hərgah o, sağlam və diribaşdırsa çox şey barəsində xeyli sual verir. Bizim tariximizin də ilk çağında belə olmuşdur; o zaman insan cavan idi, aləm isə ondan ötrü yeni, qəribə və qorxulu bir şeydi; o da görünür, həmin körpətək ətrafına boylanırdı, hər şeyə diqqətlə baxır və suallar verirdi. Özündən savayı kimdən soruşa bilirdi? Ona cavab verəcək başqa bir kəs yox idi. Amma o, kiçik bir qəribə şeyə – ağıla malikdi, ağır-ağır, əzab çəkə-çəkə təcrübə toplayır və beləliklə də öyrənirdi. Ən erkən dövrdən başlayaraq ta bizim günlərədək insan öz axtarışını davam etdirir, o, çox şeyi öyrənsə də, bilib öyrənməyə hələ çox şey qalıb. O öz yolu ilə irəli hərəkət edir, qarşısında yeni-yeni üfüqlər, məqsədlər açılır, bu üfüqlər göstərir ki, o öz axtarış hədəfindən hələ çox uzaqdadır.

İnsan nə axtarır, onun yolu haradır? Adamlar min illər boyu çalışıblar ki, bu suallara cavab versinlər. Din də, fəlsəfə də, elm də – hamısı bu suallar üzərində baş sındırmış və cürbəcür cavablar vermişdir. Mən bu cavabların çoxunu bilmədiyim üçün həmin cavablarla sənin beynini

yormayacağam. Amma din, əsasən, ətraflı və qəti, heç bir etirazla razılaşmadan cavab verməyə cəhd göstərirdi. O, çox vaxt düşüncənin qeydinə qalmırdı və cürbəcür yollarla çalışırdı ki, insanı öz hökmlərinə tabe etdirsin. Elmin verdiyi cavablar şübhə və tərəddüd üçün yer qoyur, lakin elmin təbiəti belədir, elm hər şeyi hökm şəklinə salmır, təcrübə aparır, mühakimə yürüdür və insan ağlına isnad edir. Mənim elmə və onun metodlarına tam üstünlük verdiyimi sənə deməyə ehtiyac yoxdur.

Biz insan axtarışının məqsədi barədəki suala az-çox inamla cavab vermək iqtidarında olmasaq da, görürük ki, bu axtarış iki istiqamətdə getmişdir. İnsan cəhd edirdi ki, həm təbiəti, həm də özünü anlamaq üçün həm özünün xaricində, həm də daxilində axtarışlar aparsın. Axtarışın məqsədi əslində eyni bir şeydir, çünki insan təbiətin bir hissəsidir. "Özün özünü dərk elə" – Hindistanın və Yunanıstanın qədim filosofları belə deyirdi; *Upanişadalarda* bu biliyə yiyələnmək üçün qədim hind arilərinin yorulmaq bilmədən göstərdiyi qəribə səylərin salnaməsi toplanıb. İkinci istiqamət təbiəti dərk etməkdir ki, bu da elmin ancaq özünə xas olan sahəsi idi və müasir dünyamız bu sahədəki çox böyük tərəqqinin şahididir. İndi elm öz qanadlarını daha geniş açır, hər iki istiqamətdəki axtarışları öz üzərinə götürərək onları əlaqələndirir. O öz nəzərini inamla ən uzaq ulduzlara yönəldir və bizə ardı-arası kəsilmədən hərəkətdə olan qəribə xırda zərrəciklərdən də – bütün materiyanın ibarət olduğu elektronlardan və protonlardan söhbət açır.

İnsan öz ağlı sayəsində kəşflər yoluyla çox irəliləyib. O, təbiəti daha yaxşı dərk etməyi öyrəndikcə onu öz iradəsinə tabe etmək üçün bu bilikdən istifadə edib və bu üsulla daha da qüdrətli olub. Amma bədbəxtlikdən bu yeni qüvvədən istifadə yollarını həmişə bilmədiyi üçün tez-tez ondan sui-istifadə etmişdir. İnsan əksər hallarda dəhşətli silah yaratmaq üçün hətta elmdən istifadə etmişdir ki, öz qardaşlarını öldürsün və belə böyük səy bahasına özü qurmuş olduğu mədəniyyəti puç etsin.

## ERAMIZIN BİRİNCİ MİNİLLİYİNİN SONU

*11 iyun 1932-ci il*

Yəqin, öz səyahətimizdə gəlib çatdığımız mərhələdə dayanmağımıza və ətrafa nəzər salmağımıza dəyər. Biz çoxmu uzaqlara getmişik? İndi haralardayıq? Dünyanın vəziyyəti necədir? Gəl Ələddinin sehirli xalçatəyyarəsinə minək və dünyanın müxtəlif hissələrinə qısaca baş çəkək.



Eramızın birinci minilliyinə səyahəti başa çatdırdıq. Bəzi ölkələrdə bir qədər uzaqlara gedib çıxdıq, o birilərində isə səyahətimizi tam başa vurmadıq.

Asiyada Çini Sun sülaləsinin hakimiyyəti altında görürük. Böyük Tan sülaləsinin hakimiyyət dövrü başa çatdı. İndi Sunlar həm daxili iğtişaşlara, həm də şimal vəhşilərinin – kidanilərin basqınlarına qarşı mübarizə aparmaq məcburiyyətində qalmışdılar. Onlar yüz əlli il hakimiyyət başında dursalar da, o qədər zəif düşmüşdülər ki, vəhşilərin digər tayfası olan qızıl tatarlardan, yaxud tszinlərdən yardım diləmişdilər. Tszinlər ölkəyə gəldilər və burada qaldılar. Cənuba doğru geri çəkilməyə məcbur olmuş yazıq Sunlar burada daha yüz əlli il dövləti idarə etdilər. Bu dövrdə naqqaşlıq və çini qablar istehsalı kimi zərif sənətlər inkişaf etmişdi.

Koreyada dağınıqlıq və daxili çəkişmələrdən sonra 935-ci ildə müstəqil krallığın bünövrəsi qoyuldu. Bu da dörd yüz əlli ilə yaxın ömür sürdü.

Koreya öz mədəniyyətini və incəsənətini, idarəetmə üsullarını bir çox cəhətdən Çindən götürmüşdü, din və qismən incəsənətin özü də Koreyaya, Yaponiyaya gəldiyi kimi Çin vasitəsilə Hindistandan gəlmişdi. Lap Uzaq Şərqdə, Asiyanın darvazası qarşısında keşikçi kimi duran Yaponiya bütün qalan aləmdən qismən ayrı düşmüş halda, təkbaşına həyat sürürdü. Fudzivara ailəsi lap bu yaxınlara kimi adi qəbilə başçısı olan imperatorları sıxışdıraraq ağalıq edirdi. Hakimiyyət başına daha sonralar Syöqunlar gəldi.

Malay ölkələrində hind koloniyalarının çiçəklənən çağıdır. Öz inkişafının və qüdrətinin ən yüksək nöqtəsinə çatan Kamboca kimi bir dövlətin paytaxtı əzəmətli Anqkor olur. Sumatradakı Şrivicayya böyük Budda imperiyasının paytaxtıdır – imperiya bütün şərq adalarına nəzarət edir və orada geniş ticarət aparır. Yavanın şərq hissəsində müstəqil hinduist dövləti mövcuddur; çox çəkməz ki, bu dövlət möhkəmlənər, ticarət üstündə və Şrivicayyanın qazandığı sərvət üstündə onunla rəqabətə girər və amansız müharibəyə başlar (ticarət xatirinə Avropa dövlətlərinin elədiyi kimi) və nəhayət Şrivicayyaya qalib gəlib onu yerlə yeksan edər.

Hindistanda şimalla cənub bir-birindən əvvəllərdə olduğundan daha çox ayrı düşmüşdür. Mahmud Qəznəvi dönə-dönə şimala basqınlar edərək, ölkəni çapıb-talayır. O, gedəndə külli miqdarda sərvət aparır və Pəncabı öz səltənətinə qatır. Cənubda Çolalar imperiyası ilə qarşılaşırıq.

Öz torpaqlarını genişləndirən imperiya Racəracənin və oğlu Racendranın hakimiyyəti altında öz qüdrətini möhkəmlədir. Çolalar Cənubi Hindistanda üstünlüyə malikdirlər, onların donanması Ərəb dənizində və Benqaliya körfəzində hökmranlıq edir. Onlar Seylona, Cənubi Birmaya və Benqaliyaya təcavüzkar istilaçı ekspedisiyalar yollayırlar.

Mərkəzi və Qərbi Asiyada Abbasilərin Bağdad imperiyasının qalıqlarını görürük. Bağdad hələ də çiçəklənməkdədir, təzə hökmdarların, səlcuq türklərinin hakimiyyəti altında qüdrəti hətta daha da artır. Amma qədim imperiya bir çox padşahlıqlara bölünmüşdü. İslam daha vahid imperiya deyil, bir çox ölkə və xalqların dininə çevrilmişdi. Abbasilər imperiyasının xarabalığı üzərində Qəznəvilər dövləti yaradılmışdı. Dövlətin hakimi Qəznədən Hindistana basqınlar edən Mahmud idi. Hərçənd Bağdad imperiyası daha mövcud deyildi, Bağdad özü uzaq-uzaq ölkələrdən rəssamları və təhsil görmüş adamları cəlb edən əvvəlkitək böyük şəhər idi. Bu dövrdə Orta Asiyada da bir çox böyük və məşhur şəhərlər – Buxara, Səmərqənd, Bəlx və başqa şəhərlər inkişaf edirdi. Həmin şəhərlər bir-birilə geniş ticarət əlaqələri saxlayır, ticarət malları ilə yüklənmiş böyük karvanlar şəhərdən-şəhərə yollanırdı.

Monqolustanda və qonşu ölkələrdə yeni köçəri tayfaların sayca çoxaldığını və qüdrətinin artdığını görürük. Aradan iki yüz il keçəndən sonra bu köçəri tayfalar Asiyanın hər yerinə sürətlə yayılmağa başladı. Hətta Orta və Qərbi Asiyada ağalıq edən xalqlar belə köçərilərin ana yurdu olan Mərkəzi Asiyadan gəlmişdilər. Çinlilər bu köçəri tayfaları qərbə doğru sıxışdırdılar və nəticədə köçəri tayfaların bir hissəsi Hindistana üz qoydu, bir hissəsi də Avropaya. Qərbə, Bağdad imperiyasına qovulmuş səlcuq türkləriylə yanaşı müvəffəqiyyətin necə qayıtdığını, Konstantinopoldakı Şərqi Roma imperiyasına türklərin hücum etdiyini və imperiyanı məğlubiyyətə uğratdığını görürük.

Asiyada vəziyyət belə idi. Qırmızı dənizin o biri tayında Bağdaddan asılı olmayan Misir qərar tuturdu. Yerli müsəlman əmiri orada özünü müstəqil xəlifə elan etmişdi. Şimali Afrika da müstəqil müsəlman əmirlərinin hakimiyyəti altında idi. Cəbəllütariq boğazına qarşı duran sahildə, İspaniyada daha bir müstəqil müsəlman dövləti: Kurtuba və ya Kordova əmirliyi mövcud idi. O əmirlik haqqında sənə sonralar bəzi şeylər danışacağam. Amma sən bilirsən ki, Abbasi xəlifələri hakimiyyət başına gələndə İspaniya onlara tabe olmaqdan boyun qaçırmışdı. O vaxtdan etibarən İspaniya müstəqil olur. Bundan xeyli əvvəl onun Fransanı istila



etmək cəhdləri Karl Martell tərəfindən pozulmuşdu. İndi İspaniyanın şimal hissəsindəki xristian dövlətlərinin müsəlmanlara hücum etmək vaxtı gəlib çatmışdı. Xristian dövlətləri də getdikcə böyük qətiyyətlə hücum edirdilər. Amma bəhs etdiyimiz o dövrdə Kordova əmirliyi mədəniyyət və elm cəhətdən Avropa ölkələrini çox qabaqlamış iri və mütərəqqi bir dövlət olmuşdu.

İspaniyanı çıxmaq şərtilə Avropa indi bir sıra xristian dövlətlərinə ayrılmışdı. O dövrdə xristianlıq bütün qitədə yayılmışdı, odur ki, qəhrəmanlara, allahlara və ilahələrə pərəstiş edən qədim dinlər Avropada demək olar qeyb olmuşdu. Biz bu dövrdə müasir Avropa dövlətlərinin əmələ gəldiyini görürük. Fransa Quqo Kapetin hakimiyyəti altında 987-ci ildə meydana gəldi. 1016-cı ildə İngiltərədə danimarkalı Kanut artıq hökmdar idi; onun haqqında belə bir şayiə yayılmışdı ki, guya o, dəniz dalğasına geri çəkilməyi hökm etmişdir. Aradan əlli il ötəndən sonra isə Fateh Vilhelm Normandiyadan İngiltərəyə gəldi. Almaniya Müqəddəs Roma imperiyasının bir hissəsi idi, hələ o, bir çox xırda dövlətlərə parçalanmış halda qalmasına baxmayaraq, qəti surətdə bir ölkəyə çevrilirdi. Şərqdə rus dövləti genişlənirdi, gəmiləri də Konstantinopolu tez-tez qorxu altına alırdı. Bu, Rusiyanın həmişə Konstantinopola bəslədiyi qəribə meylin başlanğıcı idi. Rusiya düz min il idi ki, bu şəhərə yiyələnmək həsrətindəydi və ümid edirdi ki, on dörd il qabaq qurtarmış olan dünya müharibəsindən sonra nəhayət öz istəyinə çatacaq. Amma gözlənilmədən inqilab başlandı, köhnə Rusiyanın bütün planlarını alt-üst etdi.

Doqquz yüz il əvvəl Avropanı təsvir edən xəritədə sən Polşanı və madyarların yaşadığı Macarıstanı da, üstəlik bolqarların və serblərin çarlıqlarını da görərsən. Əlbəttə, çoxlu düşmənlə əhatə olunan, yenə əvvəllərdəki kimi özünü müdafiə edən Şərqi Roma imperiyasını da görə bilərsən. Bu imperiyaya gah ruslar hücum edir, gah onu bolqarlar rahat qoymur, gah da normanlar onu dənizdən daim təşvişə salırdı. İndi də onların hamısından qorxulu səlcuq türkləri gəlib imperiyanın axırına çıxmaq təhlükəsi törətmişdilər. Amma imperiya bütün düşmənlərinə və çətinliklərə baxmayaraq daha dörd yüz il davam gətirmişdi. İnsanı heyran qoyan bu dəyanət qismən də Konstantinopolun alınmaz qalaya çevrilməsiylə izah olunur. Şəhərin yerləşdiyi yer elə əlverişli idi ki, düşmən üçün şəhəri almaq çətin idi. İnsanı heyran edən bu dəyanət qismən də yeni müdafiə vasitələrinin – yunanlar tərəfindən kəşf edilən vasitələrin

meydana gəlməsilə izah olunur. Bu, "yunan alovu" deyilən bir alovdu, suya toxunarkən alışıb-yanan bir maddə idi. Konstantinopol sakinləri yunan alovunun köməyilə yadelli orduların sıralarında vahimə salır, ordular Bosfordan keçmək istərkən onların gəmilərini yandırırdılar.

Eramızın birinci minilliyinin sonunda Avropanın xəritəsi belə idi. Son həmçinin şimal adamlarına, yaxud normanlara da rast gələrdin; onlar öz gəmiləriylə Aralıq dənizinə gələrək buradakı sahil şəhərlərini və dənizdəki gəmiləri ara vermədən təşvişə salır və talan edirdilər. Qarət yolu ilə varlanandan sonra bu adamlar böyük hörmət qazandılar. Fransada onlar qərbdə, Normandiyada yerlərini möhkəmləndirmişdilər. İngiltərəni özlərinin Fransadakı bazalarından hücum edərək ələ keçirmişdilər. Döyüşə-döyüşə Siciliyanı müsəlmanlardan alandan sonra Cənubi İtaliyanı qataraq Siciliya krallığının əsasını qoymuşdular.

Avropanın mərkəzində Şimal dənizindən Romaya qədər olan sahəni Müqəddəs Roma imperiyası tutmuşdu, imperiya bir çox dövlətdən ibarətdi, bu dövlətlər də bir başçıya – imperatora tabe idi. Alman imperatoruyla Roma papası arasında ağalıq üstündə arasıkəsilməyən çəkişmə gedirdi. Hərdən imperator üstün gəlirdi, hərdən papa, amma yavaş-yavaş Roma papaları daha da güclənirdi. Qovulma qorxusu, yəni insanı cəmiyyətdən kənar etmək və onu qanun xaricində qoymaq – papaların əlində dəhşətli bir silahdı. Bir məğrur imperatoru, papa elə hala salmışdı ki, o, İtaliyaya, papanın Kanossodakı iqamətgahına qara bata-bata ayaqyalın getməyə, günahlarının bağışlanmasını xahiş etməyə, papa rəhmə gəlincə və onu qəbul edənə qədər bayırda qalıb gözləməyə məcbur olmuşdu.

Biz Avropa ölkələrinin ümumi mənzərəsinin necə aydınlaşdığının şahidi oluruq. Amma Avropa ölkələrinin ümumi mənzərəsi, xüsusən də əhalisi, onların müasir vəziyyətindən kəskin surətdə fərqlənirdi. Əhali özünü çətin ki, *fransız, ingilis* və ya *alman* adlandırsın. Yazıq əkinçi miskin varlıqdı, ümumiyyətlə, ölkə barədə, coğrafiya barədə heç nə bilmirdi. Bircə onu bilirdi ki, o, öz ağasının təhkimli kəndlisidir və gərək onun hökmünü yerinə yetirsin. Hərgah zadəganlardan soruşsaydılar ki, onlar kimdirlər, belə cavab verərdilər ki, müəyyən bir yerin ağasıdırlar və daha möhtərəm hakimin və ya kralın özünün vassallarıdırlar. Bütün Avropada yayılmış feodal sistemi belə idi.

Biz Almaniyada və xüsusən də Şimali İtaliyada iri şəhərlərin tədricən boy atdığını görürük. Paris də o vaxtlar başqa şəhərlərdən fərqlənirdi. Ticarət mərkəzi olan bu şəhərlərdə sərvət toplanır. Şəhərlərin feodal senyorları görən gözü yoxdur; odur ki, aralarında hey çəkişmə baş verir. Amma axırda qalib çıxan pul olur. Şəhərlər feodallara borc verdiyi pulun köməyilə imtiyaz və hakimiyyəti satın alırlar. Beləliklə də şəhərlərdə yeni sinif – feodal sistemində yeri dar olan sinif tədricən yetişirdi.



Beləliklə, biz görürük ki, Avropada cəmiyyət feodal quruluşuna müvafiq təbəqələrə ayrılır. Hətta kilsə belə bu qayda-qanunu bəyənir və ona xeyir-dua verir. Milli şüur yoxdur. Amma müəyyən bir şüur – Avropanı, xüsusən yüksək sinifləri başdan-başa bürüyən xristianlıq ideyası, yəni Avropanın xristian millətlərini birləşdirən bir ideya mövcuddur. Bu ideya kilsənin özünü möhkəmləndirdiyi üçün o, həmin ideyanın yayılmasına kömək edir, eyni zamanda Roma papasının, yəni hazırda Qərbi Avropada şəksiz kilsə başçısı olan papanın hakimiyyətini gücləndirir. Yadında olar, Roma Konstantinopoldan və Şərqi Roma imperiyasından ayrılmışdı. Konstantinopol yenə də qədim pravoslav kilsəsi dininə tərəfdardı. Rusiya da bu dini qəbul edir. Konstantinopol yunanları Roma papasını tanımaq istəmirdilər.

Amma təhlükə baş verən vaxtda, yəni Konstantinopolu düşmən əhatə edərkən və onu xüsusilə səlcuq türkləri qorxu altına alarkən, o, öz qürurunu və Romaya bəslədiyi kini unutdu və dinsizlərə, müsəlmanlara qarşı papadan kömək dilədi. O zaman Romada böyük papa vardı – Gildebrand, bu papa VII Qriqori oldu. Məğrur alman imperatoru ayaqyalın, qara bata-bata məhz Gildebrandın hüzuruna Kanossaya gəlmişdi.

O zaman xristian Avropasının təxəyyülünü daha bir hadisə təşvişə salırdı. Bir çox dindar xristianlar inanırdı ki, İsanın anadan olmasından düz min il sonra dünyanın qəfildən sonu çatacaq. "*Millennium*" sözü "min ili" bildirir; o, iki latın sözündən əmələ gəlib: *mille* (min) və *annus* (il). O vaxt dünyanın sonunu gözlədikləri üçün millennium – minillik müddət sözü daha yaxşı dünyaya qəflətən keçmək mənası kəsb edib. Bayaq sənə demişdim ki, o zaman Avropada böyük səfalət hökm sürürdü, odur ki, "minillik səltənət"in gəlməsi perspektivi bir çox əzabkeş adamlara rahatlıq bəxş edəcəyi ehtimalını bildirirdi. Çoxları torpağını sataraq Fələstinə getmişdilər ki, dünyanın sonu çatanda öz müqəddəs torpaqlarında olsunlar.

Di gəl, dünyanın sonu çatmadığına görə Yerusəlimə səyahət etmiş minlərcə zəvvar onlara rahatlıq verməyən türklərin pis rəftarına məruz

qalırdı. Təhqir görmüş bu adamlar qəzəbli halda Avropaya qayıdır və hər yanda müqəddəs torpaqda çəkdikləri müsibətlərdən danışırdılar. Ən çox canfəşanlıq edən məşhur zəvvar Şəhranişin Pyotr olub. O, əlinə əsa alıb aləmi dolaşa-dolaşa adamları müqəddəs Yerusəlim şəhərini müsəlmanların əlindən xilas etməyə çağırırdı. Xristian aləmində hiddət və coşqunluq artırdı. Bunu görən Roma papası hərəkata özü başçılıq etməyi qət etdi.

Təqribən bu zaman Konstantinopoldan dinsizlərə qarşı köməyə çağıran xahiş səsi eşidildi. Görünür həm Roma katolik xristianlığı, həm də yunan-pravoslav xristianlığı yaxınlaşmaqda olan türklərə qarşı sıx birləşmişdi. 1095-ci ildə böyük kilsə məclisi müqəddəs Yerusəlim şəhərinin azadlığı uğrunda müsəlmanlar əleyhinə müqəddəs müharibə elan etdi. Səlib yürüşləri – islama qarşı xristianların mübarizəsi – xaç yürüşü belə başladı.

## ASİYAYA VƏ AVROPAYA DAHA BİR NƏZƏR

*12 iyun 1932-ci il*

Eramızın birinci minilliyinin sonundakı dünyanın – Asiyanın və Avropanın, eləcə də Afrikanın bir hissəsinin qısaca icmalını başa çatdırdıq. Gəl bir də nəzər salaq.

Asiya, Hindistan və Çinin qədim mədəniyyəti yenə də yaşayır və tərəqqi edir. Malay ölkələrinə və Kambocaya yayılan hind mədəniyyəti o ölkələrdə bol-bol bəhrə verir. Çin mədəniyyəti Koreyada və Yaponiyada, qismən də Malay ölkələrində yayılır. Qərbi Asiyada ərəb mədəniyyəti Ərəbistanda, Fələstində, Suriyada və Mesopotamiyada üstün yer tutur; qədim İran mədəniyyəti və daha yeni ərəb mədəniyyəti bir-birinə uyuşaraq İranda geniş yayılır. Bu İran-ərəb mədəniyyətini qəbul edən bəzi Mərkəzi Asiya ölkələri, bununla yanaşı öz üzərlərində Hindistanın və Çinin təsirini də hiss edirdilər. Bu ölkələrin hamısında mədəniyyətin səviyyəsi yüksəkdi, sənətkarlıq, elm və incəsənət tərəqqi edirdi, çoxlu iri şəhərlər mövcuddu; məşhur darülfünunlar lap uzaqlarda olan tələbələri də cəlb edirdi. Ancaq Monqolustanda və Mərkəzi Asiyanın bəzi hissələrində, eləcə də Sibirdə, şimalda mədəniyyətin səviyyəsi aşağı idi.



İndisə Avropa haqqında. Asiyanın mütərəqqi ölkələriylə müqayisədə Avropa geridə qalmış, yarımvəhşi bir ölkə idi. Qədim Yunan-Roma mədəniyyətindən yalnız keçmişin xatirələri qalmışdı.

Təhsilə, savada qiymət verən yox idi, sənətkarlıq zəif inkişaf etmişdi, ticarət Asiyada olduğundan qat-qat kiçik miqyasda aparılırdı. Amma iki mütərəqqi ocaq vardı: ərəblərin hakimiyyəti altında böyük ərəb dövranının ənənələrini davam etdirən İspaniya və yavaş-yavaş süquta meyil etsə də, Avropa və Asiya ayrıcında yenə də iri və izdihamlı şəhər olan Konstantinopol. Avropanın çox hissəsində tez-tez iğtişaş baş verirdi və feodal sisteminin ağalığı mühitində hər bir cəngavər və senyor öz torpaqlarında balaca padşah idi. Keçmişdə imperiyanın paytaxtı olan Roma bir vaxt kənddən heç də böyük deyildi və onun qədim Kolizeyində heyvanlar yurd salmışdı. Amma o, təzədən böyüməyə başladı.

Beləliklə, eramızın başlanmasından min il sonra Asiya və Avropa qitələrini müqayisə etsək, bu müqayisə xeyli dərəcədə Asiyanın xeyrinə olar.

Gəl Asiyaya bir daha nəzər salaq və dərinliklərdə nələr baş verdiyinə baxaq. Bu zaman görərik ki, Asiyada vəziyyət heç də səthi müşahidəçinin təsəvvür etdiyi qədər də yaxşı deyildi. Qədim mədəniyyətin ilk beşiyi olan Hindistan və Çin ağır vəziyyətdə idi. Onların müsibəti xaricdən edilən basqınlardan daha çox həyati qüvvələrini içəridən yeyən və qurudan daha mühüm bir şeydə idi. Qərbdə ərəblərin təntənə etdiyi dövran sona çatmışdı. Düzdür, səlcuqların qüdrəti artsa da, bu, onların ancaq döyüş rəşadətlərinin nəticəsi idi. Hindlilərdən, çinlilərdən, iranlılardan və ərəblərdən fərqli olaraq onlar Asiya mədəniyyətini yox, onun döyüş qabiliyyətini təmsil edirlər. Asiyanın hər yerində, görünür, qədim mədəni irqlər geriləyirlər. Onlar öz qüdrətini itirdiklərinə görə müdafiəyə keçirlər. Yeni, güclü və çevik xalqlar ayağa qalxır, onlar Asiyanın bu qədim irqlərini itaətə gətirərək, Avropanı belə təhlükə altına alırlar. Lakin o güclü xalqlar özləriylə mədəniyyət gətirmədiyindən və ya mədəniyyətin inkişafı üçün yeni amillərə malik olmadığından qədim irqlər öz qaliblərini tədricən mədəniləşdirir və assimilyasiya edirlər.

Demək, Asiyada böyük dəyişikliyin necə baş verdiyini görürük. Qədim mədəniyyət yaşamaqda davam etsə də, incəsənət əvvəlki kimi çiçəklənsə də, nəfis cah-calal hökm sürsə də, mədəniyyətin nəbzi aşağı düşür və həyat nəfəsi get-gedə zəifləyir. Bu çox uzun çəkir. Monqollar

gələrkən, dediyimiz prosesin kəskin surətdə ara verməsini və ya qəflətən sona çatmasını Ərəbistandan və Orta Asiyadan başqa heç yanda görmürük. Çində və Hindistanda mədəniyyət yavaş-yavaş tənəzzülə uğramağa başlayır. Qədim mədəniyyət uzaqdan baxanda gözəl görünən, ancaq həyatdan tam məhrum olan rəngli şəklə oxşamayınca bu hal davam edir. O şəklə yaxın gedəndə görürsən ki, ağ qarışqalar orada artıq öz işlərini görüblər.

İmperiyalar kimi, mədəniyyət də xarici düşmənlərin qüdrəti üzündən deyil, daxili zəiflik və tənəzzül üzündən məhv olur. Roma vəhşilərin soxulması nəticəsində süqut etməmişdi, onların dağıtdığı artıq cansız olan bir şeydi. Romanın ürəyi onun əzalarını ayırdıqda döyünməkdən qalmışdı. Buna bənzər prosesin cizgilərini Hindistanda və Çində, eləcə də ərəblərdə müşahidə edirik. Ərəb mədəniyyətinin yüksəlişi necə qəfil olmuşdusa, onun məhvi də eləcə qəfildən oldu. Hindistanda və Çində mədəniyyətin məhv olması prosesi uzun sürdüyündən bu prosesi izləmək asan deyil.

Bu proses hələ Mahmud Qəznəvi Hindistana gəlməmişdən xeyli əvvəl başlamışdı. Bu haqda biz adamların zəkasında baş verən dəyişikliyə əsasən mühakimə yürüdə bilərik. Yeni ideyalar və yeni şeylər yaratmaq əvəzinə Hindistanda çoxdan yaradılmışları təkrar edir və yamsılayırdılar. Hindli zəkası öz itiliyini hələ hifz etsə də, onlar keçmiş zamanlarda çoxdan deyiləni və yazılanı izah və şərh edirdilər. Onların yaratdığı gözəl-gözəl heykəllər və oyma təsvirlər hələ də lüzumsuz detalla, bəzəklə dolu olurdu və çətin anlaşılırdı. Fikirdə cəsarət və nəciblik aradan getdiyi kimi, orijinallıq da yox olmuşdu. Zərif ədalar, incəsənət və zinət əvvəlki kimi yenə də varlıların nəsibiydi. Di gəl bütün xalqın ağır zəhmətini və fəlakətini yüngülləşdirmək üçün görülən iş çox azdı.

Bütün bunlar mədəniyyətin yaxınlaşmaqda olan qürubunun əlamətləridir. Bu qürub baş verdikdə mədəniyyətin puç olması inamı yaranır. Çünki həyat əlaməti əzbərləmə və yamsılama deyil, yaradıcılıqdır.

Buna bənzər prosesləri o zamanlar Çində və Hindistanda görürük. Gəl məni düz başa düş. Mən onu demək istəmirəm ki, bu proseslər üzündən Çində və Hindistanda həyat guya dayanmışdı və ya onların hər ikisi cəhalətə qapılmışdı. Mən onu demək istəyirəm ki, hələ qədimlərdə Çinin və Hindistanın aldığı yaradıcılıq təkanının gücü biryolluq tükənmişdi. Onlar dəyişilmiş şəraitə alışa bilmirdilər və sadəcə olaraq köhnə



qaydada yaşamağı davam etdirirdilər. Təbiidir ki, bu hadisə hər bir ölkənin və mədəniyyətin başına gələ bilər. Böyük yaradıcılıq səyləri və yüksəlişi mərhələləri də var, yaradıcılığın tükənmə mərhələləri də. Hindistanda və Çində yaradıcılığın tükənmə mərhələsinin belə gec gəlib çatması çox təəccüblüdür. Üstəlik də ki, bu mərhələ heç vaxt tam olmayıb.

Hindistanın tərəqqisi üçün islam özüylə yeni həvəsləndirici amillər gətirdi. İslam müəyyən dərəcədə fəaliyyəti yüksəldən vasitə kimi təsir göstərirdi. İslam dini Hindistanı ayıltdı. Amma onun ölkəyə təsiri əslində gözlənildiyindən az oldu ki, bunun da iki səbəbi var. İslam ölkəmizə lazım olan yolla gəlmədi, həm də çox gec gəldi. Mahmud Qəznəvinin ölkəyə basqınından yüz illər qabaq müsəlman missionerləri Hindistanın hər yerini gəzib-dolaşırdı və hər yanda da yaxşı qarşılanırdı. Onlar xeyir-duayla gəlir və müəyyən müvəffəqiyyət də əldə edirdilər. İslam dini heç kəsdə demək olar kin və ədavət oyatmırdı. Kin və ədavət olsa da, bu çox zəif idi. Sonra bir əlində od, o biri əlində qılınc Mahmud gəldi; Mahmud Qəznəvinin Hindistanda bir istilaçı, qəsbkar və qatil kimi törətdiklərinin İslam dininin adına vurduğu ziyanı heç nə vura bilməzdi. Söz yox, o da digər böyük istilaçılar kimi əslində din haqqında az düşünür, ancaq çapıb-talayır və insanları qılıncdan keçirirdi. Amma onun basqınları haqqında xatirə Hindistanda İslam dini barədə uzun müddət qəm-kədər doğurmuş və adamlara imkan verməmişdi ki, İslam dini barəsində qərəzsiz fikir söyləsinlər. Halbuki Hindistanda özgə bir şərait olsaydı, onda bu din barədə mümkündür ki, qərəzsiz fikir söylənərdi.

Bayaq dediyim səbəblərdən biri budur. O biri səbəb isə İslam dininin ölkəmizə gec gəlməsi idi. İslam dini yaranandan təqribən dörd yüz il sonra Hindistana gəldi, bu müddətdə isə islamın qüvvələri bir qədər tükənmişdi və yaradıcılıq imkanlarını xeyli itirmişdi. Hərgah ərəblər Hindistana islam təlimiylə əvvəllər gəlmiş olsaydılar, onda yüksələn ərəb mədəniyyəti qədim hind mədəniyyətilə qaynayıb-qarışardı və onların hər ikisinin qarşılıqlı təsiri son dərəcə səmərəli olardı. Bu, iki mədəni irqin qaynayıb-qarışması olardı; din məsələlərində ərəblərin başqa dinlərə dözməsi, əql və idraka əsaslanması hamıya yaxşı məlumdur. Vaxtilə Bağdadda xəlifənin himayəsi altında bir növ kluba bənzər bir yer vardı və ən müxtəlif dinə mənsub adamlar, eləcə də dini qəbul etməyənlər oraya yığışar və müxtəlif məsələləri ancaq rasionalizm baxımından müzakirə edərdilər.

Lakin ərəblər Hindistanın özünə gəlib çatmadılar. Onlar Sinddə dayandıqlarına görə Hindistana cüzi təsir göstərdilər. İslam dinini Hindistana gətirən türk xalqları və digər xalqlar olub. Onların nə ərəblər kimi başqa dinlərə dözümü olub, nə də ərəblərinki kimi mədəniyyəti. Hər şeydən əvvəl bu xalqlar döyüşçü idilər.

Bununla belə Hindistan tərəqqi və yaradıcılıq səyləri üçün yeni bir təkan aldı. Bunun hansı üsulla Hindistana yeni həyat qüvvələri bəxş etdiyini sonralar nəzərdən keçirəcəyik.

Hind mədəniyyətinin zəifləməsinin başqa bir səbəbi də indi göz qabağındadır. Xaricdən hücumlara məruz qalan bu mədəniyyət hücum çəkən dalğalardan qorunmağa cəhd edərək demək olar ki, öz qınına çəkilib gizlənmişdi. Bu vəziyyət zəiflik və qorxu əlamətiydi və müalicə, şəfa əvəzinə xəstəliyi ancaq gücləndirirdi. Əslində bu xəstəlik yadellilərin hərbi müdaxiləsindən deyil, mədəniyyətin özünün durğunluğundan irəli gəlirdi. Öz qınında gizlənmə isə durğunluğun daha da güclənməsinə səbəb olurdu və nəticədə inkişafa aparan bütün yolları bağlayırdı. Sonralar görəcəyik ki, Çin də, Yaponiya da özünə uyğun tərzdə o cür hərəkət etmişdi. Çanağa bənzər qapalı cəmiyyətdə yaşamaq qorxuludur. Onda biz quruyub qalırıq, saf havadan və saf ideyalardan yadırğamış oluruq. Ayrı-ayrı şəxsə saf hava nə qədər vacibsə cəmiyyətə də bir o qədər vacibdir.

Asiya haqqında dediklərimiz bəsdir. Gördüyümüz kimi, Avropa o zamanlar geridə qalmışdı və daxili çəkişmələr qitəni bürümüşdü. Amma bu qarışıqlıq, bu nifaq, bu davakarlıq arxasında hər halda qətiyyət, həyat görünürdü. Asiya uzun müddət ağalıq edəndən sonra tənəzzülə doğru gedirdi. Avropa isə yüksəlməkdə idi. Amma o, Asiyaya çatmaq üçün uzun bir yol keçməliydi.

Bu gün Avropa hökmranlıq edir, Asiya isə azadlıq uğrunda çətin mübarizə aparır. Bununla belə, biz daha dərinlərə baş vurduqca Asiyada yeni qətiyyət, yeni yaradıcılıq ruhu və yeni həyat aşkar edirik. Asiya yenidən ucalır, buna şəkk-şübhə ola bilməz. Di gəl, Avropa, daha doğrusu, Qərbi Avropa, özünün bütün qüdrətinə baxmayaraq, yenə də bəzi tənəzzül əlamətlərini büruzə verir. Avropa mədəniyyətini məhv etmək üçün kifayət qədər güclü vəhşilər daha yoxdur. Amma arabir mədəni xalqların özləri vəhşilər kimi hərəkət edir. Əgər bu hadisə üz verərsə, mədəniyyət özü-özünü məhv edər.

Mənim dediklərim Asiya və Avropaya aiddir. Lakin bu, yalnız coğrafi anlayışdır. Qarşımızda duran problemlər isə Asiya, yaxud Avropa



problemləri deyil, dünya problemləri və ya ümumbəşəri problemlərdir. Hərgah bu problemlər bütün dünya miqyasında həll olunmasa, bədbəxtlik və fəlakət davam edəcək. Bu problemləri həll etmək isə bütün dünyada yoxsulluğa və səfalətə son qoymaq deməkdir. Yalnız o vaxt bizdə bərabərliyə əsaslanan həqiqi mədəniyyət mövcud ola bilər ki, hər hansı bir ölkənin və ya sinfin istismar edilməsi ortadan götürülmüş olsun. Belə bir cəmiyyət onun üzvlərinin əməkdaşlığına əsaslanan yaradıcı və mütərəqqi cəmiyyət olacaqdır. Həmçinin belə bir cəmiyyət dəyişilən şəraitə uyğunlaşa bilər və nəticə etibarilə belə bir cəmiyyət bütün dünyanı əhatə etməlidir. Nə dağıntı, nə də tənəzzül – qədim mədəniyyətlərin düçar olduğu bu bəla belə bir mədəniyyət üçün qorxulu ola bilməz.

Demək, Hindistanın azadlığı uğrunda mübarizə aparırkən biz gərək yadda saxlayaq ki, ən böyük məqsəd bütün bəşəriyyətin azadlığıdır, bu böyük məqsəd həm bizim xalqımızın azadlığını, həm də digər xalqların azadlığını nəzərdə tutur.

## AMERİKADA MAYYA MƏDƏNİYYƏTİ

*13 iyun 1932-ci il*

Sənə demişdim ki, bu məktublarda mən dünya tarixinin gedişini izləməyə çalışıram. Amma əslində bu, Asiyanın, Avropanın və Şimali Afrikanın tarixidir. Amerika və Avstraliya haqqında çox az demişəm. Amma bu qədim dövrlərdə Amerikada mədəniyyətin mövcud olduğu haqqında səni xəbərdar etmişdim. Bu mədəniyyət haqqında məlumat azdır, mənim isə məlumatım lap azdır. Bununla belə bu haqda söz deməkdən özümü saxlaya bilmirəm. İstəyirəm adi səhvə yol verməyəsən, elə zənn etməyəsən ki, Kolumb və başqa avropalılar Amerikaya gəlməyincə guya ora adam ayağı dəyməyən bir ölkəydi.

Ehtimal ki, çox qədim əyyamda, daş əsrində, insan hələ oturaq həyata keçməmişdən əvvəl, o hələ bir yerdə qərar tutmayan ovçu ikən Asiya ilə Şimali Amerika arasında quru yolla əlaqə saxlanırdı. Dəstə-dəstə adamlar və qəbilələr bir qitədən o biri qitəyə Alyaska vasitəsilə adlayardı. Daha sonralar bu əlaqə kəsildiyindən Amerika xalqları tədricən özlərinin mədəniyyətini inkişaf etdiriblər. Yadında saxla ki, bizim

bildiyimizə görə, Asiya, yaxud Avropayla onların heç bir əlaqəsi yox idi. XVI əsrin axırlarında ta Yeni Dünya deyilən qitə kəşf edilənə qədər uğurlu əlaqə barədə indiyədək bir məlumat qalmayıb. Bu dünya bizim dünyadan uzaq və fərqli idi, Avropada, yaxud Asiyada baş verən hadisələr ona təsir etmirdi.

Görünür, Amerikada üç mədəniyyət mərkəzi mövcud olub. Meksikada, Mərkəzi Amerikada və Peruda. Bu mədəniyyət mərkəzlərinin nə vaxt əmələ gəldiyi aydın deyilsə də, Meksika təqvimi eramızdan əvvəl 613-cü ilə müvafiq gələn tarixdən başlayır. Eramızın əvvəllərində, II əsrdə, artıq burada xeyli şəhər görürük; sakinləri daşla hörmə sənətinə yiyələnmişdilər, dulusçuluqla, toxuculuqla məşğuldular, əla parça boyayırdılar. Qızıl və mis bol idi, amma dəmir yox idi. Memarlıq inkişaf edir, şəhərlər də inşaat sahəsində bir-birilə rəqabət aparırdı. Burada başqalarından fərqlənən, xeyli müəmmalı yazı vardı. İncəsənət, xüsusən də heykəltəraşlıq əsərləri çox yayılmışdı və öz gözəlliyilə fərqlənirdi.

Mədəniyyətin bu rayonlarından hər birində bir neçə dövlət mövcuddu. O dövlətlərdə bir neçə dildə xeyli ədəbiyyat vardı, güclü və yaxşı təşkil olunmuş hökumətlər mövcuddu, şəhərlərdə mədəni və ziyalı cəmiyyət vardı. Bu dövlətlərin istər qanunçuluğu, istərsə də maliyyə sistemləri çox inkişaf etmişdi. 960-cı ildə Uşmal şəhərinin bünövrəsi qoyulmuşdu. Şəhər sürətlə inkişaf edib böyüyürdü, onu o dövrlərdəki Asiyanın iri şəhərləriylə də tutuşdurmaq olardı. Digər iri şəhərlər də vardı: Labua, Mayyapan, Çakmultun.

Mərkəzi Amerikanın üç başlıca dövlətinin yaratdığı ittifaqı indi Mayyapan İttifaqı adlandırırlar. Bu, eramızın təqribən 1000-ci ilində olmuşdur, yəni Asiyada və Avropada gəlib çatdığımız dövrdə. Beləliklə, eramızın birinci minilliyinin axırlarında Mərkəzi Amerikada mədəni dövlətlərin qüdrətli sistemi təşəkkül tapmışdı. Di gəl, bu dövlətlərin hamısı və Mayya mədəniyyəti özü də kahinlərin zülmü altındaydı. Astronomiya ən hörmətli elm idi. Buna görə də kahinlər bu sahədə öz biliklərindən istifadə edərək, avam adamları aldadırdılar. Bir vaxtlar Hindistanda kahinlər milyonlarla adamı Günəş və Ay tutularkən çimməyə və pəhriz saxlamağa təhrik etdikləri kimi.

Mayyapan İttifaqı yüz ildən çox mövcud olmuşdur. Görünür, sosial inqilab baş vermiş və yad bir dövlət onun hüdudlarına soxulmuşdur. Təqribən 1190-cı ildə Mayyapan dağıdıldı. Amma digər iri şəhərlər hələ mövcud idi. Bir əsr də keçəndən sonra başqa bir xalq meydana



çıxdı. Bu, Meksikadan olan asteklər idi. XIV əsrin əvvəllərində onlar Mayya ölkəsini fəth etdilər və təqribən 1325-ci ildə Tenoçtitlan şəhərinin əsasını qoydular. Çox keçmədi ki, sayca çoxlu əhaliyə malik olan bu şəhər bütün Meksika ölkəsinin paytaxtı, asteklər imperiyasının mərkəzi oldu.

Asteklər döyüşkən millət olub. Onlar hərbi məskənlərə və qarnizonlara, hərbi yollar şəbəkəsinə malik idilər. Deyildiyinə görə, onlar o dərəcədə ağıllı idilər ki, özlərindən asılı dövlətləri bir-birinin üzərinə qaldırır. Beləliklə, dövlətlər ayrı-ayrı olduqda onları idarə etmək daha asan olurdu. Bu, bütün imperiyaların köhnə siyasətidir. Romalılar buna "Divide ef impera!" – "Parçala və hökm sür!" deyərdilər.

Asteklər başqa işlərdə ağıllı, fərasətli olsalar da, kahinlərin zülmü altındaydılar; ən pis cəhət də bu idi ki, onların dini insan qurbanı verməyi həyatda gen-bol tətbiq edirdi. Hər il minlərcə canlı insan qəddarcasına qurban verilirdi.

Asteklər demək olar iki yüz il ərzində ölkəni inamla idarə etdilər. İmperiya sülhü və təhlükəsizliyini təmin etsə də, xalqı amansızcasına istismar edib, var-yoxdan çıxarırdı. Belə bir əsası olan və bu üsulla idarə edilən dövlət möhkəm ola bilməzdi. Belə də oldu. XVI əsrin əvvəllərində (1519-cu ildə), yəni asteklər özlərinin əzəmət və qüdrətinin zirvəsinə çatdıqları bir vaxtda, bütün imperiya bir ovuc yadelli quldurun və macərapərəstin qarşısında davam gətirə bilməyib birdənbirə alt-üst oldu! Bu, imperiyanın qəfil süqutuna dair ən heyrətamiz misallardan biridir. İmperiyanı diz çökdürən ispan Ernan Kortes və onun kiçik dəstəsiydi. Kortes qoçaq və cəsur adamdı. İmperiyaya qalib gəlməkdə ona iki şeyin çox köməyi dəymişdi: odlu silahın və atların olması. Görünür, Meksika imperiyasında at yox idi, şübhəsiz ki, imperiya odlu silaha da malik deyildi. Amma asteklər imperiyası başdan-başa çürümüş olmasaydı, nə Kortesin qoçaqlığı, nə atları və nə də tüfəngi ona qələbə qazandıra bilərdi. İmperiya içindən çürümüşdü, təkcə zahiri görkəmi qalmışdı; kiçik bir təkan bəs idi ki, onu alt-üst etsin. İstismar üzərində qurulan imperiya xalqın böyük qəzəbinə səbəb olmuşdu. Buna görə, imperiya üzərinə hücum edilərkən geniş xalq təbəqələri imperiyanın məğlubiyyətə uğramasını alqışlayıblar. Həmişə olduğu kimi, bu hadisəylə yanaşı sosial inqilab da baş vermişdi.

Kortesi bir dəfə qovdular, o, canını zorla qurtara bildi. Amma təzədən geriyə dönən Kortes bu dəfə bəzi yerli sakinlərin köməyilə qalib

gəlmişdi. Maraqlı burasıdır ki, bu qələbə nəticəsində yalnız asteklər hakimiyyətinin deyil, bütün Meksika mədəniyyətinin sonu çatmışdı. Çox çəkmədi ki, nəhəng imperiya şəhəri Tenoçtitlandan demək olar əsər-əlamət belə qalmadı. İndi o şəhərdən bir daş da qalmayıb, şəhərin yerində ispanlar kilsə tikiblər. Mayya mədəniyyətinin digər iri şəhərləri də dağıdılıb. O şəhərlərin qalıqları Yukatana meşələrinin qoynunda itib-batıb, şəhərlərin adları belə unudulub, bir çoxunu indi yaxındakı kəndlərin adıyla çağırırlar. Bütün ədəbiyyatları da məhv olub, təkcə üç kitab qalıb ki, indiyədək heç kəs o kitabları oxuya bilməyib.

Min beş yüz ilə yaxın yaşamış qədim xalqın və qədim mədəniyyətin Avropadan gələn yeni adamlarla elə ilk təmasdan sonra qəfildən yoxa çıxmasını izah etmək son dərəcə çətindir. Sanki bu təmas o xalqdan ötrü bir xəstəlikdi, elə bir taundu ki, xalqı yer üzündən biryolluq silib aparıb. Bu xalq yüksək mədəniyyətə malik olsa da, digər sahələrdə çox geridə qalmışdı. Bu hal tarixin müxtəlif mərhələlərinin maraqlı bir qarışığı idi.

Cənubi Amerikada – Peruda daha bir mədəniyyət ocağı var idi ki, orada inklər[1] hökmranlıq edirdilər. Bu ocaq bir növ ilahi monarxiya idi. Qəribə burasıdır ki, Peru mədəniyyəti xüsusilə varlığının son dövründə Meksika mədəniyyətindən tam ayrı düşmüşdü. Onlar bir-birinin yaxınlığında olsalar da, bir-birləri haqda heç bir məlumatları yox idi. Bu da öz-özlüyündə onların müəyyən münasibətlərdə son dərəcə geridə qaldıqlarına dəlalət edirdi. Kortes Meksikada müvəffəqiyyət qazanandan sonra bu Peru dövlətinin axırına çıxan Pisarro adlı ispan oldu. 1530-cu ildə Meksikaya gələn Pisarro xəyanət yoluyla inklər ölkəsini ələ keçirdi. "İlahi" monarxiyanın tutulması özlüyündə xalqı bərk qorxuya saldı. Bir müddət inklər adından dövləti idarə edən Pisarro fırıldaqla külli miqdarda sərvət topladı. Daha sonralar bu hiyləgərliyə son qoyuldu və ispanlar Perunu öz torpaqlarının bir hissəsinə çevirdilər.

Kortes Tenoçtitlan şəhərini ilk dəfə görərkən böyüklüyünə heyran qalmışdı. O, Avropada belə bir şəhər görməmişdi.

Mayya və Peru incəsənətinin tapılmış qalıqlarına Amerika muzeylərində, ən çox da, deyəsən, Mexikoda rast gəlirik. Bu incəsənət əsərləri gözəl bədii ənənənin şahididir. Deyirlər ki, Peru zərgərlərinin işləri misilsizdir. Tapılmış heykəl parçaları, xüsusən də daşdan yonulmuş ilan

[1] İnklər – Peru ərazisində yaşamış yüksək mədəniyyətli qədim xalq (*tərcüməçinin qeydi*)



qırıntıları çox gözəldir. Digər heykəllər, görünür, adamların canına qorxu salmaq üçün nəzərdə tutulmuşdu, bu heykəllərə baxanda doğrudan da adam dəhşətə gəlir!

## MOHENCO-DAROYA TƏRƏF GERİYƏ SIÇRAYIŞ

*14 iyun 1932-ci il*

Mohenco-Daro və hind vadisindəki qədim hind mədəniyyəti haqqında indicə oxumuşam. Bu mədəniyyətin təsvirini verən və qədim mədəniyyət barədə hələlik nə məlumdursa, hamısını əhatə edən təzə, iri bir kitab çıxıb. Kitab qazıntılara və axtarışlara rəhbərlik edən adamlar tərəfindən yazılıb. Torpağı dərin qazdıqca sanki ana torpaqdan baş qaldıran şəhərin zahir olduğunu onlar öz gözləriylə görüblər. O kitabı hələ görməmişəm; kitabı buraya gətirmək yaxşı olardı. Amma mən kitab barədə rəy oxumuşam; rəydə misal gətirilən ayrı-ayrı parçalar haqqında fikrimi bildirmək istəyirəm. Hind vadisinin bu mədəniyyəti nə qəribə şeydir! O mədəniyyət haqda nə qədər çox öyrənib bilirsənsə, bir o qədər də çox heyran qalırsan! Buna görə də mən əminəm ki, keçmiş tarix haqqındakı söhbəti kəssək və beş min il geriyə qayıtsaq etiraz etməzsən.

Belə zənn edirlər ki, Mohenco-Daronun yaşı da bir o qədərdir. Amma gördüyümüz Mohenco-Daro mədəni və tərəqqi etmiş adamların yaşadığı məskən idi. Mohenco-Daro uzun inkişaf dövrü keçirmişdir. Kitabda belə iqrar olunur. Qazıntı işinə rəhbərlik edən ser Con Marşall belə söyləyir: "Həm Mohenco-Daroda, həm Harappada bir cəhət tamamilə aydın və dürüstdür: indiyədək hər iki yerdə üzə çıxarılan mədəniyyət yenicə yaranmaqda olan mədəniyyət deyildi, onun bir əsrə bərabər ömrü vardı. Bu isə Hindistandan ötrü adi, təbii bir haldır. Həmin mədəniyyət bəşər övladının neçə-neçə minilliklər boyu göstərdiyi səylərin nəticəsidir. Beləliklə, Hindistanı da İran, Mesopotamiya və Misirlə yanaşı, mədəniyyətin yaranıb inkişaf etdiyi proseslərin baş verdiyi ən mühüm rayonlardan biri sırasına aid etmək lazımdır".

Deyəsən, hələ Harappa barədə sənə danışmışam. Orada Mohenco-Daro xarabalığına oxşar uçmuş binalar üzə çıxarılmışdır. Bu yer Qərbi Pəncabdadır. Beləliklə, görürük ki, biz hind vadisində beş min il yox, hətta neçə-neçə min il geriyə – qədim dövrlərin dumanlı uzaqlığında itib-batan və insanın oturaq həyata ilk qədəm qoyduğu keçmişə qayıdırıq.

Mohenco-Daronun tam çiçəklənən çağında arilər hələ Hindistana gəlməmişdilər. Bununla belə, şübhə yoxdur ki, "Pəncab və Sind, bəlkə Hindistanın digər rayonları da qabaqcıl və özünəməxsus mədəniyyətə malikdilər. Bu mədəniyyətin Mesopotamiya və Misir mədəniyyətinə bənzəri vardı, bəzi cəhətlərinə görə isə o mədəniyyətlərdən də üstündü".

Mohenco-Daro və Harappada aparılan qazıntı işləri bu qədim və ecazkar mədəniyyəti gözlərimiz önündə canlandırdı. Hələ gör Hindistan torpağının başqa yerlərində nə qədər xəzinə gizlənib! Çox ola bilsin ki, bu mədəniyyət Mohenco-Daro və Harappa rayonuyla məhdudlaşmır. Əksinə, Hindistanda geniş yayılmışdır. Mədəniyyətin olduğu bu iki məntəqə – Mohenco-Daro və Harappa bir-birindən xeyli aralıdır.

Bu elə bir dövr idi ki, "mis və bürünc alətlərlə yanaşı bu dövrdə daş silah və daş alət də işlədilirdi". Ser Con Marşall hind vadisi sakinlərinin Misir və Mesopotamiyada yaşayan müasirlərindən fərqli və üstün olduğunu da qeyd edir.

O, belə deyir: "Təkcə ən mühüm anları göstərək: parça istehsal etmək üçün pambığın tətbiq olunması bu dövrdə yalnız Hindistanla məhdudlaşmışdı və həmin dövrdən ancaq iki-üç min il keçəndən sonra parça toxumaq üçün pambıqdan istifadə edilməsi Qərb aləmində yayılmışdı. Daha bir misal: eramızdan qabaqkı ən qədim dövrlərdə Misirdə, ya Mesopotamiyada, ya da Qərbi Asiyada bizə məlum olan elə bir şey yoxdur ki, Mohenco-Daronun yaxşı tikilmiş hamamlarıyla və geniş evləriylə müqayisə edilə bilsin. Həmin ölkələrdə allahlar və padşahlar üçün əzəmətli məbədlərin, saray və sərdabələrin tikilməsinə fikir verilmişdi və bol-bol pul sərf edilmişdi, amma yerdə qalan adamlar, görünür, miskin palçıq daxmalarla kifayətlənməli idilər. Hind vadisində mənzərə bu dediklərimizin əksinə idi və ən yaxşı binalar şəhərlilərin rahatlığı üçün ucaldılan binalar hesab olunurdu".

Ser Con Marşall sözünə davam edərək deyir: "Hind vadisinin öz fərdi xüsusiyyətləriylə fərqlənən, özünə xas sənəti və dini var. Digər ölkələrdə bizə məlum nə varsa heç birinin öz üslubuna görə saxsıdan düzəldilən qoyun, it və başqa heyvanların fiqurlarına, ya da möhür üzərindəki oyma təsvirlərə bənzəri yoxdur; bunların ən yaxşıları – xüsusən də qozbel və gödəkayaqlı buğa təsvirləri – traktovkasının[1] vüsətiylə, cizgilərinin anlaşıqlı olmasıyla və təsvir vasitələrinin plastikliyilə[2] fərqlənir və çox az yer tapıla bilər ki, qliptika sənətində bu buğa təsvirlərindən üstün olsun; eləcə də, son dərəcə zərif qayrılmış iki kiçik insan heykəlinin – Yunanıstandakı klassik dövr də daxil olmaqla heç yanda misli-bərabəri yoxdur; onların rəsmləri X-XI illüstrasiyalarda verilib. Hind vadisi sakinlərinin dinində, əlbəttə, bir çox elə cəhətlər var ki, onları digər ölkələrdə də tapmaq olardı. Bu fikir haqlı fikirdir və o, ən qədim dövrlərdəki bütün dinlərə aiddir. Amma küll halında götürdükdə hər iki dövrün dini Hindistana elə xasdır ki, bu dini canlı hinduizm dinindən çətin fərqləndirmək olar..."

Bəlkə bu sitatda bəzi sözlər sənə aydın deyil, saxsı – gildən, yaxud çinidən düzəldilmiş məmulatdır, intaliya və qliptika isə möhkəm materialda, çox hallarda isə qiymətli daşlar üzərində oyma və qravüra üsulu ilə işlənmiş əşyadır.

Harappada tapılan kiçik heykəllərə, heç olmazsa onların şəkillərinə baxmaq ürəyimdən yaman keçir. Bəlkə də, səninlə bir vaxt Harappaya və Mohenco-Daroya gedə bildik. Onda o heykəllərə doyunca baxarıq. Hələliksə, sən qal öz Puna məktəbində, mən də qalım öz məktəbimdə – Dehra-Dun deyilən dairə həbsxanasında.

[1] T r a k t o v k a – latınca: izah, şərh (*tərcüməçinin qeydi*)

[2] P l a s t i k l i k – yunanca: qəşənglik, gözəllik, ahəngdarlıq (*tərcüməçinin qeydi*)



## KORDOVA VƏ QRANADA

*16 iyun 1932-ci il*

Biz Asiyaya və Avropaya səyahətimizi davam etdirdik. Eramızın birinci minilliyinin axırlarına gəlib çatanda ayaq saxlayaraq, keçdiyimiz yola nəzər saldıq. Necə olubsa, hekayətimizdə İspaniyanı nəzərimizdən qaçırmışıq – ərəblərin hakimiyyəti altındakı İspaniyanı. İndi gərək geri qayıdaq ki, çəkdiyimiz mənzərəyə İspaniyanı da əlavə edək.

Az-çox məlumatın var, əgər yadında qalıbsa 711-ci ildə ərəb sərkərdəsi Afrikadan İspaniyaya adlamışdı. Bu, Tariq idi. O, Cəbəllütariqdə (Cəbəl-ət-Tariq – Tariq dağı) sahilə çıxmışdı. Ərəblər iki ildə bütün İspaniyanı fəth etdilər. Sonralar isə Portuqaliyanı da İspaniyaya qatdılar. Çox uzaqlara gedib çıxan ərəblər Fransaya daxil olub, ölkənin bütün cənub hissəsinə yayıldılar. Ərəblərin bu hərəkətindən bərk qorxuya düşən franklar və digər qəbilələr Karl Martellin başçılığı altında birləşərək, ərəblərin qarşısını almaq üçün böyük səy göstərdilər və

müvəffəqiyyət də qazandılar: Fransada Puatye yaxınlığındakı böyük Tur döyüşündə franklar ərəbləri məğlub etdilər. Bu, çox böyük məğlubiyyətdi; o, ərəblərin Avropanı fəth etmək arzularına son qoydu. Ərəblər və franklar, Fransanın digər xristian əhalisi bu hadisədən sonra da bir-birilə vuruşurdular; hərdən qalib gələn ərəblər Fransaya soxulur, hərdən də onları geriyə, İspaniyaya sıxışdırırdılar; Böyük Karl ərəblərin üzərinə İspaniyanın özündə hücum etdisə də, özü məğlub oldu. Amma ümumiyyətlə, uzun dövr üçün tarazlıq yaranmışdı; ərəblər İspaniyada hökmranlıq edərək daha irəli getmirdilər.

Beləliklə, İspaniya da böyük Ərəb imperiyasının, hüdudları bütün Afrikadan keçərək Monqolustanın sərhədlərinə qədər gedib çatan imperiyanın bir hissəsinə çevrildi. Amma Ərəb hökmranlığı çox çəkmədi. Yadında olar, Ərəbistanda vətəndaş müharibəsi gedirdi və Abbasilər Əməvilər sülaləsindən olan xəlifələri devirmişdi. İspaniyadakı Ərəb əmiri Əməvilər sülaləsinə mənsub idi. Bu əmir yeni Abbasi xəlifəsini tanımaqdan boyun qaçırmışdı. İspaniya da Ərəb imperiyasıyla əlaqəni kəsmişdi; Bağdad xəlifəsi isə çox uzaqdaydı və öz ölkəsinin daxili çətinliyilə əlaqədar işlərə başı elə bərk qarışmışdı ki, əlindən bir şey gəlmirdi. İspaniya ilə Bağdad arasındakı münasibətlər isə düşmənçilik xarakteri almışdı. Hər iki ərəb dövləti dar ayaqda bir-birinin köməyinə gəlmək əvəzinə, çətinliklərinə sevinirdi.

İspan ərəblərinin vətənlə əlaqəni kəsməsi ehtiyatsız atılan bir addım idi. Onlar uzaq ölkədə, yad əhali arasındaydılar, düşmənlə əhatə olunmuşdular. Sayca az idilər. Təhlükə və çətinlik məqamında onlara kömək əli uzadacaq bir adam yox idi. Buna baxmayaraq, özlərinə çox arxayındılar və qorxu, təhlükə onları az narahat edirdi. Əslinə qalsa, yaranmış vəziyyətdən məharətlə çıxa bilirdilər. Şimaldan xristian millətlərinin ara vermədən göstərdikləri təzyiqə baxmayaraq, onlar İspaniyanın böyük bir hissəsində beş yüz il təkbaşına ağalıq etmişdilər. Hətta bundan sonra da İspaniyanın cənubundakı kiçik krallığı iki yüz il əllərində saxlamışdılar. Beləliklə, görürük ki, ispan ərəbləri böyük Bağdad imperiyası süqut edəndən sonra da salamat qalmışdılar və ərəblər İspaniya ilə vidalaşanda Bağdad şəhərinin özü çoxdandı ki, yerlə-yeksan edilmişdi.

Ərəblərin İspaniya torpaqlarında yeddi yüz il hakimiyyət sürməsi özlüyündə çox təəccüblüdür. Amma bundan da maraqlısı ispan ərəblərinin, yaxud da *mavrların* (onları belə adlandırırdılar) yüksək mədəniyyəti idi. Tarixçi ilhama gələrək onlar haqda belə demişdir: "Mavrlar



Kordovada orta əsrlərin möcüzəsi olan qəribə krallıq yaratmışdılar. Avropanın hər yerini vəhşi nadanlıq və çəkişmə bürüdüyü bir vaxtda, gur şölə saçan mərifət və mədəniyyət məşəlini Qərb dünyası önündə saxlayan təkcə bu krallıq olmuşdur".

Bu krallığın paytaxtı beş yüz il ərzində Kurtuba olmuşdur. Paytaxta ingiliscə adətən Kordoba, bəzən də Kordova deyilir. Mən çalışacağam ki, Kordoba deyəm. Kordoba bir milyon əhalisi olan iri şəhərdi. On mil uzunluğundakı bu bağ-bağatlı şəhərin yaxınlığında 24 mil məsafəni şəhərətrafı qəsəbələr tuturdu. Belə hesab edirlər ki, Kordobada altmış min saray və malikanə, iki yüz min kiçik ev, səksən min dükan, üç min səkkiz yüz məscid və yeddi yüz ictimai hamam vardı. Bu rəqəmlər artırılmış rəqəm olsa da, hər halda şəhər haqda az-çox təsəvvür yaradır. Kordobada xeyli kitabxana vardı ki, onlardan da başlıcası dörd yüz min kitaba malik Əmir kitabxanası olub. Kordoba universitetinin şan-şöhrəti nəinki bütün Avropaya, hətta Qərbi Asiyaya da yayılmışdı. Yoxsullar üçün çoxlu pulsuz ibtidai məktəb vardı. Bir tarixçi belə deyir: "İspaniyada oxuyub-yazmağı demək olar hər kəs bacarırdı, halbuki ruhaniləri çıxmaq şərtiylə xristian Avropasında ən yüksək təbəqələrə mənsub şəxslər belə tamamilə nadandı".

Başqa bir iri ərəb şəhəriylə – Bağdadla rəqabət aparan Kordoba belə şəhərdi! Şöhrəti bütün Avropaya yayılmışdı. X əsrin bir alman yazıçısı Kordobanı "dünyanın zinəti" adlandırmışdı. Kordoba universitetinə uzaq diyardan tələbələr gələrdi. Ərəb fəlsəfəsinin təsiri Avropanın digər iri universitetlərində, o cümlədən Paris, Oksford və Şimali İtaliya universitetlərində yayılmışdı. Averroes, yaxud İbn Rüşd XII əsrdə Kordobanın məşhur filosofu idi. Qoca yaşlarında İspaniya əmiriylə çəkişdiyinə görə sürgün olunmuşdu. O, ölkəni tərk edərək Parisdə məskən salmışdı.

Avropanın başqa ölkələrində olduğu kimi, İspaniyada da bir növ feodal sistemi mövcuddu. Burada da iri və qüdrətli zadəganlıq təşəkkül tapmışdı. Ölkəni idarə edən əmirlə bu zadəganlar arasında tez-tez çəkişmələr baş verirdi. Ərəb dövlətini xarici hücumdan daha çox həmin vətəndaş müharibəsi zəiflətmişdi. Eyni zamanda Şimali İspaniyanın bəzi xırda xristian dövlətlərinin gücü artdığı üçün onlar ərəbləri sıxışdırırdılar.

Eramızın təqribən 1000-ci ilində, daha dəqiq desək, minilliyin axırlarında, əmirin dövləti az qala bütün İspaniyanı əhatə edirdi. Cənubi

Fransanın bir hissəsi belə bu dövlətin tərkibindəydi. Amma süqut çağına az qalmışdı. İncəsənətə, cah-calala və cəngavərliyə malik gözəl ərəb mədəniyyəti nəticə etibarilə varlıların mədəniyyəti idi. Aclıq çəkən yoxsullar üsyan qaldırırdılar, işçilərin qiyamı baş verirdi. Vətəndaş müharibəsi tədricən geniş miqyas alırdı, əyalət əyalət dalınca mərkəzdən ayrılırdı və ərəblərin ispan imperiyası ayrı-ayrı hissələrə parçalanırdı. Amma ərəblər dağınıq hala düşsələr də, hələ davam gətirirdilər. Yalnız 1236-cı ildə nəhayət Kordoba Kastiliyanın xristian kralına təslim oldu.

Cənuba doğru sıxışdırılan ərəblər müqavimət göstərməkdə davam edirdilər. Ərəblər İspaniyanın cənubunda kiçik Qranada krallığını yaradaraq orada da möhkəmləndilər. Əgər ərazi barədə desək, bu krallıq xırda krallıqdı. Amma ərəblərin bütün mədəniyyətini kiçik miqyasda əks etdirirdi. O dövrün abidəsi, yəni tağların, sütunların və arabesklərin yaraşıq verdiyi məşhur Alqambra hələ də Qranadada durur. Alqambra əvvəllər ərəbcə "əl-Xomra", yəni qırmızı saray adlanırdı. Arabesklər yaraşıqlı naxışlardır, bu naxışları ərəb binalarında və digər binalarda, islam memarlığının təsiri duyulan yerlərdə çox görmək olar. Canlı təsvir İslam dini tərəfindən rəğbətlə qarşılanmırdı. Buna görə də inşaatçılar əfsanəvi və mürəkkəb naxışlar işlədirdilər. Tağların üzərində və başqa yerlərdə çox vaxt Quran ayələrindən sitat gətirərək onları gözəl bəzəyə çevirirdilər. Ərəb hərfləri hörmə yazı üsuluyla yazıldığına görə onlardan dekorativ yazıda istifadə etmək asandır.

Qranada krallığı iki əsr ömür sürdü. Onu İspaniyanın xristian dövlətləri, xüsusən də Kastiliya krallığı sıxışdırır və qorxuya salırdılar. Odur ki, Qranada krallığı hərdən Kastiliyaya xərac verməyə razı olurdu. Əgər xristian dövlətləri öz aralarında yola getsəydilər, yəqin ki, Qranada bu qədər çox davam gətirə bilməzdi. Amma 1469-cu ildə İspaniyanın iki başlıca dövlətinin hökmdarları – Ferdinandla İzabella nikah kəsdirdilər, bunun sayəsində də Kastiliya, Araqon və Leon birləşdi. Ferdinandla İzabella Qranada ərəb krallığına son qoydular. Ərəblər bir neçə il Qranadada mühasirə olunanadək igidliklə çarpışdılar. Aclıq nəticəsində taqətdən düşən ərəblər 1492-ci ildə təslim oldular.

Bir çox sarasin və ya ərəb İspaniyanı tərk edərək Afrikaya köçdü. Qranada yaxınlığında bir yer var ki, günü bu gün də "*El ultimo sospiro del moro*" – "mavrın son nəfəsi" adlanır.

Amma ərəblərin böyük bir qismi İspaniyada qaldı. Bu ərəblərə qarşı münasibət, onlarla amansızcasına rəftar olunması İspaniya tarixinin ən



qara səhifələrindən biridir. Ərəblər İspaniyanı tərk etdiyi bir dövrdə ölkədə inkvizisiya kök saldı. İnkvizisiya Roma kilsəsinin ona tabe olmaq istəməyənlərin inadını qırmaq üçün meydana çıxardığı dəhşətli bir alətdi. Sarasinlər dövründə firavan yaşayan yəhudiləri dinlərini dəyişməyə məcbur edir, çoxlarını da tonqalda yandırılmaq cəzasına məhkum edirdilər. Nə qadına rəhm edirdilər, nə də uşağa. Tarixçi belə deyir: "Dinsizlərə, (yəni sarasinlərə) belə bir əmr verilmişdi ki, öz yaraşıqlı libaslarından əl çəksinlər, öz qalibləri kimi, şlyapa qoysunlar, şalvar geysinlər; dillərindən, adət və mərasimlərindən, hətta adlarından belə imtina etsinlər, ispanca danışsınlar, ispan adətlərinə əməl etsinlər və özlərini ispan adlandırsınlar". Əlbəttə, bu vəhşi hərəkətlərə qarşı üsyan və qiyam qalxırdı. Lakin üsyanları ən amansız qəddarlıqla yatırırdılar.

İspan xristianları, görünür, yuyunmağın və çimməyin qəti əleyhinəydilər. Güman ki, ispan ərəbləri yuyunmağı çox xoşladıqları və hər yerdə ictimai hamam tikdirdikləri üçün onlar buna etiraz edirdilər. Xristianlar işi hətta o yerə çatdırmışdılar ki, belə bir əmr vermişdilər: "Moriskiləri (yaxud mavrları, yəni ərəbləri) islah etmək məqsədilə nə özlərinə, nə arvadlarına, nə də başqa şəxslərə nə evdə, nə də başqa bir yerdə yuyunmaq və çimmək qadağan edilsin. Onlara məxsus bütün hamamlar isə sökülməli və dağıdılmalıdır".

Yuyunduqlarına görə günah işlətməkdə təqsirləndirilən moriskilər əleyhinə daha bir böyük ittiham irəli sürülürdü: onlar başqa dinlərə dözümlü olmaqda təqsirləndirilirdilər. Biz bu barədə oxuyarkən nə qədər təəccüblənsək də, bu ittiham moriskilərin etdiyi xəyanət və satqınlıq siyahısında, yəni Valensiya yepiskopunun ərəbləri İspaniyadan sürgün etmək tövsiyəsiylə 1602-ci ildə çıxış edərkən elan etdiyi siyahıda başlıca ittihamlardan biri idi. Valensiya yepiskopu ərəblərin İspaniyadan sürgün edilməsi məsələsindən bəhs edərkən demişdir ki, "onlar, ərəblər bütün dini işlərdə vicdan azadlığını, yəni türklərin və başqa müsəlmanların öz təbəqələri tərəfindən istifadə edilməsinə izin verdikləri vicdan azadlığını təqdir etdikləri qədər heç bir dini məsələni belə təqdir etmirlər". İspaniya ərəbləri barəsində qeyri-iradi gör necə böyük iltifatlı sözlər deyilir və ispan xristianlarının nöqteyi-nəzəri özgə dinlərə öz dözümsüzlüyü ilə bu iltifatdan nə qədər fərqlənirdi!

Milyonlarla sarasin İspaniyadan zorla sürgün edilmişdi, əksəriyyəti Afrikaya, bəziləri Fransaya. Amma unutma ki, ərəblər İspaniyada yeddi yüz il qalmışdılar; bu uzun dövr ərzində İspaniya xalqı ilə xeyli

dərəcədə qaynayıb-qarışmışdılar. Əslən ərəb olan bu adamlar getgedə dönüb ispan olmuşdular. Ehtimal ki, sonrakı dövrün ispan ərəbləri Bağdaddakı ərəblərə əsla oxşamırdılar. Elə indi də ispanların damarlarında ərəb qanıyla qarışıq qan axır.

Sarasinlər Fransanın cənubunda da, hətta İsveçrədə də yayılmışdılar – hökmdar sifətiylə yox, məskun sifətiylə. Midi – cənub fransızları arasında ərəb tipli şəxslərə elə indi də rast gəlirik.

Bu, İspaniyada sarasinlərin təkcə hökmranlığının sonu yox, ərəb mədəniyyətinin də sonu idi. İndicə görəcəyik ki, hələ ərəb mədəniyyətinin süqutundan əvvəl bu mədəniyyət Asiyada süqut etmişdi. Bu mədəniyyət bir çox ölkələrə və bir çox mədəniyyətlərə təsir göstərərək özü haqqında parlaq xatirə qoyub getmişdi. Amma bu mədəniyyətin özü tarixin sonrakı mərhələsində daha dirçəlməmişdi.

Sarasinlər İspaniyadan gedəndən sonra Ferdinandın və İzabellanın hakimiyyəti altında ölkənin qüdrəti artmaqdaydı. Çox keçmədi ki, Amerikanın kəşf olunması İspaniyaya böyük sərvət bəxş etdi və bir müddət İspaniya Avropada o biri ölkələr üzərində hakim olan ən qüdrətli ölkəyə çevrildi. Amma onun süqutu sürətlə oldu və nüfuzsuz bir ölkəyə çevrildi; digər Avropa ölkələri inkişaf etməkdəykən İspaniyada həqiqi mənada durğunluq hökm sürürdü. O, xəyalən hələ də orta əsrləri gəzib dolaşır, dərk etmirdi ki, o dövrlərdən bəri dünya dəyişilib.

İngilis tarixçisi Leyn Pul İspaniya ərəblərindən danışarkən deyir: "Əsrlər boyu İspaniya mədəniyyət mərkəzi, incəsənət və elm, təhsil və ən incə maarif diyarı olmuşdur. Avropada heç bir başqa ölkə mavrların dövləti idarə etmək mədəniyyəti sahəsində çatdıqları yüksək səviyyəyə qalxa bilməmişdir. Ferdinandla İzabellanın dövləti idarə etməsinin və Karlın imperiyasının qısa, parlaq dövrü ərəb hakimiyyətindən üstün ola biləcək bir hökmranlığın əsasını qoya bilmədi. Mavrlar ölkədən qovuldu; İspaniya bir müddət ay kimi işıq saçmaqdaydı, sonra bu ölkəyə qaranlıq çökdü. Düz o vaxtdan bəri İspaniya daim zülmətdə eşələnir. Mavrlara əsil abidə səhralardır, barsız-bəhərsiz torpaq sahələridir; mavrların vaxtilə bol-bol üzüm, zeytun və sarı buğda sünbülü yetişdirdikləri torpaqlardır; bir zamanlar əqlin və təhsilin çiçək açdığı həmin yerlərdə indi xalqın korazehinliyi və nadanlığını; başqa millətlərlə müqayisədə ümidini itirən və öz həqirliyinə layiq olan xalqın ümumi durğunluğu və geriliyini görürük".



Bu, çox ağır hökmdür. Təqribən bir il qabaq İspaniyada inqilab baş verdi və kral hakimiyyətdən kənar edildi. İndi orada respublikadır. Bəlkə də, bu gənc respublika böyük dəyişikliyə nail olar və İspaniyanı yenidən o biri millətlər səviyyəsinə qaldırar.

## SƏLİB YÜRÜŞLƏRİ

*19 iyun 1932-ci il*

Axırıncı məktublarımdan birində (57-ci məktubumda) sənə demişdim ki, Yerusəlim şəhərini qaytarmaq naminə papa ilə kilsə məclisi müsəlmanlar əleyhinə müqəddəs müharibə elan etmişdilər. Səlcuq türklərinin artmaqda olan qüdrəti Avropanı, xüsusən də Konstantinopolun hakimlərini bərk qorxuya salmışdı; Yerusəlimə və Fələstinə gələn xristian zəvvarlarla türklərin pis rəftar etməsi barədə şayiələr Avropa xalqlarını həyəcana gətirib, qəzəbləndirirdi. Nəhayət "müqəddəs müharibə" elan edildi; papa da, kilsə də "müqəddəs" şəhəri azad etmək üçün Avropa xalqlarını yürüşə çağırdılar.

Beləliklə, 1095-ci ildə səlib yürüşləri başlandı; xristianlığın və islamın mübarizəsi, xaçla ayparanın mübarizəsi 150 ildən də çox davam etdi. Yürüşlər arasında uzun sürən sakitlik olurdusa da, müharibə vəziyyəti demək olar daim davam edirdi. Xristian səlibçiləri də döyüşmək üçün, "müqəddəs" torpaqda ölmək üçün axın-axın gəlirdilər. Uzun çəkən bu müharibə səlibçilərə istənilən nəticəni vermədi. Onlar Yerusəlimi qısa müddətə ala bildilərsə də, sonra şəhər yenidən türklərin əlinə keçdi. Türklər Yerusəlimi əllərində möhkəm saxlayırdılar. Səlib yürüşləri milyonlarca xristiana və müsəlmana fəlakətdən və səfalətdən başqa heç nə vermədi. Kiçik Asiya və Fələstin torpaqları yenidən qanla suvarıldı.

Bu dövrdə Bağdad imperiyasının vəziyyəti necə idi? İmperiyanı idarə edən yenə də Abbasilər sülaləsiydi. Onlar hələ də xəlifə idilər, əmirəlmöminin idilər. Lakin imperiyanı təkcə sözdə idarə edirdilər, həqiqi hakimiyyətə malik deyildilər. Onların imperiyasının necə dağıldığını və əyalət hakimlərinin necə müstəqil olduqlarını gördük. Tez-tez Hindistana basqın edən müqtədir padşah Mahmud Qəznəvi hər dəfə xəlifə onun arzusu xilafına hərəkət etmək istəyəndə xəlifəni qorxuya salardı. Hətta Bağdadın özündə də əsil ağalar türklərdi. Sonra başqa

türk tayfaları – səlcuq türkləri gəldi. Hər yerdə hakimiyyətlərini tezliklə bərqərar edəndən sonra qələbəylə düz Konstantinopolun darvazalarına qədər gəlib çatdılar. Lakin xəlifə indi siyasi hakimiyyətə malik olmasa da, xəlifəliyində qalırdı. O, daşıdığı sultan titulunu səlcuqların başçılarına verməli oldu və dövləti sultanlar idarə etdilər. Beləliklə, səlibçilər səlcuq sultanları və onların xələfləri ilə vuruşmağa məcbur oldular.

Səlib yürüşləri nəticəsində Avropada "xristianlıq", xristian dünyasının, yəni bütün xristian olmayanlara zidd aləmin ideyası kimi möhkəmləndi. Avropanın ümumi ideyası və ümumi məqsədi "müqəddəs torpağı" başabəla dinsizlərin əlindən vuruşa-vuruşa geri almaq idi. Bu ümumi məqsəd adamların qəlbini coşdurduğundan bir çoxları böyük amal naminə ev-eşiyini və əmlakını tərk etməli olurdu. Əgər bəzilərini bu işə təhrik edən nəcib səbəblərdisə, bəzilərini isə bu yürüşə həvəsləndirən papanın verdiyi vəd idi. Papa demişdi: kim bu yürüşə gedəcəksə, günahı bağışlanacaq. Səlib yürüşlərinin digər səbəbləri də vardı. Roma istəyirdi ki, biryolluq Konstantinopolun sahibi olsun. Yeri gəlmişkən yadına salım ki, Konstantinopol kilsəsi Roma kilsəsindən fərqlənirdi. Konstantinopol kilsəsi özünü pravoslav kilsəsi adlandırırdı, papanı layiq olmadığı yeri tutan adam hesab edərək, Roma kilsəsinə böyük ədavətlə yanaşırdı. Papa Konstantinopolun lovğalığına son qoymaq və onu Roma kilsəsinin qoynuna qaytarmaq istəyirdi. Türklərə qarşı "müqəddəs müharibə" pərdəsi altında öz çoxdankı gizli arzularını həyata keçirmək istəyirdi. Siyasətçilərin və özünü dövlət xadimi adlandıranların hərəkət tərzi bax belədir! Roma və Konstantinopol arasındakı bu ixtilafı gərək yadda saxlayasan. Çünki o ixtilaf səlib yürüşləri gedişində daim üzə çıxır.

Səlib yürüşlərinin başqa bir səbəbi ticarətlə bağlı olmasıydı. Səlib yürüşləri ticarətçilərə lazımdı, ən çox da inkişaf edən şimal şəhərlərinin, yəni Venetsiya və Genuyanın ticarətçilərinə. Hər iki şəhərin ticarətinə ziyan toxundurulmuşdu. Səlcuq türkləri Venetsiya və Genuyanın Şərqlə ticarət etdikləri yolların çoxunu bağlamışdılar.

Adi adamlar səlib yürüşlərinin nə səbəblərə görə baş verməsindən söz yox, xəbərsizdilər. Bu barədə onlara heç kəs heç nə deməmişdi. Adətən, siyasətçilər həyatda bir şeyə nail olmaq istəyəndə bunun əsil səbəblərini gizlin saxlayır, dindən, ədalətdən, həqiqətdən və s. təmtəraqla ağızdolusu dəm vururlar. Səlib yürüşləri dövründə də belə olmuşdur. Elə indi də belədir. O vaxtlar adamlar siyasətçilərin dediyinə inanırdılar, onların böyük əksəriyyəti siyasətçilərin yaltaq nitqlərinə hələ də inanmaqdadır.



Buna görə də səlib yürüşünə çox adam qoşulmuşdu. Yürüşdə iştirak edənlər arasında xeyirxah və səmimi adamlar da vardı, bədxah adamlar da az deyildi. Onları səlib yürüşlərinə həvəsləndirən qənimət əldə etmək ümidiydi. Bu, dindarlarla hər cür cinayət törətməyə qabil olan rəzillərin qəribə bir qarışığıydı. Səlibçilər, öz aləmlərində nəcib amal uğrunda çarpışmağa gedir, əslində isə ən xəbis və mənfur cinayətlər törədirdilər. Çoxları yolda soyğunçuluğa və azğınlığa elə bərk aludə olmuşdular ki, heç Fələstinə də gedib çıxmamışdılar. Səlibçilərin bir qismi yolüstü yəhudiləri öldürür, bir qismi isə hətta öz xristian qardaşlarının qırğını ilə məşğul olurdular. Səlibçilərin keçib getdikləri xristian ölkələrində onların azğınlığından cana doymuş kəndlilər ayağa qalxırdılar: səlibçilərə qarşı hücum edərək bir çoxunu öldürür, qalanlarını ölkədən qovurdular.

Səlibçilər Norman Bulonlu Qotfridin başçılığıyla nəhayət Fələstinə gəlib çatdılar. Yerusəlim əllərinə keçdi və "orada düz bir həftə dəhşətli qırğın davam etdi". Böyük insan qırğını oldu. Bu mənzərəni öz gözüylə görən bir fransız yazırdı: "Məscidin talvarı altında qan dizə çıxmışdı, qan atların yüyəninədək gəlib çatırdı". Qotfrid Yerusəlim kralı oldu.

Yetmiş il keçəndən sonra Misir sultanı Saləddin (Saleh-əd-Din) Yerusəlimi xristianlardan döyüşlə yenidən geri aldı. Bu hadisə Avropa xalqları arasında təzədən həyəcana səbəb oldu, yenidən bir neçə yeni səlib yürüşü baş verdi. Bu dəfə Avropa kralları və imperatorları həmin yürüşlərdə şəxsən iştirak etdilər. Bu yürüşlərdə demək olar ki, heç bir müvəffəqiyyət qazanılmadı. Onlar bir-birlərilə öcəşir, başçılıq üstündə çəkişir və dava-dalaş salırdılar. Bu, dəhşətli, amansız müharibənin və xəbis fitnə-fəsadın qəmli tarixi idi. Amma arabir bəşər təbiətinin yaxşı cəhəti bu dəhşətə üstün gəlirdi və elə hallar olurdu ki, düşmənlər bir-birinə xoş sifət göstərir, alicənab hərəkət edirdilər. Fələstindəki yadelli hökmdarlar arasında bədəncə çox güclü və rəşadətiylə ad-san qazanmış ingilis kralı Şir Ürəkli Riçard da vardı. Saləddin də böyük döyüşçü kimi ad çıxarmışdı və öz cəngavər nəcibliyiylə məşhurdu. Hətta Saləddinə qarşı vuruşan səlibçilər belə onun bu alicənablığını etiraf etməli olmuşdular. Deyildiyinə görə günlərin bir günündə Riçard bərk xəstələnmişdi və qızdırmadan əzab çəkirdi. Bundan xəbər tutan Saləddin Riçarda dağlardan qar və buz göndərilməsini əmr etmişdi. O vaxtlar

indiki kimi, suyu dondurmaq yoluyla buz halına salmağı bilmirdilər. Demək, dağların təbii qarını və buzunu ancaq yeyin yol gedən çaparlar mənzilbaşına çatdıra bilərdi.

Səlib yürüşlərindən bəhs edən bir çox hekayətlər indiyədək yaşayır. Bəlkə də, sən Valter Skottun "Tilsim"ini oxumusan.

Bir dəstə səlibçi Konstantinopola tərəf gələrək şəhəri ələ keçirdi. Səlibçilər Şərqi Roma imperiyasının yunan imperatorunu ölkədən qovaraq, Latın krallığının (Latın imperiyasının) əsasını qoydular və orada Roma katolik kilsəsini bərqərar etdilər. Səlibçilər Konstantinopolda dəhşətli qırğın törətdilər və şəhərin bir hissəsini oda yaxdılar. Amma bu Latın imperiyası çox da davam gətirmədi. Əlli ildən bir qədər artıq keçəndən sonra Şərqi imperiya yunanları zəif olmalarına baxmayaraq geri döndülər və latınları ölkədən qovdular. Konstantinopolun Şərqi Roma imperiyası daha iki yüz il, yəni 1453-cü ilədək, ta türklər imperiyanı qəti məhv edənədək ömür sürdü.

Konstantinopolun səlibçilər tərəfindən zəbt edilməsi Roma kilsəsinin və Roma papasının şəhəri öz nüfuzuna tabe etdirmək istəyini büruzə verir. Bu şəhərin yunan əhalisi düşmən hücumundan vəlvələyə düşəndə türklərə qarşı Romadan yardım diləmiş olsa da yadelli işğalçılara qarşı kin bəslədiklərindən səlibçilərə onların az köməyi dəydi.

Amma bu səlib yürüşlərinin içərisində ən dəhşətlisi uşaqların məşhur səlib yürüşüdür. Əksəriyyəti Fransadan və eləcə də Almaniyadan olan bir çox oğlanlar böyük həvəslə evlərini tərk edib Fələstinə getməyi qərara almışdılar. Onlardan bir çoxu yolda öldü, bir çoxu da azdı. Əksəriyyəti özünü Marselə yetirdi, amma burada uşaqların həvəsə gəlməsindən istifadə edən əclaf qul alverçiləri yazıq uşaqları gəmilərə doldurub, onları "müqəddəs torpağ"a çatdırmaq bəhanəsiylə Misirə yolladılar və kölə kimi satdılar.

İngiltərə kralı Riçard Fələstindən geri qayıdanda Şərqi Avropada düşmənləri tərəfindən əsir alınmışdı. Onun azad edilməsi üçün çox pul tələb olunurdu. Fransız krallarından biri Fələstində əsir düşmüşdü; onu da pul verib buraxdırmalı olmuşdular. Müqəddəs Roma imperiyasının imperatoru Fridrix Barbarossa Fələstində çayda batmışdı. Amma zaman keçdikcə səlib yürüşlərinin şöhrət çələngi saralıb-solmuşdu. Adamlar bu səlibçilərin əlindən lap cana gəlmişdilər. Yerusəlim yenə də müsəlmanların əlindəydi. Amma Avropa kralları və xalqları Yerusəlimin geri qaytarılması üçün canlarından və pullarından keçmək



fikrində deyildilər. O vaxtdan bəri təqribən yeddi yüz il ərzində Yerusəlim müsəlmanların hakimiyyəti altında qalmışdı. Yalnız bu yaxınlarda, 1918-ci ildə, dünya müharibəsi zamanı ingilis generalı Yerusəlimi türklərin əlindən aldı.

Sonralar keçirilən bir səlib yürüşü maraqlı və qeyri-adi idi. Əslində ona heç səlib yürüşü də demək olmaz. Müqəddəs Roma imperiyasının imperatoru II Fridrix yürüş zamanı vuruşmaq əvəzinə Misir sultanı ilə söhbət etmişdi, nəticədə onlar qarşılıqlı anlaşmaya nail olmuşdular. Fridrix başqalarından fərqlənən bir şəxsiyyət olub. Kralların əksəriyyətinin savadı az olduğu halda, onlar bir çox dil bilirdilər, o cümlədən də ərəb dilini. Fridrix "dünyanın möcüzəsi" kimi tanınmışdı; Roma papasını qətiyyən saymadığına görə, papa onu kilsədən uzaqlaşdırmışdı. Amma bu tədbir Fridrixə əsla təsir etməmişdi.

Beləliklə, səlib yürüşləri heç bir nəticə vermədi. Lakin arasıkəsilməz döyüşlər səlcuq türklərini iqtidardan salmışdı. Səlcuqlar imperiyasını daha çox təməlindən sarsıdan feodalizm idi. İri feodallar əslində özlərini müstəqil hesab edirdilər. Onlar bir-birləriylə döyüşürdülər. Hərdən iş o yerə gəlib çatırdı ki, biri digərinə qarşı mübarizədə xristianlardan kömək diləyirdi. Səlibçilərə hərdən bəzi üstünlük verən də məhz türklərin daxili zəifliyi idi. Amma Saləddin kimi güclü bir hökmdar hakimiyyət başında duranda səlibçilər heç nəyə nail ola bilmirdilər.

Səlib yürüşlərinə aid daha bir fikir də var ki, onu bu yaxınlarda ingilis tarixçisi C.M.Trevelyan (Haribaldi haqqında sənə tanış olan kitabların müəllifi) bildirib. Bu fikir müəyyən mənada maraq doğurur. Trevelyan deyir: "Səlib yürüşləri Avropanın dirçəlməkdə olan qüvvələrinin Şərqə ümumi hücumunun hərbi və dini ifadəsi idi. Hərbi yürüşlərdən qayıdarkən Avropanın gətirdiyi qənimət Allahın tabutunun əbədi azad edilməsi və xristian dünyasının qüdrətli birliyi deyildi, əksinə, səlib yürüşlərinin uzun davam edən bütün tarixi bu birliyin təkzib edilməsidir. Bunun əvəzində Avropa incəsənəti və peşələri, cah-calala meyli, həvəsi öyrənmək, elmi, bir sözlə, Səhranişin Pyotrda nifrət doğura biləcək nə varsa – hamısını yürüşlərdən əxz etmişdi".

1193-cü ildə Saləddin öldü, əvvəlki Ərəb imperiyasından nə qalmışdısa hamısı kiçik hissələrə parçalandı. Qərbi Asiyanın xırda feodalların hakimiyyəti altında qalan bir çox rayonlarında hərc-mərclik hökm sürürdü. Axırıncı səlib yürüşü 1249-cu ildə oldu. Bu yürüşə Fransa kralı IX Lüdovik başçılıq edirdi. O, məğlubiyyətə uğrayaraq əsir düşdü.

Bu arada Şərqi və Mərkəzi Asiyada böyük hadisələr baş verməkdəydi. Başda qüdrətli rəhbər Çingiz xan olmaqla monqollar yaxınlaşmaqdaydı. Onlar Şərq üfüqünü nəhəng qara bulud kimi çulğamışdılar. Səlibçi və onun rəqibi, xristian və müsəlman eyni qorxu içində hər an yaxınlaşan basqını gözləyirdilər. Sonrakı məktublardan birində Çingizdən və monqollardan bəhs edəcəyik.

Bu məktubu qurtarmazdan əvvəl bir faktı da xatırlatmaq istərdim. Orta Asiyada, Buxarada böyük ərəb həkimi yaşayırdı; o, Asiyada məşhur olduğu kimi Avropada da məşhurdu. Adı İbn Sina olan bu şəxs Avropada daha çox Avitsenna kimi tanınmışdı. Onu həkimlər padşahı adlandırırdılar. O, hələ səlib yürüşləri başlamamışdan qabaq 1037-ci ildə vəfat etmişdir.

Mən İbn Sinanın adını ona görə çəkdim ki, məşhurdur. Burasını yadda saxlamaq vacibdir ki, bütün bu dövr ərzində, hətta Ərəb imperiyası süquta doğru meyil etdiyi bir zamanda da, ərəb mədəniyyəti Qərbi Asiyada və qismən Orta Asiyada hələ də qalmaqda davam edirdi. Başının səlibçilərə qarşı müharibəyə qarışmasına baxmayaraq, Saləddin çoxlu məktəb və xəstəxana tikdirmişdi. Bununla belə, ərəb mədəniyyəti qəfildən və tam dağılma həddindəydi. Şərqdən monqollar gəlirdi.

## AVROPA SƏLİB YÜRÜŞLƏRİ DÖVRÜNDƏ

*20 iyun 1932-ci il*

XI, XII və XIII əsrlərdə xristianlıqla İslam dini arasındakı toqquşma haqqında sonuncu məktubumda səndə müəyyən təsəvvür oyatmışdım. Xristian dünyasının birliyi ideyası Avropada inkişaf edirdi. Xristianlıq o dövrdə bütün Avropaya yayılmışdı, xristianlığa axırıncı qoşulan Şərqi Avropanın slavyan xalqları – ruslar və qeyriləridir. Bir maraqlı hekayə var – həqiqətə nə qədər yaxın olub-olmadığını bilmirəm; hekayədə deyilir ki, qədimlərdə ruslar hələ xristianlığı qəbul etməmişdən əvvəl götür-qoy etmişdilər ki, öz qədim dinlərindən əl çəkib yenisini qəbul etsinlər, ya yox. Haqqında eşitdikləri iki yeni din xristianlıq və islam idi. Beləliklə, həmin dinlərə etiqad edilən ölkələrə, lap bizim dövrümüzdə olduğu kimi, nümayəndə heyəti yollamışlar ki, o dinlərlə tanış olsunlar, sonra da gəlib onlar haqqında danışsınlar. Bu nümayəndə



heyəti, necə deyərlər, Qərbi Asiyada, islamın hökm sürdüyü bəzi yerlərdə olandan sonra yolunu Konstantinopola salmışdı. Konstantinopolda gördükləri onları mat qoymuşdu. Pravoslav kilsəsi ayinləri zəngin və təmtəraqlı idi; ayin zamanı musiqi və gözəl nəğmə ifa edirdilər. Zinətli qiyafədə görünən keşişlər buxur[1] tüstülədirdi. Bu mərasim sadə, yarımmədəni şimallılara çox böyük təsir bağışlamışdı. İslam dinində belə təmtəraq yox idi. Nəticədə nümayəndələrin rəyi və meyli xristianlığın tərəfində idi və vətənlərinə qayıdanda hər kəs öz knyazına elə də məlumat vermişdi. Knyaz və onun camaatı dönüb xristian olmuşdu. Onlar xristianlığı Konstantinopoldan qəbul etdiklərinə görə Romanın yox, pravoslav kilsəsinin tərəfdarı olmuşdular. Sonralar Rusiya Roma papasını heç vaxt tanımamışdı.

Rusiyanın xristianlığa keçməsi səlib yürüşlərindən xeyli əvvəl olub. Bolqarlar isə, belə söyləyirlər ki, bir vaxt müsəlmanlığı qəbul etməyə çox meyil göstəriblər, lakin Konstantinopolun cazibə qüvvəsi daha güclü olub. Bolqarların çarı Bizans şahzadəsinə evlənmişdi (yadında olar, Bizans Konstantinopolun qədim adıdır) və dönüb xristian olmuşdu. Başqa qonşu xalqlar da xristianlığı elə bu yolla qəbul ediblər.

Bu səlib yürüşləri zamanı bəs Avropada nələr baş verirdi? Fələstinə yürüş edən bəzi kralların və imperatorların orada fəlakətə uğradığını gördün. Bu arada isə papa Romada təntənəylə əyləşib sağa-sola əmrlər verir, "dinsiz" türklərə qarşı "müqəddəs müharibə"yə çağırırdı. Görünür, bu dövr papaların qüdrətinin ən yüksək nöqtəyə çatdığı bir dövr idi. Məğrur imperatorun Kanossada, qarda ayaqyalın necə intizarla dayandığını mən sənə söyləmişəm. İmperator papanın əfvinə nail olmaq üçün onun hüzuruna buraxılmasını gözləyirdi. Əvvəllər Gildebrand adını daşıyan və məhz papaların seçilməsi üçün yeni qayda qoyan bu papa VII Qriqori idi. Roma-katolik aləmində yüksək din xadimləri kardinallardı. Buna görə də Müqəddəs kollegiya adlanan kardinallar kollegiyası yaradıldı ki, o da özünə yeni papa seçdi. Bu qayda eramızın 1059-cu ilində qoyulmuşdu. Bəlkə, bəzi dəyişikliklərlə həmin qayda elə indi də qalır. Papa öləndə, elə indi də, kardinallar kollegiyası dərhal toplaşır və qapalı otaqda iclas keçirir. Yeni papa seçilməyincə nə bir adam bu otağa girə bilər, nə də çıxa bilərdi. Seçiləcək şəxsin namizədliyi barəsində razılığa gələ bilməyəndə otaqda saatlarla oturub iclas edərdilər. İş burasındadır ki, otaqdan çıxa da bilməzdilər! Onda əvvəl-axır məcbur olurdular ki,

[1] B u x u r – dini ayinlər zamanı yandırılan ətirli qatran (*tərcüməçinin qeydi*)

razılığa gəlsinlər; yeni papa seçkisi qurtaran kimi, yuxarı qalxan ağ tüstü burumları eşikdə gözləyən camaata bildirərdi ki, papa seçilib.

Müqəddəs Roma imperiyasının imperatorlarını da taxt-taca papaları seçən kimi seçirdilər. Lakin onlar iri feodal senyorlar tərəfindən seçilərdi. Seçici hökmdarlar və ya kurfürst[1] adlanan bu seçicilər yeddi nəfərdi. İmperator taxtının eyni bir ailə tərəfindən tutulmasının qarşısını almaq üçün bu üsulla hərəkət edərdilər. Əslində isə eyni ailə bu seçkilərdə uzun müddət üstünlük əldə edərdi.

Məsələn, XII və XIII əsrlərdə imperiyanı Qoqenştaufenlər sülaləsi idarə edirdi. Deyəsən, Almaniyadakı kiçik şəhərcik və ya kənd, Qoqenştaufen adlanırdı. Hakim sülalə oradan çıxdığı üçün bu adı qəbul etmişdi. I Fridrix Qoqenştaufen 1152-ci ildə imperator oldu. Adətən ona Fridrix Barbarossa deyirlər. Səlib yürüşü zamanı çayda batan həmin imperatordu. Deyilənə görə onun hakimiyyəti imperiyanın tarixində ən parlaq bir dövr olub. Alman xalqı üçün o, uzun müddət bir qəhrəman və əfsanəvi bir şəxs kimi olub. Onun barəsində xeyli əfsanə yaranmışdı. Belə nəql edirlər ki, guya o, dağın altındakı dərin mağarada yatır və müəyyən olunmuş məqam çatanda oyanacaq və öz xalqına nicat verəcəkdir.

Fridrix Barbarossa papa əleyhinə böyük mübarizə aparsa da, ona qalib gəlməmişdi. Beləliklə, Fridrix də papanın ayağına getməyə məcbur olmuşdu. O, mütləqiyyətə əsaslanan hökmdar idi. Lakin iri feodal vassalları ona dinclik vermirdilər. Hökmdar çalışırdı ki, iri-iri şəhərlərin tərəqqi etdiyi İtaliyada vassalların azadlığını əllərindən alsın. Amma buna müvəffəq olmamışdı. Almaniyada da, xüsusən çay sahillərində iri şəhərlər boy atmışdı; Köln, Hamburq, Frankfurt (Mayn çayı üzərində) və bir çox başqaları. Amma bu yerlərdə Fridrixin siyasəti başqa idi. O, azad alman şəhərlərinə ona görə havadarlıq edirdi ki, bu yolla dvoryanlığın və feodal əyanların qüdrətini zəiflədə bilsin.

Müxtəlif hadisələrlə əlaqədar dəfələrlə sənə söyləmişəm ki, qədim hindlilər mütləqiyyəti necə təsəvvür edirdilər. Qədim arilər əyyamından tutmuş ta Aşokaya qədər, "Arthaşastra"dan tutmuş Şukraçariyanın yazdığı "Nitisara"ya qədər kitablarda dönə-dönə qeyd etmişdilər ki, gərək padşah ictimai rəyə tabe olsun. Nəticə etibarilə ağa cəmiyyətdir. Bax, hind nəzəriyyəsi belə idi, halbuki başqa yerlərdə olduğu kimi, Hindistanda da padşahlar əslində çox zülmkardı. Sən bunu köhnə Avropa

[1] Kurfürst – feodal Almaniyada imperator seçmək hüququna malik nüfuzlu knyaz (*tərcüməçinin qeydi*)



nöqteyi-nəzərilə müqayisə elə. O dövrün hüquqçularının iqrar etdiyinə görə, imperator təkbaşına hakimiyyətə malikdi. Onun əzmi, hökmü qanun idi. Hüquqçular belə deyirdilər: "İmperator yer üzündə canlı qanundur". Fridrix Barbarossanın özü belə deyirdi: "Camaat gərək qanunlar barədə hökmdara sərəncam verməsin, hökmdarın hökmünə tabe olsun".

Bunu həmçinin Çin nöqteyi-nəzəriylə də tutuşdur. Çində imperator və ya padşah adını çox yüksəklərə qaldırmışdılar. Onun adına çox təmtəraqlı sözlər deyərdilər. Məsələn, Səma övladı və s. Amma bu, gərək bizi səhvə aparıb çıxarmasın. Nəzəriyyədə imperatorun mövqeyi qüdrətli Avropa imperatorunun mövqeyindən çox fərqlənirdi. Qədim zamanlarda yaşamış çinli müəllif Men-szı belə yazırdı: "Ölkədə ən mühüm şəxs xalqdır, ondan sonra faydalı torpaq və məhsul allahları gəlir, sonuncu sırada isə əhəmiyyətinə görə hökmdar durur".

Beləliklə, görürük ki, Avropada imperator yer üzündə ali şəxs hesab edilirdi. Hökmdarın ilahi hüququ barədə fikir də məhz buradan doğulub. Əslində o, əlbəttə, heç də təkbaşına hakim deyildi. Hətta onun feodal vassalları belə çox da müti deyildi. Odur ki, şəhərlərdə, sonralar görəcəyimiz kimi öz hüququnu tələb edən yeni-yeni siniflər baş qaldırırdı. Öz tərəfindən papa da yer üzündə ali hakimiyyət iddiasında idi. O yerdə ki, iki "ali" şəxs qarşılaşır, hökmən toqquşma olacaq.

Fridrix Barbarossanın nəvəsini də Fridrix adlandırırdılar. O, hələ uşaq yaşlarında ikən II Fridrix adı altında imperator olmuşdu. O, upor mundi – dünyanın möcüzəsi deyilən adamdı. Misir sultanıyla dostcasına söhbət etmək məqsədilə Fələstinə yola düşən adam. O da, babası kimi, papaya meydan oxuyurdu və ona tabe olmaqdan imtina edirdi. Bunun müqabilində papa onu kilsədən uzaqlaşdırdı. Bu, papaların köhnə və zəhmli silahı olsa da, azca paslanmağa başlamışdı. Papanın qəzəbi II Fridrixə az təsir etmişdi, elə dünya özü də dəyişilmişdi. Fridrix Avropanın bütün hökmdarlarına və hakimlərinə yazmış olduğu geniş məktublarında göstərirdi ki, kralların işinə papa gərək qarışmasın; papanın vəzifəsi siyasətlə məşğul olmaq deyil, dini işlərə və ruhani işlərinə nəzarət yetirməkdir. II Fridrix ruhanilərin rüşvətxorluğunu da təsvir etmişdi. Papalarla mübahisəsində o, xeyli üstün olduğunu da göstərmişdi. Fridrixin məktubları olduqca maraqlıdır. Bu, imperatorlarla papalar arasındakı köhnə mübahisədə müasir ruhun ilk təzahürü idi.

II Fridrix din məsələlərində özgə dinlərə çox dözümlü idi. Ərəb və yəhudi filosofları onun sarayına gələrdilər. Belə deyirlər ki, ərəb

rəqəmləri və cəbr (yadında olar, cəbr ilk əvvəl Hindistanda meydana çıxıb) onun sayəsində Avropaya yol tapmışdı. O, həmçinin Neapol universitetinin və Salernoda ən qədim universitetin nəzdində bir böyük *tibb məktəbinin əsasını qoymuşdu.*

II Fridrix 1212-ci ildən 1250-ci ilədək hakimiyyət sürmüşdür. Bununla da onun ölümündən sonra Qoqenştaufenlərin imperiyadakı ağalığı qurtarmışdır. Əslində imperiyanın varlığı sona çatmışdı. İtaliya imperiyadan ayrılmış, Almaniya ayrı-ayrı hissələrə parçalanmış və orada illər boyu dəhşətli qarmaqarışıqlıq hökm sürmüşdü. Soyğunçu cəngavərlər və quldurlar hər yanı talan edir və qənimət ələ keçirirdilər. Elə bir adam yox idi ki, onların qarşısını alsın. Müqəddəs Roma imperiyası Almaniya krallığından ötrü çox ağır yükdü. Fransada və İngiltərədə öz mövqeyini tədricən möhkəmləndirən krallar tabe olmaqdan boyun qaçıran iri feodal vassalların qiyamlarını yatırırdılar. Almaniyada isə kral eyni zamanda həm də imperator idi, papaya və italyan şəhərlərinə qarşı mübarizəyə başı elə bərk qarışmışdı ki, öz əyanlarını cilovlaya bilmirdi. Almaniya imperatora malik olmaqda şübhə doğuran bir şərəfə naildi; bunun nəticəsidir ki, ölkə zəiflik keçirir, daxili müharibələrin arası kəsilmirdi. Almaniya yenicə birləşmişdi. Fransa və İngiltərə isə Almaniyanın birləşməsindən xeyli əvvəl güclü millətlərə çevrilmişdilər. Yüz illər boyu Almaniyada saysız-hesabsız xırda dövlətlər mövcud idi. Almaniyanın birləşməsi hadisəsi təxminən altmış il qabaq baş versə də, hətta bundan sonra da xırda krallar və knyazlar yaşamaqda idi. Bütün bu monarxların yığınına son verən 1914-1918-ci illərin böyük müharibəsi oldu.

II Fridrixdən sonra Almaniyada həddindən artıq qarmaqarışıqlıq vardı. Elə buna görə də düz 23 il ümumiyyətlə, imperator seçilmədi. 1273-cü ildə qraf Rudolf Habsburq imperator seçildi. İndi meydana yeni bir sülalə – Habsburqlar sülaləsi çıxır. Bu sülalə imperiyada lap axıradək hökm sürdü. Həmin sülalənin hakimiyyətinə də Böyük Dünya müharibəsi zamanı nəhayət verildi. Müharibə zamanı Avstriya-Macarıstanda imperator Frans İosif adlanan Habsburq idi. O, çox qoca bir adamdı. Altmış ildən yuxarı taxtda əyləşmişdi. Səltənətin varisi onun qardaşı oğlu Frans Ferdinand idi. Onu 1914-cü ildə Bosniyada (Balkanlarda) Sarayevo şəhərində zövcəsi ilə birlikdə öldürmüşdülər. Böyük Dünya müharibəsinin başlanmasına məhz bu qətl bəhanə olmuşdu, müharibə isə bir çox şeyə, o cümlədən, qədim Habsburqlar sülaləsinə son qoymuşdu.



Bax, Müqəddəs Roma imperiyasının vəziyyəti belədi. İmperiyadan qərbdə yerləşən Fransa ilə İngiltərə tez-tez vuruşsalar da, bu ölkələrin kralları öz iri vassallarıyla daha çox müharibə vəziyyətində olurdular. Fransa və İngiltərə kralları əyanlar üzərində imperator və Almaniya krallarından qat-qat çox qəti qələbə çalırdı; bunun sayəsində İngiltərə və Fransa daha çox monolit ölkələrə çevrilmişdi və bu birlik də onlara güc-qüvvət vermişdi.

Bu zaman İngiltərədə üz vermiş bir hadisə barədə bəlkə də, oxuyubsan. Bu, eramızın 1215-ci ilində kral İohann tərəfindən Böyük azadlıqlar xartiyasının[1] imzalanması hadisəsiydi. İohann öz qardaşı Şir Ürəkli Riçarddan krallığı erkən almışdı. Çox acgöz, həm də zəif idi. Nəticədə özünə qarşı hamıda qəzəb oyatmışdı. Baronlar onu Temza çayı üzərindəki Pannimed adasında yaxalayıb böyük xartiyanı imzalamaq üçün məcbur etmişdilər. Bu sənəddə İngiltərə dvoryanlarının və İngiltərə xalqının müəyyən azadlıqlarını təmin etmək vədi göstərilmişdi. Bu, İngiltərədə siyasi azadlıq uğrunda uzun çəkən mübarizədə atılmış ilk addım idi. Xartiyada belə bir xüsusi qeyd-şərt vardı ki, kral birçə təbəənin də mülkiyyətinə və azadlığına mövqecə o təbəəyə bərabər adamların razılığı olmadan qəsd etmək hüququna malik deyil. Bu qeyd-şərtdən təmyiz məhkəmələri sistemi ortaya çıxdı. Bu sistemə uyğun olaraq məhkəmə işini mövqecə müttəhimə bərabər şəxslər yerinə yetirirlər. Beləliklə, görürük ki, kral hakimiyyətini məhdudlaşdırmağa İngiltərədə tez başlayıblar. Hökmdarın ali hakimiyyəti nəzəriyyəsi, yəni Müqəddəs Roma imperiyasında hakim olan bu nəzəriyyə hətta o vaxtlar belə İngiltərədə qəbul edilməmişdi.

Burasını qeyd etmək maraqlıdır ki, yeddi yüz ildən də yuxarı İngiltərədə qoyulmuş bu qayda Britaniyanın idarə etdiyi Hindistanda hətta indi də, 1932-ci ildə, tətbiq edilmir. Bu gün Hindistanda tək birçə şəxs, vitse-kral fərmanlar elan etmək, qanunlar vermək və adamları azadlıqdan və əmlakından məhrum etmək ixtiyarına malikdir.

Böyük azadlıqlar xartiyasının imzalanmasından bir qədər sonra İngiltərədə başqa bir diqqətəlayiq hadisə baş verdi. Tədricən milli şura yaradıldı ki, şurada iştirak etmək üçün ölkənin müxtəlif yerlərindən və şəhərlərindən cəngavərləri və şəhərliləri göndərirdilər. Bununla İngilis parlamentinin başlanğıcı qoyuldu. İcmalar palatası cəngavərlərdən və

[1] Xartiya – yunanca: ictimai-siyasi və tarixi cəhətdən əhəmiyyəti olan sənəd (*tərcüməçinin qeydi*)

şəhərlilərdən, lordlar palatası perlərdən[1] və yepiskoplardan ibarətdi. İlk əvvəl parlamentin hakimiyyəti çox məhdud olsa da, tədricən genişlənirdi. Nəhayət, iş o yerə gəlib çatdı ki, kimin səlahiyyətinin daha yüksək olması üstündə kralla parlament arasında mübahisə qopdu. Kralın boynu vuruldu; bununla da parlamentin ağalığına heç bir şübhə qalmadı. Amma bu dediklərimin hamısı sonralar, təqribən dörd yüz ildən sonra, XVII əsrdə baş vermişdi.

Fransada həmçinin üç təbəqə şurası (Baş ştatlar) deyilən şura mövcuddu. Bu üç təbəqə bunlardı: dvoryanlıq, kilsə və icmalar (üçüncü təbəqə). Şura bəzən kralın istəyiylə çağırılırdı. Amma bu tez-tez baş vermirdi, buna görə də şura İngilis parlamentinin müvəffəq olduğu səlahiyyətə nail ola bilmədi. Fransada da krallardan biri kral hakimiyyəti məhdudlaşdırılmamışdan qabaq başından keçməli oldu.

Yunanların Şərqi Roma imperiyası hələ də qalırdı. Öz varlığının ilk günlərindən etibarən imperiya daim kiminləsə müharibə vəziyyətində olurdu və hərdən də süqut etmək dərəcəsinə çatırdı. Buna baxmayaraq o, əvvəlcə şimallı vəhşilərin, sonra isə müsəlmanların hücumu qarşısında davam gətirə bilmişdi. İmperiyanın payına düşən bütün basqınlardan ruslarınmı, yaxud bolqarlarınmı, ərəblərinmi, yaxud səlcuq türklərininmi – kimin tərəfindən olursa-olsun, ən fəlakətlisi səlibçilərin basqını olub. Bu xristian cəngavərlərin xristian Konstantinopoluna vurduğu zərər hər hansı bir "dinsiz"in vurduğu zərərdən qat-qat artıq oldu. Bu böyük müsibətdən Konstantinopol imperiyası və şəhəri heç zaman özünə gələ bilmədi.

Qərbi Avropa dünyası Şərqi imperiya barədə əsla heç nə bilmirdi. Şərqi imperiya onu az maraqlandırırdı. Bu imperiyanı çox çətinliklə "xristian dünyası"nın bir hissəsi hesab edirdilər. Şərqi imperiyanın dili yunan diliydi. Halbuki Qərbi Avropa alimlərinin dili latın dili idi. Əslində Konstantinopolda, hətta tənəzzül dövründə belə, maarif və ədəbiyyat Qərbdə olduğundan daha çox inkişaf etmişdi. Amma bu, taqətdən düşmüş və yaradıcılığından qalmış qocalığın alimliyi idi. Qərb elmli olmasa da, cavandı, coşqun yaradıcılıq qüvvələrinə malikdi ki, bu da özünü gözəl əsərlərdə tezliklə təzahür etdirirdi.

Şərqi imperiyada kilsəylə imperator arasında, Romada olduğu kimi, ixtilaf yoxdu. İmperator orada ali hakimiyyətə malikdi və tam zülmkar

[1] Per – fransızca: tən, bərabər; İngiltərədə, Fransada, Yaponiyada yüksək zadəgan titulu (*tərcüməçinin qeydi*)



idi. Azadlıq barədə heç söz ola bilməzdi. Taxt-tac ən güclülərdən və ya ağına-bozuna baxmayanlardan ötrü qənimətə çevrilmişdi. Onlar qətlə və yalana, cinayətə əl atmaqla, qan tökməklə taxt-tacı qəsb edir, camaat da onlara kor-koranə itaət edirdi. Elə bil kimin idarə etməsinin camaatdan ötrü fərqi yoxdu.

Şərqi imperiya Avropa darvazası qarşısında sanki bir keşikçitək durur, onu Asiya basqınlarından qoruyurdu. O, yüz illər boyu bu işin öhdəsindən uğurla gəlmişdi. Ərəblər Konstantinopolu ələ keçirə bilmədilər, səlcuq türkləri şəhərə lap yaxın gəldilərsə də, bu işi onlar da başa çatdıra bilmədilər, monqollar şəhərin böyründən yan keçib, şimala, Rusiyaya səmt aldılar. Axırıncı gələn osmanlı türkləri oldu, bu böyük qənimət də, yəni imperiya şəhəri Konstantinopol da 1453-cü ildə elə onlara qismət oldu. Şəhərin alınmasilə Şərqi imperiya da süqut etdi.

## AVROPA ŞƏHƏRLƏRİNİN MEYDANA GƏLMƏSİ

*21 iyun 1932-ci il*

Səlib yürüşləri dövrü Avropada dinin, ümumi dini etiqadın böyük dövrü olmuşdur. İnsanlar gündəlik müsibətlərini yüngülləşdirmək yolunu bu etiqadda, bu ümiddə tapmağa çalışırdılar. Elm mövcud deyildi, maarif də geniş yayılmamışdı, çünki dini etiqadla elm, maarif bir-birilə uyğun gəlmirdi. Maarif və bilik adamları düşünməyə vadar edir, şəkk-şübhə və tədqiqat isə dini etiqad üçün qorxulu cığırdaşlardır. Elmin yolu – tədqiqat və eksperiment yoludur, amma bu, dini etiqad yolu deyil. Bu etiqadın necə zəifləməyə başladığını və şəkk-şübhənin necə yarandığını daha sonra görəcəyik.

Amma hələlik görürük ki, din çiçəklənir və katolik kilsəsi də dindarlara başçılıq edərək çox vaxt onları istismar edir. Minlərcə dindar Fələstinə səlib yürüşünə göndərildi ki, ordan heç zaman geri qayıtmasın. Papa da Avropada ona tam tabe olmaq istəməyən xristian xalqlara və ya qruplara qarşı səlib yürüşləri elan etdi. Papa və kilsə dispensasiya və indulgensiyalar[1] paylamaq, çox vaxt isə satmaq yoluyla bu dini eti-

[1] İndulgensiya – latınca: katoliklərdə günahların bağışlanması haqqında Roma papası adından pulla verilən fərman; indulgensiya katolik ruhanilərinin əlində varlanma vasitəsi idi (*tərcüməçinin qeydi*)

qaddan qazanc götürürdülər. Dispensasiya bu və ya digər kilsə qanununu, yaxud da kilsə adətini pozmaq üçün verilən icazə idi. Beləliklə, görürük ki, kilsə hətta özünün qoyduğu qanunları belə xüsusi hallarda pozmağa yol verirdi. Bu qanunlara hörmət çətin ki, uzun müddət qala bilərdi. İndulgensiyalar bu qanunlardan da qat-qat pis idi. Katolik kilsəsi təliminə görə, adam öləndən sonra ruhu ərafa, yəni səma ilə cəhənnəm arasında olan məkana qonur və orada ruh bu dünyada işlətdiyi günahların əzabını çəkir. Bundan sonra, belə zənn edirdilər ki, ruh səmaya qalxır. Papa aldığı pul müqabilində adamlara vəd edirdi ki, onlar ərafdan can qurtaracaqlar və birbaşa səmaya ucalacaqlar. Beləliklə, kilsə dini etiqadı istismar edirdi və hətta cinayətlərdən də və günah hesab etdiyi işlərdən də qazanc götürürdü. Səlib yürüşlərindən sonra indulgensiyalar satmaq üsulu tezliklə geniş yayılmışdı. Bu üsul elə bir miqyas almışdı ki, axırda rüsvayçılıq baş vermişdi və bir çox adamın katolik kilsəsindən üz döndərməsinin başlıca səbəblərindən biri məhz indulgensiyalar olmuşdu.

Adi dindar adamın bu qədər əzaba qatlaşması lap təəccüblüdür. Məhz bu səbəbə görə də bir çox ölkələrdə din ən böyük gəlirli bizneslərdən birinə çevrilib. Ayin pərəstişkarlarını məbədlərdəki kahinlər bax gör necə soymağa çalışır! Çıx Qanqın sahillərinə, onda görərsən ki, *pandalar* ta bədbəxt kəndli onlara pul verməyincə bu və ya digər mərasimi icra etməkdən gör necə boyun qaçırırlar! Ailə daxilində nə kimi hadisə üz verirsə-versin – doğum, nikah, ölüm – hamısına kahin baş soxur və hamısına da haqq istənilir.

Hinduizmdə də belədir, xristianlıqda da, islamda da, zərdüştilikdə də; bir sözlə, bütün dinlərdə! Bu dinlərdən hər birinin dinə sadiq adamların etiqadından istifadə etməklə özünəməxsus pul qopartmaq üsulu var. Hinduizmdə bu üsullar aşkar görünür. İslamda belə hesab olunur ki, kahinlik yoxdur. Buna görə də bu müddəa keçmişdə müsəlmanları istismardan qorumaqda müəyyən qədər kömək etmişdi. Lakin sonra ayrı-ayrı şəxslər və siniflər meydana çıxaraq, özlərinin dinə aid məsələlərdə mütəxəssis olduqlarını elan etdilər. Alim adamlar – *mövlanalar, mollalar* və qeyriləri adi dindar müsəlmanları aldadır və istismar edirdilər. Harda ki, uzun saqqal oldu, ya adamın təpəsində bir tutum saç, ya alnında uzun ləkə, ya dərviş libası, ya sarı oxra[1] rəngli *sanyasi* qiyafəli adam oldu, bu, müqəddəsliyə dəlalət edir, həmin yerdə camaatı aldatmaq da çətin deyildi.

[1] Oxra – yunanca: sarımtıl, sarı rəngli mineral boyaq (*tərcüməçinin qeydi*)



Əgər Amerikaya, ən qabaqcıl ölkəyə getsən, onda inanarsan ki, elə orada da din xalqı istismar edən iri bir sənayeyə çevrilmişdir.

Mən orta əsrlərdən və dini etiqad dövründən çox uzaqlaşdım. Gərək həmin dövrə qayıdaq. Biz bu etiqadın necə aydın və yaradıcı əlamətlər kəsb edəcəyini görəcəyik. XI və XII əsrlər tikinti dövrü olub. Odur ki, Qərbi Avropanın hər bir guşəsində kilsələr ucaldı. Avropanın qabaqlar eşitmədiyi, görmədiyi yeni arxitektura meydana çıxır. Layihələrin ağıllı həlli sayəsində damların ağırlığı iri zahiri dayaqlar üzərinə düşür. Binaların içərisində isə ağır talvarı zərif sütunların necə saxlaya bilməsinə adam lap mat qalır. Bu tikililərdə ərəb memarlıq üslubundan götürülmüş çatma tağ tətbiq olunur. Binaların üstündə səmaya yönəldilmiş nazik mil ucalır. Bu, memarlıqda qotik üslub[1] idi ki, Avropada inkişaf etmişdi. Bu qotik üslub dedikcə gözəldi; sanki göylərə baş qaldıran etiqadı və ilhamı əks etdirirdi. Bu memarlıq din əsrini həqiqətən özündə əks etdirirdi. Belə binaları ancaq öz işinin vurğunu olan və böyük əməllər naminə yaşayıb yaradan memarlar və ustalar ucalda bilərdi.

Qotik üslubun Qərbi Avropada meydana gəlməsi təəccüb ediləcək bir həqiqətdir. Səmaya ucalan duaya bənzər bu gözəllik təzahürü qarmaqarışıqlıqdan, xaosdan[2], cəhalətdən və özgə dinlərə dözməmək ideyasından törəmişdi. Fransada, Şimali İtaliyada, Almaniyada və İngiltərədə qotik üslubda tikilmiş kilsələr demək olar eyni bir vaxtda meydana çıxmışdı. Bu işin başlanğıcının necə qoyulduğunu heç kəs dəqiq bilmir. Bu kilsələri yaradan memarların adını heç kəs bilmir. O kilsələr ayrıca bir memarı yox, xalqın vahid şəkildə birləşən əzmini və zəhmətini təmsil edir. Həmin dövrdə kilsə pəncərələri üçün rəngli şüşədən istifadə etmək də bir yenilikdi. Bu vitrajlarda[3] əlvan şəkillər təsvir edilmişdi. Odur ki, şüşənin arasından düşən işıq ehtiram həyəcanını daha da gücləndirirdi.

Lap bu yaxınlarda sənə son məktublarımdan birində, Avropanı Asiyayla müqayisə etmişdim. O dövrdə Asiyanın Avropaya nisbətən qat-qat mədəni olduğunu gördük. Bununla belə o dövrdə Hindistanda yaradıcı

[1] Qotik üslub – (qotika, italyanca – qotsayağı; german tayfası qotların adından) orta əsr incəsənətinin inkişafında son mərhələ təşkil edən bədii üslub. Möhtəşəmlik, binanın şaquli quruluşu, çatma tağların ucalığı heykəltəraşlıqda, boyakarlıqda qotik üslub adlanır (*tərcüməçinin qeydi*).

[2] Xaos – yunanca: qədim yunan əsatirində: duman-çən və zülmət dolu dərin uçurum, qarmaqarışıq aləm; guya dünyanın "yaradılmasından" əvvəl mövcud olubmuş (*tərcüməçinin qeydi*).

[3] Vitraj – fransızca: al-əlvan, yaxud naxışlarla bəzədilmiş şüşə (*tərcüməçinin qeydi*)

əmək özünü az göstərirdi. Yaradıcılıq isə, dediyim kimi, həyat nişanəsidir. Yarımmədəni Avropada yaranan bu qotik memarlığı göstərir ki, Avropada əsil həyat varmış. Bütün çətinliklərə, qarışıqlığa və geridə qalmış mədəniyyətə baxmayaraq, həyat özünü büruzə vermək üçün yollar axtarırdı. Qotik üslublu binalar belə həyatın ifadəsi idi. Sonralar görəcəyik ki, naqqaşlıqda da, heykəltəraşlıqda da, sərgüzəştlərə olan böyük həvəsdə də qotik üslub öz ifadəsini tapmışdır.

Bu qotik üslublu kilsələrdən bəzilərini görübsən. Görəsən, yadında qalıbmı? Almaniyada, Kölndəki yaraşıqlı kilsəyə tamaşa edibsən. İtaliyanın Milan şəhərində, eləcə də Fransanın Şartra şəhərində qotik üslublu çox qəşəng kilsələr var. Fransanın, İngiltərənin və Şimali İtaliyanın hər yerinə səpələnib. Çox qəribədir ki, Romanın özündə az-çox gözə görünən qotik üslublu bircə kilsə də yoxdur.

Bu böyük tikinti dövründə XI, XII əsrlərdə qotik üslubda olmayan kilsələr də ucaldılırdı. Misal üçün, Paris Notr-Dam kilsəsi, ola bilsin ki, eləcə də Venetsiyadakı Müqəddəs Mark kilsəsi. Sənin gördüyün Müqəddəs Mark kilsəsi Bizans ustalığının nümunəsidir, gözəl mozaikaya[1] malikdir.

Din əsri keçmişdə qaldı, onunla birlikdə kilsə tikintisinə də nəhayət verildi. Adamların fikri, xəyalı biznesə və ticarətə, onların mülki həyatına yönəlmiş oldu. Baş kilsələrin əvəzinə şəhər bələdiyyə binaları tikməyə başladılar. XV əsrin əvvəllərindən etibarən Şimali və Qərbi Avropanın müxtəlif guşələrində yaraşıqlı şəhər bələdiyyə binalarının, yaxud gildiyalar üçün qotik üslublu binaların ucaldıldığını görürük. Londondakı parlament binası da qotik üslubdadır, amma nə vaxt tikildiyini bilmirəm. Yadımda qalan budur ki, deyəsən, qotik üslublu ilk əvvəl inşa edilən bina yanmışdır, sonra da elə həmin üslubda özgə bir bina ucaldılmışdır.

XII və XIII əsrlərdə ucaldılmış qotik üslublu böyük kilsələr şəhərlərdə və paytaxtlarda yerləşmişdi. Qədim şəhərlər yenidən baş qaldırmaqla yanaşı yeni şəhərlər də boy atırdı. Avropanın hər yerində dəyişiklik baş verir, hər yanda şəhər həyatı qaynayırdı. Qədim Roma imperiyası dövründə Aralıq dənizi sahili boyunca iri şəhərlər mövcud idi. Lakin Romanın və Yunan-Roma mədəniyyətinin tənəzzülə uğramasından sonra bu şəhərlər də süqut etmişdi. O zaman ərəblərin olduğu İspaniyanı nəzərə almasaq, Avropada Konstantinopol istisna edilməklə, iri şəhər bəlkə də yox idi. Asiyada, Hindistanda, Çində və ərəb dünyasında isə bu dövrdə iri şəhərlər tərəqqi edirdi. Lakin Avropada bu cür iri şəhərlər yox idi. Şəhər və mədəniyyət, görünür, bir-birindən ayrılmır. Avropada isə Roma qaydaları boşa çıxdıqdan sonra bu dediyimiz halların heç biri uzun müddət yox idi.

[1] Mozaika – fransızca və italyanca: ala-bəzək parçalardan, şüşədən, mərmərdən, əlvan daşlardan, ağacdan və s.-dən quraşdırılan şəkil və bəzək (*tərcüməçinin qeydi*)



Amma indi şəhər həyatının dirçəlməsi başlamışdı. Şəhərlər boy atırdı, xüsusən də İtaliyada. Özlərinin bəzi azadlıqlarının ləğv edilməsiylə razılaşmaq istəmədikləri üçün bu şəhərlər müqəddəs Roma imperiyasının imperatorundan ötrü daim əsəbiləşmə mənbəyi idi. İtaliyada və başqa ölkələrdə bu şəhərlərin inkişafı ticarət siniflərinin və burjuaziyanın, yaxud orta sinfin inkişafını əks etdirir.

Adriatik dənizində ağalıq edən Venetsiya azad respublikaya çevrildi. Şəhər bu gün özünün əyri-üyrü kanalları ilə (dənizin suyu bu kanallarla sərbəstcə axır) çox gözəldir. Lakin rəvayətə görə, şəhər bataqlıqlar üzərində salınmışdır. Hunn Attila Akvileyaya bir əlində od, o biri əlində qılınc gələrkən qaçqınların bir hissəsi Venetsiya bataqlıqlarında nicat tapmışdı. Qaçqınlar orada özləri üçün Venetsiya şəhərini salmışdılar: Şərqi Roma və Qərbi Roma imperiyaları arasında yerləşən bu şəhər öz azadlığını qoruyub saxlaya bilmişdi. Venetsiyaya ticarət Hindistandan və Şərqdən gəlmişdi, ona var-dövlət qazandırmışdı. Venetsiya öz dəniz donanmasını yaradıb daha qüdrətli oldu. Venetsiya doj[1] adlanan prezident başda olmaqla varlıların respublikasıydı. Napoleon Venetsiyaya 1797-ci ildə bir istilaçı kimi daxil olana qədər respublika var idi. Deyilənlərə görə qocalıb əldən düşmüş doj elə həmin gün yıxılıb ölüb. O, Venetsiyanın axırıncı doju olub.

İtaliyanın o biri tərəfində Venetsiyanın rəqibi olan Genuya yerləşirdi. Əhalisi dənizçi olan bu şəhər də ticarət şəhəriydi. Universitet şəhəri Boloniya, habelə, Piza, Verona və Florensiya həmin şəhərlər arasında yerləşirdi. Çox keçmədi ki, Florensiya şəhəri dünyaya böyük rəssamlar bəxş etdi və Mediçilər sülaləsinin hakimiyyəti dövründə özünün əzəmətiylə şöhrət tapdı. Şimali İtaliyadakı Milan şəhəri də mühüm sənaye mərkəziydi. Cənubda isə Neapol şəhəri inkişaf edirdi.

Fransa inkişaf etdikcə Paris də boy atırdı. Quqo Kapet bu şəhəri özünə paytaxt etmişdi, Paris həmişə Fransanın əsəb mərkəzi və ürəyi olub. Digər ölkələrdə də başqa paytaxtlar vardı. Lakin onlardan heç

[1] Doj – italyanca və latınca: orta əsrlərdə Venetsiya və Genuyada dövlət başçısı (*tərcüməçinin qeydi*)

biri Parisin Fransa üzərindəki ağalığı qədər son min il ərzində ağalıq edə bilməmişdi. Fransada əhəmiyyətə malik digər şəhərlər də vardı: Lion, Marsel (çox qədim limandır), Orlean, Bordo və Bulon.

İtaliyada olduğu kimi, Almaniyada da azad şəhərlərin inkişafı xüsusən XIII və XIV əsrlərdə nəzərə çarpır. Şəhərlərin əhalisi çoxalır, qüdrəti və sərvəti artdıqca daha da cəsarətlənir və dvoryanlıqla mübarizəyə girişirdilər. İmperator iri feodalları özünə tabe etdirmək məqsədilə hərdən bu şəhərlərə dayaq olurdu. Həmin şəhərlər özlərini qorumaq üçün böyük ticarət ittifaqları, ticarət cəmiyyətləri yaradırdılar. Hərdən bu cəmiyyətlər, yaxud federasiyalar (onları belə adlandırırdılar) əyanlara qarşı əsil müharibə aparırdı. İnkişaf edən bu şəhərlərdən bir neçəsini sadalayaq: Hamburq, Bremen, Köln, Frankfurt, Münhen, Dansiq, Nürnberq və Breslavl.

Niderlandlarda (indi onlar Hollandiya və Belçika kimi tanınıb) Antverpen, Brüqqe və Gent kimi ticarət şəhərləri vardı. O şəhərlərdə işgüzar həyat durmadan inkişaf edirdi. İngiltərədə, əlbəttə, London şəhəri vardı. Amma bu şəhər o zaman nə böyüklüyünə, nə zənginliyinə, nə də ticarət əlaqələrinə görə qitənin ən iri şəhərləriylə yan-yana dura bilməzdi. Bir təhsil ocağı kimi İngiltərədəki Oksford və Kembric universitetlərinin əhəmiyyəti xeyli artdı. Avropanın Şərqində Avropanın ən qocaman şəhərlərindən biri olan Vyana şəhəri yerləşirdi. Rusiyada isə Moskva, Kiyev, Novqorod kimi şəhərlər var idi.

Bu yeni şəhərləri, hər halda qədim tipli imperiya şəhərlərindən fərqləndirmək lazımdır. Avropanın inkişaf edən şəhərləri imperatorun və ya kralın sayəsində deyil, ticarət sayəsində əhəmiyyət qazanmışdı. Bu şəhərlər ticarətdə hakim mövqe tuturdular. Buna görə də onların gücü dvoryanlıqda yox, ticarət sinfindəydi. Bu şəhərlər ticarət edən şəhərlər idi. Buna görə də şəhərlərin yüksəlişi burjuaziyanın yüksəlişindən xəbər verirdi. Daha sonralar görəcəyik ki, həmin burjuaziya ta o vaxta qədər qüvvə toplayırdı ki, krala və kübarlara müvəffəqiyyətlə meydan oxuya bilsin və hakimiyyəti onların əllərindən alsın. Lakin bu hadisə nəzərdən keçirdiyimiz dövrdən çox sonralar baş vermişdir.

İndicə qeyd etdiyim kimi, şəhər və mədəniyyət çox vaxt qoşa inkişaf edir. Şəhərlər boy atdıqca maarif də, azadlıq ruhu da yüksəlir. Kənd yerlərində ömür sürənlər hərəkətdədirlər, özləri də mövhumata uyan olurlar. Təbii qüvvələrin rəhmindən asılıdırlar. Çox çalışıb-əlləşirlər, asudə vaxtları azdır. Ağalarının sözündən çıxmağa ürək eləmirlər. Şəhərdə cəmləşən adamların daha mədəni yaşamağa, oxuyub-öyrənməyə, müzakirə açmağa, tənqid etməyə və düşünməyə daha çox imkanları vardır.

Buna görə də azadlıq ruhu istər feodal əyanların siyasi nüfuzu əleyhinə, istərsə də kilsənin təmsil etdiyi ruhani nüfuzu əleyhinə qiyam qaldırır. Din əsri tükənməkdədir, şəkk-şübhə başlayır. Papanın və kilsənin nüfuzuna artıq daha həmişəki kimi kor-koranə itaət etmirlər. İmperator II Fridrixin papa ilə necə rəftar elədiyini gördük. Boyun əyməmək ruhunun necə inkişaf edəcəyini də görəcəyik.

XII əsrdən etibarən maarifin də dirçəlişi müşahidə edilir. Avropanın savadlı adamları üçün latın dili ümumi bir dil olub. Bilik axtaran adamlar bir universitetdən başqasına keçirdilər. İtaliyanın böyük şairi Dante Aligyeri 1265-ci ildə, İtaliyanın başqa bir böyük şairi Petrarka 1304-cü ildə anadan olub. Az sonra böyük ingilis şairləri arasında ən erkən Çoserin yaradıcılığı çiçəklənib.

Elmin ılıq nəfəsi sonrakı dövrlərdə güclü surətdə duyulurdu. Bu isə maarifin dirçəlişi məsələsindən də maraqlıydı. Yəqin yadında olar, mən sənə demişdim ki, ərəblər bu elm aləminə yaxşıca bələddirlər və müəyyən dərəcədə ona uyğun hərəkət edirdilər. Azad zəka tədqiqatının doğurduğu bu ılıq nəfəs, eksperiment ruhu orta əsrlər Avropasında çətin yaşaya bilərdi. Kilsə eksperiment ruhuna dözmürdü. Amma elm aləmində aparılan tədqiqat və təcrübə kilsənin münasibətinə baxmayaraq özünü qabarıq surətdə göstərirdi. O zamanlar Avropada ilk azad zəka sahiblərindən biri XIII əsrdə Oksfordda yaşayan ingilis Rocer Bekon olmuşdur.

## ƏFQANLAR HİNDİSTANA SOXULURLAR

*23 iyun 1932-ci il*

Dünən sənə məktub yazarkən yazımı yarımçıq qoydular. Yazmağa başlarkən məhbəsdə olduğumu, burada məni nələr əhatə etdiyini unutdum; fikrim məni sürətlə orta əsrlərə çəkib apardı. Lakin məni o dövrlərdən tez də ayırıb geri, indiki mühitə qaytardılar və vadar etdilər ki, həbsxanada olduğumu ürək acısıyla dərk edəm. Mənə yuxarıdan alınan

sərəncama görə ananla və Diddaciylə[1] görüşməyin bir aylığa qadağan edilməsi barədə xəbər verdilər. Nə səbəbə? Deməditər. Məhbusa niyə desinlər ki? Onlar düz on gün idi ki, Dəhra-Duneydəydilər, görüş gününü gözləyirdilər. Amma məlum oldu ki, nahaq yerə gözləyirmişlər, geriyə qayıtmalıdırlar. Bizimlə bax belə iltifatla rəftar edirlər. Gərək bundan inciməyək. Çox təbiidir, bura həbsxanadır, yaxşı olar ki, bunu unutmayaq.

Məni xəyal aləmindən kobudcasına ayırandan sonra indini qoyub keçmişə qayıtmağım qeyri-mümkündü. Amma bu gün, gecə dincələndən sonra, özümü bir az yaxşı hiss edirəm. Odur ki, təzədən başlayıram.

Gəl indi Hindistana qayıdaq. Çoxdandı ki, orada olmamışıq. Orta əsrlərin zülmət və nadanlığından can qurtarmağa Avropanın hər cür cəhd göstərdiyi feodal sisteminin ağırlığı üzündən, hər yerdə hökm sürən hərc-mərclik və dövlətin pis idarə olunması üzündən orada əhalinin əzab çəkdiyi papayla imperatorun əlbəyaxa olduğu, Avropa ölkələrinin isə təşəkkül tapdığı bir dövrdə, habelə səlib yürüşləri zamanı xristianlıqla islamın hökmranlıq üstündə bir-birilə mübarizə apardıqları bir vaxtda, görəsən Hindistanda nələr baş verirdi?

Orta əsrlər Hindistanına ötəri bir nəzər salmışıq. Biz həmçinin şimal-qərbdən, Qəznədən sultan Mahmudun Şimali Hindistanın zəngin düzənlərinə ley kimi şığıdığını, ölkəni çapıb-taladığını da görmüşdük. Mahmudun basqınları dəhşətli olsa da, Hindistanda böyük və ya uzun sürən dəyişikliyə səbəb olmadı. Bu basqınlar ölkəyə, xüsusən onun şimal hissəsinə güclü zərbə endirdi, bir çox gözəl abidə və binalar dağıdıldı. Lakin Qəznəvilər imperiyası tərkibinə təkcə Sind və Pəncabın bir hissəsi daxil oldu. Hindistanın şimalının qalan hissəsi çox tez bərpa edildi, cənub hissəsinə isə heç əl də vurulmadı; Benqaliyaya da dəyilmədi. Sonrakı yüz əlli il ərzində Hindistanda nə müsəlman istilası əhəmiyyətli müvəffəqiyyət qazandı, nə də ki, islam.

XII əsrin sonlarına yaxın (təqribən 1186-cı ildə) şimal-qərbdən yeni hərbi müdaxilə dalğası başladı. Əfqanıstanda meydana çıxan bir əfqan başçısı Qəznə şəhərini zəbt edərək Qəznəvilər hakimiyyətinin varlığına son qoydu. Onun adı Şihab-əd-din Guri idi (Gur Əfqanıstanda kiçik bir şəhərdir). O, Lahora gəlib oranı işğal edəndən sonra Dehlinin üzərinə yeridi. Həmin dövrdə Dehlidə padşah Prithvirac Çayxan idi, onun rəhbərliyiylə Şimali Hindistanın bir çox digər başçıları qəsbkara

[1] İndiranın nənəsi



qarşı vuruşurdular. Onlar Şihab-əd-dini tam məğlubiyyətə uğratdılar. Amma bu hal uzun sürmədi. O biri il böyük qüvvələrlə qayıdıb gələn Şihab-əd-din bu dəfə Prithviraca qalib gələrək onu öldürdü.

Prithvirac indiyə kimi hamı tərəfindən tanınmış bir qəhrəmandır. Onun haqqındakı əfsanə dildən-dilə gəzir, şəninə mahnılar qoşulmuşdur. Bu əfsanələr içində ən məşhuru Kanauc racəsi Cayaçandranın qızının qaçırılması əhvalatıdır. Amma racə qızının qaçırılması ona çox baha başa gəlmişdir. Racə ən yaxşı arxadaşlarını qurban vermiş və qüdrətli padşahda özünə qarşı ədavət oyatmışdı. Racə qızının qaçırılması daxili qarışıqlıq və düşmənçilik toxumu səpmiş və bununla da istilaçıların qalib gəlməsini asanlaşdırmışdı.

Beləliklə, 1192-ci ildə Şihab-əd-din ilk qələbə çaldı. Bu qələbə Hindistanda müsəlman ağalığının bərqərar olunmasıyla nəticələndi. Qəsbkarlar tədricən şərqə və cənuba doğru irəliləyirdilər. Aradan daha yüz əlli il keçəndən sonra (təqribən 1340-cı ildə) müsəlmanların hakimiyyəti ölkənin cənubunun xeyli hissəsinə yayıldı. Sonra cənubunda onların əlində olan torpaqlar azalmağa başladı. Yeni dövlətlər meydana gəldi, onların bəzisi müsəlman, bir qismi isə hinduist dövlətləriydi, xüsusilə də Vicayanaqar hinduist imperiyası. İki yüz il ərzində islamın nüfuzu zəiflədi, yalnız XVI əsrin ortalarında böyük Əkbər hakimiyyət başına gələndən sonra İslam dini təzədən az qala Hindistanın hər bir guşəsinə yayıldı.

Müsəlman istilaçılarının Hindistana gəlişi güclü əks təsir oyatdı. Unutma ki, bu istilaçılar əfqanlar idi. Nə ərəbdi, nə fars, nə də ki, Qərbi Asiyanın yüksək mədəniyyətli müsəlmanları. Əfqanlar hindlilərlə müqayisədə mədəniyyətcə geri qalsalar da, çox çevik idilər, o zamankı Hindistan əhlindən qat-qat mətanətli olub, yaşamağa daha qabildilər. Hindistan uzun bir müddət tapdanmış cığırla, asan yolla getmiş, dəyişiklik və tərəqqi nə olduğunu yadırğamışdı. O, köhnə ənənələrdən əl çəkməyib, bu ənənələri yaxşılaşdırmağa cəhd etmirdi. Hətta müharibə aparmaq üsulları nöqteyi-nəzərindən belə Hindistan geri qalmışdı, halbuki əfqanlar onlardan qat-qat mütəşəkkil idilər. Buna görə də özünün qoçaqlığına və fədakarlığına baxmayaraq Qədim Hindistan müsəlman istilası önündə boyun əydi.

Bu müsəlmanlar əvvəllər çox qəddar və zalım idilər. Onlar "yumşaqlığa" çox da qiymət verilməyən sərt iqlimli bir məmləkətdən gəlmişdilər. Bundan əlavə, müsəlmanlar təzəcə istila edilmiş ölkədə idilər.

Hər məqamda üsyana hazır olan düşmənlərin əhatəsindəydilər. Görünür, üsyan qorxusundan xilas ola bilmirdilər, qorxu isə çox zaman qəddarlıq və azğınlıq törədir. Odur ki, əfqanlar camaatı qorxutmaq məqsədilə tez-tez qırğın salırdılar. İşin mahiyyəti dini mənsubiyyət üzündən hinduların müsəlmanlar tərəfindən qətlə yetirilməsində deyildi, məğlub edilmiş xalqın ruhunu yadelli istilaçılar tərəfindən qırmaq cəhdindəydi. Bu qəddar hərəkətlərə haqq qazandırmaq məqsədilə az qala həmişə dinə isnad edilsə də, məsələ heç də belə deyil. Dindən bəzən bir bəhanə kimi istifadə edirdilər. Əsil səbəblər isə siyasi və sosial səbəblər idi. Mərkəzi Asiyanın Hindistana soxulmuş xalqları hələ İslam dinini qəbul etməmişdən çox-çox əvvəllərdə öz doğma diyarlarında belə qəddar və amansız olmuşlar. Təzəcə istila etdikləri ölkəni özlərinin hakimiyyəti altında saxlamaq üçün onların bildikləri yeganə bir yol vardı – terror yolu.

Bununla belə, biz Hindistanın yırtıcı döyüşçüləri tədricən necə həlimləşdirdiyini, mədəniləşdirdiyini görürük. Onlar özlərini yadelli istilaçı yox, hindli kimi hiss etməyə başlayırlar; yerli qadınlarla evlənirlər və istilaçılarla istila olunanlar arasındakı fərq tədricən silinib gedir.

Gəl sənə maraqlı bir məsələ söyləyim. Mahmud Qəznəvinin – talançılıqda Hindistanın heç zaman görmədiyi, eşitmədiyi islamın müdafiəçisi və "bütpərəstlər" əleyhinə mübariz kimi qələmə verilən bu adamın qoşunu arasında hindu sərkərdə Tilakın başçılıq etdiyi hindular dəstəsi vardı. O, Tilakı və qoşununu özü ilə Qəznəyə aparır və müsəlman üsyanlarının yatırılmasında ondan istifadə edir. Beləliklə, Mahmudun əsas niyyətinin istilaçılıq olduğunu görürsən. O, öz müsəlman əsgərlərinin köməyilə Hindistanda "bütpərəstləri" öldürməyə hazırdı. Orta Asiyada isə öz hindu əsgərlərinin köməyilə müsəlmanları qırırdı.

İslam dini Hindistanı ətalət yuxusundan ayıltdı, ona həyat qüvvələri bəxş etdi və tərəqqi qabiliyyətini itirən cəmiyyətə inkişaf etsin deyə təkan verdi. Tənəzzülə uğrayan və sönən, ifrat təfərrüata və təkrara varan hind incəsənəti şimalda dəyişikliyə məruz qalmağa başlayır. Yeni incəsənət inkişaf edir. Nikbinlik və qətiyyət dolu bu sənəti hind-müsəlman sənəti adlandırmaq olar. Qocaman hind inşaatçı ustaları müsəlmanların gətirdiyi yeni ideyalardan ilhama gəlirlər. Müsəlman etiqadının və həyata baxışlarının sadəliyi özü o dövrün memarlığına təsir etmiş, fikir sadəliyi və nəcibliyi yenidən memarlıqda öz əksini tapmışdı.

Müsəlmanların Hindistana hərbi müdaxiləsi əhalinin kütləvi surətdə cənuba üz qoyması ilə nəticələndi. Mahmudun hücumlarından və tutduğu qanlı divanlardan sonra Şimali Hindistan əhalisinin nəzərində İslam dini vəhşicəsinə qəddarlıq və dağıntı törətmək anlayışı ilə yanaşı tutulmağa başladı. Belə ki, yeni hərbi müdaxilə başlayanda və qarşısını almaq mümkün olmayanda mahir sənətkar ustalar və alimlər dəstə-dəstə Cənubi Hindistana üz qoydular. Bu, cənubda ari mədəniyyətinin inkişafına böyük təkan verirdi.



Mən sənə cənub barədə az-çox danışmışdım. Demişdim ki, Çalukiyalar sülaləsi qərbdə və mərkəzdə (Maharaştra ölkəsi) VI əsrin ortalarından başlayaraq düz iki yüz il hökmranlıq etmişdir. Syuan Tszan o zamanlar hökmdar olan II Pulakeşinin hüzuruna gəlmişdi. Çalukiyalar sülaləsinin yerini Raştrakutlar sülaləsi tutmuşdu. Bu sülalə Çalukiyaları məğlub edərək, sonrakı iki yüz il ərzində, yəni VIII əsrdən ta X əsrin təqribən sonlarına qədər cənub üzərində hökmranlığı əlində saxlamışdı. Raştrakutların Sindin ərəb hakimləriylə arası saz olduğundan çoxlu ərəb taciri və səyyahı onların hüzuruna gəlirdi. Həmin səyyahlardan biri öz səfəri barədə gündəlik qoyub getmişdi. Gündəlikdə qeyd etmişdi ki, o dövrdə (IX əsrdə) Raştrakutlar sülaləsindən olan hökmdar dünyanın dörd ən böyük padşahından biri sayılırdı. O biri üç böyük padşah isə, onun fikrincə bunlar idi: Bağdad xəlifəsi, Çin imperatoru və Rum (yəni Konstantinopol) imperatoru. Bu fikir maraqlıdır, çünki o zamanlar Asiyada üstün olan bir rəyi əks etdirir. Hərgah ərəb səyyahı Raştrakutlar səltənətini Bağdadın ən qüdrətli və şöhrətli çağında xəlifənin imperiyasıyla müqayisə edirsə, Maharaştra, deməli, çox güclü və qüdrətli olmuşdur.

X əsrdə (973-cü il) Raştrakutlar öz yerlərini yenə Çalukiyalara verdilər: Çalukiyalar hakimiyyəti daha iki yüz il (1190-cı ilə qədər) əllərində saxladılar. Çalukiyalar sülaləsindən olan bir padşaha uzun bir poema həsr etmişdilər. Orada deyilir ki, o, açıq svayamvarada[1] öz arvadının sevimlisi olub. Maraqlıdır ki, bu ari adəti uzun müddət yaşayırdı.

Hindistanın uzaq cənubunda və şərqində tamillər ölkəsi yerləşirdi. Burada III əsrdən IX əsrədək, təqribən altı yüz il ərzində Pallavlar sülaləsi hakimiyyət sürmüşdür. VI əsrdən başlayaraq bu sülalə iki yüz il ərzində cənubda ağalıq etmişdir. Yəqin, yadında olar: məhz bu Pallavlar sülaləsi Malayziyanı və şərq adalarını məskunlaşdırmaq üçün bir-birinin ardınca ekspedisiyalar yollayırdı. Pallavlar dövlətinin pay-

[1] Qədim Hindistandakı adətə görə padşahın qızı özünə əri yığıncaqda seçirmiş. Padşah və şahzadə qismindən olan adaxlıların hamısı yığıncağa dəvət olunarmış

taxtı Kançi və ya Konciveram şəhəri olmuşdur; o zamanlar çox yaraşıqlı olan bu şəhər öz ağıllı planlaşdırılmasına görə elə indi də hamını heyran edir.

X əsrin əvvəllərində Pallavlar sülaləsini təcavüzkar Çolalar sülaləsi əvəz etdi. Çolalar imperiyası haqqında, Racərace və Racendra haqqında, onların iri eskadralar düzəldib Seylonu, Birmanı və Benqaliyanı zəbt etməyə yollandıqları haqqında az-çox danışmışam. Tamillərdə seçkili kənd pançayatları sisteminin olması barədə məlumat daha böyük maraq doğurur. Bu sistem ən aşağıdan qurulurdu, kənd ittifaqları çoxlu komitə seçirdi, bu komitələr cürbəcür işlərə göz qoymalıydılar; onlar həmçinin dairə şuraları seçirdi. Bir neçə dairə əyalət təşkil edirdi. Bu məktublarda mən *pançayatlar* sistemini dönə-dönə qabarıq göstərmişəm, çünki o sistem qədim ari dövlət quruluşunun əsası idi.

Əfqanlar Şimali Hindistana hərbi müdaxilə etdikləri bir dövrdə Cənubi Hindistanda Çolalar sülaləsi hökmranlıq edirdi. Amma çox çəkmədi ki, həmin sülalə tənəzzülə uğramağa başladı və tabeliyindəki balaca bir padşahlıq istiqlaliyyətə nail olaraq güclənməyə başladı. Bu, paytaxtı Madura olan Pandyalar padşahlığıydı; Kayal limanına malikdi. Venetsiyalı məşhur səyyah Marko Polo (onun haqqında sonralar ətraflı danışaram) iki dəfə, 1288-ci və 1293-cü illərdə Kayalda olub. O, şəhəri "əzəmətli və çox gözəl" bir şəhər kimi təsvir edərək deyirdi ki, şəhərdə həyat qaynayırdı, Ərəbistandan və Çindən gəlmiş bir çox gəmilər limanda dayanmışdı. Marko özü Çindən gəmiylə gəlmişdi.

Marko Polo sanki "hörümçək torundan toxunmuş" çox nazik muslin barədə, yəni Hindistanın şərq sahilində hazırlanan parça barədə xəbər verir. Bir xanımın – Rudramani Devinin adını çəkir. Bu qadın Hindistanın şərq sahilində, Mədrəsin şimalında yerləşən Teluqu ölkəsinin məlikəsiydi. Bu xanım düz qırx il ölkəni idarə etmişdi. Marko da onu ağızdolusu tərifləyir.

Markonun söylədiyi digər maraqlı xəbər Ərəbistandan və İrandan Cənubi Hindistana çoxlu at gətirilməsinə aiddir. At yetişdirmək üçün cənub iqlimi əlverişli deyildi. Belə zənn edirlər ki, Hindistanın müsəlman istilaçılarının hindlilərdən yaxşı döyüşçü olmasının bir səbəbi də onların ən yaxşı atlara malik olmasıydı. At yetişdirmək üçün Asiyadakı ən yaxşı sahələr onların ixtiyarındaydı.

Demək, Pandyalar padşahlığı XIII əsrdə, yəni Çolalar imperiyasının süqut etdiyi dövrdə, qabaqcıl tamil dövlətiydi. XIV əsrin əvvəllərində



(1310-cu ildə) müsəlman istilaçıları gəlib cənuba çatdılar və Pandyalar padşahlığının ərazisinə soxuldular, çox çəkmədi ki, həmin padşahlıq süqut etdi.

Bu məktubda Cənubi Hindistan tarixinin icmalını verdim; ola bilsin ki, əvvəl dediklərimin təkrarına yol vermişəm. Amma bu mövzu bir az dolaşıq mövzudur. Adamlar Pallavları, Çalukiyaları, Çolaları və başqalarını çox vaxt qarışıq salırlar. Əgər bu tarixə bütöv bir tam kimi nəzər salsan, onda bütün bu geniş sistemi əhatə edə bilərsən. Yadında varsa, Aşoka bütün Hindistana (cənubda ölkənin balaca bir hissəsini çıxmaq şərtiylə), eləcə də Əfqanıstana və Orta Asiyanın bir hissəsinə hakim idi. Ondan sonra Hindistanın cənubunda Andhra dövləti irəli çıxdı. Dekanı başdan-başa tutan bu dövlət dörd yüz il hakimiyyət sürdü. Kuşanlar təqribən elə həmin dövrlərdə Hindistanın şimalındakı sərhədə yaxın vilayətlərdə özlərinin imperiyasını yaratdılar.

Teluquların Andhra dövləti tənəzzülə doğru getdikcə tamillərin Pallavlar sülaləsi şərq sahilində və cənubda ucalırdı; bu sülalə uzun müddət hakimiyyət başında oldu. Malay ölkələrində məskunlaşmanın əsasını qoydu. Altı yüz illik hökmranlıqdan sonra Pallavların yerini Çolalar tutdu. Çolalar uzaq ölkələri fəth etdilər, bu sülalənin donanması bütün dənizləri qarış-qarış gəzirdi. Üç yüz il keçəndən sonra onlar səhnədən çəkilirlər və ön cərgəyə Pandyalar padşahlığı çıxır; Madura şəhəri mədəniyyət mərkəzi olur, Kayal isə uzaq ölkələrlə əlaqə saxlayan iri və qaynar limana çevrilir.

Beləliklə, cənub və şərq barədə söylədiyimiz kifayətdir. Hindistanın qərbində, Maharaştra ölkəsində, Çalukiyalar, sonra Raştrakutlar, sonra təzədən, ikinci dəfə Çalukiyalar sülaləsi hakimiyyət sürmüşdü.

Bunlar ancaq adlardır. Amma sən bu səltənətlərin ömrünün nə qədər uzun olduğuna və onların necə yüksək mədəniyyət səviyyəsinə gəlib çatdığına fikir ver. Bu səltənətlərin malik olduqları daxili qüvvə, görünür, onlara Avropa krallıqlarında müşahidə edildiyindən daha çox möhkəmlik və sülhsevərlik bəxş etmişdir. Lakin sosial quruluş ömrünü başa vurduqdan sonra bu səltənətlər özlərinin möhkəmliyini itirdilər. XIV əsrin əvvəllərində müsəlman qoşunları cənuba doğru hərəkət edərkən bu quruluş artıq dağılmaqda idi.

## DEHLİDƏKİ PADŞAH-QULLAR

*24 iyun 1932-ci il*

Sultan Mahmud Qəznəvi haqqında sənə danışmışam, şair Firdövsidən, yəni Mahmudun xahişi ilə fars dilində "Şahnamə" yazmış şairdən söz açmışam. Amma Mahmudun dövründəki başqa bir görkəmli şəxs barədə – Sultanla bərabər Pəncaba varid olan şəxs barədə sənə heç nə söyləməmişəm. O adam əl-Biruni idi; o dövrün yırtıcı və mövhumatçı fatehlərindən kəskin surətdə fərqlənən savadlı və alim bir adam olub. Hindistanın hər yerini gəzib-dolaşıb ki, təzə ölkə və onun xalqı ilə yaxından tanış olsun. Hindlilərin baxışlarıyla tanış olmaq fikri beyninə elə bərk düşür ki, o bu məqsədlə sanskriti öyrənir və hinduların əsas kitablarını şəxsən oxuyur, hind fəlsəfəsini, habelə elm və incəsənəti Hindistanda tədris edilən şəkildə öyrənir, "Bhaqavadgita" onun ən sevimli kitabı olur. Cənuba, Çolalar padşahlığına gedib çıxarkən oralarda gördüyü *iri suvarıcı qurğular onu heyran qoyur. Onun Hindistanı* gəzib-dolaşması barədə salnaməsi bizim günlərədək gəlib çatan böyük və qədim səyahətnamələrdən biridir. Dağıntılar, axıdılan qanlar və başqa dinlərə dözməmək hərc-mərcliyi içərisində o, həqiqəti səbirlə izləyən, araşdıran və dərk etməyə çalışan bir alim kimi seçilir.

Şihab-əd-dindən, yəni Prithviracanı məğlubiyyətə uğradan əfqandan sonra Dehlidə bir sıra sultanlar dəyişmişdi ki, bunlara padşah-qullar deyirdilər. Onların arasında ilk padşah-qul Qütb-əd-din olub. O, Şihab-əd-dinin qulu olub. Hətta qullar belə ucalıb yüksək mövqe tuta bilərdilər. Qütb-əd-din də Dehlidə ilk sultanlığa nail olub. Qütb-əd-dindən sonra gələn bəziləri də mənşə etibarilə qul olduğundan onlara qullar sülaləsi adı veriblər. Padşah-qullar çox qəddar olduğundan zəfər çalarkən binaları və kitabxanaları dağıdırdılar, ohaliyə əziyyət verirdilər. Tikməyi-qurmağı da xoşlayan bu adamlar inşaatda iri miqyaslı işləri üstün tuturdular. Qütb-əd-din Qütb-Minarın inşasına başlamışdı. Sənin yaxşıca bələd olduğun bu böyük bürc Dehlinin yaxınlığındadır. Varisi İltutmış bürcün inşasını başa çatdırıb, yaxınlığında indiyədək qalan yaraşıqlı tağlar tikdirmişdir. Bu tikililər üçün materialı qədim hind tikintilərindən, əsasən məbədlərdən götürürdülər. İnşaatçılar, əlbəttə ki, hindlilərdi, amma sənə dediyim kimi, onlar müsəlmanların gətirmiş olduğu yeni ideyaların güclü təsiri altında idilər.



Hindistanın hər bir istilaçısı, o cümlədən Mahmud Qəznəvi ölkədən gedərkən özü ilə çoxlu hind sənətkarı və inşaatçısı aparırdı. Hind memarlarının təsiri Orta Asiyada həmin yolla yayılardı.

Əfqanlar Biharı və Benqaliyanı çox asanlıqla fəth etdilər. Əfqanlar çox qoçaq idilər, şəhəri müdafiə edənlərin üzərinə qəflətən hücum edirdilər və onların göstərdikləri rəşadət çox vaxt zəfərlə nəticələnirdi. Kortesin və Pissaronun Amerikadakı qələbələri hamını heyran etdiyi kimi, Benqaliyanın istila olunması da təqribən onun kimi hamını heyran etmişdi.

İltutmışın hakimiyyəti dövründə (1211-1236-cı illər) Hindistan sərhədlərinin başı üzərini nəhəng, dəhşətli buludlar aldı. Bu, Çingiz xanın hakimiyyəti altında olan monqollar idi. O, düşməni təqib edə-edə Hind çayınacan gəlib çatdı. Amma burada ayaq saxladı. Hindistan onun basqınından kənarda qaldı. Aradan təqribən iki yüz il keçəndən sonra Çingiz xanın nəslindən olan Teymur, öldürmək, dağıtmaq və qarət etmək niyyətilə Hindistana gəldi. Amma Çingiz özü Hindistanın üzərinə basqın etmədisə də, monqollar ölkəyə soxulur, lap Lahorun özünəcən yaxınlaşırdılar. Monqollar hamının canına qorxu salmışdılar, sultanlar özləri belə onlardan qorxurdu, ara-sıra fidyə verməklə, yəni pul və ya başqa vasitəylə özlərini və ölkəni qoruyurdular. Bir neçə min monqol Pəncabda məskən saldı.

Raziyyə adında bir qadın vardı. Sultanlar arasında İltutmışın qızı. Görünür, qabiliyyətli olan bu hökmdar həm də cəsur döyüşçü idi. Amma o, özünün yırtıcı əfqan əsilzadələrinin öhdəsindən çətinliklə gəlirdi, Pəncaba soxulan monqollarla yola getmək isə ona daha çox çətindi.

Padşah-qulların hakimiyyətinə 1290-cı ildə son qoyuldu. Aradan çox keçməmiş Əla-əd-din Hilçi hakimiyyəti ələ aldı; o, incə bir üsul işlətdi: həm də qayınatası olan öz əmisini qətlə yetirib taxta çıxdı. Sədaqətsizliklərindən şübhələndiyi bütün kübar müsəlmanları öldürtməklə öz mövqeyini möhkəmlətdi. Monqolların qəsdindən qorxaraq hakimiyyətində olan ərazilərdə hər bir monqolun öldürülməsinə hökm verdi ki, "bu tayfaya mənsub bircə adam da yer üzündə sağ qalmasın". Belə ki, çoxunun heç bir təqsiri olmayan iyirmi, ya otuz min monqol öldürüldü.

Qorxuram dəfələrlə törədilən kütləvi qətlləri yada salmağım o qədər də yaxşı *təsir bağışlamasın. Daha ümumi tarixi nöqteyi-nəzərdən* də həmin qətllər o qədər də mühüm məsələ deyil. Bununla belə həmin kütləvi qətllər belə bir cəhəti dərk etmək imkanı verir ki, o zaman Şimali Hindistan dinclikdən və mədəniyyətdən çox uzaqmış. Ölkədə müəyyən

dərəcədə vəhşiliyə qayıtmışdılar. İslam dini Hindistana özüylə bərabər tərəqqi ünsürləri gətirdiyi halda, müsəlman əfqanlar vəhşilik ünsürləri gətirmişdilər. Bir çoxları bu iki hadisəni qarışıq salır; amma bu hadisələri bir-birindən fərqləndirmək lazımdır.

Başqaları kimi Əla-əd-din də özgə dinlərə dözmürdü. Amma görünür, Hindistanın bu Orta Asiya hökmdarlarının dünyagörüşü dəyişməyə başlamışdı. Artıq onlar Hindistanı özlərinə vətən hesab etməyə başlayırdılar. Burada özlərini daha gəlmə, yad adam kimi hiss etmirdilər. Əla-əd-din hinduist məzhəbindən olan bir qadınla evlənmişdi, oğlu da atasının yoluyla getmişdi.

Görünür, Əla-əd-dinin padşahlığı dövründə az-çox səmərəli idarəetmə sistemi yaratmağa cəhd göstərilmişdi. Qoşunun yerdəyişməsini təmin etməkdən ötrü rabitə yolları saz saxlanılırdı, qoşuna isə Əla-əd-din ayrıca qayğı göstərirdi. Qucaratı və cənubun xeyli hissəsini qoşunun köməyi ilə fəth etmişdi. Mənbələrdən alınan məlumata görə, sərkərdəsi cənubdan bolluca qənimət, əlli min maund qızıl, külli miqdarda brilyant və mirvari, iyirmi min at və üç yüz on iki fil gətirmişdi.

Romantika və cəngavərlik yurdu, həddindən çox rəşadətli, lakin hətta o dövr üçün belə köhnə dəbli, geridə qalmış müharibə aparmaq üsullarına tərəfdar olan Çitor Əla-əd-dinin döyüşə qabil qoşunu tərəfindən dağıdıldı. Çitor 1303-cü ildə talan olundu. Amma şəhər talan olunmazdan qabaq, qaladakı kişi və qadınlar – öz qədim adətlərinə sadiq qalanlar dəhşətli *cauhar* mərasimini icra etdilər. O adətə görə məğlubiyyət təhlükəsi adamların başının üstünü aldıqda, ən təhlükəli bir anda kişilərin hamısı qaladan çıxaraq döyüş meydanında son nəfəsə qədər vuruşmalı, qadınlar isə özlərini yandırmalıydı. Bu, dəhşətli adətdi, *xüsusilə qadınlardan ötrü. Qadınlar da əldə qılınc* döyüş meydanında həlak olsaydılar bu daha yaxşı olardı. Amma o dövrlərdə müharibədə məğlubların nəsibi olan köləlikdən və həqarətdənsə hər halda ölümü üstün tuturdular.

Bu vaxt ölkənin yerli əhalisi, yəni hindular yavaş-yavaş İslam dinini qəbul etdilər. Bu proses sürətlə getmirdi. Adamların bir qismi dinini ona görə dəyişirdi ki, islamdan xoşları gəlirdi, bir qismi qorxu üzündən belə hərəkət edirdi, üçüncü qisim adamlar isə güclü tərəfdə olmaq arzusuyla. Amma İslam dininə keçməyin başlıca səbəbi iqtisadi səbəbdi. Müsəlman olmayan kəs gərək *xüsusi can vergisi – cizyə* verəydi. Bu, yoxsullardan ötrü çox ağır yükdü. Bir çoxları təki can vergisi verməsin



deyə öz dinini həvəslə dəyişməyə razılaşırdı. Ali siniflər üçün isə başqa dinə keçməyin mühüm əhəmiyyəti vardı, istəyirdilər sarayın mərhəmətinə nail olsunlar və yüksək vəzifələr tutsunlar. Əla-əd-dinin cənubu fəth etmiş böyük sərkərdəsi Malik Qafur İslam dinini qəbul edən hinduist idi.

Gərək sənə Dehlinin bir sultanı haqqında da danışam. Başqalarından dedikcə fərqlənən bu şəxsin adı Məhəmməd bin Tuqlak idi, çox alim adamdı, həm fars, həm də ərəb dilini çox gözəl bilirdi. Fəlsəfəni və məntiqi öyrənmişdi, yunan fəlsəfəsinə də bələd idi. Riyaziyyatdan, dəqiq elmlərdən və təbabətdən də baş çıxarırdı. Bu cəsur adam öz dövrü üçün bir alimlik nümunəsiydi və əsil möcüzəydi. Bu sadaladığım cəhətlərinə baxmayaraq o, son dərəcə qəddardı, bununla belə görünür o, büsbütün ağılsızdı! Öz atasını öldürüb taxta çıxmışdı. İranı və Çini fəth etmək barədə əfsanəvi planlardan əl çəkmirdi. Əlbəttə, bu planlar baş tutmadı. Amma onun ən böyük hünəri Dehlini, öz paytaxtını dağıtmaq qərarına gəlməsiydi; ona görə ki, şəhərin bəzi sakinləri gizlincə atdıqları məktublarda onun siyasətini tənqid etməyə cəsarət edirdilər. Məhəmməd buyurdu ki, paytaxtı Dehlidən cənubdakı Dəvagiriyə (indi Heydərabad dövlətindədir) keçirsinlər. Bu yerə o, Dövlətabad adı verdi. Ev sahiblərinə dəyəcək zərərin bir qismini ödədikdən sonra istisnasız olaraq hamıya əmr olundu ki, üç günün içində şəhəri tərk etsinlər.

Əhalinin əksəriyyəti şəhərdən çıxıb getdi. Bəziləri gizləndi. Onları tapanda bərk cəzalandırdılar; bir korla da belə rəftar etmişdilər, əl-ayağı tutulmuş bir adamı da o kökə salmışdılar. Dehlidən Dövlətabada qırx günlük yoldur. Bu uzun yolu qət etməyin adamlar üçün necə dözülməz olduğunu və neçələrinin yoldaca qaldığını təsəvvür etmək çətin deyil.

Bəs Dehli şəhəri? Görəsən, onun başına *nələr gəldi?* Aradan iki il ötmüşdü ki, Məhəmməd bin Tuqlak Dehlini təzədən şəhərə çevirməyə cəhd göstərdi. Amma bacarmadı. Dehlidə nələr baş verdiyini öz gözüylə görən adam belə danışır: hələ bundan əlavə o, şəhəri "bomboş səhraya" çevirmişdi. Bağı düzənliyə çevirmək çox asandır, amma düzənliyi təzədən bağa çevirmək çox çətindir. Dehliyə qayıtmış sultanı səfərdə müşayiət edən afrikalı səyyah – mavr ibn Bəttutə yazmışdı ki, "bu, dünyanın ən böyük şəhərlərindən biridir. Biz paytaxta qədəm qoyanda şəhəri necə təsvir edirlərsə elecə də gördük. Paytaxt bomboşdu, hamı şəhəri tərk etmişdi, cüzi miqdarda əhalisi qalmışdı". Şəhərin səkkiz, ya on mildən çox sahə tutduğunu xəbər verən bir başqası yazırdı:

"Şəhərdə nə vardısa, hamısı alt-üst edilmişdi. Şəhər başdan-başa elə dağılmışdı ki, binaları arasında, şəhər qəsrlərində və ya qəsəbələrində nə bir pişik qalmışdı, nə də ki, bir it".

Bu sərsəm sultan düz 25 il, 1351-ci ilədək hakimiyyət başında oldu. Adamların öz hökmdarlarının dələduzluğuna, qəddarlığına və qabiliyyətsizliyinə göz yumub dözməsi təəccüb doğurur. Amma adamların yaltaqlığına baxmayaraq, Məhəmməd bin Tuqlak öz imperiyasının axırına çıxdı. Ölkəni məhv edən onun sərsəm planları və ağır vergiləri oldu. Əvvəlcə aclıq, sonra da üsyanlar başladı. Hələ onun sağlığında, 1340-cı ildən başlayaraq geniş-geniş vilayətlər müstəqillik əldə etdi. Benqaliya istiqlaliyyət qazandı. Cənubda bir neçə dövlət əmələ gəldi. Bu dövlətlər arasında əsas yeri Vicayanaqar hinduist dövləti tuturdu; 1336-cı ildə yaranan bu dövlət cəmi on ildən sonra cənubda böyük dövlətə çevrilmiş oldu.

Dehli yaxınlığında Tuqlakabadın qalıqlarına hələ də rast gələ bilərsən. Onu Məhəmmədin atası tikdirmişdi.

## ÇİNGİZ XAN ASİYANI VƏ AVROPANI LƏRZƏYƏ SALIR

*25 iyun 1932-ci il*

Axırıncı məktublarımda törətdikləri qırğın və dağıntılar, adamların canına qorxu və təlaş salmaları ilə əlaqədar monqollardan dəfələrlə söz açmışam. Çindəki Sunlar sülaləsi haqqındakı hekayətimizi monqolların basqın etməsinə çatanda yarımçıq qoyduq. Qərbi Asiyada monqollara təzədən rast gəlirik, həm də onlar harda peyda olurdusa, oradaca köhnə qayda-qanuna son qoyulurdu. Monqollar Hindistanda taxtda əyləşən padşah-qullara toxunmadılar. Lakin burada da sarsıntı xeyli güclü oldu. Monqolustandan gələn bu köçərilər sanki bütün Asiyanı, Avropanın yarısını da diz çökdürmüşdülər. Görəsən qəflətən və sürətlə hücum çəkib bütün dünyanı kökündən sarsıdan bu qəribə adamlar kimdi? Artıq Mərkəzi Asiyadan gəlmiş skiflər də, hunlar da, türklər də, tatarlar da tarixdə əhəmiyyətli rol oynamışdılar. Bu xalqlardan bəziləri hələ də görkəmli mövqe tuturdu: Qərbi Asiyada səlcuq türkləri, Şimali Çində və digər yerlərdə tatarlar. Amma o vaxtacan hələ monqollar özlərini əsla göstərməmişdilər. Qərbi Asiyada onların



varlığından, bəlkə də heç kəsin xəbəri də yoxdu. Onlar Monqolustanda çox olan saysız kiçik tayfalara mənsubdular, həm də Şimali Çini istila etmiş tszin tatarlarının hakimiyyətinə tabe idilər.

Monqollar birdən-birə qüdrətli oldular. O vaxtacan dağınıq olan bu tayfalar birləşib, vahid rəhbər – Böyük xan seçdilər, özləri də ona sədaqət və itaət göstərəcəklərinə and içdilər. Böyük xanın başçılığı altında Pekinin üzərinə yürüş edib, Tszin imperiyasının varlığına son qoydular. Sonra Qərbə istiqamət aldılar, yolları üstündəki iri çarlıqları aradan qaldırdılar. Rusiyanın üstünə qoşun çəkib fəth etdilər. Daha sonralar Bağdadı imperiya qarışıq yer üzündən sildilər, birbaşa Polşanın üzərinə və Mərkəzi Avropaya yürüş etdilər. Onları dayandıra biləcək bir kəs yox idi. Hindistan adi təsadüf üzündən nicat tapdı. Avrasiya[1], yəni Avropa və Asiya aləmində bu vulkan püskürməsinin necə təəccüb doğura biləcəyini təsəvvür etmək asandır. Bu, insanın qarşısında bir iş görməkdə qadir olmadığı nəhəng miqyasda üz verən zəlzələyə bənzər təbii fəlakətdi.

Monqolustandan gələn, Şimali Asiyanın geniş çöllərindəki alaçıqlarda gün keçirən bu köçərilər məhrumiyyətə alışmış güclü kişilər və qadınlardı. Lakin onların arasından son dərəcə görkəmli bir şəxsiyyət – rəhbər çıxmasaydı, onların güclü olmasının və sərt şəraitə alışmasının heç bir faydası olmazdı. Həmin şəxs Çingiz xan (yaxud Cengiz xan – bu adın müxtəlif yazı növləri var) adı ilə məşhurdur. 1155-ci ildə anadan olub, əsil adı Temuçin idi. O hələ uşaq ikən atası Yesugey Bahadır ölmüşdü. Yeri gəlmişkən deyim ki, Bahadır monqol əsilzadələrinin arasında sevimli addır; qəhrəman deməkdir, məncə urdu dilindəki "*bahadur*" sözünün mənşəyi o addandır.

Temuçin on yaşlı bir uşaqdı və ona kömək edəsi heç kəsi yox idi, buna baxmayaraq o, inadla çalışıb axırda istəyinə nail oldu. Addımbaaddım, get-gedə yüksəldi, ta o vaxtacan ki, *qurultay* adlanan Böyük monqol məclisi toplaşıb onu Böyük xan, yaxud xaqan (imperator) seçdi. Bu hadisədən bir neçə il qabaq ona Çingiz adı verilmişdi. XIII əsrdə yazılmış və XIV əsrdə Çində nəşr olunmuş "Monqolların gizli tarixi"ndə onun xaqan seçilməsi təsvir edilib.

"Demək, keçə alaçıqlarda yaşayan bütün qəbilələr bobir ilində vahid hakimiyyət altında birləşəndə, onlar Onon çayı mənbələri

[1] Avropa və Asiya materikinə Avrasiya adını 1883-cü ildə Avstriya geoloqu E.Züss verib (*tərcüməçinin qeydi*).

yaxınlığında cəmləşib, Doqquz ağaca taxılmış ağ bayraq qaldırıb Çingizə xaqan adı verdilər".

O, Böyük Xan, yaxud xaqan olanda düz 51 yaşı tamam olmuşdu. O, daha gənc deyildi, bu yaşda olanların əksəriyyəti dincliyə və rahatlığa can atır. Amma o, fateh mənsəbinə hələ indi başlayırdı. Bunu ona görə xatırladıram ki, böyük fatehlərin əksəriyyəti hələ çox gənc ikən ölkələr fəth edirdi. Bu hal həm də onu yadımıza salır ki, Çingiz heç də gənclik ilhamından vəcdə gələrək Asiyanın üzərinə birdən-birə hücum etməmişdi. O, orta yaşlı bir adam idi, ehtiyatlı və tədbirli tərpənirdi. Odur ki, həyata keçirdiyi əməllərini qabaqcadan ətraflı hazırlayırdı.

Köçəri monqolların şəhərləri və şəhər həyatını görən gözləri yox idi. Çoxları belə düşünür: madam ki, onlar köçəriydi, gərək vəhşi olaydılar. Amma bu yanlış təsəvvürdür. Əlbəttə, onların şəhərə aid bir çox peşədən başları çıxmasa da, özlərinin inkişaf etmiş həyat tərzi vardı və onlar mürəkkəb təşkilata malikdilər. Monqolların döyüş meydanlarında böyük zəfər çalması da sayca üstün olmaları sayəsində yox, intizamlı və mütəşəkkil olmaları sayəsində idi. Bu qələbələr üçün hər şeydən çox Çingizin parlaq sərkərdəlik məharətinə minnətdar olmalıydılar. Çünki Çingiz, şübhəsiz, tarixdə çox böyük hərbi dühа və rəhbər olub. Makedoniyalı İsgəndər və Sezar onunla müqayisədə cılızdırlar. Çingiz nəinki özü çox böyük sərkərdəydi, o, həm də bir çox qoşun başçısını tərbiyələndirib parlaq sərkərdə dərəcəsinə qaldırmışdı. Doğma torpaqlardan neçə min mil uzaqlarda, ədavət bəsləyən əhali və düşmən əhatəsində olduqları halda, sayca özlərindən qat-qat üstün düşmənlərə qalib gəlirdilər.

Çingiz öz təntənəli zəfər yürüşünə başlayanda Asiya və Avropa xəritəsi, görəsən, nə vəziyyətdəydi? Çin, Monqolustandan şərqə və cənuba doğru, bir neçə yerə parçalanmışdı: cənubda cənubi Sunların sülaləsinin hakimiyyət sürdüyü Sun imperiyası yerləşirdi; şimalda paytaxtı Pekində olan Tszinlər, yaxud qızıl tatarlar (çcurçcenlər) imperiyası yerləşirdi. Sunlar sülaləsini devirən də bu qızıl tatarlar olub. Qərbdə, Qobi səhrası arxasında və ondan da uzaqlarda Si-Sya imperiyası, yaxud tanqutlar dövləti yerləşirdi; tanqutlar da köçəriydilər. Hindistanda, Dehlidə, əvvəl dediyim kimi, qullar arasından çıxmış padşahlar hökmdarlıq edirdilər. İranda və Mesopotamiyada, düz Hindistanın sərhədləri yanında paytaxtı Səmərqənd olan böyük müsəlman padşahlığı Xarəzm və ya Xivə yerləşirdi. Padşahlıqdan qərbə doğru səlcuqlar, Misirdə və Fələstində isə Saləddinin (Saleh-əd-dinin) varisləri hökmranlıq edirdilər.



Bağdad ətrafındakı torpaqları səlcuqların himayəsində olan xəlifə idarə edirdi.

Bu dövr sonrakı səlib yürüşləri dövrü idi. II Fridrix Qoqenştaufen – stupor mundi (dünyanın möcüzəsi) Müqəddəs Roma imperiyasının imperatoruydu. Bu dövr İngiltərədə Böyük azadlıqlar xartiyası dövrü və xartiya elan olunduqdan sonra ölkədə baş verən dəyişikliklər dövrü olub. IX Lüdovik Fransada kral idi. Səlib yürüşündə iştirak edərkən türklər tərəfindən əsir alınmış, sonra xərac verməklə azad edilmişdi. Şərqi Avropada yerləşən Rusiya, görünür, iki dövlətə – şimalda Novqorod və cənubda isə Kiyev dövlətlərinə bölünmüşdü. Macarıstan və Polşa Rusiya ilə Müqəddəs Roma imperiyası arasında yer tuturdu. Konstantinopolun ətrafındakı torpaqlara malik olan Bizans imperiyası isə hələ də tərəqqi etməkdəydi.

Çingiz özünün istilaçılıq səfərlərinə cidd-cəhdlə hazırlıq görərdi. Daim ordusuna, ən əvvəl isə süvarilərinə təlim verər, ordusu üçün at ehtiyatı görərdi. Çünki köçəri xalqa atdan vacib heç nə yoxdur. Çingiz şərqə yürüş edib Şimali Çindəki və Mancuriyadakı Tszin imperiyasının az qala büsbütün axırına çıxdı və Pekini ələ keçirdi. Koreyanı da istila elədi. Görünür o, cənubdakı Sunlar sülaləsiylə yaxşı münasibət saxlayırdı. Sunlar Tszinlər əleyhinə ona hətta yardım da göstərmişdilər, heç orasını fikirləşmirdilər ki, bir gün Çingiz onlara da əl qaldıra bilər. Çingiz daha sonralar tanqutları da özünə tabe etdi.

Bu qələbələrdən sonra Çingiz dincələ bilərdi. Görünür, Qərb ölkələrini ələ keçirmək niyyətində deyildi. O, Xarəzm şahı ilə dostluq münasibəti yaratmaq istəyirdi. Amma bu, ona qismət olmadı. Qədim latın məsəlində deyilir: "Allah kimi məhv etmək istəyirsə, qabaqca ağlını əlindən alır". Xarəzm şahı başına bəla açmaq meyli olduğu üçün buna şərait yaradırdı. Canişinlərindən biri monqol tacirlərinin qırğınını təşkil edir. Hətta bu hadisədən sonra da əmin-amanlıq istəyən Çingiz səfirlərini yollayıb canişinin cəzalandırılmasını tələb edir. Lakin sərsəm Xarəzm şahı şöhrətpərəstliyi və təkəbbürlüyü üzündən səfirləri təhqir edib asdırır. Çingiz bu hadisədən qəzəblənsə də, tələm-tələsik iş görmür. Cidd-cəhdlə hazırlıq tədbiri görəndən sonra böyük qoşunu ilə qərbə sarı hərəkət edir.

1219-cu ildə başlanan bu yürüş Asiyanı, qismən də Avropanı ayılmağa, yeni təhlükəni, rastına çıxan şəhərləri yerlə yeksan edən, milyonlarca insan ömrünü fəlakətə sürükləyən nəhəng dalğanı görməyə

məcbur edir. Xarəzm yer üzündən silindi, saysız-hesabsız saraylara və milyondan yuxarı əhaliyə malik böyük Buxara şəhəri yandırılıb külə döndərildi. Paytaxt şəhər Səmərqənd dağıdıldı, onun bir milyon sakinindən təkcə 50 mini qaldı. Herat, Bəlx və çiçəklənmiş bir çox başqa şəhərlər məhv edildi. Milyonlarla insan öldürüldü. Yüz illər boyu Orta Asiyada çiçəklənən incəsənət və sənətkarlıq yox edildi. İrandakı və Orta Asiyadakı mədəni həyatın sanki kökü kəsildi. Çingizin ayağı dəyən yerlər bomboş düzənliyə çevrildi.

Xarəzm şahının oğlu Cəlal-əd-din bu şiddətli selə qarşı cəsarətlə mübarizə aparırdı. O, Hind çayınadək gerilədi, burada hər tərəfdən sıxışdırılan Cəlal-əd-din otuz fut hündürlükdən at belində çaya tullandı və üzə-üzə o taya keçdi. Dehli sarayında özünə sığınacaq tapdı. Çingiz onu təqib etməyi lazım bilmədi.

Səlcuq türklərinin və Bağdadın xoşbəxtliyi üzündən Çingiz onları rahat buraxıb şimala, Rusiyaya hərəkət etdi. Böyük Kiyev knyazını məğlubiyyətə uğradıb əsir aldı. Sonra Si-Syanın və ya tanqutların üsyanını yatırtmaq üçün şərqə sarı üz döndərdi.

Çingiz 1227-ci ildə 72 yaşında öldü. Onun imperiyası qərbdə Qara dənizdən tutmuş Sakit Okeanadək uzanıb gedirdi, hələ də qüdrətli olan imperiya genişlənməkdəydi. Paytaxtı yenə də əvvəlkitək Monqolustandakı Qaraqorum şəhərciyi idi. Çingiz köçəri olsa da, son dərəcə qabil təşkilatçıydı; müdrik olduğu üçün yanında qabiliyyətli nazirləri saxlayıb onlardan istifadə edirdi. Belə sürətlə meydana gələn imperiyası o ölən kimi parçalanmadı.

İran və ərəb tarixçilərinin nəzərində Çingiz bir yırtıcıdır, onların dediyi kimi, bir "Allah bəlasıdır". Onu dedikcə qəddar adam kimi təsvir edirlər. O, şəksiz ki, qəddar idi, amma o dövrün bir çox digər hökmdarlarından o qədər də fərqlənmirdi. Hindistandakı əfqan hakimləri də çox qəddar olublar. Amma kiçik miqyasda qəddardılar. 1150-ci ildə əfqanlar Qəznə şəhərini işğal edəndə köhnə qan ədavətinin əvəzini çıxaraq şəhəri talan edib yandırmışdılar. "Talan və qanlı qırğın ara vermədən düz yeddi gün çəkmişdi, əllərinə keçən hər kişini öldürürdülər, qadınları və uşaqları əsir edirdilər. Mahmudilərin (yəni Mahmudun varislərinin) bütün cahanda misli-bərabəri olmayan qəsrlərini və digər imarətlərini dağıtmışdılar". Müsəlmanlar öz müsəlman qardaşlarıyla bax belə davranırdılar. Hindistandakı əfqan hakimləri dövründə baş verən hadisələrlə Orta Asiyada və İranda Çingizin törətdiyi qırğın arasında,



əslində heç bir fərq yox idi. Çingizin ən çox Xarəzmə qəzəbi tutmuşdu, çünki şah onun səfirini öldürtdürmüşdü. Ondan ötrü bu, qan intiqamı kimi bir şeydi. Çingiz başqa yerlərdə də çox qırğın törətmiş olsa da, bu qırğın, ehtimal ki, Orta Asiyadakı kimi böyük qırğın deyildi.

Çingizi şəhərlər dağıtmağa sövq edən başqa səbəblər də var idi. Onun qəlbində şəhərlərə nifrət edən köçəri ruhu yaşayırdı. Bir vaxt Çingiz Çindəki bütün şəhərləri məhv etməyi lazım bilmişdisə də, xoşbəxtlikdən bu fikrindən vaz keçmişdi. Onun fikri bu idi ki, mədəniyyəti köçəri həyat tərziylə uzlaşdırsın. Amma bu fikir baş tutan şey deyildi və deyil də.

Çingiz xanın adına görə belə hökm vermək olardı ki, o, müsəlman idi. Amma əslində belə deyildi. Bu ad monqol adıdır. Dini məsələlərdə Çingiz başqa dinlərə dedikcə dözümlü idi. Onun dini, özlüyündə, şamanlıq[1] diniydi, yəni "əbədi mavi səmaya" sitayiş edən dindi. O, Çinin taoist müdrikləriylə uzun-uzadı söhbət etməyi xoşlasa da şamanlığa etiqad edərdi və çətin anlarda soma ilə məsləhətləşərdi.

Sən bu məktubun əvvəlində deyilənə, yəqin ki, fikir vermişdin. Orada deyilir ki, Çingiz monqolların məclisi tərəfindən Böyük Xan "seçilmişdi". Əslində bu, xalq məclisi deyildi, feodalların qurultayı idi. Çingiz də, beləliklə, qəbilənin feodal başçısıydı. Onun özü kimi tərəfdarları da savadsızdı. Yəqin, uzun müddət dünyada yazı deyilən bir şeyin varlığı ona heç məlum deyildi. Xəbərlər biri digərinə şifahi çatdırılırdı, alleqoriya[2] və ya zərb-məsəl şəklində. Geniş imperiyanın işlərinin şifahi müraciətnamələr vasitəsilə aparıldığı təəccüb doğurur. Çingiz yazı deyilən şeyin mövcud olmasından xəbər tutar-tutmaz dərhal anladı ki, bu, çox faydalı və dəyərli bir şeydir. Buna görə oğullarına və qoşun başçılarına əmr etdi ki, o yazını öyrənsinlər. Monqolların qədim adi hüququnu və onun öz kəlamlarını da qələmə alsınlar. Niyyətində tutduğu bu idi ki, adi hüquq həmişəlik "dəyişilməz qanun"dur və bu qanunu heç kəs poza bilməz. İmperator belə o qanuna itaət etməlidir. Amma bu "dəyişilməz qanun" indi öz qüvvəsini itirib və müasir monqolların həmin qanun barədə nə xatirələri qalıb, nə də ki, o qanunun ənənələri.

Hər bir ölkənin, hər bir dinin öz qədim adi hüququ və yazılı hüququ var. Buna görə çox vaxt belə təsəvvür edirlər ki, guya bu, əbədi,

[1] Şamanlıq – ruhlara sitayiş, ibtidai din formalarından biri (*tərcüməçinin qeydi*)
[2] Alleqoriya – yunanca: mücərrəd məfhumların konkret obrazlarda ifadəsi (*tərcüməçinin qeydi*)

"dəyişilməz qanun"dur. Bəzən belə hesab edirlər ki, bu "vəhy"[1] elə bir şeydir ki, o, Allah tərəfindən kəşf olunub və o şey ki, güman olunduğu kimi, Allah tərəfindən kəşf edilib dəyişilə bilməz, fani də ola bilməz. Amma qanunlar gərək mövcud şəraitə uyğun olsun və bizim kamilləşməyimizə kömək etsin. Əgər şərait dəyişilərsə, onda köhnə qanunlar həmin şəraitə necə uyğun ola bilər? O qanunlar gərək dəyişilən şəraitlə birgə dəyişilsin, əks halda, o qanunlar dünya irəli getdiyi bir vaxtda bizi yerimizdecə saxlayan dəmir zəncirlərə çevrilmiş olur. Heç bir qanun "dəyişilməz qanun" ola bilməz. Qanun gərək biliyə əsaslansın, biliklər inkişaf etdikcə qanun da onunla bərabər inkişaf etməlidir. Görünür, mən sənə Çingiz xan barədə həddindən artıq müfəssəl məlumat verdim. Amma bu adam məni özünə məftun edib. Düz deyilmi, qəribədir. Qəribədir ki, köçəri tayfasının yırtıcı, qəddar və azğın bir feodal başçısı mənim kimi dinc, zorakılığı rədd edən, həlim bir adamı – şəhərli olan və feodal adıyla bağlı nə varsa, hamısına nifrət edən bir adamı özünə məftun edə bilib.

## MONQOLLAR DÜNYAYA AĞALIQ EDİRLƏR

*26 iyun 1932-ci il*

Çingiz xan öləndə oğlu Ugedey Böyük xan oldu. Çingizlə və özünün müasirləri olan monqollarla müqayisədə o, insanpərvər və sülhsevər bir adam idi. O, belə deməyi xoşlardı: "Bizim Çingiz xaqan minbir zəhmətlə dövlətimizin binasını ucaltdı. İndi xalqlara əmin-amanlıq şəraiti yaratmağın, onların rifah halını yaxşılaşdırmağın və daşıdığı yükün ağırlığını yüngülləşdirməyin vaxtı gəlib çatıb". Burasına fikir ver ki, o, öz tayfasının təsəvvüründə bir feodal başçısı kimi mühakimə yürüdür.

Lakin istilalar dövrü qurtarmadığına görə monqolların qüvvəsi hələ aşıb-daşırdı. Onlar böyük sərkərdə Subedeyin komandanlığı altında Avropaya yenidən soxuldular. Avropanın orduları və sərkərdələri Subedeyin müqabilində ona layiq rəqiblər deyildilər. Subedey döyüşə qabaqcadan mükəmməl zəmin hazırlayır, düşmən mövqeyini öyrənmək üçün qabağa casuslar yollayır, həm də məlumat toplamaq məqsədilə düşmən ölkələrə casuslar göndərirdi. Bu yolla da hücuma başlamazdan əvvəl

[1] V ə h y – ərəbcə: ilham; bir fikrin və ya işin ilham olunması (dini) (*tərcüməçinin qeydi*)



o ölkənin siyasi və hərbi vəziyyəti barədə ətraflı məlumat əldə etmiş olurdu. Döyüş meydanında özünü hərbi işin ustası kimi göstərirdi, halbuki Avropa sərkərdələri onunla müqayisədə döyüşdə nabələd, xam adamlar kimi görünürdü. Subedey Bağdada və cənub-qərbdəki səlcuqlara toxunmadan birbaşa Rusiyanın üzərinə yeridi. Düz altı il ara vermədən hey irəlilədi. Moskvanı, Kiyevi, Polşanı, Macarıstanı, Krakovu talan edib dağıtdı. 1241-ci ildə polyak və alman qoşunları Mərkəzi Avropadakı Aşağı Sileziyada yerləşən Liqnitsa yaxınlığında məhv edildi. Sanki bütün Avropa məhvə məhkum edilmişdi. Elə bir bacarıqlı şəxs yox idi ki, monqolları dayandıra bilsin. II Fridrix "dünyanın möcüzəsi" adlansa da, Monqolustandan gəlmiş bu əsil möcüzə qarşısında, yəqin ki, kölgədə qalırdı. Avropa kralları və hökmdarları həlak olmaq həddində ikən, gözlənilmədən nicat tapıldı.

Ugedey öldü, vəliəhdliklə əlaqədar hərc-mərclik yarandı. Nəhayət, məğlubiyyət nə olduğunu bilməyən monqol orduları 1242-ci ildə geriyə döndülər və şərqə doğru doğma diyara üz qoydular. Avropa yenidən azad nəfəs aldı.

Bu hadisələrin baş verdiyi vaxt öz ağalıqlarını Çinin hər yerinə yaymış monqollar şimaldakı Tszin imperiyasını süquta uğradaraq, hətta Çinin cənubundakı Sunlar imperiyasını da məhv etdilər. 1252-ci ildə Munke xan Böyük xan oldu və Hubilayı Çinin hakimi təyin etdi. Asiyadan və Avropadan camaat Munkenin Qaraqorumdakı qəsrinə axışmağa başladı. Buna baxmayaraq Böyük xan köçərilərin adətincə hələ də alaçıqlarda yaşayırdı. Amma bu alaçıqlar cah-calallı alaçıqlardı, içəriləri qitənin hər yerindən qarət edilib gətirilmiş zəngin qənimətlə dolu idi. Buraya tacirlər, xüsusilə monqolların şəxsində səxavətli alıcıya rast gələn müsəlman tacirləri gəlirdi. Sənətkarlar, münəccimlər, riyaziyyatçılar və o dövrün elm həvəskarları sanki bütün dünya üzərində ağalıq edən və alaçıqlardan yaranan bu şəhərdə toplaşardılar. Monqolustan imperiyasının geniş ərazisi boyu asayiş və qayda-qanun yaradılmışdı. Buna görə də qitələrdən keçən böyük karvan yolları həmişə izdihamlı olardı, adamlar istədikləri bütün səmtlərə səfər edərdilər. Avropa və Asiya bir-birilə daha sıx əlaqəyə girmişdi.

Müxtəlif din nümayəndələri də bir-birini ötərək Qaraqoruma tələsirdilər. Onlardan hər biri istəyirdi ki, bu dünya fatehlərinə öz dinlərini qəbul etdirsin. Hər şeyə qadir olan bu xalqı öz tərəfinə çəkə biləcək bir din, şübhəsiz, özü hər şeyə qadir olub, bütün qalan dinlərə hökm edərdi.

Romadan papa öz səfirlərini yollamışdı, nəsturi məzhəbinə mənsub xristianlar da buraya gəlirdi, burada müsəlman da, buddist də vardı. Monqollar yeni dini qəbul etməyə tələsmirdilər. Onlar çox da dindar xalq deyildilər. Demə, Böyük xan özü vaxtilə xristianlığı qəbul etməyə meyil göstərib, amma papanın iddialarıyla razılaşa bilməyib. Nəhayət, monqollar məskən saldıqları ölkələrdə yayılmış dini tədricən qəbul etdilər. Çində və Monqolustanda onların əksəriyyəti dönüb buddist oldu, Orta Asiyada isə müsəlman. Bəlkə də, Rusiyanın və Macarıstanın bəzi yerlərində onlar dönüb xristian da olmuşlar.

Romada, Vatikandakı papa kitabxanasında Böyük xanın (Munkenin) papaya məktubunun əsli hələ də saxlanılır. Məktub ərəbcə yazılıb. Görünür, Ugedeyin ölümündən sonra papa yeni xanın yanına səfir yollayıb və xana dönə-dönə öyüd-nəsihət verib ki, bir daha Avropaya hərbi müdaxilə etməsin. Xan cavabında bildirmişdir ki, avropalılar onun barəsində ləyaqətsiz hərəkət etdiklərinə görə o, Avropaya qarşı hərbi müdaxilə edib.

Munkenin hakimiyyəti dövründə daha bir istila və dağıntı dalğası yayılmışdı. O zamanlar Hülaku İranın hakimi idi. Bir dəfə necə olmuşdusa, Bağdad xəlifəsi onun qəzəbinə düçar olmuşdu. Bu səbəbdən Hülaku ona yolladığı məktubda vədə xilaf çıxdığı üçün xəlifəni məzəmmətləmiş və tələb etmişdi ki, bundan sonra özünü ləyaqətli aparsın, əks təqdirdə öz hakimiyyətindən məhrum ola bilər. O qədər də müdrik olmayan xəlifə eşidib-gördüklərindən də nəticə çıxara bilmirdi. O, Hülakuya nəzakətsiz cavab göndərmiş, Bağdad camaatı isə səfirləri təhqir etmişdi. Bu əhvalat monqol təbiətli Hülakunun səbir kasasını doldurur. Bərk qəzəblənmiş Hülaku Bağdadın üzərinə hücum çəkib qırx günlük mühasirədən sonra şəhəri alır. Bu, "Min bir gecə" şəhərinin, habelə beş yüz illik hökmranlıq dövründə şəhərdə yığılıb toplanmış bütün sərvətin sonu idi. Xəlifə, oğulları və yaxın qohumları edam edilir. Qırğın həftələrlə çəkir, Dəclə çayı neçə mil axarı boyu al qana boyanınca davam edir. Belə söyləyirlər ki, həmin qırğında milyon yarım adam həlak olur. Bütün bədii və ədəbi xəzinə, bütün kitabxanalar məhv edilir. Bağdad elə dağıdılır ki, heç daşı daş üstə qalmır. Hətta Qərbi Asiyanın min illər boyu mövcud olmuş qədim suvarma sistemi də Hülaku tərəfindən dağıdılır.

Alepponun (Hələbin), Edessanın və bir çox digər şəhərlərin də aqibəti bu cür fəlakətlə nəticələnir. Qərbi Asiya üzərinə gecənin zülməti çökür. Hadisələrin baş verdiyi vaxt yaşamış bir tarixçi söyləyir ki, bu,



"elm və fəzilət üçün aclıq dövrü idi". Fələstinə göndərilmiş monqol ordusu Misir sultanı Bəybars tərəfindən məğlub edilir. Bu sultanın qəribə təxəllüsü vardı – Bandukdar. Odsaçan silahla, banduklarla silahlanmış alay saxladığına görə belə adlanırdı. İndi biz odsaçan silah dövrünə qədəm qoyuruq. Çinlilər barıtın nə olduğunu çox qədimdən bilirdilər. Monqollar isə barıtla, ehtimal ki, çinlilərin sayəsində tanış olmuşlar; buna görə də ola bilər ki, onlara qələbə qazandıran da odlu silah olub. Odlu silah Avropada monqolların sayəsində meydana çıxıb.

1258-ci ildə Bağdadın dağıdılması Abbasilər xilafətinin qalıqlarını büsbütün aradan qaldırdı. Bu, əslində Qərbi Asiyadakı ərəb mədəniyyətinin sonu idi. Bu yerlərdən çox-çox uzaqlarda, İspaniyanın cənubundakı Qranada hələ də ərəb ənənəsini davam etdirirdi. Ərəb ənənəsi daha iki yüz ildən artıq davam etdikdən sonra puç olub getmişdi. Ərəbistan özü öz əhəmiyyətini tezliklə itirdi və odur ki, ərəb xalqı tarixdə artıq böyük rol oynamadı. Sonralar Ərəbistan Osmanlı türk imperiyasının bir hissəsinə çevrildi. 1914-1918-ci illərin dünya müharibəsi dövründə ingilislərin təhriki ilə türklərə qarşı ərəblərin üsyanı baş verdi. Beləliklə, həmin vaxtdan etibarən Ərəbistan az-çox müstəqil oldu.

İki il ərzində xəlifə olmadı. Sonra sultan Bəybars sonuncu Abbasilər xəlifəsinin qohumunu xəlifə təyin etdi. Amma o, siyasi hakimiyyətə malik deyildi, yalnız ruhani başçı idi. Üç yüz il keçəndən sonra bu titul onun sonuncu sahibindən Konstantinopoldakı türk sultanına keçdi. Türk sultanı bu adı bir neçə il əvvəl Mustafa Kamal paşa tərəfindən hər iki titul ləğv edilənə qədər daşıdı.

Söhbətimin mövzusundan kənara çıxdım. Böyük xan Munke 1259-cu ildə öldü. Ölümünə az qalmış hələ Tibeti də zəbt etmişdi. Çin hakimi Xubilay sonra Böyük xan oldu. Xubilay Çində uzun müddət qaldığı, bu ölkə onun diqqətini cəlb etdiyi üçün paytaxtını Qaraqorumdan Pekinə köçürtdü və ona başqa bir ad – Xanbalık, yəni xan şəhəri adı verdi. Çinə aid işlərə maraq göstərdiyi üçün Xubilay öz böyük imperiyasının işlərinə etinasız yanaşırdı. Nəticədə tədricən böyük monqol hakimləri müstəqil olmağa başladılar.

Çinin işğalını başa çatdıran Xubilayın yürüşləri monqolların əvvəlki yürüşlərindən dedikcə fərqlənirdi. İndi qəddarlıq və dağıntı əvvəlkinə nisbətən çox az idi. Xubilaya həlimlik aşılayan Çin onu mədəniləşdirmişdi. Çinlilər də öz növbəsində ona xoş münasibət göstərir və onunla az qala özlərininki kimi rəftar edirdilər. O, həqiqətən də ənənəvi Çin sülaləsinin,

yeni Yuan sülaləsinin təməlini qoydu. Tonkini, Annamı və Birmanı öz imperiyasına qatdı. Xubilay Yaponiyanı və Malay ölkələrini zəbt etməyə cəhd göstərdisə də, bu iş uğursuzluqla nəticələndi, çünki monqollar dənizə alışmamışdılar və gəmi inşa etməyi bacarmırdılar.

Munke xanın hakimiyyəti dövründə Fransa kralı IX Lüdovik adından səfirlər gəldi. Lüdovik monqollarla Avropanın xristian dövlətləri arasında müsəlmanlar əleyhinə yönəldilmiş ittifaq bağlanmasını təklif edirdi. Görünür, səlib yürüşü zamanı əsir düşərkən zavallı Lüdovikin günü pis keçmişdi. Lakin monqolların müsəlmanlara qarşı belə bir ittifaq bağlamaqda maraqları yox idi, dini səbəblər üzündən hər hansı bir xalqın üzərinə hücum etməkdə də onlar fayda güdmürdülər.

Axı, Avropanın xırda-para kralları və padşahları ilə ittifaqa niyə də girsinlər? Həm də kimin əleyhinə? Qərbi Avropa və ya müsəlman dövlətlərinin hərbi qüdrəti onları çox da qorxuya salmırdı. Qərbi Avropanı monqol basqınından qurtaran sırf təsadüf oldu. Səlcuq türkləri monqollara tabe idilər və onlara xərac verirdilər. Monqol ordusunu məğlubiyyətə uğradan təkcə Misir sultanı idi; amma buna da şübhə yoxdur ki, monqollar işə ciddi girişsəydilər onu özlərinə tabe etdirə bilərdilər. Qüdrətli monqol imperiyası bütün Asiyanı bürümüşdü. Avropaya da yayılmışdı. Belə böyük imperiya əvvəllər heç zaman mövcud olmamışdı. Tarix dünyada elə bir istila tanımır ki, monqolların istilasına bərabər olsun. O zaman monqollar doğrudan da dünyaya hakim kimi görünməli idilər. Hindistan monqol əsarətindən ona görə azad idi ki, monqollar sadəcə olaraq o tərəfə getməmişdilər. Böyüklüyünə görə az qala Hindistana bərabər olan Qərbi Avropa da imperiyanın hüdudları daxilində deyildi. Amma Qərbi Avropaya demək olar mərhəmət üzündən toxunmamışdılar. Həm də bu vəziyyət Qərbi Avropanı ələ keçirmək fikri monqolların ağlına gələnəcən davam edəcəkdi. XIII əsrdə vəziyyət gərək ki, belə idi.

Buna baxmayaraq, görünür monqolların böyük qüvvəsi tükənməyə başlamışdı. İstilanı davam etdirəcək həvəs və amillər zəifləmişdi. Yadında saxla ki, həmin dövrlərdə adamlar yavaş hərəkət edirdilər, piyada, yaxud atlı. Bundan sürətlə hərəkətetmə vasitəsi yox idi. Qoşunların təkcə Monqolustandakı doğma yurddan imperiyanın qərb sərhədlərinə çatdırılması üçün yola düz bir il vaxt lazım idi. Əgər qənimət ümidi möhkəm olmasaydı monqollar öz imperiyalarının içərisindən basa-basa keçib bu qədər yol getməyi özlərinə rəva bilməzdilər və



ölkələr istila etməyə bu qədər bərk can atmazdılar. Bundan əlavə, uğurlu müharibələr və çoxlu qarət sayəsində monqol süvariləri xeyli sərvətə sahib olmuşdular. Onlardan bir çoxu ehtimal ki, qul sahibi də olmuşdu. Buna görə də onlar arxayın olub daha dinc həyat tərzinə alışmışdılar. Könlündən keçən nə varsa hamısını əldə etmiş adam həmişə çalışır ki, qulağı dinc və rahat olsun.

Böyük monqol imperiyasını idarə etmək, görünür, asan iş deyildi. Odur ki, bu imperiyanın hissələrə parçalanmasının başlanması təəccüblü deyil. Xubilay xan 1292-ci ildə öldü. Ondan sonra ölkənin Böyük xanı olmadı. İmperiya beş böyük hissəyə parçalandı.

1. Çin imperiyası; bunun tərkibinə habelə Monqolustan, Mancuriya və Tibet daxil idi. Bu, Xubilayın Yuan sülaləsindən olan nəsillərinin hakimiyyəti altında qalan başlıca hissəsi idi.

2. Uzaq qərbdə, Rusiyada, Polşada və Macarıstanda Qızıl Orda imperiyası yerləşirdi (o yerlərdə monqolları belə adlandırırdılar).

3. İranı və Mesopotamiyanı, qismən də Orta Asiyanı Hülaku tərəfindən təməli qoyulmuş İlxanilər imperiyası tuturdu, Səlcuq türkləri bu imperiyaya xərc verirdilər.

4. Tibetdən Şimala doğru Böyük Türklər deyilən imperiya – Cağataylar imperiyası yerləşirdi.

5. Monqolustanla Qızıl Orda arasında isə monqolların Sibir imperiyası yerləşirdi.

Hərçənd böyük monqol imperiyası parçalanmışdı, lakin bu hissələrin hər biri öz növbəsində qüdrətli bir imperiya idi.

## MARKO POLO BÖYÜK SƏYYAHDIR

*27 iyun 1932-ci il*

Mən sənə Böyük xanın Qaraqorumdakı qəsri barədə danışmışdım və demişdim ki, monqolların şöhrət və qələbə çələnginin cəlb etdiyi tacir və sənətkarlar, alim və missionerlər oraya dəstə-dəstə axışırdı. Onların axın-axın gəlməsinin bir səbəbi də monqolların özünün onları bu işə həvəsləndirməsi idi. Bu monqollar qəribə adamlardı! Çox mahir və inkişaf etmiş bu adamlar uşaq kimi idilər. Hətta onların dəhşətli qəddarlığında və yırtıcılığında belə nəsə bir uşaq səmimiliyi, sadəliyi vardı. Mənə belə gəlir ki, bu sərt döyüşçüləri müəyyən dərəcədə cazibədar

göstərən də məhz uşağa xas xasiyyətləriydi. Bir neçə yüz ildən sonra bu monqollardan və ya Hindistanda deyildiyi kimi, moqollardan biri ölkəmizi fəth etdi. Bu şəxs Babur idi. Onun anası Çingiz xan nəslindəndi. Babur Hindistanı fəth edəndən sonra Kabilin sərin mehini, gülçiçəyini, bağ-bağatını, qarpızını və ölkənin şimalını yada salıb köks ötürərdi. O, xoş cazibədar adam idi. Baburun qələmə aldığı xatirələr onu bizim nəzərimizdə insanpərvər və diqqətəlayiq bir adam kimi canlandırır.

Beləliklə, monqollar əcnəbilərin onların sarayına gəlişini şirnikləndirirdilər. Onlarda öyrənməyə böyük həvəs olduğundan əcnəbilərdən də öyrənmək istəyirdilər. Yadındadırsa, mən demişdim ki, Çingiz xan yazı deyilən bir şeyin mövcud olmasından xəbər tutan kimi dərhal onun əhəmiyyətini başa düşür və oyanlarına onun öyrənilməsini əmr edir. Ağıllı və hər şeyə qabil olan monqollar özgələrdən də öyrənməyi bacarırdılar. Xubilay xan Pekində məskən saldıqdan və Çində hörmət qazanan hökmdar olduqdan sonra əcnəbilərin gəlişinə xüsusi həvəs göstərirdi. Onun hüzuruna Venetsiyadan iki tacir – Nikkolo Polo və Matteo Polo qardaşları gəlmişdilər. Onlar ticarət sövdələşməsi məqsədilə Buxaraya gəlib çatandan sonra burada Xubilay xanın İrana – Hülakunun hüzuruna göndərdiyi səfirlərlə rastlaşırlar. Onları dilə tutub razı salırlar ki, bu karvana qoşulsunlar. Bu minvalla tacirlər Böyük xanın Pekindəki sarayına gəlirlər.

Xubilay xan Nikkolo və Matteonu qəbul edir. Qardaşlar xana Avropadan, xristianlıqdan və Roma papasından ətraflı danışırlar. Xristianlıq, görünür, onu cəlb etdiyi üçün Xubilay eşitdiklərinə böyük maraq göstərirdi. 1269-cu ildə o, Polo qardaşlarını Roma papasına məktub aparmaq üçün geriyə, Avropaya göndərir. O, məktubunda papadan xahiş edir ki, “yeddi sənətdən baş açan yüz alim adam” göndərsin. Həm də bu alimlər ona xristian dinini izah etməyə qabil olsunlar. Lakin geriyə qayıdan Polo qardaşları Avropanı və papanı pis halda görürlər. O dövrdə yüz belə alim adam tapmaq mümkün deyildi. Bir neçə il Avropada ləngiyəndən sonra qardaşlar iki xristian rahibi ilə geriyə dönürlər. Bunlardan başqa tacirlər Nikkolonun cavan oğlu Markonu da özləri ilə aparırlar ki, bu da çox yerinə düşür.

Üç Polo özlərinin böyük səyahətinə başlayıb, bütün Asiya qitəsini quru yolla gəzib-dolaşmışdılar. O dövrlərdə gör necə böyük səfərlər edirdilər. Elə indinin özündə də onların qət etdiyi yolu yenidən keçmək üçün təqribən bir il lazım gələrdi. Pololar yolun bir hissəsini köhnə



Syuan Tszan yoluyla getdilər. Fələstindən keçərək Ermənistana, oradan da Mesopotamiyaya gəlib İran körfəzinə çatdılar. Burada Hindistandan gələn tacirlərlə rastlaşdılar. Sonra İrandan keçib Bəlxə, oradan da dağlar aşıb Kaşqara yola düşdülər, səyyahlar Xotana, Lobnora – azan gölə gəlib çıxdılar. Yenidən yola düşdülər. Səhralardan keçərək Çin düzənliklərinə və Pekinə çatdılar. Onlarda dövlətin mühafizə fərmanı, Böyük xanın şəxsən özü tərəfindən verilmiş qızıl lövhəcik vardı.

Səyyahların getdiyi yol Çinlə Suriya arasında Qədim Roma dövrünə aid köhnə karvan yolu idi. Bu yaxınlarda İsveç tədqiqatçısı və səyyahı Svenqedin Qobi səhrasından keçməsi barədə oxudum. O, Pekindən qərbə tərəf yollanaraq səhranı adlayıb Lobnor gölünə çatmışdı, sonra Xotanı kənarda qoyub yoluna davam etmişdi. Onun hər cür müasir ləvazimatı olsa da, ekspedisiya çətinliyə və məhrumiyyətə dözmək məcburiyyətində qalmışdı. Gör, yeddi yüz il və min üç yüz il əvvəl Polo və Syuan Tszan həmin yolla səyahət edərkən necə çətinliklərə rast gəlmişlər. Sven Qedin maraqlı bir kəşf etmişdir. O, Lobnor gölünün əvvəlki yerini dəyişdiyini müəyyən etmişdi. Çox qədimlərdə, VI əsrdə Lobnora tökülən Tarim çayı öz yatağını dəyişmiş və onun əvvəlki yatağını səhranın qumu basmışdı. Oradakı qədim şəhərin xarici aləmlə əlaqəsi kəsilmişdi, şəhəri tərk edən sakinlər sərgərdan qalmışdılar. Çayın öz yatağını dəyişməsi üzündən göl də, qədim ticarət və karvan yolları da yerini dəyişmişdi. Sven Qedin müəyyən etmişdi ki, lap bu yaxınlarda, cəmi bir neçə il qabaq, Tarim çayı öz axarını təzədən dəyişib, əvvəlki yatağına qayıtmışdır. Göl də öz yerinə dönüb. Tarim çayı yenə də qədim Lulyan şəhərinin xarabalığı yanından axıb gedir. Ola bilsin ki, min altı yüz il istifadəsiz qalmış qədim yol təzədən kara gəlsin; amma dəvənin yerini gərək avtomobil tutsun. Buna görə də Lobnoru azan göl adlandırırlar. Mən sənə Tarim çayının və Lobnor gölünün yerlərini dəyişmələri barədə danışdım, istədim çayların öz axarını dəyişməsinin neçə vilayətin vəziyyətinə təsir etməsi haqqında səndə müəyyən təsəvvür yaransın; bununla da tarixin gedişinə təsir göstərməsin. Gördüyümüz kimi, Mərkəzi Asiyada qədimlərdə əhali sıx olmuşdur. Mərkəzi Asiya xalqları qərbi və cənubu ələ keçirmək üçün axın-axın oraya gəlirdilər. İndi Mərkəzi Asiyanın o yerləri demək olar, səhraya çevrilib, şəhərləri az və əhalisi seyrəkdir. Ehtimal ki, həmin dövrlərdə oralarda daha çox su olub və əhalini dolandıra bilib. Burada iqlim quraqlıq keçdikcə, su ehtiyatı azalır, əhali azalır və yoxa çıxırdı.

Uzun sürən bu səyahətlərin bir üstünlüyü var idi. Yeni bir dil, yaxud bir neçə dil öyrənmək üçün onların kifayət qədər vaxtı olurdu. Hər üç Polonun Venetsiyadan Pekinə səyahəti üç il yarım çəkmiş və bu uzun yol ərzində Marko monqol dilini, bəlkə Çin dilini də öyrənmişdi. Marko Böyük xanın sevimlisi oldu və təqribən on yeddi il xana qulluq etdi. Onu hakim təyin etdilər, Çinin müxtəlif guşələrində rəsmi səfərlərdə oldu. Hərçənd Marko və atası vətən üçün qəribsəmişdilər və Venetsiyaya qayıtmaq istəyirdilər, lakin bunun üçün xandan icazə almaq asan iş deyildi. Nəhayət, geri qayıtmaq üçün əllərinə fürsət düşdü. İlxanilər imperiyasının İrandakı monqol hakimi (Xubilayın əmisi oğlu) arvadını itirmişdi. O, təzədən evlənmək fikrindəydi, amma əvvəlki arvadına öz nəslindən olmayan qadınla evlənməyəcəyi haqda söz vermişdi. Günlərin birində Arqun (onun adı beləydi) Pekinə Xubilayın hüzuruna səfirlər yollayıb xandan xahiş etdi ki, ona evlənmək üçün özlərinin nəslindən olan bir münasib qadın göndərsin.

Xubilay xan bir cavan monqol şahzadəsi seçdi, təcrübəli səyyah olduqları üçün hər üç Polonu şahzadə xanımın dəstəsinə daxil etdilər.

Onlar Cənubi Çindən dəniz yolu ilə Sumatraya gedib bir müddət orada qaldılar. Bu dövrdə Sumatrada budda imperiyası Şrivicayya tərəqqi etsə də, artıq tənəzzülə doğru gedirdi. Sumatradan şahzadə xanım öz adamları ilə Cənubi Hindistana varid oldu. Mən sənə Markonun Cənubi Hindistanda Pandyalar dövlətindəki çiçəklənən Kayal limanına necə baş çəkdiyini söyləmişdim. Şahzadə xanım, Marko və bütün rəiyyət xeyli müddət Hindistanda qaldı. Görünür, onlar tələsmirdilər. İrana gəlib çatmaq üçün iki il vaxt sərf olundu. Amma bu arada adaxlı ölmüşdü! O, çox gözləmişdi. Bəlkə də, onun ölümü böyük müsibət deyildi. Şahzadə xanım yaşına görə ona daha münasib Arqunun oğluna ərə getdi.

Polo qardaşları şahzadə xanımı tərk edərək Konstantinopoldan keçib vətənə yola düşdülər. Venetsiyaya 1295-ci ildə, yəni onu tərk edib getdikləri vaxtdan düz 24 il sonra gəlib çatdılar; onları heç kəs tanımırdı. Deyildiyinə görə Pololar öz köhnə dost və tanışlarını təəccübləndirmək məqsədilə böyük qonaqlıq düzəltmişdilər. Məclisin qızışdığı bir vaxtda nimdaş libaslarının astarını sökməyə başlayıblar. Qalaq-qalaq ləl-cavahir, brilyant, yaxud zümrüd qonaqları heyran edib. Amma Polo qardaşlarının Çindəki və Hindistandakı sərgüzəştləri barədə söylədiklərinə çox az adam inanıb. Onlar elə zənn etmişdilər ki, Marko da, atası da, əmisi də hadisələri şişirdirlər. Özlərinin balaca Venetsiya respublikasına adət etmiş bu adamlar Çinin və digər Asiya ölkələrinin sərvətinin sayını və çoxluğunu təsəvvür edə bilmirdilər.



Aradan üç il keçmiş 1298-ci ildə Venetsiya Genuya ilə müharibəyə başladı. Hər ikisi dəniz dövlətiydi və bir-birilə rəqabət aparırdı. Aralarında böyük dəniz döyüşü baş verdi. Venetsiyalılar məğlubiyyətə uğradılar, bir neçə min nəfəri genuyalılara əsir düşdü. Dostumuz Marko Polo da əsir düşənlərin arasındaydı. Genuya həbsxanasında yatarkən öz səyahətlərini qələmə aldı, daha doğrusu, o hekayətlərini başqasına diktə etdi. Bu yolla da "Marko Polonun səyahətləri" işıq üzü gördü. Məhbəsdə olmaq necə də faydalıdır, oturub yaxşıca işləmək olur!

Bu "Səyahətləri"ndə Marko ən çox Çinin təsvirinə və ölkədəki səfərlərinin təsvirinə geniş yer verir. O, Siamı, Yavanı, Sumatranı, Seylonu və Cənubi Hindistanı da müəyyən qədər təsvir edir. Marko Çinin ən iri dəniz limanları barədə danışır, deyir ki, burada həmişə Şərqin bütün ölkələrindən çoxlu gəmi olardı; gəmilərdən bəziləri elə böyük idi ki, təkcə gəmi heyətinin üzvlərinin sayı üç yüz-dörd yüz nəfərə çatırdı. O, Çini çoxlu şəhər və qəsəbəsi olan yaraşıqlı və çiçəklənən bir ölkə kimi təsvir edir: ölkəyə yayılmış emalatxanalar ipək parça, zərxara və yaraşıqlı bafta istehsal edirdi. Şəhərlərində "gözəl üzüm bağları, tarlalar vardı", bütün yollar boyu "əla karvansaralar" salınmışdı. Marko imperator məktublarını mənzilbaşına çatdırmaq üçün təşkil edilmiş xüsusi qasidlər xidmətindən söhbət açır. Bu xəbərləri gündə dörd yüz mil sürətlə yol gedən və yol boyu atları vaxtaşırı dəyişdirilən süvari qasidlər lazımi yerlərə çatdırırdılar. Çox yaxşı sürətdir. "Səyahətnamə"dən oxuyub bilirik ki, Çin sakinləri odun əvəzinə yerdən qazıb çıxardıqları qara daşları işlədirdilər; bu göstərir ki, onlar şaxta qazırdılar və kömürü yanacaq kimi işlədirdilər. Xubilay xan kağız pullar buraxırdı, yəni indinin özündə edildiyi kimi, qızılla ödənilməli kağız pullar... Bu olduqca maraqlıdır, çünki müasir kreditvermə üsulunun hələ o vaxtlar da tətbiq olunduğunu göstərir. Keşiş İohannın başçılığı altında Çində yaşayan xristian koloniyası haqqında Markonun kitabındakı xatirələr Avropada böyük narahatlıq və təəccüb doğurmuşdu. Çox güman ki, Monqolustandakı bəzi qədim nəsturilərdən söhbət gedirdi.

Marko Polo, habelə Yaponiya, Birma, Hindistan haqqında da yazıb; bəzən gördüyünü, bəzən də eşitdiyini qələmə alıb. Markonun kitabı bu günədək heyrətamiz bir səyahət tarixi olaraq qalmaqdadır. Bu kitab özlərinin kiçik, darısqal ölkələrində yaşamış Avropa xalqlarının

gözlərini açdı; böyük dünyanın əzəməti, sərvəti və möcüzələri barədə o xalqlarda əyani təsəvvür yaratdı; onların təsəvvürlərini genişləndirdi, sərgüzəştlərə böyük maraq oyatdı, qazanc əldə etmək həvəsini daha da artırdı. O kitab Avropa xalqlarını uzaq dəniz səfərlərinə çıxmağa sövq etdi. Avropa inkişaf edirdi. Onun gənc mədəniyyəti dirçəlib orta əsr məhdudiyyətinə qarşı mübarizə edirdi. Bu mədəniyyət yetkinlik dövrü ərəfəsində olan bir gənc kimi qətiyyətli idi. Dənizə olan ehtiras və varlanmaq cəhdi daha sonralar avropalıları Amerikaya və Sakit Okeandakı Xeyirxah Ümidlər burnu ətrafına – Hindistana, Çinə və Yaponiyaya gətirib çıxardı. İndi dəniz dünyanın baş yoluna çevrildi. Qitələrdən keçən böyük karvan yolları əvvəlki əhəmiyyətini itirmiş oldu.

Marko Polo Xubilayı yenicə tərk etmişdi ki, Böyük xan öldü. Onun ölümündən sonra Yuan sülaləsi də çox davam gətirmədi. Bu sülalənin əsasını Çində Xubilay xan qoymuşdu. Monqolların hakimiyyəti sürətlə tənəzzülə uğrayırdı. Çində isə əcnəbilər əleyhinə millətçi mübarizə dalğaları yüksəlməkdəydi. Altmış ildən sonra monqolları Cənubi Çindən qovdular və Nankində bir çinli imperator kimi taxt-taca sahib oldu. Təqribən on il də keçəndən sonra, 1368-ci ildə, Yuan sülaləsi tam süqut etdi və monqollar Böyük səddin o tayına qovuldular. Səhnəyə başqa bir böyük sülalə – Tay Min sülaləsi gəldi. Bu sülalə Çində uzun bir dövr ərzində, təqribən üç yüz il hakimiyyət sürdü. Bu dövr ölkənin yaxşı idarə edilməsi dövrü, çiçəklənmə və mədəniyyət dövrü sayılır. Bəhs etdiyimiz dövrdə özgə ölkələri istila etmək cəhdlərinə və başqa imperialist macəralarına əl atılmadı.

Çində monqollar imperiyasının süqutu Çinlə Avropa arasındakı əlaqələrin kəsilməsiylə nəticələndi. Quru yolları daha əvvəllər olduğu kimi xatasız deyildi. Dəniz yollarından isə hələ az istifadə olunurdu.

## KATOLİK KİLSƏSİ DAHA DA AZĞINLAŞIR

*28 iyun 1932-ci il*

Xubilay xanın Roma papasına məktub göndərərək, Çinə yüz alim yollamasını papadan xahiş etməsini sənə söyləmişəm. Amma o vaxt papanın vəziyyəti pis olduğuna görə bu xahişə əməl etmədi. Əgər yadındadırsa, imperator II Fridrixin ölümündən sonrakı bu dövr, 1250-1273-cü



illərə təsadüf edirdi; o zaman imperator yox idi. O vaxt Mərkəzi Avropada dəhşətli vəziyyət yaranmışdı. Aləm bir-birinə qarışmışdı. Hər yerdə özbaşınalıq hökm sürürdü. Bundan istifadə edən quldur-cəngavərlər hər yanda qarətlə məşğul olurdular. Rudolf Habsburq 1273-cü ildə imperator oldu. Lakin vəziyyət əsla düzəlmədi. İtaliya imperiyanın əlindən çıxmışdı.

Siyasi hərc-mərcliklə yanaşı, elə bir hadisə də baş verirdi ki, Roma kilsəsinin nöqteyi-nəzərincə bunu dini çaxnaşma adlandırmaq olardı. Adamlar kilsənin buyruğuna daha əvvəlkitək itaət etmirdilər. Onlar şübhələnməyə başlamışdılar. Şəkk etmək isə dini məsələlərdə qorxulu şeydir. İmperator II Fridrixin Roma papasına etinasız münasibət göstərdiyini gördük. Kilsədən kənar edilməsi imperatoru narahat etmirdi. O, papaya göndərdiyi məktublarda hətta mübahisəyə də başlamışdı. Bu mübahisədə papa qalib gələ bilmədi. O zaman Avropada kilsənin göstərişlərinə Fridrix kimi şübhə ilə yanaşanlar yəqin ki, az deyildi. Eləlləri də vardı ki, nə kilsənin göstərişlərinə şübhəylə yanaşır, nə də kilsənin və ya papanın ideallarına qarşı etiraz edirdi. Amma kilsə əyanlarının rüşvətxorluğu və cah-calalı onları qəzəbləndirirdi.

Səlib yürüşləri biabırçılıqla başa çatmaqdaydı. Böyük ümid və ruh yüksəkliyilə başlanan bu yürüşlərin uğursuz və səmərəsiz olduğu aşkar oldu. Belə uğursuzluq isə həmişə əks-təsir oyadır. Kilsədən narazı qalmış adamlar tədricən inamsızlıqla başqa bir ümid yeri axtarmağa başladılar. Kilsə buna zorakılıqla cavab verdi, terror gücüylə adamların ağlına nəzarət etməyə çalışdı. Unutdu ki, insan ağlı mürəkkəbdir və ona qarşı zor işlətmək yararsız silahdır. Buna görə kilsə ayrı-ayrı şəxslərin və qrupların vicdan səsini zor gücünə boğmağa çalışdı. Çalışdı ki, şəkkə-şübhəyə ağıllı dəlillə yox, dəyənək və tonqalla cavab versin.

Artıq 1155-ci ildə kilsənin qəzəbi gəlib İtaliyada yaşayan tanınmış və həqiqi vaiz Breşiyalı Arnoldun başında çatladı. Arnold ruhanilərin rüşvətxorluğuna və cah-calalına etiraz səsini ucaldırdı. Onu ələ keçirib asdılar, sonra da cəsədini yandırıb külünü Tibr çayına tulladılar ki, adamlar külü bir tütyə kimi saxlaya bilməsinlər. Arnold ömrünün son dəqiqəsinədək öz mətanətini və sakitliyini saxladı.

Papalar öz cəza tədbirlərini o dərəcəyə çatdırmışdılar ki, ən cüzi məsələdə belə kilsə ilə fikir ayrılığı olan və ya ruhaniləri həddən artıq tənqid edən bütöv qrupları və xristian təriqətlərini kilsədən qovulmuş elan edirdilər. Belə adamlara qarşı əsil səlib yürüşləri elan olunurdu.

Bu adamlara qarşı çox dəhşətli, mənfur və ən qəddar üsullarla mübarizə aparırdılar. Fransanın cənubundakı Tuluz albiqoysları ilə və Vald adlı şəxsin ardıcılları olan valdenslərlə belə rəftar etmişdilər.

Təqribən bu vaxtlar, hətta bir qədər əvvəl İtaliyada bir adam yaşayırdı. Xristianlıqda diqqətəlayiq simalardan biri olan bu adam Assizli Fransisk idi. O, varlı olsa da, var-dövlətindən imtina etmişdi və kasıb qalacağına and içib əzab çəkənlərə və yoxsullara xidmət göstərmək məqsədilə qapı-qapı gəzirdi. O, ömrünü ən bədbəxt və baxımsız cüzam xəstəliyinə tutulmuş adamlara həsr etmişdi. O, yeni bir ordenin əsasını qoymuşdu. Bu ordeni Müqəddəs Fransisk ordeni adlandırırdılar. Buddaçıların sanqhisinə bənzər bir şeydi.

O, diyar-diyar gəzir, vaizlik edir, adamlara kömək göstərərək İsasayağı ömür sürməyə çalışırdı. Adamlar sel kimi onun hüzuruna axışırdılar, çoxları onun şagirdinə çevrilirdilər. Səlib yürüşləri davam etdiyi bir vaxtda Fransisk hətta Misirə və Fələstinə də getmişdi. Xristian olsa da, müsəlmanlar bu alicənab və möhtərəm insana ehtiramla yanaşırdılar, heç nədə ona mane olmurdular. Fransisk, 1181-1226-cı illərdə yaşamışdır. Ölümündən sonra onun ordeni ali kilsə əyanlarıyla toqquşmuşdu. Həyatın yoxsulluqdan ibarət olduğu nəzəriyyəsini yaymaq bəlkə də, kilsənin xoşuna gəlmirdi. Kilsə ilk xristianlıq dövrünün bu nəzəriyyəsini inkişafca geridə qoymuşdu. Fransisk tərəfdarlarından dörd nəfəri 1318-ci ildə Marseldə dinsiz kimi tonqalda yandırılmışdı.

Bir neçə il əvvəl Assizi şəhərciyində müqəddəs Fransiskin şərəfinə böyük şənliklər keçirilmişdi. O zaman bu şənliklərin nə ilə əlaqədar keçirildiyi yadımda deyil. Yəqin ki, onun ölümünün 700 illiyi münasibətilə idi.

Fransisk ordeni kimi başqa bir orden də kilsənin özündə yaranmışdı. Fəqət bu cəmiyyət Fransisk ordenindən öz ruhu etibarilə kəskin fərqlənirdi. Banisi milliyyətcə ispan olan müqəddəs Dominik idi və buna görə orden də dominikan ordeni adlanırdı. *Bu, davakar və ortodoksal bir orden* idi. Ordenin fikrinə görə, hər şey etiqadı qorumaq kimi böyük borc naminə edilməlidir. Əgər inandırmaq yoluyla nail olmaq mümkün deyilsə, onda bu iş, zor gücünə yerinə yetirilməlidir.

Kilsə dini ayinləri zor gücünə idarə etməyə rəsmən 1233-cü ildən başlamış, inkvizisiyanın əsasını qoymuşdu. Bu, bir növ elə bir məhkəmə idi ki, adamların etiqadının nə dərəcədə ortodoksal olduğu barədə işi təhqiq edir, bu etiqad mövcud normalara uyğun gəlməzdisə günahkar-



ların tonqalda yandırılması adi cəza sayılardı. Dönükləri həqiqi mənada ovlayır və yüzlərlə adamı tonqalda yandırırdılar. Adamlara verilən işgəncə yandırmaqdan da betərdi. Adamlara etiqadından dönmək üçün işgəncə verirdilər. Yazıq və zavallı qadınların çoxunu ifritə olmaqda ittiham edərək yandırırdılar. Lakin çox vaxt belə cəzalar inkvizisiyanın hökmüylə yox, camaatın özü tərəfindən verilirdi, xüsusilə İngiltərədə və Şotlandiyada.

Roma papası isə etiqad haqqında fərman vermiş, hamını və hər kəsi xəbərçi olmağa çağırmışdı! Papa kimyanı iblis əməli adlandıraraq pisləmişdi. Bütün bu zorakılıq və terror səmimi niyyətlərlə edilirdi. Onlar inanırdılar ki, adamı tonqalda yandırmaqla onun ruhunu və başqalarının ruhunu xilas etmiş olurlar. Din xadimləri tez-tez başqalarının üzərinə hücum çəkərək öz baxışlarını zorla qəbul etdirərkən inanırdılar ki, bununla onlar guya cəmiyyətə xidmət göstərirlər. Onlar Allah naminə adamları doğrayır, öldürür, "ölməz ruhun" nicat tapmasından ağızdolusu danışarkən tərəddüd etmədən insan cismini yandırıb külə döndərirdilər. Din tarixi son dərəcə çirkindir. Buna görə də mən soyuqqanlılıqla qəddarlıq göstərməkdə inkvizisiyaya üstün gələn başqa bir hadisə fikirləşə bilmirəm. Lakin, ən təəccüblüsü odur ki, bu işdə məsuliyyət daşıyan adamların çoxu şəxsi mənfəət naminə yox, düzgün hərəkət etdiklərinə möhkəm inandıqları üçün belə hərəkət edirdilər.

Papalar Avropada terrorun hökmranlığına geniş yol açarkən kral və imperatorlar üzərində öz hakim mövqelərini, demək olar, itirmişdilər. İmperatorun kilsədən uzaqlaşdırılması, canına qorxu salıb tabe etdirilməsi mümkün olan günlər artıq geridə qalmışdı. Müqəddəs Roma imperiyasının çətinlik çəkdiyi və ya imperatorun olmadığı, yaxud onun Romadan uzaqlarda olduğu bir məqamda Fransa kralı papaların işinə qarışmağa başladı. 1303-cü ildə papanın bir hərəkəti kralın narazılığına səbəb olmuşdu. Kralın papanın yanına göndərdiyi adam onun yataq otağına *zorla yol tapmış və papanı öz sarayında təhqir etmişdi. Bu təhqira*miz hərəkət barədə heç bir ölkə öz narazılığını bildirmədi. Son bunu imperatorun ayaqyalın, qarı yara-yara Kanossaya gəldiyi dövrlə müqayisə elə!

Bir neçə il sonra, 1309-cu ildə milliyyətcə fransız olan yeni papa öz iqamətgahını Fransadakı Avinyon şəhərinə köçürdü. Fransız krallarının güclü nüfuzu altında olan papalar 1377-ci ilədək burada yaşadılar. Bir ildən sonra, 1378-ci ildə kardinallar kollegiyasında baş verən təfriqə

Böyük təfriqə adını almışdı. Kardinalların hər iki qrupundan iki papa seçilmişdi. Papalardan biri Romada yaşayırdı; imperator və Şimali Avropa ölkələrinin çoxu onu tanıyırdı; antipapa adlanan o biri papa Avinyonda yaşayırdı. Fransız Kralı və kralın bəzi müttəfiqləri onu müdafiə edirdilər. Qırx il vəziyyət beləcə davam etdi. Papa və antipapa biri digərinə lənət oxuyur, biri digərini kilsədən kənar etməyə çalışırdı. Nəhayət, 1417-ci ildə onlar sazişə gəldilər və hər iki tərəf bir papa – Romadakı papanı seçdi. Amma onların arasındakı bu nalayiq çəkişmə, şübhəsiz, Avropa xalqlarına çox böyük təsir göstərirdi. Bir halda ki, Allahın yer üzündəki canişinləri və elçiləri (onlar özlərini belə adlandırırdı), özlərini bu sayaq aparırdılar, onların müqəddəsliyinə və vicdanlı olmasına adamlar şübhə etməyə başlamışdılar. Beləliklə, hər iki papa arasındakı çəkişmə adamların kilsəyə bəslədiyi kor-koranə etiqadı xeyli sarsıtmışdı. Amma adamlara daha güclü silkələnmə lazım idi.

Kilsəni az-çox sərbəst tənqid etməyə başlayanlardan biri ingilis Uiklif olub. O, həm kilsə xidmətçisiydi, həm də Oksfordda professor. Uiklifə şöhrət qazandıran onun İncili ilk dəfə ingilis dilinə tərcümə etməsidir. Sağlığında Romanın qəzəbindən yaxa qurtarsa da, 1415-ci ildə, yəni ölümündən 31 il keçəndən sonra kilsə məclisi sərəncam vermişdi ki, qəbrini qazsınlar, sümüklərini çıxarıb yandırsınlar! Elə də elədilər.

Uiklifin qəbri murdarlandısa da, sümükləri yandırıldısa da, baxışlarını məhv etmək asan deyildi və bu baxışlar dahada intişar tapmağa başladı. Uiklifin baxışları hətta Bohemiyaya və ya indi deyildiyi kimi, Çexoslovakiyaya da gəlib çatdı. Burada Praqa darülfünunun başçısı olan Yan Qusa təsir etdi. Papa Yan Qusu baxışlarına görə kilsədən uzaqlaşdırdı. Din xadimləri onun çox tanınmış olduğu doğma yurdunda Yan Qusa heç nə edə bilmədilər. Buna görə də hiyləyə əl atdılar. Ona imperator adından mühafizə fərmanı verildi. Beləliklə o, İsveçrəyə – kilsə məclisinin iclas keçirdiyi Konstansa dəvət olundu. Qus yola düşdü. Ona yanıldığı barədə etiraf etməsi təklif olundu. Qus bu təklifdən boyun qaçırdı və dedi ki, qoy yanıldığımı sübuta yetirsinlər, mən də etiraf edim. Qusun inadkarlığını görən din xadimləri vədə və mühafizə fərmanına xilaf çıxaraq onu diri-diri yandırdılar. Bu hadisə 1415-ci ildə olmuşdu. Qus çox cəsur adam idi. Əzablı ölümü yalan saydığı şeyi etiraf etməkdən üstün tuturdu. O, vicdan azadlığı və söz azadlığı uğrunda bir əzabkeş kimi öldü. O, çex xalqının qəhrəmanlarından biridir, xatirəsi indi də Çexoslovakiyada əziz tutulur.



Yan Qusun əzablı ölümü nəticəsiz qalmadı. O, elə bir qığılcımdı ki, ondan Bohemiyadakı tərəfdarlarının üsyan alovu qopdu. Papa üsyançılara qarşı səlib yürüşü elan etdi. Səlib yürüşləri ucuz başa gəlirdi, pul istəmirdi. Bir çox yaramaz və fırıldaqçı adamlar bu yürüşlərin hesabına varlanmağa çalışırdı. Səlibçilər günahsız adamların başına "ən iyrənc vəhşi oyun" gətirirdilər (Herbert C.Uells belə nəql edir). Lakin elə ki, qusçular ordusu öz döyüş himnini oxuya-oxuya gəlib çıxdı, səlibçilər tələsik qaçdılar. Gəldikləri yolla da geri qayıtdılar. Heç bir günahı olmayan kənd əhlini qırıb çatmaq və talan etmək mümkün olanda səlibçilər özlərini tox tutub döyüşkən kimi göstərirdilər, amma elə ki, mütəşəkkil qoşun yaxınlaşdı, səlibçilər qaçırdılar.

Gələcəkdə bütün Avropanı bürüməli olan avtokratik[1] və doqmatik dinə qarşı üsyanlar və inqilablar silsiləsi belə başladı, bu isə Avropanı rəqabət aparan iki cəbhəyə ayırmalı və xristianları katoliklərə və protestantlara parçalamalıydı.

## AVTORİTARLIĞA[2] QARŞI MÜBARİZƏ

*30 iyun 1932-ci il*

Avropadakı dini ixtilaflar barədə söylədiklərimin səni çox darıxdıra biləcəyindən ehtiyat edirəm. Amma onları bilmək vacibdir, çünki bu, müasir Avropanın necə inkişaf etdiyini göstərir. Bu, Avropada baş verən hadisələri dərk etməkdə bizə kömək edir. XIV əsrdə və daha sonralar Avropada müşahidə etdiyimiz dini azadlıq uğrunda mübarizə və bundan sonra siyasi azadlıq uğrunda başlanan mübarizə eyni bir mübarizənin iki cəhətidir: nüfuza və tam hakimiyyətə qarşı mübarizədir. Həm qeyri-məhdud nüfuzu təcəssüm etdirən Müqəddəs Roma imperiyası, həm də papa hakimiyyəti insanın ruhunu məhv etməyə cəhd göstərirdi. İmperatorun sonsuz nüfuza malik olması "ilahidən gələn haqdı", bu, papaya daha çox aid idi. Heç kəsin də ixtiyarı yoxdu ki, buna şəkk etsin, yaxud yuxarıdan verilən əmrlərə tabe olmasın. İtaət

[1] Avtokratiya – yunanca: bir şəxsin qeyri-məhdud və nəzarətsiz tam hakimiyyətindən ibarət idarə forması (*tərcüməçinin qeydi*)

[2] Avtoritar – latınca: kor-koranə tabeçiliyə əsaslanan tam hakimiyyət (*tərcüməçinin qeydi*)

ən böyük ləyaqət hesab olunurdu. Hətta şəxsi fikri bildirmək belə günah sayılırdı. Beləliklə, kor-koranə itaətlə azadlıq arasındakı mübahisə obyekti tamamilə aydın idi. Avropada yüz illər boyu vicdan azadlığı uğrunda, sonralar isə siyasi azadlıq uğrunda böyük mübarizə gedirdi. Taleyin bir çox qəzavü-qədərindən və böyük əzablardan sonra müəyyən nailiyyət əldə edilmişdi. Amma adamlar: "Öz məqsədimizə – azadlığa çatdıq", – deyə məhz özlərini alqışladıqları bir zamanda səhv etdiklərini başa düşdülər. Nə qədər ki, iqtisadi azadlıq yoxdur və nə qədər ki, yoxsulluq hələ mövcuddur, əsl azadlıq ola bilməz. Aclıq keçirən bir adamı azad adlandırmaq onu ələ salmaq deməkdir. Odur ki, sonrakı addım iqtisadi azadlıq uğrunda atılan mübarizə addımı oldu. Bu mübarizə elə indi də bütün dünyada aparılır. Yalnız bir ölkə haqqında deyə bilərik ki, orada iqtisadi azadlıq bütövlükdə bütün xalq üçün əldə edilib; bu ölkə Rusiyadır, daha doğrusu Sovet İttifaqıdır.

Vicdan azadlığı uğrunda belə mübarizə Hindistanda olmayıb, çünki ən qədim dövrlərdən bəri görünür, bu ixtiyarı heç kəsin əlindən almayıblar. Adamlar az qala nəyə istəsələr ona da etiqad edə bilərdilər, məcburiyyət yox idi. Adamların ağlına dəyənək və tonqal gücüylə deyil, sübut etmək və inandırmaq yolu ilə təsir göstərmişlər. Söz yox, ayrı-ayrı hallarda məcburiyyət və zorakılığa yol verilibsə də qədim arilərin nəzəriyyəsində vicdan azadlığı hüququ qəbul edilmişdi. Qəribə görünsə də bunun nəticəsi o qədər də yaxşı deyildi. Nəzəri azadlığa əmin olan adamlar bu azadlığa lazımınca ayıq münasibət bəsləmirdilər və tənəzzülə uğrayan dinin mərasimləri və mövhumatları arasında getdikcə daha çox dolaşıb qalırdılar. Adamlarda dini ideologiya inkişaf etmişdi, bu ideologiya sayəsində onlar çox geridə qalmışdılar və dinin nüfuzu altında qula çevrilmişdilər. Bu, nə Roma papasının nüfuzu idi, nə də başqa bir şəxsin. Bu, müqəddəs kitabların, adətlərin və şərtiliyin nüfuzu idi. Beləliklə, biz vicdan azadlığından dəm vurub ona malik olmağımızla öyünərkən, əslində vicdan azadlığından uzaq idik. Qədim kitablarımızın, adətlərimizin təlqin etdiyi ideyalar bizi buxovlamışdı. Nüfuz və avtoritarlıq varlığımıza və ağlımıza hakim kəsilmişdi. Bədənimizi buxovlayan zəncirlər pis şey olsa da, ağlımızı kəməndləyən gözəgörünməz zəncirlər, ideyalar zənciri, beynimizə yeridilən yanlışlıq zənciri ondan daha da pisdir. O zəncirləri döyüb hazırlayan biz özümüzük, çox vaxt onların varlığını dərk etməsək də, onlar bizi öz dəhşətli məngənələrində saxlayır.



Müsəlmanların Hindistana bir fateh kimi gəlişi dinə məcburiyyət ünsürü daxil etdi. Əslində mübarizə qaliblərlə məğlublar arasında siyasi mübarizə xarakteri daşısa da, onda dini bəzək var idi və arabir dini təqiblər də baş verirdi. Amma islamın özündə belə bir təqibin mövcud olduğunu zənn etmək düzgün deyildi. Bir ispaniyalı müsəlmanı ölkədə qalan ərəblərlə birlikdə 1610-cu ildə İspaniyadan qovarkən, onun söylədiyi maraqlı nitq saxlanmışdır. İnkvizisiya əleyhinə etirazını bildirərkən o belə demişdi: "Məgər bizim müzəffər əcdadlarımız əllərində İspaniyada xristianlığın kökünü kəsmək ixtiyarı olarkən bu, işə iqdam etməyə heç cəhd göstəribmi? Məgər onlar sizin əcdadınızın hətta zəncirlə buxovlandığı zamanlarda öz ayinlərini sərbəst icra etməsinə dözmürdülərmi?.. Əgər adamlara zorla başqa məzhəbi qəbul etdirmək cəhdləri göstərilibsə də bu, nadir hallarda olub və heç xatırlatmağa dəyməz. Özü də bu işi Allahdan və peyğəmbərdən qorxub-çəkinməyən adamlar etmişlər. Amma bu üsulla hərəkət edən şəxs islamın müqəddəs ehkamlarına və əmrlərinə daban-dabana zidd yolla getmiş olur. Həmin müqəddəs ehkamlar və əmrlər şərəfli müsəlman adına layiq olan bir kimsə tərəfindən küfr danışmaq qorxusundan pozula bilməz. Bizim diyarda sizin inkvizisiyanı lap uzaqdan belə xatırladan qanlı tribunal qanunla qətiyyən yaradıla bilməz və məzhəb məsələlərində, əqidəcə fərqlənmə üstündə adamları mühakimə etmək olmaz. Doğrudur, bizim qapımız dinimizə meyil edənlərin üzünə həmişə açıq olsa da müqəddəs Quranımız insanların vicdanı üzərində qəddarcasına hökmranlıq etməyə yol vermir".

Beləliklə, hind həyatının səciyyəvi xüsusiyyətləri olan başqa dinlərə dözmək və vicdan azadlığı bəzi yollarla əlimizdən çıxmış oldu. Halbuki Avropa gəlib bizə çatmış, sonra isə xeyli çarpışmalardan sonra bu prinsipləri işdə bərqərar etməkdə bizi ötüb keçmişdi. Bizim günlərdə Hindistanda dini icmalar arasında münaqişələr baş verməkdədir, hindlilərlə müsəlmanlar dalaşıb bir-birini öldürməkdədir. Doğrudur, bu toqquşmalar təsadüfi hal daşıyır və ayrı-ayrı yerlərdə baş verir. Biz əsasən dinclik və mehribanlıq şəraitində yaşayırıq. Ona görə ki, bizim həqiqi mənafeyimiz ümumidir. İstər hindli olsun, istər müsəlman, fərqi yoxdur – din naminə qardaşın qardaşa əl qaldırması biabırçılıqdır. Biz bu hala gərək son qoyaq və söz yox, qoyacağıq da. Lakin mühüm cəhət burasıdır ki, adətlərin, şərtiliklərin və mövhumatın dolaşıq ideologiyasından – din pərdəsi altında bizi öz zəncirində saxlayan ideologiyadan xilas olmaq lazımdır. Başqa dinlərə dözmək məsələsində olduğu kimi,

Hindistan siyasi azadlıq məsələsinin həllinə də yaxşı başladı. Kəndlərimizi – respublikalarımızı xatırla, ilk vaxtlar mütləq hakimiyyətin məhdud olması adətini yada sal. Burada Avropadakı kralların guya Allahdan göndərilən hüququna bənzər heç nə yoxdu. Bir halda ki, bizim bütün dövlət quruluşumuz kəndin azadlığına əsaslanırdı, kimin kral olmasının adamlar üçün fərqi yoxdu. Bir halda ki, onların yerli azadlığı saxlanır, onda yuxarıda kimin sahib olmadığının nə fərqi var? Fəqət, bu qorxulu və səfeh fikirdir. Tədricən yuxarıda dayanan sahib öz mövqeyini bərkitmiş və kəndlərin azadlığına qəsd etməyə başlamışdı. Nəticədə elə bir vaxt gəlib çatmışdı ki, bizim yerlərdə mütləq hakimiyyət başçıları hökmdar olmuşdu, kənd özünüidarə sistemi varlığını itirmişdi və yuxarıdan aşağıyadək azadlıqdan əsər-əlamət də qalmamışdı.

## ORTA ƏSRLƏRİN SONU

*1 iyul 1932-ci il*

XIII-XV əsrlər Avropasına daha bir nəzər salaq. Yəqin ki, orada qarışıqlıq, zorakılıq və ixtilaflar çox idi. Hindistanda da vəziyyət çox pis idi, amma Avropa ilə müqayisədə belə görünə bilər ki, Hindistanda əmin-amanlıq hökm sürürdü.

Monqollar Avropaya özlərilə barıt gətirmişdilər. Nəticədə odlu silah işə düşmüşdü. Krallar onlara baş əyməyən feodal əyanlarını ram etmək üçün bu silahdan istifadə edirdilər. Şəhərlərdəki yeni tacirlər sinfi bu işdə onlara kömək etdi. Əyanların nümayəndələri öz aralarında yerli, kiçik müharibələr aparmağa adət etmişdilər. Bu, onları zəiflədirdi. Döyüşlər həmçinin kəndi də haldan salırdı. Kral hakimiyyəti gücləndikdə o, daxili müharibələrə son qoydu. Bəzi ölkələrdə bu, taxt-tac iddiasında olan iki şəxs arasında gedən vətəndaş müharibəsi idi. Məsələn, İngiltərədə iki sülalə – Yorklar və Lankasterlər sülaləsi arasında münaqişə baş verirdi. Hər iki dəstənin gerblərində qızılgül – birində ağ, digərində al qızılgül təsviri vardı. Buna görə də həmin müharibə Al qızılgül ilə Ağ qızılgül müharibəsi adını almışdı. Bu vətəndaş müharibələrində feodal əyanlarının böyük bir qismi qırılmışdı. Çoxları da səlib yürüşlərində həlak olmuşdu. Feodal senyorların üzərində tədricən nəzarət qoyuldu. Amma bu, o demək deyildi ki, hakimiyyət əyanlardan xalqa



keçib. Kral hakimiyyəti güclənmişdi. Xalqın yaşayışı təqribən yenə əvvəlki vəziyyətdə idi, fəqət, daxili müharibələrin zəifləməsi nəticəsində bir qədər yaxşılaşmışdı. Lakin kral getdikcə qüdrətli və mütləq hakimə çevrilirdi. Kral ilə yeni ticarət sinfi arasındakı münaqişə təzəcə qızışmağa başlayırdı.

Təqribən 1348-ci ildə Avropada yayılan vəba xəstəliyi müharibələrdən və qanlı döyüşlərdən qat-qat dəhşətli oldu. Vəba Rusiyadan və Kiçik Asiyadan tutmuş İngiltərəyədək bütün Avropanı bürüdü. Misirə, Şimali Afrikaya və Orta Asiyaya keçən vəba sonra Qərbə yayılmağa başladı. Vəbanı "qara ölüm" adlandırırdılar. Bu xəstəlikdən milyonlarla adam tələf oldu. Vəbadan İngiltərə əhalisinin üçdə biri həlak oldu. Çində və digər ölkələrdə qırılanların sayı daha çox idi. Qəribə burasıdır ki, Hindistan vəba görmədi.

Bu dəhşətli fəlakət nəticəsində əhalinin sayı kəskin surətdə azaldı. Çox vaxt tarlanı becərməyə adam çatışmırdı. Adam çatışmaması üzündən işçilərin maaşı əvvəlkinə nisbətən xeyli artmağa başladı. Amma parlamentlər feodal senyorların və torpaq mülkiyyətçilərinin nəzarəti altında olduğundan bir sıra qanunlar qəbul etdilər. Bu qanunlar adamları əvvəlki kimi qəpik-quruşa işləməyə məcbur edirdi, zəhmət haqqının artırılması barədə onların tələbləri isə qadağan olunurdu. Həddindən artıq zülm çəkən və istismar olunan kəndlilər və yoxsullar üsyan edirdilər. Qərbi Avropanı bir-birinin ardınca kəndli üsyanları bürüyürdü. 1358-ci ildə Fransada Jakeriya adlanan üsyan oldu. İngiltərədə Uot Tayler üsyanı baş verdi. Üsyan vaxtı, 1381-ci ildə Tayler ingilis kralının gözü qabağında öldürüldü. Bu üsyanlar yatırıldı, həm də çox vaxt böyük qəddarlıqla yatırıldı. Amma bərabərlik haqqında tədricən yeni-yeni ideyalar geniş yayılmağa başladı. Adamlar özlərinə sual verirdilər ki, özgələri zəngin və bolluq içərisində yaşadıqları halda, nə səbəbə biz yoxsul və ac qalmalıyıq. Nə səbəbə adamların bir parası ağa olmalıdır, o biriləri qul? Nə səbəbə bəzilərinin bahalı geyimi olmalıdır, başqalarının isə öz çılpaq bədənini örtmək üçün heç cır-cındırı da yoxdur? Nüfuza – bütün feodal sisteminin əsaslandığı nüfuza qədimdən bəri tabe olmaq ideyası puç olub gedirdi. Nəticədə kəndlilər dönə-dönə baş qaldırırdılar. Onlar zəif və qeyri-mütəşəkkil idilər, onların üsyanını yatırdırdılarsa da, bir müddət sonra təzədən baş qaldırırdılar.

İngiltərə ilə Fransa bir-birilə demək olar fasiləsiz müharibə edirdi. XIV əsrin əvvəllərindən XV əsrin ortalarınadək onların arasında yüzillik

müharibə getmişdi. Fransanın şərqində yerləşən Burqundiya qüdrətli dövlət idi. Sözdə o, fransız kralının vassalıydı. Amma Burqundiya qızğın və əyilməz vassaldı. İngiltərənin Burqundiya və başqa dövlətlərdə törətdiyi fitnə-fəsad Fransanın bir müddət məngənəyə alınmasıyla nəticələndi. Qərbi Fransanın böyük bir hissəsi uzun müddət İngiltərənin hökmranlığı altında idi. Odur ki, ingilis kralı özünü həm də Fransa kralı adlandırmağa başladı. Müqəddəratı çox böyük təhlükədə olan Fransa ümidini tamam üzdüyü bir vaxtda ona cavan kəndli qızı surətində qələbə və ümid qayıtdı. Orlean qızı Janna d'Ark (Arklı İohanna) haqqında az-çox məlumatın var. Axı o sənin qəhrəmanındır. O, ümidsizliyə qapılmış xalqının qəlbində inam oyatdı və xalqını reşadət göstərməyə ruhlandırdı; onun başçılıq etdiyi xalq ingilisləri öz ölkəsindən qovdu. Amma göstərdiyi misilsiz şücaətin müqabilində mükafatı bunlar oldu: məhkəmə, inkvizisiya hökmü və tonqal. İngilislər qızı ələ keçirdilər. Kilsənin onu edama məhkum etməsinə nail oldular. Sonra da 1430-cu ildə onu Ruanın bazar meydançasında yandırdılar. Aradan bir çox illər keçəndən sonra katolik kilsəsi onun haqqında çıxarılmış edam hökmünü ləğv etməklə həmin səhvi düzəltməyə cəhd göstərdi. Daha sonra isə Janna d'Ark müqəddəs elan olundu.

Janna Fransadan və öz vətənini yadellilərdən xilas etməkdən danışırdı. Bu, yeni söz idi. O dövrdə adamların beyni feodal ideyaları ilə dolu olduğundan millətçilik barədə düşünə bilmirdi. Buna görə də Jannanın dedikləri adamları heyrətləndirirdi və onlar qızı çətin ki, başa düşəydilər. Fransada Janna d'Ark dövründən başlayaraq millətçiliyin zəif rüşeymlərinə rast gəlirik.

İngilisləri ölkəsindən qovandan sonra fransız kralı ona bu qədər ziyan vurmuş Burqundiyaya qarşı çıxış etdi. Bu qüdrətli vassal axır ki, itaətə gətirildi. Təqribən 1483-cü ildə Burqundiya Fransanın bir hissəsi oldu. Bundan sonra fransız kralı qüdrətli hökmdara çevrildi. O, bütün feodal əyanlarını darmadağın etdi, ya da onları özünə tabe etdirdi. Burqundiyanın öhdəsindən gələndən sonra Fransa Almaniya ilə üz-üzə dayandı. Sərhədləri bir-birilə təmasda idi. Amma Fransa mərkəzləşmiş güclü monarxiya olduğu halda o zaman Almaniya bir çox dövlətlərə parçalanmış zəif ölkə idi.

İngiltərə Şotlandiyanı da tabe etməyə cəhd göstərirdi. Mübarizə uzun çəkirdi. Şotlandiya da çox vaxt Fransa tərəfindən İngiltərəyə qarşı çıxış edirdi. 1314-cü ildə şotlandlar Robert Brüsün komandanlığı altında Bannokbern yaxınlığında ingilisləri məğlubiyyətə uğratdılar.



Hələ XII əsrdən başlayaraq ingilislər İrlandiyanı fəth etməyə təşəbbüs göstərmişdilər. Bu hadisə yeddi yüz il əvvəl olmuşdu, o vaxtdan bəri İrlandiyada tez-tez müharibə və üsyanlar baş verirdi, terror və dəhşət hökm sürməkdə idi. Bu kiçik ölkə yadellilərin ağalığına tabe olmaqdan imtina etdi, boyun əyməyəcəyini bildirmək üçün nəsillər bir-birinin dalınca üsyana qalxırdılar.

XIII əsrdə Avropada daha bir kiçik ölkə – İsveçrə öz azadlığını qoruyub saxladı. İsveçrə Müqəddəs Roma imperiyasının bir hissəsini təşkil edirdi və Avstriyanın idarəsi altındaydı. Yəqin sən Vilhelm Tellin və oğlunun əhvalatını oxuyubsan, amma çox güman ki, bu əhvalat həqiqət deyil. Bununla belə, böyük imperiya əleyhinə İsveçrə kəndlilərinin üsyanı və imperiyaya tabe olmaqdan imtina etməsi o əhvalatdan da yaxşıdır. Əvvəlcə üç kanton[1] 1291-ci ildə "əbədilik" deyilən ittifaq bağlayaraq üsyana başladı. O biri kantonlar da ona qoşuldular və nəticədə 1499-cu ildə İsveçrə azad respublika oldu. Bu respublika müxtəlif kantonların federasiyasından ibarət olub, İsveçrə konfederasiyası[2] adlanırdı. Avqustun 1-də İsveçrədə bir çox dağların zirvəsində səninlə gördüyümüz tonqallar yadına gəlirmi? Bu, isveçrəlilərin milli günü, onların inqilabının başlanmasının ildönümü idi. O gün tonqal Avstriya hakimi əleyhinə üsyan siqnalı idi.

Bəs Avropanın şərqindəki Konstantinopolun başına nə işlər gəlirdi? 1204-cü ildə romalı səlibçilərin bu şəhəri yunanların əlindən alması yəqin ki, yadındadır. 1261-ci ildə yunanlar onları ölkədən qovub Şərqi imperiyanı yenidən dirçəltdilər. Amma bundan daha dəhşətli yeni təhlükə yaxınlaşmaqdaydı.

Monqollar Asiyadan keçərək irəliləyərkən əlli min osmanlı türkünü qabaqlarına qatıb qovurdular. Onlar səlcuq türklərindən fərqlənirdilər. Osmanlı türkləri özlərini Osman adlı sülalənin ulu babasının və ya banisinin nəsilləri sayırdılar. Buna görə də onlara osmanlı türkləri deyirdilər. Osmanlı türkləri səlcuqlar dövründə Qərbi Asiyada sığınacaq tapmışdılar. Səlcuqlar zəiflədikcə osmanlılar görünür, güclənirdi. Osmanlılar öz torpaqlarını daha da genişləndirməyə başladılar. Özlərindən əvvəl çoxlarının elədiyi kimi, Konstantinopola hücum etmək əvəzinə, 1353-cü ildə

[1] K a n t o n – bəzi ölkələrdə, o cümlədən İsveçrədə inzibati ərazi bölgüsü, İsveçrə respublikasının tərkibinə daxil olan ayrı-ayrı dövlətlərdən hər biri (*tərcüməçinin qeydi*)

[2] K o n f e d e r a s i y a – latınca: ictimai təşkilatların və ya dövlətlərin birləşməsi (*tərcüməçinin qeydi*)

dəniz vasitəsilə Avropaya keçərək Konstantinopolun yanından ötdülər. Sürətlə irəliləyən türklər Bolqarıstanı və Serbiyanı tutdular və Adrianopolu özlərinə paytaxt seçdilər. Beləliklə, Osmanlı imperiyası Konstantinopolun hər iki tərəfində, həm Asiyada, həm də Avropada qərar tutdu. Osmanlı imperiyası Konstantinopolu əhatə etsə də şəhər onun tərkibinə daxil deyildi. Tam min il ömür sürmüş məğrur Şərqi Roma imperiyasının əlində indi yeganə bir şəhər qalmışdı və əslində daha heç nəyə malik deyildi. Türklər Şərqi imperiyanı tezliklə ələ keçirsələr də, görünür, sultanlarla imperatorlar arasında xoş münasibətlər vardı və hər iki sülalə arasında nikah bağlanırdı. Nəhayət, 1453-cü ildə Konstantinopol türklərin əlinə keçdi. Biz indi ancaq osmanlı türklərindən danışırıq. Səlcuqlar səhnədən çəkilib gedirlər.

Konstantinopolun süqutu çoxdan gözlənilsə də Avropanı sarsıdan bir hadisə oldu. Konstantinopolun süqutu yunanların min illik Şərq imperiyasının sonu demək idi. O, həm də Avropaya müsəlmanların yeni hərbi müdaxiləsi deməkdi. Türklər irəliləməkdə idilər. Hərdən adama elə gəlirdi ki, onların Avropanı fəth etmələri labüddür. Amma onları Vyananın darvazaları qarşısında dayandırdılar.

VI əsrdə imperator Yustinianın tikdirdiyi iri müqəddəs Sofiya kilsəsini məscidə çevirib Aya Sofiya adlandırdılar; kilsənin sərvəti qismən qarət edildi. Bu hadisə Avropanı təşvişə saldı, lakin heç bir şey edə bilmədi. Amma əslində türk sultanları yunan pravoslav kilsəsinin varlığına dözürdülər. Bunu demək kifayətdir ki, Konstantinopolu zəbt edəndən sonra sultan II Məhəmməd hətta özünü yunan kilsəsinin müdafiəçisi də elan etmişdi. Əzəmətli Süleyman adıyla tanınmış sonrakı sultanlardan biri özünü şərq imperatorlarının nümayəndəsi hesab edərək Qeysər titulu qəbul etdi. Qədim ənənələrin gücü gör necə böyükdü!

Konstantinopol yunanları Osmanlı türklərinə o qədər də xoşagəlməz adamlar kimi baxmırdılar. Yunanlar qədim imperiyanın dağılmaqda olduğunu görürdülər. Odur ki, onlar türkləri Roma papasından və Qərb xristianlarından üstün tuturdular. Yunanların romalı səlibçilərlə üzüzə gəlməsi pis nəticələnmişdi. Belə söyləyirlər ki, 1453-cü ildə Konstantinopolun mühasirəsi zamanı bir kübar bizanslı demişdi: "Papa tacındansa peyğəmbər əmməməsi yaxşıdır".

Türklər xüsusi bir korpus təşkil edərək adını yeniçərilər qoydular. Onlar xristianların uşaqlarını bac-xərac kimi əllərindən alıb, onlara xüsusi təlim verirdilər. Azyaşlı oğlan uşaqlarını ata-anasından ayırmaq



qəddarlıq olsa da, bu uşaqlara bəzi üstünlüklər verilirdi: onlara yaxşıca təlim verirdilər və uşaqlar da dönüb bir növ hərbi zadəgan olurdular. Bu yeniçəri korpusu osmanlı sultanları imperiyasının dayağına çevrilmişdi. "Yeniçəri" can (həyat) və nisar (qurban) sözlərindəndir, yəni öz həyatını qurban verən adam.

Elə bu üsulla Misirdə də eynən yeniçərilərin rolunu oynayan məmlüklər korpusunun əsası qoyulmuşdu. Onların qüdrəti o dərəcəyə çatmışdı ki, hətta Misir üçün sultan da yetişdirirdilər.

Osmanlı sultanları Konstantinopolu ələ keçirəndən sonra sanki öz sələflərindən, Vizantiya imperatorlarından xeyli pis adətlər miras almışdılar: cah-calalı və rüşvətxorluğu. Vizantiyanın çürüməkdə olan sistemi bu sultanları hər tərəfdən bürümüşdü və tədricən onların qüdrətini sarsıdırdı. Lakin müəyyən dövr ərzində sultanlar güclü olduğundan xristian Avropası onlardan çəkinirdi. Sultanlar Misiri istila edərək xəlifələrin titulunu özlərinə götürmüşdülər: onlar bu titulu o zaman Abbasilərin həmin titula sahib olan, lakin hakimiyyət başında durmayan zəif nümayəndələrinin əlindən almışdılar. O vaxtdan etibarən ta son illərə qədər osmanlı sultanları özlərini xəlifə adlandırırdılar. Mustafa Kamal paşa həm sultanlığı, həm də xəlifəliyi ləğv edərək buna son qoydu.

Konstantinopolun süqutunu göstərən gün tarixdə böyük hadisə kimi qeyd edilir. O gün bir eranın qurtardığı və başqa bir eranın başlandığı gün hesab olunur. Orta əsrlər geridə qaldı. Orta əsrlərin zülmətdə keçən min illiyi başa çatdı. Avropa canlanır, yeni həyat rüşeymləri və coşqunluq müşahidə edilirdi. Bu, İntibah dövrünün başlanğıcı, yəni elmin və incəsənətin dirçəlməsi deməkdir. Uzun çəkən yuxudan sonra adamlar sanki ayılır və öz nəzərlərini yüzilliklər arasından geriyə, Qədim Yunanıstanın şöhrətli günlərinə yönəldir, həmin günlərdə ilham axtarırdılar. Həyata qəmli və dumanlı baxışa – kilsənin təbliğ etdiyi baxışlara qarşı, insan ruhunu buxovlayan zəncirlərə qarşı əqlin az qala üsyanı baş verir. Gözəlliyə olan qədim yunan məhəbbəti yenidən dirçəlir, Avropada gözəl təsviri sənətin, heykəltəraşlığın və memarlığın çiçəklənməsi dövrü başlanır.

Əlbəttə, bütün bunlar qəflətən, Konstantinopolun süqutu nəticəsində baş verməmişdi. Belə fikirləşmək ağılsızlıq olardı. Şəhərin türklər tərəfindən işğal edilməsi bu dəyişikliyi bir qədər sürətləndirdi. Ona görə ki, bir çox savadlı və bilikli adamlar şəhəri tərk edərək Qərbə üz tutmuşdular. Onlar yunan ədəbiyyatı xəzinəsini özləri ilə bərabər İtaliyaya məhz elə bir vaxtda gətirmişdilər ki, Qərb həmin xəzinəni qiymətləndirmək

iqtidarında idi. Bu mənada həmin şəhərin süqutu İntibahın başlanmasına səbəb olmuşdu.

Amma bu, böyük dəyişikliklərin kiçik səbəblərindən ancaq biridir. Orta əsrlərdə İtaliya və ya Qərb üçün qədim yunan ədəbiyyatı və təfəkkürü təzə bir şey deyildi. Darülfünunlarda onları hələ də öyrənməkdəydilər və bilikli adamlar o ədəbiyyatla tanış idilər. Lakin bu bilik tək-tük adamlara müyəssər olurdu. Həyata hakim baxışlarla elm arasında ayrılıq olduğuna görə bu biliklər geniş yayılmırdı. Buna baxmayaraq, adamların zehnində oyanan şübhə sayəsində həyata yeni baxış üçün tədricən zəmin hazırlanırdı. Adamlar mövcud vəziyyətdən narazı idilər və özlərini daha çox qane edə biləcək bir şey axtarırdılar. Onlar bu şübhəli vəziyyətdə və qulağı səsdə qaldıqları bir vaxtda zəkaları bütpərəst Yunanıstanın qədim fəlsəfəsini kəşf etdi. Həmçinin onlar Yunanıstan ədəbiyyatından da böyük zövq alırdılar. Aradıqlarını məhz bunda tapdıqları üçün həmin kəşf onlarda böyük ruh yüksəkliyi yaratdı.

Dirçəliş ən əvvəl İtaliyada başladı. Sonralar Fransada, İngiltərədə və digər ölkələrdə də müşahidə edildi. Bu dirçəliş yunan təfəkkürünün və ədəbiyyatının sadəcə yeni kəşfi deyildi. Ondan da qat-qat böyük və əzəmətli bir kəşf idi. Bu, uzun müddət Avropada baş verən dərin prosesin zahiri təzahürü idi. Bu dirçəliş prosesi gərək bir çox istiqamətlərdə özünə çıxış yolu tapaydı. Belə yollardan biri də İntibah oldu.

## DƏNİZ YOLLARININ KƏŞFİ

*3 iyul 1932-ci il*

Biz indi elə bir mərhələyə gəlib çatdıq ki, o mərhələdə Avropada orta əsrlər sona yetməkdə və yerini yeni qaydalara verməkdədir. Mövcud şəraitdən narazılıq başlanır. Bu duyğu isə dəyişiklik və tərəqqi mənbəyidir. Narazılıq feodal və dini sistemlər tərəfindən istismar olunan bütün sinifləri bürümüşdü. Biz kəndli üsyanlarının, yaxud fransızların adlandırdığı kimi jakeriyaların (kəndli Jakın adından) baş verdiyini görürdük. Lakin kəndlilər hələ də xeyli geridə qalmışdılar və zəifdilər. Buna görə də üsyan etmələrinə baxmayaraq, çox az şeyə nail ola bilirdilər. Onların vaxtı hələ gəlib çatmamışdı. Əsil ixtilaf qədim feodal sinfi ilə yeni qüvvə toplayan və öz mənafeyini gözəl dərk edən orta sinif



arasında gedirdi. Feodal sistemi dövründə var-dövlət xüsusi torpaq mülkiyyətinə əsaslanırdı – torpaq özü əsil sərvətdi. Amma indi başqa növ sərvət toplanmaqda idi. Bunun mənbəyi indi torpaq mülkiyyəti yox, sənaye məmulatı və ticarət idi. Yeni orta sinif olan burjuaziya məhz bundan fayda götürürdü. Onun gücü də elə bunda idi. Bu, yeni ixtilaf deyildi. Bizim müşahidə etdiyimiz hər iki tərəfin qüvvələr nisbətinin dəyişilməsi idi. Feodal sistemi hələ özünü saxlasa da, indi müdafiəyə keçir. Öz qüvvəsinə arxayın olan burjuaziya hücuma başlayır. Mübarizə yüz illər boyu davam etdiyi üçün vəziyyət getdikcə daha çox burjuaziyanın xeyrinə olurdu. Müxtəlif Avropa ölkələrində mübarizə cürbəcür şəkildə cərəyan edir. Şərqi Avropada ancaq zəif mübarizə gedir. Burjuaziya məhz Qərbdə ilk dəfə olaraq ön xəttə keçir.

Köhnə maneələrin dağıdılması, bir çox sahələrdə – elmdə, incəsənətdə, ədəbiyyatda, memarlıqda, yeni-yeni coğrafi kəşflərdə irəliyə hərəkət demək idi. İnsan ruhu zəncirləri qırdığı hər bir vaxtda belə olur: inkişaf edir və çiçəklənir. Azadlıq bizim ölkəmizə qədəm qoyanda da məhz belə olacaq: xalqımız və dühamız çiçəklənəcək, bütün sahələrdə qol-budaq atacaq.

Kilsə zəifləyib nüfuzunu itirdikcə, adamlar məbədlərə və kilsələrə daha az pul sərf etməyə başlayırdılar. Bir çox yerlərdə gözəl tikililər ucaldılırdı, lakin bunlar bələdiyyə binası və buna oxşar başqa binalar idi. Qotik üslub da aradan çıxır, yerini yeni üsluba verirdi.

Məhz bu zaman, Qərbi Avropa yeni enerji ilə gücləndiyi bir dövrdə Şərqdən şirnikləndirici yeni bir şey – qızıl gəldi. Hindistanda və Çində olmuş Marko Polonun və digər səyyahların söylədikləri avropalıların xəyalını təlatümə gətirdi, Şərqin bitməz-tükənməz sərvəti çoxlarını dənizə çıxmağa sövq edən amil oldu. Konstantinopol məhz bu zaman süqut etdi. Türklər Şərqə gedən dəniz və quru yolları üzərində nəzarət qoydular və ticarətə çox da meydan vermədilər. Bu, iri tacirləri qəzəbləndirdi. Şərqin qızılına can atmağa cəhd göstərən yeni insan tiplərinin, fırıldaqçıların da əl-qolu bağlandı. Buna görə də onlar qızılla zəngin olan Şərqə yeni yollar tapmağa cəhd edirdilər.

Hər bir məktəbli qız yaxşı bilir ki, Yer dəyirmidir və o, Günəş ətrafında fırlanır. Bu, bizim hamımıza çox aydın olan bir şeydir. Lakin əvvəlki dövrlərdə bu çox da aydın deyildi, hətta belə düşünməyə cürət edən adamlarla kilsə arasında münasibətlər mürəkkəbləşirdi. Lakin kilsədən qorxduqlarına baxmayaraq, getdikcə daha çox adam güman etməyə

başlamışdı ki, Yer kürə şəklindədir. Əgər belədirsə, onda aydındır ki, qərbə doğru hərəkət etməklə Çinə və Hindistana gedib çatmaq olar. Adamların bir qismi belə düşünürdü. O biri qismi Afrikanı dolanaraq gəmi ilə Hindistana gedib çatmaq istəyirdi. Unutma ki, o zaman Süveyş kanalı yox idi və gəmilər Aralıq dənizindən Qırmızı dənizə keçə bilmirdi. Yükləri və malları quru yolla daşıyırdılar. Yəqin ki, dəvələrlə Aralıq dənizindən Qırmızı dənizə çatdırıb orada gəmilərə yükləyirdilər. Bu yol heç vaxt o qədər də əlverişli olmayıb. Suriya və Misir türklərin hakimiyyətinə keçdikdə isə yol daha da çətinləşdi.

Amma Hindistanın sərvəti adamları yenə də şirnikdirib başdan çıxarırdı, cəzb edirdi. Yeni yollar kəşf etmək məqsədilə ilk dəfə səyahətə başlayan İspaniya və Portuqaliya oldu. İspaniya məhz bu zaman sonuncu mavrları[1], yaxud sarasinləri Qranadadan qovmuşdu. Araqonlu Ferdinandın kastiliyalı İzabella ilə kəbini xristian İspaniyasını birləşdirdi. 1492-ci ildə isə, yəni türklər Konstantinopolu ələ keçirdikdən yarım əsr sonra Avropanın o biri başında ərəblərə məxsus Qranada süqut etdi. İspaniya birdən-birə Avropanın böyük xristian dövlətinə çevrildi.

Portuqaliyalılar şərqə, ispanlar isə qərbə getməyə cəhd edirdilər. 1445-ci ildə Yaşıl Burunun portuqaliyalılar tərəfindən kəşf edilməsi ilk böyük uğur oldu. Bura Afrikanın ən qərb nöqtəsidir. Afrika xəritəsinə nəzər sal. Onda görərsən ki, Avropadan Yaşıl Buruna keçmək üçün gərək cənub-qərb istiqamətində üzəsən. Yaşıl Burunu dolanıb keçəndən sonra cənub-şərqə tərəf üzəsən. Onun kəşf olunması çox ümid verirdi: çünki bu kəşf adamları inanmağa vadar edirdi ki, onlar Afrikanı dolanıb Hindistana çata bilərlər.

Amma onlar Afrikanı dolanıb keçmək üçün daha qırx il gözləməli oldular. Portuqaliyalı Bartolomeu Diaş 1486-cı ildə Afrikanın cənub ucqarını, yəni Ümid burnu deyilən yeri dolanıb keçdi. Bir neçə il sonra Vasko da Qama adlı daha bir portuqaliyalı da bu kəşfdən istifadə etdi, Ümid burnunu dolanıb keçərək Hindistana çatdı. Vasko da Qama Malabar sahilindəki Kalikuta 1498-ci ildə gedib çıxdı.

Beləliklə, portuqaliyalılar Hindistana yol tapmaq yarışında qalib gəldilər. Bu arada dünyanın o biri başında böyük hadisələr baş verirdi ki, bunun səmərəsindən istifadə etmək İspaniyaya nəsib olmalıydı. Xris-

[1] **Mavrlar** – yunanca: "tünd". Orta əsrlərdə Qərbi Avropada və Şimali Afrikanın şimal-qərb hissəsində ərəb dilinin yerli dialektlərində danışan müsəlman əhalisinin adı (*tərcüməçinin qeydi*)



tofor Kolumb 1492-ci ildə Amerika qitəsinə gəlib çatdı. Kolumb yoxsul bir genuyalı idi; Yerin dəyirmi olduğuna əmin olduğu üçün qərbə tərəf üzməklə həm Yaponiyaya, həm də Hindistana gedib çatmaq istəyirdi. Səyahətin çox uzun çəkəcəyini (doğrudan da belə oldu) heç ağlına da gətirmirdi. Kolumb bir saraydan o birisinə keçərək ümid edirdi ki, bəlkə bir hökmdar ekspedisiyaya başlamaqda ona kömək göstərə. Axır ki, Ferdinand və İzabella razı oldular. Kolumb da üç kiçik gəmi ilə (gəmi heyətində 88 nəfər dənizçi var idi) yola çıxdı. Bu, qeyri-müəyyənliyə doğru çox cəsarətli və xatalı səfər idi. Çünki heç kim qarşıda onu nələr gözlədiyini bilmirdi. Amma Kolumb öz səyahətinin uğurla nəticələnəcəyinə inanırdı. Ondakı inam özünü doğrultdu. Altmış doqquz gün dənizlə yol gedəndən sonra bir quruya gəlib çatdılar. Kolumb elə zənn etdi ki, Hindistandır. Əslində bu, Vest-Hind[1] adalarından biri idi. Kolumb Amerika qitəsinə heç vaxt gedib çıxa bilməmişdi. Ömrünün axırınadək inanmışdı ki, gedib çatdığı yer Asiyadır. Bu qəribə səhvin nəticələri indiyədək qalır. O adaları hələ də Vest-Hind adaları adlandırırlar. Amerikanın yerli əhalisini isə elə indinin özündə də hindular və ya qırmızı dərili hindular adlandırırlar.

Kolumb Avropaya qayıtdı. Bir il sonra gəmilərinin sayını xeyli artıraraq yenidən dəniz səyahətinə çıxdı. O vaxtlar zənn etdikləri kimi, Hindistana yeni yolun tapılması Avropada bərk çaxnaşmaya səbəb oldu. Məhz bu hadisənin üstündən çox keçməmiş Vasko da Qama Şərqə tərəf səyahətə çıxdı və Kalikuta çatdı. Yeni-yeni kəşflərin sorağı Şərqdən və Qərbdən gəlib çatdıqca Avropada çaxnaşma artırdı. Bu təzə torpaqlara ağalıq iddiasında olan iki rəqib dövlət vardı: Portuqaliya və İspaniya. İşin bu yerə çatdığını görəndə səhnəyə Roma papası çıxdı. İspanlarla portuqaliyalılar arasındakı ixtilafın qarşısını almaq niyyətilə başqa xalqlar hesabına səxavət göstərməyi qərara aldı. 1493-cü ildə bulla elan etdi (bu və ya digər məsələ ilə əlaqədar papanın verdiyi bəyanatlar və göstərişlər bulla adlanır); buna sərhəd qoyma haqqında Bulla adı verildi. Roma papası Azor adalarından qərbə doğru yüz liq (təqribən 300 mil) məsafədə şimaldan cənuba xəyali bir xətt çəkdi və elan etdi ki, Portuqaliya həmin xətdən şərqə doğru qeyri-xristian ölkələrin gərək hamısını alsın, İspaniya isə o xətdən qərbə doğru olan bütün ölkələri. Nə gözəl hədiyyədir? Avropanı çıxmaq şərtilə az qala bütün dünya! Həm də ki, bu hədiyyə

[1] **Vest-Hind** – ingiliscə: Qərbi Hindistan. Şimali və Cənubi Amerika materikləri arasında, Atlantik okeanında adalar qrupunun ümumi adı (*tərcüməçinin qeydi*)

papaya müftə başa gəlir! Azor adaları Atlantik okeanında yerləşir. Bu adalardan qərbə tərəf üç yüz mil aralı məsafədən çəkilən xəyali xətt isə bütün Şimali Amerikanı və Cənubi Amerikanın böyük bir hissəsini qərb tərəfdə qoyur. Beləliklə, papa hər iki Amerikanı əslində İspaniyaya hədiyyə vermiş olur. Hindistanı, Çini, Yaponiyanı və digər Şərq ölkələrini, eləcə də bütövlükdə bütün Afrikanı isə Portuqaliyaya bağışlayır!

Portuqaliyalılar bu çox geniş ərazilərdə ağalığa başladılar. Amma onlar öz məqsədlərinə asanlıqla nail olmurdular. Buna baxmayaraq, bəzi müvəffəqiyyətlər qazanaraq Şərqə tərəf hərəkəti davam etdirdilər. 1510-cu ildə Qoaya, 1511-ci ildə Malayya yarımadasındakı Malakkaya, bir qədər sonra Yavaya, 1576-cı ildə isə Çinə gəlib çatdılar. Amma bu, o demək deyil ki, onlar həmin ölkələrə yiyələndilər. Portuqaliyalılar bəzi yerlərdə ancaq dayaq məntəqəsi əldə etdilər. Onların Şərqdə bundan sonrakı taleyini gərək gələn məktublardan birində nəzərdən keçirək.

Şərqdə portuqaliyalılar arasında Fernan Magellan adlı bir şəxs var idi. Lakin o, öz portuqaliyalı ağaları ilə dalaşdığından Avropaya qayıdıb İspaniya təbəəsi oldu. O, Ümid burnunu dolanaraq şərq yolu ilə Hindistana və şərq adalarına gedib çatdı. Oralara Amerikadan keçərək qərb yolu ilə gedib çıxmaq istəyirdi. Bəlkə də Magellan bilirdi ki, Kolumb tərəfindən kəşf olunmuş torpaq əsla Asiya deyildi. Həqiqətən 1513-cü ildə Balboa adlı bir ispan Mərkəzi Amerikadakı Panamanın dağlarını aşaraq Sakit okeana gəlib çatdı. Balboa oranı nə səbəbdənsə Cənub dənizi adlandırdı və elə oradaca sahildə dayanıb yeni dənizi və bu dənizin yuduğu bütün torpaqları öz ağasının, İspaniya kralının mülkü elan etdi.

1519-cu ildə Magellan qərbə səyahətə başladı. Bu, səfərlər içərisində ən böyüyü idi. Beş gəmisi və iki yüz yetmiş adamı vardı. Atlantik okeanı keçərək Cənubi Amerikaya gəlib çatdı. Qitənin lap ucqarına çatıncaya qədər hey cənuba tərəf getdi. Bir gəmisini dəniz qəzası nəticəsində itirdi, o birisinin heyəti fərarilik etdi; üç gəmisi qaldı. Bu gəmilərlə o, Cənubi Amerika qitəsi ilə ada (Odlu Torpaq adası) arasındakı dar boğazdan keçdi və qitənin o biri tərəfindən açıq okeana çıxdı. Bu, Sakit okean idi. Atlantik okeanından qat-qat sakit olduğuna görə Magellan onu belə adlandırmışdı. Sakit okeana gedib çatmaq üçün düz on dörd ay sərf etdi. Keçdiyi boğazı bu günədək onun şərəfinə Magellan boğazı adlandırırlar.

Sonra Magellan cəsarətlə şimala və şimal-qərbə naməlum okeanla getdi. *Dəniz səfərinin ən dəhşətli hissəsi bu idi. Səfərin bu qədər uzun* çəkəcəyini heç kəs bilmirdi. Az qala dörd ay, daha doğrusu, yüz səkkiz



gün idi ki, azacıq yemək və su ehtiyatı ilə okeanın ortasında qalmışdılar. Çox böyük məhrumiyyətdən sonra axır gəlib Filippin adalarına çıxdılar. Oranın adamları onları səmimi qarşıladılar, dənizçiləri ərzaqla təchiz etdilər, sonra da hədiyyə mübadiləsi apardılar. Amma ispanlar onlara təkəbbürlə və həqarətlə yanaşırdılar. Magellan iki tayfa başçısı arasında baş verən müharibədə iştirak etdi və öldürüldü. Lovğa davranışlarına görə ispanların bir çoxunu da ada sakinləri öldürdülər.

İspanlar qiymətli ədviyyat gətirilən Ədviyyat adalarını axtarırdılar. Onlar öz axtarışlarını davam etdirirdilər. Bir gəmidən də əl çəkib yandırası oldular. İndi vur-tut iki gəmi qalırdı. Belə qərara aldılar ki, gəmilərdən biri Ümid burnunu dolanıb Sakit okean vasitəsilə İspaniyaya qayıtsın. Bu gəmilərdən birincisi çox uzağa gedə bilmədi, çünki portuqaliyalılar tərəfindən ələ keçirilmişdi. Amma "Vittoria" ("Qələbə") adlanan ikinci gəmi Afrikanı dolanıb, İspaniyanın Sevilya şəhərinə çata bilmişdi; gəmi səyahətə çıxandan düz üç il sonra 1522-ci ildə cəmi on səkkiz adamla gəlib İspaniyaya çatdı. "Vittoria" dənizlə dünya səyahəti etmişdi. Bu, ilk gəmi idi ki, belə bir səfərə çıxa bilmişdi.

Mən "Vittoria"nın səfəri barədə ona görə belə müfəssəl yazıram ki, bu qəribə səyahət olub. Biz indi hər cür rahatlıqla iri gəmilərdə uzaq səyahətə çıxırıq. Amma sən bu ilk səyyahları düşün; onlar hər cür xətaya və fəlakətə qarşı qorxmadan sinə gərərək irəliləmiş, naməlum aləmə can ataraq arxalarınca gələnlərə dəniz yolları açmışlar. İspanlar və portuqaliyalılar o dövrdə məğrur, lovğa və qəddar olsalar da son dərəcə cəsur və sərgüzəşt axtaran adamlar idi.

Magellanın başı dənizdə dünya səyahətinə qarışdığı bir vaxtda Kortec Mexiko şəhərinə girmiş, ispan kralı üçün Asteklər imperiyasını istila etməklə məşğul olmuşdu. Mən bu imperiya haqqında və Amerikadakı mayya mədəniyyəti haqqında sənə danışmışam. Kortec Mexikoya 1519-cu ildə gəlib çatmışdı. Pisarro Cənubi Amerikadakı İnklər imperiyasına (indi Perunun olduğu yerdə) 1530-cu ildə qədəm qoymuşdu. Cəsarət və rəşadət sayəsində, xəyanət və qəddarlıq üsulları işlətmək və xalqların daxili ixtilaflarından istifadə etməklə Kortec və Pisarro müvəffəqiyyət qazandılar, iki qədim imperiyanın varlığına son qoydular. Lakin hər iki imperiya anaxronizm[1] olduğundan bəzi cəhətlərdən həddindən çox bəsit idi. Buna görə də bu imperiyalar hələ ilk zərbədən oyuncaq ev kimi dağıldılar.

[1] Anaxronizm – yunanca: tarix səhvi (*tərcüməçinin qeydi*)

Böyük tədqiqatçıların və ilk kəşfiyyatçıların ayağı haralara dəyirdisə, qənimət və qazanc güdən sərgüzəşt həvəskarları dərhal onların ardınca qoşulurdu. Bu azğın dəstə ən çox İspaniya Amerikasına zərər vurmuşdu. Onlar hətta Kolumbla da çox pis rəftar etmişdilər. Bu arada Perudan və Meksikadan İspaniyaya qızıl, gümüş seltək axırdı. Külli miqdarda qiymətli metalların axıb gəlməsi Avropanın gözlərini qamaşdırmış və İspaniyanı ən qüdrətli Avropa dövlətinə çevirmişdi. Qızıl-gümüş Avropanın o biri ölkələrinə də sirayət etmişdi. Beləliklə, Şərqin məhsulunu əldə etmək üçün pul bolluğu yaranmış oldu.

Portuqaliyanın və İspaniyanın qazandığı müvəffəqiyyətlər təbiidir ki, digər ölkələrin, xüsusilə Fransanın, İngiltərənin, Hollandiyanın və Şimali Almaniya şəhərlərinin qızıl-gümüşə olan iştahasını daha da artırdı. Əvvəlcə onlar Norveçin şimalından şərqə doğru, oradan da Qrenlandiyanı dolanıb qərbə doğru üzməklə Asiyaya və Amerikaya şimal yolu tapmağa ciddi cəhd göstərdilər. Amma uğursuzluğa düçar olub artıq keçilmiş yollarla getdilər.

Dünyanın öz sərvət və ecazkarlığını açıb göstərdiyi dövr gör necə qəribə dövr idi! Bir-birinin ardınca yeni kəşflər edilir, bütöv okeanlar və qitələr kəşf olunur və tükənməz sərvət sanki elə bu sehirli sözləri gözləyirdi: "Sim-sim, açıl!". Sanki havanın özünə belə sərgüzəştlərin sehirli ruhu hopmuşdu.

Dünya indi əvvəlkindən daha çox darısqallıq edirdi və belə bir şəraitdə kəşf ediləsi çox az şey vardı. Bu, ilk baxışda belə görünə bilər. Amma əslində belə deyil. Çünki elm yeni-yeni ucsuz-bucaqsız üfüqlər kəşf etmişdi. Bu üfüqlər öz tədqiqatını gözləyir. Macəralar da çoxdur. Xüsusən müasir dövrün Hindistanında!

## MONQOL İMPERİYALARININ DAĞILMASI

*9 iyul 1932-ci il*

Mən orta əsrin qurtardığı və Avropada ən müxtəlif sahələrdə yeni ruhun və yeni coşqunluğun təzahürü haqda sənə yazmışdım. Avropanı qızğın fəaliyyət və yaradıcılıq səyləri bürümüşdü. Yüz illər boyu xırdaca dövlətlərində qapanıb qalan adamlar indi enginliyə çıxmış, geniş dəryaları yarıb keçərək dünyanın ən ucqar guşələrinə gedib çatmışdılar. Onlar öz qüvvələrinə arxayın olan qaliblər kimi çıxış edirdilər. Bu



arxayınlıq onlara cəsarət bəxş edir və böyük hünərlər göstərməyə sövq edirdi.

Amma bu gözlənilməz dəyişikliyin necə baş verdiyini yəqin ki, bilmək istərdin. XIII əsrin ortalarında monqollar həm Asiyada, həm də Avropada ağalıq edirdilər. Şərqi Avropa onların hakimiyyəti altındaydı. Qərbi Avropa isə bu əzəmətli və sanki yenilməz döyüşçülər önündə titrəyirdi. Avropanın kralları və imperatorları Böyük Xanın sərkərdələrilə heç müqayisə də oluna bilməzdi.

İki yüz il sonra Bizans imperiyasının paytaxtı Konstantinopol şəhəri və Cənub-Şərqi Avropanın yağlı tikəsi osmanlı türklərinin əlində idi. Müsəlmanlarla xristianlar arasında səkkiz yüz illik mübarizədən sonra ərəbləri və səlcuqları şirnikdirən bu böyük qənimət osmanlılara qismət oldu. Bununla kifayətlənməyən osmanlı sultanları acgöz nəzərlərini Qərbə dikdilər. Romanın özünə belə qəsd etdilər. Onlar Almaniya (Müqəddəs Roma) imperiyasını və İtaliyanı təhlükə altına aldılar, Macarıstanı istila etdilər. Vyana divarlarınadək gəlib çatdılar, nəhayət, İtaliya sərhədlərində göründülər. Şərqdə Bağdadı, cənubda Misiri öz hakimiyyəti altında birləşdirdilər. XVI əsrin ortalarında böyük türk imperiyasını Əzəmətli Sultan adı verilmiş sultan Süleyman idarə edirdi. Onun donanması hətta dənizlərdə də hökmran idi.

Bəs bu dəyişiklik necə baş verdi? Necə oldu ki, Avropa monqol təhlükəsindən xilas oldu? Necə oldu ki, o, türk təhlükəsi qarşısında davam gətirə bildi? Həm də nəinki davam gətirdi, elə özü də dönüb təcavüzkar oldu və başqaları üçün təhlükəyə çevrildi?

Monqolların Avropanı təhlükə altına alması uzun sürmədi. Onlar yeni xan seçmək üçün özləri qayıdıb getdilər və bir daha geriyə dönmədilər. Qərbi Avropa onların Monqolustandakı doğma yurdlarından çox-çox uzaqlarda yerləşmişdi. Bəlkə də Qərbi Avropa onları çox cəlb etmirdi. Çünki o yerlər meşəylə örtülmüşdü; halbuki monqollar geniş, açıq düzənliyə və çöllüyə adət etmişdilər. Hər halda Qərbi Avropa özünün rəşadəti sayəsində deyil, monqolların biganəliyi, habelə başlarının başqa işlərə qarışması sayəsində onlardan xilas ola bilmişdi. Monqollar Şərqi Avropada bir qədər çox, yəni hakimiyyətləri tədricən zəifləyib dağılıncaya qədər qalmışdılar.

Mən əvvəllər sənə danışmışdım ki, 1453-cü ildə Konstantinopolun alınması Avropa tarixində dönüş nöqtəsi sayılır. Asan olmaq üçün orta əsri yeni dövrün ruhundan ayıran həmin tarixi Dirçəliş mərhələsi

adlandırırlar. Maraqlı burasıdır ki, məhz o dövrdə, yəni Avropanın başı üzərini türklərin təhlükəsi aldığı zaman və ilk baxışda onların qələbə qazanmaq ehtimalı olanda Avropa yenicə ayaq üstə qalxır və qüvvə toplayırdı. Türklər Avropada bir müddət irəlilədilər. Lakin onlar hücum etdikləri bir zamanda Avropa səyyahları yeni-yeni ölkələr və dənizlər kəşf edir, Yer kürəsinin ətrafına dolanmaqla dənizdə dünya səyahətini başa çatdırırdılar. 1520-1566-cı illərdə sultanlıq etmiş Əzəmətli Süleyman dövründə Türkiyə imperiyasının hüdudları genişlənmiş və bu imperiya Vyanadan tutmuş Bağdada və Qahirəyə qədər olan sahəni tutmuşdu. Amma bundan sonra türklər daha irəli getmədilər. Onlar yunan Konstantinopolunun qədim və zəifləyib çürüməkdə olan ənənələri qarşısında davam gətirə bilmədilər. Avropa öz qüvvələrini artırdıqca türklər əksinə, əvvəlki qüvvələrini itirib daha da zəifləyirdilər.

Ötən əsrləri gəzib-dolaşarkən Asiya tərəfindən Avropaya xeyli hərbi müdaxilə edildiyini gördük. Avropadan da Asiyaya bir neçə belə müdaxilə olub. Amma onların böyük əhəmiyyəti yoxdu. Makedoniyalı İsgəndərin Asiyadan keçərək Hindistana yürüş etməsi o qədər də böyük nəticələr verməmişdi. Romalılar heç vaxt Mesopotamiyadan uzaqlara getməmişdilər. Digər tərəfdən Avropa ən qədim dövrlərdən başlayaraq dəfələrlə Asiya qəbilələrinin hücumlarına məruz qalmışdı. Bu basqınlar içərisində osmanlıların Avropaya hərbi müdaxiləsi sonuncu idi. Lakin biz görürük ki, rollar tədricən dəyişir və hücuma keçmiş Avropa təcavüzkara çevrilir. Bu dəyişikliyin XVI əsrin ortalarında baş verdiyini deyə bilərik. Bu yaxınlarda yenidən kəşf olunmuş Amerika tezliklə Avropaya tabe olur. Asiyanın fəthi isə daha çətin məsələdir. İki yüz il ərzində avropalılar Asiya qitəsinin müxtəlif cəhətlərində dayaq məntəqələri axtarıblar və XVIII əsrin ortalarında Asiyanın bəzi vilayətlərində öz hökmranlıqlarını bərqərar ediblər. Bunları unutmaq olmaz. Çünki tarixi bilməyən bəzi adamlar belə düşünürlər ki, Avropa Asiyada həmişə ağalıq etmişdir. Sonralar görəcəyimiz kimi, Avropa özünün bu yeni rolunda lap bu yaxınlarda çıxış edir, səhnə isə artıq dəyişilir, rol da bu müddətdə köhnəlmiş olur. Şərq ölkələrini yeni-yeni ideyalar həyəcana gətirir, qüdrətli azadlıq hərəkatları bürüyür və Avropanın ağalığını sarsıdır. Bərabərlik haqqında yeni sosial ideyalar – imperializmin və istismarın hər cür təzahürlərinə son qoyacaq ideyalar həmin milli ideyalardan qat-qat geniş və dərindir. Gələcəkdə Asiyada Avropa ağalığı, yaxud Avropada Asiya ağalığı barədə, ya da ki, bir ölkənin digər ölkə tərəfindən istismar edilməsi barədə heç söhbət də ola bilməz.



Bu giriş çox uzandı. Gəl monqollara qayıdaq, onların taleyini bir qədər irəliyə doğru izləyək, görək başlarına nə işlər gəlib. Xubilay xanın sonuncu Böyük xan olduğu yəqin ki, yadındadır. 1292-ci ildə onun ölümündən sonra Asiyadan keçərək Koreyadan tutmuş Avropada Polşaya və Macarıstanadək yayılan böyük imperiya beş imperiyaya parçalandı. Onlardan hər biri özlüyündə doğrudan da çox böyükdü. Əvvəlki məktublarımdan birində mən bu beş imperiyanın adlarını çəkmişdim.

Əsas Çin imperiyası idi ki, bunun da tərkibinə Mancuriya, Monqolustan, Tibet, Koreya, Ənnam və Tonkin (Şimali və Mərkəzi Vyetnam) və Birmanın bir hissəsi daxildi. Bu imperiyanın varisləri Xubilayın nəsilləri – Yan sülaləsi oldu. Amma bu varislik çox uzun çəkmədi. Tezliklə imperiyanın cənubundakı hissələr ayrıldı və sənə əvvəllər söylədiyim kimi 1368-ci ildə, yəni Xubilayın ölümündən düz yetmiş altı il sonra onun sülaləsi süqut etdi və monqolları da ölkədən qovdular.

Uzaq qərbdə Qızıl Orda imperiyası yerləşirdi – gör bu xalq necə valehedici adlar daşıyırdı! Rus kübarları bu imperiyaya Xubilayın ölümündən təqribən iki yüz il sonra da bac-xərac verirdi. Həmin dövrün axırlarında (1480-ci ildə) imperiya bir qədər zəiflədiyinə görə rus kübarlarına başçılığı öz əlinə alan böyük Moskva knyazı xərac verməkdən boyun qaçırdı. O, knyaz Böyük İvan idi. Rusiyanın şimalında qədim Novqorod respublikası yerləşirdi. Burada hakimiyyət tacirlərin və sənətkarların əlində idi. İvan respublikanı məğlubiyyətə uğradıb öz knyazlığına birləşdirdi. Bu vaxt Konstantinopol türklər tərəfindən tutulmuş və qədim imperator sülaləsi ölkədən qovulmuşdu. İvan bu qədim imperator sülaləsindən bir qızla evlənmiş və buna əsasən özünün imperator sülaləsinə mənsub olduğuna və qədim Bizans varisliyinə iddiaya başlamışdı. Rusiya imperiyası (bu imperiyanın varlığına 1917-ci il inqilabları son qoymuşdu), beləliklə, Böyük İvan dövründə meydana gəlmişdi. Böyük İvanın öz qəddarlığı üzündən Qroznı ləqəbi almış nəvəsi çar tituluna yiyələndi, bu titul imperator, yaxud sezar adına bərabərdi.

Beləliklə, monqollar axır ki, Avropanı tərk etdilər. Qızıl Ordanın və ya Mərkəzi Asiyadakı başqa monqol imperiyaları qalıqlarının daha sonrakı taleyi barədə müfəssəl danışmağa ehtiyac yoxdur. Bir də ki, onların barəsində məlumatım çox deyil. Amma bir adam vardı ki, ona diqqət vermək lazımdır.

*Bu adam ikinci Çingiz xan olmaq istəyən Teymur idi.* İddia edirdi ki, onun nəsli Çingiz nəslindəndir. Amma əslində türk idi. Axsaq

olduğu üçün Teymurləng, Topal Teymur ləqəbi almışdı. O, atasının varisi idi və 1369-cu ildə Səmərqənd hakimi oldu. Tezliklə istilaçılıq və qəddarlıq yoluna qədəm qoymuşdu. Teymur böyük sərkərdə olsa da, tamam vəhşiydi. Orta Asiyadakı monqollar o vaxtlar üçün dönüb müsəlman olmuşdular. Teymur da müsəlman idi. Amma o, müsəlmanlarla münasibətdə olmasına baxmayaraq, onlarla davranışında əsla yumşaqlığa yol verməzdi. Qədəm qoyduğu hər yanda dağıntı, talan və göz yaşı qoyub gedərdi. Əsas əyləncəsi kəllələrdən nəhəng ehramlar ucaltmaq idi. Şərqdə Dehlidən başlamış və qərbdə Kiçik Asiyaya qədər onun əmriylə yüz minlərlə adamı qırıb kəllələrindən ehramlar qurmuşdular.

Çingiz xan və onun monqolları qəddarlıqla, yıxıb dağıtmaqla iş görsələr də, bu cəhətdən öz dövrlərində o biri adamlardan fərqlənmirdilər. Teymur onlardan qat-qat pisdi. O, zəmanəsinin bütün digər adamları arasında iblis əməlli və mənasız qəddarlığıyla seçilirdi. Belə söyləyirlər ki, bir dəfə o, iki min adamı diri-diri bir-birinin üstünə yığdırıb qüllə ucaltmış, sonra da onları əhəng məhlullu palçıqla hörülmüş kərpic divarın arasına doldurmuşdur.

Hindistanın sərvəti bu vəhşini yaman cəlb edirdi. Amma o, sərkərdələrinə və əyanlarına Hindistana yürüşə başlamağı təklif edəndə çətinliyə rast gəlmişdi. Səmərqənddə toplanmış böyük şurada əyanlar çox isti məmləkət olduğu üçün Hindistana hərbi yürüş əleyhinə olduqlarını bildiriblər. Axırda Teymur vəd edib ki, orada çox ləngiməyəcək. Hindistanı talan edib dağıdan kimi geri qayıdacaq. Teymur verdiyi sözə əməl etdi.

Yadındadırsa, o zaman Şimali Hindistan müsəlmanların hakimiyyəti altında idi. Sultanın iqamətgahı Dehlidəydi. Amma bu müsəlman dövləti zəif idi. Sərhəddə monqollarla ara verməyən müharibələr isə onun qüvvəsini lap sarsıtmışdı. Belə ki, monqol ordusu ilə Hindistana gələn Teymur ciddi müqavimətə rast gəlmədi və burada qırğın törədərək "ehramlar" arasında özünə əyləncə tapdı. Qabaqlarına kim çıxdı, hamısını kəsib-doğrayırdılar. Hindunu da, müsəlmanı da. Heç kimə, görünür, fərq qoymurdular. Əsirlər Teymura bir yük olduğundan əmr edirdi ki, onları öldürsünlər. Bu minvalla yüz min adam öldürüldü. Deyildiyinə görə, hindularla müsəlmanlar ölümə məhkum adamlar sifəti ilə çarpışma meydanına çıxaraq *racəputların*[1] *cauhar* mərasimini birgə ifa etmişdilər. Bu dəhşətli hekayətləri niyə təkrar edim ki? Ayağını qoyduğu hər yerdə

[1] Racəputlar – sanskritcə: knyaz nəslindən olan və ya müharibələr kastasına mənsub hindular (*tərcüməçinin qeydi*)



eyni hadisə baş verərdi. Teymur Dehlidə qaldığı on beş günün içində bu böyük şəhəri sallaqxanaya döndərdi. Səmərqəndə qayıdarkən yolüstü Kəşmiri çapıb-taladı.

Teymur vəhşi, qəsbkar olsa da ürəyindən Səmərqənddə və Orta Asiyanın başqa şəhərlərində yaraşıqlı imarətlər tikdirmək keçirdi. Bu səbəbdən o da özündən çox-çox əvvəl yaşamış Sultan Mahmud kimi Hindistanın sənətkarlarını, mahir ustalarını və inşaatçılarını yığıb özüylə apardı. Bu inşaatçıların və ustaların ən yaxşılarına öz yanında qulluq verdi. Qalanlarını təcrübə toplamaq üçün Qərbi Asiyanın əsas şəhərlərinə göndərdi. Memarlıqda yeni üslubun yaranmasının başlanğıcı belə qoyuldu.

Teymur çıxıb gedəndən sonra Dehli ölülər şəhərinə çevrilmişdi. Aclıq və epidemiya şəhərdə tüğyan eləyirdi. İki ay nə hakim oldu, nə təşkilat, nə də qayda-qanun. Şəhər sakinlərinin sayı dedikcə azalmışdı. Hətta Teymurun Dehlidə canişin təyin etdiyi şəxs də Multana çıxıb getmişdi.

Sonra Teymur İrandan və Mesopotamiyadan keçərək qərbə tərəf yol aldı və qarşısına nə çıxdısa hamısını dağıdıb viran qoydu. 1402-ci ildə Anqarada osmanlı türklərinin böyük ordusu ilə qarşılaşdı. Özünün parlaq sərkərdəlik məharəti sayəsində türkləri məğlubiyyətə uğratdı. Amma dənizin öhdəsindən gəlməyə gücü çatmadı və Bosfordan keçə bilmədi. Beləliklə də Avropa bu qəsbkarın əlindən xilas oldu.

Teymur üç il sonra, yəni 1405-ci ildə Çinə yürüş edərkən öldü. Az qala bütün Qərbi Asiyanı tutan böyük imperiyası da onunla birgə süqut etdi. Osmanlılar da, Misir də, Qızıl Orda da ona bac-xərac verirdilər. Teymurun qabiliyyəti şübhəsiz görkəmli sərkərdəlik məharəti ilə məhdudlaşırdı. Qarlı-boranlı Sibir çöllərində onun bir neçə hərbi səfəri doğrudan da heyrətamizdi. Amma Teymur əslində elə qəddar köçəri olaraq qalırdı. O, heç bir qayda-qanun yaratmamışdı və özündən sonra Çingizdən fərqli olaraq imperiyanı saxlamaq üçün qabiliyyətli adamlar qoyub getməmişdi. Buna görə Teymurun imperiyası özü ilə birgə məhv oldu; yalnız onun törətdiyi qırğın və viranəliklər haqda acı xatirə qaldı. Orta Asiya torpaqlarını ayaqlayıb keçən saysız-hesabsız macərapərəstlər və istilaçılar güruhundan dörd nəfəri – İsgəndəri və ya Makedoniyalı İsgəndəri, Sultan Mahmudu, Çingiz xanı və Teymuru hələ də xatırlayırlar.

Teymur osmanlı türklərini məğlub etməklə onların mövqeyini sarsıtmış oldu. Lakin onlar aldıqları zərbədən tez bir zamanda özlərinə

gəldilər və əlli ildən sonra bildiyimiz kimi Konstantinopolu zəbt etdilər (1453-cü ildə).

İndi biz gərək Orta Asiya ilə vidalaşaq. Orta Asiya mədəniyyət pillesiylə aşağı enir və zülmətə qərq olur. Burada elə bir hadisə baş vermir ki, diqqətimizi cəlb edə bilsin. Təkcə qədim mədəniyyətlər – insan əlilə dağıdılan mədəniyyətlər haqqında xatirə qalır. Təbiət Orta Asiya ilə sərt davranır, burada iqlim getdikcə daha quru və həyat üçün az yararlı olur.

Biz indi gərək monqollarla da vidalaşaq. Təkcə onların bir qolundan başqa. Monqolların bu qolu sonralar Hindistana gəlmiş, burada böyük və məşhur imperiya yaratmışdı. Amma Çingiz xanın və nəsillərinin imperiyası dağıldı, beləliklə də, monqollar öz xırda knyazlıqlarına və öz qəbilə adətlərinə qayıtdılar.

## HİNDİSTAN ÇƏTİN PROBLEMİN HƏLLİNƏ BAŞLAYIR

*12 iyul 1932-ci il*

Teymur haqqında, onun axıtdığı qanlar və insan başlarından tikdiyi ehramlar haqqında sənə yazmışdım. Bütün bunlar necə də dəhşətli və vəhşi görünür! Bizim mədəni əsrimizdə buna bənzər hal ola bilməz. Bununla belə, biz çox da arxayınlaşmamalıyıq. Hətta bizim zəmanəmizdə belə hadisələr baş verəcəyini və həqiqətən də baş verdiyini lap bu yaxınlarda gördük və eşitdik. Çingiz xanın və Teymurun bais olduqları insan tələfatı və var-dövlət itkisi nə qədər böyük olursa-olsun, bunlar 1914-1918-ci illərin Böyük müharibəsi gedişində üz verən dağıntılar müqabilində çox cılız görünür. Müasir həyatda baş verən dəhşətli hadisələr monqolların qəddarlığı ilə də tam rəqabətə girə bilər.

Bununla belə, Çingizin və ya Teymurun dövründən bəri yüzlərlə sahədə, şübhəsiz, tərəqqiyə çatmışıq. Həyat nəinki qat-qat mürəkkəbləşmiş, həm də hədsiz dərəcədə zənginləşmişdir. İnsan bir çox təbiət qüvvələrini kəşf və dərk edib onlardan istifadə etməyi öyrənmişdir. Əlbəttə, indi dünya daha mədəni olmuşdur. Bəs onda niyə biz müharibə vaxtı vəhşiyə dönürük? Ona görə ki, müharibənin özü mədəniyyətin inkarı deməkdir, ondan əl çəkmək deməkdir. Müharibə daha çox qüdrətli və daha dəhşətli silah ixtira etmək üçün mədəniləşmiş beyindən



istifadə etdiyinə görə mədəniyyəti müəyyən dərəcədə qəbul edir. Müharibəyə cəlb olunmuş adamların əksəriyyəti özlərini dəhşətli çılğınlıq dərəcəsinə çatdırır, mədəniyyətin onlara öyrətdiyinin çoxusunu unudur, həyat həqiqətini və sevincini unudur və neçə min il qabaq yaşamış əcdadına oxşamağa başlayır. Belə olan təqdirdə müharibənin nə vaxt aparılırsa-aparılsın, dönüb mənfur tamaşa olması məgər təəccüblüdürmü?

Başqa dünyadan olan və müharibə vaxtı bizə baş çəkən bir adam görəsən buna nə deyərdi? Təsəvvür elə ki, o bizi dinc dövrdə deyil, yalnız müharibə dövründə görür. Bizim haqqımızda ancaq müharibə baxımından fikir yürüdür və belə qənaətə gəlir ki, biz qəddar və rəhmsizik, arabir hünər göstərən və qurban verən vəhşilərik. Amma bir küll halında, qüsurlarımızı əvəz edəcək cəhətlərimiz azdır, bütün varlığımıza hakim kəsilən yeganə bir istək var ki, o da bir-birimizi qırıb-çatmaq istəyidir. Özgə aləmdən olan o adam bizi yanlış başa düşərdi və onun dünyamız barədə təsəvvürü təhrif edilmiş şəkildə olardı. Ona görə ki, bizi ancaq birtərəfli görərdi – ayrıca və çox da əlverişli olmayan bir vaxtda.

Eləcə də biz keçmiş haqqında ancaq müharibələr və qanlı qırğın baxımından fikir yürütməyə başlasaq, fikrimiz yanlış olar. Təəssüf ki, müharibələr və qanlı qırğın özünə həddindən artıq diqqət cəlb edən xüsusiyyətə malikdir. Adamların gündəlik həyatı çox cansıxıcıdır. Bu barədə tarixçi nə deyə bilər? Tarixçi müharibədən, ya da vuruşmadan yapışır və onu tarixdə ən mühüm bir hadisə kimi təsvir edir. Əlbəttə, biz müharibələri nə unuda, nə də saymaya bilərik, amma biz gərək müharibələrə onların əslində layiq olduğundan artıq əhəmiyyət verməyək. Biz indiki günlər haqda necə düşünürüksə, keçmiş haqda da gərək elə düşünək, o dövrün adamları barədə də özümüz haqda düşündüyümüz kimi düşünək. Belə olduqda o dövrün adamları barədə daha aydın təsəvvür yaranar və biz də dərk edərik ki, vaxtaşırı baş verən müharibələr yox, bu adamların gündəlik həyat tərzi və fikri əhəmiyyətli idi. Gərək sən bunu yadında saxlayasan. Çünki sənin tarix dərsliklərində cürbəcür müharibələrdən çox danışılır. Hətta mən də bu məktublarımda tez-tez müharibələrdən yazmağa uyuram. Bunun əsil səbəbi odur ki, keçmiş dövrün gündəlik həyatından yazmaq çətindir. Mən o dövrün həyatını kifayət qədər bilmirəm.

Bayaq gördük ki, Teymur Hindistanı ən böyük fəlakətə düçar edənlərdən biri olub. Ayağı dəyən hər yerdə nə qədər dəhşətli iz qoydu-

ğunu düşünəndə adamın tükləri ürpəşir. Amma burası da var ki, Cənubi Hindistana əl dəyməmişdi, eləcə də Şərqi, Qərbi və Mərkəzi Hindistana. Hətta indiki Birləşmiş əyalətlər belə Dehli və Mirut yaxınlığında olan şimaldakı kiçik bir sahə istisna edilməklə, əslində Teymurun basqınını görməmişdi. Dehlidən başqa Teymurun basqınından daha çox zərər çəkən əyalət Pəncab oldu. Pəncabda Teymurun yol boyunca keçdiyi yerlərə çox ziyan dəydi.

Pəncab əhalisinin əksəriyyəti yenə də öz gündəlik işi ilə məşğul idi. Deməli, biz gərək məsələyə ehtiyatla yanaşaq və bu müharibə və basqınların rolunu şişirtməyək.

Gəl indi XIV-XV əsrlər Hindistanına nəzər salaq. Dehli sultanlığı tədricən kiçilir və Teymurun gəlməsi ilə tamam yox olur. Bu zaman Hindistan ərazisində bir sıra iri və müstəqil, əsasən müsəlman dövlətləri vardı. Amma cənubda Vicayanaqar kimi qüdrətli bir hinduist dövlət də mövcuddur. İndi İslam yadelli və ya Hindistana bu yaxınlarda gəlmə deyildi. O, burada möhkəm kök salmışdı. Qədim əfqan fatehlərinin və padşah-qulların yırtıcılığı və qəddarlığı yeni hakimlərin mülayimliyi ilə əvəz olunmuşdu. Hindular hindli olduğu kimi, müsəlman padşahları da hindliydi. Hindistanın hüdudlarından kənarda əlaqələri yox idi. Müxtəlif dövlətlər arasında baş verən müharibələr dini xarakter yox, siyasi xarakter daşıyırdı. Hərdən müsəlman dövləti hindulardan qoşun toplayırdı, hinduist dövləti isə müsəlmanlardan. Müsəlman padşahları tez-tez hinduist məzhəbindən olan qadınlarla evlənirdilər. Hinduları isə müsəlman hakimlərinin yanında çox vaxt nazir və əyan görmək olardı. Bundan əlavə müsəlmanların əksəriyyəti, o cümlədən bəzi hakimlər İslam dinini qəbul etmiş hindlilərdi. Onların çoxu saray mərhəmətinə nail olmaq və ya maddi cəhətdən faydalanmaq ümidi ilə yeni məzhəb qəbul edirdi və yeni dinə keçməsinə baxmayaraq, öz qədim adətlərinə yenə sadiq qalırdı. Bəzi müsəlman hakimləri ona görə məcburi vasitələrə əl atırdılar ki, adamlara yeni məzhəb qəbul etdirsinlər. Məcburi vasitələrdən istifadə edərkən onlar siyasi məqsəd güdürdülər. Belə güman edilirdi ki, yeni din qəbul edənlər daha sadiq təbəə olurlar. Ancaq belə bir işdə zorla çox az şey əldə etmək mümkündür. İqtisadi tədbir daha təsirli vasitədir. Müsəlman olmayanları məcbur edirdilər ki, cizyə deyilən can vergisi versinlər. Buna görə çoxları bu vergidən yaxa qurtarsın deyə, İslam dininə keçirdi.

*Lakin həmin hadisələr şəhərlərdə baş verirdi. Bu işin kəndə az dəxli* olduğundan milyon-milyon kənd sakini öz əvvəlki həyatını davam etdirirdi. Doğrudur, hökmdar məmurları kənd işlərinə daha çox qarışmağa başlamışdılar. Kənd pançayatlarının hüquqları əvvəlkinə nisbətən azalmışdı, lakin pançayatlar yenə də kənd həyatının mərkəzi və əsası olaraq qalmaqda idilər. Sosial cəhətdən, eləcə də dini və adətlər cəhətindən kənd, demək olar, heç bir dəyişikliyə məruz qalmamışdı. Bildiyin kimi Hindistan hələ də yüz minlərlə kəndlər ölkəsidir. İri və xırda şəhərlər Hindistanda nisbətən azdır, əsl Hindistan isə kənd Hindistanı olmuş və olaraq qalmaqdadır. Məhz bu kənd Hindistanı islamın təsiri altında çox da *dəyişilməyib.*

İslamın gəlişiylə hinduizmin mövqeləri sarsıldı və bu nə qədər qəribə görünsə də bir-birinə zidd olan iki halda öz əksini tapdı. Bir tərəfdən hinduizm mühafizəkar oldu, donub qaldı, özünü qorumağa cəhd göstərərək bir kənara çəkildi. Kastalar öz çevikliyini itirdi və öz qınına çəkildi. Pərdə və qadınların dustaq həyat keçirməsi adi hal aldı. Digər tərəfdən, pucların və dini ayinlərin həddən artıq olmasına qarşı bir növ daxili qiyam qalxdı; bu puclar dini ayin barəsində islahata nail olmaq üçün böyük səy göstərdilər.

Əlbəttə, hinduizmdə ən erkən dövrlərdən başlayaraq tarix boyu dəfələrlə peyda olan islahatçılar bu dini sui istifadə hallarından və izafi şeylərdən təmizləməyə çalışmışlar. Bu islahatçılar arasında ən böyüyü Budda olub. VIII əsrdə yaşamış Şankaraçarye barəsində də sənə danışmışam. Ondan üç yüz il sonra, XI əsrdə, Hindistanın cənubundakı Çola imperiyasında başqa bir böyük islahatçı yaşayırdı. O, Şankara məktəbi ilə rəqabət aparan mütəfəkkirlər məktəbinə başçılıq edirdi. Adı Ramanuca idi. Şankara Şivai məzhəbin zəka əhli idi. Vişnuist məzhəbli Ramanuca din əhli idi. Ramanucanın nüfuzu Hindistanın hər yerinə yayılmışdı. Mən sənə demişdim ki, bütün tarix boyu Hindistan mədəni sahədə, hətta siyasi cəhətdən öz aralarında çarpışan çoxlu dövlətlərə parçalanmış olduqda belə, vahid qalmışdı. Bir böyük şəxs peyda olan kimi, ya da bir böyük hərəkət baş verən kimi onların təsiri siyasi sərhədlərə baxmadan Hindistanın hər yerinə yayılırdı.

İslam Hindistanda möhkəm kök salandan sonra istər hindular arasında, istərsə də müsəlmanlar arasında islahatçının yeni tipi peyda oldu. Belə islahatçılar hər iki dinin ümumi cəhətlərini qabarıq göstərməklə, mərasim və ayinlərə hücum edir, həmin dinləri bir-birinə yaxınlaşdırmağa çalışırdılar. Yəni hər iki dinin sintezinə nail olmağa, başqa sözlə desək, hər ikisinin bir-birilə əlaqələndirilməsinə səy göstərilirdi. Bu, çətin vəzifə idi. Ona görə ki, hər iki tərəf çoxlu qərəzçiliyə və xurafata

yol verirdi. Amma belə cəhdlərin əsrlərdən-əsrlərə necə davam etdirildiyini irəlidə görəcəyik. Hətta bəzi müsəlman hakimləri, xüsusən böyük Əkbər hər iki dinin əlaqələndirilməsinə çalışırdı.

XIV əsrdə Hindistanın cənubunda yaşamış Ramanand hər iki dinin əlaqələndirilməsini təbliğ edən ilk tanınmış xadim idi. Ramanandın moizələri onun rədd etdiyi kastalar əleyhinə yönəldilmişdi. Onun şagirdləri arasında Kəbir adlı bir müsəlman toxucusu var idi ki, sonralar müəllimindən də artıq şöhrət qazanmışdı. Kəbir çox məşhurlaşmışdı. Bəlkə xəbərin var, onun mahlıclarına şimalın ən ucqar kəndlərində belə indinin özündə də yaxşıca bələddirlər. O, nə hinduist idi, nə də müsəlman. Hər ikisindəndi. Buna görə də hər iki dinə etiqad edənlər arasında və bütün kastalar daxilində ardıcılları vardı. Belə söyləyirlər ki, o öləndə meyitini mələfəylə örtmüşlər. Onun hindu şagirdləri istəmişdilər ki, meyiti yandırsınlar, müsəlman şagirdləri isə istəmişdilər ki, dəfn etsinlər. Başlayıblar mübahisəyə, axırda da dalaşıblar. Mələfəni qaldıranda görüblər ki, meyit qeyb olub, yerində isə təzə çiçəklər var. Bu qətiyyən inandırıcı olmasa da şəksiz ki, gözəl rəvayətdir.

Kəbirdən sonra çox çəkmədən şimalda başqa bir böyük islahatçı və dini rəhbər peyda oldu. Bu adam siqhizmin banisi quru Nənək idi. Siqhilərə mənsub on nəfər quru ardıcıl surətdə onun varisi oldu ki, bunların da sonuncusu quru Hovind Siqh idi.

Mən bu yerdə Hindistanın dini və mədəni tarixində şöhrət tapmış başqa bir ad da çəkmək istərdim. Bu, Çaytaniyadır. XVI əsrin əvvəllərində yaşamış benqaliyalı alimdir. O, qəflətən belə qərara gəlmişdi ki, özünün elmi məşğələləri nalayiq bir işdir, buna görə də məzhəb yoluna üz çevirmişdi. O, böyük bhakt olmuş və bhayanlar oxuya-oxuya şagirdlərilə birlikdə Benqaliyanı gəzib-dolaşırdı. O, həmçinin Vişnuistlər cəmiyyətinin də əsasını qoymuşdu. Elə indi də Benqaliyanın hər yerində onun böyük təsirini görmək mümkündür.

Dini islahatlar və dinlərin sintezi məsələsi bu halda idi. Həyatın bütün başqa sahələrində də sintez baş verirdi, bəzən şüurlu, çox vaxt isə dərk edilmədən. Yeni mədəniyyət, yeni memarlıq, yeni dil inkişaf edirdi. Amma yadında saxla ki, bütün bu proseslər kəndlərdə olduğuna nisbətən şəhərlərdə, xüsusən imperiyanın paytaxtı Dehlidə, eləcə də dövlətlərin və əyalətlərin digər iri paytaxtlarında daha çox baş verirdi. Dövlətin başında dayanan hökmdar əvvəllərdə olduğundan daha çox mütləqiyyətə əsaslanırdı. Qədim hind hökmdarlarının hakimiyyəti adətlərlə və məclislərlə məhdudlaşırdı. Yeni müsəlman hakimləri isə bu adətləri belə gözləmirdilər. Hərçənd nəzəri cəhətdən islam daha çox bərabərliyə yol verirdi və gördüyümüz kimi, qul da sultan ola bilirdi. Bununla yanaşı, padşah hakimiyyətinin müstəbid və qeyri-məhdud xarakteri güclənmişdi. Buna ağılsız Tuqlakdan, paytaxtı Dehlidən Dövlətabada köçürən bu adamdan daha qəribə görünə biləcək ikinci bir şəxsi misal göstərmək olarmı!



Qul saxlamaq, xüsusən sultanların özünün qul saxlaması adəti də genişlənmişdi. Bu qullar arasında xüsusilə sənətkarlara yüksək qiymət verilirdi. Yerdə qalanlarını sultan qvardiyasına daxil edirdilər.

Bəs görən Nalanda və Takşaşila, başqa cür desək, Taksila kimi böyük darülfünunların işi nə yerdə idi? Bu darülfünunlar çoxdandı yox idilər. Amma yeni tipli bir çox digər darülfünun mərkəzləri yaranmışdı. Onlara tolalar deyirdilər: o darülfünunlarda qədim sanskrit dili tədris edilirdi. Həmin darülfünunlar öz dövründən geri qalmışdılar. Onlar sanki keçmişdə yaşayırdılar və ehtimal ki, irtica ruhunu yayırdılar. Bütün dövr ərzində belə ən iri mərkəzlərdən biri Benares olub.

Mən bayaq Kəbirin hindi dilindəki mahnılarından danışmışdım. Hindi dili XV əsrdə nəinki danışıq dili, həm də ədəbi dil idi, Sanskrit dili isə çoxdandı ki, canlı dil deyildi. Hətta Kalidasa və Quptalar sülaləsinə mənsub padşahlar dövründə belə sanskrit dilini ancaq alimlər bilirdilər. Adi adamlar sanskritin variantı olan prakrit dilində danışırdılar. Sanskrit dilinə qohum digər dillər də – hindi, benqal, marathi və qucarati dilləri tədricən inkişaf edirdi. Bir çox müsəlman yazıçıları və şairləri hindi dilində yazırdılar. XV əsrdə Caunpur adlı bir müsəlman hökmdarı əmr etmişdi ki, "Mahabharata"nı və "Bhaqavadqita"nı sanskrit dilindən benqal dilinə çevirsinlər. Cənubda Bicapurun müsəlman hakimlərinin haqq-hesabı marathi dilində aparılırdı. Beləliklə, görürük ki, XV əsrdə sanskritə qohum olan bu dillər xeyli dərəcədə təşəkkül tapmışdı. Cənubda draviddi dilləri – həm tamil, telequ, malayalam, həm də kannar dilləri, əlbəttə, onlardan qat-qat qədimdi.

Müsəlman saraylarında istifadə edilən dil fars diliydi. Savadlıların əksəriyyəti, əgər onlar saray adamlarıyla, yaxud hökumət idarələriylə iş görməliydilərsə, fars dilini öyrənirdi. Belə ki, bir çox hindlilər fars dilini öyrənmişdi. Yavaş-yavaş (hərbi) düşərgələrdə və bazalarda yeni dil inkişaf edirdi: bu dil "düşərgə" mənası verən "urdu" adlanırdı. Əslində bu, yeni dil deyildi. Başqa don geydirilmiş elə həmin hindi dili

idi: onda fars sözləri daha çox idi, qalan cəhətdən isə elə həmin hindi diliydi. Bu hindi-urdu dili və ya bəzən deyildiyi kimi hindustani dili Şimali və Mərkəzi Hindistanın hər yerində yayılmışdı. Bu dildə və onun dialektlərində indi təqribən yüz əlli milyon adam danışır. Bu dili başa düşənlərin sayı isə daha çoxdur. Beləliklə, danışanların miqdarı baxımından həmin dil əsas dünya dillərindən biridir.

Memarlıqda yeni üslublar yarandığına görə ölkənin cənubundakı Bicapurda və Vicayanaqarda, Qolkondda və o zaman iri və yaraşıqlı şəhər olan Əhmədabadda, habelə Allahabadın yaxınlığındakı Caunpurda bir çox qəşəng imarətlər ucalırdı. Heydərabadın yaxınlığında olan Qolkondun qədim xarabalıqlarına gedib tamaşa etməyimiz yadındadırmı? Biz iri qalanın üstünə qalxmışdıq. Aşağıya baxdıqda öz qəsrləri və bazarıyla birlikdə xarabalığa çevrilmiş qədim şəhərin ayaqlarımız altında səritdiyini görmüşdük.

Beləliklə, hökmdarlar bir-birlərini qırıb çatdığı bir vaxtda Hindistanın daxili qüvvələri ölkənin birləşməsi üzərində ona görə aramsız əlləşirdilər ki, hind xalqları birgə yaşasınlar, tərəqqi və həyat şəraitinin yaxşılaşması uğrunda mübarizədə öz səylərini birləşdirə bilsinlər. Yüz illər ərzində bu qüvvələr xeyli müvəffəqiyyətə nail oldular. Amma onlar hələ öz işlərini başa çatdırmamış təzədən tənəzzül baş verdi və bizi geriyə oturtdular. Elə bu gün də biz gərək həmin yolla irəliləyək və yaxşı adına nəyimiz varsa hamısının bir-birilə uyğunlaşması üçün əlləşək. Amma uyğunlaşma bu dəfə gərək daha möhkəm təmələ əsaslansın. Bu uyğunlaşma gərək azadlıq və sosial bərabərlik üzərində bərqərar olsun və ən yaxşı dünya qayda-qanunlarına müvafiq gəlsin. Ancaq belə olan surətdə bu uyğunlaşma sarsılmaz olar.

Dinin və mədəniyyətin sintezi problemi ilə neçə yüz illər boyu Hindistanın ən yaxşı zəka sahibləri məşğul olublar. Bu problem hər şeyi elə üstələmişdi ki, siyasət və sosial azadlıq məsələləri unudulmuşdu. Avropa məhz bu məqamda sürətlə irəli çıxdığı və onlarca müxtəlif istiqamətdə irəlilədiyi bir vaxtda Hindistan donub qalmış, geriləməyə başlayaraq inkişafdan dayanmışdı.

Əvvəlki məktublarımda yazmışdım: bir vaxt vardı ki, Hindistan kimya sahəsində (boyaq maddələrinin hazırlanmasında), poladın bərkidilməsində və bir çox başqa sahələrdə qazandığı uğurları sayəsində xarici bazarlarda üstün yer tuturdu. Gəmilər ölkənin malını uzaq-uzaq məmləkətlərə daşıyırdı. Amma indi bizim bəhs etdiyimiz dövrdə Hindistan bu üstünlüyünü itirmişdi. On altıncı yüzillikdə axın əks istiqamətdə, Şərqə doğru gedirdi. Bu, kiçik çaydan başlamışdı. Getdikcə genişlənib axan çay axırda güclü selə çevrilmişdi.



## CƏNUBİ HİNDİSTANIN PADŞAHLIQLARI

*14 iyul 1932-ci il*

Gəl Hindistana bir də nəzər salaq və görək dövlətlərin və imperiyaların mənzərəsi necə dəyişirdi. Bu mənzərə elə bir böyük və sonsuz kinofilmi andırır ki, orada bir səssiz səhnə digəriylə əvəz olunur.

Ağılsız sultan Tuqlak və onun məharətlə Dehli imperiyasını süquta uğratması, bəlkə yadındadır. Cənubda iri-iri əyalətlər ondan ayrıldı, yeni dövlətlər meydana gəldi. Bu dövlətlərdən ən başlıcaları Vicayanaqar hinduist dövləti və Qulbarqa müsəlman dövləti idi. Şərqdə Benqaliya və Biharın daxil olduğu Qaur əyaləti müsəlman hökmdarının hakimiyyəti altında müstəqillik qazandı.

Məhəmmədin qardaşı oğlu Firuz şah onun varisi (Dehli sultanlığında) oldu. O, əmisindən daha çox sağlamfikirli və insanpərvər bir şəxs idi. Amma bununla belə, başqa dinlərə dözmürdü. Firuz mahir hökmdar olduğundan bir sıra inzibati islahatlar keçirmişdi. O, cənubda və şərqdə əldən verilmiş əyalətləri geri qaytara bilmədisə də, imperiyanın dağılması prosesinin qarşısını ala bildi. Tez-tez şəhərlər, qəsrlər və məscidlər ucaltmağı, bağ-bağat salmağı çox xoşlardı. Dehli yaxınlığındakı Firuzabadın və Allahabaddan çox da uzaqda olmayan Caundurun təməlini o qoymuşdu. Camna çayı üzərindəki iri kanal da onun dövründə tikilmişdi, eləcə də az qala uçacaq bir çox köhnə binaları təmir etdirmişdi. O özünün bu işiylə çox fəxr edirdi. Tikdirdiyi və təmir etdirdiyi binaların uzun-uzadı siyahısı ölümündən sonra qalmışdı.

Firuz şahın anası iri tayfa başçısının qızı, nəslən raceputanlardan olan Bibi Nayla idi. Deyildiyinə görə, guya əvvəlcə onu Firuz şahın atasına ərə vermək istəməyiblər. Bunun üstündə müharibə başlayıb. Naylanın ölkəsi hücuma məruz qalıb, axırda da dağıdılmışdı. Onun üzündən xalqının necə bəlalara düçar olduğundan xəbər tutan Bibi Nayla qəm dəryasına qərq olmuş və qət etmişdi ki, Firuzun atasına ərə getməklə xalqının çəkdiyi əzab-əziyyətə son qoysun. Deməli, Firuz şahın damarlarında

racput qanı axırmış. Sonralar görəcəksən ki, müsəlman hakimiyyətilə racput qadınları arasındakı qarışıq nikah adi hal almış və bu, görünür, vahid millətə mənsubiyyət duyğusunun əmələ gəlməsinə səbəb olmuşdu.

Firuz şah otuz yeddi il hakimiyyət sürəndən sonra 1388-ci ildə vəfat elədi. Uzun müddət birliyini qoruyub saxladığı Dehli imperiyası bir anda ayrı-ayrı hissələrə bölündü. Mərkəzi hökumət daha mövcud deyildi. Hər yanda ağalıq edən xırda hökmdarlar idi. Məhz bu hərc-mərclik və zəiflik dövründə Firuz şahın ölümündən düz on il sonra şimaldan Teymur gəldi. O, demək olar ki, Dehlidə daşı daş üstdə qoymadı. Şəhərin bərpası işi çox ləng gedirdi və əlli ildən sonra sultan başda olmaqla yenidən mərkəzi hökumətin iqamətgahına çevrildi. Amma bu kiçik dövlət cənubda, qərbdə və şərqdəki iri padşahlıqlarla heç müqayisə də oluna bilməzdi. Sultanlıq edənlər əfqan idilər. Onlar çox dəyərsiz adamlardı. İş o yerə çatmışdı ki, onların əlindən cana doyan öz əfqan əyanları hiddətlənib bir yadelli dəvət etmişdilər ki, onlara hakimlik etsin. Bu yadelli monqol, yaxud moqol Babur idi. Monqollar Hindistanda yurd saldıqdan sonra onları biz belə adlandırırdıq. O, bilavasitə Teymurdan törəyən nəslə mənsubdu, anası isə Çingiz xanın nəslindən idi. O zaman Babur Kabil hökmdarı idi. Babur Hindistana gəlmək dəvətini sevinclə qəbul elədi. Ehtimal ki, o heç dəvət olunmadan da gələrdi. Babur 1526-cı ildə Dehli yaxınlığındakı Panipata düzənliyindəki vuruşmada qalib gələrək Hindistan imperiyasını ələ keçirdi. Hindistanda Moqollar imperiyası adıyla tanınmış böyük imperiya təzədən yarandı və Dehli də bu imperiyanın paytaxtına çevrilib yenidən ucaldı. Amma bu imperiya barədə söhbətdən qabaq gərək biz Hindistanın qalan hissəsinə nəzər salaq və Dehlinin süqutundan sonrakı yüz əlli ildə orada baş verən hadisələrlə tanış olaq.

Həmin dövrdə Hindistanda irili-xırdalı bir sıra dövlətlər mövcud idi. Bu yaxınlarda əsası qoyulmuş Caunpurda kiçik müsəlman dövləti vardı ki, onu da Şarki sülaləsindən olan hökmdarlar idarə edirdi. Bu, iri və qüvvətli dövlət deyildi, onun siyasi əhəmiyyəti də böyük deyildi. Amma XV əsrdə, təqribən yüz il müddətində o müsəlman dövləti mədəniyyət və başqa dinlərə dözmək mərkəzi olub, hakimlərindən biri isə *hinduizmlə müsəlmançılıq arasında uyğunluq yaratmağa cəhd edib* ki, o barədə sonuncu məktubumda sənə yazmışdım. Burada incəsənətə və memarlığa, eləcə də ölkənin hindi və benqali kimi inkişaf edən dillərinə rəvac verirdilər. Başqa dinlərə dözməmək dəryasında kiçik və azömürlü Caunpur dövləti savadlılıq, mədəniyyət və başqa dinlərə dözmək pənahgahı kimi fərqlənirdi.



Şərqdə, Allahabadın lap yaxınlığında yerləşən Qaur dövlətinə Bihar və Benqaliya daxil idi. Dəniz limanı olan Qaur şəhəri Hindistanın sahil şəhərlərilə dənizdən rabitə saxlayırdı. Allahabaddan qərbə doğru və az qala lap Qucaratadək Mərkəzi Hindistanda paytaxtı Mandu olan Malva dövləti yerləşirdi. Mandu həm şəhərdi, həm də qala. Orada bir çox yaraşıqlı və möhtəşəm imarətlər ucalırdı ki, elə indi də hər yerdən xarabalıqlarına tamaşa etməyə axışıb gəlirlər.

Malvadan şimal-şərqə doğru yerləşən Racəputanda – bir çox racəput dövlətlərinin mövcud olduğu bu yerdə Çitor dövləti xüsusilə fərqlənirdi. Çitor, Malva və Qucarat arasında tez-tez hərbi toqquşmalar baş verirdi. Bu iki qüdrətli dövlətlə müqayisədə Çitor iri dövlət deyildi. Amma racəputlar həmişə cəsur döyüşçülər olublar. Bəzən özlərinin sayca az olmasına baxmayaraq, onlar qalib gəlirdilər. Malva üzərindəki belə qələbələrin biri şərəfinə Çitor ranası (hakimi) Çitorda qələbə qülləsi – *Cayya Stambha* ucaltmışdı. Heç kəsin özündən üstün olmasını istəməyən Mandu sultanı şəhərdə ondan da hündür qüllə tikdirmişdi. Çitor qülləsi elə indi də durur. Mandu qülləsindən isə heç əsər-əlamət də qalmayıb.

Malvadan qərbə doğru yerləşən Qucaratda qüdrətli səltənət yaranmışdı. Onun bünövrəsi sultan Əhməd şah tərəfindən qoyulmuş paytaxtı Əhmədabad az qala bir milyon əhalisi olan iri şəhərə çevrildi. Şəhərdə yaraşıqlı imarətlər ucaldıldı. Deyildiyinə görə XV əsrdən XVIII əsrədək, yəni 300 il ərzində Əhmədabad dünyanın ən gözəl şəhərlərindən biri olmuşdu. Maraqlı burasıdır ki, həmin şəhərdəki böyük Came Məscidi Ranpurda Çitor hakiminin təxminən həmin məscidlə eyni bir vaxtda tikdirdiyi Cayna məbədini xatırladır. Bu, yeni ideyaların hind memarlarına necə təsir etdiyini və onların yeni memarlığı necə yaratdıqlarını göstərir. İncəsənət sahəsində sintez olduğunu burda yenə görürsən. Bu haqda sənə əvvəllər yazmışdım. Daş divarları oyma-oyma olan imarətlərin bir çoxu Əhmədabadda elə indi də qalmaqdadır. Amma bu imarətlərin yan-yörəsində boy atan sənaye şəhərini gözəllik əsərləri sırasına əsla aid etmək olmaz.

Təqribən elə bu vaxt portuqaliyalılar gəlib Hindistana çatmışdılar. Yadında olar, Vasko da Qama ilk adam idi ki, Ümid burnunu dolanıb keçmişdi. Səyyah Hindistanın cənubundakı Kalikutaya 1498-ci ildə gəlib çatmışdı. Əlbəttə, bu səyyahdan qabaq da Hindistana bir çox avropalı gəlmişdi, lakin onlar buraya tacir, ya da ki, adi səyyah sifətilə gəlirdilər. Portuqaliyalılar indi özgə niyyətlə gəlmişdilər. Çox lovğalanır və

özlərinə çox güvənirdilər. Axı, zarafat deyil, bütün Şərqi papadan hədiyyə almışdılar. Bu hədiyyəni əldə etmək niyyətilə də buraya gəlmişdilər. Əvvəlcə portuqaliyalıların sayı az idi. Lakin getdikcə onların gəmiləri daha çox gəlirdi. Nəticədə sahil şəhərlərinin bəzilərini tutdular. Portuqaliyalılar Qoada öz yerlərini lap bərkitdilər. Bununla belə, onlar Hindistanda əməlli-başlı müvəffəqiyyət qazanmadılar. Onlar ölkənin içərilərinə girə bilmədilər. Lakin onlar Hindistana dənizdən basqın edən ilk avropalılar idilər. Bir xeyli sonra Hindistana fransızlar və ingilislər gəldilər. Beləliklə, dəniz yollarının kəşfi Hindistanın dənizdə zəif olduğunu göstərdi. Cənubi Hindistanın köhnə dövlətləri tənəzzül etmişdilər. Onların diqqəti ölkənin daxili vilayətlərindən gözlənilən təhlükəyə yönəlmişdi.

Qucarat sultanları portuqaliyalılarla dənizdə də döyüşürdülər. Onlar osmanlı türklərilə ittifaq bağlayandan sonra Portuqaliya eskadrasını hətta məğlub da etdilər. Lakin sonralar portuqaliyalılar qalib gələrək dənizdə öz ağalıqlarını möhkəmlətdilər. Məhz bu vaxt Dehli Monqolları qarşısındakı qorxu Qucarat sultanlarını vadar etmişdi ki, portuqaliyalılarla sazişə gəlsinlər, lakin portuqaliyalılar onlara kələk gəlmişdilər.

XIV əsrin əvvəllərində Cənubi Hindistanda iki iri səltənət yaranmışdı: Qulbarqa (buna həmçinin Bəhməni səltənəti deyilir) və bundan cənuba doğru Vicayanaqar səltənəti. Bəhməni səltənəti bütün Maharaştranı və qismən Karnatakunu əhatə edirdi. Bəhməni səltənəti yüz əlli ildən artıq ömür sürsə də, onun tarixi bədnamdır. Padşahlıqda başqa dinlərə dözməmək, zorakılıq və qətl hökm sürürdü. Bir yandan sultanın və əyanların cah-calalı, o biri yandan xalqın hədsiz səfaləti. Bəhməni səltənəti öz hakimlərinin fərsizliyi üzündən XVI əsrin lap əvvəllərində məhv oldu. Səltənət beş sultanlığa ayrıldı: Bicapur, Əhmədnaqar, Qolkondu, Bidar və Berar. Bu dövrdə artıq Vicayanaqar dövləti az qala iki yüz il mövcud idi və tərəqqi etməkdəydi. Bu altı dövlət arasında tez-tez müharibə baş verirdi. Hər biri cənubda öz hökmranlığını bərqərar etməyə can atırdı. Onların arasında arabir dəyişən hər cür kombinasiyalar yaranırdı. Bəzən müsəlman dövləti hinduist dövlətilə vuruşurdu, bəzən də bir müsəlman dövləti hinduist dövləti ilə birləşib başqa bir müsəlman dövlətinə qarşı çarpışırdı. Bu müharibələr sırf siyasi məqsəd güdürdü. Bu dövlətlərdən biri həddən ziyadə güclənən kimi, o biriləri onun əleyhinə birləşirdi. Nəhayət, Vicayanaqar səltənətinin gücü, qüdrəti və sərvəti müsəlman dövlətlərini vadar etdi ki, ona qarşı birləşsinlər.



Nəticədə 1565-ci ildə Talikota vuruşmasında müsəlman dövlətləri Vicayanaqar imperiyasını tamam məhv etdilər. Yaranmasından iki yüz əlli il keçəndən sonra Vicayanaqar imperiyasının ömrünə nəhayət verildi və bu iri, möhtəşəm şəhər yerlə-yeksan edildi.

Qalib gəlmiş müttəfiqlərin araları dəydi və onlar bir-birilə mübarizəyə başladılar. Aradan lap az vaxt keçdi və Dehlinin Monqollar imperiyasının qorxusu bir qara buludtək onların hamısının başının üstünü aldı. Onları təhdid edən başqa bir təhlükə 1510-cu ildə Qoanı zəbt edən portuqaliyalılar tərəfindən gözlənirdi. Şəhər Bicapur dövlətində yerləşirdi. Portuqaliyalıları şəhərdən çıxarmaq üçün göstərilən bütün səylərə baxmayaraq Qoa düşmən əlində qalırdı. Onların komandiri – Şərqin vitse-kralı kimi yüksək rütbə daşıyan Albukerke şəhər camaatı ilə vəhşicəsinə, qəddarlıqla rəftar edirdi. Portuqaliyalılar hətta qadınlara və uşaqlara belə rəhm etmədən adamları qırıb-çatırdılar. O vaxtdan bəri ta bizim günlərədək portuqaliyalılar Qoa şəhərini əllərində möhkəm saxlayıblar.

Bu cənub dövlətlərində, xüsusən Vicayanaqarda, Qolkondada, Bicapurda yaraşıqlı binalar tikilirdi. Artıq Qolkonda xarabalığa çevrilib, Bicapurda isə bu yaraşıqlı binaların bir çoxu hələ indiyədək qalıb. Vicayanaqar yerlə-yeksan edilib və daha mövcud deyil. Təqribən elə bu vaxt Qolkondanın yaxınlığında Heydərabad şəhəri salındı. Deyildiyinə görə, cənubun inşaatçıları və sənətkarları sonralar şimala gedib Aqra şəhərində Tac-Mahalın tikintisinə kömək göstəriblər.

Müxtəlif din tərəfdarları bir-birinə münasibətində başqa dinlərə ümumən dözsələr də, ara-sıra kor-koranə fanatizm baş qaldırır və başqa dinlərə dözməmək halları üz verirdi. Bu qanlı müharibələr böyük dağıntılarla nəticələnirdi. Buna baxmayaraq, belə bir cəhəti qeyd etmək maraqlı olar ki, Bicapur müsəlman dövlətinin hindulardan ibarət süvarilər dəstəsi var idi. Vicayanaqar hinduist dövlətinin xidmətində isə bir qədər müsəlman qoşunu vardı. Görünür, mədəniyyətin səviyyəsi çox yüksək idi, amma bu mədəniyyətdən bəhrələnənlər ancaq varlılardı, tarlalarda zəhmət çəkən adamlar isə bu nemətdən məhrum idi. Zəhmət adamı kasıb olsa da, həmişə olduğu kimi varlılar naz-nemət içərisində yaşasın deyə, ağır yükü öz çiynində daşıyan məhz o idi.

## VİCAYANAQAR

*15 iyul 1932-ci il*

Sonuncu məktubda bəhs etdiyimiz bütün cənub səltənətlərindən ən uzun tarixə malik olanı Vicayanaqar səltənətidir. Hadisələrin gedişi nəticəsində buraya gələn çoxlu əcnəbinin həmin dövlət və şəhər haqqında yazılı təəssüratları qalıb. Onların arasında buraya 1420-ci ildə gəlmiş italyan Nikkolo Konti də var idi. Buraya habelə 1443-cü ildə Orta Asiyadakı Böyük xanın adından Heratlı Əbdürrəzzaq, eləcə də 1522-ci ildə şəhərə gəlmiş portuqaliyalı Payeş və bir çox başqaları da vardı. Hindistan tarixində də Cənubi Hindistan dövlətləri və xüsusən Bicapur təsvir edilir. Bu tarixi Əkbərin padşahlığı dövründə fars dilində bayaq nəzərdən keçirdiyimiz dövrdən az sonra Firişta qələmə alıb. Müasirlərin qələmə aldığı tarix çox vaxt qərəzli olur və onda həddindən çox mübaliğəyə yol verilir. Amma onların faydası çoxdur. İslam dinindən əvvəlki dövrə aid belə tarixi əsərlər Kəşmir haqqındakı "Rəcatarəngini" istisna edilməklə demək olar ki, bizə məlum deyil. Deməli, Firiştanın yazdığı tarix mühüm bir yenilik idi. Bunun ardınca o biri tarix əsərləri də qələmə alınmışdı.

Vicayanaqarda olmuş əcnəbilərin yazılı xatirələri bu şəhər haqqında bizdə qərəzsiz və gözəl təsəvvür yaradır. Tez-tez baş verən mənfur müharibələr barədəki bütün hesabatlardan daha çox məhz bu təsvirlər məlumat verir. Buna görə də mən sənə həmin adamların verdikləri bəzi məlumatlar haqqında söhbət açacağam.

Vicayanaqarın əsası 1336-cı ildə qoyulmuşdu. O, Cənubi Hindistanın Karnataka adı ilə tanınmış bir guşəsində yerləşirdi. Vicayanaqar hinduist dövləti olduğu üçün Hindistanın cənubundakı müsəlman dövlətlərindən gələn saysız-hesabsız qaçqınları təbii olaraq cəlb edirdi. Vicayanaqar sürətlə böyüyürdü. Bir neçə il sonra bu dövlət artıq cənubda hökmranlıq edirdi. Paytaxtı isə özünün sərvəti və gözəlliyi ilə diqqəti cəlb edirdi. Vicayanaqar Dekanda hakimiyyət sürən bir dövlətə çevrildi.

Firişta Vicayanaqarın sərvətindən söhbət açır və onun 1406-cı ildəki paytaxtını, yəni Bəhməni sülaləsindən olan müsəlman padşahının Vicayanaqarlı şahzadə xanımla nikah bağlamaq üçün Qulbargidən ora gəldiyi vaxtın paytaxtını təsvir edir. Firiştanın dediyinə görə, altı mil boyu bütün yol zərxara ilə, məxmərlə və digər bahalı parçalarla başdan-başa döşənmişdi. Gör necə dəhşətli və biabırçı israfçılıqdı!



1420-ci ildə italyan Nikkolo Konti buraya gəldi. O deyir ki, şəhərin dairəsi altmış milə çatır. Şəhərin hüdudları daxilində xeyli bağ olduğundan sahəsi belə böyükdü. Kontinin fikrincə, Vicayanaqar hökmdarı və ya o vaxt deyildiyi kimi, rayası o dövrün Hindistanında ən qüdrətli hakim idi.

Sonra Orta Asiyadan Əbdürrəzzaq buraya gəlmişdi. O, Vicayanaqara gələrkən yolüstü Manqalura yaxınlığında bütünlüklə tökmə misdən ucaldılmış möhtəşəm bir məbəd görmüşdü. Məbəd 15 fut hündürlüyündə idi. Bünövrəsinin sahəsi isə 30x30 fut bərabərindəydi. Əbdürrəzzaq yoluna davam edib Belura çatarkən başqa bir məbədi gördükdə lap mat qalmışdı. O, məbədi heç təsvir etmək istəmir, çünki qorxur ki, birdən onu "mübaliğədə təqsirləndirərlər". Sonra o Vicayanaqara gəlib çıxır və şəhərin görkəmindən vəcdə gəlib deyir: "Bu, yer üzündə elə bir şəhərdir ki, onun tayı-bərabəri olduğunu nə göz görüb, nə qulaq eşidib". Əbdürrəzzaq saysız-hesabsız bazarları belə təsvir edir: "Hər bazarın girəcəyində möhtəşəm tağlar və yaraşıqlı şüşəbənd görünür, amma padşahın sarayı bunlardan da ehtişamlıdır... Çox geniş və uzun bazarları var. Bu şəhərdə ürəyin istəyən vaxt təzə, ətirli çiçək ala bilərsən. Şəhər əhli gülsüz-çiçəksiz keçinə bilmir. Hər sexin sənətkar emalatxanaları ayrıca cərgədə düzülüb. Zərgərlər özlərinin yaqut və mirvarisini, almaz və zümrüdünü elə burada, bazarda satır". Əbdürrəzzaq təsvirinə davam edərək yazır ki, "padşah sarayının olduğu bu füsunkar məkanda cilalanmış hamar daşdan yonulmuş arxlarda sular çağlayır..." Ölkənin əhalisi o qədər sıxdır ki, onu qısaca təsvir etmək çətindir. XV əsrin ortalarında Orta Asiyadan şəhərə gəlmiş bu səyyah Vicayanaqarın gözəlliyini hərarətlə və dönə-dönə vəsf edir.

Adam belə güman edə bilər ki, Əbdürrəzzaq iri şəhərlər görmədiyindən Vicayanaqarı görər-görməz mat qalıb. Lakin bizim sonrakı qonağımız gününü səyahətdə keçirmiş bir adamdı. Bu, portuqaliyalı Payeş idi; O, Vicayanaqara 1522-ci ildə, yəni İtaliyada İntibah dövrünün hökm sürdüyü və italyan şəhərlərində gözəl binaların ucaldığı bir vaxtda gəlmişdi. Görünür, Payeş bu italyan şəhərlərinə bələddi, buna görə də onun dedikləri xüsusilə qiymətlidir. O deyir ki, Vicayanaqar şəhəri

"Roma qədər əzəmətlidir, görkəmi də gözəldir". O, şəhərin möcüzələrini, saya gəlməyən göllərini, gur şəlalələrinin və meyvəli bağlarının füsunkarlığını müfəssəl təsvir edir. O deyir: "Bura dünyanın ən zəngin şəhəridir, çünki onun vəziyyəti tez-tez qıtlıq çəkən şəhərlərə oxşamır, burda nə desən var". Onun sarayda gördüyü otaqlardan biri xalis fil sümüyündəndi: istər otağın özü və boyaboy divarları, istərsə də köndələn tirləri saxlayan sütunlar xalis fil sümüyündən qızılgüllə işlənmiş və lotos çiçəyi ilə bəzədilmişdi. Həm də bütün bunlar elə nəfis, elə gözəl işlənmişdi ki, beləsini heç yanda tapmaq olmazdı.

Payeş sarayda olarkən Vicayanaqar hökmdarını da təsvir edir. Bu şəxs Cənubi Hindistanın bütün tarixi boyu ən böyük hökmdarlarından biri olub. Düşmənlə cəngavərcəsinə rəftar edən bir böyük döyüşçü və bir insan kimi, bir ədəbiyyat hamisi, tanınmış və səxavətli padşah kimi onun şöhrəti cənubda indi də yaşamaqdadır. Hökmdarın adı Krişnadevaraya idi. O, 20 il – 1509-cu ildən 1529-cu ilədək padşahlıq edib. Payeş onun boyu, bədən quruluşu haqqında, hətta dərisinin rəngi (dediyinə görə açıq rəngli idi) haqqında bizə məlumat verir. O, hamıda özünə qarşı rəğbət hissi doğurur. Ümumiyyətlə, son dərəcə saf və qürursuz padşahdır: xoştəbiətlidir, deyib-gülməkdən xoşu gəlir, əcnəbilərə ehtiram göstərməyə çalışır, sarayına gələn əcnəbiləri tutduqları vəzifədən asılı olmayaraq lütfkarlıqla qəbul edir, onlardan hal-əhval tutur. Padşahın saysız-hesabsız titullarını sadalayandan sonra Payeş bu sözləri əlavə edir: "O, hər cəhətdən o qədər gözəl və qürursuzdur ki, həmin vəzifədə olan adamlar üçün səciyyəvi olan sifətlər, elə bil onda heç yoxdur".

Doğrudan da yüksək tərifdir! O zaman Vicayanaqar imperiyası bütün cənub və şərq sahilini əhatə edirdi. Maysur, Travankur və indiki Mədrəs prezidentliyinin bütün ərazisi imperiyaya daxil idi.

Bir məsələni də xatırlatmaq olar. Şəhərə içməli su kəməri çəkmək üçün təqribən 1400-cü ildə iri suvarma qurğuları tikilmişdi. Çayın qarşısını bəndlə kəsib iri su anbarı ucaltmışdılar. Buradan su şəhərə 15 mil uzunluğunda olan və bir çox yerdə sərt qayalıqdan keçən akveduk vasitəsilə gətirilirdi.

Vicayanaqar bax belə şəhərdi! Özünün sərvəti və gözəlliyi ilə fəxr edən bu şəhər öz gücünə çox güvənirdi. Heç kəs ağlına belə gətirmirdi ki, şəhərin və imperiyanın sonuna az qalıb. Payeşin Vicayanaqara gəlişinin üstündən cəmi qırx üç il keçmişdi ki, üfüqdə qəflətən təhlükə



göründü. Dekanın Vicayanaqara həsəd aparan o biri dövlətləri Vicayanaqarı məhv etmək qərarına gələrək ona qarşı ittifaq bağlamışdılar. Belə təhlükə qarşısında ola-ola Vicayanaqar yenə də ehtiyatsızcasına özünə çox arxayındı. Tezliklə şəhərin dəhşətli sonu gəlib çatdı.

Necə ki, sənə söyləmişdim, Vicayanaqar 1565-ci ildə dövlətlərin bu ittifaqı qarşısında məğlubiyyətə uğradı. Dəhşətli qırğın oldu, sonra da böyük şəhəri çapıb-talan etdilər. Yaraşıqlı imarətlərin, məbədlərin və sarayların hamısı dağıdıldı. Zərif heykəllər və daş üzərində oyma təsvirlər çilik-çilik edildi. Yana bilən nə varsa, hamısını yandırmaq üçün iri tonqallar qalandı. Hər şeyi qırıb dağıtdılar, onlardan təkcə yığın-yığın xarabalıq qaldı. İngilis tarixçisi belə yazmışdı: "Dünya heç bir vaxt belə dağıntı görməyib, həm də belə möhtəşəm bir şəhərin birdən-birə dağılmasının şahidi olmayıb. Bircə gün qabaq bu qədər varlı, əməksevər əhalisi olan, məhsuldar və çiçəklənən bir diyar ertəsi gün elə keçirilib talan edildi və təsvirəgəlməz vəhşiliklər və qırğın nəticəsində xarabalığa çevrildi".

## MALAY ALƏMİNİN İMPERİYALARI – MACAPAHİT VƏ MALAKKA

*17 iyul 1932-ci il*

Biz Malayziyanı və şərq adalarını lap unutduq, onların barəsində çoxdandı ki, sənə yazmırdım. Yazdıqlarımı nəzərdən keçirərkən görürəm ki, axırıncı dəfə onlardan qırx altıncı məktubumda söhbət açmışam. O vaxtdan bəri otuz bir məktub da yollamışam, indi də yetmiş səkkizinci məktubumu yazıram. Bütün ölkələri eyni vaxtda diqqət mərkəzində saxlamaq çətindir.

Düz iki ay əvvəl sənə yazdıqlarımdan yadında qalanı varmı? Kamboca və Anqkor barədə, Sumatra və Şrivicayya barədə; Hind-Çində neçə-neçə yüzilliklər ərzində qədim hind koloniyalarının inkişaf edəedə vahid dövlət – Kamboca imperiyası halında birləşməsi yadındadırmı? Sonra təbiət müdaxilə etdi, şəhərin və imperiyanın varlığına birdən-birə aman vermədən son qoydu. Bu hadisə təqribən 1300-cü ildə olub.

Dənizin o tayındakı sahildə, Sumatra adasında olan digər iri dövlət Kamboca dövlətinin demək olar, müasiri idi. Amma bu Şrivicayya imperiyası bir qədər gec yaranmışdı, ömrü də Kambocadan uzun olmuşdu. Onun da aqibəti birdən-birə gəlib çatdı. Amma bu dəfə buna təbiət yox, insan bais oldu. Buddist Şrivicayya imperiyası bütün şərq adaları üzərində ağalıq edə-edə çiçəklənmiş və hətta bir müddət Hindistanda, Seylonda və Çindəki dayaq məntəqələrinə də yiyələnmişdi. Bu, ticarət imperiyası idi və başlıca fəaliyyəti də ticarət etməkdi. Amma sonralar onun yaxınlığında Yava adasının şərq hissəsində, başqa bir ticarət dövləti yarandı. Hinduist dövləti olan bu dövlət Şrivicayyaya tabe olmaqdan imtina etdi.

Şrivicayyanın artmaqda olan qüdrəti IX əsrin əvvəllərindən başlayaraq düz dörd il ərzində bu Şərqi Yava dövlətini təhlükə altında saxladı. Amma bu dövlət nəinki öz istiqlaliyyətini müvəffəqiyyətlə qoruyub saxladı, hətta çoxlu daş məbədlər də tikdirə bildi. Həmin məbədlər içərisində ən əzəmətlisi Borobudur adıyla tanınmış məbəddir ki, onu indi də görmək olar. O məbədi çox adam ziyarət edir. Öz üzərində Şrivicayyanın ağalığından çəkinərək Şərqi Yava özü dönüb təcavüzkar oldu və köhnə rəqibi üçün təhlükəyə çevrildi. Hər ikisi ticarət dövləti olduğundan gəmilər ticarət məqsədilə dəryaları yarardı. Bu səbəbdən onların arasında tez-tez toqquşma baş verirdi.

Yava ilə Sumatranın bu rəqabətini indiki dövlətlər arasındakı rəqabətlə, məsələn, Almaniya ilə İngiltərə arasındakı rəqabətlə istər-istəməz müqayisə etmək istəyirəm. Şrivicayyanın qarşısını almaq və ticarətə rəvac vermək üçün – dənizdə öz qüdrətini artırmağın yeganə vasitə olduğunu anlayan Yava özünün dəniz qüvvələrini xeyli gücləndirdi. İri eskadralar dənizə çıxsa da bəzən düşmənlə heç illərlə döyüşə girmirdi. Beləliklə, Yava güclənir və getdikcə daha çox təcavüzkara çevrilirdi. XIII əsrin sonlarında Macapahit adlanan şəhərin əsası qoyuldu və o inkişaf edən Yava dövlətinin paytaxtına çevrildi.

Bu dövlət o qədər lovğa və təkəbbürlü olmuşdu ki, hətta Xubilayın, Böyük xanın xərac almağa gələn səfirlərini də təhqir etmişdi. Nəinki xərac ödənilmədi, hətta səfirlərdən birinin döşünə təhqiramiz cavab bildirən yazı damğası basıldı! Bu, monqol xanı barəsində çox səfeh və qorxulu bir oyun idi. Belə bir təhqir Orta Asiyanın Çingiz tərəfindən dümdüz səhraya çevrilməsi, daha sonralar isə Hülaku tərəfindən Bağ-



dadın dağıdılması ilə nəticələndi. Buna baxmayaraq, Yavadakı xırdaca bir ada dövləti belə bir təhqirə cürət etdi. Lakin bu dövlətin bəxtindən monqollar o vaxt xeyli sakitləşmişdilər və artıq istilalara can atmırdılar. Dəniz müharibəsi də onları açmırdı, çünki onlar özlərini quruda daha arxayın hiss edirdilər. Bununla belə Xubilay Yavaya ekspedisiya yollamışdı ki, təqsirkar hakimi cəzalandırsın. Nəticədə çinlilər yavalıları məğlubiyyətə uğratdılar və onların hökmdarlarını öldürdülər. Amma görünür, onlar çox da böyük dağıntıya yol verməmişdilər. Monqollar Çinin təsiri altında gör bir necə dəyişilmişdilər!

Nəticə etibarilə Çin ekspedisiyası hətta Yavanın və ya Macapahit imperiyasının (bundan sonra biz Yavanı Macapahit adlandıracağıq) – güclənməsinə bais olmuşdu. Bunun səbəbi o idi ki, çinlilər Yavaya özləriylə odlu silah gətirmişdilər. Ehtimal ki, sonrakı müharibələrdə Macapahitin qələbəsinin səbəbi də məhz bu odlu silahın işlədilməsi idi.

Macapahit imperiyası genişlənməkdə idi. Onun hərəkəti təsadüfi və ya nizamsız xarakter daşımırdı. Bu, dövlətin təşkil etdiyi yaxşı hazırlıq görmüş ordu və donanmanın köməyi ilə həyata keçirilən imperialist təcavüzü idi. Həmin dövrün müəyyən mərhələsində hakimlik edən Suxita adlı qadın hökmdardı. Onun padşahlığı yüksək dərəcədə mərkəzləşmişdi və səmərəli idi. Qərb tarixçiləri qeyd edirlər ki, vergi, gömrükxana, yol rüsumu, yerli vergi toplanışı sistemi əla idi. Hökumət idarələri sırasında müstəmləkə, ticarət, ictimai rifah və səhiyyə, daxili işlər idarəsi, habelə hərbi idarə kimi ayrıca idarələr də vardı. Tərkibinə məmurlar sırasından iki sədr və yeddi hakim daxil olan Ali məhkəmə mövcud idi. Brahman kahinlərinin əlində xeyli hakimiyyət olsa da, belə hesab edilirdi ki, onlara nəzarət edən padşahdır.

Bu idarələr və hətta onların bəzi adları bizə müəyyən dərəcədə "Arthaşastra"nı xatırladır. Amma müstəmləkə idarəsi bir yenilik idi. Daxili işlər idarəsini, yəni dövlətin daxili işlərini idarə edən nazir mantri adlanırdı. Bu onu göstərir ki, Cənubi Hindistandakı Pallavlar dövlətinin kolonistləri tərəfindən ilk məskənlərin əsası qoyulandan bəri hind ənənəsi və mədəniyyəti 1200 il həmin adalarda saxlanmışdı. Ancaq bu o şərtlə mümkün ola bilərdi ki, dövlətlər arasında əlaqə davam etdirilsin. Buna şübhə ola bilməz ki, belə əlaqələr ticarət vasitəsilə həyata keçirilirdi.

Bir halda ki, Macapahit ticarət imperiyası idi, onda təbiidir ki, ixracat və idxalat ticarəti, yəni xaricə göndərilən mal alveri və digər

ölkələrdən alınan müvafiq mal ticarəti mükəmməl təşkil edilmişdi. Əsasən Hindistanla, Çinlə və öz müstəmləkələrilə ticarət aparılırdı. Macapahit Şrivicayya imperiyası ilə müharibə vəziyyətində olduğundan nə onunla, nə də onun müstəmləkələri ilə dinc ticarət etmək imkanı yoxdu.

Yava dövləti bir neçə yüz il ömür sürsə də, Macapahit imperiyasının əzəmətli dövrü vur-tut qırx beş il, yəni 1335-ci ildən 1380-ci ilə qədər davam etdi. Məhz bu dövrdə, 1377-ci ildə Şrivicayya nəhayət, ələ keçirilib dağıdıldı. Ənnamla (Mərkəzi Vyetnamla), Siamla və Kamboca ilə müttəfiqlik münasibətləri mövcud idi. Macapahitin paytaxtı qəşəng və çiçəklənən bir şəhərdi. Burada, şəhərin mərkəzi hissəsində nəhəng Şiva məbədi vardı. Paytaxtda bir çox möhtəşəm imarətlər mövcuddu. Yavada bir sıra digər iri şəhərlər və xeyli liman da vardı.

Bu imperialist dövləti özünün köhnə düşməni olan Şrivicayyadan sonra çox da uzun ömür sürmədi. Vətəndaş müharibəsi başlandı, Çinlə münasibətlər mürəkkəbləşdi. Bunun nəticəsində də Yavaya böyük bir Çin eskadrası gəldi. Müstəmləkələr tədricən ayrılırdı. 1426-cı ildə dəhşətli aclıq oldu, iki ildən sonra isə Macapahitdə daha imperiya əlaməti qalmamışdı. Bununla belə o, müstəqil bir dövlət kimi hələ əlli il də, ta müsəlman dövləti olan Malakka tərəfindən ələ keçirilənə qədər yaşadı. Beləliklə də, üçüncü imperiya – Malay aləmində qədim hind məskənlərindən yaranan imperiya öz varlığına son qoydu. Qısaca məktublarımızda biz uzun dövrləri nəzərdən keçiririk. İlk kolonistlər Hindistandan buraya təqribən eramızın əvvəllərində gəliblər, biz isə indi XV əsrə gəlib çatmışıq. Beləliklə, biz bu məskənlərin min dörd yüz il ərzindəki tarixinin icmalını verdik. Nəzərdən keçirdiyimiz üç imperiyanın hər biri – Kamboca, Şrivicayya və Macapahit yüz illərlə ömür sürüb. Həmin dövrlərin davam etməsi müddətini yadda saxlamaq lazımdır. Çünki bu, həmin dövlətlərin möhkəmliyi və yaxşı təşkil olunması haqqında müəyyən təsəvvür yaradır. Onlar memarlığa güclü həvəs göstərirdilər. Ticarət isə onların əsas işi idi. Onlar Hindistanın mədəni ənənəsini davam etdirərək onu Çin mədəniyyətinin ünsürlərilə uyğunlaşdırırdılar. Ayrıca xatırlatdığım üç məskəndən başqa bir çox digər hind məskənlərinin mövcud olduğu yəqin ki, yadındadır. Amma onların hər birini ayrıca nəzərdən keçirə bilmərəm. Qonşu ölkələr barədə – Birma və Siam barədə də müfəssəl danışa bilmərəm. Həmin ölkələrdə qüdrətli dövlətlər təşəkkül tapmışdı və bədii yaradıcılıq tərəqqi edirdi. Hər iki



ölkədə buddizm yayılmışdı. Birma bir dəfə monqolların hücumuna məruz qalmışdı, Siam isə Çin tərəfindən əsla müdaxilə görməmişdi. Bununla belə, hər iki ölkə – istər Birma, istərsə də Siam Çinə tez-tez xərac verirdi. Bu, hörmətcil kiçik qardaşın böyük qardaşa verdiyi bəxşiş kimi bir şeydi. Bunun müqabilində kiçik qardaşa Çindən zəngin hədiyyələr gəlirdi.

Monqolların Birmaya müdaxiləsindən əvvəl Şimali Birmadakı Paqan şəhəri ölkənin paytaxtı idi. Bu şəhər iki yüz ildən çox paytaxt olaraq qalmışdı; deyildiyinə görə, həmin şəhər çox yaraşıqlı imiş və onunla ancaq Anqkor rəqabətə girə bilərdi. Ən gözəl bina Budda memarlığının ən möhtəşəm nümunələrindən biri – Anand məbədi olub. Bir çox digər qəşəng binalar da vardı. Paqanın xarabalıqları elə indi də gözəldir. Paqanın əzəməti XI-XII əsrlər arasındakı dövrə təsadüf edir. Sonralar Birmada bir müddət qarışıqlıq və çaxnaşma baş verdi. Nəticədə Şimali və Cənubi Birma bir-birindən ayrıldı. XVI əsrdə cənubda böyük bir hökmdar Birmanı yenidən birləşdirdi. Onun paytaxtı cənubdakı Pequ şəhəri idi.

Ümidvaram ki, Birma və Siam barədə bu qısa və bir qədər gözlənilməz məlumat sənin fikrini dolaşdırmaz. Malayziyanın və İndoneziyanın tarixinə aid fəsli başa çatdırıram, istəyirdim icmalıma yeni məlumat əlavə edim. İndiyədək bu rayonlara göstərilən başlıca təsir – siyasi və mədəni təsir Hindistandan və Çindən gəlirdi. Mən sənə qabaqlar demişdim ki, Asiyanın cənub-şərqindəki Birma, Siam, Hind-Çin kimi qitə ölkələri Çinin daha böyük təsirini hiss edirdilər; Şərq adalarında və Malakka yarımadasında Hindistanın təsiri daha güclü idi.

İndi burada yeni təsir özünü göstərməyə başlayır. Bu təsir ərəblərdən gəlir. Birmaya və Siama ərəblər təsir göstərə bilməyiblər. Amma Malakka və Şərq adaları bu təsirə məruz qalır, nəticədə çox keçmir ki, burada müsəlman imperiyası yaranır.

Həmin adalara gələn ərəb tacirləri min ildən çox müddətdə orada məskən salıb qalırdılar. Lakin onlar ticarətlə məşğul olur, digər heç bir sahədə hökumət idarələrinin işinə qarışmırdılar. XIV əsrdə Ərəbistandan ərəb missionerləri gəlmişdilər, onların bəxti gətirmişdi, xüsusən yerli hakimlərdən bəzilərini döndərib müsəlman eləməkdə.

Bu arada siyasi dəyişikliklər baş verirdi. Öz ərazisini genişləndirən Macapahit Şrivicayyanı məğlubiyyətə uğratdı: Şrivicayya süqut edəndən

sonra qaçqınlardan çoxu Malakka yarımadasının cənubuna pənah gətirdilər; burada onlar Malakka şəhərinin əsasını qoydular. Şəhər və onun dövləti sürətlə böyüdüyündən 1400-cü ildə bura artıq iri şəhərdi. İtaət altına alınmış xalqların Macapahitdən olan yavalıları görən gözləri yox idi. Onlar da imperialistlər kimi zülmkar idilər. Buna görə də bir çoxları Macapahitin hakimiyyəti altında qalmaqdansa, yeni Malakka dövlətinə pənah gətirməyi üstün tuturdular. Həmin dövrdə Siam da çox təcavüzkar dövlət idi. Odur ki, Malakka çoxları üçün sığınacaq oldu. Orada həm buddistlər yaşayırdı, həm də müsəlmanlar.

Hökmdarları əvvəlcə buddist idilər, amma sonralar islamı qəbul etdilər.

Gənc Malakka dövlətini bir yandan Yava, o biri tərəfdən Siam hədələyirdi. Malakka dövləti şərq adalarındakı digər xırda müsəlman dövlətləri arasında özünə dost və müttəfiq tapmağa cəhd edirdi və müdafiə olunmaq üçün hətta Çinə də üz tutmuşdu. Belə bir fakt diqqəti cəlb edir ki, Malay aləminin bütün xırda müsəlman dövlətləri müdafiə olunmaq xahişilə Çinə eyni bir vaxtda müraciət edirlərmiş. Bu zaman Çin Min sülaləsinin hakimiyyəti altında idi; Min sülaləsi monqolları devirmişdi. Bu onu göstərir ki, bilavasitə qüdrətli düşmənlər tərəfindən təhlükə gözlənirdi.

Malay aləmi ölkələri barəsində Çin daim mehriban siyasət, amma öz mənliyini tam dərk edən dövlətin yeritdiyi birtərəfli siyasət yeridirdi. Çin Malay aləmi ölkələrini istila etməyə can atmırdı. Çin dərk edirdi ki, belə bir istila nəticəsində çox az qazanır; eyni zamanda o, həmin ölkələri öz mədəniyyətinə qatmağa hazırdı. Min sülaləsinin imperatoru, görünür, əvvəllər yeridilən siyasəti dəyişdirməyi və bu ölkələrə böyük maraq göstərməyi qət etmişdi. Yəqin ki, o, Yavanın və Siamın təcavüzünə mənfi münasibət bəsləyirdi. Odur ki, onlara mane olmaq və Çinin qüdrətini başqalarına hiss etdirmək niyyətilə admiral Çjen Xenin komandanlığı altında iri bir donanma göndəribmiş. Bu donanmanın bəzi gəmiləri dörd yüz fut uzunluğunda idi.

Çjen Xe dəfələrlə dəniz səfərinə çıxıb və az qala bütün adalarda – Filippin adalarında, Yavada, Sumatrada, Malakka yarımadasında olub. O, hətta Seylona da gəlib çıxıbmış. Seylonu fəth edərək hökmdarını özüylə Çinə aparıbmış. Çjen Xenin axırıncı ekspedisiyası İran körfəzinə gedib çatmışdı. Çjen Xenin XV əsrin ilk illərindəki dəniz səfərləri onun ayağı dəyən ölkələrin hamısına böyük təsir göstərirdi. Hinduist Macapahitin və buddist Siamın irəliləyişini dayandırmağa çalışan Çjen Xe İslam dinini şüurlu olaraq təşviq edirdi. Buna görə də Malakka dövləti onun böyük donanmasının himayəsi altında möhkəm bərqərar oldu. Çjen Xeni buna vadar edən səbəblər, əlbəttə, sırf siyasi səbəblərdi və bunun dinlə heç bir əlaqəsi yoxdu. Onun özü buddist idi.

Beləliklə, Macapahit əleyhinə müqavimətə başçılıq edən Malakka dövlətiydi. Onun qüvvəsi artdığından Yavanın müstəmləkələrini tədricən ələ keçirməyə başladı. 1478-ci ildə Macapahit özü də ələ keçirildi. İslam dini saray və şəhər dininə çevrildi. Amma Hindistanda olduğu kimi, kənd yenə də qədim məzhəbə, qədim əsatirlərə və adətlərə bağlı idi.

Malakka imperiyası da Şrivicayya və Macapahit kimi əzəmətli və uzunömürlü ola bilərdi, amma əlverişsiz şərait yaranmışdı. Portuqaliyalılar işə qarışdılar, aradan bir neçə il keçmədi ki, Malakka onların hakimiyyəti altına düşmüş oldu. Beləliklə, həmin imperiyalardan dördüncüsü öz yerini beşinci imperiyaya verdi ki, onun da ömrü uzun olmadı. Tarixdə ilk dəfə olaraq Avropa təcavüzkara çevrildi və bu Şərq sularında hökmranlığa nail oldu.

# MÜNDƏRİCAT


*Müqəddimə* . . . . 4

Dördüncü nəşrinə müqəddimə . . . . 6
Birinci nəşrə müqəddimə . . . . 7
Ad günü münasibətilə məktub . . . . 9
Yeni il hədiyyəsi . . . . 12
Tarixin ibrət dərsi . . . . 15
İnqilab zindebad . . . . 18
Asiya və Avropa . . . . 19
Qədim mədəniyyətlər və irsimiz . . . . 22
Ellinlər . . . . 25
Yunan şəhər dövlətləri . . . . 28
Qərbi Asiyadakı imperiyalar . . . . 30
Qədim ənənələrin ağır yükü . . . . 33
Qədim Hindistanın kənd-respublikaları . . . . 37
Çin bir minillik ərzində . . . . 40
Keçmişin sədası . . . . 43
Sərvətlər hara gedir . . . . 46
İsanın anadan olmasına qədərki VI əsr və din . . . . 50
İran və Yunanıstan . . . . 55
*Elladanın əzəməti* . . . . 60
Məşhur fateh, şöhrətpərəst gənc . . . . 64
Çandraqupta, Mauriya və "Arthaşastra" . . . . 67
Üç ay . . . . 71
Ərəbistan dənizi . . . . 74
Yuxu kimi görünən istirahət və səyahət . . . . 75
İnsanın yaşayış vasitələri uğrunda mübarizəsi . . . . 77
İcmal . . . . 80
Aşoka – allahların sevimlisidir . . . . 83
Aşokanın hakimiyyəti dövründə dünya . . . . 87
Tsin və xan sülalələri . . . . 90
Roma Karfagen əleyhinə . . . . 94
Roma respublikası imperiyaya çevrilir . . . . 98





Cənubi Hindistan Şimali Hindistanı kölgədə qoyur . . . . 102
Həmsərhəd Kuşanlar imperiyası . . . . 106
İsa və xristianlıq . . . . 109
Roma imperiyası . . . . 114
Roma imperiyası parçalanır və nəhayət xəyala çevrilir . . . . 119
Dünya dövləti ideyası . . . . 123
Parfiya və sasanilər . . . . 127
Cənubi Hindistan məskənlərin əsasını qoyur . . . . 129
Quptaların hakimiyyəti dövründə hinduizm imperializmi . . . . 133
Hunların Hindistana gəlişi . . . . 137
Xarici bazarlarda Hindistanın ağalığı . . . . 139
Ölkələrin, mədəniyyətlərin yüksəlişi və süqutu . . . . 141
Tan sülaləsinin hakimiyyəti dövründə Çinin çiçəklənməsi . . . . 146
Çason və Day Nippon . . . . 151
Harşavardhana və Syuan Tszan . . . . 157
Cənubi Hindistan dünyaya neçə-neçə padşah və döyüşçü, o cümlədən böyük bir şəxs bəxş edir . . . . 162
Hindistan orta əsrlərdə . . . . 168
Əzəmətli Anqkor və Şrivicayya . . . . 171
Roma yenidən zülmətə qərq olur . . . . 176
İslam dininin meydana gəlməsi . . . . 183
Ərəblər İspaniyadan tutmuş ta Monqolustanadək qalib gəlirlər . . . 188
Bağdad və Harun ər-Rəşid . . . . 193
Şimali Hindistan Harşa ilə Mahmud dövrü arasında . . . . 198
Avropa ölkələrinin təşəkkülü . . . . 203
Feodal sistemi . . . . 209
Çin, köçəriləri qərbə yönəldir . . . . 214
Yaponiyada syöqunlar hakimiyyəti . . . . 218
İnsan axtarır . . . . 221
Eramızın birinci minilliyinin sonu . . . . 224
Asiya və Avropaya bir də nəzər salaq . . . . 230
Amerikada mayya mədəniyyəti . . . . 235
Mohenco-Daroya tərəf geriyə sıçrayış . . . . 239
Kordova və Qranada . . . . 241
Səlib yürüşləri . . . . 247
Avropa səlib yürüşləri dövründə . . . . 252

Avropa şəhərlərinin meydana gəlməsi .....................259
Əfqanlar Hindistana soxulurlar ...........................265
Dehlidəki padşah-qullar ..................................272
Çingiz xan Asiyanı və Avropanı lərzəyə salır ..............276
Monqollar dünyaya ağalıq edirlər .........................282
Marko Polo böyük səyyahdır ...............................287
Katolik kilsəsi daha da azğınlaşır .......................292
Avtoritarlığa qarşı mübarizə .............................297
Orta əsrlərin sonu .......................................300
Dəniz yollarının kəşfi ...................................306
Monqol imperiyalarının dağılması .........................312
Hindistan çətin problemin həllinə başlayır ...............318
Cənubi Hindistanın padşahlıqları .........................325
Vicayanaqar ..............................................330
Malay aləminin imperiyaları – Macapahit və Malakka ........333



Buraxılışa məsul: *Əziz Güləliyev*

Nəşriyyat redaktoru: *Əlişirin Şükürlü*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Aslan Almasov*

Korrektorlar: *Elnaz Xəlilqızı*
*Elsevər Muradov*

Yığılmağa verilmişdir 17.04.2006. Çapa imzalanmışdır 19.05.2006.
Formatı 60x90 $^1/_{16}$. Fiziki çap vərəqi 21,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 40.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küçəsi, 17.